Ümumiyyətlə, istər Tınyanovun, istərsə də Kuleşovla Pudovkinin təhlil etdikləri konstruksiyada xüsusi diqqət yetirilən məsələlərdən biri nitqin kiçik vahidlərinin özündən sonra gələn daha böyük, daha tutumlu fiqurların kontekstində qovuşması ilə bağlı idi.

Doğrudur, anoloji bağlılıq münasibətləri digər mətnlərdə - deyək ki, nəsrdə, dramaturgiyada da müşahidə edilir. Lakin elementlər arasındakı əlaqələrin sıxlığı, davamlığı baxımından ekran mətninə ən yaxın olan, heç şübhəsiz ki, poeziya mətnidir.

Aşağıdakı müqayisəyə diqqət yetirək:

Çıxacaq yollara çiçəkli qızlar,
Nə baxmağa güc var, nə göz yummağa.

Nə çiçək verməyə bir kimsəmiz var,
Nə bir kimsəmiz var çiçək ummağa. [2, 25]

Bu dörd misranın şeirin kontekstindən təcrid edilib heç bir izaha ehtiyac olunmadan sitat kimi verilməsi əslində şeirə sayğısız münasibət kimi qiymətləndirilə bilər. Çünki belə olduqda, bu dörd misrada çatdırılan bədii informasiya – dörd misra ölçüsündə formalaşan obrazlar duyulur, lakin yarımçıq təsir bağışlayır.

Vaqif Behbudovun çəkdiyi "Qurbanəli bəy" filmində maraqlı bir epizod var. Filmin sonunda Qurbanəli bəy axurda ifşa olunandan sonra rejissor məkanı onun evinə keçirir və kameranın "diqqətini" belə bir təsvirə yönəldir: divardan asılmış tipik bəy portreti, onun altında isə çarpaz asılmış qılınc və tüfəng. Biz, necə deyərlər, boş məkanda – neytral fonda olsa-olsa bu əşyaların birbaşa funksiyaları, yaxud, deyək ki, dizaynı barədə müəyyən qənaətlərə gələ bilərik, yadımıza düşər ki, qılınc – soyuq, tüfəng isə – odlu silahdır, filan materialdan hazırlanıb və s.

Kino sənətində montaj – müxtəlif elementlərin, vahidlərin müəyyən məqsəd naminə qarşılaşdırılması, toqquşdurulması və birləşdirilməsi üsuludur. Montaj nəzəriyyəsinin ən görkəmli nümayəndələrindən olan S.Eyzenşteynin təsnifatına görə, kino sənətində montajın metrik montaj, ritmik montaj, paralel montaj, çarpaz montaj, intellektual montaj, tonal montaj, oberton montaj, habelə üfüqi montaj və şaquli montaj kimi əsas növləri var.

Mərhum tənqidçi A.M.Məmmədovun "Zamanla səsləşən şeirlər sorağında" məqaləsindən aşağıdakı parçaya diqqət yetirək:

"Şeiri qafiyələndirməyi, təkrirləməyi öyrənmək olar, lakin bir-birindən ayrılıqda yaşayan sözlərin qeyri-adi qonşuluğu, birləşməsi ilə son dərəcə təsirli psixoloji effekt yaratmağı kimdənsə öyrənmək mümkün deyil. Mənaca heç bir yaxınlığı olmayan söz və ifadənin qarşılaşdırılmasındakı yenilik və gözlənilməzlik şeirin əsas təsir vasitəsidir və xalq şeirimizin nümunələri buna gözəl misaldır"[3, 75].

L.Kuleşov fikrin montaj üsulu ifadəsi dedikdə bir-biri ilə səbəb-nəticə əlaqələrinin zənciri ilə bağlı olan hadisə və proseslərin montajlı ifadəsini nəzərdə tuturdu. Onun fikrincə, montajda kadrların metrik ölçüsü əsas faktordur və bu ölçülər proporsional şəkildə nə qədər qısa olsa, bir o qədər yaxşıdır.

L.Kuleşovun irəli sürdüyü bu prinsip şeirdə heca vəzninin ölçü qəlibləri ilə yaxından səsləşir: *"Metrik montaj məsələsində hər şey aydındır. Ritmik, paralel, intellektual, assosiativ, şaquli montaj növlərində şeirdən gələn cəhətlərə diqqəti artırmaq lazımdır"* [4, 326].

Məsələn, 20-ci illər Fransa kinoşünaslığında kinematoqrafik kompozisiyanın musiqi kompozisiyasına uyğunluğu barədə fikirlər bir müddət dəbdə olmuşdur. Həmin dövrdə kino tənqidi ilə fəal məşğul olan E.Veyermoz yazırdı ki, film simfoniya kimi yazılır və orkestrləşdirilir. A.Obeyin fikrincə isə: *"Rejissor*

partituranı plastikaya çevirən baletmeyster kimi musiqi obrazlarını görümlü etməlidir" [5, 126].

A.Hans məşhur "Təkər" filmini çəkdikdən sonra bu problem daha geniş vüsət aldı. Hans filmdə planların uzunluğunu musiqi əsərlərində ritmin tədricən yüksəlməsi prinsipi ilə saf-çürük etmiş və planların uzunluğunu qısaltmaqla hərəkətin gərginliyi effektini almışdı. Yeri gəlmişkən qeyd edək ki, bu effekt S.Mərdanovun çəkdiyi "Kəndlilər" filminin toy səhnəsində də tətbiq olunmuşdur. Toy mərasimində çalınan oyun havasının tədricən gurlaşan nağara səsində ifadə olunmuş ritmi növbəti səhnənin də dinamikasını şərtləndirmişdir.

Ritmik montaj mürəkkəb xarakterli hadisələrin təsvirində tətbiq olunur. Mel Qibsonun çəkdiyi "Cəsur ürək" filmində Uilyamsın qətlə yetirildiyi səhnənin final epizodları ritmik montaj prinsipləri ilə çəkilmişdir. Cəlladın baltanı qaldırıb Uilyamsın boynuna endirməsinin müddəti fiziki ölçüdə bir-iki saniyədir. Lakin filmdə bu bir-iki saniyənin keyfiyyət müddəti dəqiq və ifadəli montaj üsulu ilə xeyli uzadılmışdır.

İ.A.Aksyonov S.Eyzenşteynə həsr etdiyi "Sənətkarın portreti" kitabında yazır: *"Metrik baxımdan eyni, lakin virtual ölçü baxımında müxtəlif uzunluqda olan hissələrin qarşılaşdırılması mətndə, yaxud musiqidə metrik sxem üzərinə ritmik variasiyaların qoyolması zamanı müşahidə edilən effekti verir"* [6, 69].

İstər-istəməz belə bir sual doğur: ekran sənəti üçün nəsr daha mütəhərrik baza sayıldığı halda nə üçün bu mülahizədə nəsr xatırlanmır?

V.Vinoqradovun fikrincə: *"...nəsr ritminin əsasında şeir ritmindən fərqli tamam ayrı konstruktiv əlamətlər dayanır"* [7, 135]. Alim mövqeyini əsaslandırmaq üçün Vyaçeslav İvanovun belə bir mülahizəsinə istinad edir: *"Şeirin ritmi aydın konstantlara və bu konstantları müşayiət edən fasilələrə, nəsrin ritmi isə daha böyük ölçü və proporsiyalarda yazılır və konstant sahəsində böyük mürəkkəblik doğurur"* [7, 136].

Şeirdə ritm dəqiq vəzn, ölçü və fasilə sisteminin əlaməti kimi təzahür edir. Fikrimizi "XXI əsrin şeir texnikası ilə yazılmış" "Çapayev" şeirinin mətni üzərində konkretləşdirək.

"Çapayev" şeiri özünəməxsus bölgü, ritm, ahəng, qafiyə quruluşuna malikdir. Şeirin dilində "ç" səsi üzərində qurulmuş daxili ahəng, təhkiyənin təsvir olunan situasiyanın xarakteri ilə şərtlənən, ondan doğan və onu tamamlayan ritmi dəyərli poetik keyfiyyətlərdir:

Çağıl daşlı çayları Çapayev çapa-çapa,
Keçir, biçir çöllərdə çap generallarını.
Qoşulur bu hücumda ona bütün el, oba.
O görür çapa-çapa bəşərin baharını. [8, 102]

Misralardakı məzmun çalarları, təsvir olunan prosesin gərginliyi, dramatizmi qəhrəmanın daxili dünyasının emosional məzmunu ilə şərtlənib.

Oxucu bunun fərqinə varmır. Çapayevin hərəkət aktının ritmi bu təhkiyədə aparıcı qüvvədir. Hər şey – şeirin metrik quruluşu, misralar, sözlər arasındakı əlaqələr də ona tabedir:

Çapay keçir hücuma,
Yel kimi Cuma-Cuma.
Çap çaylardan, Çapayım,
Doğsun günəşim, ayım. [8, 103]

Təsadüfi deyildir ki, böyük söz ustaları şeirin yaranma prosesindən danışanda bunu, adətən, sözlərin bir-birilə mübarizəsi kimi səciyyələndirir, bu mübarizənin bəzən mübarizədən qaçan, yayınan sözlərin öz yerini tapmasına qədər davam etməsini bildirirlər. Xalq şairi Rəsul Rza bu prosesin poetik ifadəsini böyük ustalıqla vermişdir:

...Söz çıxıb ceyran dağına,
həsrət qalıb
bir müqəyyəd
qafiyənin vüsalına.
Hər dəqiqəm dönüb ilə
Nəğməli bülbül olmuşam,
həyəcanımın alovunda
ərimişəm gilə-gilə. [9, 123]

Bu misralarda sözlər və onların mənaları arasındakı konflikt artıq poetik fiqur səviyyəsindədir.

Ürəyim həmişə əyində gəzən
Nimdaş paltar kimi üzülüb tamam.
Bu gecə ulduzlu göylərdən kəsib,
Sökülən qəlbimi yamayacağam [2, 33].

Ürək – pencək, göy (səma) – qəlb qarşılaşdırılmasının doğurduğu effekt göz qabağındadır.

Yelkənə külək,
qadına sevmək lazımdır
həmişə.
Allaha inanmaq
və yoxluğunu bilmək gərəkdir.
İnqilaba
inqilab gərəkdir, gülüm,
azadlıq yox. [10, 222]

Bu nümunədə isə zahirən hər şey sanki əksinədir: qarşılaşdırılan sözlər bir-birinə mümkün qədər yaxın sözlərdir (yelkən – külək, qadın – sevgi), hətta semantik mənaca bir-birinin eyni olan sözlər, daha doğrusu, bir söz öz-özü ilə qarşılaşdırılır (inqilab – inqilab).

Çiçəklər doğulur bu yaz gecəsi
Çiçəklər açılır güllə səsinə.
Ağ-ağ köynəklərin yaxalığında,
Sağ-sağ ürəklərin yaxalığında
güllələr açılır, güllər açılır. [2, 31]

Bu mətn parçasında romantik təbiət hadisəsi ilə dəhşətli, dramatik situasiyanın – ölüm hadisəsinin qarşılaşdırılması, ölüm atəşlərinin ağ köynəklərin, sağ ürəklərin yaxasında qoyduğu izlərin yaz gecəsi çiçəklərin açılması ilə paralelləşdirilməsi adına atraksionların montajı deyilən üslubi formaya parlaq misaldır.

Əgər bir prosesin ayrı-ayrı fazalarını həmin prosesin ümumi məna kontesktinin bir-birinə yaxın elementləri kimi götürsək, filmdə çarpaz montaj üsulunun şeirdə çarpaz qafiyə quruluşu ilə eyni quruluş prinsipinə malik olduğunun şahidinə çevrilirik. Məsələn, "Yeddi oğul istərəm" filmində komsomolçuların Gəray bəyi təqib etdikləri səhnə çarpaz montaj quruluşuna malikdir.

Y.Tınyanov hələ 1927-ci ildə qısa kadrın montajı sırasındakı rolunu müəyyən etmək üçün həmin illərdə çəkilmiş filmlərin ritmik təşkili ilə gənc Mayakovskinin şeirləri arasında analogiya apararaq yazırdı: *"Mayakovskinin ilk şeirlərində bir sözdən ibarət olan misra nisbətən uzun misradan sonra gəlirdi, uzun misraya düşən enerjinin bərabər kəmiyyəti sonra qısa misraya düşürdü, ona görə də enerji sıçrayışlarla bölüşdürülürdü".*

Nəticə: Bütün bu deyilənləri ümumiləşdirib belə bir nəticəyə gəlmək olar ki, ekran sənəti ilə mətnin qarşılıqlı əlaqələrinin aspektlərindən biri kimi kinossenarilərlə kino əsərlərinin mətnləri arasında quruluş oxşarlığı danılmazdır. Bu oxşarlıq kinossenarilərin həm də semantik planda yaxnlığını şərtləndirən əsas amillərdən biri kimi çıxış edir. Əlaqələrin əhatə dairəsi semantika planında daha da genişlənir.

Ədəbiyyat

1. Пудовкин В.И. Режиссёры советского художественного кино. Москва. Киноискусство. 1978. стр. 92.
2. Ramiz Rövşən. "Göy üzü daş saxlamaz". Bakı. "Yazıçı". 1987. səh. 25, 31, 33.
3. Məmmədov A.M. Sözümüz eşidilənədək. Bakı. "Yazıçı". 1988. səh. 75.
4. Кулешов Л. Очерк истории кино СССР. Москва. Киноискусство. 1972. стр. 88.
5. Abай А. Кино и театр. Москва. Искусства. 1983. стр. 126.
6. Аксенов А.А. Портрет художника. Москва. «Киноцентр». 1991. стр. 69.
7. Виноградов В. Стилистика. Теория поэтической речи. Поэтика. Москва. Издательство Академии Наук СССР. 1963. стр. 135, 136.
8. Süleyman Rüstəm. Seçilmiş əsərləri. I cild. Bakı. "Azərnəşr". 1969. səh. 102, 103.
9. Rəsul Rza. Seçilmiş əsərləri. I cild. Bakı. Azərnəşr. 1989. səh. 123.
10. Səmədoğlu V. Mən burdayam, ilahi. Bakı. "Gənclik". 1996. səh. 222.
11. Тынянов Ю.Н. Поручик Киже. Искусство. Москва. 1970. стр. 60.

Fizuli Nəcməddin oğlu Mustafayev

Xülasə

Kino dili və mətnin sintaktik quruluşu

Məqalə kino dilinin mühüm bir probleminə həsr edilib. Burada vizual nitqin semantik səviyyəsi, dilin metaforik ünsürləri ilə bağlı maraqlı məqamlar var. Belə ki, məqalədə əşyaların öz adi mənalarından əlavə digər mənalar qazanması faktı artıq şeir və kinonun yaxınlığından semantik planda danışmağa da əsas verir.

Qeyd edilir ki, istər şeir, istərsə də ekran mətnlərində üfüqi istiqamətdə aparılan müxtəlif müqayisələr həmişə eyni nəticələr verir. Bir-birinə üfüqi xətt üzrə bağlanmış sözlər ibarələrə çevrilir; ibarələrin birləşməsi kino dilində cümlə əmələ gətirir; cümlələr isə konkret fikrə çevrilir.

Beləliklə, fonoqrafik mətn boyu xüsusi hadisə: sözlərin, ifadələrin kombinasiya olunub yeni keyfiyyətə – müəyyən mühakimənin ifadəsinə çevrilməsi baş verir. Başqa sözlə, kinossenaridə sözlərin, ifadələrin, cümlələrin ən azı leksik məna üzrə montajı baş verir. Bütün bu və digər mənalar məqalədə xüsusi yer alır.

Физули Наджмеддин оглу Мустафаев

Резюме

Язык кино и синтаксическая структура текста

Статья посвящена важной проблеме киноязыка. Есть интересные моменты о смысловом уровне изобразительной речи, метафорических элементах языка. Итак, тот факт, что вещи в статье приобретают иные значения помимо своих обычных значений, уже дает основание говорить о близости поэзии и кинематографа в смысловом плане.

Отмечено, что различные сопоставления, сделанные в горизонтальном направлении, как в стихотворных, так и в экранных текстах, всегда дают одни и те же результаты. Слова, соединенные друг с другом горизонтальной линией, становятся словосочетаниями; сочетание словосочетаний образует предложение на языке кино; предложения становятся конкретными идеями.

Таким образом, во всем фонографическом тексте происходит особое событие: слова, словосочетания объединяются и трансформируются в новое качество — выражение определенного суждения. Другими словами, в сценарии фильма происходит сборка слов, выражений и предложений, по крайней мере, по лексическому значению. Все эти и другие значения представлены в статье.

Fizuli Nedjmeddin oglu Mustafayev

Summary

Cinematic language and syntactic structure of the text

The article is devoted to an important problem of film language. There are interesting points about the semantic level of pictorial speech, the metaphorical elements of the language. So, the fact that things in the article take on other meanings than their usual meanings already gives grounds to talk about the closeness of poetry and cinema in terms of meaning.

It is noted that various comparisons made in the horizontal direction, both in poetic and screen texts, always give the same results. Words connected to each other by a horizontal line become phrases; the combination of phrases forms a sentence in the language of cinema; suggestions become concrete ideas.

Thus, a special event takes place in the entire phonographic text: words, phrases are combined and transformed into a new quality - the expression of a certain judgment. In other words, in the script of the film there is an assembly of words, expressions and sentences, at least in terms of lexical meaning. All these and other values are presented in the article.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi: professor İsmayıl Məmmədli
tərəfindən çapa tövsiyə olunmuşdur

MAMMADOVA SVETLANA NASIB
Azerbaijan State Pedagogical University
Docent of the Foreign Languages Center
Ph.D. in Philology
Azərbaycan Dövlət Pedoqoji Universitetinin
Xarici Dillər Mərkəzinin dosenti,filologiya üzrə fəlsəfə doktoru

CHARACTERISTIC FEATURES OF ENGLISH PHRASEOLOGICAL UNITS

SUMMARY

Phraseology is one of the independent fields of linguistics and studies the set of all stable word combinations in the language, the system of phraseological units. In recent years, specific problems of English and Azerbaijani languages have been studied with the help of the comparative method.

Phraseological units characterized by the national-cultural uniqueness of languages can also be considered important subjects for comparative-typological studies. It should be noted that the observations made on the quantitative and qualitative changes of FBs of languages with different systems reveal this process at a legal level for each language. created certain conditions. In these conditions, the historical evolution of those associations, development paths were followed, their boundaries were changed, the metaphorization process, the dynamics of the syntactic relationship between the parties and etc. researched and taught. Phraseology consists of the Greek words phirozis - expression + logos - teaching words, and is a science that studies and studies all phraseological units in the language - stable word combinations, idioms, phrases, proverbs, wise words, all kinds of ready-made expressions in the language. Phraseology is divided into two parts: general and special.

Key words: Phareseology,level, method, idioms, metophorization process, expression, problems, word combinations, quantitative, qualitative

When studying the phraseological system of the English language, as in all other languages, the features specific to this system are first considered. In English, as in other languages, a phraseological unit, as a rule, is far from the meaning expressed by its constituent components separately, and represents the meaning of the compound itself, which is independent of the components. For example: "banquet of brine" and "bitter tears" are translated separately as "brine - salty water" and "banquet" as "banquet".

Different linguists have characterized the phraseological units in English and other languages in different ways according to their specific characteristics. When

Charles Bally talks about the characteristics of the external aspect of phraseological units, he shows that there are 3 signs in them:

1. Writing words separately

2. That they are in a certain fixed order and that words cannot be inserted between the components.

3. That none of the components can be replaced by another word. For example:

To fly into range, to be at a loss, it is out of the question, to keep the bed, to take to heart, to go to sea, to be at sea, etc. in such expressions Sh. Balli's requirements are fully met. In such phraseological expressions, none of the components can be replaced, or it is impossible to change or drop one of the components. For example:

To be at sea = to be at a loss

In the Azerbaijani language, it means "to lose one's head, to be clueless, to be completely ignorant". When the phrase "to be at sea" is changed to "to go to sea", a completely different meaning is obtained and it is translated into Azerbaijani as "to be a sailor".

The main features of phraseological units, the issue of stability, the essence of idiomaticity, and the difference of phraseological units from traditional combinations repeated in the language were more fully reflected in the researches of N. N. Amasova. Based on the material of the English language, he extensively covered the issue of "phraseology and context", which serves to define the specific characteristics of English phraseological units, and to specify the main criteria for their classification. According to Amosova, a phraseological unit is a complete and definitive combination at the current stage of the history of the development of the language, which is already processed in speech.

When talking about the characteristic features of fixed word combinations, it is necessary to look at their difference from free word combinations. The main similarity of both types of combinations is that both of them are formed by the combination of two or more main and auxiliary words. Both compounds can be used in one or another member position in a sentence, both compounds can be used as the equivalent of a word. For example: to give away = to betray

To drive at – to hint

To cut in – to kill

To make a hit - to succeed

As sielent as Hu grave – calm, etc.

In addition to these similarities, fixed phrases are fundamentally different from free phrases: fixed phrases are ready-made combinations in the language, in speech they are used ready-made, that is, as words. However, free word combinations are adjusted in the conversation process based on certain needs.

In fixed word combinations, the words are not independent in meaning, the whole combination expresses a single meaning. But in free word combinations, each

word retains its independent meaning. Free word combinations are syntactic combinations, in which the syntactic relationship is evident. Therefore, free word combinations are the research object of syntax. Also, free word combinations are unstable in their structure, unlike fixed combinations. Thus, each component of free word combinations can be combined without affecting the meaning of the other. For example: To cut bread – to eat bread

To cut cheese - to eat cheese

In this free combination with the word "to cut", it is possible to change the place of the components or to replace them with another. At the same time, without changing the meaning of the word "cut", the meaning of "cutting something" is understood from all free combinations.

However, "to cut up well" - there are many after death - the state, leaving a legacy, "to cut at" to deal a heavy blow, "to cut no ice" - to have no effect, etc. The verb "to cut" not only does not have its original meaning in fixed phrases like Also, it is impossible to change any of the components without making mistakes.

In fixed word combinations, the order of words is also precise and fixed, so it is not possible to drop one of the components of a fixed word combination, replace it with another word, or insert a new word between the components. For example:

"to keep house" means to provide for the house and support the family.

All fixed word combinations are in turn formed from free word combinations. So, according to the internal grammatical laws of the language, a certain free combination gradually became stable and became a fixed combination expressing a single, indivisible meaning. A certain number of phraseological combinations do not remain "frozen" due to their structure, but can take different forms due to stylistic purposes. When working with phraseological units, either changing them or using them without any changes, both forms are productive, they are widely used in the language.

Phraseological combinations in English, as in other languages, have some features of idiomatic expressions - rhythmicity, alliteration, antonym, synonym, monosemy and ambiguity, etc. It reflects its characteristics. In general, phraseological units can be stylistically neutral, weak, strong, antonyms, synonyms, like other lexical units - words. For example: "safe and sound" are synonyms with the same meaning as "secure and injured". But: the phrase "safe and sound" is more used in the language because it is stylistically more stable and strong. Or "to do one's best", although "to do one's utmost" and "to do with might and main" are synonymous expressions, in terms of strength, the expression "to do one's best" is a dominant expression and is widely used in colloquial language. is being Phraseological combinations also have features of rhythmic harmony. For example:

One by one then and there

One and ten rack and ruin

More and more part and parcel

By hook or by crook fair and square, etc.

Some phrases are combined with rhythmic qualities. Or expressions such as "out and about", "high and dry" combined with rhythmic qualities express different meanings in different situations and have the characteristics of "ambiguity". Originally used as "a ship stranded on land", this expression is currently used in various contexts to mean "lonely", "helpless", "lonely" or "out of fashion", "abandoned".

Phraseological combinations also have two-component and multi-component properties, in this regard, A. Smirnitsky's research is noteworthy. He pays special attention to defining the structural types of phraseological units, the differences between their components, the types of phraseological units used in different functions. The author defines stable compounds of this kind structurally as 1) "one-peaked" - that is, those formed by the combination of one fully meaningful word and one auxiliary word. For example:

To look into – check carefully

To look forward - Waiting with impatience.

To look after

To keep on

To keep after – To remind to control

To goof of – To kill time.

To see off, etc.

2) "Two-peaked" - that is, those formed by the combination of two complete words and an auxiliary word: for example:

To land on feet - Enduring, not losing oneself in difficult circumstances

A snake in Hu grass

Not the clean potato

Birds of a feather

To be in good feather

3) "Multi-peaked" - that is, those formed by combining more than two full-meaning words with one auxiliary word: for example:

To land on feet - Enduring, not losing oneself in difficult circumstances

A snake in Hu grass

Not the clean potato

Birds of a feather

To be in good feather

3) "Multi-peaked" - that is, those formed by combining more than two full-meaning words with one auxiliary word: for example:

To get under smb's skin - To make someone very angry, to get under fire

To take leave of one's senses

To keep one's breath to cool one's porridge

To be dashed to Hu ground, etc.

A. Smirnitsky examines English phraseological units from a stylistic point of view and explains their neutrality and metaphorical features.

In terms of neutrality, he divides English phraseological units into two groups:

1. Those who are stylistically neutral and lose their figurativeness;

For example: to get up

To fall in love

To give smb a big hand – applaud

To be had - to be deceived

To hold up – delay, be late, etc.

2. Special idioms; for example:

To take chair

To turn the corner - to heal, to tear the shroud

To be on edge - to be nervous

Apart from these, the author uses spyhole, black gaek, blackmail, etc. explains idioms as a special group.

One of the characteristic features of English phraseological units is their antonymy feature. Antonym phraseological units are reminiscent of anonymous lexical units by their characteristics. There are some antonym phraseological units whose components have opposite meanings. That is, the inner components of the combination are antonyms:

For example:

Now or never - Now or never.

To be or not to be - Olum or death

To kill or cure – Or kill or pardon, etc.

Those that are antonyms according to the whole meaning they express; for example:

Nose in the air – mild as milk

To loose one's head – to keep one's head

To loose time – to save time

To loose one's temper – keep one's temper or keep one's shirt on

To have a hit – to go to the dogs

To laugh like a hyena – to cry one's heat out

Such expressions are chosen as those that are antonyms in the sense expressed as a whole, or those that are anti-antonyms of the whole meaning by having the main word antonym from its components.

But to keep temper - to be at a loos are antonyms in meaning. V. Vinogradov notes that the lexical indivisibility of phraseological units can be of different degrees. This is expressed more clearly in phraseological combinations. The meaning of phraseological units can be based on the meaning of their word-parts, but this reasoning no longer plays any role in speech, because such combinations have a meaning understood independently of the parts (16, p. 163).

There are a number of stable combinations on the border between phraseological and ordinary combinations. These are compounds whose meaning derives from the meaning of the constituent components, but in some of them narrowing of meaning is observed. For example, as a result of the narrowing of the meaning, the name of an object (subject) expresses a number of objects: "pochtovoy yashik - mailbox, otkritoe pismo - open letter, siniy kamen - blue stone" etc. "a letter that can be read by everyone, a blue stone" and at the same time, each of these manifestations indicates a type of those objects. The lexicalization of such word combinations shows itself extremely strongly. Nevertheless, the semantics of that word combination can always be determined by means of the meaning of the word parts. The change of meaning consists only in indicating the type. Various speech formulas of politeness (vse-go khoroshego - stay safe, spokoynoy nochi - good night, do svidanga - thank you, schastlivogo puti - good way, budgte zdorovi - be healthy, jiv i zdorov - good-bye) is characterized by structurally-semantically separable words, but they are used as polite formulas in speech. At the same time, combinations that express different types of commands and gestures (shagom march - march with steps, krugom march - turn back, razgom ravney - straighten up, na plecho - shoulder, ruki verx - hands up). is also used in certain situations. The indicated combinations are structurally-semantically ordinary word combinations. These word combinations, conditioned by the narrowing of the meaning and slightly different from ordinary word combinations, are the first stage of phraseology.

Reference list

1. "Proverbs, sentences and proverbial phrases from English writings before 1500" by Bartlett Jere Writing with the collaboration of Helen Wescott Writing. Cambridge, Massachusetts, 1968

2. "1340 English proverbs and sayings with Russian equivalents". "Ibis". Moscow 1992.

3. "Selected proverbs and sayings of the Russian people". State publishing house of artistic literature, Moscow 1957.

4. Abasguliyev T.. "English proverbs and their Azerbaijani and Russian equivalents". Science publishing house. Baku, 1981.

5. Abbasguliyev T.A. "On the lexical composition of words of Arabic origin in the English language". Methodology and linguistics. Pg. 8-21. Baku-1984.

МАМЕДОВА СВЕТЛАНА НАСИБ
Азербайджанский Государственный Педагогический Университет
доцент Центра иностранных языков
кандидат филологических наук

ХАРАКТЕРНЫЕ ЧЕРТЫ АНГЛИЙСКИХ ФРАЗЕОЛОГИЗМОВ

Фразеология является одной из самостоятельных областей языкознания и изучает совокупность всех устойчивых словосочетаний в языке, систему фразеологизмов.

В последние годы с помощью сравнительного метода изучаются специфические проблемы авторства английского и азербайджанского языков.

Фразеологические единицы, характеризующиеся национально-культурным своеобразием языков, также могут считаться важными объектами сравнительно-типологических исследований. Следует отметить, что наблюдения за количественными и качественными изменениями ФБ языков с разными системами раскрывают этот процесс на юридическом уровне для каждого языка. создали определенные условия. В этих условиях прослеживалась историческая эволюция этих ассоциаций, пути развития, изменялись их границы, исследовался и преподавался процесс метафоризации, динамика синтаксических отношений между сторонами и т.д. Фразеология состоит из греческих слов phirozis — выражение + logos — обучающие слова, и представляет собой науку, изучающую и изучающую все фразеологические единицы в языке — устойчивые словосочетания, идиомы, словосочетания, пословицы, мудрые слова, всевозможные готовые выражения на языке. Фразеология делится на две части: общую и особенную.

Ключевые слова: Фаресеологика, уровень, метод, фразеологизмы, процесс метафоризации, выражение, проблемы, словосочетания, количественный, качественный

MƏMMƏDOVA SVETLANA NƏSIB QIZI
Azərbaycan Dövlət Pedoqoji Universitetinin
Xarici Dillər Mərkəzinin dosenti
filologiya üzrə fəlsəfə doktoru

İNGİLİS FRAZEOLOJİ VAHİDLƏRİNİN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Frazeologiya dilçiliyin müstəqil sahələrindən biridir və dildəki bütün sabit söz birləşmələrinin məcmusunu, frazeoloji vahidlər sistemini öyrənir.Son illərdə ingilis və Azərbaycan dillərinin spesifik müəlliflik problemləri müqayisəli metodun köməyi ilə öyrənilir.Dillərin milli-mədəni özünəməxsusluğu ilə

səciyyələnən frazeoloji vahidlər də müqayisəli-tipoloji tədqiqatın mühüm subyekti sayıla bilər. Qeyd edək ki, müxtəlif sistemli dillərin FB-lərinin kəmiyyət və keyfiyyət dəyişiklikləri ilə bağlı aparılan müşahidələr bu prosesi hər bir dil üçün hüquqi müstəvidə ortaya qoyur. müəyyən şərait yaratmışdır. Bu şəraitdə həmin assosiasiyaların tarixi təkamülü, inkişaf yolları izlənilmiş, sərhədləri dəyişdirilmiş, metaforalaşma prosesi, tərəflər arasında sintaktik əlaqənin dinamikası və s. tədqiq edilmiş və öyrədilmişdir. Frazeologiya yunanca phirozis - ifadə + logos - sözləri öyrədən sözlərdən ibarətdir və dildəki bütün frazeoloji vahidləri - sabit söz birləşmələrini, deyimləri, ifadələri, atalar sözlərini, hikmətli sözləri, hər cür hazır ifadələri öyrənən və öyrənən elmdir. dildə. Frazeologiya iki hissəyə bölünür: ümumi və xüsusi.

Açar sözlər: Frazeologiya,səviyyə,metod,deyimlər,metoforizasiya prosesi,ifadə,problemlər,söz birləşmələri,kəmiyyət,keyfiyyət

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli tərəfindən çapa tövsiyə olunmuşdur

GÜNAY HÜMBƏT QIZI BABAYEVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
BSU

DİLÇİLİKDƏ KOQNİTİV PARADİQMA VƏ DİSKURS YANAŞMALARI

XÜLASƏ

Məqalədə dilçilikdə koqnitiv paradiqma və diskurs yanaşmalarının əlaqəsi məsələsi araşdırılır və bununla bağlı bir çox müasir yanaşmalar nəzərdən keçirilir. Fənlərarası koqnitiv elmin sahələrindən biri olan koqnitiv dilçilik insan şüurunun fəaliyyətinə dil prizmasından baxır. O, insanın nitqi ilə düşüncə fəaliyyətləri və dil arasındakı əlaqəyə diqqət yetirməklə şüur, idrak və psixikanın mühüm əlaqələrini araşdırır.

Müasir dövrdə koqnitiv paradiqmanın formalaşması ilə əlaqədar mədəniyyətlərarası ünsiyyətin təhlilinin metodoloji imkanlarını xeyli genişləndirən linqvistik-koqnitiv diskurs təhlili yanaşması inkişaf etmişdir.

İdrakın fəlsəfi transformasiyası və şifahi qarşılıqlı əlaqənin sistem-fəaliyyət anlayışından irəli gələn bu yanaşmanın metodoloji əsasını postmodernizm və sosial konstruktivizm, kontekstini isə, diskurs və onun komponentləri təşkil edir.

Açar sözlər: diskurs, dilçilik, paradiqma, koqnitiv, semiotika, dil, gender

XX əsrin ikinci yarısından etibarən dil təkcə öz strukturunda deyil, həm də koqnitiv yanaşmalar çərçivəsində araşdırılmağa başlayır. Dil, təfəkkür və insan bir-biri ilə sıx əlaqəli anlayışlardır. İnsanın psixi prosesləri və intellektual fəaliyyəti, dünya haqqında bilikləri, düşüncə və şüurun strukturu birbaşa dil ilə bağlı olduğuna görə, idrak elmləri dilçiliklə kəsişir. Dil, təfəkkür və insan fenomenlərinin sinergetik əlaqəsi, insan həyatının bütün sahələrinin qloballaşması və informasiyalaşdırılması, humanitar elmlərin müasir vəziyyəti, qeyri-xətti elmi paradiqmanın inkişafı fənlərarası münasibətlərin inkişafını zəruri edir.

XX əsrin son iki onilliyində koqnitiv dilçilik psixologiya, fəlsəfə, məntiq və riyaziyyat kimi fənlərarası koqnitiv elmlərin kəsişməsində meydana çıxır. XX əsrin 70-80-ci illərində koqnitiv dilçilik Qərbdə Peter Harder, Günter Radden, Rene Dirven, Briqida Rudzka-Ostin, Q.Lakoff, Ronald V.Lanqaker, L.Talmi, Con Teylor, M. Johnson, M. Turner, R. Gibbs, G. Fauconnier, E. Sweetser, B. Croft, S. Kemmer, S. Rice, Kris Sinha, Arie Verhagen kimi, Rusiyada V. A. Maslova, E. S. Kubryakova, Z. D. Popova, V. Z. Demyankov, İ. A.Sternin kimi tədqiqatçılar tərəfindən inkişaf etdirilmişdir.

Koqnitiv elmin inteqrativ əsasını dünyanın təsnifatı prinsipi təşkil edir. Onun mənzərəsi qnoseoloji və linqvistik prinsiplərin vəhdətindən ibarətdir. Bir tərəfdən,

dünyanın ontoloji sistemi insanın ağlı, digər tərəfdən isə, bu sistem təbii dilin [dünyanın dil şəkli] köməyi ilə aktuallaşır. Dil dünya haqqında şifahi biliklər sistemidir və dünyanın konseptual mənzərəsini təşkil edən maddi bir quruluşdur. Dünyanın dil mənzərəsi, müəyyən bir linqvomədəni birliyin adi şüurunda fərdi və kollektiv təcrübə şəklində yaranır. Dünyanın dili və konseptual şəkilləri şifahi amillə ayrılmaz şəkildə bağlıdır. Birincisi, reallığın təsnifatına, ikincisi isə, onun konseptuallaşdırılmasına əsaslanır. Dünyanın dil mənzərəsi linqvistik işarələrlə, dünyanın konseptual mənzərəsi isə obraz və anlayışlarla fəaliyyət göstərir. Onları birləşdirən idrak modeli, yaddaşda saxlanılan təsvir və anlayışların konstruksiyalarıdır. Koqnitiv yanaşma, şüurun konseptual və koqnitiv dil vahidlərini araşdırmağa imkan verir. Dil vahidləri insanın diskursiv [kommunikativ] fəaliyyəti zamanı nitq vahidlərinə çevrilir [10, *66*].

Diskurs, fərdlər səviyyəsində deyil, sosial səviyyədə mövcuddur. Diskurs məna qurur və beləliklə, cəmiyyətlər mövcud simvol və mənaları əlaqələndirirlər. Bu yolla, cəmiyyətlər məsələlər və hadisələr haqqında necə düşünmək və ya ünsiyyət qurmaq bacarığını diskurslar vasitəsilə əldə edirlər. Diskurs müxtəlif yanaşmalar əsasında fərqli şəkildə izah edilə bilən bir anlayışdır. Bəzi tədqiqatçılara görə, diskurs bütün danışıq və yazı hərəkətləri kimi, bəzi tədqiqatçılara görə isə, yalnız nitq şəbəkəsi törəmələrindən ibarət tətbiqlər kimi qəbul edilir. M. Fuko isə, diskursu daha ümumi, tarixi və inkişaf edən dil tətbiqləri kimi görür [19, 46-47].

Dil istifadəsi harada və istənilən zaman kəsiyindən asılı olmayaraq, həmişə siyasi məzmuna malikdir. Çünki dil onu əhatə edən ictimai dünya və həmin sosial dünyanın ideologiyaları ilə əhatə olunub. Dilin arxasında ondan ayrılmaz bir siyasi diskurs dayanır. Bu baxımdan dili siyasi və ideoloji ifadələrdən ayırmaq, onsuz düşünmək çətindir [18, 33-34]. Teun A. van Dijk hesab edir ki, «... diskurs sadəcə olaraq təcrid olunmuş mətn və ya dialoq quruluşu deyil. Əksinə, bu, həm də iştirakçıları [və onların xassələrini], istehsal və qəbul proseslərini özündə əks etdirən sosial konteksti özündə cəmləşdirən mürəkkəb kommunikativ hadisədir.» [7, 2].

Diskursun koqnitiv cəhəti ondan ibarətdir ki, psixi diskurs psixi strukturlara [konseptlər, idrak sxemləri] əsaslanır. Psixi məkan subyektin dünya ilə idrak qarşılıqlı əlaqəsi şəraitində aktuallaşan zehni təcrübənin dinamik formasıdır. Zehni məkanın fəaliyyətinin nəticəsi kontekstdir. Bu və ya digər kommunikativ hadisənin faktiki psixi obrazı onun psixi təsviridir. Beləliklə, diskursda dünya yalnız təsvir kimi, yəni ondan kənarda formalaşmış psixi reallığın əksi kimi əks olunur. Bilik obyektləri diskursda qurulur və onda passiv şəkildə əks olunmur. Koqnitiv paradiqmanın qarşılıqlı inteqrasiyası olmadan bu proseslərin öyrənilməsi mümkün deyil. Qeyri-xətti paradiqmaya əsaslanan koqnitiv-kommunikativ xarakterli diskurs fenomeni, mətn və nitqi şüurdakı strukturlarla birləşdirən modelin izahatını, həmçinin, dildən istifadənin sosial fəaliyyət təsirlərinin öyrənilməsini, mətn və nitqin sosial, iqtisadi, siyasi kontekstlərdə koqnitiv və ya konseptual təsirlərinə nəzər salmağı tələb etdiyi üçün, koqnitiv linqvistika diskurs analizi çərçivəsində şərh

olunur [14, 8-9]. Diskursda ifadə olunan müddəalar həmişə bir-biri ilə birbaşa əlaqə göstərmədiyindən, uzunmüddətli yaddaşda saxlanılan ensiklopedik biliklərdən onların xətti ahəngdarlığını qurmaq üçün istifadə olunur. Bu gün diskursun ən təsirli koqnitiv konseptlərindən birinin müəllifi T.van Dyck, dialoq nitqindən danışarkən, dialoqu təşkil edən replikaların təkcə struktur xüsusiyyətlərini deyil, həm də onların qarşılıqlı xassələrini nəzərə alır. İdrak proseslərinin modelləşdirilməsi, koqnitiv elmin müxtəlif sahələrində təhlil vasitəsi kimi, həmçinin, kateqoriyalı aparat diskursun koqnitiv təsviri məqsədləri üçün istifadə olunur. Nitq və düşüncə fəaliyyətinin proses və mexanizmlərini nitq səviyyəsində təsvir etmək olan linqvistik, psixolinqvistik və prosedur modelləri daha yüksək səviyyəli kommunikativ vahidlərin koqnitiv təhlilinin ehtiyaclarına cavab vermir. Çünki nitq ümumi kontekstdən çıxarılan və bir-birindən asılı olmayan ayrı-ayrı cümlələrin yaranması kimi deyil, tam nitq əsərləri, monoloq və mətnlərin yaradılması kimi nəzərdən keçirilir [11, 167].

Fərdin şüurunda diskursun semantik və praqmatik işlənməsinə paralel olaraq, onun qarşılıqlı əlaqədə işlənməsi baş verir. Dialoqun hər bir mərhələsində kommunikantlar linqvistik və praqmatik məlumatı qəbul edərək, semantik və praqmatik diskurs bloklarının təsvirini yaradaraq, aktuallaşan sosial vəziyyətin təsvirini yaradırlar. Van Dijk hesab edir ki, yaradılan cümlələrin mənaları semantik makrostrukturun (mövzunun) qlobal planının nəzarəti altında planlaşdırılır. Çünki semantik uyğunluğun mürəkkəbliyi belə qlobal konseptual planlaşdırmanı zəruri edir. Dialoqda nitqin qavranılması və yaranması proseslərinin heyrətamiz dərəcədə qısa olması onu göstərir ki, nitqin qavranılması, planlaşdırılması və yaranması, ən azı qismən də insan şüurunda eyni vaxtda baş verir [12, *65*].

Diskursiv fəaliyyətin hər bir koqnitiv tsiklində əvvəlcə diskursun kontekst parametrlərinə və əvvəlki şifahi və qeyri-verbal diskursiv məlumatlara uyğun gələn bilik strukturları aktivləşməsi baş verir. Bu proses şəbəkə komponentlərinin qalan hissəsinə yayılaraq, sistemi müəyyən sabitləşmə mərhələsinə gətirir. Bu halda məna təmsili aktivləşdirilmiş vahidlərin məcmusu kimi qəbul edilir [13, *466*].

Diskursda istifadə olunan məlumatların yerləşdiyi və saxlandığı yaddaşın müxtəlif səviyyələrindən danışan bəzi tədqiqatçılar məsələyə aşağıdakı kimi yanaşırlar:

- mürəkkəb epizodlar və uzun şərh olunmamış hadisələr ardıcıllığı birinci səviyyədə saxlanılır;
- ikinci səviyyə qaydalar, normalar və çərçivələr şəklində ssenarilərin yenidən qurulması üçün istifadə olunan ensiklopedik məlumatları ehtiva edir;
- üçüncü səviyyədə, makro-ssenarilər şəklində insanın sosial təcrübə prosesində əldə etdiyi sosial-mədəni informasiya mövcuddur;
- dördüncü səviyyə hərəkətlərin səbəbləri haqqında mücərrəd məlumatları ehtiva edir [15, 44].

Kinç (Kintsch) modeli təmsilin üç səviyyəsini fərqləndirir: səth forması, prepozisiya mətn bazası və istinad vəziyyəti modeli səviyyəsində təmsil olunarkən əldə edilən məlumat diskursu dərk edən şəxsin bilik sistemi ilə inteqrasiya olunur və işlənmiş diskursun unikal konseptual məkanı ilə əlaqələndirilir. Məna vahidləri kimi qəbul edilən bütün bu təmsillər bir-biri ilə əlaqə modellərində təqdim olunduğu kimi müxtəlif vəznli bağlarla bağlanır. Səthi forma səviyyəsində təmsil olunduqda nitqin sözlərin və sintaktik konstruksiyaların dəqiq obrazları qorunub saxlanılır; mətnin propozisiya əsasının səviyyəsi qavranılan diskursun mikro əlaqəli müddəaları toplusunu ehtiva edir. Bilik strukturlarının simvolları kimi bu model tam mənalı sözlərin təsvirlərini, izahlı mətn müddəalarını və diskursun şərhinə aid olan ensiklopedik bilikləri, həmçinin söz və müddəaların təmsillərini ehtiva edir. Bilik strukturları arasında əlaqə növləri onların xassələri ilə müəyyən edilir və hər bir təmsil səviyyəsində ayrıca sistemlər təşkil edir [7, *175-176*].

M. Just və P. Carpenter modelləri sözlərin, ifadələrin, təkliflərin, sxemlərin və generativ qaydaların simvolik təsvirlərini vurğulayır. Bu nəzəriyyəyə görə, daxil olan diskursiv informasiya axınının yaratdığı generativ qaydaların aktivləşməsi işçi yaddaşın informasiya ilə doyma dərəcəsinin dəyişməsinə gətirib çıxarır və bu qaydaların aktivləşmə dərəcəsi müxtəlif ola bilər. Bilik strukturlarının aktivləşmə mexanizmlərini əlaqə prosesləri baxımından təhlil edərkən əksər tədqiqatçılar onların təmsil və saxlanma yollarını təsvir edərkən bu strukturları simvolik təsvirlər kimi qəbul edirlər. Buna baxmayaraq, ekspertlər biliyin təmsilçiliyinin bu strukturlarının insan şüurunda necə təqdim olunması məsələsinin həllində yekdil fikirdən uzaqdırlar. Diskurs analizi koqnitiv dilçiliyə öz təhlillərini linqvistik və konseptual strukturdan kənara çıxarmaq fürsəti təklif edir. Koqnitiv linqvistikanın əsas tapıntılarından biri mürəkkəb və mücərrəd bilik sahələrinin metaforik olaraq daha sadə, tanış təcrübə sahələri ilə strukturlaşdırılma dərəcəsi olmuşdur. Konseptual metaforalar və diskurs daxilində normallaşdırılmış digər təmsil formaları arasında açıq paralellər var. Dillərarası fərqlər üzrə eksperimental tədqiqatlar həm əsas, həm də metaforalaşdırılmış təcrübə sahələrində dilin idrak üzərində təsirini təsdiqləmişdir. Koqnitiv linqvistika və diskurs analizi arasındakı geniş sinerji forma-məna cütləşmələrinin diskurs intermlərində ideologiyanı hesablamaq məqsədi daşıyır. Beləliklə, bu sinerji dilin ideoloji ölçülərinin ümumi konseptual prinsiplərlə əlaqəli olduğu izahedici çərçivə təklif edir [15, 36].

Diskursun başa düşülməsi yalnız geniş sosial kontekst fonunda mümkündür. Nitqin yaradılması prosesində kommunikantlar cari diskurs məkanının modelini daim dəyişirlər. Diskursun şərh olunma qabiliyyəti təkcə ifadənin dəqiqliyi və aydınlığı ilə deyil, həm də kommunikantların psixi xüsusiyyətləri [dünyanın şəkilləri, reallığın konseptuallaşdırılması və təsnifləşdirilməsi yolları və s.], onların praqmatik münasibəti ilə müəyyən edilir. Kommunikativ strategiyalar natiqin kommunikativ məqsədlərini onların linqvistik ifadəsi ilə əlaqələndirdiyi idrak proseslərdir.

Mədəniyyətlərarası diskursiv qarşılıqlı əlaqə müxtəlif mədəni koqnitiv modellərin daşıyıcısı olan, müxtəlif sosial-mədəni icmaları təmsil edən kommunikantlar arasında ünsiyyət prosesidir. Bundan əlavə, müxtəlif dillərin daşıyıcıları fərqli diskursiv strategiyalara və fərqli dəyər oriyentasiyalarına malik ola bilər. Dillərarası və mədəniyyətlərarası ünsiyyət, bir dildə diskursun ayrı-ayrı elementləri başqa bir dildə diskurs baxımından spesifik olduqda, hər iki istiqamətdə tərcümədə çətinliklər yarada bilər. Mədəniyyətlərarası ünsiyyət kontekstində insanların diskursiv fəaliyyətinin təhlili müxtəlif dil mədəniyyətlərinin daşıyıcılarının təfəkkür və şifahi davranış xüsusiyyətlərini ortaya qoyur. Başqa bir dilin və başqa mədəniyyətin daşıyıcısı nöqteyi-nəzərindən baxılan diskurs fərqli xarakter daşıyan çoxlu sayda spesifik elementlərlə xarakterizə olunur. Mədəniyyətlərarası diskurs ünsiyyət iştirakçıları arasında əsas kommunikativ amillərin məzmununda yüksək dərəcədə fərqlilik ilə xarakterizə olunur.

XX əsrin birinci rübündə Almaniyada Vitgenşteyn və Rusiyada Mixail Baxtin və onun ətrafı tərəfindən işlənmiş dil fəlsəfəsi və dilçilik nəzəriyyələri diskurs nəzəriyyələrinin əsasını təşkil edir. Bu sahə, XX əsrin ortalarından sonra cəmiyyət və dil filosofları, antropoloqlar, psixoanalitiklər, dilçilər və ədəbiyyat nəzəriyyəçiləri (C.Ostin, J.Searl, M.Fuko, J. Derrida, Levi Ştraus, Althusser, Mişel Peşo, J. Lakan, Kristeva və s.) tərəfindən irəli sürülən fikirlərlə inkişaf etdi.

Elmdə diskurs məsələsinə müxtəlif yanaşma və nəzəriyyələr vardır.

1. ***Dil fəlsəfəsi, nitq, cəmiyyət və ideologiyaya əsaslanan diskurs yanaşmaları***

Dil fəlsəfəsi, nitq, cəmiyyət və ideologiyaya əsaslanan diskurs yanaşması, bir-biri ilə kəsişən üç fərqli kateqoriyada təhlil edilir. Bu nəzəriyyələrdə linqvistik təhlil üsulları - diskursun sosial, ideoloji və sistemli quruluşu birlikdə verilir. Diskurs tədqiqatları dilin ünsiyyət forması olması fikrindən başlayır. Dil simvolik nizam yaradan ünsiyyət vasitəsidir. Strukturistlərin vəzifəsi müxtəlif mədəniyyətlərin təşkil etdiyi dünyanı qavramağımız və dərk etməyimizə əsaslanan konseptual strukturları aydınlaşdırmaqdır. Strukturizm dünyanın nə olduğunu deyil, onu yaradan insanların onu necə mənalandırdığını kəşf etməyi hədəfləyir. Strukturist yanaşma dilin arxasında həmişə bir quruluşun olması fikrini qəbul edir. Dildən yaranan və dil vasitəsilə mövcud olan nitq həmişə strukturdan başlayır və struktur vasitəsilə klaster yaratmağa çalışır. Fəlsəfəyə əsaslanan dil yanaşmalarında XX əsrin filosofu Vitgenşteynin diskurs yanaşması diqqəti cəlb etmişdir. Vitgenşteynin dil anlayışı pozitivizmlə bağlıdır. Ona görə, diskurs mücərrəd bir sistem deyil. Diskurs burada pozitivizm baxışına yaxın olan və ya olduğu kimi olmayan fenomendir. Bu baxımdan o, faktları olduğu kimi təqdim etmir, əksinə, onları təhrif edir. Vitgenşteyn yazır: "Dünya olduğu kimi olan hər şeydir. Dünya faktların cəmidir. Çünki faktların cəmi nəyin olduğu kimi, nəyin də olduğu kimi olmadığını müəyyən edir." [9, 64].

Ricoeur üçün, "nitq-akt nəzəriyyəsi, praqmatikada məntiq və psixoloji sahə arasında yerləşmişdir Ricour şifahi və yazılı dil arasındakı fərqi əsaslandırmaq üçün,

ilkin konsepsiya kimi diskursdan istifadə edir və gündəlik nitq hadisələrinin diskursuna diqqət yetirir. Lakin, o, mətni ön plana çıxarır. Ona görə, diskurs, dilin danışıq və yazılış formasıdır. Dilin mövzusu yoxdur, lakin diskurs zamanı natiqə istinadlar olur. Dilin zamanı və subyektivliyi olmasa da, diskurs demək olar ki, həmişə bir şey haqqındadır. Diskurs indiki zamanda baş verir. Dil sistemi isə zamanın fövqündədir. Diskurs təsvir etməli, söyləməli və ya təmsil etməli olduğu dünyaya istinad edir. Beləliklə, dilin simvolik funksiyası diskursda yer alır. Diskurs mətnin arxasında duran bir şey deyil, mətnin qarşısında dayanan bir şeydir [16, 17-18].

Vitgenşteyndən təsirlənən C. Austin və sonra onun tələbəsi C.Searle diskursu dil aktı [speach act theory] kimi görürlər. Bu nəzəriyyədə "İnsanlar ifadələri ilə nə edirlər?" kimi fundamental bir sual üzərində düşünülür. Bu nəzəriyyə yoxlanıla bilməsə də [heç bir məntiq axtarılmasa da], mənalı nitq xətlərinin olduğunu və dildə onların sayının kifayət qədər çox olduğunu iddia edən bir nəzəriyyədir. Bu, bir şey söyləməyin bir hərəkəti yerinə yetirməklə eyni olması arqumentinə əsaslanır. Bu nəzəriyyənin ideoloji əsaslı diskurs yanaşması diskursu sosial təcrübə kimi görmək ideyasına bənzəyir. Funksional praqmatika [Enlich və Rehbein] və Hymes tərəfindən hazırlanmış "ünsiyyət etnoqrafiyası" diskurs təhlili yanaşmasından təsirlənən.Austin, nitq aktını "bir şey deyərkən həyata keçirilən hərəkət" olaraq təyin edir [1, 33-34].

Strukturalizmin əsasını qoyan və ənənəvi linqvistik yanaşmanı yanlış hesab edən Saussure hesab edir ki, dilçiliyin obyekti dilin sistemi və quruluşudur. Dili elmi şəkildə öyrənmək üçün, onun obyektə çevrilməsi lazımdır. Dili başa düşmək, dilin elementləri arasında mövcud münasibətlərin formalaşdırdığı sistemi izah etmək deməkdir. Dil təfəkkür vasitəsi deyil, əksinə, təfəkkür dilin alətidir. Dil reallığı əks etdirmir, reallığı yaradır, o, predmetləri deyil, sözlərin mənasını müəyyən edir. Saussure görə, dilin mövcud olması üçün icma-camaat olmalıdır, Bu kontekstdə dil kollektiv varlıqdan kənarda mövcud ola bilməz [17, 15-16].

Bu gün, diskurs nəzəriyyələri Saussure tərəfindən qoyulan dil sistemini qəbul etsələr də, onun bütün diskursların arxasında vahid və ümumi sistem dayandığını müdafiə edən ideyasını rədd edirlər. 1920-ci illərdə Saussurun dil-nitq fərqini tənqid edən rus filosofu və ədəbiyyat nəzəriyyəçisi Mixail Baxtinin qurduğu tələffüz nəzəriyyəsi, diskurs nəzəriyyəsinin başlanğıc nöqtələrindən biridir. Baxtinə görə, işarə, maddi reallığı əks etdirir və ya təhrif edir. İşarəsiz ideologiya yoxdur və harada işarə varsa, ideologiya da var. Nitq, dili əhatə edən ideoloji mənalar və dəyərlər olmadan başa düşülə bilməz. M. Baxtin, diaxronik və konkret nitqi, sinxron və mücərrədlik xüsusiyyətlərinə malik olan dildən daha çox tədqiqat obyekti kimi görür. Ona görə, nitq, yalnız söz/ifadə/diskursdan deyil, dildaxili və ekstralinqvistik konteksti, sosial və ideoloji şəraiti özündə birləşdirən söz istehsalı prosesinin ümumi adıdır. Nitq nəzəriyyəsi semiotika ilə ideologiya arasında əlaqə qurur. Nitq, dildən daha çox sosial və ideoloji xarakter daşıyır [13, 37].

Emile Benveniste hesab edirdi ki, həm mesaj, həm də təsir vasitəsi olan diskurs, tələffüz və bir sistem olan dilin istifadəsi ilə bağlıdır. Çünki diskurs, dildən kənar praqmatik vəziyyət və ideoloji şəraitlə başa düşülə bilər [8, 25-26].

английского народа. Соматические фразеологии играют особую роль в выразительности языка и в его эмоциональности. На самом деле соматические фразеологии являются наиболее эффективным и образным способом отражения понятий, чем любые другие фразеологические сочетания. Термин «соматика», ранее использовавшийся в медицине и биологии, представляет собой греческое слово, означающее «тело». В языкознании этот термин активно используется с середины 20 века. Человеческое тело и его части всегда были важным компонентом лексики любого языка, поскольку это понятия, актуальные для всех этнических групп. Соматические понятия относятся не только к внешним, видимым частям человеческого тела. Кровь и внутренние органы также являются активным компонентом фразеологии в языкознании.
Ключевые слова: соматические фразеологизмы, английский язык, фразеологические сочетания, группы слов,семантический

Dilin söz fondu adətən sözlər, söz qrupları və yaxud frazeoloji birləşmələr kimi dil vahidləri ilə zənginləşir. Hər bir xalqın dilində özünəməxsus elə ifadə və cümlələr mövcuddur ki, onları hərfi mənada digər dilin nümayəndələri başa düşmürlər. Bu cür ifadələri başqa bir dildə olduğu kimi tərcümə etmək mümkün deyil və çox zaman mənasız və gülünc ifadələr alınır. Dilin leksik qatındakı bu sabit söz birləşmələri "frazeologizmlər və ya frazeoloji birləşmələr" termini ilə ifadə olunur. Dünyanın dil mənzərəsinin formalaşmasında frazeologiyanın xüsusi rolu var. Eyni zamanda o, cəmiyyətin milli şüuru identifikasiya etdiyi "güzgü" rolunu oynayır; dünyaya xüsusi baxışı əks etdirir. Frazeoloji birləşmələr həmçinin xalqın karakterini, adət ənənələrini, tarixini, dini inanclarını, gündəlik yaşayış tərzini özündə ehtiva edir. Məsələn; *ağzına su almaq, dabanına tüpürmək, dəridən-qabıqdan çıxmaq* və s.

Frazeoloji birləşmələrin müəyyən bir qismi isə bədən üzvləri ilə bağlı ifadələrdən ibarətdir. İnsanın özünü şəxsiyyət kimi dərk etmə prosesi bədən üzvləri vasitəsilə yaranan hisslərdən başlayır. Bu cür frazeoloji birləşmələrə "somatik frazeoloji birləşmələr" deyilir. Bu termin biologiyada, tibbdə "insan orqanizmi ilə əlaqəli bir şey" mənasında istifadə edilə bilər və "psixika" anlayışı ilə ziddiyyət təşkil edir. Məhz dilçilikdəki "somatizm" termini də buradan gəlir.

XX əsrin sonu - XXI əsrin əvvəllərində dilçilər somatikaya xüsusi diqqət yetirməyə başlamışdır. Bu termini dilçiliyə ilk dəfə eston alim F.O. Vack təqdim etmişdir. O, belə nəticəyə gəlib ki, "somatika frazeologiyanın ən qədim təbəqələrindən biridir və hər hansı bir dilin lüğət tərkibininin əsasını təşkil edir". Beləliklə, XX əsrin ikinci yarısından etibarən bir insanın və ya heyvanın bədəninə aid olan hər şeyi bildirən "somatik" termini söz tədqiqatında fəal şəkildə istifadə olunmağa başlamışdır.

"Frazeoloji somatizm" termini isə ilk dəfə E.M.Mordkoviç tərəfindən işlədilmiş və onu "Somatik frazeologizmlərin semantik - tematik qrupları" məqaləsində rus dilinə

tətbiq etmişdir. Eyni fikri ingilis alimi Loqan Smit də dəstəkləmiş və ingilis dilində bədən hissələrindən ibarət frazeoloji vahidlərin çoxluğuna diqqət çəkmişdir.
Dilçilərin somatikaya marağı onunla izah olunur ki, insanın özünü dərk etmə prosesi öz bədən üzvləri vasitəsi ilə həyata keçir. Məlumdur ki, dünyanın hər yanında istənilən millətdən bütün insanların bədəninin baş, ayaq, göz, qulaq və s. kimi hissələri mövcuddur.
"Somatic Idioms Revisited" adlı məqaləsində Čermák, linqvistik variasiyaların azlığına səbəb kimi insan bədəninin hamı üçün eyni olması faktını göstərir.
Daha sonra eyni məqaləsində Čermák, "bədən üzvlərinin frazeoloji kontekstdə də həmin komponentlərin real funksiyalarına əsaslandığını" qeyd etmişdir. Məsələn; burnun əsas funksiyası qoxu almaqdır və təhlükəni hiss etmək kimi də istifadə oluna bilər. Bundan başqa "ürək" *sevgi, cəsarət* və digər hisslərin simvolu kimi qəbul edilir. [1, 117]

Baş, burun, qulaq, göz, ürək insan bədəninin ən əhəmiyyətli hissələri hesab olunduğundan (ən kiçik hərəkətlərimiz beyin tərəfindən idarə olunur, nitqimiz başqa sözlə, bizim bütün varlığımız insanın başında və ya digər orqanlar tərəfindən idarə olunur) bu kompanentlərin ölçüsünə, formasına, funksiyasına, mövqeyinə və nitqinə aid çoxlu müxtəlif istifadə formasının tapılması təəccüblü deyil.

İngilis dilində somatik frazeoloji birləşmələrin xüsusiyyətlərini ən çox rast gəlinən əl; baş; boyun; ürək; ağız; burun; göz; qulaq; dil; ayaq; üz; komponentlərinin köməyi ilə müəyyənləşdirmək mümkündür.

Bu komponentlərin ayrılıqda təhlil etmədən öncə somatik frazeoloji birləşmələrin İngilis dilində aid olduğu bəzi semantik qrupları nəzərdən keçirək:

1.Şəxsin xarakterini bildirən somatik frazeoloji birləşmələr

thick headed; light hearted

2.Şəxsin psixi vəziyyəti, duyğu və hisslərini bildirən somatik frazeoloji birləşmələr

to touch heart; to hang down one's head; to have no face

3.İnsanların bir-birinə olan münasibətini göstərən somatik frazeoloji birləşmələr

a) müsbət münasibət

to gladden somebody's heart; to set one's heart on

b) mənfi münasibət

to grind one's teeth

4.İnsan fəaliyyəti ilə bağlı somatik frazeoloji birləşmələr.

a) zehni fəaliyyətlər

to put your heads together; to enter somebody's head

b) danışıq fəaliyyətləri

to hold one's tongue; bite one's lips; to wag one's tongue

c) eşitmə fəaliyyətləri

be all ears; to grate somebody's ears və s.

Əvvəlcə əl komponenti olan frazeoloji birləşmələrinə diqqət yetirək. Əl təkcə xarici deyil, həm də insanın öz (introspektiv) fəaliyyətlərində birbaşa iştirak edir, xarici mühitlə daim təmasda olur. Əl kinestetik və toxunma əks əlaqəni təmin edən, xarici aləmin görüntüsünün formalaşmasında böyük rol oynayan və buna görə də insana ən çox məlumat verən əsas bədən üzvlərindən biridir. [2, 349] Bu komponent ilə bağlı aşağıdakı qrupları müəyyənləşdirmək olar:

1. Fəaliyyət ilə əlaqəli yaranan somatik frazeoloji birləşmələr

To try one's hand at sth – nəyəsə əl atmaq

2. İşçi, işçi qüvvəsi ilə əlaqəli somatik frazeoloji birləşmələr

to join hands together - əl-ələ vermək, birlikdə çalışmaq

3. Ehtimal və çatışmamazlıq bildirən somatik frazeoloji birləşmələr

hands are tied - əli qolu bağlı olmaq

get out of hand - əldən çıxmaq, idarəni itirmək

4. İnsanın xüsusiyyətlərini bildirən somatik frazeoloji birləşmələr

a safe pair of hands – güvənilir insan

İngilis dilində sol və sağ əli fərqləndirən bir neçə somatik frazeoloji birləşmələr də vardır, məsələn: not to let one's left hand what one's right hand does – sağ əlin verdiyini sol əl bilməməlidir.

İngilis dilində aşağı əza iki hissəyə bölünür və onları ifadə etmək üçün müvafiq olaraq iki sözdən istifadə olunur: leg – qıç - insan bədəninin, ombadan başlamış ayağa qədər olan və insanın yeriməsinə xidmət edən üzvü; foot – ayaq - ağırlıq daşıyan və hərəkəti təmin edən bədən üzvüdür. Bu anlayışın somatik komponent kimi leksik-semantik xüsusiyyəti də əsasən bədənin bu hissəsinin funksiyaları ilə müəyyən edilir. Ayaq hərəkəti, sürəti simvollaşdırır [4]. Dildə, ayaqlar çox vaxt insanda baş və onunla əlaqəli zehni prinsipə qarşı qoyulur. Məsələn: little wit in the head makes much work for the feet - başdakı kiçik ağıl ayaqlar üçün çox iş görür; to think on one's feet – tək ayaq üstə qırx yalan demək, cəld cavab vermək və s.

"Qulaq" komponentli somatik frazeoloji vahidlərin əksəriyyətinin obrazlılığı və mənası da müvafiq orqanın fizioloji funksiyasının xarakteri ilə müəyyən edilir. İngilis dilində "qulaq" komponentli somatik frazeoloji vahidlər bir sirr, onu tapmaq istəyi ilə əlaqələndirilir. Bundan başqa ingilis dilində qulaqlar bir şeyin həddindən artıq olmasının simvoludur (bu, onların həm başda, həm də bədənin bütün digər hissələrindən yuxarıda yerləşməsi ilə əlaqədardır). Məsələn: o be over head and ears in love – kimisə çox sevmək; to be up to one's ears in trouble – boğazına/qulağının dibinə qədər batmaq; çətinliyə düşmək və s.

Ədəbiyyat siyahısı

1. Čermák, F. Somatic Idioms Revisited, Europhras 95 Europäische Phraseologie im Vergleich: Gemeinsames Erbe und kulturelle Vielfalt, Hrsg. W.Eismann. Universitätsverlag, Bochum: 109-119, 1995

2. Kornilov, O.A. Linguistic pictures of the world as derivatives of national mentality. M: 2003
3. Oltean, S.T. Idioms of body parts in English. A Cognitive Perspective. Cluj-Napaco. 2014
4. Siroka D. Conceptual system and conceptual picture of the world. Journal of Education Culture and Society No. 2. 2013.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi: Fil.elm.dok. Prof. Nailə Məmmədhüseyn qızı Sadıqova tərəfindən çapa tövsiyə olunmuşdur

KƏNAN TAHİROV
humanm@bk.ru
Gəncə Dövlət Universiteti
Gəncə şəhəri, Heydər Əliyev pr-ti 429

DİL VAHİDLƏRİNİN KULTUROLOJİ ASPEKTLƏRİ

Açar sözlər: ***dil vahidləri, söz, kulturologiya, linqvokulturologiya, konsept***
Key words: language units, word, culturology, linguoculturology, concept
Ключевые слова: языковые единицы, слово, культурология, лингвокультурология, концепт.

«Dil vahidləri» termin-anlayışı izahlı dilçilik lüğətlərində aşağıdakı kimi izah olunur: *«Dil vahidləri – vəzifəsinə, quruluşuna və sistem daxilində tutduğu yerinə görə bir-birindən fərqlənən sabit ünsürlərdir. Vəzifəsinə görə nominativ, kommunikativ (predikativ), quruluşuna görə isə üç növ dil vahidi fərqləndirilir. Əsas nominativ dil vahidi kimi söz (leksem), əsas kommunikativ vahidi kimi cümlə, onun sintaktik modeli alınıb öyrənilir. Dilin quruluş vahidləri digər dil vahidlərinin – nominativ və kommunikativ vahidlərinin düzəldlməsi və formalaşması vasitəsidir»* (1, s.116 (656 s.)

Məna şüur faktı olsa da, müəyyən səs kompleksi ilə - işarələrlə əlaqəlndiyi üçün həm də dil faktı hesab olunur. Bir dil faktı kimi məna dil vahidlərinin daxili cəhətini təşkil edir. Dil vahidlərinin xarici cəhəti isə səs kompleksindən ibarətdir. Bu səs topluları müvafiq mənanın işarəsi hesab olunur. «Azərbaycan dilinin semasiologiyası» kitabında oxuyuruq: *«Deməli, ifadə (səs toplusu) ilə onun (işarənin) bildirdiyi, göstərdiyi mənanın əlaqəsinə, vəhdətinə dil vahidi (söz) deyilir. Söz işarə ilə mənanın vəhdətidir. Sözün mənası həm şüur, həm də dil ilə əlaqədardır. Şüurla ona görə əlaqədar hesab olunur ki, məna insanın xarici aləmi dərk etməsinin nəticəsini nümayiş etdirir. Mənanın dil ilə əlaqəsi onun dilin semantik vahidi olmasıdır. Söz mühüm dil vahidlərindən biridir»* (2, s.24, 25 (304 səh.)

Söz (leksem) dil vahidi kimi nominativ – adlandırma keyfiyyətinə malikdir. Dil vahidi kimi söz həm də mədəniyyət hadisəsidir. Elə dil vahidləri vardır ki, mənası ondan istifadə edənə bəlli deyil. Oxucu belə dil vahidlərinə nəzər yetirsə, öz ana dili leksikonunun nə qədər zəngin və müxtəlif olduğunu dərk edər. Bu isə hər bir şəxsə dil vahidinin çoxtərəfli mənası (kulturoloji məna da) problemi üzərində düşünmək imkanı verər. Asanlaqla başa düşmək olar ki, insan nə qədər bilikli olarsa, onun elmi maraq dairəsi nə qədər geniş olarsa, onun mənimsəmiş olduğu dil vahidləri də bir o qədər adi və əhatəli olar.

Bu və ya digər dil vahidinin semantikasını biz necə dərk edirik? Misal üçün, biz birisinə müraciət edib soruşsa idik ki, müasir ingilis və Azərbaycan dillərində **«friend» (dost)** sözü nə deməkdir, daha doğrusu, onun mədəniyyətlə bağlı hansı

mənaları mövcuddur? Ümumi məna, mahiyyət, başlıca məna hansılardır? Dil vahidlərində iki mərkəz- hərfi və məcazi mərkəz olur- bunlardan hər biri də öz növbəsində bir sıra mənalardan ibarət olur. Belə başa düşmək olar ki, dil vahidlərinin semantikasını düzgün təhlil etməyi bacardıqca, hətta tarixə, keçmiş mədəniyyətə müraciət etmədən də bu keçidi asanlıqla bilmək olar. Bu söz (friend (dost) tarixi inkişaf prosesində özü asanlıqla metaforik mənalar qazana bilir. Beləcə, *«friend» (dost)* sözünün iki məna mərkəzlərindən hər birinin daxilində bir-birinin yerini tutması mümkün olduğu kimi, həmin mənaların iki mərkəzi arasında, yəni sözün hərfi mənası ilə məcazi mənası (kulturoloji məna da) arasında körpü salmaq da şübhəsiz mümkündür. Məs.:**Dost-friend konsepti**. (xüsusən kişi cinsi) pal, buddy; köhnə - old friend \pal; yaxın- close\intimate friend\pal, bosom friend; (xüsusən oğlanlar haqqında) chum; Biz çox illərdk ki, dostuq-We have been friends\pals for many years; Dost, (çox vaxt kinayə ilə) yolumdan çəkil! Get out of my way, buddy! Qulaq as, dost! Listen, pal! Hər şeyin təzəsi, dostun köhnəsi (atalar sözü).- An old friend is better than two new; Əsl dost yaman gündə tanınar (atalar sözü). A friend in need is a friend indeed. Dost-friend, amicable; dost ölkələr- friend countries, dost əlaqələr -amicable relations.

Bu dil vahidi vasitəsilə xeyli sayda sözlər formalaşmışdır: dost-aşna, dostbaz, dostbazlıq, dostcasına, dost-doğma, dostlaşdırmaq, dostlaşmaq, dostluq (friend, amity; bir kəslə dostluq etmək to make *friends with smb., to be* in good teams with smb. To be* on friendly terms with smb., əsl dost- real friendship; Onun dostluğu heç vaxt uzun çəkmir. His/Her friendship never lasts long; dostluq xatirinə for the sake of friendship, for friendship, sake. Dostluq friendly;- dostluq köməyi friendly help\aid; dostluq görüşü 1) goodwill; 2) id. Friendly match. (3, 162-163 (635 səh.)

Bu leksik təhlilin tərkibində az da olsa linqvokulturoloji yanaşma var, amma dərindən deyil. Ona görə ki, linqvokulturoloji tədqiqatlar xalqın ənənələrini və həyat tərzinin dilin müvafiq vahidləri ilə dildə ifadəsini öyrənir. «İnsan və mədəniyyət», «ekstralinqvistik sfera» və s. yuxarıdakı «freind» (dost) dil vahidinin spesifikasını açmağa yönəlməlidir. Burada müxtəlif xalqların dost, dostluq anlayışlarının dərki, qavranılması aşkar olunmalıdır. Həm ingilis, həm Azərbaycan xalqlarının bu təsəvvürü tarixi faktlar əsasında ortaya çıxarılmalıdır. Ən başlıcası isə, «friend» («dost») dil vahidinin koqnitiv strukturunun milli-mədəni spesifikası aydınlaşdırılmalıdır: Dost dosta tən gərək; Dostu çətin gündə tanı; Örtülü bazar, dostluğu pozar.

Dil vahidlərinin çox məna qazanması kontekstdən asılıdır. Kontekst - dil vahidi mühitində onun semantik inkişafını, necə deyərlər, təmin edir. Kontekst dil vahidini lazım olan yerə yönəldir. Buraya söz, frazeoloji birləşmələr, frazeoloji cümlələr, atalar sözü və məsələlər ilk növbədə daxildir. Çünki dil vahidin bizi maraqlandıran kulturologiyası bu vasitələrlə təzahür olunur. Dil vahidinin mənası kontekstdə müəyyənləşir və məna şaxələnməsi görünür.

Söz tarixi mədəniyyəti inikas etdirir. Doğru deyirlər ki, «söz-mədəniyyətin

aynasıdır». Mədəniyyət cəmiyyət üzvlərinin bütün həyat tərzinə aiddir- buraya insanların yaratdığı və onlar üçün dəyər sayılan predmetlər daxildir. Bu cəhətdən mədəniyyət unikal və nisbətən bütöv fenomen kimi indiki dövrdə həm də böyük müxtəlifliyə malikdir. *«Kulturologiya insan mövcudluğunun dərinliyini və ölçüsüzlüyünü təzahür etdirir. İnsan nə qədər tükənməz və müxtəlif xasiyyətə malikdirsə, mədəniyyət də o qədər çoxcəhətli və çoxaspektlidir»* (4, s.10)

Kulturologiya bir xalqın həyat tərzini səciyyələndirən praktik bacarıq və düşüncənin birləşməsidir. Bu cəmiyyət tərəfindən həyata keçirilən dəyər seçimidir. Dil sosial və mədəni inkişafın məhsuludur, mədəniyyətdən öncə yaranmışdır. Dil və mədəniyyətin bir sıra ümumi xüsusiyyətləri mövcuddur. Hər ikisi fikir seçilməsini tələb edir. Fərq ondan ibarətdir ki, mədəniyyət insanın nə gördüyü və düşündüyünü, dil isə onu necə etdiyini göstərir. Dil mədəniyyəti toplayır və miras qoyur. Atalar sözlərində, dualarda, adətlərdə, soy səcərələrdə mədəniyyət qorunub saxlanılır. Mədəniyyət intensiv inkişaf edir, dil isə nisbətən inkişafdan ləngiyir. Mədəniyyətin inkişafının sürətlənməsi dilin inkişafının sürətlənməsinə səbəb olur. Mədəniyyətdəki dəyişikliklər dildən daha şüurlu olur.

Mədəniyyət sözü latınca *«cultura»* sözündən olub torpağın müəyyən dövrlərdə becərilməsi, tərbiyə, inkişaf mənasında dərk edilmişdir. İlk dövrlərdə kulturologiya insanın təbiətə məqsədəuyğun təsiri, torpağın əkilib becərilməsi, yəni keyfiyyətli məhsul əldə etməkdən ötrü onun dəyişdirilməsi kimi qavranılmışdır.

Hələ oyanış dövrünün fəlsəfə alimləri kulturologiyaya ideal, universal şəxsiyyətin formalaşması faktoru, ətraflı və geniş təhsil, tərbiyə qazanmağa, elmə və incəsənətə təsir etməyə, dövlətin möhkəmləndirilməsinə yardım etməyə qadir olan bir güc kimi baxmışdılar.

Kulturologiya əslinə baxanda sosial bir hadisədir, cəmiyyətin həyat fəaliyyəti ilə bağlı problemdir. İnsanlar arasında mədəni və sosiallığın vəhdəti təkcə onun aşağı fazasında varlığını qorumuşdur. Kulturologiya özünəxas əlamətlər daşıyır, yəni özündə ümumibəşəri dəyərləri toplaya bilmişdir. Ona görə də mədəni yaradıcılıq dil yaradıcılığı ilə üst-üstə düşür. Bunların qovuşuğundan linqvokulturologiya elmi yaranmışdır. Əslində bunu qavramaqdan ötrü maddi və mənəvi mədəniyyətləri və bunların dildə ifadəsini vasitələrini bir-birindən ayırmaq lazım gəlir.

Beləliklə, kulturologiya-cəmiyyətin bütün tarixi boyu əldə etdiyi maddi və mənəvi sərvətlərin toplusudur, eləcə də onların yaradılması bacarığı və bəşəriyyətin tərəqqisi və inkişafından ötrü onlardan istifadə etmək və onları nəsildən-nəsilə ötürmək qabiliyyətidir. Kulturologiya insanın sirli-sehirli dünyasıdır. Onun özünü başa düşməsi və şəxsiyyətin varlıq formasıdır.

Linqvistikanın yeni istiqamətlərindən biri dilin mədəniyyətlə qarşılığından ibarət olan elmin meydana gəlməsidir. F.Veysəlli yazır: *«İstənilən dil vahidinin statusunun müəyyənləşdirilməsi insanın mental fəaliyyətini nəzərə almadan mümkün deyildir. Bu o deməkdir ki, dil işarəsini insan işlədir və insan onu başa düşür. Beləliklə, umumiləşdirərək deyə bilərik ki, millətin konseptsferi bir tərəfdən*

semantika ilə, digər tərəfdən isə koqnitiv proseslə üzvi surətdə bağlıdır. Dildə ünsiyyətin məna tərəfinə danışanın tələffüz etdiyi və dinləyənin eşidib anladığı səslənmə formaları ilə vahid olmaq mümkündür» (5, s.18 (120 s.)

İnsanın mental fəaliyyəti onun kulturoloji biliyi ilə bağlıdır. Kulturologiya isə milli mədəni kodu müəyyənləşdirir. Linqvokulturologiya dili mədəniyyət amili kimi öyrənir. Dilin milli prizması, milli mentalitetin xüsusi ifadəsi kimi öyrənir. «*Mentalitet deyəndə gerçəkliyi dərketmənin və anlamağın xüsusi yolu nəzərdə tutulur, bu da müəyyən fərdlərə, sosial və etnik qruplara məxsus olan şüur stereotiplərinin toplusu ilə müəyyənləşir»* (6, s.43)

Şüur isə fəlsəfi kateqoriya kimi bir tərəfdən insanın gerçəkliyi məqsədəuyğun biçimdə inkikasını təzahür etdirir, o biri tərəfdən isə yalnız maddi varlığı əks etdirməklə məhdudlaşmır, o həm də mənəvi, milli –mədəni dəyərlərin məhsulu kimi görünür. Şüur insana məxsus hadisəni bildirir. İnsan şüurla mental dünyanı səyahətə çıxır. Bu fəaliyyətin formaları- düşüncə, yaddaş, iradə və emosiya leksik və frazeoloji vahidlərlə təzahür olunaraq fəaliyyəti təmin edir.

Linqvokulturologiya dilçiliyin elə sahəsidir ki, xalqın mövcud mədəniyyəti linqvistika və kulturologiyanın qarşılıqlı əlaqəsinə əsaslanaraq tədqiq edilir.

Kulturologiya insanın özünüdərki prosesini təbiət, cəmiyyət, tarix, incəsənət və digər sosial və mədəni sferalara müvafiq araşdırır. Dünyanın dil mənzərəsinin mental modellərini əks etdirir.

Dil insanın mənəvi gücünü və hərtərəfli fəaliyyətini stimullaşdırır. Dil etnoyaradıcı gücə malikdir. «Xalqın dil şüuru» bu fikri təsdiqləyir.

Dil, öncə, ilk sosial məhsuldur və mənəvi inkişafdır.

Bəllidir ki, dil vahidləri vasitəsi ilə mədəni informasiyalar ötürülür. Bu baxımdan dilin nə qədər xüsusiyyəti varsa, bununla yanaşı dil mədəniyyət faktı kimi də öz fəaliyyətini davam etdirir. Çünki dil mədəniyyətin tərkib hissəsi kimi özünü göstərir. Dil başlıca alət olaraq onun vasitəsilə biz mədəniyyəti mənimsəyirik. Dil mədəniyyət sırasında bütün mühüm hadisələri- elm, ədəbiyyat, incəsənət, din və s. kodlaşdırır.

Dil vahidi kimi leksik vahidlər dünyanın dil mənzərəsinin yaranmasında xüsusi rol oynayır. Bu, leksik baxımdan «mədəniyyət güzgüsü» hesab edilir.

Hər bir mədəniyyətin öz kodu, öz açar sözü olur. Məsələn, can, ruh, ürək, könül, qəlb haqqında mədəni informasiyalar mövcuddur.

S.V.İvanova dil vahidlərinin kulturoloji aspektlərini araşdırmış, yeni paradiqmaları (*dil-mədəniyyət-insan-etnos*) müəyyənləşdirmişdir (7, 116 s.) Müəllif burada dil vahidi deyərkən söz və frazeoloji ifadələri nəzərdə tutmuş, kulturoloji aspektləri bu vahidlər üzərində öyrənmişdir. Sözün verdiyi informasiyanın milli-mədəni xüsusiyyətləri, eyni zamanda obrazlılıq mahiyyəti, bundan savayı, sözün, frazeoloji vahidin canlı kommunikasiya prosesindəki rolu, xalqın mədəni və mental dəyərləri və s. nəzərdən keçirilmişdir.

Frazeologiya dünyanın dil mənzərəsinin yaranmasında mühüm rol oynayır.

Frazeologiya-«milli həyatın güzgüsü»dür» (8, s.67 (208 str.) Milli xarakterə malik frazeoloji vahidlərdə sevinc, kədər, məhəbbət, nifrət, varlıq, zəka, gülüş, düzlük, əyrilik, tənbəllik və s. təsəvvürlər (konseptlə) mövcuddur.

Frazeoloji birləşmələrdə olan linqvokulturoloji aspekt müqayisə yolu ilə də formalaşır. Frazeologizmlər kateqoriyallaşır. Bu proses iki mərhələdə olur: 1) informasiya toplanır və məlumatlar strukturlaşır; «- sintez mərhələsi-konseptin zahiri fəaliyyətinin mexanizmi müəyyənləşdirilir. Kateqoriyallaşan frazeoloji vahidlərdə düşüncə prosesi təmin olunur. Bu prosesdə frazeoloji vahidlər hər hansı bir konsepti obyektivləşdirir. Nitqdə istifadə edilərkən həmin vahidlər konseptin məzmununu əks etdirən rəngarəng semantikanı gerçəkləşdirir. Buraya ənənəvi təsəvvürlər və konseptual strukturun tərkib hissələri daxildir. Məsələn, hər iki dildə, *sea castles in the air «dəryada balıq sövdası»* (mənası: qeyri real iş, nisyə alver mənasında)

«Dost» sözü frazeologiyada: *to make friends (dost qazanmaq); To have a thousand friends is less, than to have an enemy (Dost min isə azdır, düşmən bir isə çoxdur); fair-weather friend (dosta dar gündə dayaq olmayan); If you haven't a friend (Dostun yoxsa axtar, tapdın qoru)* və s.

Sözün mənası müxtəlif cür izah oluna bilir. Sözün leksik anlamı deyəndə düşüncədə onun səs cildinin əksi ilə uyğun predmet və hadisənin əksi arasındakı əlaqə, münasibət başa düşülür. Leksik məna sözün məzmunudur. Əşyavi və derivasiya mənaları sözün təbiətinə aid xüsusiyyətlərdəndir. Məs.: *«qoltuq»* sözü iki hissədən ibarətdir: sözün kökü *qolu-un* ifadə etdiyi əşyavi mənadır və—*tuq* isə sonradan törənən mənadır.

Sözün mənasının linqvokulturoloji təsviri nəticəsində sözün tərkibində milli-mədəni spesifika müəyyənləşir. Müəyyənləşən əlamət şübhəsiz kulturoloji mənadır. Öncəki mənalardan fərqlənir. Leksik vahidin linqvokulturoloji kodu müəyyənləşir. Dil mədəniyyət funksiyasını yerinə yetirdiyi üçün ona məxsus söz də mədəniyyət xarakterini aydınlaşdırmağa istiqamətləndirilir. Söz milli-mənəvi cəhətdən dəyərləndirilir, bu xüsusiyyətlər aşkar edilir. Beləliklə, dil vahidinin, konkret olaraq sözün semantikasının mədəni şərtlənməsi üzə çıxır.

Xüsusi adların semantikasını linqvokulturoloji aspektdə müəyyənləşdirmək üçün dillə milli şüurun qarşılıqlı bağlılığını bilmək vacibdir. (9, s.104)

Məsələn, xüsusi adın verdiyi informasiyanın mədəni xüsusiyyətləri; bir də obrazlılıq vermə mahiyyəti. Obrazlılıq dil vahidlərinin real vasitələrindən biridir. Sözün semanik inkişafı xüsusi adlarda daha geniş vüsət alır.

Hər hansı bir xüsusi adda mədəniyyət hadisəsi gizlənib. Məsələn, «dalğa» sözünün leksik mənası. Bu adın mədəniyyət hadisəsi kimi kitab mağazasının adını bildirməsidir. Bu adın motivləşməsidir. Yəni müəyyən obyektdən ötrü hər hansı xüsusi adın seçilməsinin və ya formalaşdırılmasının dildənkənar səbəbi ola bilir. İlk adlandırmadan uzaqlaşma, ikinci addan istifadə zamanı ilkin adın motivləşməsi pozulur və digərləri ilə əvəzlənir. Frazeoloji mənası: *to ride the rest of the wave-dalğanın zirvəsində qalmaq (yəni şöhrətli olmaq)*.

Dil vahidi kimi sözün linqvokulturoloji xüsusiyyətləri sırasında onun (sözün) stimullaşdırılması əsas yer tutur. Məs.: **the eye day (the sun) günəş* söz-stimulu haqqında informasiya. «Stimul» (lat. stimulus- həvəs və maraq oyadıcı amil, vadaredici səbəb stimul yaratmaq, sözün səviyyəsini, mədəni mənasını qabartmaq, gücləndirmək deməkdir. Məs.: *one's place in the sun (günəş altında yer); to get one's brains fried (günəşdə yanmaq); East bird loves to hear himself.\Self-praise is no recommendation.\Pat one's own back.\Blow one's own trumpet (horn)- Günəşə deyir: «sən çıxma, mən çıxım gərək» (özü özündən ağız dolusu danışır); to distort\to misrepresent smth.\ to twist smth. inside out\to misinterpret a word or something said\ to misread smth.\to put a wrong construction on smth.- günəşi tərsinə oxumaq (yəni hər şeyi tərsinə başa düşmək)**

Demək, xalqın günəşlə bağlı təsəvvürü bu cür maraqlı kultüroloji mənalarda üzə çıxır.

Əlbəttə, söz vasitəsilə mədəni informasiyalar da verilir. Linqvokulturoloji informasiyanın leksik, dilin lüğət tərkibi ilə əlaqəsi bu zaman meydana çıxır.

Beləliklə, linqvokulturoloji yanaşma ilə dilin sisteminə baxmaq, hər hansı bir dil vahidinin milli-mədəni spesifikasını müəyyənləşdirmək, bu barədə olan konsepsiyanı inkişaf və davam etdirmək tələb olunur.

Araşdırma göstərir ki, dil vahidlərinin kulturoloji mənasının digər mənalar kimi müəyyənləşdirilməsinin çox mühüm əhəmiyyəti vardır. Bu zaman dil vahidlərinə aid konkret mədəni səbəblər aşkar olunur. Bundan əlavə, xalqın yaratdığı və iz qoyduğu mədəniyyətin başlıca xüsusiyyətlərinin dildə hansı yollarla əks olunması, eksplisit və mədəni fenomenin mövcudluğu, bir hadisə kimi onun incəlikləri, sözün, ifadənin semantik komponentləri aydınlaşır. Sözün milli-mədəni spesifikası bir çox mənaları üzə çıxarır. (ayrıca komponentlərin mənaları, leksik qrupların mənaları və s.)

Dilin vasitələri mədəni-tarixi informasiyaları qoruyub saxlayır. Bu vasitələr ayrı-ayrı təsəvvürlərin zaman-zaman dəyişməsində insan təcrübəsinin rolunu da müəyyənləşdirir.

Nəticə

Beləliklə, tədqiqat nəticəsində nitqdə və mətndə dil vahidlərinin yaxud leksik qrupların linqvomədəni əhəmiyyəti meydana çıxır. Xüsusən də, dil vahidlərinin semantikasının dərinliklərində olan milli özünəməxsusluq, bu vahidləri yaradan xalqın dünyagörüşü haqqında gizli təsəvvürlər haqqında biliklər əldə edilir.

Kənan Tahirov

Xülasə:

Dil vahidlərinin kulturoloji aspektləri

Məqalədə iki müxtəlif sistemli dilin-ingilis və Azərbaycan dillərinə məxsus dil vahidlərinin kulturoloji və linqvo-mədəni xüsusiyyətləri öyrənilir. Həm leksik, həm frazeoloji vahidlər əsasında bəzi konseptlər və mədəniyyətin insanın

qavramında münasibətini həyata keçirməyə imkan yaradan mental vahid kimi öyrənilir. Dil vahidlərinin kulturoloji aspektləri deyəndə «mədəniyyətin dil vasitəsi ilə tədqiqi» nəzərdə tutulur. İzah olunan konseptlərin verbal və qeyri-verbal tərəfləri tədqiqat obyekti kimi nəzərdə tutulur.

Dil ətraf aləmlə insan arasında aralıq mövqe tutur. Beləliklə, məqalədə dünyanın dərk olunmasında dilin leksik-frazeoloji vahidlərin oynadığı rol və gerçəklik ifadə olunur.

Dünyanın koqnitiv mənzərəsi xalqın koqnitiv qavramı ilə yaranan gerçəkliyin mental obrazı kimi başa düşülür ki, bu da ətraf aləmin həm insan orqanları tərəfindən birbaşa emprik əksini, həm də düşüncədə gerçəkliyin şüurlu refleksiv inikasının əksi kimi canlanır.

Dil vahidləri məqalədə funksiyasına, strukturuna və sistem daxilində tutduğu yerə əsasən kulturoloji sahədə izah olunur. Burada dil vahidlərindən leksik və frazeoloji komponentlər əsas götürülür. Ona görə ki, kulturoloji sferaya daxil olanda həmin dil vahidləri ən çox dərketmə prosesinə qoşulur və mədəniyyət hadisəsi kimi təhlil olunur.

Məqalədə, demək olar ki, nəzərdə tutulan vahidlərin kulturoloji mənası aşkar olunur. Dərk edilir ki, insan nə qədər bilikli olarsa, onun elmi maraq dairəsi nə qədər geniş olarsa, onun mənimsəmiş olduğu, kulturoloji mənanın daha dərində olduğu bir o qədər də əhəmiyyət daşıyar.

Məqalədə ,,friend,, (dost,) leksik vahidinin hər iki fərqli dillərdə konseptuallaşma və kateqoriyallaşma problemləri müəyyənləşir. Bu sözün koqnitiv planda öyrənilməsi nəticəsində düşünən insanın həmin vahid haqqında təfəkkür mexanizmi öyrənilir, insana müxtəlif kanallarla gələn informasiya müəyyənləşir, dünyanın mental modelinin qurulması, müxtəlif növ koqnitiv aktlar təmin edilir, təbii dillərdə verilmiş fikirlər insan və kompüter proqramı tərəfindən qavranılır, psixi proseslərin geniş spektri açılır.

Məqalədə ,,dost,, konseptinə marağın və onun sinonimik sırasının aktuallıgı əsaslandırılır. Etnik şüurda sözün mental xüsusiyyətləri dəqiqləşir. Bu obrazı formalaşdırmaq üçün hər iki dilin konseptual imkanlarından istifadənin məqamları qeyd olunur

Digər dil vahidlərinin kulturoloji aspektlərinin yeni paradiqmaları bu yazıda ,,dil- mədəniyyət-insan-etnos,, sırası əsasında müəyyənləşməsinin mümkünlüyü də göstərilir

Beləliləklə, leksik və deyim səviyyəsində olan vahidlərin verdiyi mədəni informasiyanın milli spesifikası, həmçinin obrazlılıq, emosionallıq, ifadəlilik məzmunu, bunlar ünsiyyətə xidməti və digər mental dəyərlər tədqiq edilir. ,,Dost,, sözü frazeologiyada daha dərindən nəzərdən keçirilir. Beləliklə, məqalədə bir sıra leksik və deyimlərin semantikadı linqvokulturoloji təsvir obyektinə çevrilir.

Kanan Tahirov

Cultural aspects of language units

Summary

The article studies the cultural and lingo-cultural features of two different systematic languages - English and Azerbaijani. On the basis of both lexical and phraseological units, some concepts and culture are studied as a mental unit that allows realizing the relationship in the human concept. When we say the cultural aspects of language units, we mean "the study of culture through language." The verbal and non-verbal aspects of the explained concepts are considered as the object of research.

Language occupies an intermediate position between the world and man. Thus, the article expresses the role and reality of lexical and phraseological units of language in understanding the world.

The cognitive view of the world is understood as a mental image of reality created by the cognitive perception of the people, which comes to life both as a direct empirical reflection of the surrounding world by human organs and as a reflection of conscious reflexive reflection of reality in thought.

Linguistic units are explained in the cultural field based on their function, structure and place within the system. Here, lexical and phraseological components of language units are taken as the basis. Because when entering the cultural sphere, those language units are most often included in the process of understanding and analyzed as a cultural phenomenon. The cultural meaning of the intended units is revealed in the article. It is understood that the more knowledgeable a person is, the wider his scientific interest is, the more important is the cultural meaning he has mastered. The article defines the problems of conceptualization and categorization of the lexical unit "friend" in both different languages. As a result of studying this word on a cognitive level, the thinking mechanism of a thinking person about that unit is studied, the information that comes to a person through various channels is determined, the mental model of the world is built, various types of cognitive acts are provided, ideas given in natural languages are perceived by humans and computer programs, and a wide range of mental processes is revealed. .

The interest in the concept of "friend" and its synonymy is justified in the article. In the ethnic consciousness, the mental characteristics of the word are clarified. In order to form this image, the points of using the conceptual capabilities of both languages are noted The new paradigms of the cultural aspects of other language units are also shown in this article based on the order of "language-culture-people-ethnos". Thus, the national specifics of the cultural information provided by the units at the lexical and idiom level, as well as the imagery, emotionality, expressive content, which serve communication and other mental values, are studied. The word "friend" is considered more deeply in phraseology.

Thus, in the article, the semantics of a number of lexical and idioms becomes an object of linguicultural description.

Кенан Тагиров

Культурные аспекты языковых единиц

Резюме:

В статье исследуются культурные и лингвокультурные особенности двух систематических языков - английского и азербайджанского. На основе как лексических, так и фразеологических единиц некоторые концепты и культуры изучаются как ментальная единица, позволяющая реализовать взаимосвязь в человеческом концепте. Когда мы говорим о культурных аспектах языковых единиц, мы имеем в виду «изучение культуры через язык». Вербальные и невербальные аспекты объясняемых понятий рассматриваются как объект исследования.

Язык занимает промежуточное положение между окружающим миром и человеком. Таким образом, в статье выражена роль и реальность лексических и фразеологических единиц языка в познании мира.

Под когнитивным взглядом на мир понимается мысленный образ реальности, созданный когнитивным восприятием людей, который оживает одновременно как прямое эмпирическое отражение окружающего мира органами человека и как отражение сознательного рефлексивного отражения реальности в мыслях.

Языковые единицы объясняются в культурном поле на основе их функции, структуры и места в системе. Здесь за основу берутся лексические и фразеологические компоненты языковых единиц. Потому что при попадании в культурную сферу именно эти языковые единицы чаще всего включаются в процесс понимания и анализируются как культурное явление. В статье раскрывается культурологический смысл подразумеваемых единиц. Понятно, что чем более осведомлен человек, чем шире его научный интерес, тем важнее усвоенный им культурный смысл. В статье определяются проблемы концептуализации и категоризации лексической единицы «друг» в обоих разных языках. В результате изучения этого слова на когнитивном уровне изучается механизм мышления мыслящего человека о данной единице, определяется информация, поступающая к человеку по различным каналам, строится мысленная модель мира, различные виды обеспечиваются познавательные акты, представления, данные на естественных языках, воспринимаются человеком и компьютерными программами, раскрывается широкий спектр психических процессов. В статье обоснован интерес к понятию «друг» и его синонимии. В этническом сознании уточняются ментальные характеристики слова. Для формирования этого образа отмечаются точки использования концептуальных возможностей обоих языков. В статье

также показаны новые парадигмы культурных аспектов других языковых единиц в порядке «язык-культура-народ-этнос». Таким образом, изучается национальная специфика культурной информации, обеспечиваемой единицами на лексико-идиоматическом уровне, а также образность, эмоциональность, экспрессивное содержание, обслуживающее коммуникативные и другие ментальные значения. Слово «друг» более глубоко рассматривается во фразеологии. Таким образом, в статье семантика ряда лексических и идиом становится объектом лингвокультурологического описания.

ƏDƏBİYYAT

1.Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri lüğəti. Bakı, «Elm və təhsil», 2020

2.Adilov M., Verdiyeva Z., Ağayeva F. Azərbaycan dilinin semasiologiyası. Bakı, Elm, 2019

3.Azərbaycanca-İngiliscə lüğət. Prof. O.İ Musayevin redaktəsi altında tərtib edilmişdir. Azərbaycan Dövlət Dillər İnstitutu, Bakı, 1998

4.Qureviç P.S. Kulturoloqiya. M., «Znanie», 1996

5.Veysəlli F.Y. Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri. Studia Rhilologiya. VII, Bakı, Mütərcim, 2015

6.Popova Z.D., Sternin İ.A. Koqnitivnaə linqvistika. M., «Vostok-Zavpad», 2007

7.İvanova S.V. Kulturoloqiçeskiy aspekt yazıkovıx edinits. Ufa, 2002

8.Maslova V.A. Linqvokulğturloqiə. Uçebnoe posobie. Moskva, 2001

9.Maklakova E.A. Linqvokulğturoloqiçeskie aspektı semantiki imenni sobstvennoqo._ Yazık i nasionalnoyek soznanie. 2011,vıp. 17

* Frazeoloji konseptlə bağlı nümunələr «*Nigar Vəliyevanın «Azərbaycanca-ingiliscə-rusca frazeoloji lüğəti»dən (2 cilddə, I cild, Bakı, Azərbaycan Dövlət nəşriyatı, 2010 (988 səh.)* kitabından götürülmüşdür.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi: Kazımov İsmayıl Babaş oğlu – filologiya elmləri doktoru, professor tərəfindən çapa tövsiyə olunmuşdur

SOLMAZ İSMAYILOVA
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının
Lermontov 74
Solmazism54@gmail.com

XVII-XVIII ƏSRLƏRİN İNGİLİS FƏLSƏFƏSİNİN NÜMAYƏNDƏLƏRİNİN ƏSAS BAXIŞLARI HAQQINDA

XÜLASƏ

Məqalədə İngilis fəlsəfəsinin bir neçə görkəmli nümayəndələrinin (Tomas Hobbs, Con Lokk, Con Toland, Corc Berkli) baxışları açıqlanmışdır. Bu baxışlar analiz edilərək onların idealizmdən materializmə, dinçilikdən dinə qarşı olan materialist fəlsəfi baxışlar olduğu göstərilmişdir. Yazıda İngilis fəlsəfəsinin sonrakı yüzillərin elm, fəlsəfə, mədəniyyət tarixində önəmli rol oynadığı açıqlanır

Məqalədə Tomas Hobbsun dünya fəlsəfi fikir tarixində birinci dəfə təbiət elmlərinin nailiyyətlərini ümumiləşdirməsi, mexaniki materializm sistemini yaratması, materialist fikri daha da inkişaf etdirməsi haqqında danışılır. Hobbs sosial həyatda, insanların şəxsi həyatında dinin rolunu aydin göstərir.

Müəllif XYII əsrin ingilis fəlsəfəsinin başqa bir görkəmli nümayəndəsi Con Lokkun fikirləri barədə də danışır. Con Lokk əxlaqi aksiomaların mövcudluğu haqqında fikirlər yürüdür. O biliyin üç mərhələsi haqqında danışır. Onun fikrincə insan azadlığı mütləq deyildir. Ona görə də hakimiyyt özü də mütləq ola bilməz. Con Lokk dövlətin əmələ gəlməsi haqqında da öz fikirini bildirir.

Məqalədə ingilis subyektiv idealizm fəlsəfəsinin ən görkəmli nümayəndələrindən biri Con Berklinin fəlsəfi dünyagörüşü haqqinda danişılır. Onun fikrncə "şeylər", "ideyalar" obyektiv surətdə mövcud deyildirlər.

Yazıda ingilis fəlsəfəsinin daha bir nümayəndəsi David Yumun da fikirləri sadalanır. Yum dinə də öz münasibətini bildirir.

Açar sözlər: elm, fəlsəfə, ideya, din, duyğu, düşüncə.

İngilis fəlsəfəsi bəşəriyyətin fəlsəfi fikir tarixində böyük bir iz qoymuşdur. Təbiətşünaslıq elmlərinin nailiyyətlərinin fəlsəfi cəhətdən ümumiləşdirilməsində onun böyük rolu olmuşdur. İngilis fəlsəfəsinin görkəmli nümayəndələri Frensis Bekon, Tomas Hobbs, Con Lokk, Con Toland, Corc Berkli və başqaları Qərbi Avropa fəlsəfəsini yeni inkişaf zirvəsinə yüksəltmişlər.

XYII əsr ingilis materializminin görkəmli nümayəndələrindən biri **Tomas Hobbs (1588-1679)** olmuşdur. Tomas Oksford Universitetinin kolleclərindən birini bitirmiş, orada Aristotel məntiqini və fizikasını öyrənmişdir. Hobbs fəlsəfi təlimini 1640-cı ildən yazmaga başlamışdır. Həmin il o, "Təbii və siyasi elmlərin qanunlarının elementləri" kitabını çap etdirmiş, burada insan və onun sosial hüquqi statusu problemlərinə xüsusi diqqət yetirmişdir. O, öz fəlsəfi sistemini "Fəlsəfənin əsasları" adlandırdı. Kitab 3 hissədən ibarətdir: 1. Vətəndaş haqqında (1642). 2. Cism haqqında (1655). 3. İnsan haqqında (1658). O, 1651-ci ildə "Leviafan" adlı ən böyük əsərini çap etdirdi. "Leviafan" əsərində güclü mərkəzi hakimiyyətin zəruriliyi, dövlət aparatında işləyən mühafizəkar qüvvələrin tənqidi çox maraqlıdır. Ölümündən 3 il sonra 1682-ci ildə Oksford Universitetində onun bu əsərini yandırıblar.

Hobbs dünya fəlsəfi fikir tarixində birinci dəfə təbiət elmlərinin nailiyyətlərini ümumiləşdirdi, mexaniki materializm sistemini yaratdı, materialist fikri daha da inkişaf etdirdi. Bekon (1561-1626) fəlsəfəsindəki teist (yunanca allahçı deməkdir) fikirlərə özünün yeni münasibətini bildirdi, həqiqətin ikili təbiəti haqqında onun nəzəriyyəsinə qarşı çıxaraq materilizmi yeni istiqamətdə inkişaf etdirdi.Bekondan fərqli olaraq Hobbs həqiqətin ikiliyini rədd edir və göstərirdi ki, həqiqət birdir, o da elmin həqiqətidir. Hobbsun fikrincə, elmin həqiqətinə ilahiyyat nail ola bilməz. Yalnız elmi fəlsəfə gerçəklik həqiqətinə sahib ola bilər. Bu heç də o demək deyil ki, Hobbs dinlə vahid bir kompleks təşkil edən ilahiyyatın əleyhinə çıxır. Hobbs sosial həyatda, insanların şəxsi həyatında dinin rolunu aydin başa düşür, onun əhəmiyyətini qeyd edirdi. [8].

Hobbs duyğuların obyektiv aləmin subyektiv surəti olduğunu başa düşmürdü. Hobbs yazırdı ki, insan hisslər vasitəsilə şeylərin bütöv surətini əldə edir. Şeylərin tərkib hissələri isə insan ağılı vasitəsilə dərk olunur. Hobbs idrak prosesində ağlın rolunu şişirdir, hisslərin əhəmiyyətini azaldırdı. Hobbs son nəticədə belə qərara gəlir ki, fəlsəfə möhkəm əsas kimi ağla əsaslanmalıdır. O bu məsələnin həllində bir sıra səhvlərə yol verdi. Hobbs hissi idrakla məntiqi idrak arasındakı dialektikanı düzgün müəyyən edə bilmədi, süni surətdə rasionalizmi nominalizm ilə birləşdirdi.

Hobbs deizm mövqelərindən panteizmə (Allahı təbiətdə əridənlərə) qarşı çıxış etdi. Deizm Allahı hərəkətin birinci səbəbi sayır, sonra isə dünya allahdan asılı olmayaraq öz xüsusi qanunları ilə hərəkət edir. Deizm Allahın kainat və insanla əlaqəsini qəbul edən teizmdən, Allahı təbiətdə əridən panteizmdən və Allahın özünün mövcudluğunu inkar edən ateizmdən fərqlənir.

Hobbs sosial-siyasi görüşlərindən "Vətəndaş haqqında" əsərində və "Leviafan" traktatında ətraflı danışır. Hobbsun dövlətə, cəmiyyətə dair baxışları ilahiyyatdan fərqli olaraq ağıla,təcrübəyə əsaslanır. Hobbsun baxışları ilahiyyatdan nə qədər fərqli olsa da o cəmiyyət və dövlət məsələlərinin izahında idealizm mövqelərində dayanmışdı. O, dövlətin aşağıdakı 3 idarə formasından danışırdı; 1. Monarxiya, 2. Aristokratiya, 3. Demokratiya. [6]

Fəlsəfi fikrin inkişafı tarixində Hobbsun fəlsəfəsinə verilən qiymət birmənalı deyildir. XYII əsrdə dinin ən güclu ideoloji silah olduğu bir şəraitdə Hobbsun materializminin və naturializminin tərəfdarları, onun həmfikirləri o qədər də çox olmamışdır. Həmin əsrin Hassendi və Spinoza kimi materilistləri Hobbs təlimini qəbul etmiş, ona yüsək qiymət vermişdilər.

XYII əsrin ingilis fəlsəfəsinin başqa bir görkəmli nümayəndəsi **Con Lokk (1632-1704)** idi. Lokk Oksford Unuversitetini bitirmişdi. Lokkun görkəmli əsərlərindən biri 1690-cı ildə Londonda çap etdirdiyi "Təcrübə, insan zəkası anlamı haqqında" kitabıdır. Marks və Engels bu əsəri "insan zəkasının əmələ gəlməsi haqqında təlim adlandırmışlar. Con Lokkun "Tibbi bacarıq haqqında","Xristianlığın ağlabatanlığı", "Dövlətin idarə oluması haqqında iki traktat" əsərində Lokkun sosial-fəlsəfi və siyasi ideyaları öz əksini tapmışdı.

Fəlsəfi fikirn inkişafı tarixində Con Lokk empirizmin daha da inkişaf etdirilməsində önəmli iş görmüşdür. Con Lokk bilik haqqında öz konsepsiyasını sensualizmin başlıca prinsipləri əsasında qurmuşdu. Con Lokk deyirdi; "insan ağlında elə bir şey yoxdur ki, o əvvəlcə duyğularda olmasın". O bu məqsədlə "Təcrübə insan zəkasi anlamı haqqında" əsərində belə bir radikal fikir söyləmişdi: "Hər cür biliyə yiyələnməyin yollarını göstərmək özü kifayət edər ki, biz bilikllərin anadangəlmə olmadığini sübut edək". Lokk bu fikirləri psixoloji və genetik materiallar əsasında sübuta yetirdi.

Con Lokk, fəlsəfədə sensualist (duyğu) fikirlərlə yanaşı apriyor (təcrübədən əvvəl) əxlaqi aksiomların (sübuta ehtiyaci olmayan) mövcudluğu haqqında fikirlər söylənilmişdir. Lokk həmin fikirlərə diqqət yetirərək yazırdı ki, bu yüksək əxlaqi prinsiplər daha çox tərifləmir, lakin ona əməl edilmir.. Lokk Allah ideyasını da qəbul etmirdi. Ona görə yüksək ilahi ideyaların mövcudluğundan imtina edilməsi, hər cür "anadangəlnə ideyaların" rədd olması sayılırdı. Lokk sübut edir ki, allah ideyası da anadangəlmə deyil, o da təcrübi yolla meydana gəlmişdir.

Con Lokk "Təcrübə insan anlamı haqqında" əsərində idrak nəzəriyyəsinin əsaslarını vermişdir. Lokk təcrübə dedikdə birinci növbədə insanı əhatə edən aləmin predmet və şeylərinin hiss üzvlərinə təsir edərək, onda müvafiq duyğu və qavrayış əmələ gətirməsini nəzərdə tuturdu.Ona görə də o, duyğuları hər cür idrakın əsası sayırdı. Söz yox, Con Lokkun idrak nəzəriyyəsi əsasən materialist xarakter daşıyırdı. Lakin onun nəzəriyyəsi üçün materializm ilə idealizm arasında tərəddüd etmək meylləri də var idi. Con Lokk deyirdi ki, istər xarici, istırsə də daxili təcrübə sadə ideyaların meydana gəlməsinə səbəb olur. Lakin həmin düşüncələr ümumi yeni ideyaların mahiyyəti deyil, yalnız onların xassələridir. Con Lokkun fikrincə bu düşüncələr sadə ideyalardan yeni ideyaların meydana gəlməsi prosesidir.

Con Lokk biliyin üç mərhələsini qeyd edirdi: 1. Daxili təcrübənin ümumiləşdirilməsi nəticəsində yaranan təfəkkürə əsaslanan intuitiv bilik. 2. Xarıci təcrübənin əsasında meydana gələn, təfəkkürə əsaslanan demonstrativ bilik. 3.Bilavasitə hiss üzvləri vasitəsilə qavranılan, ideyalara əsaslanan bilik . [2].

Bir qədər də Lokkun ictimai-siyasi görüşləri haqqında. Con Lokk, konstitusiyalı monarxiyanın tərəfdarı idi. Onun fəlsəfəsində cəmiyyətin təbii vəziyyəti dedikdə, Hobsda olduğu kimi, "Hamının hamıya qarşı müharibəsi" demək deyildir. Əksinə Con Lokk cəmiyyətin təbii vəziyyəti dedikdə, bərabərlik, müstəqillik vəziyyətini nəzərdə tuturdu. O yazırdı: "Hakimiyyətin və xalqın hüquqları qarşılıqlı olmalıdır". Azad insan qanuna tabe olmalıdır. Heç kəs nə özünü nə də özgəsini məhv etməkdə azad deyildir. İnsanın azadlığını təbii qanun tənzimləyir. Həmin təbii qanunda göstərilir: "Heç kəsin heç kəsi həyatda, sağlamlıqda, azadlıqda, mülkiyyətdə məhtudlaşdırmaq hüququ yoxdur." Lokkun fikrincə insan azadlığı mütləq deyildir. Ona görə də hakimiyyət özü də mütləq ola bilməz. O, bərabərliyin, şəxsi azadlığın, azad sahibkarlığın tərəfdarı idi. O, "Dövlətin idarə olunmasına dair iki traktat" əsərində hakimiyyəti aşağıdakı qaydada bölür: 1."Qanunverici" orqan – Parlament. 2." İcraedici" orqan – hakim ordu. 3. "Federativ" orqan – başqa ölkələrlə münasibəti idarə edir.

Con Lokkun Dövlətin əmələ gəlməsi haqqında fikiləri də əhəmiyyətlidir. Onun fikrincə dövlətin əmələ gəlməsinin səbəbi ictimai müqavilədir.

Con Lokkun dinə münasibətdə deizmə meyl edir, lakin onda teist müddəaların olduğunu da inkar etmək olmaz. Teizm fövqəladə qüvvə kimi Allahın varlığını qəbul edir, sübut etməyə çalışır ki, Allah gerçəklikdə baş verən bütün maddi və mənəvi proseslərə təsir göstərir.

Fəlsəfi fikrin inkişafi tarixində Con Lokk sağlam insan fikri haqqında fəlsəfəni əsaslandırdı. O sübut etdi ki, sağlam insan hisslərinə arxalanmayan fəlsəfənin mövcudluğu mümkün deyildir.

İngilis materialist fəlsəfəsi özünun sonrakı inkişafında, Berkli və Yumun subyektiv idealizm təlimi ilə qarşılaşdı.

Con Berkli (1685-1753) ingilis subyektiv idealizm fələfəsinin ən görkəmli nümayəndələrindən biri idi. Con Berklinin fəlsəfi dünyagörüşü onun "Yeni doğuş nəzəriyyəsi təcrübəsi" əsərində öz əksini tapmışdir. Burada Con Berkli Lokkun sensualizmini subyektiv idealizm mövqelərindən yozur. "İnsan idrakının prinsipləri haqqında traktat" da Berklinin əsas fəlsəfi əsəridir. O burada özünün subyektiv idealizm fəlsəfi sistemini inkişaf etdirir. Onun başqa bir əsəri "Analitik və ya Allaha

inanmayan riyaziyyatçıya ünvanlanmış mühakimə" adlanır. "Riyaziyyatda təfəkkür azadlığının müdafiəsi" əsəri də onun çox geniş yayılmış tədqiqatlarındandır.

Con Berklinin yaradıcılığının demək olar, əsas hissəsi dini materializmdən müdafiəyə həsr olunmuşdur. Berkli yazırdı ki. Mövcudluğunu inkar etdiyim bircə şey var ki, onu da filosoflar "materiya" adlandırırlar. O yazirdı ki, "materiya heç bir zaman hisslər vasitəsilə qavranıla bilməz, ona görə də onun mövcudluğundan danişmağa heç bir əsas yoxdur". Berkli materiya kateqoriyasını bütün materialist fəlsəfi təfəkkürlərin çıxış nöqtəsi hesab edir, ona həmişə mənfi münasibət bəsləyirdi. Berklinin subyektiv idealizm fəlsəfəsində "ideya" anlayışı mühüm əhəmiyyət daşıyırdı. O, göstərirdi ki, "şey" termini qarşısında "ideya" terminə üstünlük vermək lazımdır. Ona görə ki, hisslə qavranılan obyektlər yalnız fikirdə mövcuddurlar, nə düşunən deyildirlər, nə də hərəkətdədirlər. Mən onları ideya adlandırdım. Berklinin fikrincə "şeylər", "ideyalar" obyektiv surətdə mövcud deyildirlər. Onlar yalnız bizim fikrimizdə mövcuddurlar. Berklinin zənnicə həmin ideyalar fikrimizə , allahın insan əqlinə təsiri nəticəsində verilir. Beləliklə, o obyektiv idealizmə yaxınlaşır. O, hadisələrin maddi səbəblərlə izahının əleyhinə idi. Əgər hər şeyi müdrik və müqəddəs ilahi qüvvə yaradıbsa, onda şeylərin səbəbini həmin yaradıcıda axtarmaq lazımdır. Berkliyə görə hər şeyin vahid səbəbi ruhi səbəbdir. Berkli məkan, zaman və hərəkət problemlərini də subyektiv idealizm mövqelərindən izah edirdi. Onun fikrincə məkan duyğunun ruhda, subyektdə birgə yaşamasıdır. Zaman duyğuların ardıcıllığıdır. Hərəkət duyğuların hərəkətidir. [4].

Berklinin idrak nəzəriyyəsinə görə insan biliklərinin mənbəyi duyğulardır. Lakin materiyanın mövcudluğunun əleyhinə çıxan Berkli duyğuların obyektiv məzmuna malik olduğunu qəbul etmirdi. Ona görə də duyğuları obyektiv aləmin subyektiv surəti kimi görə bilmirdi. Berkli özünün subyektiv idealist nəzəriyyəsini belə izah edir. İdrak cürbəcür duyguların və onların kombinasiyalarının təsviridir. Berkl bu duyğuları və onların kombinasiyalarını vahid reallıq adlandırırdı. Berklinin fəlsəfəsi bu günə qədər subyektiv idealist fəlsəfi təfəkkürün bir nümunəsi kimi qiymətləndirilir. Berklinin fəlsəfəsi marksist filosofların əsərlərində ətraflı tənqid olunmuşdur.

İngilis subyektiv idealizm fələfəsinin görkəmli nümayəndələrindən biri də **David Yum (1711-1776)** olmuşdur. O, fəlsəfi, sosial-siyasi və iqtisadi fikir tarixində filosof, tarixçi, iqtisadçı və publisist kimi tanınmışdır. D. Yumun fəlsəfəsi Lokkun sensualizminə əsaslanan fəlsəfi cərəyanlarla üzvi surətdə bağlı idi. Ymun birinci fəlsəfi əsəri " İnsan təbiəti haqqında traktat"dır. Bu əsər üç hissədən ibarətdir: 1."Zəka haqqında", 2."Ehtiraslar haqqında",3."Mənəviyyat haqqında". Yumun fəlsəfi prinsipləri öz əksini həmin əsərdə tapmışdır. Yumun ən görkəmli tarixi əsəri "İngiltərənin tarixi" adlanır. Əsər çox böyük əks-səda yaratmışdı. "İnsan zəkasının tədqiqi", "Əxlaq və siyasət məsələləri haqqında", "İnsan idrakı haqqında"əsərləri də Yuma böyük şöhrət gətirmişdir.

Yum öz yaradıcılıgında dini məsələlərə də xeyli diqqət yetirmişdir. Bu mənada onun yazdığı "Təbii din haqqında mühakimələr" əsəri xüsusi əhəmiyyət kəsb edir. D.Yumun əsərlərinin çoxu idrak problemlərinə həsr edilmişdir. Əgər Lokk duyğularımızın mənbəyini reallıqda, xarici aləmdə, Berkli ruhda, Allahda görürdüsə, Yum bunların hər ikisini rədd edirdi. Yum deyirdi ki, zəka nə obyektiv aləmin mövcudluğunu, nə də onun mövcud olmadığını sübut etmək qabiliyyətinə malik deyildir. Bu o deməkdir ki, Yum aqnostikdir. (Obyektiv aləmin dərk edilə bilməsini inkar edən fəlsəfi nəzəriyə), gerçəkliyin dərk edilməsini inkar edirdi. . [3]

David Yum öz əsərlərində təcrübə probleminə də diqqət yetirmişdir. Lokkdan fərqli olaraq o, təcrübə dedikdə xarici aləmi nəinki nəzərdə tutmurdu, hətta onu tamamilə rədd edirdi. Yum fəlsəfəsində təcrübə şüurumuzdakı qavrayışı mənimsəməkdən ibarətdir. Yum Berklidən fərqli olaraq, şüurumuzdan kənarda reallığın mövcudluğunu inkar etmir, bu reallığın mövcud olması ehtimali fikrini yürüdür. D.Yum skeptik və aqnostik görüşlərinə baxmayaraq o müəyyən insan idrakının reallığının əleyhinə çıxmırdı. Lakin bir aqnostik kimi göstərirdi ki, hadisələrin daxili qanunauyğun əlaqələrini təbiətin hadisələrinin mahiyyətini dərk etmək mümkün deyildir.

Yumun dinə münasibəti belə olmuşdur. Yum allahın mövcudluğu haqqında sübutları, müxtəlif baxışları rədd edirdi. Yum din haqqında tənqidi fikirlərini özünün "İnsan zəkasının tədqiqi" və "Dinin təbii tarixi" əsərlərində vermişdir. Yuma görə din insan cəmiyyətinin inkişafı tarixində tez-tez mübahisələrə və müharibələrə səbəb olmuşdur. Bununla bərabər o, insanların sosial və şəxsi həyatında, onların əxlaqi keyfiyyətlərinin formalaşmasında dinin əhəmiyyətini inkar etmirdi.

Yumun sosial-siyasi görüşləri barədə də danışsaq deyə bilərik ki, o, feodalizm cəmiyyətinin kəskin tənqidi təhlilini vermişdir . Yumun fikrincə cəmiyyət müqavilə aktı ilə yaranmamışdır, cəmiyyət ailə və qəbilə münasibətləri əsasında yaranmış, inkişaf etmişdir. Yum yazırdi ki, cəmiyyətin inkişafının əsas və hərəkətverici qüvvəsi insanların rifahının təmin olunmasından və müəyyən gəlir qazanmasından ibarətdir. Həmin inkişaf cəmiyətdə hakimiyyətin yaranmasına səbəb olur. Hakimiyyətin yaranması cəmiyyətdə dövlət strukturlarının yaranmasına səbəb olur.

Yumun sosial-siyasi baxışları iqtisadi görüşləri sıx surətdə bağlı idi. Onun fəlsəfi və iqtisadi görüşləri ingilis siyasi iqtisadının ən görkəmli nümayəndələrindən biri olan Adam Smitə xeyli təsir göstərmişdir.

XYII – XYIII əsrlərdə İngiltərədə yeni materialist fəlsəfi cərəyanların – **Con Toland, Devid Qartli, Cozev Pristli, Bernard Mandevil** kimi nümayəndələri yarandı. O dövrdə Avropa ölkələrində , o cümlədən İngiltərədə maarifçilik, mütərrəqqi inqilabi burjuaziyanın, həm də inkişafda olan elmi biliklərin tələblərinə cavab kimi meydana çıxdı. Onlar siyasi azadlığa nail oldular, keçmiş cəmiyyət quruluşu ilə əlaqədar bütün mənfi cəhətləri kəskin tənqid etdilər. İngilis maarifçiliyinin inkişafında deizm xüsusi rol oynadi. Deistlər Allahın varlığını qəbul edir, onu ilkin səbəb sayırdılar. Allah dünyanı yaradır, sonra kainat öz qanunları ilə

inkişaf edir. İngilis maarifçiləri cəmiyyətin inkişafında birinci yerə insan azadlığını və insan zəkasının qüdrətini çəkirdilar. Onların bu mübarizəsi ölkələrinin gələcəkdə qabaqcıl dünyada birinci yerləri tutmağına yardım etdi.

Bu mövzunun aktuallığı həm də ondadır ki, yaxın keçmişdə ölkəmizdə məhz bu filosoflar materializm nöqteyi-nəzərindən böyük tənqidlərə məruz qalmışlar. Onların fəlsəfi konsepsiyaları mürtəce kimi təqdim olunurdu.

Məqalənin yazılma məqsədi İngiltərədə mövcud olmuş fəlsəfi anlayışları öyrənməklə yanaşı, məşhur ingilis mütəfəkkirlərinin fəlsəfi sistemlərini öyrənməklə nail olmağı göstərməkdir.

Məqaləni yazarkən fəlsəfəyə aid tədris ədəbiyyatından və dərsliklərdən də istifadə edilmişdir. Əsas mənbələr Kanke və V.P. Koxanovskinin, eləcə də G.A. Zayçenko "Con Lokk", B.E. Bıxovski "Corc Berkli", İ.S. Narsky "David Hume" elmi tədqiqat əsərləri, keçmişin ingilis fəlsəfəsi və mütəfəkkirlərinin tarixindən yazılmış əsərlərdən istifadə edilmişdir. [1,7,10]

ƏDƏBİYYAT SİYAHISI

1. Adil Əsədov. Fəlsəfə tarixindən etüdlər: İdeal və reallıq arasında ziddiyyət və onun Qərb, rus və Şərq təfəkküründə həll imkankarı. Bakı: Təknur, 2007. – 116 s.
2. Con Lokk . 2 cildlik seçilmiş fəlsəfi əsərləri M., 1960, 1-ci cild , səh 129.
3. David Yum. Əsərləri 2 cilddə, 2-ci cild, M., 1965, səh. 21
4. Джордж Беркли. Сочинения, 2000, Издательство Мысль.
5. Дэвид Юм. Филосфия науки. Хрестоматия.- М.,2005, с.24-30.
6. Гоббс. Избранные произведения в двух томах. Т. 1, 1964 год , Издательво: М. Мысль. Стр.143.
7. Gunnar Skirbekk, Nils Gilye. Fəlsəfə tarixi. Bakı: Zəkioğlu, 2007.
8. Tomas Hobbs. Seçilmiş əsərləri, 2-ci cild, M., 1964, s. 90.
9. Uill Dürant. Fəlsəfi hekayətlər: dünya fəlsəfəsinin ən görkəmli numyendeleri həyat və baxışları. Bakı: Zəkioğlu, 2006.
10. Основы философии науки. Учебное пособие для аспирантов 2010, Кохановский В.П. и др. Ростов на/д. Феникс 2008 – 603 с.

REPRESENTATİVES OF ENGLİSH PHİLOSOPHY OF THE XVII-XVIII CENTURİES ABOUT THEİR VİEWS

SUMMARY

The article reveals the views of a number of prominent representatives of English philosophy (Thomas Hobbes, John Locke, John Toland, George Berkeley). These views have been analyzed and shown to be materialistic philosophical views from idealism to materialism, from religiosity to religion. The article explains that English philosophy played an important role in the history of science, philosophy and culture in the following centuries.

The article tells how Thomas Hobbes, for the first time in the history of world philosophical thought, generalized the achievements of natural science, created a system of mechanical materialism and further development of materialistic thought. Hobbes clearly shows the role of religion in the public life and private life of people.

The author also talks about the views of John Locke, another prominent representative of the English philosophy of the 17th century. John Locke discusses the existence of moral axioms. He speaks of three stages of knowledge. According to him, human freedom is not absolute. That is why hakimiyat itself cannot be absolute. John Locke also expresses his opinion on the formation of the state.

The article tells about the philosophical views of John Berkeley, one of the brightest representatives of the English philosophy of subjective idealism. According to him, "things" and "ideas" do not exist objectively.

The article also lists the views of David Hume, another representative of English philosophy. Hume also expresses his attitude towards religion.

Keywords: science, philosophy, idea, religion, emotion, thought.

ПРЕДСТАВИТЕЛИ АНГЛИЙСКОЙ ФИЛОСОФИИ XVII – XVIII ВВ. О ИХ ОСНОВНЫХ ВЗГЛЯДАХ

РЕЗЮМЕ

В статье раскрываются взгляды ряда видных представителей английской философии (Томаса Гоббса, Джона Локка, Джона Толанда, Джорджа Беркли). Эти взгляды были проанализированы и показано, что они представляют собой материалистические философские взгляды от идеализма к материализму, от религиозности к религии. В статье объясняется, что английская философия

сыграла важную роль в истории науки, философии и культуры последующих столетий.

В статье рассказывается о том, как Томас Гоббс впервые в истории мировой философской мысли обобщил достижения естествознания, создал систему механического материализма и дальнейшее развитие материалистической мысли. Гоббс ярко показывает роль религии в общественной жизни и личной жизни людей.

Автор также рассказывает о взглядах Джона Локка, еще одного видного представителя английской философии XVII века. Джон Локк обсуждает существование моральных аксиом. Он говорит о трех стадиях познания. По его словам, свобода человека не абсолютна. Вот почему хакимият сам по себе не может быть абсолютным. Джон Локк также высказывает свое мнение об образовании государства.

В статье рассказывается о философских воззрениях Джона Беркли, одного из самых ярких представителей английской философии субъективного идеализма. По его словам, «вещи» и «идеи» не существуют объективно.

В статье также перечислены взгляды Дэвида Юма, другого представителя английской философии. Юм также выражает свое отношение к религии.

Ключевые слова: наука, философия, идея, религия, эмоция, мысль.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Ülkər Şəfiyeva tərəfindən çapa tövsiyə olunmuşdur

GARIBA MAMMAD MAMMADOVA,
Azerbaijan State Pedagogical University
Phd. on philology, associate professor
e-mail; mammadovaqariba5@gmail.com
ORCID ID-0000-0002-9062-4380

MODERN WAYS AND METHODS OF TEACHING FOREIGN LANGUAGES

SUMMARY

This scientific article analyzes modern ways and methods of teaching English. Currently, teachers use a number of interactive technologies in the process of learning foreign languages to make practical lessons more interesting and informative. Also, in these ways, they increase the motivation of students to learn a foreign language. Taking these into account, the article analyzes the cooperative language learning method as a widespread method in the world and in our country. The article reflects the evaluation of this method by foreign experts. The practice of using these methods in modern student auditoriums in our country is also analyzed. The long-term experience of English language teaching talks about the shortcomings of teaching using traditional technologies. With the cooperative language learning method, students are given a group work analysis of the lesson topic. Tasks related to the lesson are performed in groups in the auditorium. Including the development of student and teacher communication, the process of preparation for the lesson, and the use of post-lesson assessment as a motivation for students' language learning ability are analyzed. Information is given on the necessary points for the modern technologies of English language teaching to reflect the features of the system, the logical structure of the process and their interaction with each other.

Keywords: Modern Information Technologies, Internet, Collaborative Learning, English, Communicative Interpretation, Pedagogical Methods, Student

Introduction: Language is the most important communication tool of human society, without its existence and development, communication would be impossible. Current changes in social relations, means of communication (the use of new information technologies) require the improvement of students' communicative skills and the improvement of their philological education. In the process of interactions with other communicators, language is important condition for sharing ideas in different situations, using language and speech norms, and choosing the communication behavior appropriate to the real communication situation. In other words, the main purpose of a foreign language is the formation of communication

skills, that is, the ability of a foreigner and the speaker of the language to communicate between individuals and cultures. In this case, the educational aspect is an integral part of the educational process.

Modern educational technologies, which are used to form students' communicative skills while learning another language, are the most productive way to create an educational environment that ensures individual interaction of all participants in the educational process. It is clear that using any educational technology, regardless of its excellence, will not create very effective conditions for the disclosure and development of students' skills and creativity. In this way, by collecting the successful data of each of the modern technologies used in teaching foreign languages, it allows the teacher to adjust a perfect new technology according to the structure, functions, content and goals of education in a specific group of students.

Modern technologies of English language teaching should reflect the characteristics of the system, the logical structure of the process, the integrity of individual parts and their interaction with each other;

Conceptual: Any technology should consist of scientific understanding that is logical for achieving educational goals from the psychological and socio-pedagogical side;

Efficiency: Technology must provide an outcome that meets educational standards;

Flexibility: Technology should be adaptable to student and teacher convenience and interactions;

Dynamism: The chosen technology always has the prospect of development and change in the future;

Ready to use: Any technology must be understandable so that it can be used by different teachers and students in other educational institutions.

Learning foreign languages in today's student audience requires the use of effective educational technologies that can facilitate communication in the target language. Cooperative language learning (CLL), which has been very popular in foreign language teaching in recent years abroad and in our country, is one of the modern technologies.

It should be noted that in the local educational institution, CLL is considered a technology. Foreign authors evaluate this technology as an approach to learning with practical applications, a method. Regardless of the chosen term (approach or technology), researchers agree that CLL methods can be successfully applied in foreign language teaching. This makes it necessary to study this sample of foreign education experience in detail.

Cooperative language learning (CLL) is part of a more general language learning approach, also known as Collaborative Learning (CL). Cooperative learning is a learning approach that makes the most of collaborative activities involving pairs

and small groups of students in the classroom. Cooperative learning is significantly different from traditional group work. The rules of cooperative learning are very strict: each group member is personally responsible for poorly executed group work, but in the case of success, he fully shares in the feeling of triumph. This method is defined as follows:

The long-term experience of teaching English proves that teaching using traditional technologies does not allow to develop the basic competencies in a certain academic discipline, therefore, a radical restructuring of the teaching process is necessary. For example, the active use of World Wide Web resources by teachers significantly increased the effectiveness of foreign language teachers' own education. Internet services provide access to the latest socio-cultural, linguistic and other valuable information. It is clear that the role of the teacher is changing now; the boundaries between him and the intern are transparent and develop cooperation. The role of the student also increases, so that the student is not only satisfied with acquiring knowledge, but also develops the acquired knowledge and succeeds in turning it into practical skills [Voronova E.N.2014].

At the current stage of the learning process, the communicative approach of education plays an active role in the formation of appropriate communication between students. Communication, that is, the method of communication, involves the great activity of students. In this case, the teacher's task is to include all the students in the audience in the conversation [Rybalko T.G. 2008]. In order to remember and use the language better, it is necessary to load all the reception channels of the body. The essence of the communication method is to create real communication situations. When building the dialogue, the student gets the opportunity to apply all the previously acquired experience.

A very important advantage of the communication method is that it has multiple tasks: it uses role-playing games, dialogues and simulation of real communication. [Mark Warschauer, Carla Meskill, 2015].

This technology helps students to develop their creative abilities and develop their dreams and interests. During the preparation of projects, the creative and intellectual potential of the student emerges. The project method develops the ability to conduct research, work in a team, discuss, and solve problems. The project method can be used for each subject, taking into account its practical importance for students in foreign language teaching [/ URL: https://www.ted.com/ 2018].

Preparing and presenting independent presentations based on the topics throughout the lesson using different methods (colored pencils, pictures, role-playing) played an important role in their group work and sharing of common knowledge. This method creates interest in students to study the information on the Internet and textbooks before and after the lesson.

Students living in modern society require demanding cognitive abilities such as the ability to develop their own ideas, understand experience, build chains of

evidence, and express themselves openly and confidently. The development of students' critical thinking involves the issues necessary for solving students' questions and solving problems. Critical thinking has an individual character, each person expresses his opinion, formulates the truths he believes independently, finds his own solution to the problem and supports it with reasonable, acceptable and convincing arguments. Critical thinking has social characteristics because every thought is tested when shared with others. When the student's previous knowledge and concepts are compared with the recently acquired ones, his active life position is especially understood. There are different types of work involving the development of students' critical thinking: essay, essay-motivation, discussion, dialogue, role-playing, etc. [Clements, D.H., & J. Sarama.

A special place is occupied by research technologies, during which the student achieves high-level knowledge, independent activities and the development of a new point of view of the problem. The main model generalized within the research is the model of learning as a creative pursuit: the work that goes from seeing and solving a problem to developing and testing a hypothesis and reflecting knowledge into results and cognitive process. Research model options - game modeling, discussion, interviews, problem solving, etc.

The intensive training element is used not by extra hours, but by using methods. In order to develop the ability to develop the culture of requirements, they need to be fully informed about the culture, customs and traditions of an English-speaking country, so that they can "fully enter" in the foreign environment and not only speak, but also think in English, and depending on different circumstances so that they can choose the dialogue of cultures in modern language lessons. It helps to study the situation of dialogue modeling in language lessons during the revolution [6 pg.17]. When using this method, one of the absolute conditions is to conduct an assessment in each lesson and create a portfolio. So, this is a way to demonstrate the student's achievements, knowledge and skills, and practical applications for a certain period of work. The portfolio allows you to take into account the results achieved by students in various fields of activity: educational, social, communication, etc.

It is an important element of a practical, informed approach to education. Students view and see their achievements in all stages of research (projects, certificates, reviews, individual creative activities). Thus, their motivation increases.

Information and communication technologies technologies are increasingly used in the organization of the process, allowing to obtain all possible aspects in a qualitative manner and to improve the activity of speaking in a foreign language. It presents the results of the search, processing, transmission, systematization of the moral information and important research works. An interactive approach is a student activity related to learning the lesson material during an interactive lesson. It consists of interactive exercises and tasks based on the principles of interactive approaches. The main differences between interactive exercises and regular lessons

are not only combining the already passed material, but also learning new material. **Conclusion.**Modern pedagogy is rich in interactive approaches, including: • Creative tasks. • Work in small groups. • In educational games (role-playing games, simulations, business games and educational games). • Use of state resources (expert invitation, excursion). • Social projects and other methods of education outside the university (social projects, competitions, radio and newspapers, films, speeches, exhibitions, plays, songs and stories). • Training • Learning and improvement of new materials (interactive lecture, working with visual aids, video and audio materials, "student as a teacher", "everyone teaches everyone"). • Discussion of difficult and controversial issues and problems. Within the framework of creative tasks, students explore information not only by repeating, but also with a creative approach, because the tasks reflect an element of expectation and, as a rule, there are several approaches to the problem. Thus, the use of modern educational technologies, including information technologies, not only ensures the high quality of the organization of the educational process, but also creates ideal conditions for the development of a universal person. The use of modern educational technologies allows to organize the learning process in a productive, interesting and informative form. With the introduction of new pedagogical technologies in the auditorium, the English language teaching process can be viewed from a new angle, and the best results can be achieved by mastering the psychological mechanisms of personality formation.

References

1. Voronova E.N. Modern technologies and methods of teaching foreign language in university // Perspectives of science and education. 2014. No. 1. Стр. 189–194.

2. Rybalko T.G. Podcasting as a means of forming students' informational competence when learning foreign language // Integration of education. 2008. No.Стр. 108–111.

3. Mark Warschauer, Carla Meskill. Technology and Second Language Teaching [Electronic resource] URl http://www.education. uci.edu/person/ warschauer_m/tslt. html(дата обращения: 02. 12. 2015

4. TED ideas worth spreading [Electronic resource] / URL: https://www.ted.com/ (дата обращения: 12. 05. 2018)

5. Clements, D.H., & J. Sarama. (2003). “Strip Mining for Gold: Research and Policy in Educational Technology: A Response to ‘Fool’s Gold.’ AACE Journal, 11 (1): 7–69.

6. Dynarski, M., Agodini, R., Heaviside, S., Novak, T., Carey, N., Campuzano, L., Means, B., Murphy, R., Penuel, W., Javitz, H., Emery, D., & Sussex, W. (2007). Effectiveness of reading and mathematics software products: Findings from the first student cohort. Washington, DC: Institute of Education Sciences.

ГАРИБА МАМЕД ГЫЗЫ МАМЕДОВА

СОВРЕМЕННЫЕ ПУТИ И МЕТОДЫ ОБУЧЕНИЯ ИНОСТРАННЫМ ЯЗЫКА

РЕЗЮМЕ

Статья посвящена изучению современных путей и методов обучения английского языка как иностранного. Сегодня учителя пользуются различными технологоиями коммуникации чтобы делать свои уроки по английскому языку более интересными и информативными. Этим путем они а также мотивируют тех кто изучает этот язык.

Учитывая все это в статье широко анализируется распространение современного метода сов-местного изучения языка (cooperative language learning) который довольно часто применяется у нас в стране и зарубежом.

В статье подчеркивается что и зарубежные эксперты воспринимают данный метод. Долго- временный опыт обучения английскому языку четко демонстрирует недостаточность применения традиционных .

В методе совместного изучения студентам предоставляется тема урока и групповая работа. Задание по уроку дается группами в аудитории. Анализируется процес подготовки к уроку, оценка после урока как мотивация студентов к изучению иностранного языка , включая коммуникацию между учителями и студентами.

Дается нужная информация при необходимости в связи с современыми технологиями в ходе изучения, свойствами системы, логическим построением процесса и отношения между ними. Приводятся цитаты из зарубежных и местных опытов и теоретических исследований.

В статье указывается нынещнее использование коммуникационных технологий и других современных методов обучения.

Ключевые слова. Современные информационные технологии, совместное изучение, английский язык, коммуникативное толкование, педогогический метод, студент

QƏRIBƏ MƏMMƏD QIZI MƏMMƏDOVA

XARİCİ DİLİ ÖYRƏTMƏNİN MÜASİR YOLLARI VƏ METODLARI

XÜLASƏ

Bu elmi məqalə öyrətmənin müasir yollarının və metodlarının araşdırılmasına həsr olunub. Bu günlərdə müəllimlər praktik ingilis dili dərslərini daha maraqlı və informativ etmək üçün müxtəlif kommunikativ texnologiyalardan yararlanırlar. Bu yolla onlar həmçinin dil öyrənənləri motivasiya edirlər. Bütün bunları nəzərə alaraq məqalədə birgə dil öyrənmə (cooperative language learning)ölkəmizdə və dünyada çox istifadə olunan bir metod kimi geniş yayıldıgı analiz olunur. Məqalədə xarici ekspertlərin də bu metodları təqdir etdikləri nəzərə çatdırılır.

Xarici dillərin öyrənilməsində uzunmüddətli təcrübə ənənəvi texnologiyaların çatışmamazlıqlarını tam göstərir.

Koperativ(birgə) öyrənmədə tələbələrə dərsin mövzusu və qrup işi verilir. Dərsə aid tapşırıq qruplar tərəfindən auditoriyada təqdimat formasında gostərilir. Tələbə və müəllim kommunukasiyası daxil olmaqla dərsə hazırlıq prosesi , dərsdən sonrakı qiymətləndirmə tələbələrin dil öyrənməyə motivasiyası üçün analiz olunur, onlarda xarici dil öyrənmə zamanı müasir texnologiyalarla baglı sistemin xüsusiyyətləri, prosesin məntiqi quruluşu və onların bir- birləri ilə əlaqələri barədə, vacib olduqda,. lazimi informasiyalar verilir. Bütün bunlar haqqında xarici və yerli təcrübələr və nəzəri məsələlərdən sitatlar gətirilir. Müasir dövrdə kommunikasiya texnologiyalarından və müasir təlim metodlarından necə istifadə etməyin yolları göstərilir.

Açar sözlər : müasir informasiya texnologiyaları , əməkdaşlıq etməklə öyrənmə , ingilis dili , kommunikativ təfsir(intepritasiya), pedoqoji metod , tələbə

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi: filologiya elmləri doktoru, professor Nailə Sadıxova tərəfindən çapa tövsiyə olunmuşdur

HACIYEVA YAQUT MÜBARIZ QIZI
Leksika və Ölkəşünaslıq kafedrasının müəllimi,
Gəncə Dövlət Universiteti
Azərbaycan dili kafedrasının dissertantı

BALAŞ AZƏROĞLU POEZIYASINDA ANTONIMLƏRIN ÜSLUBI FORMALARINA DAIR NÜMUNƏLƏR

Açar sözlər: məcazlar sistemi, poetik dil, ziddiyyət, norma, üslubi formalar, antonym, üslubi forma

Ключевые слова: метафорическая система, поэтический язык, противоречие, норма, стилистические формы, антоним, стилистическая форма

Key worda: metaphorical system, poetic language, contradiction, norm, stylistic forms, antonym, stylistic form

Dilin məcazlar sistemində antonim sözlər bədii dildə şairin təsvir və fikirlərinə aydınlıq gətirən dil vahidləri kimi geniş istifadə olunur. Şairin poetik dilində bir tərəfdən canlı təsvirinin yaradılması, digər tərəfdən isə hadisələrin daha qabarıq nəzərə çatdırılması üçün üslubi vahidlərə müraciət olunur. Antonimlər də müxtəlif anlayışların, bir-birlərinə əks əlamətlərin qarşı-qarşıya qoyulmasında əsas vasitələrdəndir. Bir-biri ilə tam ziddiyyət təşkil edən antonimlər anlayışlar, münasibətlər, ideologiyalar, hadisələr arasındakı ziddiyyətləri ifadə etmək üçün ən əlverişli üslubi formalarda işlədilir.

Şeirdə verilən misralarda *ağlı-qaralı sözləri* fikrin tam verilməsi üçün bir-biri ilə tam ziddiyyət təşkil edən qəliblər poeziya dilinə gətirmişdir. Ərsəyə gələn təzadlarla şair şablon, durğun ifadələrdən qaçır, daha işlək olanları verir. Ənənəvi təzadlara, mütləq antonimlərin yaratdığı ziddiyyətli bədii lövhələrə nisbətən bu cür deyim modelləri daha emosional təsir bağışlayır. Sözün bu cür mütəhərrikliyi oxucunun duyğu və düşüncələrinə xüsusi hərarət verir. Antonim sözlərin bu xüsusiyyəti haqqında S.Cəfərov yazmışdır: *"Antonimlik də sözlərin mənası ilə bağlıdır. Bu nöqteyi-nəzərdən müasir Azərbaycan dilindəki antonim sözləri, xüsusən də əks məna ifadəetmə cəhətindən yoxladıqda aydın olur ki, belə sözlərin bir çoxunda əksmənalılıq şərti və nisbi bir haldır"* (1, s. 136).

Antonimlərin bir misra daxilində işlədilməsi, əksmənalı fikirlərin verilməsində əsas vasitələrdən hesab olunur. Bu ifadələrin antiteza yaratması bədii dildə təsvir edilən bədii lövhələri təzadlı müqayisələrlə verilməsi ilə bağlıdır. Bununla da sinonimlər kimi, antonimlərin ifadəlilik imkanları birləşib poetik poeziyada ekspressivliyi ikiqat artırır. Sarin eyni misrada işlətdiyi antonimlər bir-biri ilə bağlı şəkildə verilir.

Verilən bu antonimlər müxtəlif üslubi məqsədlərə xidmət edir. Üslubi məqsədlər üçün istifadə olunan antonimləri aşağıdakı qruplara ayırmaq olar:

a) Personajların psixoloji vəziyyətinin, xarakterinin dəyişməsini göstərmək məqsədi ilə antonimlərdən istifadə edilir. Belə ki, müəyyən şəraitdən asılı olaraq obrazın psixoloji vəziyyəti kəskin, gözlənilməz bir şəkildə dəyişə bilir.

Burada işlədilən, yaz sözü *qış* sözünün tam antonimi deyildir (*tam* antonim *yay* sözüdür). Bir qədər sonra *qış* sözünün *bahar* sözü ilə əks mənalarda, əks münasibətdə işləndiyini görürük. Bundan başqa, qayaların, gədiklərin *qarla örtülməsi, torpaqda buxarın qalxması*nın ifadə edilməsi üçün zidd anlayışlardan istifadə edilmişdir. Burada *dağ, aran* sözləri də antonim cütlükləri yaradır. Bu sözlər bir-birinin tam antonimləridir. Ancaq bunların ayrı-ayrı misralarda işlənməsi şərə bir ahəngdarlıq verir, sözlərin əlaqəsi daha artıq diqqət tələb edir. Dilin leksik tərkibində bu sözlər qətiyyən semantik münasibətdə olmasalar da özlərinin kommunikativ xüsusiyyətlərinə görə bir-biri ilə ziddiyyət təşkil edir.

c) Zaman və məkan anlayışları antonim mənaları ifadə edir. Bu qəbildən olan antonimlər tam antonimlər kimi diqqəti cəlb edir:

Sözlərim dəyməsin incə qəlbinə,
Anıram hər səhər, hər axşam səni.
Könlünün sirrini aç danış mənə,
Axı mən şairəm, duyaram səni.
Anıram hər səhər, hər axşam səni (2,s.128)

Burada işlənən səhər, axşam ifadələri şeir dilinə bədiilik gətirir. Eləcə də gecə-gündüz sözləri paralel şəkildə işlədilir:

Gəlir xatırıma Təbrizə dönərkən cəbhədən
Üç günlük yolu
Bir gecə-gündüz keçdiyim. Gecə bayatı deyib,
Gündüz bardaqlardan ayran içdiyim
Günlər...(3,s. 33)

Beytlərdə işlənən gecə-gündüz antonimləri leksik mənalarına görə zidd sözlərdir. Lakin ifadə etmə baxımından, temporallıq baxımından oxşarlıq, eynilik nümayiş etdirir. Yəni zaman bildirir. Bu cəhətlər onları məna baxımından ümumilik gətirir və leksik-sintaktik paralellər şəklində işlənməsinə imkan verir. Ancaq bu, antonim sözlər üçün yeganə imkan deyildir. Sonuncu misralarda gecə, gündüz antonim sözlərin qeyri-paralel şəkildə işlənmişdir. Şairin yaradıcılığında bu orijinal formada işlədilmişdir. Leksik mənaya görə əkslik xüsusi sintaktik modellərin köməyi ilə özünü büruzə verir. Lakin bir çox hallarda leksik mənaya görə əkslik münasibətində olmayan sözlər də poetik dildə əkslik münasibətində işlənə bilir.

ç) Çox vaxt şair obrazların, fərdlərin müəyyən keyfiyyətlərini qarşılaşdırır. Müəllifin ustalıqla yaratdığı kəskin təzadlar obrazın xarici görünüşü, onun daxili aləmi haqqında oxucuda aydın təsəvvür oyadır. Surətlərin bu cur qarşılaşdırılmasına həm müəllifin, həm də personajların nitqində rast gəlirik:

Səni bəsləmədi gen sarayların
Nəşəli günləri, nazı, neməti.

Sənin *başın açıq, ayağın yalın*,
İllərlə axtardın hər səadəti.
O, miz arxasında oturub hər gün
Bir dastan dinlədi müəllimindən.
Gah quzu otardın, gah bostan güddün
Sən *isti bilmədən, soyuq bilmədən* (4, s. 57)

Başı açıq, ayağı yalın sözlərinin əkslik münasibətində işlədilməsi onların mənaca bir-biri ilə zidd məna ifadə etməsi qaynağına söykənir. Obrazın yaşadığı çətinlikləri, ziddiyyətli həyatı anton sözlərlə təsvir edilir.

e) Şair antonimlər vasitəsilə obrazların dəqiq cizgilərini əhatə etməyə çalışır, geniş təsvirə keçmədən onların canlı və inandırıcı portretlərini yaradır.

Başı ağ çalmalı qara bir ərəb
Əbanın altından başın qaldırar.
Gah acı, gah şirin bir aləm qalır....(5, s.192).

Antiteza şairin, yaxud təsvir olunan obrazın daxili aləmini, düşüncələrini, xatirələrini , qəlb çırpıntılarını açа bilir. Burada şeirin ekspressivliyini artırmaq üçün "ağ çalmalı qara bir ərəb", "gah acı, gah şirin bir aləm qalır" fikirləri insana aid edilib, onun tez-tez dəyişkən səciyyəli ruhi aləminə şamil ediləndə təzad yaradır, bədii effekt verir. *"Antitezalar nəinki ayrı-ayrı cümlələrdən ibarət olur, hətta bəzi lirik əsərlər bütövlükdə antiteza nümunəsidir"* (60, s. 78).

Balaş Azəroğlunun poemalarında da təzad yaratmaq üçün antonim sözlərdən geniş surətdə istifadə edilmişdir. Şairin poemalarındakı *"qara gözlər-ağ saçlar", "tapmaq-itirmək", "ağlamaq-gülmək, "artıq-əskik" "almaq- vermək" "ağıllı- dəli", "yaxın- uzaq", "təmiz-çirkli", "haqqa haqsız dedilər", "aclardan toxlara", "ağıllı-dəli"* antonimləri ilə təzad yaratmışdır. Verilən nümunələrdə anlayışlar bir-biri ilə müqayisədə zidd qütblər təşkil edir. Şair, bunları qarşılaşdıraraq, sözün semantikasındakı təzadı daha da qabarıq vermişdir. Məsələn, "Səttarxan" poemasında yazır:

Tez yanıb, tez söndü zülmət içində
Elə bil, şam idi dünyadan keçdi (6, s. 50)

Misralarda verilən "tez yanıb", "tez sönmək" antonimləri dərhal oxucunun təsəvvüründə öz mənfi-müsbət mənalarını canlandırır. Əks qütblər canlandırılan və onunla müqayisə edilən əlamətlərlə müəyyənləşir. Yanmaq, alovlanmaq həyatda normal davranışın, müsbət təsəvvürün və, ümumiyyətlə həyat eşqi rəmzini ifadə edirsə burada əks mənada işlənmişdir. Qəhrəmanın həyatını tez yanan, tez sönən şama bənzədir. Buna görə də həmin anlayışlar özünün orijinallığı ilə, təsir fonu ilə oxucunun hisslərinə təsir edir. Səttarxanın qəhrəmanlığını tərənnüm edən zaman vətən oğlunun arzularını belə ifadə edir:

Dünyanı cəbhədə görən cavanlar,
Ömrünü dağlarda keçirən qoca

Demiş ki:-Mümkünmü biz yaşayarkən
Yurdumu düşmənlər qoysun hərraca?!(7, s. 51)

Burada vətənin müdafiəsi üçün qoca və cavanların birləşməsi, vətənin müdafiəsində birləşməyə çağırış antonimlər vasitəsi ilə qabarıq şəkildə verilmişdir. Şablonlardan qaçma Balaş Azəroğlu bədii üslubu üçün ona görə orijinal görünür ki, bu üslubi vasitə sözün bədii nüfuzunu hiss olunacaq dərəcədə qaldırır. Şairin lirik mühakimə obyektinə duyğularının daha dolğun və cəlbedici poeziyası əmələ gəlir. "Qoca", "cavan" sintaktik birliyindən müəllif poetik-üslubi fənd kimi istifadə edib şeirin dilini mündəricəyə uyğun bir dilə çevirir. İnkar məzmunlu "arxasız", təsdiqdə olan "arxalı", "düşüncəli", "düşüncəsiz" substantivləşmiş birliyindən törəyən təzadın özü də üslubi-bədii əməliyyatın nəticəsi olaraq xüsusi vüsətlə ifadə olunmuşdur. Bu, şairin bədii nitq mühiti üçün münasib dil materialının seçim yekunu kimi dəyərlidir.Balaş Azəroğlu lirik təhkiyəni paradokslar üzərində qurmaqla eyni leksik vahidi əhatəsindəki sözlərlə bir-birinə zidd məna mövqeyinə keçirir və ekspressivliyini artırır. Eyni sözün əks məna qütblərində təzad ərsəyə gətirməsi poetik sözə olan şair məsuliyyətinin təzahürü kimi meydana çıxır. Bədii məzmunun əsas cizgilərini qabartmaq üçün bu ifadə üsulu şairin şeir yaradıcılığında tez-tez təkrarlanan deyim formalarındandır.

Uçdu göyərçin kimi
Ağlı- qaralı günlər (8, s. 242)

Ürəyində illərin, iztirabı, sevinci misrasında ifadə olunan ziddiyyətli lövhə aşağı bənddəki təzadlı məqamlara xüsusi güc-qüvvət verir:

Sən ac qaldın ağan doydu
Taladıqca Vətənini (9, s.259)

Ziddiyyətlərin yaranmasını sırf leksik antonimlərin fəaliyyəti ilə məhdudlaşdırmaq düzgün olmazdı. Zidd mənalar tərkibində eyni sözün işləndiyi bir-birini mənaca inkar edən iki birləşmənin (*ac qaldın – ağan doydu*) qarşılaşmasından hadisələr qabarıq şəkildə ifadə edilir. Sonrakı misralarda da, həyatdan yarımaq taledən razı qalmaq baxımından heç də insanlar yekcins deyillər. Onların içərisində ata üzü görməyənlər, ata çörəyi yeməyənlər də vardır. Vətənini talayanların, yağ-bal içində yaşayanların həyat tərzi müqayisə edilərək dissonans yaradılır. Təsvirlərdən aydın olur ki, onların qayğısız, dərdsiz, qəmsiz olması onların psixoloji amilləri ilə bağlıdır. Verilən parçadan aydın olur ki, həmin ağalar kef içində qazanılmış, ölkələr talamaqla başqalarının malını öz malları etmiş, var-dövlət qazanmış, zənginliklər içində dünyaya gəlmiş "dədəli-nənəli yetimlər" deyillər. Şair kontrast yaratmağın bütün vasitələrindən sənətkarlıqla istifadə edən, yararlanan söz ustasıdır. Dilin semantik zənginliyindən istifadə etməklə onun ifadəlilik imkanlarından məharətlə istifadə bacarığı eyni sözü zidd mənaların daşıyıcısına çevirir, mütləq antonimin iştirakı olmadan da kontrastlı lövhələr yaradır:

Yayı, qışı düşdün əldən,
Hər nə əkdin ağan dərdi. (10, s.260)

Burada işlənən "yayı-qışı" sözlərinin məna fərqi, məntiqi vurğuları, misraları müşayiət edən intonasiya çalarları, *sən gətirdin o apardı* kimi ayrı-ayrı poetik şərhlər kontrast yaradır. Ümumiyyətlə, verilən bədii parçadan göründüyü kimi *"hər nə əkdin ağan dərdi"* fikrini daha qabarıq şəkildə oxucuya çatdırmaq üçün antonimlərdə istifadə etmişdir.

Maraqlıdır ki, başqa bir şerində sənətkar yazır:

Qara ərəb ağ olmuşdur (11, s.79)

Şair "qara ərəb" sözünü tam mətni antonimlə - "ağ" sözü ilə qarşılaşdırmaqla təzadlı düşüncələrini, təsvir obyekti ilə bağlı obrazlı təsəvvürünü mətnin əsas qayəsinə hopdura bilmişdir. Yaxud da yazır:

Ağ mərmərə al qan axdı.
Səhər göyün sinəsində (12, s. 265)

"Ağ mərmər" və "qara pərdə" sözləri ayrılıqda antonim kimi işlənmir. Mətn daxilində onların antonimliyi daha qabarıq müşahidə edilir. Məcazi məna ilə yüklənib zənginləşən, həmçinin antonimləşən bu cür sözlərin vasitəsilə predmet və hadisələrin daxili məzmunu, gizli mahiyyəti məxsusi çalarlarla üzə çıxır.

Xülasə

Bunların hər birinin özünəməxsus incəlikləri vardır. Həmin epitetlər obrazı ya müsbət, ya da mənfi cəhətdən təyin edir və müəllif "sözlər"i danışanın (personajların) mədəni səviyyəsinin, əxlaqi-mənəvi sifətlərinin göstəricisinə çevrilir. Onun əsərlərində işlənmiş saysız-hesabsız epitetlər yüksək bədii məziyyətlərlə səciyyələnir. Şair sözə həssaslıqla yanaşır, epitetləri obrazların xarakterinə, fikirlərin verilməsinə uyğun olaraq seçir. Xüsusilə, mənfi obrazı canlandırmaq üçün onu səciyyələndirən ifadələrə, məcazlara müraciət edir. Müsbət obrazları təsvir edəndə də onu daha çox səmimi, müsbət mənalı ifadələrlə verərək dilin zəngin xəzinəsinə müraciət edir. Bu isə oxucunun əsəri qavramasına, onu müəyyən istiqamətə yönəltməyə xidmət edir. Şairin işlətdiyi epitetlər həm dildə sabitləşmiş vahidlər, həm də, təşəkkül prosesində olan dil hadisələrinin özündə birləşdirir, obrazlılığa xidmət edir, şeir dilini daha zəngin, daha çevik edir. Yaratdığı epitet nümunələri ən dərin hiss və həyəcanları, ən yüksək fikirləri məharətlə canlandırmağa xidmət edir. Şairin dilindəki hər bir epitet güclü yaradıcılıq aktı təsiri bağışlayır və bədii həqiqətin verilməsində peşəkarlıq vərdişləri, sənətkarlıq səviyyəsi onların seçilməsində təzahür edir. Epitetlərin semantik-üslubi özülündə şairin gerçəkliyə həssaslığı, doğma dilimizin təravətli və obrazlı nəfəsi dayanır.

Резюме

В каждом из них есть свои тонкости. Эти эпитеты определяют образ как положительно, так и отрицательно, а авторские «слова» становятся показателем культурного уровня и нравственных качеств говорящего (персонажей). Бесчисленные эпитеты, использованные в его произведениях, характеризуются высокими художественными достоинствами. Поэт чутко относится к слову, подбирает эпитеты в соответствии с характером образов и изложением мысли. В частности, чтобы оживить негативный образ, он использует характеризующие его выражения и метафоры. Когда он описывает положительные образы, он обращается к богатству языка, придавая им более искренние, положительные выражения. Это помогает читателю понять произведение и направить его в определенное русло. Эпитеты, используемые поэтом, соединяют в себе как фиксированные единицы в языке, так и языковые явления в процессе формирования, служат образности, делают поэтический язык богаче и пластичнее. Созданные им примеры эпитетов служат для того, чтобы умело оживить самые глубокие чувства и волнения, самые высокие мысли. Каждый эпитет в языке поэта имеет сильное творческое воздействие, а в их подборе проявляются профессиональные навыки и уровень артистизма в придании художественной правды. Чуткость поэта к действительности, свежее и образное дыхание родного языка покоится на семантико-стилистической основе эпитетов.

Summary

Each of them has its own subtleties. These epithets define the image both positively and negatively, and the author's "words" become an indicator of the cultural level and moral qualities of the speaker (characters). The countless epithets used in his works are characterized by high artistic merit. The poet is sensitive to the word, selects epithets in accordance with the nature of the images and the presentation of thought. In particular, in order to revive a negative image, he uses expressions and metaphors that characterize him. When he describes positive images, he appeals to the richness of the language, giving them more sincere, positive expressions. This helps the reader understand the work and direct it in a certain direction. The epithets used by the poet combine both fixed units in the language and linguistic phenomena in the process of formation, serve as imagery, make the poetic language richer and more plastic. The examples of epithets he created serve to skillfully revive the deepest feelings and excitements, the highest thoughts. Each epithet in the language of the poet has a strong creative impact, and in their selection, professional skills and a level of artistry in giving artistic truth are manifested. The poet's sensitivity to reality, the fresh and imaginative breath of his native language rests on the semantic-stylistic basis of epithets.

Ədəbiyyat

1. Azəroğlu, B. Savalan / B.Azəroğlu – Bakı: Azərnəşr , - 1949. - 51 s.
2. Azəroğlu, B. Gənclik dostlarım / B.Azəroğlu – Bakı: Gənclik , - 1950. - 27 s.
3. Azəroğlu, B. Mənim nəğmələrim / B.Azəroğlu – Bakı: Azərnəşr , - 1952. -160 s
4. Azəroğlu, B. Seçilmiş əsərləri / B.Azəroğlu – Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1961. -268 s.
5. Azəroğlu, B.Yarpaqlar töküləndə / B.Azəroğlu – Bakı: Azərnəşr , -1976. -274 s.
6. Azəroğlu, B. Dünənim, bu günüm, sabahım / B.Azəroğlu – Bakı: Gənclik, -1978. -237 s.
7. Azəroğlu, B. Seçilmiş əsərləri. I cild. / B.Azəroğlu – Bakı: Azərnəşr,1970. -303 s.
8. Azəroğlu, B. Seçilmiş əsərləri. II cild./ B. Azəroğlu – Bakı: Yazıçı, 1982. -261s.
9. Azəroğlu, B. Seçilmiş əsərləri. III cild. / B. Azəroğlu – Bakı: Yazıçı,1983. -233s.
10. Azəroğlu, B. Gəl ay bahar / B. Azəroğlu – Bakı: Gənclik , –1983. -116 s.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi: Filologiya elmlər doktoru, professor
Mübariz İmran oğlu Yusifov
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLNARA NƏSIBOVA
Gəncə Dövlət Universiteti
e-mail: kema.isa@inbox.ru

AZƏRBAYCAN DILINDƏ OMONİM VARIANTLAR

Xülasə

Azərbaycan dilində omonimlərin formalaşma üsulları çox zəngin olmuşdur. Şəkilçisizlik mərhələsinin məhsulu kimi omonimlər tarixən yeni sözyaratma prosesində mühüm rola malik olmuşdur. İlkin monosillabizm mərhələsində insan və ətraf mühit münasibətlərinin genişlənməsi sayəsində informasiya aktivliyi canlanmağa başlamış, əşya və hadisələrin adlandırılması üçün yeni anlayışlar yaranmağa başlamışdır. Həmin mərhələdə yeni anlayışların ifadə olunması üçün baş verən tələbata uyğun söz modelinin formalaşması imkanları məhdudiyyətlə üzləşmişdir. Başqa sözlə, dil strukturu güclü informasiya axını qarşısında yeni modellərin yaranmasına baş verən tələbatı ödəyə bilməmişdir. Odur ki, yeni anlayışların ifadəsi üçün dildə mövcud olan modellər aparıcı mövqeyə keçmişdir. Bu mərhələdə baş verən omonim tipləri isim və ya feili nitq hissələrinə aidiyyətindən asılı olmayaraq oxşar semantik mühit çərçivəsindəki dil vahidləri əsasında formalaşmışlar. Sonrakı mərhələdə isə dildə baş vermiş monosillabik model bolluğu hətta mənaca bir-biri ilə əlaqəsi olmayan monosillabları da əhatə etmişdir. Belə omonim cərgələri tam müstəqil mənaya malik olan sözlərdən təşkil olunduğu üçün onların ənənəvi omonimlərdən fərqləndirilməsi məqsədi ilə bu məqalədə şərti omonim variantları ifadəsindən istifadə edilir. Omonim variantları Azərbaycan dilində zəngin olan monosillabik köklər üzərində qurulduğundan onların təkamül prosesində zəngin ənənələr formalaşmışdır. Belə omonimlər bir dilin özündəki monosillablar üzərində qurulduğundan onlar təsadüfi yox, tamamilə qanunauyğun əsaslar üzərində inkişaf etmişdir.

Açar sözlər: *eyniköklülük, variantlılıq, semantik mühit, derivasiya prosesi, təkamül*

Azərbaycan dilində eyniköklü, əsli və məcazi omonimlər olduğu kimi eyniköklü olmayan, kök cəhətdən zahiri oxşarlıq nümayiş etdirən omonim variantları da mövcuddur. Monosillabizm mərhələsində informasiyaların eyniköklü omonimlərlə ifadəsi intensivləşdiyindən sonrakı mərhələdə də omonimlərin oxşar köklər üzərində bərqərar olunması davamlı bir ənənəyə çevrilmişdir. Bunun nəticəsində eyni mənşəli kökdən törəyən omonimlərlə yanaşı oxşar kök əsasında formalaşan omonim tipləri də meydana gəlmişdir. Dilçilikdə omonimlərin mənaca bir-birindən fərqli anlayışları bildirməsi barədəki fikirlər dominantlığa çevrilliyindən müştərək semantik mühitdən törəyən eyniköklü omonimlərlə məna uyğunluğu olmayan və oxşar köklərin təməlində yaranmış omonimlərin bir-birindən

fərqləndirilməsinə diqqət yetirilməmişdir. Halbuki omonimlərin təkamülü prosesində eyni semantik mənşədən olmayan omonimlərin oxşar kök üzərində formalaşması prosesi də mövcud olmuşdur. Bu onu göstərir ki, omonimlər monosillabizm mərhələsinin derivasiya prosesində çox böyük informasiya potensialına malik olan söz qrupları kimi formalaşmışdır. Bir-biri ilə məna yaxınlığı olmayan omonimlərin bu növləri ənənəyə uyğun olaraq eyni model üzərində köklənmişdir. Ona görə də prinsipcə onları əvvəlki növlərdən fərqləndirmək çətinləşmişdir. Omonimlərin bu növlərinin özləri də öz inkişafı dövründə zəngin bir ənənə yaratmış və struktur cəhətdən eyniköklü, eyni semantik mənşəli omonimlərdən fərqlənməmişlər. Azərbaycan dilində omonimlərin yeni bir ənənəsini yaratmış bu tipli söz qruplarını şərti olaraq omonim variantları adlandırmaq mümkündür. Belə omonimlər ənənəvi omonimlərdən fərqlənərək ümumi semantik mühit çərçivəsindən kənarda fərdi semantik anlayışla səciyyələnən tam müstəqil məna xüsusiyyətlərinə malik olurlar. Omonim variantları kimi formalaşmış fərdi semantik xüsusiyyətə malik olan söz qruplarında da həm eyni nitq hissəsinə və həm də müxtəlif nitq hissəsinə aidiyyətlik vardır. Lakin onlar eyni semantik mühitdən törəmədiyinə görə buradakı müxtəlif nitq hissələrinə aidiyyətlilik korrelyativlik kimi də nəzərə alınmaya bilər. Məsələn, *çal* (yerə çalmaq) sözü ilə *çal* (ağ-qara rəng) sözləri quruluşca zahiri oxşarlığa malikdir. Lakin onların arasındakı oxşarlıq zahiridir. Odur ki, belə omonimlər zahiri və ya kvaziomonimlik kimi adlandırıla bilər. Bunun kimi *qır* (sındır) sözü ilə *qır* (qətran) sözləri arasında da heç bir semantik əlaqə mövcud deyildir. Ona görə də bunlar dildə şərti omonimlik xarakteri daşıyır. Bununla belə bu tipli omonimlərin özlərini təsadüfi oxşarlıq kimi nəzərə almaq olmaz. Çünki şaxələnmiş semantik mühitə malik belə omonimlər dildə əvvəlcədən mövcud olan vahid bir modelin üzərində formalaşmışdır. Bu tipli omonimlər tamam fərqli mənalar üzərində qurulduğundan onların özlərini də tam sinkretik omonim kimi nəzərə almaq olar. Azərbaycan dilindəki omonim variantları kimi təşəkkül tapmış tam sinkretizmlər başqa dillərlə təsadüfi səs oxşarlığına malik olan omonimlərdən köklü surətdə fərqlənir. Baba Məhərrəmli sinkretik tipli köklərin mövcudluğunu ilkin söz yaradıcılığı üsullarından biri hesab edir və bu fikrin irəli sürülməsində o tamamilə haqlıdır. Eyni zamanda, Baba Məhərrəmlinin tədqiqatında xüsusilə, ad-feil korrelyasiyası üzrə formalaşan omonimlərdə derivativ və qrammatikliyin özünün də sinkretik vəhdətdə olduğu təqdir edilir [8, 102]. Omonimlərin sözyaratmada rolu, universallığı, təkamülü və semantik mühiti barədə əvvəllər də bitkin bir təsəvvür olmadığından hətta təsadüfi səs oxşarlığına malik olan sözlər belə omonim variant kimi səciyyələndirilmişdir. Baba Məhərrəmlinin qeyd etdiyinə görə eyniköklü olmayan və bəzən də müəyyən səs dəyişkənliyi üzrə üzrə bir-birinə formal bənzəyən sözlər A.N.Kononov kimi məşhur dilçinin təsəvvüründə də omonim kimi təəssürat yaratmışdır [8, 102]. Ancaq ad-feil korrelyasiyası üzrə formalaşmış omonimlərdə qrammatikliklə derivativliyin vəhdət təşkil etməsi məsələsinə gəlincə bu məsələyə münasibət görkəmli türkoloq N.A.Baskakov tərəfindən də təqdir edilmişdir [1, 106].

Ad-feil korrelyasiyası üzrə formalaşmış omonim variantlar qismindəki dil vahidlərinin funksional xarakterinə gəlincə demək olar ki, onların barəsində fikir birliyi hiss olunmur. Məsələn, A.T.Kaydarova görə ad-feil korrelyasiyası üzrə formalaşmış məna yaxınlığı olmayan omonimlərin formalaşması türk dillərinin aqlütinativ quruluşu ilə bağlı olmuşdur [7, 85-91]. Ancaq nəzərə almaq lazımdır ki, omonimliyin aqlütinasiya ilə heç bir üzvi əlaqəsi yoxdur. Çünki omonimlik informasiya aktivliyi üzrə yaranmış yeni anlayışların ifadə vasitəsi kimi dilin şəkilçisizlik mərhələsinin məhsuludur. Şəkilçililik mərhələsində isə monosillabik omonim yaranması prosesi öz dövrünü başa çatdırmış, ancaq mövcud monosillablar üzərində onların qrammatik derivatları formalaşmışdır. Burada aqlütinasiya ilə əlaqədar onu demək olar ki, aqlütinasiya mərhələsində oxşar, hazır köklər əsasında bir-biri ilə məna əlaqəsi olmayan sözlərin formalaşması istisna deyildir. Təsadüfi oxşarlığın omonimliyə münasibətinə gəlincə onu demək olar ki, belə oxşarlıq dillərin struktur tərkibindəki dəyişmələrdə müşahidə edilə bilər. Lakin onların omonim olub-olmaması sual şəklində qalır. Omonim variantları barədə söhbət gedirsə bu variantlar dildə əvvəlcədən mövcud olan müvafiq monosillağların üzərində qurulur. Bu da tamamilə qanunauyğun bir haldır. Çünki bir dildə yaranmış yeni anlayış məhz həmin dildəki hazır modelin üzərinə yüklənir. Bu qədər deyilənlər ondan ötrüdür ki, bəzən omonimlər barədə bəhs edilərkən onların daxili və xarici tipli növləri də bir birindən fərqləndirilir. Daxili omonimlər bir dilin özündə yarananlar, xarici omonimlər isə ya omonim cütlərindən birinin, ya da hər ikisinin əcnəbi dil mənşəli olanlar kimi fərqləndirilir. Ancaq omonimlər monosillabizm mərhələsində hər bir dilin özünəməxsus sözyaratma tələblərinə uyğun şəkildə formalaşdığından və omonim tərkiblərin arasında hər hansı struktur-semantik bağlılığın baş verdiyindən onlar vahid bir paradiqma üzrə törəmişlər. Ona görə də yad dil elementləri hər hansı bir dilin omonim paradiqmasına daxil olmur. Hərçənd, omonimlər barədəki tədqiqatlarda ənənəvi təsəvvürə xas olan "xarici omonimlər" məsələsi təqdir edilir. Məsələn, Səlim Cəfərov əcnəbi dil sözlərinin oxşarlığına görə omonimləri belə təsnif edir: 1) ərəb dilindən gələnlər; 2) fars dilindən gələnlər; rus dilindən gələnlər. Məsələn, ərəb dilindən gələnlər başlığı altında Azərbaycan dilinə məxsus *ağıl* (tövlə) – *ağıl* (ərəb dilində şüur, düşüncə), *aşıq* (topuq sümüyü) -*aşıq* (el sənətkarı) – *aşıq* (ərəbcə eşqli olan), *dava* (farsca dərman) – *dava* (ərəbcə döyüş, müharibə, qarşıdruma, münaqişə), *dəf* (ərəbcə çalğı aləti) – *dəf* (ərəbcə kənara qoyma) [2, 27] kimi nümunələr göstərilir. Bunlar aydındır ki, zahiri oxşarlıqdır, Azərbaycan dilinin ilkin sözyaratma mərhələsinə heç bir aidiyyəti yoxdur. Digər tərəfdən, səs oxşarlığının özü də şərtidir. Belə ki, məsələn, Azərbaycan dilində işlənən *ağıl* sözü ərəb dilində *əql* (عقل) *dava* sözü isə fars dilində deyil ərəb dilində *dəva* (دوا) və *dəəva* (دعوا) şəklində *dərman* və *döyüş dəf* sözü ərəbcə *dəf* (دف) (qaval) və *dəəf* (دفع) (itələmə) mənasındadır ki, bunların Azərbaycan dili omonimliyinə heç bir aidiyyəti yoxdur. Burada, həmçinin *bal* (Azərbaycan dilində arı məhsulu) –*bal* (rusca şənlik) – *bal* (rusca dərəcə ölçüsü), *qaz* (Azərbaycanca quş növü) – *qaz* (rusca yanacaq növü)

və s. kimi digər nümunələr də omonimlər adı altında izah edilir [2, 27]. Azərbaycan dilində bu tipli zahiri oxşarlıqla səciyyələnən sözlər mövcuddur. Lakin onlar ümumi halda heç bir parametrlə Azərbaycan dilinin omonim paradiqmasına daxil olmur. Bunlar ancaq zahiri oxşarlıqdır və zahiri oxşarlıq kimi də nəzərə alınmalıdır. Azərbaycan dilinin özündə hətta ilkin omonimlərin ənənəvi təkamülü üzrə formalaşmış omoform, omefon, omoqraf kimi nümunələr də vardır ki, onların özü də omonimlər kimi yox, omonimlərə bənzər nümunələr hesab edilir. Ə.Dəmirçizadə yazır ki, "hər bir dildə olduğu kimi Azərbaycan dilində də bir sıra sözlər ya tələffüzcə, ya yazılışca, ya da morfoloji quruluşca omonimlərə çox oxşayır. Belə sözlər dilçilik ədəbiyyatında omofon, omoqraf və omoform adları ilə tanınan sözlərdir [3, 141]. Oxşar mülahizələrə, hətta Səlim Cəfərovun, Həsrət Həsənovun və Türkan Əfəndiyevanın da tədqiqatlarında rast gəlmək olur" [4, 74, 76; 5, 54-58; 6, 34-35].

Dildə tonal və məcazi omonimlərin yaratdığı təməl üzərində bərqərar olan müxtəlifköklü omonimlər də dilin yeni sözyaratma prosesində özünəməxsus leksik-semantik mühit yaratmışdır. Omonimlərin bu növləri zaman-zaman inkişaf edərək özünün zəngin ənənələrini formalaşdırmışdır. Onların əsasında da omonim potensialının kəmiyyəti qat-qat artmışdır. Dilin şəkilçiləşmə prosesində ənənəvi omonimlərin formalaşma imkanları məhdudlaşsa da müxtəlifköklü omonimlər onların ənənələrini bir-birinə yaxın olmayan sözlərin omonim variantı yaratmaqla davam etdirmişlər. Müxtəlifköklü omonimlər omonimyaratma ənənələrini ad-ad, ad-feil və feil-feil ardıcıllığı üzrə davam etdirmişdir. Bunlara dair aşağıdakı kimi nümunələri misal göstərmək olar:

1.1. Ad-ad ardıcıllığı üzrə

Müxtəlifköklü omonimlərin formalaşması aqlütinasiya mərhələsinin başlanğıcı dövrünə təsadüf etdiyindən onları təşkil edən tərkiblərin bəziləri müstəqil mənasını saxladığı halda bəzilərinin ilkin mənasını derivativ variantlar üzrə təyin etmək olur. Məsələn, *ağ* sözü müstəqil bir vahid kimi rəng mənasını bildirir. Ancaq *ağ-* köklü *ağrı, ağır, ağla, ağız* sözlərində həmin kökün ayrılıqda hansı mənada işləndiyi bəlli olmur. Onların mənaları derivativ variantdan məlum olsa da həmin sözlərdəki mənaların heç biri rəng anlayışı ilə oxşarlıq bildirmir. Eyni qayda üzrə məsələn, *ara* (axtar) *–ara* (məsafə) – *artıq* (çox) *–ard* (arxa) *–arı* (həşərat) – *arıq* (zəif) sözlərinin *ar-* tərkibini onların derivativ variantları üzrə qarşılaşdırdıqda həmin sözlərin hər birinin ayrı-ayrı mənalar bildirdiyini görmək olar.

Azərbaycan dilindəki *al-* köklü sözlərin müqayisəsində də həmin kökün və ona struktur cəhətdən omonim olan digər sözlərin başqa-başqa, bir-biri ilə əlaqə çərçivəsinə sığmayan anlayışlar bildirdiyi məlum olur. Məsələn, *al-* kökü isim kimi hiylə, sifət kimi tünd qırmızı mənasını bildirir. Eyni kök modeli üzərində həmçinin, bir-biri ilə məna əlaqəsi olmayan *alt* (aşağı), *alın* (başın qarşı hissəsi), *alaq* (alaq otu) kimi sözlər də formalaşmışdır ki, bunların hər birində əvvəlcədən mövcud olan bir kök modeli iştirak edir.

1.2. Feil-feil ardıcıllığı üzrə

Feil-feil ardıcıllığı üzrə baş verən omonim köklü sözlərdə də eyni kök əsasında formalaşmış sözlərin hər birində məna uyğunluğu olmayan anlayışlar bildirilir. Məsələn, *öt* sözü feil kimi müstəqil mənada ötüb keçmək anlayışı bildirir. Həmin kök modeli üzərində qurulan *ötmək* sözü isə eyni zamanda ötüb keçməklə əlaqəsi olmayan danışmaq, oxumaq (ötüb yormaq, bülbül kimi ötmək) mənasını da bildirir. Bunun kimi *üz-* kökü əsasında formalaşmış *üzmək* sözü *qoparmaq*, *suda çimmək*, *yax* kökü əsasında formalaşmış *yanmaq* (yanıb-yaxılmaq) və *yaymaq* (yağ yaxmaq, palçıq yaxmaq, rəng yaxmaq), *göy* kökü əsasında düzəlmiş *göyərmək* (göy rəngə boyanmaq) və *göyümək* (yanmaq) sözləri arasında məna əlaqələri mövcud deyildir.

1.3. Ad-feil korrelyasiyası üzrə

Omonim variantlarının formalaşması üçün dildə monosillab bolluğunun mövcudluğu imkanları əsasında müxtəlif nitq hissələrinə aid sözlərin də eyni kök modeli üzərində qurulması prosesi baş vermişdir. Buna nümunə kimi ad-feil korrelyasiyası üzrə yaranan aşağıdakı nümunələri misal göstərmək olar: *bit* (həşərat) *–bit* (bitmək, tamamlanmaq), *ara* (məsafə) – *ara* (axtar), *al* (hiylə) *–al* (almaq), *çal* (rəng) *–çal* (oğurla), *don* (paltar) *–don* (şaxta, donmaq), *it* (heyvan) *-it* (itmək), *çat* (qırıq) *–çat* (yetişmək), *qay*(a) (daş) *–qay*(ıt) (qayıtmaq) *böy*(ür) (yan, ətraf) – *böy*(ür) (qışqır).

Bu nümunələrdəki *bit* sözü həşarata aid ad bildirir və hərəkət bildirən bitmək sözü ilə heç bir məna əlaqəsinə malik deyildir. Həmçinin, *ara* sözü məsafə mənasında axtarmaq mənasındakı *ara* sözü ilə semantik əlaqəyə yaxınlaşmır. *Çal* sözü sifət nitq hissəsi kimi ağlı-qaralı rəng anlayışı bildirir. Eyni kök modeli üzərində qurulan *çalmaq* feilinin mənası isə ondan tamam fərqlidir. *Don* sözü isim kimi paltar, geyim mənası bildirdiyi halda donmaq sözü soyuqdan, şaxtadan üşümək, donmaq mənasında işlənir. *İt* sözü heyvan mənasında isim kimi işlənir, *itmək* sözü isə aralanmaq, çıxıb getmək, gözdən uzaqlaşmaq, uzaqlaşıb getmək mənası bildirir. *Çat* sözü sifət kimi *qırıq*, sınığı olan mənasını bildirir. *Çatmaq* sözü isə feil kimi yetişmək, gəlmək, yerinə yetmək mənasını bildirir. *Qaya* sözünün kökü kimi işlənən *qay-* tərkibi əvvəlki sözlərdən fərqli olaraq müstəqil məna bildirmir, ilkin kök modeli kimi müstəqil mənadan uzaqlaşmış bir formaya malikdir. Ancaq həmin kökdən isim kimi *qaya*, feil kimi *qayıtmaq* sözü düzəlir ki, onlar da formal kök eyniyyətinə malik olmaqlarına baxmayaraq aralarında heç bir semantik əlaqə müşahidə edilmir. Bunun kimi *böy* – kökü əsasında ətraf, yan mənasını bildirən böyür və *qışqırmaq* mənasındakı *böyürmək* sözü formalaşmışdır.

Bu nümunələrdən göründüyü kimi omonimlərin formalaşması dildə çox mürəkkəb, çox keşməkeşli bir mərhələnin nəticəsində baş vermişdir. Bu proses o qədər çevik, o qədər intensiv və o qədər rəngarəng olmuşdur ki, onun baş verməsi ilə əlaqədar saysız-hesabsız tədqiqatlar araşdırmalar aparılsa da yekun nəticə hasil olmamışdır. Ancaq hər bir tədqiqat, işi həqiqətə çatmaq yoluna cəhd kimi baş verdiyindən onların heç birini səmərəsiz və ya faydasız hesab etmək olmaz. Fakt

budur ki, omonimlər hər bir dildə mövcuddur, onlar dilin qədim sözyaratma prosesinin məhsuludur və müasir dillərdən biri kimi Azərbaycan dilində də müvafiq təkamül variantları üzrə öz ənənələrini davam etdirir.

Омонимичные варианты в азербайджанском языке
старший преподаватель Гульнара Насибова Шамеддиновна
Резюме

Способы образования омонимов в азербайджанском языке очень богаты. Омонимы, как продукт бессуффиксального этапа, исторически играли важную роль в процессе нового словотворчества. В связи с расширением отношений человека и среды на начальной стадии односложности стала возрождаться информационная деятельность, стали возникать новые понятия для наименования вещей и явлений. На этом этапе возможности формирования словесной модели, соответствующей потребности в выражении новых понятий, были ограничены. Другими словами, языковая структура не могла удовлетворить потребность в создании новых моделей в условиях сильного потока информации. Поэтому имеющиеся в языке модели выражения новых понятий заняли лидирующие позиции. Виды омонимов, встречающиеся на этом этапе, образуются на основе языковых единиц, находящихся в сходной семантической среде, независимо от того, относятся ли они к именной или глагольной частям речи. На следующем этапе обилие встречавшихся в языке односложных моделей включало даже односложные, не связанные друг с другом по смыслу. Поскольку такие омонимичные строки составлены из слов, имеющих вполне самостоятельное значение, в целях отличия их от традиционных омонимов в данной статье используется выражение условные омонимичные варианты. Поскольку варианты омонимов построены на односложных корнях, которыми богат азербайджанский язык, в процессе их эволюции сформировались богатые традиции. Так как такие омонимы строятся на односложных словах в самом языке, то они сложились не случайно, а на вполне законной основе.

Ключевые слова: *однокоренность, вариантность, семантическая среда,процесс производности , эволюция*

Homonymous variants in the Azerbaijani language
senior lecturer Gulnara Nasibova Shameddin
Summary

The ways of forming homonyms in the Azerbaijani language are very rich. Homonyms, as a product of the non-suffixal stage, have historically played an important role in the process of new word creation. In connection with the expansion of relations between man and the environment, information activity began to revive

at the initial stage of monosyllabicity, new concepts for naming things and phenomena began to emerge. At this stage, the possibilities of forming a verbal model corresponding to the need to express new concepts were limited. In other words, the language structure could not satisfy the need to create new models in the conditions of a strong flow of information. Therefore, the models of expression of new concepts available in the language have taken a leading position. The types of homonyms encountered at this stage are formed on the basis of linguistic units that are in a similar semantic environment, regardless of whether they refer to nominal or verbal parts of speech. At the next stage, the abundance of monosyllabic models encountered in the language included even monosyllabic ones that were not related to each other in meaning. Since such homonymous strings are composed of words that have a completely independent meaning, in order to distinguish them from traditional homonyms, this article uses the expression conditional homonymous variants. Since the variants of homonyms are built on monosyllabic roots, which are rich in the Azerbaijani language, rich traditions have been formed in the process of their evolution. Since such homonyms are built on monosyllabic words in the language itself, they were formed not by chance, but on a completely legal basis.

Key words: cognatness, variance, semantic environment, derivation process, evolution

İstifadə edilən ədəbiyyat

1. Баскаков Н.А. Историко-типологическая морфология тюркских языков. Москва, Наука, 1972, 279 с.

2. Cəfərov S. Müasir Azərbaycan dili. Bakı, Maarif, 1970, 232 s.

3. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, Azərtədrisnəşr, 1962, 271 s.

4. Əfəndiyeva T. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı, Elm və təhsil, 2011, 352 s.

5. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. B., Maarif, 1988, 308 s.

6. Həsənov H. Azərbaycan dilinin omonimlər lüğəti. Bakı, Şərq-Qərb, 2007, 168 s.

7. Кайдаров А.Т. Структура односложных корней и основ в казакском языке. Алма-Ата, Наука, 1986, 328 с.

8. Məhərərmli B. Türk dillərinin qədim leksikası. Bakı, Xəzər Universiteti, 2017, 272 s.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi: Filologiya elmlər doktoru, professor
Mübariz İmran oğlu Yusifov
tərəfindən çapa tövsiyə olunmuşdur

SHABNAM AGASI AHMADOVA
Baku Business University
Teacher of the Chair of Languages
Email: sebnem.ehmedova.2016@gmail.com

"ENGLISH AS A FOREIGN LANGUAGE: THE ROLE OF MOTIVATION IN EDUCATION"

Summary

English is the most widely spoken second language in the world, therefore speaking it is useful for more than simply getting along with English speakers. The likelihood is that if you wish to communicate with someone from another nation, you will both be speaking English. As English is the most widely used business language, knowing it has nearly become a need for anybody seeking to work internationally. English is the language of preference for cross-border business communication, according to research from throughout the globe, and many multinational corporations demand that their staff members speak it well. The study of English as a Foreign Language links organizations, locations, and individuals. Students should learn English since it will widen their horizons, help them to build their emotional intelligence, and open career chances. While learning a second language, motivation is essential because it gives you the first push you need to begin going and the perseverance you need to see it through.

An EFL teacher should have a good attitude toward the English language and reflect this mentality in his or her classroom since teachers have an impact on students' motivation and interest in classes. Also, a positive attitude may be a sign of a readiness to teach a language, which may assist implement efficient strategies and tactics to boost students' drive to study a foreign language and encourage the growth of good attitudes in them since motivation and attitudes are typically connected. According to Gardner and Lambert (1972), an L2 learner's motivation is the main component that helps or hurts cross-cultural communication. The L2 (second language) Motivational Self System and studies on individual variations in language acquisition stimulate lines of inquiry into the model's validity in other nations and cultural contexts. Language learners should be very motivated to acquire the L2 for both instrumental and integrative reasons. Their desire for a career involving the use of their FL/SL (foreign language/second language) may be an instrumental motivator.

Keywords: L2 motivation, L2 motivational self-system, gender difference, self-discipline, the effect of the instructor

The study of English as a Foreign Language links organizations, locations, and individuals. The market and workforce will require foreign graduates with a thorough understanding of English and advanced language abilities to communicate domestically, internationally, and worldwide as its success shows no signs of slowing down. All around the world, it is the primary language used for learning any subject. Students should learn English since it will widen their horizons, help them to build their emotional intelligence, and open career chances. It allows one to learn about a country's past and present and provides you with insight into cultural differences and similarities. It also offers one a better understanding of people and their various cultures. Studying a foreign language improves one's chances in fields such as commerce, government, law, medicine, technology, the military, industry, marketing, etc. Learning a second language raises your SAT and GRE scores as well as your math and English grades. Studying a foreign language helps pupils develop their analytical abilities.

Motivation is crucial for learning a second language because it provides the initial push needed to get started as well as the drive needed to persevere through the lengthy and sometimes exhausting process. Yet, motivation and competence are not always sufficient for L2 learners to develop communication, especially outside of the classroom. Language learners should be very motivated to acquire the L2 for both instrumental and integrative reasons. Their desire for a career involving the use of their FL/SL (foreign language/second language) may be an instrumental motivator. Integrative motivation is also required since these learners are less interested in professions that just demand the L2 than they are in positions that entail the transfer of information about native speakers and their culture. It is believed that undergraduates who have compelling personal and professional motivations for learning the L2 will have more positive views toward English, which will have an impact on their ability to teach.

Motivation: It covers the control and importance of human attitude, namely the choice for a certain behavior, the adherence to it, and the time spent on it.

Self: One's own information, opinions, sentiments, and comprehensions.

Potential selves: The relationship between a person's motivation and their own future-focused cognitive projections.

Instrumental motivation refers to the desire to learn a language for practical purposes, such as earning money or enrolling in college (Gardner and Lambert, 1972).

Integrative Motivation: It refers to the individual propensity of people who speak a certain language (Gardner and Lambert, 1972).

Learning a language is linked to one’s individual core which constitutes an essential component of a person’s individuality. In this regard, one's self-perception, desire for improvement, as well as their interactions with other communities, will influence how language learners utilize these resources in their repertoire of

behaviors. By learning a foreign language, one must embrace the social norms of that culture, which have an impact on their own.

Self-discipline as a student is closely related to motivation, the ability of students to monitor and control their own behaviors. Students who are highly self-disciplined may be able to better focus on long-term goals and make better choices related to academic engagement. Importance of Self Discipline-

- Know Your Strengths and Weaknesses
- Know When You Are Motivated
- Recognize Your Downfalls
- Stay Positive
- Get Better at Time Management

L2 Motivational Self-System: The integrative motive is the framework as a part of the model of motivation named the socio-educational framework. Throughout the past few decades, this framework has been regarded as the greatest explanation for characterizing the motivational tendencies of students of foreign languages. The foundational research established that students' behavior toward the target society, culture, and language is influenced by the sociocultural context. This was "Integrativeness", which is defined as promoting behavior toward the target society and an attempt to integrate into that particular community.

Attitudes towards learning English linked to the factors in the L2 motivating self-system. It has to do with how learners respond to "immediate learning environment and background." This element is related to the concept of "causal" motivation, which states that students' motivational tendencies vary depending on their learning environments and backgrounds. The effect of the instructor, the curriculum, the peer group, or the sensation of accomplishment can all have an impact on how people feel about learning English. Positive learning experiences have a significant impact on learners' engaged attitudes. L2 motivational self- system is engrained in theory-based improvements in psychology like possible selves theory and more in particular, discrepancy theory, which assumes that the basis of motivation relies on the wish for individuals to diminish the distinctness between one’s actual self and ideal/ought-selves.

L2 Motivation and Gender Differences: When it comes to language acquisition, gender is one of the elements that is frequently investigated. Most studies that looked at the relationship between L2 motivation and gender found differences between male and female learners in their L2 motivation. To illustrate, finding result showed that female students whose ages varied from seven to nine had a higher L2 motivation than male students or female students at high school were more motivated towards English learning than males. Another factor which may affect students’ L2 motivation level is age. Even though only a few studies investigated the connection

between age and L2 motivation, the outcomes of many studies appear to specify that motivation decreased with age.

To conclude, the evolution of language learning depends on motivation, which can also affect L2 competence. The focus of the recent research was on the influence of various motivating elements. To better understand the connection between these L2 motivating elements and students' actual attempts or behaviors, more study is needed. Such a research may involve watching how the students behave in class. Examining cause-and-effect linkages may be difficult, and to obtain a complete analysis, elements like experience, expectations, and anxiety must also be considered. Notwithstanding the uncertainty, these findings about the motivational self- system may help instructors focus on the elements that have been found to be more crucial for students' language learning. It suggests that teachers may investigate students' attitudes toward learning English by making their classrooms more welcoming spaces with little to no anxiety. Also, they can employ instructional resources that help students become their best selves by improving them, as doing so will increase student achievement. Given that motivation plays a crucial part in education, it is crucial that the system considers its significance and the ways in which it might motivate L2 students to attain better English proficiency.

Motivation has an important role in language learning. Via examining it and practicing its results in the language learning process, not only educators but also students will be able to take advantage of it and be more satisfied with their teaching and learning experience.

References:

1. Broady, E. (2005). Language learning motivation: Who do you want to be? Language Learning Journal , 31, 69-74.
2. Brown, H. D. (1990). M & Ms for language classrooms? Another look at motivation. InAlatis, J. E. (Ed.) Georgetown University round table on language and linguistics, (pp.383-393).Washington, D.C.Georgetown University Press.
3. Dörnyei, Z. (1994). Motivation and motivating the foreign language classroom. The Modern Language Journal.
4. Gardner, R.C. (1985).
5. Social psychology and second language learning: The role of attitude sand motivation, London: Edward Arnold.

Əhmədova Şəbnəm Ağası qızı

“İNGİLİS DİLİ XARİCİ DİL KİMİ: TƏHSİLDƏ MOTİVASİYANIN ROLU”

Xülasə

İngilis dili dünyada ən çox danışılan ikinci dildir, ona görə də bu dildə danışmaq ingilis dilində danışanlarla ünsiyyət qurmaqdan daha çox faydalıdır. İngilis dili ən çox istifadə edilən biznes dili olduğundan, onu bilmək beynəlxalq səviyyədə işləmək istəyən hər kəs üçün az qala ehtiyaca çevrilib. Dünyanın hər yerindən aparılan araşdırmalara görə, ingilis dili transsərhəd işgüzar ünsiyyət üçün üstünlük verilən dildir və bir çox transmilli korporasiyalar işçilərinin bu dildə yaxşı danışmasını tələb edirlər. İngilis dilinin xarici dil kimi öyrənilməsi təşkilatları, yerləri və fərdləri əlaqələndirir. Tələbələr ingilis dilini öyrənməlidirlər, çünki bu, onların üfüqlərini genişləndirir, emosional intellektlərini qurmağa kömək edir və karyera şanslarını artırır. İkinci dili öyrənərkən motivasiya çox vacibdir, çünki o, öyrəməyə başlamaq üçün lazım olan ilk təkan və bunu başa düşmək üçün lazım olan əzmkarlığı verir.

EFL müəllimi ingilis dilinə yaxşı münasibət bəsləməli və bu zehniyyəti öz sinifində əks etdirməlidir, çünki müəllimlər tələbələrin motivasiyasına və dərslərə marağına təsir göstərir. Həmçinin, motivasiya və münasibət adətən əlaqəli olduğundan müsbət münasibət bir dili öyrətməyə hazırlığın əlaməti ola bilər ki, bu da tələbələrin xarici dil öyrənməyə həvəsini artırmaq və onlarda yaxşı münasibətin inkişafını təşviq etmək üçün səmərəli strategiya və taktikaların həyata keçirilməsinə kömək edə bilər.

Gardner və Lambert (1972) görə, L2 tələbəsinin motivasiyası mədəniyyətlərarası ünsiyyətə kömək edən və ya zərər verən əsas komponentdir. L2 (ikinci dil) Motivasiya Öz Sistemi və dilin mənimsənilməsində fərdi variasiyalar üzrə tədqiqatlar, dil öyrənənlərin həm instrumental, həm də inteqrativ səbəblərə görə L2-ni əldə etmək üçün çox həvəsli olmalarını vurğulayır. Onların FL/SL (xarici dil/ikinci dil) istifadəsini əhatə edən karyera arzusu alət motivatoru ola bilər.

Açar sözlər: L2 motivasiya, L2 motivasion mənlik sistemi, gender fərqi, Özünütənzimləmə, təlimatçının təsiri.

Ахмедова Шабнам Агаси гызы

«АНГЛИЙСКИЙ ЯЗЫК КАК ИНОСТРАННЫЙ: РОЛЬ МОТИВАЦИИ В ОБРАЗОВАНИИ»

Резюме

Английский является вторым языком, на котором говорят чаще всего в мире, поэтому говорить на нем полезно не только для того, чтобы просто ладить с носителями английского языка. Скорее всего, если вы захотите общаться с кем-то из другой страны, вы оба будете говорить по-английски.

Поскольку английский является наиболее широко используемым деловым языком, его знание стало почти необходимостью для всех, кто хочет работать на международном уровне. Согласно исследованиям, проведенным по всему миру, предпочтительным языком для трансграничного делового общения является английский, и многие транснациональные корпорации требуют, чтобы их сотрудники хорошо говорили на нем. Изучение английского языка как иностранного связывает организации, места и отдельных лиц. Студенты должны изучать английский язык, так как это расширит их кругозор, поможет развить эмоциональный интеллект и откроет возможности для карьерного роста. При изучении второго языка мотивация имеет важное значение, потому что она дает вам первый толчок, который вам нужен, чтобы начать, и настойчивость, которая вам нужна, чтобы довести дело до конца.

Преподаватель английского языка должен иметь хорошее отношение к английскому языку и отражать этот менталитет в своем классе, поскольку учителя влияют на мотивацию и интерес учащихся к занятиям. Кроме того, позитивный настрой может быть признаком готовности преподавать язык, что может помочь реализовать эффективные стратегии и тактики, повышающие стремление учащихся к изучению иностранного языка и стимулирующие рост у них хороших установок, поскольку мотивация и установки, как правило, связанный. Согласно Гарднеру и Ламберту (1972), мотивация учащегося L2 является основным компонентом, который помогает или мешает межкультурной коммуникации. Система мотивационной самости L2 (второй язык) и исследования индивидуальных вариаций в овладении языком стимулируют исследования валидности модели в других странах и культурных контекстах. У изучающих язык должна быть высокая мотивация к освоению L2 как по инструментальным, так и по интегративным причинам. Их желание сделать карьеру, связанную с использованием их FL/SL (иностранный язык/второй язык), может быть действенным мотиватором.

Ключевые слова: L2-мотивация, L2-мотивационная система самости, гендерные различия, Самодисциплина, влияние инструктора

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi: ped.ü.f.d. Fəridə Şükürova
tərəfindən çapa tövsiyə olunmuşdur

MAHMUDAĞA OĞLU QASIMOV
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Cəlilabad filialının baş müəllimi
E-mail: mahmudağa@mail.ru

CƏLİLABAD RAYON ŞİVƏLƏRİNDƏ BƏZİ SÖZLƏRDƏ SAMİTLƏRİN ARTIMI VƏ DÜŞÜMÜ

Açar sözlər: söz, şivə, samit, səsartımı, səsdüşümü, orfoepik, dialekt, dialektologiya, tədqiqat, fonetik hadisə

Ключевые слова: слова, акцент, согласный, саундтрек, согланый звук, орфоэпический, диалект, диалектология, исследование, фонетик событие

Key words: word, accent, consonant, sound increase, sound drop, orphoepic, dialect, dialectology, research, phonetic event

Müasir Azərbaycan dilində **uyuşma** (assimlyasiya), **səsartımı** (proteza), **səsdüşümü** (eliziya), **səsfərqləşməsi** (dissimlyasiya), yerdəyişmə (metateza) kimi fonetik hadisələr vardır. (2, 99-100) Lakin "Azərbaycan dilinin orfoqrafiya lüğəti" sözlərin düzgün yazılışını özündə ehtiva edən, hər bir vətəndaşın istinad və istifadə edə biləcəyi bir mənbədir. (1,6) Odur ki, hər bir şəxs yazı prosesində bu qaydalara əməl etməlidir. Bildiyimiz kimi, müasir dialekt və şivələrimizin qrammatik quruluşu və lüğət tərkibi çox maraqlıdır. Onları bir-birilə müqayisə edərkən bəzi orfoepik hallar diqqəti özünə cəlb edir. Bunları dilçilik nöqteyi- nəzərindən tədqiq edib elmi şəkildə qruplaşdırmaq çox vacibdir. Bu cəhətdən Cəlilabad rayonu ərazisindəki bəzi şivə xüsusiyyətləri maraq kəsb edir. Burada sait və samit səslərin bir –birini əvəz etmələri , sözdə sait , samit səsartımı və düşümünün maraqlı formaları var. Buna görə tədqiq etdiyimiz faktları sistemli şəkildə aşağıdakı quruluşda verməyi qarşıya məqsəd qoyduq. Bunların Azərbaycan dilçiliyinə və xüsusən onun dialektologiyasına lazımi töhvə verəcəyinə inanırıq.(4,70)

Samitlərin artımı

Dialekt və şivələrimizdə əbədi dildən fərqli olaraq sözlərin əvvəlində, ortasında və axırında müəyyən samitlərin (**y, h, g, x, n v**ə s.) artımını görürük. (5, 98) Şivəmizdə də bu hal mövcüddur. Samitlərin artımı özünü sözlərin əvvəlində, ortasında və axırında aşağıdakı samit səslərdə göstərir.

a) h samit səsinin sözün əvvəlinə və ortasına artırılması: Məsələn, açar - haçar, asan - hasan, elə - helə, əlbət - həlbət, əlbəttə - həlbətdə, alaq - halaq//halağ, nə vaxt - havaxt, indi - hindi, alov - halov//halo, ürkən - hürkən, ürkəyən - hürkəyən, ürkmə - hürkmə, ürkütmə-hürkütmə, saat - sahat, əlbəəl-əlbəhəl, camaat - camahat, etibar-ehtibar, lənət-nəhlət, vəzəri-vəzəhri, sonra- sohra//sora və s.(3,59)

b) y səsinin sözün əvvəlinə və ortasına artımı: eniş-yeniş, alov-yalov//yalo, zivər-ziyvər, qaib-qayib, qail-qayil, şücaət-şücayət, təbiət-təbiyət, radio-radiyo, stadion-stadiyon, maneə-maniyə, təqaüd-təqayüt, faiz-fayiz, zəif-zəyif, zinət-

ziynət//zinyət, şair-şayir, ailə-ayilə, müəllim-miyəllim//məllim, Səidə-Səyidə, Naib-Nayib, teatr-tiyatır, qənaət-qənayət, nizə-niyzə və s. (3,59)

c) v və **y səsinin** söz sonuna artımı özünü alınma sözlərdə **o** səsindən sonra göstərir. Məsələn: çalo-çalov//çaloy, kilo-kilov//kiloy, cilo-cilov//ciloy, qaşo-qaşov//qaşoy, kino-kinov//kinoy, bülö-bülöv//bülöy və s**. (3,59)**

ç) m səsinin sözün sonuna artımı: keşkə-keşkəm, bəlkə-bəlkəm və s. (3,59)

Samitlərin düşümü

Tədqiqat zamanı rayonumuzun müxtəlif yaşayış yerlərində söz əvvəlində **h** samit səsinin **ı, i, ü, ö, a, ə** səslərindən əvvəl düşümünə aşağıdakı sözlərdə rast gəldik.Ancaq söz ortasında və söz axırında samit səs düşmələrini yetərincə müşahidə etmək olar.

Söz əvvəlində samit düşümü

a) h səsinin düşməsi: hüzr-üzür, hikkə-ikkə, hıçqırıq-hıçqırığ//içqırığ, həvəngdəstə-əvəngdəstə, hasar-asar, hafiz-afiz, hafizə-afizə, haça-aça, həcəmət-əcəmət, hörümçək-örümçəy, hövsələ-övsələ // ösələ, hikmət-ikmət, Həsən-Əsən, Həşim-Əşim, Həmid-Əmid, hamar-amar və s. (3,60)

Söz ortasında samit düşümü

a) h səsinin düşməsi: vəhşi-vəşi, dəhşət-dəşət, vəhşət-vəşət namazı, ehsan-esan, təhkimçi-təkimçi, nəsihət-nəsiət, xahiş-xaiş, məhsul-məsul, təhkim-təkim, Şahsevən-Şasevən, Şahbəyim-Şabəyim, Vəcihə-Vəciə, Sahib-Saib, sülhsevər-sülsevər, şəhadətnamə-şəadətnamə, təhvil-təfil, məşhər-məşər, təhsil-təsil, möhkəm-mökəm, məhkəmə-məkəmə, köhnə-könə, söhbət-söbət, Tahirə-Tairə, Zahirə-Zairə, qəhvədan-qəfədan, nohur-nour, İbrahim-İbreim, Möhsüm- Mösüm, Pirhəsən ocağı-Pirəsən ocağı, Allahverən- Allaverən, məşhədi-məşədi, Ağahəsən-Ağasən, ehtiram-etiram, ehtimal-etimal, ehtiyac-etiyac, ehtiyat-etiyat//etiat, ehkam-ekam, sübhdən-sübdən, sülhsevən-sülsevən, şəhid-şəid, möhlət-mölət, möhtac-mötac, möhtərəm-mötərəm, möhür-möür, islahat-islaat, islahetmə-islaetmə, müşahidə-müşaidə və s.

b) y səsinin düşümü: göyərçin-göərçin, qafiyə-qafiə, layiq-laiq, lələyün-lələün, sitayiş-sitaiş, siyah-siah, söyüş-söüş, şikayət-şikaət, yeyərdim-yeərdim, böyük-böük, böyrək-börək, böyür-böür, böyürtkən-böürtikən, himayə-himaə, göyərti-göərti, çiyələk-çiələk, çəyirtkə-çəirtkə, ceyran-ceran, Teymur-Temur, Hüseyn-Hüsein, üç yüz-üçüz, toyuq-touğ, köynək-könək, göyçək-göçək, seyf-sef, seyid-seid, seyrək-serək, veyil-veil, vilayət-vilaət, şeyx-şex//şıx, Xətayi-Xətai, müqayisə-müqaisə, mülayim-mülaim, piyada-piada, meyxana-mexana, meyxoş-mexoş, meyit-meit//meid, mərsiyə-mərsiə, nümayiş-nümaiş, titrəyiş-titrəiş, ziyarət-ziarət, əməliyyat-əməliat, eylə-elə, ədəbiyyat-ədəbiat, kifayət-kifaət, kirayə-kiraə, əhəmiyyət-əhəmiət, əksəriyyət-əksəriət, tövsiyə-tövsiə, tiyə-tiə, saniyə-saniə, meyvə-mevə və s. (3,61,62)

c) v səsinin düşümü: yuva-yua, yovuşma-youşma, hovlama-holama, kovuş-kouş, tövsiyə-tösiyə, mövsüm-mösüm, yovşan-yoşan, novruz-noruz, dövran-döran, tövlə-tölə, övsələ-ösələ, ovsun-osun, ovma-oma, ovsana-osana, tövbə-töbə//toba,

zınqırovlu-zınqırolu, lövhə-löhə, ovçu-oçi, ovxala-oxala, dovşan-doşan, dovğa-doğa, ovqat-oqat, dövlə-dölə, qarovul-qaroul, suval-sual (kirəmit), növraq-norağ, növbar-nobar//nubar, qanovuz-qanou lovğa-loğa, kəkovluq-kəkoluğ, sinovgetmə-sinogetmə, qovğa-qoğa, hovuz-houz, qırqovul-qırqoul, ovuq-ouğ, suvaq-suağ, ovuc-ouc//oc, dövlət-dölət, bənövşə-bənöşə, çovğun-çoğun, kövşən-köşən, gövhər-göhər, qovmaq-qomağ, növbə-nöbə, bünövrə-bünörə, qovurma-qourma, ovduq-oduğ, çuval-çual, buxovlu-buxolu, kövşən-köşən, novlu-nolu, dövlət-dölət, suvat-suat (mal-qara suvarılan yer), suqovuşan-suqouşan, sovuruq-souruğ//soruğ, ovunma-ounma və s.(3,62,63)

ç) l səsinin düşümü: altmış-atmış, altmışıncı-atmışıncı, milçək-miçək//miçəy, Milçəkli yurd- Miçəyli yurd (Astanli kəndində yer adı), ölçdüm-öşdüm və s.(3,63)

d) n səsinin düşümü: sonra-sora, sancdım-sajdım, gülünc-gülüc, könlüm-kölüm, bürünc-bürüc, nadinc-nadic, dilmanc-dilmac, qılınc-qılıc, yelpinc-yelpic, donuz-douz, qorxunc-qorxuc və s.

Eləcə də şivəmizdə bəzi sözlərdə **n** səsinin düşməsi və həmin sözdə **g>y** əvəzlənməsi özünü göstərir. Məsələn: qəşəng-qəşəg//qəşəy, rəng-rəy, pələng-pələy, turşəng-turşəy, tüfəng-tüfəy// tifəy, fişəng-fişəg//fişəy və s. (3,63)

e) f səsinin düşümü: öfkə-ökə, öfkələmək-ökələmək, öfkələnmək-ökələnmək, öfkələtmə-ökələtmə, kartofçu-kartoçu, kartoflu-kartolu, kartofsoyan-kartosoyan, kartofyığan-kartoyığan, kartofbecərən-kartobecərən, kartofçıxaran-kartoçıxaran, kartofçuluq-kartoçuluğ, kartofəkən-kartoəkən və s.(3,63)

ə) t səsinin düşümü: ətcə-əççə, ətcəbala-əççəbala, ətçi-əççi, ətçilik-əççilik//əççiliy, neftçi-nefçi, növbətçi-nöbəçi, dostca-dosca, dostluq-dosluğ, güzəştedən-güzəşedən, üstdə-üsdə, xoşbəxtlik-xoşbəxliy, reseptçi-resepçi, sərbəstlik-sərbəsliy, humanistlik-hümansliy, üstdəki-üsdəki, üstdən-üsdən və s.(3,63-64)

f) r səsinin düşümü: qurtar-qutar, xərclik-xəjdik, bircür-bicür, bircürə-bicürə, bircins-bicins, birqat-biqat, birqəpiklik-biqəpiyliy, birdibli-bidibli, birdəfəlik-bidəfəliy, birmərtəbə-bimərtəbə, biradamlıq-biadamlığ, biratımlıq-biatımlığ, biratlı-biatlı, biraylıq-biaylığ, birazdan-biazdan, birbaş-bibaş, birbişirim-bibişirim, bircərgə-bicərgə, birelli-bielli, birevli-bievli, birəlli-biəlli, birfikirli-bifikrli, birgöz-bigöz, birgünlük-bigünlüy, birtəhər-bitəhər, birüzlü-biüzlü, biryerli-biyerri, bir qədər-biqədər, bir çox- biçox, bir az- biaz, birnəfərlik-binəfərliy, birdüymə-bidüymə, birnəfəsə-binəfəsə, birotaqlı-biotağlı, birpara-bipara, birsəslə-bisəslə, birsaylı-bisaylı, birsimli-bisimli və s.(3,64-65)

g) Qoşa **m** samitli sözlərdə tələffüz zamanı **m səsinin** birinin **düşməsi** və həmin sözdə **d** samitinin **t** şəklində deyilməsi: Məmmədqulu-Məmədqulu //Məmətqulu, Məmmədkərim-Məmədkərim//Məmətkərim, Məmmədbağır-Məmədbağır//Məmətbağır, Məmmədrza-Məmədrza//Məmətrza və s. (3,65)

ğ) Sözdə tələffüz zamanı **d səsinin düşməsi**: Axundoba-Axunoba nəsiltirəsi (Sabirabad kəndində), Axundəkən-Axunəkən (Alaşar kəndində yer adı),

axundluq-axunluğ, avandlaşdırma-avanlaşdırma , avandlaşmaq-avanlaşmağ, və s.(3,65)

h) ğ səsinin düşümü: koğuş-kouş, koğuşlu-kouşlu, koğuşsuz-kouşsuz, oğlaq-olaq, oğlaqlı-olağlı, oğlaqlıq-olağlıq, oğlaqsız-olağsız, doğrusu-dorusu, doğramac-doramac, doğrudan-dorudan və s.(3,65)

Söz axırında samit düşümü

a) r səsinin düşümü III şəxs xəbər şəkilçilərində, feil, say və s. özünü göstərir. Məsələn: gəlibdir-gəlibdü, adamdır-adamdı//adamdu, yaxşıdır-yaxşıdı, işdir-işdi//işdü, işçidir-işçidi//işçidü, naxoşdur-naxoşdu, istidür-istidü, kimdir-kimdi//kimdü, bəsdir-bəsdü//bəsdi, quşdur-quşdu, gətir-gəti, götür- götü, otur-otu, dur- du, bir-bi, yaxşıdır-yaxşıdı, toxdur-toxdu, yoxdur-yoxdu, çoxdur-çoxdu və s.(3,65-66)

b) h səsinin düşümü: cavabdeh-cavabde, vallah-valla, qibləgah-qibləga, xeyirxah-xeyirxa, dərgah-dərga, hərgah-hərga, matah-mata, sabah-saba, saleh-sale, səth-sət, islah-isla, valeh-vale, tənbeh-tənbe, təsbeh-təsbe, timsah-timsa, Vazeh-Vaze, Mirsalah-Mirsala, Əlipənah-Əlipəna, taleh-tale, vəch-vəc, əməlisaleh-əməlisale, bədxah-bədxa, billah-billa, bismillah-bismilla, illah-illa, inşallah-inşalla, Allah-Alla, sübh-süb, ürcah-ürca və s.(3,66)

c) t səsinin düşümü əsasən özünü alınma sözlərdə, **s** və **x kar samitlərindən sonra** göstərir. Məsələn: güzəşt-güzəş, dostpərəst-dospərəs, xoşbəxt-xoşbəx, antifaşist-antifaşis, xəyalpərəst-xəyalpərəs, tost-tos, alpinist-alpinis, xoşbəxt-xoşbəx, şrift-şrif, test-tes, artist-artis, ateist-ateis, avqust-avqus, trast-tras, trest-tres, turist-turis, resept-resep, sərbəst-sərbəs, büst-büs, post-pos, dürüst-dürüs, dəst-dəs, rast-ras, məst-məs, süst-süs, dost-dos, bədbəxt-bədbəx, vaxt-vax, jurnalist-jurnalis, humanist-hümanis və s. (3,66-67)

ç) v səsinin düşümü: buzov-buzo, oxlov-oxlo, bütöv-bütö, bülöv-bülö, kösöv-kösö, buxov-buxo, qırov-qıro, qılov-qılo, kövüz-köüz, zınqırov-zınqıro, qaşov-qaşo, selov-selo (sel-su yuyan yer), tilov-tilo, plov-pılo//plo, dəmrov-dəmro, alov-alo, pərtöv-pərtö//pərto, ənöv-ənö, bədöv-bədö, əfv-əf, kəkov-kəko (ağac növü), uzunsov-uzunso, cilov-cilo və s.(3,67)

d) d səsinin düşümü: axund-axun, raund-raun, fond-fon, avand-avan, genofond-genafon, sapand-sapan və s. (3,67)

e) l səsinin düşümü özünü aşağıdakı iki sözdə göstərir: gəl-gə, deyil-döyül//döyü və s.(3,67)

ə) f səsinin düşümü: kartof-karto//qarto, relyef-relye və s.(3,67)

İstifadə olunan ədəbiyyat

1. Azərbaycan dilinin orfoqrafiya lüğəti, 6-cı nəşr, Bakı:"Şərq-Qərb", 2013, 839 səh.
2. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili, I hissə, Bakı: "Şərq-Qərb", 2007, 253 səh.
3. Qasımov M. Cəlilabad rayonunun bəzi şivə xüsusiyyətləri, Bakı: "Elm və təhsil", 2021, 115 səh.
4. Qasımov M. Filologiya məsələləri. Cəlilabad rayonu şivələrində sait əvəzlənmələri, Bakı: "Elm və təhsil" 2022, N:6, 70-77 səh.
5. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları, Bakı: " Şərq Qərb", 2008, 421 səh.

M.Qasımov

Xülasə

Cəlilabad rayonu şivələrində bəzi sözlərdə samitlərin artımı və düşümü

Məqalədə Cəlilabad rayonu şivələrində tələffüz prosesində özünü göstərən fonetik hadisələrdən, xüsusilə bəzi işlək sözlərdə samitlərin artımı və düşümündən söz açılır.Faktlar göstərir ki, rayonun şivələrində diqqəti özünə cəlb edən rəngarəng ləhcə formaları var. Araşdırma zamanı müəyyən etdik ki, bunların yaranmasına səbəb Cəlilabad ərazisinə müxtəlif rayonlardan miqrasiya edib daimi yaşamağa gəlmiş şəxslərin nitqindəki mövcud tələffüz xüsusiyyətləridir. Bu baxımdan şivəmiz Azərbaycanın digər dialekt və şivələrindən fərqlənir. Burada tələffüz zamanı sözlərdə sait və samit səslərin bir-birini əvəz etməsini, sait, samit səsartımı, səsdüşümü və s. kimi məsələləri görmək olur. Odur ki, bu məqalədə Cəlilabad rayonu şivələrindəki bəzi sözlərdə samitlərin artımı və düşümünü öyrənmiş, onları nümunələrlə verməyə nail olmuşuq. Çalışmışıq ki, şivəmizdəki bu orfoepik xüsusiyyətləri hərtərəfli tədqiq etmək üçün rayonun bütün yaşayış oykonimlərində olaq, müxtəlif yaş həddində olan sakinlərin söhbətlərinə qulaq asaq, onların tələffüzündə müşahidə etdiyimiz orfoepik cəhətləri düzgün şəkildə qeydə alaq. Nəticədə istədiyimiz tədqiqat işinə nail olduq. Dərk etdik ki, öyrəndiyimiz faktlar dilimizi, onun dialektoloji xüsusiyyətlərini araşdırmaq baxımından çox maraqlı və dəyərlidir. Odur ki, tədqiq edib araşdırdığımız materialın dilimizi, onun tarixi kökünü, fərqli şivə xarakterinə malik olduğunu nəzərə alıb, Cəlilabad rayon şivələrində bəzi sözlərdə samitlərin artımı və düşümünü sistemli şəkildə verməyi məqsədəmüvafiq bildik.

М. Гасымов

Резюме

Подъем и опускание согласных в некоторых словах в диалектах Джалилабадского района .

В статье рассказывается о фонетических явлениях, проявляющихся в процессе произношения в диалектах Джалилабадского района, особенно подъеме и опускании согласных в некоторых служебных словах. диалекты региона имеют красочные диалектные формы, привлекающие внимание. В ходе исследования мы установили, что причиной их появления являются существующие произносительные особенности в речи людей, переселившихся из разных регионов и приехавших на постоянное жительство в Джалилабадскую область. В этом отношении наш диалект отличается от других азербайджанских диалектов и диалектов. Здесь при произношении гласные и согласные звуки в словах сменяют друг друга, гласные, согласные звучат, звучат и т. такие проблемы можно увидеть. Поэтому в этой статье мы изучили подъем и опускание согласных в некоторых словах в диалектах Джалилабадского района и сумели привести их на примерах. Чтобы всесторонне изучить эти орфоэпические особенности в нашем диалекте, мы постарались побывать во всех жилах-оуконимах края, прослушать разговоры жителей разного возраста и правильно зафиксировать наблюдаемые нами орфоэпические особенности в их произношении. В результате мы добились желаемой исследовательской работы. Мы поняли, что полученные нами факты очень интересны и ценны с точки зрения изучения нашего языка и его диалектологических особенностей. Поэтому, принимая во внимание тот факт, что изученный и исследованный нами материал является нашим языком, его историческими корнями и имеет различный диалектный характер, мы сочли целесообразным систематически давать подъем и опускание согласных в некоторых словах в диалектах Джалилабадского района. .

M.Gasımov

Summary

The rise and fall of consonants in some words in Jalilabad region dialects

The article talks about the phonetic phenomena that manifest themselves in the pronunciation process in the Jalilabad region dialects, especially the rise and fall of consonants in some functional words. The facts show that the region's dialects have colorful dialect forms that attract attention. During the research, we determined that the reason for their emergence is the existing pronunciation features in the

speech of people who migrated from different regions and came to live permanently in the Jalilabad area. In this respect, our dialect differs from other Azerbaijani dialects and dialects. Here, during the pronunciation, vowel and consonant sounds in the words replace each other, vowel, consonant sounding, sounding, etc. such issues can be seen. Therefore, in this article, we have studied the rise and fall of consonants in some words in the dialects of Jalilabad region, and managed to give them with examples. In order to comprehensively study these orthoepic features in our dialect, we tried to be in all residential-oukonyms of the region, to listen to the conversations of residents of different ages, and to correctly record the orthoepic features we observed in their pronunciation. As a result, we achieved the desired research work. We realized that the facts we learned are very interesting and valuable in terms of studying our language and its dialectological features. Therefore, taking into account the fact that the material we have studied and researched is our language, its historical roots, and has a different dialect character, we found it appropriate to systematically give the rise and fall of consonants in some words in Jalilabad district dialects.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Yədulla Dadaşlı tərəfindən çapa tövsiyə olunmuşdur

SÜLEYMANOVA GÖYÇƏK EYNUR QIZI
Bakı Dövlət Universiteti Azərbaycan dilçiliyi
Kafedrası
Bakı Dövlət Universiteti, 23 Akademik Zahid Xəlilov küçəsi, Bakı 1148
E-mail:goycek.suleymanova.2000@gmail.com

FEİLİ BAĞLAMANIN MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ

Qeyri-predikativ feil formalarından biri olan feili bağlama, ilk növbədə, feilin, qismən isə zərfin xüsusiyyətlərini daşıyır. Feili bağlamalar, adından da göründüyü kimi, feilləri bir-birinə bağlayır, əlaqələndirir və əsas feildən əvvəl gələrək asılı mövqedə dayanır. Feili bağlama predikativ feil formalarından fərqli olaraq, zamana, şəklə, şəxsə, kəmiyyətə görə dəyişmir. Digər qeyri-predikativ feil ü Lakin bu *deyə* qoşması ilə qarışdırılmamalıdır. Məsələn, Sanki dodaqlarındakı boya qurumasın *deyə* (qurumaması üçün) kölgə salırdı (2, s, 20).

3. *-arkan (-ərkən); -ırkan (-irkən, -urkan, -ürkən); -mışkən (-mişkən, -muşkən, -müşkən)* şəkilçiləri qeyri-qəti gələcək, indiki və nəqli keçmiş zaman şəkilçiləri ilə *ikən* ədatının birləşməsindən əmələ gəlmişdir. Bu mənaları ifadə edir: a) zaman: Quyuda *işlərkən* yuxarıdan düşən daş çiynini yaralamışdır (2, s, 18). Bu şəkilçi ilə düzələn feili bağlamalar zamana görə əsas feillə eyni vaxtda icra olunur. b) qarşılaşdırma: Sevgilimin qolundan yapışmaq *istərkən*, qoymadı, özü mənim qoluma girdi (2, s, 28).

4. *-anda (-əndə)* şəkilçisi ilə düzələn feili bağlamalardakı iş davam etdiyi zaman əsas feildəki iş başlanır. Etimoloji cəhətdən *-an*[2] (feili sifət) və yerlik hal şəkilçisinin birləşməsindən əmələ gəlməsi haqqında fikirlər olsa da, bu formalar fərqli məzmunlar ifadə edir. -anda[2] şəkilçili feili bağlamalar bu mənaları ifadə edir: a) zaman: Kərbəlayı Tapdığın dəyəsinə *yaxınlaşanda* qulağına səs gəldi (2, s, 37). b) səbəb: Etirazına qulaq asıb getmədiyimi *görəndə* ustam sevindi (2, s, 69). c) qarşılaşdırma: Amma mən bu kənddə kolxoz *quranda*, sinəmi qayalara verib beşaçılan dalında *yatanda*, qaçaqlarla *atışanda* sən yalda-yamacda gəzirdin (7, s, 25).

5. *-andan (-əndən)* şəkilçisi ilə düzələn feili bağlamalar əsas feildəki iş, hal və hərəkətin başlanğıc nöqtəsini bildirir. Etimoloji cəhətdən *-an*[2] (feili sifət) və çıxışlıq hal şəkilçisinin birləşməsindən əmələ gəlməsi haqqında fikirlər olsa da, bu formalar fərqli məzmunlar ifadə edir. Məsələn, Evə *gələndən* (gələn adamdan) səbəb soruşmazlar (2, s, 192). Bu şəkilçili feili bağlamalar *sonra, bəri* qoşmaları ilə və qoşmasız işlənə bilir. Qoşmalı formanı feili bağlama hesab etmək olmaz. Bu mənaları ifadə edir: a) zaman: Ramiz oxumağa *gələndən* üç dəfə otağını dəyişmişdi. (2, s, 133). b) şərt: Ağam izni *verəndən* sonra mənim sözüm yoxdur (4, s, 303).

6. *-dıqda (-dikdə, -duqda, -dükdə)* şəkilçisi ilə düzələn feili bağlamalar əsas feildəki işin başlanma anını göstərir. Etimoloji cəhətdən *-dıq*[4] (feili sifət) və yerlik hal şəkilçisindən ibarətdir. *-dıq*[4] feili sifət şəkilçisi müstəqil işlənə bilmir. Ya

mənsubiyyət, ya da hal şəkilçiləri (yerlik və çıxışlıq) ilə işlənir. Statik hal olan yerlik hal hərəkət tələb etmir və qoşmasız işlənir. Ona görə də bu şəkilçilər birləşərək feili bağlama şəkilçisi kimi formalaşıb. Bu mənaları ifadə edir: a) zaman: Şahnaz aşağı *əyildikdə* İmran onun ilıq nəfəsini üzündə hiss edirdi (7, s, 80). b) səbəb: Kazım bıçağın əldən çıxacağını *gördükdə* özünü itirdi (7, s, 211).

7. *-dıqca (-dikcə, -duqca, -dükcə)* şəkilçisi ilə düzələn feili bağlamalar zamana görə əsas feildəki işin davam etmə müddətini göstərir. Bu mənaları var: a) zaman: Qaranlıq *düşdükcə*, İmran daha çox kədərlənirdi (7, s, 237). b) qarşılaşdırma: Güləsər həyadan puçur-puçur tər *tökdükcə*, Şahnigar onun ətrafına fırlanıb çırtıq çalır, gah oxuyur, gah da şaqqıldayıb gülürdü (8, s, 85). c) səbəb: Səni bikef *gördükcə* ürəyimiz qana dönürdü (8, s, 305).

8. *-ınca (-incə, -unca, -üncə)* şəkilçisi ilə düzələn feili bağlamalar əsas feildəki işin davam etmə müddətini göstərir. Bu şəkilçinin I elementi *-ın*[4] *-an*[2] (feili sifət) şəkilçisinin qədim qapalı saitli variantıdır. I element yiyəlik hal şəkilçisi ola bilməz çünki, *-ınca*[4] şəkilçili feil hallanır və yönlük halda işlədilərkən qoşma qəbul edir. Məsələn, Zeynəb bağın ayağındakı evlərinə *girincəyə qədər* onu gözdən qoymazdı (7, s, 62). Bu mənaları ifadə edir: a) zaman: Qızların qaqqıltısı və ayaq tappıltıları yarğanda *səslənincə*, paltarını başına dolayıb, özünü suya atdı (8, s,18). b) şərt: Cahandar ağa and içmişdi ki, düşmənindən intiqam *almayınca* camaat içinə çıxmayacaq (8, s, 34). c) müqayisə: Çörəyini belə adama *yedirdincə*, itə tullasan bundan min pay yaxşıdır (3, s, 131).

9. *-alı (-əli)* şəkilçisi ilə düzələn feili bağlamalar hərəkət və hadisənin başlama zamanını, I işlə II işin arasındakı zamanın müddətini bildirir. Bu mənaları ifadə edir: a) zaman: İndi siz *gedəli* tam dörd il neçə aydır (4, s, 125).

10. *-ma (-mə) və -dan (-dən)* şəkilçisinin birləşməsindən düzələn feili bağlamalar əsas feildəki işin davam etmə müddətini göstərir. Qoşmalarla da (qabaq, sonra, əvvəl) işlənə bilir. Bu mənaları ifadə edir: a) zaman: Ancaq bir dəqiqə *keçmədən* xəlvəti oğurlanıb küçəyə getdiyini, qutunu götürüb ətəyinin altında gətirdiyini duyuram (2, s, 117). b) tərz: Uşaqlar *qımıldamadan* üzümə baxırdılar (2, s, 24).

11. *-ma (-mə)* və *-mış (-miş, -muş, -müş)* şəkilçisinin birləşməsindən düzələn feili bağlamalar zamana görə əsas feildəki iş və hərəkətdən sonra baş verir. Bu şəkilçili feili bağlamalar *-dan*[2] şəkilçisini qəbul edərək, *əvvəl* və ya *qabaq* qoşmaları ilə işlənə bilir. Məsələn, Bu külək elə bil günəş *çıxmamışdan əvvəl* gecənin son qalıqlarını qabağına qatıb uzaqlara qovdu (8, s, 245). Bu mənaları var: a) şərt: Arvadın adəti idi: özü *çağırmamış* heç kəs cəsarət edib icazəsiz onun otağına girə bilməzdi (7, s, 284). b) zaman: O, geri qayıdıb yerində *oturmamış*, Kazım özünü içəri saldı (7, s,158).

12. Təkrarlanan eyni feilin I-si *-ar,* II-si *-maz* şəkilçisini qəbul edərək yaranan feili bağlamalar əsas feildəki işin başlanma anını göstərir. Bu şəkilçi *istəmək* feilinə qoşulduqda zərf əmələ gətirir. Məsələn, Mirzə Əsgər *istər-istəməz* dirəyi götürməli

oldu (2, s, 122). Bu mənaları ifadə edir: a) zaman: Kişi gözünü *yumar-yummaz* qulağına gələn bir səs onu diksindirib yerindən qaldırardı (7, s, 276).

13. *-acaq (-əcək)* şəkilçisi ilə düzələn feili bağlamanın ifadə etdiyi işin icrası təzəcə başladığı zaman əsas feildəki iş başlanır. Bu mənaları ifadə edir: a) səbəb: Nitqim tutulur hərzəvü hədyanını *görcək.* b) zaman: Zeynəbi *görcək* sərdiyi paltarı tez yığışdırıb gizlətmək istədi (7, s, 207).

14. *a-a (ə-ə)* şəkilçisi ilə düzələn feili bağlamadakı işin icrası ilə əsas feildəki işin icrası eyni zamanda baş verir. Bu şəkilçi ilə düzələn feili bağlamaları bəziləri zərf adlandıraraq. hərəkətin tərzini bildirdiyini qeyd edirlər. Lakin yalnız bu feili bağlamalar deyil, başqaları da tərz bildirir. Bu mənaları ifadə edir: a) tərz: Kosaoğlu çiyni *atıla-atıla* güldü (7, s, 70). b) qarşılaşdırma: Uşaq *ola-ola* məni iclasda biabır elədi, sonra da gotürüb qəzetdə yazdı (7, s, 29).

ƏDƏBİYYAT:

1. Azərbaycan dilinin qrammatikası. Bakı: Azərb. SSRİ EA-nın nəşri, 1960, 334 s.
2. Cəlal M. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005, 384 s.
3. Haqverdiyev Ə. Seçilmiş əsərləri. I cild. Bakı: Lider nəşriyyat, 2005, 504 s.
4. Haqverdiyev Ə. Seçilmiş əsərləri. II cild. Bakı: Lider nəşriyyat, 2005, 408 s.
5. Hüseynzadə M. Müasir Azərbaycan dili, Bakı: Şərq-Qərb, 2007, 280 s.
6. Kazımov Q. Müasir Azərbaycan dili. Morfologiya, Bakı: Nurlan, 2010, 400 s.
7. Şıxlı İ. Seçilmiş əsərləri. I cild. Bakı: Şərq-Qərb, 2005, 408 s.
8. Şıxlı İ. Seçilmiş əsərləri. II cild. Bakı: Şərq-Qərb, 2005, 400 s.
9. Zeynalov F. Türk dillərinin müqayisəli qrammatikası, Bakı: MBM, 2008, 354 s.

Süleymanova Göyçək

Feili bağlamanın morfoloji xüsusiyyətləri

Xülasə

Feilin qeyri-predikativ formalarından biri də feili bağlamadır. Feili bağlamalar feilin hibrid forması olaraq feilin və zərfin xüsusiyyətlərini daşıyır. Feili bağlama feildir, hərəkət məzmunu ifadə edir, təsdiq və inkarda işlədilir, təsirli və təsirsiz olur, müxtəlif qrammatik məna növlərində işlədilir, ətrafına söz toplaya bilir. Lakin şəxsə, zamana, şəklə görə dəyişə bilmək kimi bəzi feil xüsususiyyətlərindən məhrumdur. Əsas feilin yanında gələrək onu izah etməsi, zaman, tərz, səbəb, müqayisə və s. mənaları ifadə etməsi, cümlədə zərflik vəzifəsində çıxış etməsi və s. feili bağlama ilə zərfin ortaq xüsusiyyətləridir. Bəzi feili bağlamalar sabitləşərək zərf mövqeyinə keçsə də, zərflə feili bağlamanı fərqləndirmək lazımdır. Feili bağlama ilə ortaq morfoloji əlamətlərə malik olan zərflərdə daha çox məcazi məna əlamətləri nəzərə çarpır. Feili bağlamaların morfoloji xüsusiyyətləri olduqca genişdir. “-ıb^{4}”, “-araq^{2}”, “-arkan^{2}”, “-anda^{2}”, “-andan^{2}”, “-dıqda^{4}”, “-dıqca^{4}”, “-ınca^{4}”, “-alı^{2}”, “-ma^{2} + -dan^{2}”, “-ma^{2} + -mış^{4}”, “-ar^{2} , -maz^{2}”, “-caq^{2}”, “-andan^{2}”, “-a-a^{2}” şəkilçilərini qəbul edərək feili bağlamalar fərqli məzmunlar qazanır. Bəzi şəkilçilərin leksik imkanları da

genişdir, yəni həm öz aralarında sinonimlik təşkil edərək bir-birini əvəz edə bilir, həm də feilin digər kateqoriyalarının və müxtəlif nitq hissələrinin şəkilçiləri ilə omonim olur. Feili bağlamalar adından da göründüyü kimi, feilləri bir-birinə bağlayır və feildən əvvəl gələrək asılı mövqedə dayanır. Feili bağlama şəkilçilərinin etimologiyası haqqında bir çox fikirlər vardır və çoxu onların mənşəyini feili sifət şəkilçiləri ilə bağlayır.

Açar sözlər: feil, feili bağlama, morfoloji, şəkilçi, məna

Suleymanova Goychek

Morphological features of adverbial participle

Summary

One of the non-predicative forms of the verb is the adverbial participle. Adverbial participle as a hybrid form of the verb has the features of a verb and an adverb. Adverbial participle is a verb, expresses the content of the action, used in affirmation and negation, transitive and intransitive, used in different types of grammatical meaning, can gather words around. But is deprived some features of the verb such as being able to change according to person, tense, mood. Approach to the main verb and explaining it, tense, manner, cause, comparison etc. expressing meanings, acting as an adverb in a sentence, etc. are common features of the adverbial participle and the adverb. Although some adverbial participle are stabilized and move to the position of an adverb, it is necessary to distinguish between adverb and adverbial participle. İn adverbs that have common morphological features with the adverbial participle, signs of figurative meaning are more noticeable. Morphological features of adverbial participle are quite wide. “-ıb^{4}”, “-araq^{2}”, “-arkan^{2}”, “-anda^{2}”, “-andan^{2}”, “-dıqda^{4}”, “-dıqca^{4}”, “-ınca^{4}”, “-alı^{2}”, “-ma^{2} + -dan^{2}”, “-ma^{2} + -mış^{4}”, “-ar^{2} , -maz^{2}”, “-caq^{2}”, “-andan^{2}”, “-a-a^{2}” by accepting suffixes, adverbial participle acquire different contents. The lexical possibilities of some suffixes are also wide, i.e they can replace each other by forming synonyms among themselves, also becomes homonymous with suffixes of other categories of verbs and different parts of speech. Adverbial participle, as the name suggests, connect verbs together and come before the verb and stand in the dependent position. There are many opinions about the etymology of adverbial participle suffixes, and most of them link their origin to participle suffixes.

Key words: verb, adverbial participle, morphological, suffix, meaning

Сулейманова Гойчек

Морфологические особенности деепричастие

Резюме

Одной из непредикативных форм глагола является деепричастие. Деепричастие как гибридная форма глагола имеет особенности глагола и наречия. Деепричастие это глагол, выражает содержание действия,

употребляется в утверждении и отрицании, переходном и непереходном, употребляется в разных видах грамматического значения, может собирать вокруг себя слова. Но лишен некоторых особенности глагола, таких как способность изменяться в зависимости от лица, времени, наклонения. Приближение к основному глаголу и объяснение его, время, манера, причина, сравнение и т. д. выражающие значения, выступающие в качестве наречия в предложении и т. д., являются общими чертами наречного деепричастия и наречия. Хотя некоторые деепричастия стабилизируются и переходят на позицию наречия, необходимо различать наречия и деепричастия. В наречиях, имеющих общие морфологические признаки с деепричастием, признаки переносного значения более заметны. Морфологические особенности деепричастия достаточно широки. «-ıb^4», «-araq^2», «-arkan^2», «-anda^2», «-andan^2», «-dıqda^4», «-dıqca^4», «-ınca^4», «-alı^2», «-ma^2 + -dan^2», «-ma^2 + -mış^4», «-ar^2-maz^2», «-caq^2», «-andan^2», «-a-a^2» принимая суффиксы, деепричастия приобретают разное содержание. Лексические возможности некоторых суффиксов также широки, т.е. они могут замещать друг друга, образуя собой между синонимы, омонимизироваться также с суффиксами других категорий глаголов и разных частей речи. Деепричастие, как следует из названия, соединяет глаголы вместе и стоит перед глаголом и стоит в зависимом положении. Существует много мнений об этимологии суффиксов деепричастий, и большинство из них связывают их происхождение с суффиксами причастий.

Ключевые слова: глагол, деепричастие, морфологический, суффикс, значение

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi: Filologiya elmləri namizədi, dosent İsmayıl Məmmədov tərəfindən çapa tövsiyə olunmuşdur

İBRAHİMOVA NİGAR FƏRMAN QIZI
Gəncə Dövlət Universiteti
ragin9373@mail.ru

SPRACHTHEORIE UND GRAMMATIK BEI DEN STOIKERN

Es wäre eine reizvolle Aufgabe, die verschiedenen Stadien der jüngeren historiographischen Bemühungen um eine Darstellung des Themas dieses Kapitels mit ihren jeweils verschiedenen wissenschaftstheoretischen und einzelwissenschaftlichen Voraussetzungen und Motivationen nachzuzeichnen. Unter anderem würde sich aus einer solchen Geschichte der jüngeren der stoischen Logik und Sprachwissenschaft zugewandten wissenschaftsgeschichtlichen Forschungen ergeben, zu wie verschiedenen - sogar in Kernbereichen widersprüchlichen - Auffassungen Philosophen wie Hegel, Logikhistoriker wie Prantl gelangen. Die materialen Voraussetzungen für eine derartige Untersuchung sind durch die sehr verdienstvolle Arbeit von Hülser/Egli (1979) geschaffen worden, in der die Autoren aus Anlass einer sorgfältig kommentierten und mit reichen bibliographischen Hinweisen versehenen deutschen Übersetzung von Rudolf T .Schmidts Stoicorum Grammatica (1839) eine Vorstudie zu einem solchen Unternehmen vorgelegt haben**.(1.118)** Im Rahmen eines Kapitels einer Einführung in die Geschichte der Sprachwissenschaft müssen wir uns jedoch weitere Ausführungen hierzu versagen; unsere Absicht ist es vielmehr, durch ein kritisches Referat einiger weniger neuester Beiträge dem an dieser Epoche der Sprachwissenschaft Interessierten einen Einblick in einige zentrale linguistische Positionen der Stoa zu vermitteln. Dabei wird auch bewusst darauf verzichtet, großräumige und wissenschaftsgeschichtlich anspruchsvolle Spekulationen über die Bedingungen des Zustandekommens (oder der Möglichkeit) stoischen Sprachdenkens oder der geistesgeschichtlichen Zusammenarbeit für sehr kritische, aber substantiell nicht sehr weit ausgeführte Forschungen in diese Richtung. hänge und der Weiterentwicklung und Rezeption der stoischen Lehrinhalte anzustellen oder auch nur darüber zu referieren. **(4.63)** Wir vertreten die schlichte Meinung, dass zunächst einmal substantielle Informationen über die Rekonstruktionen der einschlägigen stoischen Lehren vermittelt werden sollten, bevor der sich diesem Gebiet zuwendende Sprachwissenschaftler sich mit weiterreichenden Fragen der genannten Art sinnvoll beschäftigen kann. Diese Meinung bedeutet jedoch nicht, dass nun einfach historisch oder positivistisch sogenannte Fakten und Daten mehr oder weniger systematisch zusammengefasst werden sollen; wir werden uns vielmehr bemühen, bei dem folgenden Referat aus der neuesten Sekundärliteratur - wo es immer sinnvoll erscheint - die vorgetragenen Forschungsergebnisse kritisch in Bezug auf wissenschaftstheoretische Alternativen und linguistische Modelle für die jeweilige Interpretation von Primärtexten zu befragen, sie also nicht einfach als Elemente eines Forschungsberichts betrachten. Zu-

nächst geben wir einige biographische Informationen, um ein Minimum an historischem Hintergrund für die Entstehungszeit und die Entwicklung der älteren Stoa bereitzustellen. Zenon, der allgemein als Begründer der Stoa angesehen wird, stammt aus Citium auf Zypern und lebte ca. von 350-260 v. Chr. Von fast allen Autoren, die sich mit der Stoa eingehender beschäftigt haben, wir d der Tatsache, dass Zeno n semitischer bzw. phönizischer Abstammung war, für die Ausbildung der naturphilosophischen und ethischen Lehren der Stoa großes Gewicht beigemessen. Zenon musste in jungen Jahren nach Athen gekommen sein; er in denen Russell entsprechend dem vollen Titel seines Werkes eine gerade für den Nicht Spezialisten sehr lesbare Übersicht über und Einsichten in die Gesamtentwicklung des Hellenismus gibt**.(5.204)** Insbesondere rinden sich in diesen Kapiteln brauchbare Informationen über Einflüsse der verschiedenen philosophischen Richtungen dieser Epoche aufeinander (Kyniker, Skeptiker) und deren Einfluss auf die älteren Stoiker, wie Zeno, Cleanthes und Chrysipp.. Für die Rezeption der stoischen Grammatik und Logik in den spätrömischen Epochen, im Mittelalter und in der Neuzeit sind Augustinus und in eingeschränkter Weise Ammonius und Priscian als Traditionsträger z u nennen. Es erscheint uns wichtig, ja unerlässlich, wenigstens einige kurze Hinweis e auf die Prinzipien der stoischen Philosophie insgesamt zu geben. Damit soll gezeigt werden, dass die Stoiker sich nicht zufällig oder am Rande mit Problemen der Erkenntnis und ihrer sprachlichen Darstellung und Vermittlung beschäftigt haben; für sie war der Bereich der Logik in einem weiteren Sinn auch nicht, wie bei Aristoteles, ein Organon, ein bloßes Werkzeug oder Hilfsmittel zum Erreichen philosophischer Erkenntnisse. Die Stoiker teilen die Philosophie in drei Teile: Physik, Logik und Ethik. Die Physik beschäftigt sich mit der Welt, die unserer Erfahrung zugänglich ist, in der Logik (in einem weiten Sinne, sie umfasst die Rhetorik, die Dialektik und - vermutlich ab Chrysipp auch eine Art Erkenntnistheorie) geht es u m die Art und Weise, wie wir Erkenntnisse gewinnen und anderen mitteilen können; die Aufgabe der Ethik ist es, die Erkenntnisse der beiden anderen Zweige für die Prinzipien einer vernunftgemäßen, mit der Natur im Eindruck wir dürfen heute darunter einen theoretischen Rahmen für Fragen der Erkenntnistheorie, der Logik und der Sprachwissenschaft in einem weiten Sinne) verstehen**.(7.138)** Im Verhältnis zu anderen Wissenschaftszweigen ist die stoische Dialektik jener Wissenschaft. Genauere Untersuchungen würden zeigen, dass Russell hier stoischen Positionen ganz nahe steht, in dem über Wahrnehmungen und Erkenntnisse bzw. Aussagen darüber in Bezug auf ihre Gültigkeit entschieden wird; um dies in systematischer Weise tun zu können, muss der Philosoph die Konstituenten und Funktionen der Sprache kennen, wie diese zusammenwirken, um mittels wohlgeformter Sätze Urteile und andere Sprechakte vollziehen zu können und um gültige Schlüsse ziehen zu können. Für den Stoiker sind jedoch die Elemente und die Struktur menschlicher Erkenntnisprozesse samt ihrem sprachlichen Ausdruck nicht mit den Elementen und der Struktur der Welt identisch oder damit absolut isomorph**.(2.264)** Solange der Mensch nicht über gottähnliche Allwissenheit

verfügt, wir der sein Wissen über die Welt zwar immer weiter ausdehnen können, jedoch die gesamte Wirklichkeit nie vollständig erfassen können. Im Folgenden wollen wir versuchen, uns schrittweise der linguistischen Substanz der stoischen Dialektik zu nähern. Zunächst muss festgestellt werden, dass die Stoiker - dies gilt zumindest für die Vertreter der älteren Stoa - innerhalb des von ihnen Dialektik genannten Bereichs keine genaue Entsprechung dafür haben, was wir heute bzw. seit der Spätantike (Dionysius Thrax, Priscian) Grammatik nennen (wobei festzuhalten ist, dass der Begriff Grammatik in seiner Geschichte und je nach den sprachtheoretischen Voraussetzungen, die ihm zugrunde gelegt werden, in seiner Intension und Extension erheblichen Schwankungen unterworfen war und noch unterworfen ist). Die beiden neuesten Arbeiten beschäftigen sich in einem engeren bzw. weiteren Sinne mit der Frage nach dem systematischen Stellenwert einer linguistischen - oder enger gefasst: einer grammatischen- Theorie im Rahmen der stoischen Dialektik**.(6.85)** Hülsers Arbeit leistet einen Beitrag zur Klärung der begrifflichen und klassifikatorischen Struktur der stoischen Dialektik; Frede geht es mehr darum, herauszufinden, ob und inwieweit bei genauerer Betrachtungsweise die in der Sprachwissenschaftsgeschichtsforscher. Entsprechend den Zielsetzungen dieses Buches werden wir auf die stoische Logik nicht eingehen, obwohl sie mit den linguistischen Aspekten der Dialektik eng verbunden ist und seit Lukasiewiez 1934 und Mates 21961 zu den relativ gut erforschten Bereichen der stoischen Philosophie gehört. Im Folgenden werden wir zunächst versuchen, aus den beiden genannten Arbeiten die wesentlichen Argumente und Ergebnisse zu extrahieren, mit dem Ziel, ein näherungsweises Verständnis der Systematik der stoischen Dialektik zu erreichen. Hülser gibt zunächst die uns durch Diogenes Laertios überlieferte Gliederung des Bereichs der Dialektik, wie sie wohl von Chrysipp konzipiert wurde. Nachfolger von Chrysipp änderten die Bezeichnungen der beiden Teile der Dialektik in: Über Laute über die Bedeutung**.(1.438)** In Übereinstimmung mit ihren physikalischen Prinzipien stellten die Stoiker fest, dass der eine Bereich der Dialektik sich mit körperlichen Gegenständen, der andere dagegen sich mit Unkörperlichem befasse. Der Hauptpunkt in der Entwicklung der Dialektik als Wissenschaft, mit der eben dieses Verhältnis zwischen Sprache und Realität geklärt werden soll, sei nun darin zu sehen, dass Kleanthes und Chrysipp den Terminus lektön eingeführt haben, um die in einer Sprachgemeinschaft intersubjektiv gültigen Bedeutungen sprachlicher Ausdrücke zu bezeichnen; m . a. Wie sie haben als wesentlichen Teil der Dialektik die Semantik von Sätzen und ihren Konstituenten etabliert. Diesem Reich der Bedeutungen kommt dann konsequenterweise ein eigener ontologischer Status zu, der sich sowohl von Individualvorstellungen als auch von ewigen platonischen Ideen –uminterpretiert werden - abhebt. Damit sieht Hülser auch den Gegenstandsbereich der zweiten Abteilung der stoischen Dialektik als grundsätzlich geklärt an: es gehe hier um die Sphäre sprachlicher Bedeutungen, der lekta um ihre satzinternen Funktionen und um die Verbindung 'vollständiger' zu gültigen Schlüssen**.(3.167)** Wichtig ist dabei festzuhalten, dass das systematische Inte-

resse Zeichen entzündete, sondern von deren semantischer Seite – und zwar bei der Bedeutung des Satzes– seinen Ausgang nahm. Der Gegenstandsbereich der ersten Abteilung der Dialektik wird von Hülser vor der Folie der Semantik eigentlich nur negativ bestimmt; hierher gehören dann notwendigerweise alle Fragen des sprachlichen Ausdrucks, aber auch noch einige andere wichtig ist dabei, dass dieser Gegenstandsbereich systematisch den zweiten Gegenstandsbereich - die Semantik, die Lehre von den leckte voraussetzt. D i e Stoiker hatten ein Paradigma von fünf Kasus aufgestellt; vier davon - der Nominativ, der Akkusativ, der Genitiv und der Dativ - sind gut dokumentiert. In der Sekundärliteratur gibt es eine Kontroverse über den fünften Kasus. Soll es der Vokativ sein, der von späteren Grammatikern als der fünfte aufgeführt wurde, oder sollte aus intern-systematischen Gründen ein allgemeiner Adverbialkasus - wie der Ablativ der lateinischen Schulgrammatik - dafür eingesetzt werden? Der letztgenannte Grund leuchtet ohne weiteres ein; wie steht es aber mit der 'Verwandtschaft' zwischen Vokativ einerseits und Nominativ und Akkusativ andererseits.

LITERATUR

1. Abriss der Geschichte der Linguistik (übersetzt von B. Meier, Leipzig.

2.Apel, K . O . (1963), Die Idee der Sprache in der Tradition des Humanismus von

3.Dante bis Vico (Archiv für Begriffsgeschichte 8), Bonn.

4.Ast, D . F. (1808), Grundriss der Geschichte der Philosophie, Landshut.

5. Beard, Ch. (1934), "Written history as an act of faith", American Historical Review 39, 2.

6.Benfey, Th. (1 869), Geschichte der Sprachwissenschaft und orientalischen Philologie in Deutschland, seit dem Anfange des 19. Jh. mit einem Rückblick auf frühere Zeiten (= Geschichte der Wissenschaften in Deutschland; Neuere Zeit 8), München.

7.Bloch, E. (1952), Avicenna und die aristotelische Linke, Berlin.

8.Canguilhem, G. (1979), Wissenschaftsgeschichte und Epistemologie. Gesammelte Aufsätze,

İbrahimova Nigar Fərman qızı

STOİKERLƏRİN DİL NƏZƏRİYYƏSİ VƏ QRAMMATIKASI

Bu məqalədə müəllif mövzusunu müxtəlif epistemoloji və fərdi elmi tələb və motivlərinə istinad etməklə son tarixşünaslıq cəhdlərinin müxtəlif mərhələlərini əks etdirmişdir. O belə fikirdədir ki, işini bu sahəyə həsr etmiş dilçi, qeyd olunan bu qəbildən olan daha geniş məsələlərin həlli ilə məşğul olmazdan əvvəl, ilk növbədə, müvafiq stoik təlimlərinin rekonstruksiyası haqqında əsaslı məlumatlar əldə etməli-

dir. Lakin bu fikir o demək deyil ki, indi tarixi və ya pozitivist faktlar və məlumatlar sistemli şəkildə ümumiləşdirilməlidir; Əksinə, ən son ikinci dərəcəli ədəbiyyatdan növbəti təqdimatda – müəllif məntiqi nöqteyi-nəzərdən elmi-nəzəri alternativlər və ilkin mətnlərin müvafiq şərhi üçün linqvistik modellər ilə bağlı təqdim olunan tədqiqat nəticələrini tənqidi şəkildə, yəni sadəcə tədqiqat hesabatının elementlərini nəzərdən keçirmişdir. Stoiklər üçün isə insanın idrak proseslərinin elementləri və strukturu, o cümlədən onların linqvistik ifadəsi dünyanın elementləri və quruluşu ilə eyni deyil və ya buna görə də tamamilə izomorfdur.

Açar sözlər: dil nəzəriyyəsi, qrammatik, elmi şərtlər, məntiq və dilçilik, fəlsəfi fikirlər, tərcümə

Ибрагимова Нигяр Фарман

ЯЗЫКОВАЯ ТЕОРИЯ И ГРАММАТИКА СТОЙЦЕРОВ

В этой статье автор описывает различные этапы последних историографических попыток, обращаясь к предмету различных эпистемологических и индивидуальных научных требований и мотивов. Он считает, что лингвист, посвятивший свою работу этой области, должен, прежде всего, получить доскональные знания о реконструкции соответствующих стоических учений, прежде чем приступать к решению таких более широких проблем. Однако это не означает, что исторические или позитивистские факты и информация теперь должны систематически обобщаться; Напротив, в следующей презентации из последней вторичной литературы автор критически рассмотрел результаты исследования, представленные по научно-теоретическим альтернативам с логической точки зрения и лингвистическим моделям для соответствующей интерпретации исходных текстов, то есть только элементы отчета об исследовании. Для стоиков элементы и структура человеческих когнитивных процессов, включая их языковое выражение, не совпадают с элементами и структурой мира, или, следовательно, полностью изоморфны.

Ключевые слова: теория языка, грамматика, научные термины, логика и лингвистика, философские идеи, перевод

Ibrahimova Nigar Farman

LANGUAGE THEORY AND GRAMMAR OF STOICERS

In this article, the author describes the various stages of recent historiographical attempts, referring to the subject of different epistemological and individual scientific requirements and motives. He is of the opinion that a linguist who has devoted his work to this field should, first of all, obtain a thorough knowledge of the reconstruction of the relevant Stoic teachings, before dealing with the solution of such broader problems. However, this does not mean that historical or positivist facts and information must now be systematically summarized; On the contrary, in the next presentation from the latest secondary literature, the author critically reviewed the results of the research presented on scientific-theoretical alternatives from a logical point of view and linguistic models for the appropriate interpretation of the original texts, is only the elements of the research report. For the Stoics, the elements and structure of human cognitive processes, including their linguistic expression, are not the same as the elements and structure of the world, or are therefore completely isomorphic.

Key words: language theory, grammar, scientific terms, logic and linguistics, philosophical ideas, translation

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru Müslümova Ofelya Surxay qızı tərəfindən çapa tövsiyə olunmuşdur

AYŞƏN FAZIL QIZI QASIMOVA – MUSTAFAYEVA
Gəncə Dövlət Universiteti
Heydər Əliyev, 187,

POETİZMDƏ UNİVERSALLIQ MƏSƏLƏLƏRİ

Açar sözlər: *poetika, universal, nitq, obrazlılıq, təkrarlıq*
Ключевые слова: *поэтика, универсальый, речь, образность, повтор*
Key words: *poetics, universal, speech, imagebearing, repetition*

Poetizm elə bir fenomenal hadisədir ki, o bütün dillər üçün universal xarakter daşıyır. Belə ki, dil tipologiyaları poetizmin formalaşması, inkişafı və tətbiqi üçün heç bir məhdudiyyət yaratmır. Bu o deməkdir ki, poetizm dillərin ən qədim dövründən informasiya tezliyi yaratmaq xarakterinə malik olmuş və nitq elementlərinin ardıcıl təkrarlığına uyğun qaydada ritmik bir nizamla səciyyələnmişdir. Əslində ritmiklik, ahəngdarlıq bütün dil elementlərinin özündə mövcuddur. Bu da dil strukturunun bir sistem kimi formalaşmasının bünövrəsini təşkil edir. Məsələn, elə bir dil yoxdur ki, onun fonetik nizamı olmasın, istər tonallıqla, istərsə də bağlayıcı tipli digər elementlərlə. Məhz nitqin, danışığın, fikrin ifadə vasitələrinin obrazlı şəkildə çatdırılmasına xidmət edən bütün elementlərin özü də həmin sistemin öz daxilində mövcuddur. Beləliklə, nitqi obrazlaşdıran, bədiiləşdirən, informasiyanı intensivləşdirən başlıca ilkin vasitələr də fonetik, leksik, morfoloji və sintaktik strukturların daxilindəki elementlərin təkrarlığı əsasında baş vermişdir. Təkrar elementlər eyni zamanda paralel nitq vasitələrinin formalaşmasına zəmin yaratmışdır. Beləliklə, ilkin poetizmin bütün rüşeymləri bilavasitə təkrar və paralel elementlərin üzərində qurulur. Odur ki, mətnlərdə müşahidə edilən poetizm xüsusiyyətləri də bilavasitə təkrarlığa və paralelizmə əsaslanır. İlkin informasiya prosesində nitqin intensivləşdirilməsi ilə əlaqədar olaraq nitq elementlərinin təkrarlığı və paralelliyi bütün dillərdə özünəməxsus səciyyəvi əlamət kəsb etmişdir. Dillərin ilkin informasiya mərhələsinə dair yazılı və şifahi nümunələr məlum olmasa da təkrarların və paralellərin vasitəsi ilə baş verən obrazlaşdırıcılıq xüsusiyyətləri ilkin folklor nümunələrində, həmçinin hər hansı insan cəmiyyətinin inanclarını özündə təcəssüm etdirən dini kitabların mətnində də müşahidə olunur. Məsələn, qədim türk inanclarının yazıya alınmış mətnlərində təkrar elementlərin işlənməsini aşağıdakı nümunələrdə müşahidə etmək mümkündür:

Türk maniçi şeiri:
Taŋ Teŋri kəlti
Taŋ Teŋri özi kəlti!
Taŋ Teŋri kəlti,

Taŋ Teŋri özi kəlti
Taŋ Teŋri
Tərcüməsi:
Tan Tanrı gəldi
Tan Tanrı özü gəldi
Tan Tanrı gəldi
Tan Tanrı özü gəldi.
Tan Tanrı [3, 322 s; s.122-123].

Təkrarlıq, paralelizm ənənəsi Göytürk abidələrindəki tanrı inamı ilə bağlı məqamlarda da müşahidə edilir. Əslində bu ənənə birbaşa inamla bağlı olmayıb dilin informasiya prosesindəki qədim incəlikləri əks etdirir. Ancaq təkrar və paralel elementlərin inanc xarakterli mətnlərdə işlədilməsi bir tərəfdən qədim ritmiklik ənənələrinin saxlanması kimi səciyyəvi olsa da digər tərəfdən inanc anlayışlarının intensivləşdirilməsinin daha yaddaqalan olması məqsədinə xidmət etmişdir. Bu baxımdan "Kül Tiqin" abidəsindəki aşağıdakı bənd maraqlıdır:

"*Üzə kök teŋri, asra yağız yer kılıntukta ekin ara kisi oğlı kılınmıs. Kisi oğlımta üzə eçüm-apam Bumın kağan, İstəmi kağan olurmış. Olurıpan türk bodunın ilin, törüsin tuta birmiş, iti birmiş*".

(Tərcüməsi: Üstdə mavi göylər, altda qonur yerlər yarandıqda ikisinin arasında insan oğlu yaranmış. İnsan oğlunun üzərində Bumın xaqan, İstəmi xaqan taxta oturmuş. Oturub türk xalqının elini (dövlətini) yaratmış, tərtib etmiş) [15, s. 191-200].

Qədim türk mətnlərində ritm, ahəngdarlıq və o cümlədən ilkin poetizm xüsusiyyətləri barədə bir çox tədqiqat işləri aparılmışdır. Bu sahədə tədqiqat aparmış Tahir Nəsib apardığı araşdırmaların nəticəsi kimi belə bir mülahizə irəli sürür ki, türk və ural-altay xalqlarının mifik təfəkkürü əsasında formalaşmış yaradıcılıq nümunələrində *geniş poetik təsvir vasitələrinin, məhdudiyyətlərin dəfələrlə təkrarlanması halı səciyyəvi xüsusiyyət daşıyır. Bununla əlaqədar Tahir Nəsibov göstərir* ki, "*…təkrarların epik yaradıcılıqda yayılması birbaşa mifoloji görüşlərdən, inanclardan, əsasən də ayinlərdən qidalanır. İnancların ayrılmaz tərkib hissəsi olan ayinlərin icrası zamanı təkrarlardan sehr düsturu kimi həm kütləni təsir altında saxlamaq, həm də dua mətninin yaddaşda qalması məqsədi ilə istifadə olunurdu*" [12, s.159]. Dini inancla, ayinlərin icrası ilə əlaqədar olaraq məqalə müəllifində belə bir qəti inam formalaşmışdır ki, həmin situasiyalar istisnasız olaraq bütün *dini inanclarda mövcuddur. Həmçinin, oxunan dualar müqəddəs qəbul edilmiş ayrı-ayrı parçaların bəlli sayda təkrarlarından ibarətdir* [12, s.163].

Burada onu da nəzərdən qaçırmaq olmaz ki, təkrarlıq və paralellik məhz universal hadisə kimi bütün dillərin ilkin informasiya tezliyinin vacib əlaməti kimi davam edərək epik təfəkkürün möhtəşəm bir qaynağına çevrilmişdir.

Vəli Osmanlı "Qədim türk ədəbiyyatı (VI-X əsrlər)" adlı kitabında Göytürk abidələrinin dilində təkrar və paralel elementlərin mövcudluğuna istinad edərək

həmin mənbələrin dilinin poetizmlə həmahəng olduğunu göstərir. Müəllif qədim türk mətnlərində poetik xüsusiyyətlərin öyrənilməsi ilə əlaqədar maraqlı tədqiqatlar aparmış İ.Steblevaya istinadən qeyd edir ki, onun araşdırmalarında misra ölçülərinə uyğun gələn nümunələr müəyyən edilmişdir. Həmin misraların bünövrəsində isə İ.Stebleva ahəngdarlıq, ritm yaradan elementləri meydana çıxarmağa müvəffəq olmuşdur. Burada həmçinin göstərilir ki, "*Poetika baxımından bu misralarda maraqlı görünən bir də onlardakı paralellərdir. Məsələn, eyni bir qəbirüstü mətnin birdən bir neçə misrasında "adrıltım" - ayrıldım sözünün yazıldığını görürük. Həmin misraların heç birində də bu söz artıq görünmür*" [13, s.121]. Qədim türk epik təfəkküründün nadir inciləri kimi saxlanılan Göytürk abidələrinin, o cümlədən, uyğur, turfan və digər mənbələrin dili poetizmin ifadəsi baxımından daha qədim ənənələrin ritmik və ahəngdarlıq xüsusiyyətlərini özündə canlandırdığından onların tədqiqi və təhlili bir çox mütəxəssislərin diqqətini özünə cəlb etmişdir. Vəli Osmanlının qeyd etdiyi kimi, İ.V.Stebleva, V.M.Jirmunski və digər görkəmli mütəxəssislər qədim türk yazılı abidələrinin poetik dil xüsusiyyətlərinə dair çox maraqlı və ciddi tədqiqatlar aparmışlar. Məsələn, İ.V.Stebleva "Kül Tiqin", "Bilgə Xağan", "Tonyukuk" abidələrindən bəhs edərkən onları janr xarakterinə görə döyüşçü dəstələrinin başçılarına həsr olunmuş tarixi-qəhrəmanlıq poeması kimi səciyyələndirir. Eyni zamanda, əlavə edir ki, həmin abidələrin dilinin ritmik dil xüsusiyyətləri Orxon abidələrinin poetik mənzərəsini xatırladır. Bu da qədim türk poetik formalarının inkişafı problemlərinin araşdırılması baxımından qiymətli material mənbəyi kimi maraq doğurur [18, s.198-199]. İ.V.Setebleva qədim türk dini-mifoloji sisteminin rekonstruksiyasına həsr etdiyi bir məqaləsində abidələrin dilində müşahidə edilən xüsusən də təkrarların İ.V.Steblevanın ifadəsi ilə deyilsə "binar" elementlərin iştirakı ilə formalaşan poetizm nümunələrinin ənənəvi olaraq dini-mifoloji mətnlərlə bağlılığı məsələlərinə diqqəti yönəldir [19, s.221-222].

İ.V.Stebseva qədim türk mənbələrinə məxsus poetik xüsusiyyətlərin eyni zamanda universal xarakter daşımasına diqqəti çəkərək onun tipoloji cəhətdən daha geniş əhatə dairəsinə malik olduğunu göstərir. Həmçinin qədim türk mətnlərinə məxsus poetizmin eyni zamanda Altay, Cənub və Şərqi Sibir, Povoljya, Mərkəzi və Kiçik Asiya xadqlarının epik yaradıcılığı ilə müəyyən oxşar əlamətlərə malik olduğu qərarına gəlir [20]. V.M.Jirmunskinin türk xalqlarının poeziya məsələlərinə həsr edilmiş məqaləsində də poetizmin qədim formasının ritmik tonallıqla bağlı olduğuna, sonrakı mərhələdə isə ritmik tonallığın heca tonallığına "barmaq hesabı hecalılığına" keçidi üzrə inkişaf mərhələsi keçdiyinə dair mülahizə irəli sürür. Eyni zamanda, qədim türk poetik ənənələrinin fin-uqor, monqol-tunqus-mancur, qədim semit poeziyası ilə tipoloji yaxınlığa malik olduğunu göstərir [8, s.30-39].

Qədim türk abidələrinin peşəkar tədqiqatçısı Əbülfəz Rəcəbli həmin abidələrin poetik xüsusiyyətləri barədə bəhs edərkən belə bir mülahizə irəli sürür ki, tədqiqatçıların bəziləri həmin mənbələrin dilini poeziya dili hesab etsələr də "*Əslində*

onlar yüksək üsluba da (keçmişdə belə bir termin işlədilirdi) *az qala bədii dildə yazılsa da hələ şeir dili deyildir*" [16, s.5].

Əlbəttə ki, qədim türk yazılı abidələrinin dili bütövlükdə şeir dili deyildir, ancaq fakt budur ki, həmin abidələrin dilində təkrar və paralel elementlərin işlədilməsi halları mövcuddur. Bu elementlərin ardıcıllığı isə şeirə, poeziyaya məxsus ritm, ahəngdarlıq və emosiya yaradılmasına xidmət edir. Abidələrin dilindəki ritmik və ahəngdarlıq vasitələri həmin xüsusiyyətlərinə görə ilkin informasiya tezliyinin varisi kimi ahəngdarlıq yaratmaqla təsəvvürlərdə daha artıq canlanma baş verməsinə xidmət edir.

Əbülfəz Rəcəbli daha sonra etiraf edir ki, qədim türk yazılı mənbələrinin bir nümunəsi kimi qədim uyğur dili abidələrinə məxsus mənbələrdə poetiklik müasir şeir dili səviyyəsində özünü göstərir [16, s.5].

Qədim türk nəsr mətnlərinin dilində təkrarlıq və paralelliklə müşayiət olunan poetik ənənələr oxşar şəkildə Azərbaycan dilinə məxsus qədim folklor nümunələrində də müşahidə edilir. Artıq folklor mərhələsinə keçiddə poetik nəsr ənənəsi müəyyən janrlarda saxlansa da bəzi janrlarda deyimlər şeir formasında qəlibləşməyə başlamışdır. Məsələn, atalar sözləri və məsəllərdə poetik nəsr ənənəsi daha çox nitq elementlərinin təkrarlığı və paralelliyi üzərində qurulur. Atalar sözləri və məsəllərin barəsində fikir söylənərkən onlar xalq həyatı təcrübəsinin bədii ifadə vasitəsi adlandırılır. Həmçinin atalar sözləri və məsəllərdə Azərbaycan dilinin aydınlığı, yığcam və dərin məna ifadəsinin mövcudluğu haqqında bəhs olunur. Eyni zamanda atalar sözləri və məsəllərin ayrı-ayrı xalqlarda özünəməxsus adlarla ifadəsi barəsində müxtəsər məlumat verilir ki, bu da poetik təfəkkürün məhsulu olan xalq incilərinin universal xarakterli nümunələr kimi formadaşdığına dair təqdiredici mülahizə hesab edilir. Məsələn, *məlumatda deyilir ki, atalar sözü və məsəllərə ruslar ibrətamiz söz, qanadlı söz, qızıl söz, yunanlar və romalılar hakim fikirlər, italyanlar xalq məktəbi, ingilislər və fransızlar təcrübənin barı kimi adlar vermişlər* [2]. Atalar sözü və məsəllərdə mənanın təkrar və paralel elementlərlə ifadə olunan daxili poetik xüsusiyyətləri aşağıdakı kimi nümunələrdə parlaq təcəssüm olunur: *"Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş"; "Artıq tamah daş yarar, Daş qayıdıb baş yarar"; "İgid ölər adı qalar, müxənnətin nəyi qalar"; "Aşı mollanın, başı mollanın, altından da beşi mollanın*" [2].

Dilin ən qədim elementləri onun silinməz fonunda öz izlərini zaman-zaman qoruyur, saxlayır. Ərməğan kimi gələcəyə ötürür. Bu mənada onu demək lazımdır ki, ən qədim informasiya mərhələsinin sintaktik ifadə vasitələrində sintaktik əlaqənin təkrarlıqla, tonal ifadə üsulu ilə formalaşmasına dair elementlər də bu günə qədər saxlanılmaqdadır. Həmin sintaktik vasitələrə dair aşağıdakıları misal göstərmək olar: "*Nə, hə, yox, yox*", "*Kor kor, gör-gör*", "*Öl, öl, qal, qal*"; "*Sən ağa, mən ağa*" və s. Bu tipli sintaktik vasitələrdə, göründüyü kimi, qrammatik şəkilçi iştirak etmir, cümləni təşkil edən üzvlər ancaq tonal vasitə ilə əlaqələnir. Şəkilçilərin formalaşdığı sonrakı dövrlərdə isə təkrarlıq başlıca informasiya elementi olmaqla tonallığa hər

hansı qrammatik vasitə də əlavə olunur. Məsələn, "*Azdan az, çoxdan çox*", "*Mən ölü, sən qalı*", "*Yaz əkinçi, qış dilənçi*" və s.

Musa Adilov "*Azərbaycan dilində sintaktik təkrarlar" adlı tədqiqat əsərində təkrarların sintaktik xüsusiyyətləri ilə əlaqədar olaraq yazır ki, "Azərbaycan dilçiliyində leksik və morfoloji, habelə fonetik təkrarlar üzərində az-çox tədqiqat işi aparılmışdır. Lakin sintaktik təkrarlar hələ diqqəti cəlb etməmişdir. Halbuki dilimizdə bu kimi təkrarlar geniş yayılmışdır və zəngin xüsusiyyətlərə malikdir*" [1, s.5]. Bununla əlaqədar olaraq ilkin informasiya mərhələsini xatırladan aşağıdakı nümunələr misal göstərilir: "*Olar, olar, olmaz olmaz*"; "*Gəl gəl, get get*"; "*Mən mənəm, sən sən*"; "*Ölən ölsün, qalan qalsın*" [1, s.5].

Qədim türk dini inancları və mifik dünyagörüşləri ilə bağlı mətnlərdəki kimi islam aləminin bəşəri kitabı olan "Qurani-Kərim"in dilində də bəlağətin ecazkarlığı müəyyən fonetik elementlərin, eləcə də söz və ifadələrin sıra və ardıcıllığı sayəsində ritm və ahəngdarlıqla təcəssüm olunur. Tədqiqatçı Mahirə Quliyeva Quranın bəlağət dili barəsində bəhs edərkən yazır ki, "*Klassik ərəb dilçiliyi və lüğətçiliyi, ədəbiyyat və filologiya, eləcə də kəlam, fiqh və hikmət elmləri Quranı yetərincə öyrənmək zərurətindən yarandığı kimi sonralar poetika kimi formalaşan bəlağət elmi də Quranın sirlərinə daha incəliklə yiyələnmək istəyindən yarandı. Quranın bəlağət gözəlliyini təşkil edən ilkin amillər hərflərin səsi, ahəngi və musiqililiyidir. Quran hərfləri səs tərkibi baxımından elə sıralanmışdır ki, hər hərfin səsi bir musiqi ahəngi kimi gəlir*" [10]. Quranın dilində təkrarlardan istifadə olunması problemindən bəhs edən şərhçilər təkrarların təsadüfi xarakter daşımadığını göstərirlər. Çünki təkrarlar birincisi, tipologiyasından asılı olmayaraq hər bir dilin ən qədim ifadə tərzinin mühafizə edilən ənənəsidir. İkincisi, təkrarlar informasiyada intensivlik, ifadədə ritm və ahəngdarlıq, anlamada cəlbedicilik yaradır. Təkrarlarla bağlı şərhlərin birində deyilir ki, "*Qurani-Kərimin xüsusilə qissələr mövzusunda anlatdıqları zahirən təkrar kimi görünsə də əslində təkrar deyil. Qurani-Kərimdə qissələr müxtəlif səbəblərə görə təkrarlanır. Hər dəfə təkrar ediləndə məsələnin hansı yönündən bəhs olunursa mövzu ona görə dilə gətirilir*" [11]. Təkrarlar, bir qayda olaraq poetik nitqin bünövrəsi kimi formalaşaraq mətndə musiqi, ritm, ahəngdarlıq yaratmağa xidmət edən vasitələr səviyyəsində formalaşmışdır. Quran dilindəki təkrarlar da bu mənada mətnin poetikləşdirilməsinə xidmət edən vasitə kimi surə və ayələrin oxunuşunda cəzbedicilik və ecazkarlıq yaradılmasına səbəb olur. Dildə poetiklik yaratmaq üçün işlədilən təkrar və paralelizm elementləri universal bir vasitə kimi başqa xalqların da folklorunda, eyni zamanda dini konfeseiyaları səciyyələndirən mətnlərdə cəlbedicilik yaradılması məqsədi daşıyır. Məsələn, Yevgeni Stepanovun birxətli (bir sətirlik) poeziya məsələsinə həsr olunmuş bir məqaləsində deyilir ki, belə bir poetik formanın mövcud olub-olmaması məsələsi mütəxəssislər arasında böyük mübahisələrə səbəb olmuşdur. Belə ki, bir qrup mütəxəssislər birxətli nümunələri nəsr, bəziləri isə poetik nümunə kimi təqdim etmişlər. Bununla əlaqədar olaraq müəllif həmin tipli dil vahidlərinin təkrar elementlərlə ifadəsini nəzərə olaraq hesab edir ki, *monostix*

adlandırılan janr qədim folklor ənənəsinə əsaslanır. Bunlar atalar sözündən, məsəllərdən, yanıltmac və tapmaca dilinin ənənəsindən ibarətdir. Bu dil nümunələrinin daxili strukturunda isə təkrar və paralel elementlərin işlədilməsi ilə poetizm müşahidə olunur. Bunlara aid aşağıdakı kimi nümunələr misal göstərilir:

Rus xalq mahnıları:

Ай люли, люли! Ай люнишки люли!
Сею, вею, вею!
Ай, авсень, ай, авсень! Таусень, Таусень!
Черви, жлуди, вины, бубны! Шинь,
пень-шиварган!
Шурьян-камрад, сам прокурат,
трах-тара-ра-ра-ра [21].

Təsadüfi deyildir ki, insanların asan anlayışı və təsəvvürdə möhkəmləndirilməsi vacib olan mətnlərdə də cəlbedicilik vasitəsi kimi poetizm ünsürlərindən istifadə edilmişdir. Bu mənada bibliya şərhçisi Andrey Desnitski "Bibliyada poeziya vardırmı?" sualına belə bir cavab verir: "*Bəli qəribə görünərdi ki, Allah (Boq) və insanın dialoqu üzərində qurulmuş mənbədə poeziya dilindən istifadə olunmasın. Poeziya var. Ancaq bu necədir? Əlbəttə ki, tərcümə variantında bunu duymaq çətindir. Ancaq orijinalda poetizmi açıq-aşkar duymaq mümkündür*: "*ашре хаши ашер ло халах беэцат решаим*" ("Блажен муж, который не ходит на совет нечестивых" – "Günahkarların məsləhətinə uymayan şəxs (insan) xoşbəxtdir (ağıllıdır)" [5].

Dini inanclarla bağlı olan mətnlərə məxsus poetik xüsusiyyətlərin bibliyada mövcudluğu barədə bir çox dinşünas mütəxəssislərin də şərhlərində qeyd olunur. Məsələn, T.V.Dorfman və Y.Q.Usmanovanın Bibliya mətnlərində bəlağətin etik-nitq xüsusiyyətlərinə həsr olunmuş yazılarında deyilir ki, Bibliya mətnləri emosionallıqla, ritmlə, intonasiya və alleqorizmlə səciyyələnən ifadə vasitələri ilə zəngindir. Mətnin bu şəkildəki poetik elementlərlə zəngin olması ilk növbədə anlayışların intensiv qavranılmasına və yaddaqalan olmasına xidmət edir [4, s.141-144]. N.M.Orlovanın Bibliya və kiçik ədəbi janrlarla bağlı bir məqaləsində folklor dili ilə, xüsusən, aforizm ənənəsinə uyğun ritmik ifadə vasitələrindən istifadə məqamları barəsində bəhs edilir [14, s.30-31]. Bibliyadakı poetizmlə bağlı digər bir şərhdə göstərilir ki, Bibliyanın dili üçün nəsr poetikası yad deyildir. Odur ki, Bibliya dilində poetik elementlərin hüdudlarını müəyyən etmək elə də asan deyildir. Bibliya poetikasını səciyyələndirən əsas elementlər ritmin ölçüsü (vəzni), şeir forması, paralelizm, poetik elementlərin uzun-qısalığı, müvafiq bəndlərlə səciyyələnən misralılıqdan ibarətdir [17]. Digər dini mətnlərdə olduğu kimi, ritm, ahəngdarlıq, melodiyalılıq, ritorizm və poetizm elementləri induzmə aid dini mətnlərin dilində də müşahidə edilir. Hətta dini nəğmələrin yazıldığı Veda dilinə aid tədqiqat aparmış Ferdiniand-de-Sössür fonetik elementlərin, hecaların söz və qrammatik elementlərin təkrarı və

sıralanması sayəsində ritm yaradılmasını induizm mətnlərinin başlıca üslub xüsusiyyəti kimi səciyyələndirmişdir [6].

Nitq elementlərinin təkrarlığı, paralelizmi və tonallığı ilkin informasiya mərhələsinin əlamətləri kimi dünyanın bir çox dillərində zaman-zaman dəyişmiş olsa da onların izləri əsas etibarı ilə poetizm yaratma elementləri kimi saxlanmaqdadır. Təkrar və paralel elementlər universal dil hadisəsi kimi dünyanın bütün şəkilçili dillərində demək olar ki, daha çox qədim ənənələri özündə saxlayan folklor materiallarının dilində, nağıllarda, xalq deyimlərinin dilində antik bir mənəvi mədəniyyət nümunəsi kimi saxlanılır. Şəkilçili dillərdən biri kimi müasir qlobal dünyada xüsusi bir dominantlığa malik olan ingilis dilində də həmin elementlərin saxlanması müşahidə edilir. Təkrarların folklor mətnində işlənməsi ilə əlaqədar aparılan bir tədqiqat işində göstərilir ki, "*Təkrarlar bütün dillər üçün universal hadisə kimi mətndə xüsusi semantik bir mühit yaradır. Təkrarlar, ikiqat, üçqat və çox tərkibli olaraq fonetik, leksik, semantik və sintaktik elementlərin ardıcıllığı sayəsində formalaşır. Rus dilində olduğu kimi ingilisdilli xalq yaradıcılığı nümunələrində leksik-semantik təkrarlar mühüm rol oynayır*" [22, s.11-15]. Digər bir mənbədə ingilis balladalarının poetik xüsusiyyətləri onun xalq yaradıcılığı motivləri əsasında izah edilir. Ballada janrının formalaşması ilk orta əsrlər dövrünə aid edilir və sonrakı dövrlərdə onun ənənələrinin davamlı inkişafı məsələlərindən bəhs olunur [7].

Təkrarlıq və paralellizm vasitələri dillərin şəkilçililik mərhələsindən başlayaraq belə demək olar ki, öz ilkin "statusunu" dəyişməyə başlamış, bunun əvəzində qrammatik-sintaktik vasitələrin iştirakı ilə yeni qəliblər, modellər formalaşmağa başlamışdır. Lakin həmin ənənələr şəkilçisiz dillərdə, o cümlədən Çin dilində qalaraq özünəməxsus yeni ifadə vasitələri ilə zənginləşmişdir.

N.N.Kotelnikova Çin dilindəki təkrarlardan bəhs edərkən yazır ki, Çin dilində təkrarların formalaşmasının qədim tarixi ənənələri mövcuddur. Təkrarların başlıca linqvistik funksiyası informasiya intensivləşdirilməsi ilə yanaşı sözdüzəltmə prosesindəki fəaliyyətindən ibarətdir. Təkrarlar eyni zamanda, ayrı-ayrı sintaktik konstruksiyaların formalaşmasına zəmin yaradan mühüm dil hadisəsidir [9, s.132].

Təkrarlar və paralellər haqqındakı xülasələrdən göründüyü kimi, bu dil hadisəsi universal səciyyəsinə görə bütün dillərdə mövcuddur, onun kökləri daha qədimlərə bağlıdır. Əsas etibarı ilə qrammatik və derivativ xarakterli olmuşdur. Eyni zamanda həmin dil vasitələri informasiya intensivliyi yaratmaqla səciyyəvi keyfiyyət kəsb edir. Şəkilçili dillərdə bu xüsusiyyət digər vasitələrlə inkişaf edərək öz ənənələrini daha çox folklor materiallarında saxlasa da şəkilçisi olmayan və ya şəkilçisi məhdud olan dillərdə başlıca qrammatik və derivativ vasitə kimi işlənir. Bununla yanaşı təkrarlıq və paralellik vasitələri bədii yaradıcılıq nümunələrində poetik vüsət yaratmaq məqsədi ilə işlədilir. Onu da qeyd etmək lazımdır ki, təkrar və paralel elementlərin derivativ və qrammatik-sintaktik funksiyası müasir dövr ədəbi-bədii nümunələrdə də davam edir. Bu mənada Azərbaycan yazıçılarının bədii sənət əsərlərində təkrar və paralel linqvistik vasitələrdən özünəməxsus üslubda

işlədilməsini görmək mümkündür. Tam səmimiyyətlə demək lazımdır ki, bu sahədə Ramiz Rövşənin nəsr əsərlərinin dili tamamilə fərqli üslubi keyfiyyət kəsb edir. Bu əsərlərdə təkrar və paralel dil vahidləri həm obrazların xarakterinin açılmasında, həm hadisə və situasiyaların canlandırılmasında həm də ritm, avazlanma, ahəngdarlıq yaradılmasında bənzərsiz bir mənzərə yaradır. Bu əsərlərin dili sanki qədimləri müasirləşdirir, müasirliyin bədii mühitində isə olduqca geniş bir poetik mənzərə yaradır.

İstifadə edilən ədəbiyyat

1. Adilov M. Azərbaycan dilində sintaktik təkrarlar. Əsərləri, III c., Bakı, Elm və Təhsil, 2019, 416 s.; s. 5.
2. Azərbaycan atalar sözləri və məsəlləri: az.wikipedia. org/wiki/ Azərbaycan-atalar-sözləri- və-məsəlləri: 24 may 2022.
3. Cəfərov N. Qədim türk ədəbiyyatı. Bakı, Az AtaM, 2004, 322 s.
4. Дорфман Т.В., Усманова Е.Г. Анализ этико-речевых принципов в аргументации проповеди как жанре краснеречие Библии.//Вестник Ленинградского Государственного Университета им. А.С.Пушкина. Область наук философия, этика, религиоведение. 2015; с. 141-149; с. 141-144: suberlinka.ru/article/n/analiz-etiko-rechevyh-printsipov-v-argumentatsii-propovedi-kak-shanre-krasnorechiya-biblii.
5. Есть ли поэзия в Библии? Aquaviva.ru /journal/est-li-poeziya-v-biblii. Журнал Вода Живая >Журнал № 2 (февраль) 2015 > Есть ли поэзия в Библии.
6. Индийская лингвистическая традиция: = ru. wikipedia. org/ wiki/ Индийская-лингвистическая-традиция; 1 июня, 2022, Соссюр Ф.де Отрывки из тетрадей Ф.де Соссюра, содержащих записи об анаграммах. Ведийская поэзия.// Труды по языкознанию. / пер. с Франц.яз.под.ред. А.А.Холодовича; Ред: М.А. Оборина; Предисл. проф. Н.С.Чемоданова. Москва, Прогресс, 1997, с. 640-696 (Языковеды мира).
7. История английской литературы. Народная поэзия. Баллады XIV-XV веков SVR-lit.ru/SVR-lit/mihalskaya angliya-angliya/narodnaya – poeziya.html.
8. Жирмунский В.М. О некоторых проблемах теории тюркского народного стиха// Тюркологический сборник. Москва, Наука, 1970, с. 30-68.
9. Котельникова Н.Н. Использование лексического повтора в китайских четырехморфемных фразеологических чэнъюй. Известия ВГПУ, филологические науки. 21.01.2018, с. 132-136.
10. Quliyeva Mahirə Həmid qızı. Quran ən zəngin bəlağət xəzinəsi kimi: repository. Uma.ac.ir/id/eprint/8999/1/19. pdf.
11. Qurandakı təkrarların hikməti nədir? www. meneviyyat.az/qurandaki-tekrarlarin-hikmeti-nedir. 12 mart, 2014.
12. Nəsib T. Xalq epik yaradıcılığında təkrarlar.//Türk Dünyası Dil və Edebiyat Dergisi. Sayı 51 (Bahar) sping. 2021, Ankara, Türkiye. s. 157-174.

13. Osmanlı V. Qədim türk ədəbiyyatı (VI-X əsrlər). Bakı, Sabah, 2008, 244 s.
14. Орлова Н.М. Библия и малые литературные жанры: русские паремии и цитаты.// журн: жанры речи. 2020, № 1, (25), с. 29-35.
15. Rəcəbli Ə. Qədim türk yazısı abidələri. 4 cilddə, I c., Göytürk yazısı abidələri, I hissə. Bakı, Nurlan, 2009, 568 s.
16. Rəcəbli Ə. Qədim türk yazısı abidələri. 4 cilddə., III c., Qədim Uyğur yazısı abidələri. I h., Bakı, Elm və Təhsil, 2010, 664 s.
17. ru.wikisource.org/wiki/ ЕЭБЕ / Поэзия. 8 мая, 2021 г.
18. Стеблева И.В. Древняя тюркоязычная литература.//История всемирной литературы. В 8 томах. /АН СССР; Ин-ст мировой литературы им. А.М.Горького. Москва, Наука, т. 2., 1984, с. 196-204.
19. Стеблева И.В. К реконструкции древнетюркской религиозно-мифологической системы. // Тюркологический сборник. 1971, изд. Наука, Главная Редакция Восточной Литературы, 1972, с. 214-226.
e-mail: *allahverdiyeva.g95@bk.ru*

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ DİSKURSİV MARKERLƏRİN PRAQMATİK FUNKSİYASI

Xülasə

Məqalə ingilis və Azərbaycan dillərində diskursiv markerlərin praqmatik funksiyasına həsr olunub. Məqalə yazılarkən K.Aijmer, S.Larisa, B.Frezer, N.M.Çarenko və S.V.Şustova kimi dilçilərin fikirlərinə müraciət olunmuş və M.Tven və İ.Şıxlının əsərlərindən gətirilmiş faktlar əsasında təhlillər aparılmışdır.

Müxtəlif tipoloji quruluşa malik dillərdə diskursiv markerlər kimi istifadə olunan elementlər arasında həm oxşar, həm də fərqli xüsusiyyətlər var. Diskursiv markerlərin universallığı onların müxtəlif dillərdəki diskurslarda praqmatik və əlaqələndirici funksiya yerinə yetirməsi ilə şərtlənir. Onlar bir çox qrammatik formalarda kommunikasiya zamanı müxtəlif situasiya və kontekstlər çərçivəsində bu funksiyaları yerinə yetirirlər. Qeyd olunan problemin diskurs üçün rolunun mühümlüyü bir də onunla göstərilə bilər ki, həm ingilis və həm də Azərbaycan dillərindəki diskurslarda hətta ayrıca bir element diskursiv marker kimi nəzərdən keçirilə bilər. Məqalədə bu istiqamətdə ingilis dilindəki diskursiv markerlər tədqiqata cəlb olunmuşdur.

Qeyd olunur ki, diskursiv markerlərin praqmatika göstəricisinə çevrilməsi, yəni praqmatik diskurs olaraq funksiyası diskursun və ya onun hansısa bitkin seqmentinin semantikası ilə tənzimlənilir. Çünki diskursiv markerlər həm sayca, həm də məzmunca çox zəngindir, onların diskurs prosesində seçimi və informasiya seqmentlərində tənzimlənməsi ümumi diskurs semantikası ilə bağlıdır.

Diskursiv markerlərin praqmatik funksiyası hər bir markerin diskursda oynadığı rola görə müəyyənləşir.

Məqalədə bu qənaətə gəlinmişdir ki, ingilis və Azərbaycan dillərində diskursiv markerlərin praqmatik funksiyası oxşardır, onlar arasında fərq yalnız fərqli dillərdə ifadə olunmasındadır.

Açar sözlər: *Diskurs, marker, praqmatika, funksiya, semantika*

Müasir dövrdə diskursu formalaşdıran və diskursiv markerlər adı ilə qəbul olunan qrammatik vahidlərin öyrənilməsinə maraq çoxalmışdır. Dilçilikdə, o cümlədən linqvistik praqmatika və diskurs tədqiqatlarında diskurs markerlərinə dair müxtəlif nəzəriyyələr meydana çıxmışdır. Qeyd etmək lazımdır ki, bu ad altında diskursiv markerlər, diskursiv ədatlar, diskursiv konnektorlar, praqmatik ədatlar kimi

dil vahidləri tədqiq olunmağa başlanılmışdır. Bəzi tədqiqatlarda diskursiv markerlərdən bəhs edərkən belə bir fikir də irəli sürülür ki, diskursiv markerlər diskursun mahiyyətinə təsir etmir, onu yalnız emosional və ekspressiv cəhətdən tamamlayır [2]. Bu konsepsiyaya münasibət diskursiv markerlərin diskursda əsas funksiyası nöqteyi-nəzərindən də vacibdir. Diskursun verəcəyi informasiyanın mahiyyəti deyəndə informasiyanın əsası, onun dəyişməz hissəsi nəzərdə tutulur. Diskursiv markerlər isə həmin əsasa müəllif münasibətlərinin daxil edilməsi və diskursun komponentlərinin əlaqələnməsi və rəvan ifadəsinin təmin olunması vasitəsidir. Bir çox mütəxəssislər belə hesab edirlər ki, diskursiv markerlər diskursun komponentləri arasında əlaqələndirici vasitə deyil, əlaqələnməni göstərən vasitələrdir. Qeyd olunan nüanslar arasında çox incə fərq vardır. Əlaqələnmə göstəricisi olmaq diskursiv markerin əlaqə yaratma vasitəsi olmasını təsdiq etmək deməkdir; yəni əlaqələndirici ilə onun göstəricisi üzvi şəkildə bir-biri ilə bağlıdır. Hər iki halda mövcud olanın təsdiqi deməkdir. Ancaq əlaqələnmənin göstəricisi olmaq nitq faktorunun ön plana çıxması ilə bağlıdır. Yəni diskurs şifahi nitq olaraq onun komponentləri arasında hansı növ əlaqələnmənin mövcudluğunu diskursiv markerlər göstərir. Diskursu markerlərsiz təsəvvür etmək mümkün deyil. Onlar diskursa müxtəlif münasibətləri ifadə edən köməkçi vahidlərdir. Struktur baxımdan söz, söz birləşməsi və ya tərkib və cümlə şəklində mövcud olan bu dil vahidlərinin əksəriyyəti dilin qrammatikləşmiş vahidləri hesab olunsalar da, digər bir qismi fakültativ olaraq diskursiv marker funksiyasında çıxış edən vahidlərdir. Markerlərin diskursun mahiyyətinə təsiretmə səviyyəsi cəhətdən qeyd olunan markerlərin elə də fərqi yoxdur. Müasir dilçilikdə diskursiv markerlərə linqvistik və sosial-mədəni faktorların, eləcə də mətn və kontekstin vahidliyi kimi baxılır. Qeyd olunan linqvistik və ekstralinqvistik faktorlar mətn dilçiliyində də geniş tədqiqat istiqamətidir.

Dilçilikdə diskursiv markerlərlə bağlı mübahisəli məsələlərdən biri onun universal olması ilə bağlıdır. Bu fikri ümumilikdə qəbul etməklə bərabər hesab edirik ki, diskursiv markerlər kimi müxtəlif tipoloji quruluşa malik dillərdə istifadə olunan elementlər arasında həm oxşar, həm də fərqli xüsusiyyətlər var. Bu mənada ingilis və Azərbaycan dillərindəki diskursiv markerləri tədqiq etmək kifayət qədər maraq kəsb edir. Diskursiv markerlərin universallığı onların müxtəlif dillərdəki diskurslarda praqmatik və əlaqələndirici funksiya yerinə yetirməsi ilə şərtlənir. Onlar bir çox qrammatik (morfoloji və sintaktik) formalarda kommunikasiya zamanı müxtəlif situasiya və kontekstlər çərçivəsində bu funksiyaları yerinə yetirirlər. Qeyd olunan problemin diskurs üçün rolunun mühümlüyü bir də onunla göstərilə bilinər ki, həm ingilis və həm də Azərbaycan dillərindəki diskurslarda hətta ayrıca bir element (məsələn, oh, well, aha) diskursiv marker kimi nəzərdən keçirilə bilər. Bu istiqamətdə ingilis dilindəki diskursiv markerlər tədqiqata cəlb olunmuşdur. Yəni bir qrup cümlələr diskursda semantik funksiya daşıdığı kimi, diskursiv marker kimi də fəaliyyət göstərə bilir (məs: I pray yow / thee). Bu xüsusiyyət diskurs kontekstində bir-birinə mane olmur. Ümumiyyətlə, dil vahidlərinin belə funksional genişlənməsi

bütün dillərdə müşahidə olunur. Düzdür, dil vahidlərində funksional genişlənmə dərəcəsi fərqlidir, lakin o reallıqdır. Diskurs kontekstində cümlə strukturlu qrammatik vahidlərin meydana çıxması problemi son vaxtlar dilçilikdə müxtəlif münasibətlərlə tez-tez müraciət olunan mövzulardandır. Belə cümlələr əksərən modal sözlərə transformasiya olunmuş və ya ellipsisə uğramış cümlələrdir. Görünür, müasir insanlar kommunikasiya prosesində fikrini ifadə etmək üçün daha optimal vasitələr axtarır, nitq hədəfinə daha təsirli vasitələr düşünürlər. Ona görə də situasiyadan asılı olaraq dil vahidlərinin funksional genişlənməsi bu prosesdə nəticə kimi meydana çıxır. Cümlənin qrammatikləşərək diskursiv markerə çevrilməsi cümlə semantikasında baş verən məna ümumiləşməsi ilə bağlıdır, yəni cümlə daşıdığı məna bazasında ümumi münasibətlərin göstəricisinə çevrilir. Əksərən belə cümlələr Azərbaycan dilində tabeli mürəkkəb cümlənin baş cümlələrini əhatə edir; buraya mübtəda və şərt budaq cümlələrini xüsusilə aid edə bilərik.

Diskursiv markerlərin praqmatika göstəricisinə çevrilməsi, yəni praqmatik diskurs olaraq funksiyası diskursun və ya onun hansısa bitkin seqmentinin semantikası ilə tənzimlənilir. Çünki diskursiv markerlər həm sayca, həm də məzmunca çox zəngindir, onların diskurs prosesində seçimi və informasiya seqmentlərində tənzimlənməsi ümumi diskurs semantikası ilə bağlıdır.

Diskursiv markerlərin praqmatik funksiyası hər bir markerin diskursda oynadığı rola görə müəyyənləşir. Məsələn, ingilis dilində «Would you mind ...?», sual cümləsi marker kimi “etiraz etməzsinizsə...?” infinitiv və inkarlıq ədatı ilə də işlənməklə aşağıdakı praqmatik funksiyaları yerinə yetirir:

1. Sual funksiyası:
Where would you mind to go? ;
Would you mind coming with me? ;
Would you mind?
2. Fəaliyyətə bilavasitə təhrik edən:
Would you mind shaving me?
Would you mind coming over here a moment?
Would you mind playing on my album?
3. Nəyisə qəbul etməkdən ötrü xahiş etmək:
Would you mind much if I didn't come?
Would you mind if I used this lane?
4. Nəzakətlilik funksiyası :
Would you mind telling us what you're doing
Would you mind doing me a favour?
Would you mind answering my question? [4]

Belə məna rəngarəngliyi diskursiv markerin işlənmə situasiyası və müəllif intensiyası ilə bağlıdır.

Linqvistik praqmatikaya dair tədqiqatlarda diskursiv markerlərin praqmatik funksiyası ilə bağlı K.Ajimer və B.Frezerin fikirləri diqqətimizi cəlb edir. K.Ajimer

yazır ki, praqmatik markerlər natiqin mental proseslərini, onun başında nə baş verdiyini göstərir [1, s.4]. Şübhəsiz ki, ingilis dilində diskursiv markerlərin mental xüsusiyyətləri ingilis insanının dildaşıyıcısı olaraq düşüncə tərzi ilə bağlıdır. Bu, dil vahidlərinin işlənmə xüsusiyyətlərində özünü göstərir.

B.Freyzer isə belə fikirləşir ki, praqmatik markerlər bir sinif təşkil edir və diskursiv markerlər həmin sinfin bir altqrupu kimi ayrılır [3, s.167-190]. Onları aşağıdakı kimi qruplaşdırır:

1. Baza markerlər cümlənin birbaşa əsas məğzini göstərən markerlərdir və danışanın kommunikativ niyyətlərinə işarə edir. Buraya aşağıdakılar daxildir: a) struktur – bunlar məqsəddən asılı olan cümlə növləridir; b) ifadeciləri (I believe, I hope, I admit …) inanıram, ümid edirəm, etiraf edirəm ... [3, s.174].

Buradan belə görünür ki, B.Frezer "Baza markerlər" deyəndə kommunikasiya məqsədini nəzərdə tutur. Diskursun informativ bazası da onun üzərində köklənir. Ondan asılı olaraq informasiyanın verilməsi üçün dil vahidləri və markerlər müəyyənləşir.

2. Şərhedici markerlər – onlar əsas mesajın hansısa aspektinə şərhverən leksik ifadələrdir. B.Freyzer onlara istinad edir: a) Qiymətləndirmə markerləri: *amazingly, fortunately, sadly*, etc. – heyrətamiz, xoşbəxtlikdən, təəssüf ki və s.; b) Danışıq tərzi markerləri: *I believe, I hope, I admit,* etc.; – açığı, qısası, öz aramızda və s.; c) Təsdiqləyici markerlər: *assuredly, clearly, definitely,* etc., – mütləq, aydın, mütləq və s.; d) Yumşaldıcı markerlər: *that may be true but,* etc – guya, görünür, məlum olur ki və s.; f) Xüsusi vurğulanan markerlər: *indeed, really, to say the least*, etc. – həqiqətən, azı, və s

Şərhedici praqmatik markerlər əslində, əsasən və həqiqətən dinləyiciyə yeni məlumatın istiqamətini necə təyin olunmasını göstərir. Bu mənada onlar söhbəti aktuallıq istiqamətində istiqamətləndirən metapraqmatik markerlərdir Qeyd edək ki, metapraqmatik markerlərin məqsədi ünvanlanmış ifadələrin aktuallıq dərəcəsini qiymətləndirməyə kömək etməkdir.

Şərhedici markerlər qarşıya qoyulmuş məqsədə çatmaq üçün istifadə olunacaq markerləri əhatə edir. Şərh geniş anlayışdır, buraya bütün izahedici faktorlar daxildir.

3. İnformasiyanın əsas məqsədini ifadə edən markerlər: Buraya aşağıdakılar daxildir: a) Vokativ işarələr; b) Narazılıq markerləri: *damn well, for the last time, hell,* etc; – lənət olsun, axırıncı dəfə, cəhənnəm olsun və s.; c) Həmrəylik markerləri – dostum, bax və s.; d) Fokuslama markerləri: *now, so, well* – indi, belə, yaxşı və s.

Bu markerlər daha çox münasibət veriləcək informasiyaya münasibət bildirən vahidlərdir.

Şərh praqmatik markerlər və paralel praqmatik markerlər mesajın həm qüvvəsini, həm də məzmununu kodlayır. Bunun üçün aşağıdakı linqvistik və kontekst amilləri nəzərə alınmalıdır: diskursdakı mövqe, mətnin növü, markerin əhatə etdiyi diskursun ölçüləri.

4. Diskursun praqmatik markerləri – buraya əsas məlumatın əvvəlki ilə əlaqəsini bildirən markerlərdir; onlar kontekstlə bağlı olur: *thus, moreover, however, by the way, in other words , more than that, particularly, that is why, accordingly, so* – beləliklə, üstəlik, lakin, yeri , başqa sözlə, bundan əlavə, xüsusilə, buna görə, müvafiq olaraq, belə ki və s.

B.Freyzer praqmatik markerləri belə vahidlərin geniş sinfi hesab edir, diskursiv markerləri alt siniflərdən yalnız biri kimi ayırır [3, s.168; 4].

Diskursiv markerlərin praqmatik funksiyası onların öz morfosemantikası ilə bağlıdır. Məsələn,

1. Why – sual əvəzliyi.

***Why**, I couldn't even say "Two for his heels" without adding, "My, how sweet you do look!" and she would say, "Fifteen two, fifteen four, fifteen six, and a pair are eight, and eight are sixteen – do you think so?" – peeping out aslant from under her lashes, you know, so sweet and cunning. Oh, it was just too-too!"* [5].

"Why" verilmiş diskurs seqmentində sual əvəzliyi olmaqla sual situasiyası yaradır və baza semantikası əsasında diskursiv marker rolunda çıxış edir. Yəni onun baza semantikası marker kimi funksionallaşması üçün ilkin şərt olaraq qalır. Aşağıdakı misalda bu sual əvəzliyinin sual məzmunlu marker rolunda çıxış etməsini nəzərdən keçirək:

*"Well, well, well, this is a surprise. Once or twice I've seen your own name coupled with the nickname, but it never occurred to me that you could be the Henry Adams referred to. **Why**, it isn't six months since you were clerking away for Blake Hopkins in Frisco on a salary, and sitting up nights on an extra allowance, helping me arrange and verify the Gould and Curry Extension papers and statistics. The idea of your being in London, and a vast millionaire, and a colossal celebrity! **Why**, it's the Arabian Nights come again. Man, I can't take it in at all; can't realize it; give me time to settle the whirl in my head."* [5]

"***Why***, it's the Arabian Nights come again." (Niyə yenə ərəb gecələri gəlir) söyləmində qeyd olunan sual əvəzliyi sual bazasında diskursiv marker olaraq marker rolunu yerinə yetirir və həmin seqmentdə diskursun ümumi semantikası ilə əlaqələnir. Onun praqmatikası bəhs etdiyimiz sual semantikasının ümumi diskurs semantikası ilə uzlaşması ilə bağlıdır.

2. ***Now*** özündən sonra gələn sözün verdiyi mənanı dəqiqləşdirməyə xidmət edir.

*"**Now**, something had been happening there a little before, which I did not know anything about until a good many days afterwards, but I will tell you about it now. Those two old brothers had been having a pretty hot argument a couple of days before, and had ended by agreeing to decide it by a bet, which is the English way of settling everything"* [5].

"***Now***" zərfi dildə çoxfunksiyalı vahiddir. Bir tərəfdən o, zərfdir, digər tərəfdən isə funksiyalar yerinə yetirən çoxfunksiyalı köməkçi vahiddir. Bu

kontekstdə onun diskursiv marker kimi funksionallığı həm diskursun komponentləri arasında əlaqələnməni təmin etdiyi kimi, həm də əlaqələnmə göstəricisi olaraq mövcuddur. Onun baza semantikası "indi" zaman zərfidir. Diskursda onun praqmatik funksiyasının reallaşması da həmin semantik baza əsasında baş verir.

3. "So" hadisələrin inkişafını göstərən markerdir (belə ki).

***So** I had to give it up and go away. What a riddle it all was! I was like to lose my mind. They would be here "on time." What could that mean? Oh, the letter would explain, maybe. I had forgotten the letter; I got it out and read it. This is what it said."* [5]

"So" – (Belə ki) semantik cəhətdən özündən əvvəl ifadə olunmuş semantikanın davamının göstəricisi kimi diskursiv marker səciyyəsi olaraq fəaliyyət göstərir. Onun praqmatik funksiyası da həmin semantika bazasında meydana çıxır. Azərbaycan dilinə aid misallara müraciət edək:

*"**Yaxşı,** deyək ki, atam kişidi, gözü qızışıb, bəs bu nə üçün evini-eşiyini buraxıb arvad üstünə gəlib?!" Şamxalın rəngi qaçdı. Yenicə uzatdığı bığlarının ucunu ağzına salıb çeynəməyə başladı. Bayaqdan qorxu içində, küncə qısılıb titrəyə-titrəyə qardaşının bərəkətlərinə göz qoyan Salatın özünü Şamxalın üstünə saldı, əllərini tutub yalvardı: – Qurbanın olum, ay qağa, evimizə qan salma. Amanın bir günüdü, əlini qana bulama! Şamxal bacısını itələyib kənara yıxdı. Əlini sallamalı kəmərindən asdığı xəncərin gümüş dəstəyinə yetirdi. Salatın yenə özünü qardaşının üstünə saldı. – Dərdin alım, ay qağa, farağat dur. Başına dönüm, evimizi yıxma. Amanın bir günüdü, bizi yazıq eləmə. Dədəm hamımızı tikə-tikə doğrayar"* [6, s.12].

Azərbaycan dilində "yaxşı" əsas nitq hissəsi olduğu kimi, həm də modallıq funksiyasını yerinə yetirən köməkçi sözdür. Bu dil vahidinin modallıq semantikası ümumiləşdirici, nəhayətedici səciyyəsi ilə bağlıdır. Çox güman ki, modallıq mənası "yaxşı" sözünün iştirak etdiyi cümlənin transformasiyası nəticəsində formalaşmışdır. Azərbaycan, eləcə də türk dillərində cümlədən modal sözlərə keçidin mümkünlüyü öz elmi təsdiqini tapmışdır. Onun praqmatik funksiyası üçün baza semantikası da modallıqla bağlıdır. Onun modallığı əvvəldə baş verən hadisələrə ümumi yekun vurmaqla, həm də baş vermiş hadisəyə ümumiləşdirici dəyər verilir. Onun marker xüsusiyyəti isə diskurs seqmentində əsərin makromətn kimi əsas mənasının daşıyıcısı olan Cahandar ağaya münasibətin güzəştli formada qabardılması ilə bağlıdır. Nəticə etibarı ilə həmin marker praqmatikallaşır.

Bəzən diskursda eyni marker bir neçə dəfə təkrar olunur. O, diskurs seqmentində hadisələrin çoxtərəfli inkişafının mühüm parametrlərini əhatə edir. Nümunəyə nəzər salaq:

*"Oğlanın bağışladığı qırmızı kəlağayını qatlayıb sandıqda, ala-bəzək parçalardan tikdiyi boğçanın içində gizlətdi. Hərə bir tərəfə dağılıb, evdə sakitlik olanda Zərnigar boynundan asdığı açarla sandığı açıb pal-paltarını tökər, kəlağayını çıxarıb baxar, tərli at qoxusunun gedib-getmədiyini yoxlayar, **sonra** da keçən yay dağda dərdiyi sarı boğça çiçəyinin arasına qoyub yenə sandıqda*

gizlədərdi. Qız oğlanı unuda bilmirdi. Hətta bir gecə işığı söndürüb anasının yanına uzananda səbr edə bilməyib: – O oğlan kim idi? – deyə soruşdu. – Hansı, dərdin alım? – Mənə kəlağayı bağışlayan. – Qohumumuzdur, dərdin alım, atan tərəfdən qohumuq. – O ki, bizim kənddən deyil, hardan qohum olduq? – Axı qızım, bizim də əslimiz o tərəfdən, Kürün aşağısındakı Göytəpədəndir. ***Sonra*** *köçüb buraya gəlmişik. – Niyə? – Eh, neylirsən, qızım, onları soruşub? Bu, uzun əhvalatdır. Zərnigar israr etmiş, anası da demişdi ki, rəhmətlik babanın əlindən xata çıxıb, araya qan düşüb. Kənddə ikitirəlik olub. Axırda baban cana doyub, gecənin birində arvad-uşağını arabaya doldurub, kənddən qaçıb. İndi biz burda olsaq da, kökümüz-nəslimiz ordadır, dərdin alım. Cahandar ağa da babayın nəslindədir. Zərnigar o gündən* ***sonra*** *oğlanı daha intizarla gözlədi. Bu hadisədən düz bir il* ***sonra*** *qıza elçi gəldi. Nişan taxdılar, sonra da toy oldu. Zərnigarı Cahandar ağaya verdilər... ... Gözünü pəncərəyə zilləyib dayanan Zərnigar xanım hər şeyi indiki kimi xatırlayırdı. Düz üç gün, üç gecə toy çaldılar****.*** ***Sonra*** *da qumrovlu fayton gətirdilər"* [6, s.41].

"Sonra" verilmiş seqmentdə "kəlağayı" əhvalatının davamediciliyini göstərir, bir neçə dəfə təkrar olunmaqla "sonra qumrovlu faytonun gəlməsi" ilə sona yetir. Bu diskursda iki məsələyə xüsusi nəzər salmaq lazımdır; birincisi, bu kontekstdə "sonra"nın bağlayıcı kimi funksiyası, ikincisi isə, onların diskursda xüsusi markerləyici kimi funksiyasıdır. Onların praqmatikası isə Zərnigar xanımla Cahandar ağa münasibətləri kontekstində "sonra" markerlərinin təkrarlanması diskursdakı praqmatik münasibətin göstərici olaraq funksionallaşır.

Ədəbiyyat:

1. Aijmer K. Understanding Pragmatic Markers: A Variational Pragmatic Approach / – Edinburgh: Edinburgh University Press, – 2013. – 192 p.
2. Санжеева Лариса Цырендоржиевна. Прагматический аспект использования английских: ...https://cyberleninka.ru › article › pragmaticheskiy-aspe...).
3. Fraser B. Pragmatic Markers // Pragmatics, – 1996. №2 (6), – p. 167-190.
4. Царенко Н.М., Шустова С.В. Дискурсивные маркеры в прагмалингводидактическом ...https://cyberleninka.ru › article › diskursivnye-markery...
5. Twain Mark. The £1,000,000. Bank-Note. https://www.eastoftheweb.com/short-stories/UBooks/MilPou.shtml
6. İsmayıl Şıxlı. Dəli Kür. Seçilmiş əsərləri: [iki cilddə]. – Bakı"Şərq-Qərb", II cild, – 2005. – 402 s.

Gulnar Ali Allahverdiyeva

The pragmatic functions of discourse markers in the English and Azerbaijani languages

Summary

The article deals with the pragmatic functions of discourse markers in the English and Azerbaijani languages. The opinions of the linguists such as K.Aijmer,

S.Larisa, B.Fraser, N.M.Charenko and S.V.Shustova have been commented on while writing the article and analyzes have been made basing on the facts taken from the works of M.Twain and L.Shikhli.

The article draws the attention to the fact that there exist some similarities and differences among the elements that are used as discourse markers in the languages having a different typological structure. The universality of discourse markers is determined by their pragmatic and communicative function in discourses of different languages. They perform these functions within different situations and contexts during communication in many grammatical forms.

The importance of the role of the mentioned problem for discourse can be described through the fact that even a separate element can be considered to be a discourse marker in discourses of both English and Azerbaijani languages. Discourse markers in the English language are involved in this research from this point of view in the article.

The article notes that the transformation of discourse markers into an indicator of pragmatics, that is, their function as a pragmatic discourse is regulated by the semantics of the discourse or some of its incomplete segments. It is related to the fact that discourse markers are very rich both in number and content, their selection in the discourse process and arrangement in information segments is linked with some general discourse semantics. The pragmatic function of discourse markers is determined by the role each marker plays in the discourse.

The author comes to the conclusion that the pragmatic function of discourse markers in English and Azerbaijani languages is similar; the difference between them is only in their expression in different languages.

Key words: *discourse, marker, pragmatics, function, semantics*

Аллахвердиева Гюльнар Али гызы

Прагматическая функция дискурсивных маркеров в английском и азербайджанском языках

РЕЗЮМЕ

Статья посвящена прагматической функции дискурсивных маркеров в английском и азербайджанском языках. При написании статьи были учтены мнения таких лингвистов, как К.Айжмер, С.Лариса, Б.Фрезер, Н.М.Чаренко и С.В.Шустова, и произведен анализ на основе фактов из произведений М.Твена и И.Шихли.

Среди элементов, используемых в качестве дискурсивных маркеров в языках с разной типологической структурой, имеются как сходные, так и разные черты. Универсальность дискурсивных маркеров обусловлена их прагматической и коммуникативной функцией в дискурсах на разных языках. Эти функции они выполняют в разных ситуациях и контекстах при общении во многих грамматических формах. О важности роли указанной проблемы для

дискурса свидетельствует тот факт, что даже отдельный элемент может рассматриваться как дискурсивный маркер в дискурсах как на английском, так и на азербайджанском языках. В статье в этом направлении исследуются дискурсивные маркеры английского языка. Отмечается, что превращение дискурсивных маркеров в показатель прагматики, то есть их функция как прагматического дискурса, регулируется семантикой дискурса или какого-либо его незавершенного сегмента. Так как дискурсивные маркеры очень богаты как по количеству, так и по содержанию, их выделение в процессе дискурса и урегулирование в информационных сегментах связано с общей дискурсивной семантикой. Прагматическая функция дискурсивных маркеров определяется той ролью, которую каждый маркер играет в дискурсе.

В статье сделан вывод о том, что прагматическая функция дискурсивных маркеров в английском и азербайджанском языках схожа, разница между ними заключается только в их выражении в разных языках.

Ключевые слова: *дискурс, маркер, прагматика, функция, семантика*

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi *Professor Eldar Rizvan oğlu Piriyev*:
tərəfindən çapa tövsiyə olunmuşdur

ABIYEVA VALIDƏ
SƏFİXANOVA AFƏT
asəfixanova@amu.edu.az
Azərbaycan Tibb Universiteti
Mərdanov qardaşları

SİFƏT DÜZƏLDƏN ŞƏKİLÇİLƏRİN İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İŞLƏNMƏ YENİ

X Ü L A S Ə

Leksik mənasına morfoloji xüsusiyyətlərinə və sintaktik funksiyalarına görə dildəki bütün sözlər müəyyən aruplarda birləşir. Bu qruplar nitq hissələri adlandırılır. İngilis silində əsas nitq hissələrinin tarixinə nəzər salsaq bir çox alimlərin əsas nitq hissələrini müxtəlif cür təsnif etdiyini görərik. Məlum olduğu kimi hər bir dilin özünün qrammatik quruluşu və xüsusiyyətləri var. Bu əlamətlər də bir dili digərindən fərqləndirir. İngilis və Azərbaycan dillərində olduğu kimi. Bu dillər müxtəlif dil qruplarına mənsub olmaqla müxtəlif və fərqləndirici xüsusiyyətlərə malikdir. Bu məqalədən, əsasən, nitqq hissələrinin bir qoluna aid olan sifətdən və sifət düzəldən şəkilçilərdən bəhs edilir. Tədqiqat məqdəsindən asılı olaraq suffikslərin müxtəlif təsnifatından istifaə olunub və təkliflər qeydə alınıb. Suffikslər özmənşəyinə görə, yaratmalı olduqları nitq hissəsinə və işlənmə yerinə görə təsnif olunurlar. Şəkilçilər sözlərin sonunda işlənərək yeni söz düzəldirlər. Şəkilçilərin özlərinin semantik dəyəri vardır. Amma onlar müstəqil nitq hissəsi deyildir. İngilis dilində sözlərin sonuna əlavə şəkilçilərin də olmasına baxmayaraq, şəkilçilərin çoxu Azərbaycan dilindən fərqli olaraq sözlərin qarşısında istifadə olunur. Bu səbəbdən də ön şəkilçilər ingilis dili qrammatikanın bir hissəsini təşkil edir. Məs., **co** sözə birlikdə mənasını qalır. “Operate” sözünün qarşısında işlənərək çalışdır, çalış mənasında olur.
Açar sözlər: semantika, qrammatika, şəkilçi, sifət, nitq hissələri.

Nitq hissələri işərisində şəkilçilər leksik – qrammatik qruplarına əsasən semantik cəhətdən təsnif olunurlar və nəhayər, amma, ən azı olmadan, onların əlavə olunduğu kök (stem)lərin növündən asılı olaraq dəyişirlər. Leksik qrammatik sinfə eyni leksik qrammatik məna daşıyan elementlər sinfi kimi və həmçinin bu vahidlərin içərisində ifadə olunan qramamtik kateqoriyalar daxil olan ümumi formalar sistemi kimi təyin edilə bilər. Bu sinfin elementləri eyni uyğun söz ilə əlavə oluna bilər və özünə xas morfoloji numunə ilə ümimi sözdüzəldən şəkilçilər ilə xarakterizə olunurlar. Leksik qrammatik sinif eyni leksik qrammatik məna daşıyan leksik elementlər sinfi kimi ifadə olunan qrammatik kateqoriyalara daxil olan ümumi formalar sistemi kimi təyin edilə bilər f(3, 5).

Sifət düzəldən şəkilçilər də digər nitq hissələri kimi özünəməxsus xüsusiyyətə malikdir. Bu şəkilçilər özləri də bir neçə qruplara bölünürlər. Sifət əşyanın əlamətini bildirir və "what", "what kind of ", "which" suallarına cavab verir. Məs. "a clever boy", "long and wide strets", "fresh fruit" və s. Bir sıra dillərdən fərqli olaraq müasir ingilis dilində sifətin nə hal, nə cins, nə də kəmiyyət kateqoriyası yoxdur. Buna görə də müasir ingilis dilində, Azərbaycan dilində old uğu kimi, sifət aid olduğu, təyinetdiyi isimlə birlikdə nə cinsə, nə də kəmiyyətə hörə uzlaşmır, ismin hansı halda, hansı cinsdə və hansı miqdarda (təkyaxud cəm) olmasına baxmayaraq sifət eyni formada, ilkin formada işlənir. Müqayisə edinI an interesting book – five interesting bookes, a tall man – a tall woman, a little boy – the little boy1s name.

Müasir ingilis dilində sifətə xas olan xarakterik xüsusiyyətlərdən biri də ondan ibarətdir ki, sifət zərflə təyin oluna bilir. Məsələn, the task was too difficult. I have had a very pleasant evening (Oickeus). Müasir ingilis dilində sifətlər morfoloji quruluşa və mənasına görə təsnif olunur. Sifətlətin quruluşuna görə təsnifi (classification of adjectives according to their structure).

Müasir ingilis dilində sifətlər quruluşuna görə üç qrupa bölünür:

1. sadə sifətlər;
2. düzəltmə sifətlər;
3. mürəkkəb sifətlər.

1. Ancaq bir kökdən ibarət olan sifətlər sadə sifətlər adlnaır. Məsələn: short, long, black,white, red, fresh, cool.

2. Kök və şəkilçilərdən ibarət olan sifətlərə dizəltmə sifətlər deyilir. Düəltmə sifətlər ya suffiks, ya da prefix və ya hər ikisinin iştirakı ilə düzəldilir. Məsələn: beautiful, windly, foggy (2.14).

Müasir ingilis dilində sifət düzəldən xüsusi şəkilçilər mövcuddur, həmin şəkilçilər mövcuddur, həmin şəkilçilər dildə işlənmə miqyasına görə iki qrupa bölünür:

1) Məhsuldar şəkilçilər
2) Qeyri-məhsuldar şəkilçilər.

İngilis dilində sifət düzəldən məhsuldar şəkilçilər aşağıdakılardır:

less – homeless, useless, friendless
like – manlike, womanlike, childlike
ish – boyish, fodish və s.
ed – lion – hearted – shame faced və s.

İngilis dilində mövcud olan qeyri-məhsuldar şəkilçilər isə aşağıdakılardır:

ful – careful, doubtful
able – hospitable, eatable
ible – respousible, impressible
ant – important
ent – silent, dependent, silpen
ous – famous, dangerous, courteous

some – handsome, trablesome

Sifət həm də prefikslər vasitəsilə düzəldilir. Bu məqsədlə üç prefiks işlənir, un, in, pre. Məsələn:

unhappy, unknown, prewar, incorrect.

Bunlardan ikisi (un-pre-) məhsuldar, biri (in-) qeyri-məhsuldardır. İki və daha artıü kökdən düzələn sifətlərə mürəkkəb sifətlər deyilir lifelong, blue-eyed (1-8). Produktiv sifət düzəldən suffikslərə - less (frinedless), like, ish, ed aiddir. Sifətlərə xas olan əlamət və keyfiyyətlərin dərəcələri də iki yolla ifadə edilir:

1) Semantik yolla, yəni sifətlərin sonuna suffikslər əlavə etməklə;
2) Analitik yolla, yəni sifətlərin əvvəlinə köməkçi söz əlavə etməklə.

Bu üsullardan həmçinin seçilməsi ixtiyari olmayıb sifətin fonetik tərkibindən asılı olur: birhecalı və bəzi ikihecalı sifətlərin dərəcə formaları. Formalar isə analitik yolla düzəldilir.

Sifətin adi dərəcəsini düzəltmək üçün heç bir suffiksdən istifadə olunmur. Sifətin adi dərəcədə as...as, so...as bağlayıcıları ilə işlənərkən müqayisə olunan şəxs və əşyaların eyni dərəcəli keyfiyyətə, əlamətə malik olub olmadığını bildirir. Məs., bu brother is as strong as yours. Birhecalı sifətlərin müqayisə dərəcəsini düzəltmək üçün onların sonuna "er"-üstünlük dərəcəsini düzəltmək üçün "-est" suffiksi artırılır. Məs.,

long, longer, longest

short, shorter, shortest.

İkihecalı sifətlərin əksəriyyətini və çoxhecalı sifətlərin hamısının müqayisə dərəcəsi analitik yolla, yəni müqayisə dərəcəsindən sifətfən əvvələ "more", üstünlük dərəcəsində isə "most" sözü artırmaqla düzəldilir. Məsələn, famous more famous, most famous beautiful more beautiful, the most beautiful "ing" ilə düzələn sifət əşyanın xarakterik xüsusiyyətlərini, -ed ilə düzələn sifət isə insana xas olan xüsusiyyətləri bildirir. It was a boring lecture. He was bored (1.8). Müasir ingilis dilində bir neçə sifət vardır ki, onların dərəcə formaları superlativ yolla düzəldilir (bütün dərəcələrdə olan formalarında) müxtəlif kökdən olan sifət işlənir. Bu sifətlər aşağıdakılardır:

good, better, best

bad, worse, worst

little, less, least

Müasir mərhələdə sözdüzəldici şəkillər arasında –able, al (ial), an, ed, ic, y daha məhsuldar şəkilçilər hesab olunurlar. Ümumiyyətlə, adektiv suffisklər iki böyük qrupa bölünürlər:

1) Birinci qrupda "münasibət" mənasının göstərilməsi təzahür olunur. Burada da aid olan oxşarlığı olan, xarakterik xüsusiyyətləri göstərən kök və şəkilçidən ibarət olan sözlər qeyd olunur.

Volcanik – vulcanik

2) İkinci qrup suffikslər də həmçinin, hər hansı bir şeyin miqdarını və ya olmayan bir şeyi təyin edir (2,16).

–able, -ible şəkilçisi ilə düzələn sözlər.

Modellər v+able=sifət

eatable. Readable, countable

noun+able, ible

noun+able

photogragh+able

notice-able

Bəzən həm aktiv, həm də passiv mənalarının birgə işlənməsi hallarına rast gəlmək olar. Məsələn, floatable: 1) that can float; 2) he floted on.

Changeabe – that act is to change.

Müasir ingilis dilində "able" şəkilçisi öz xüsusiyyətləri ilə çox fərqlənir.

She was very paintable.

Həmçinin – able şəkilçisinin daha çox düzəltmə imkanı vardır.

- al şəkilçisi müasir ingilis dilində produktiv şəkilçilər sırasına aiddir. Kökün ifadə bir şeylə əlaqəni, məs., oxşarlığı bildirir.
- Addicdental – təsadüf
- Ormamental – bəzək əşyası kimi işlənən gələcəkdə daha aktiv düzəltmə sözlər yaranması imkanları vardır: accidentally, normalize ensociality (something completely social). Müasir ingilis dilində amonim "al" şəkilçisi həmçinin isim yaratmaq üçün onlardan istifadə olunur.

proposal

approval və s. (3.22)

ntan (adj)

"an" şəkilçisi vasitəsilə düzələn isimlər "ian" kökü isim olan sözlərə əlavə olunur və əlaqə və mənsubiyyət kimi məna verir. əlavə olunduqları köklərin xarakterindən asılı olaraq onun üç əsas mənalarına ayırd edir.

1) Coğrafi adları bildirən isimlərə "-an" suffiksi bu ölkəyə və ya şəhərə aid mənasını bildirir. Məsələn, Africa – African – afrikalı. Xüsusi adlar bildirən isimlərlə birləşdikdə "-an" şəkilçisi nəyəsə aid olan hər hansı ərazinin nəzər baxışların tərəfdarı olan və s. mənasını ifadə edir. "an" şəkilçisinin üçüncü mənasının elmi çərçivə daxilində tətbiqi tam olaraq məhdudur. Məs., müəyyən sinfə, növə (biologiyada) aid olma (neyrobiologiyada) bioloji ritmə olma və s.

Məlum olduğu kimi, -ing ilə düzələn sifətəşyanın xarakterik xüsusiyyətini, -ed ilə düzələn sifət isə insana xas olan xüsusiyyətləri bildirir.

ex. It was a boring lecture. He was bored. Teacher gave us interesting books. We are interested in history.

Şəkilçilərin gələcəkdə sözdüzəltmə imkanları daha geniş miqyas alacaq, məsələn, kantanizm, italianizm və s. kimi sözdüzıltmənin orfoqrafik qaydaları. Əgər

“an” (ean, ian) suffiksi “ngh, -u, -y” ilə bitən sözlərlə işlənərsə, bu şəkilçilərdə “-v” hərfi ilə əvəz olunacaq (4.12).

Ümumiyyətlə, nitq hissələrində sözdüzəltmə şəkilçilər, başqa bir sözün əmələ gəlməsində və onun leksika geniş istifadə olunmasında kəlmələri yerinə görə istifadə edərkən biz qramamtik qaydalara riayət edərək bunu həyata keçiririk. Qrammatikanı bilməsək dili müəyyən məqamlarda istifadə etmək bizim üçün çətinliklə bilər. Sifət və sifətdüzəldən şəkilçilər də qrammatikada əsas rol oynayır. İngilis dilində cümlə qurarkən bu təməl qaydalara şəkilçilərdən düzgün istifadə edilməsinə riayət edərək daha az anlayışa yol verilmiş cümlələrdən istifadə edilir. Müasir ingilis dilində sifətin nə hal, nə cins,nə də kəmiyyət kateqoriyası yoxdur. Buna görə də müasir ingilis dilində olduğu kimi, sigət aid olduğu, təyin etdiyi isimlə nə hala, nə cinsə, nə də kəmiyyətə görə uzlaşmır: ismin hansı halda, hansı cinsdə və hansı miqdarda (tək yaxud cəm) olmasına baxmayaraq sifət eyni formada işlənir. Bu xüsusiyyət də ingilis dilini digər başqa dillərdən fərqləndirən bir xüsusiyyətdir.

Сафиханова А
Абыева В.

ПРОИЗВОДНЫЕ ПРИЛАГАТЕЛЬНЫЕ НА АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

В этой статье речь идет о суффиксах и пресуффиксах. Мы знаем, что простые прилагательные состоят из одного без суффикса. Например, good, bad, happy и т.д. Производные прилагательные (derivative) состоят из суффиксов и пресуффиксов. Производные прилагательные в английском имеют в своем составе суффиксы и пресуффиксы или одновременно и те и другие. В английском наиболее распространены пресуффиксы с отрицательным знечением прилагательных. Присоелинении префикса in – в зависимости от первой буквы исходного слова.

С помощью суффиксов прилагательные образуются в основном от существительных и глаголов: sun - sunnyç, centre – central, home – homeless, differ – different, lat – latable, convert – convertible и другие. Роль прилагательного в английском языке порядок и предложении образуются с помощью суффиксов. Прилагательные чаще всего используются с существительными. Производные прилагательные образованы от других частей речи в основном от глагола.

Суффиксы могут различаться своей продуктивным и непродуктивными. Они обогащают английский язык словообразующим характером и почти привязывают заимствованные слова. С развитием технологий в обществе появляются неологизмы. В тиках случаях велика роль суффиксов. В будущем

суффиксы будут важным и полезным элементов и образовании прилагательных английского языка.

Ключевые слова: семантика, грамматика, суффикс, корень слова, части речи.

Safixanova A.H.
Abiyeva V.G.

ADJECTIVE BUILDING SUFFIXES IN THE ENGLISH AND AZERBAIJAN LANGUAGES AND THEIR PLACE IF USAGE.

SUMMARY

In this article is spiken about suffixes in adjectives. Anadjective is formed from another djective by adding a suffix like – y, ive, al, ish, er, est and so.on. Some examples of adjectives formed from another adjective are used in the sentence. The sky was reddish in the evening. My brother is funnier than I expected him to be. Some adjectives are formed from nouns, other from verbs and some entered our languages as adjectives. The word forms come from Middle English, Latin, Greek and other languages. There are no simple rules adding suffixes, but there are common Patterns Adding a suffix to a noun from is one way to form djective. We know that suffix is a part added to the end of a word to mark the word form. An adjective occurs as the complement to the presicate. It is ... It seem and it appears adjective can be formed from nouns, verbs and other djectives from nouns by adding suffixes to a noun adjectives formed by adding – ly, ish, ic as a suffix to nouns: man – manly, human – humanly, king – kungly, girl – girlish, a chield – childish. Suffixes like “y” – able journal” “full” “ic” and others can be added to verbs to form djectives: speed – speedy, read – readable, enjoy – enjoyable and so.on that modifies a noun or noun phrase or characterizes its referent. Its semantic role is to alter the information provided by the noun. Adjectives have mary components of speech in the English language but they were formerly classified with nouns. Certain words that were formerly ctaqorized as adjectives like this, my, and so on are now classified as determines. Suffixes can be varied according to their beeng productive and non productive. The enrich English language for their wordbuilding character and almost owns the borrowed words. Since technics develop in the society new words appear in the language. In these cases the role of suffixes is great. Suffixes will be important and helpful element for building adjectives in the English language in future.
Key words: semantics, grammar, suffix, stem of words, parts of speech.

ЛИТЕРАТУРА

1.Мешков О.Д. Словообразование современного английского языка. Москва, 1986.
2.O.Musayev. İngilis dilinin qrammatikası. Bakı, Qismət, 2007.
3.Клонин. English lexicology.
4. Бархударов Л.С. Грамматика английского языка. 1973.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi prof.Məmmədova Z.Ş.
tərəfindən çapa tövsiyə olunmuşdur

TƏHMƏZOVA GÜNAY YAQUB QIZI
Bakı Slavyan Universiteti
İngilis Filologiyası kafedrası
Süleyman Rüstəmov küç.33
tehmezovagunay@mail.ru

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ KOLLOKASİYA SƏRİŞTƏSİNİN İNKİŞAF ETDİRİLMƏSİ

XÜLASƏ

Məqalə ingilis dilini öyrənənlərin kollokasiya bacarıqlarının mənimsənilməsinə və inkişafına həsr edilmişdir. Kollokasiya sərişləsi çox güman ki, dil biliyinin ən yüksək səviyyələrindən biridir. Bu məqalədə bir sıra səbəblərdən tədqiqat obyekti olaraq məhz kollokasiyalar seçilmişdir. Birincisi, dilçilərin də qeyd etdiyi kimi, bu tip söz birləşmələri ingilis dilində çox yayılmışdır. Bundan əlavə, kollokasiyalar həmçinin bizə xarici dil biliklərinin səviyyəsini aydın şəkildə müəyyən etməyə imkan verən vasitədir .

Məqalədə qeyd edilmişdir ki, müəllimlər dil öyrənənləri kollokasional birləşmələrə diqqət yetirməyə və onlardan xəbərdar olmağa təşviq etməlidir. Buna öyrənənlərin diqqətini mətni oxuyarkən rastlaşa biləcəkləri faydalı birləşmələri göstərməyə və qeyd dəftərlərinə qeyd etməyə yönəltməklə nail olmaq olar.

Məqalədə mövzuya dair giriş verilir və daha sonra kollokasiyaların təsnifatları haqqında ümumi məlumat verilir. Kollokasiyalar onların tərkib hissələri arasındakı əlaqəyə və dildə işlənmə tezliyinə görə təsnif edilmişdir. Məqalədə tərkibi feillər və onların dil öyrənənlər üçün yaratdığı maneə məsələsinə də toxunulub.

Məqalədə bir sıra tövsiyə olunan fəaliyyətlər də verilmişdir ki, ingilis dili müəllimləri onları öz dərslərində həyata keçirə bilərlər. Kollokasiyaların tezlik lüğəti barədə biliklərin əldə edilməsi və onlardan istifadə tələbələrin kollokasiyaların istifadəsi haqqında məlumatlılığını artırmağa və onların birgə işlənmə bacarıqlarının inkişaf etdirilməsinə kömək edə bilər. Tez-tez istifadə olunan tezlik lüğətləri arasında British National Corpus və Contemporary Corpus of American English lüğətləri qeyd edilmişdir. Müstəqil dil öyrənmə prosesi yaratmaq üçün, öyrənənlərin kollokasiyalar haqqında daha əhatəli biliklər əldə etməsi üçün digər lüğətlərə də müraciət etmələri tövsiyə edilir. Bu lüğətlərə gəldikdə, buraya Collins COBUILD, Oxford Collocation Dictionary və Macmillan Dictionary kimi lüğətlər daxildir.

Açar sözlər : Kollokasiya sərişləsi, leksik kollokasiyalar, qrammatik kollokasiyalar, tezlik

DEVELOPING COLLOCATIONAL COMPETENCE IN ENGLISH LANGUAGE TEACHING

Collocational competence is a key to language fluency and accuracy. In order to master the language independently it is advisable that language learners should acquire the knowledge of collocational usage, because knowing the meaning of word is useless or inefficient without knowing anything about their collocational combinations. It is collocational competence that allows students to read more widely, understand more effectively and speak more fluently. Collocations enhances fluency and makes one's speech much more comprehensible and native - like. According to McCarthy and Lewis: "A collocation is a pair or group of words that are often used together with some frequency in both oral and written discourse". [1, s.7]. These combinations sound natural to native speakers, but students of English have to make a special effort to learn them because they are often difficult to guess and they contribute to the meaning of the word. For example, the meaning of the word white changes in each of the following collocations: *white coffee, white wine, white noise, white man and white lie*. So, we conveyed the meaning which we need with the help of different collocational patterns. Likewise, a full understanding of the word *heavy* requires knowing its meanings in *heavy man, heavy rain, heavy meal, heavy traffic and heavy smoker*.

There is no general rule for the formation of collocations, but collocations are classified according to different principles. Taking into account the link between the components of collocations there are two types of them: strong collocations and weak collocations. If the link between the parts of collocated combination is restricted it is a strong collocation: *sibling rivalry, inclement weather, deliriously happy* etc. If the parts of collocation can easily collocate with other words, they are called weak collocations. For ex: *a heavy bag, heavy rain, a heavy smoker etc.* The difference between strong collocations and idioms is that in the former the parts remain transparent, but in later the words are combined figuratively and can no longer be decomposed: *pay through the nose (pay an excessive amount), kick the bucket (to die), have your feet on the ground (to be sensible).*

There are also different other classifications of collocations in the English language. Morton Benson [5, s.147] divides collocations into two main groups – lexical collocations and grammatical collocations. Lexical collocations consist of nouns, verbs, adjectives and adverbs whereas grammatical collocations are composed of a noun, verb or adjective combined with a preposition or another grammatical structure, such as infinitives or that clauses. For ex:

Lexical collocations:

Verb + Noun (e.g., compose music; revoke a license)

Adjective + Noun (e.g., strong tea; rough estimate)

Adverb + Adjective (e.g. vitally important , deeply ashamed)

Noun + Verb (e.g., bees buzz; bombs explode)
Verb +Adverb (e.g., summarize briefly; serve devotedly)
Verb+ Adjective (e.g. keep calm, fall ill)
Grammatical collocations:
Preposition + Noun (e.g., in advance, at anchor)
Adjective + Preposition (e.g., afraid of; interested in)
Noun + Infinitive (e.g., He was a fool to do it.)

A lecturer at the University of Queensland and executive secretary of the Applied Linguistics Association of Australia Christina Gitsaki mentioned that the study of collocations should include grammar. Lexis and grammar cannot be separated and, consequently, two categories are defined as lexical and grammatical collocations, which represent two distinctive but related aspects of one phenomenon. [2, s. 205] Grammatical collocations usually consist of a noun, an adjective or a verb plus a preposition or a grammatical structure such as 'to+infinitive' or 'that-clause', e.g. *by accident, to be afraid that*. Lexical collocations do not contain grammatical elements, but are combinations of nouns, adjectives, verbs, adverbs such as *reject an appeal, strong tea, hopelessly addicted.* A grammatical collocation, in contrast to a lexical collocation, is a phrase that consists of a noun, an adjective, or a verb plus a preposition or grammatical structure such as an infinitive or clause . [5, s. 132]. Chomsky gave the following example of a grammatical collocation (a close construction in Chomsky's terminology): *decide on a boat,* meaning '*choose (to buy) a boat'*, but on the other hand, *decide on a boat*, meaning '*make a decision while on a boat'* is a free combination (a loose association in Chomsky's terminology). Native speakers of English feel that the components of *decide on* collocate with each other, and they will most likely reject violations of collocability such as *decide at a boat*. He believed that English prepositions are notoriously difficult for ESL/EFL learners to master because of L1 interference. For native speakers, prepositions present little difficulty, but for a foreign/second language learner they are confusing and largely problematic. For instance, we say, *we are at the hospital;* or *we visit a friend who is in the hospital*. *We lie in bed but on the couch*. *We watch a film at the theater* but *on television*. Since variety of grammatical collocations seems to be more limited than those of lexical ones, learners may feel they have the most freedom in combining lexical collocations. Therefore, collocational errors the learners are likely to commit are the are the transfers of L1 elements. [7, s. 198]. Taiwo believed that learners' lack of knowledge of collocational patterns of lexical items makes them to be prone to all sorts of collocational errors, which can be more disruptive in communication than grammatical errors. He discussed that in spite of the difficulties to acquire collocations there was considerable pedagogical value in raising young EFL learners' awareness of collocations and word order. [6, s.179]

Collocations are closely related to the developing of reading and listening skills .We don't have to listen or read the words one-by-one .It allows us to read quickly

and listen effectively we don't have to process everything word -by-word. Knowing lots of collocations serve for the fluency of the language learner. What differentiates intermediate level learner from advanced level learner is not the knowledge of 2000 words ,but the knowledge how to combine them and use them quickly. Transforming individual words into collocations changes the stress and intonation patterns too. As a result of this pronunciation skills of language learners improve greatly.

Due to the important role which the notion of collocation plays in language learning, its teaching should be a top priority in every language course. Teaching collocated word combinations includes different recommended activities. They are the followings: 1) Encouraging noticing of collocations 2) Focusing on strong collocations 3) Paying attention to de-lexicalized verbs 4) Using dictionaries in finding collocations during classroom activities.

In the process of teaching collocations learners' awareness must be raised and they must be trained on the skill of chunking the words , which enables them to identify collocations in texts and improve their learning .Many students are not making any noticeable progress simply because they have not been trained to notice which words go with which . Students' failure to learn collocations is mainly related to the fact that teachers have not pointed them out in the text they are using. Unless teachers refer their students' attention, they will not notice and record collocations for themselves [4, s.81] . Their basic role is to help learners to identify collocations in text, and highlight the useful relations between types of collocations: adjective+noun, verb + adverb ... etc. Their aim must be making the students more aware of collocations as an effective way to improve their ability to use the language systematically. If it is necessary we can even provide them with different similar examples in their mother tongue. The process of training students to recognize collocations in context may include different forms of techniques:

a) pointing out a collocational combination from the text, b) defining its category (adjective+noun, verb+adverb, or verb+noun collocations c) writing it on the board and asking students to record it in their notebooks, d) encouraging students to provide collocates they already know.

For ex: a) An exercise which is introduced to practice group of "Verb+Noun" collocations. The headwords are the verbs: catch, pay, keep, have and break. This is shown in the following table :

Catch	Pay	Keep	Have	Break
a cold a	attention	a pet	headache	the rules
a ball	a visit		a bath	the law
a bus	In cash	control	a holiday	a promise
fire	the price	an appointment	a drink	one's heart
a thief	by check	a secret	a haircut	a world record

b) an exercise in which matrices or grids are used to clarify the collocation of certain words. They are excellent ways to practice different collocations. " The teacher needs only to supply the blank grids, and the students can complete the grids with the collocations they find in each chapter" [3, s. 124]

	a car	a motorbike	a train	a horse	a plane
To fly					+
Dildə variativlik intralinqvistik və ekstralinqvistik amillər səbəbindən də baş verə bilər. Buraya dil daxilində gedən dəyişikliklər, dilin inkişafı, eləcə də bir dilin başqa dil və mədəniyyətlərlə əlaqəsi zamanı üzə çıxır. Volframın fikrincə *"Əgər dilin strukturu onun ürəyidirsə, variativlik onun qəlbidir* [7, s. 333]*."*

Amerikalı sosial dilçi Labovun (1969) fikrincə variativlik bir şeyi ifadə etməyin iki və ya daha artıq üsuludur [2, s. 3]. Variativlik anlayışından ilk dəfə bəhs etmiş F.de Sössürə görə, variativlik işarənin xassələrindən biri kimi onun dəyişkənliyə meyilliliyini səciyyələndirir [4, s. 40]. Buradan Praqa strukturalistləri belə nəticəyə gəlirlər: dil invariant, nitq isə variativdir [3, s. 372].

Qrammatik səviyyədə variativlik dedikdə eyni bir qrammatik formanın müxtəlif məzmun kəsb etməsi və ya eyni bir məzmunun müxtəlif qrammatik formalarla ifadəsi başa düşülür. Qrammatik variativlik dilin bütün inkişaf mərhələləri üçün xarakterik olsa da, nəzəri cəhətdən yalnız XX əsrdə öyrənilməyə başlanmışdır.

Dil subyektiv xarakter daşıyır və onun müxtəlif variantları mövcud ola bilər. Məsələn, ingilis dilinin Britaniya və Amerika variantlarına əsasən müəyyən bir struktur müxtəlif kontekstlərdə müxtəlif cür qrammatik formalarla ifadə edilə bilər. Yaxud da Amerikada yaşayan qaradərili insanların istifadə etdiyi qrammatik formalar ingilis dilinin digər variantarında düzgün hesab edilməyə bilər. Məsələn, *Ain't nobody's business if I do it* cümləsi Britaniya və Amerika ingiliscəsində *It's none of anyone's business if I do it* kimi qəbul edilmişdir.

Beləliklə, subyektiv cəhətdən variativlik ambiqvitivlik, dilin qrammatik strukturlarının müxtəlifcinsli interpretasiyası kimi anlaşıla bilər. Sintaktik baxımdan variativlik söz birləşməsi, cümlə və ya hipersintaksis səviyyəsində təhlil edilə bilər.

Müasir ingilis dilində şərt (ing.conditional) bildirən if-klozların dörd növü vardır: sıfır *(zero)* kəndişinal, I tip kəndişinal, II tip kəndişinal və III tip kəndişinal.

1) Sıfır kəndişinal klozlarda hək iki cümlədə indiki zamanın qeyri-müəyyən forması işlənir. Yəni, if + present simple, + present simple. Bu tip cümlələr adətən elmi fakt, həqiqət, əmr bildirir. If-klozda baş verən hərəkətin nəticəsi baş cümlədə reallaşır. Məsələn, *if water reaches 100 degree, it boils*.

Bu tip cümlələrin present simple + if + present simple variantı da mümkündür. Məsələn, *dogs bite if they are scared. You get water if you mix hydrogen and oxygen.*

Sıfır kəndişinal klozlarda həqiqətlər və ya adəti üzrə baş verən şeylərdən bəhs edərkən *if* bağlayıcısını *when* bağlayıcısı ilə də əvəz etmək mümkündür. Məsələn, *when there is a strong wind, people are usually advised to be extra careful = if there is a strong wind, people are usually advised to be extra careful.*

2) Birinci tip kəndişinal cümlələr situativ xarakter daşıyır. Bu tip cümlələr if + present simple + future simple sturkturuna malik olurlar. Yəni, hərəkətin gələcək zamanda baş verəcəyi gözlənilir. Məsələn, *if it rains, I'll postpone the meeting.*

Birinci tip kəndişinal cümlələrin digər variantı isə baş cümlənin pripozitiv mövqedə işləndiyi formadır. Məsələn, *she'll miss the plane if she doesn't hurry.* Bu tip cümlələrdə hərəkətin gələcəkdə baş verməsi mümkün kimi qiymətləndirilir.

Birinci tip kəndişinal cümlələrin baş cümləsində feilin əmr şəkli və ya modal feil də işlənə bilər. Məsələn, *if you are thirsty, go drink water. If you have a toothache, you should go to the dentist.*

Bəzən if-klozlarda feilin indiki zaman davamedici zaman formasını da işlətmək mümkündür. Yəni, if + present progressive, + present simple. Məsələn, *if they are coming for lunch, we'll have to buy more food* [8].

Provided that, providing that, as long as, so long as kimi ifadələr birinci tip kəndişinal cümlələrin budaq cümləsində *if* bağlayıcısını əvəz edə bilər. Bu zaman bu sözlər budaq cümlədə ifadə edilmiş şərti emfatikləşdirmə xüsusiyyətinə malik olurlar [8]. Məsələn, *provided that/providing that you promise to be careful, I can allow you to use my phone = if you promise to be careful, I can allow you to use my phone. You can go to the cinema with us so long as you finish all your homework = You can go to the cinema with us if you finish all your homework.*

3) İkinci tip kəndişinal cümlələr feilin sabcanktiv şəkli ilə əlaqədardır. Bu cümlələr indiki/gələcək və keçmiş zamana istinadən işlənə bilər. Birinci halda if-klozlarda feilin indi zaman kandişinal şəkli *(ing. present kandişinal),* baş cümlədə isə keçmiş zaman sabcanktiv şəkli *(ing. past subjunctive)* işlənir. Məsələn, *if she asked me, I would gladly help her.*

İkinci tip kəndişinal cümlələrdə if-klozlarda *could, ought to, might, should* modal feillərindən birini də işlətmək mümkündür. Məsələn, *if I had wings, I could fly like an eagle.*

Bu tip cümlələr adətən məsləhət də bildirə bilər. Bu zaman if-klozlarda bütün şəxslər üzrə *were* feili işlənir. Məsələn, *If I were you, I wouldn't go there.*

İkinci tip kəndişinal cümlələrin digər variant if-klozun baş cümlədən sonra işləndiyi hallardır. Məsələn, *he would pass the exam if he studied hard.* İkinci tip kəndişinal cümlələr arzu olunan, xəyal edilən hərəkətləri bildirir və danışanın nöqteyi-nəzərindən asılı olur.

İkinci tip kəndişinal cümlələri arzu bildirərkən baş cümlədə *wish* feili, if-klozlarda isə ya *to be, to have* feillərinin keçmiş zaman formaları, yaxud da *could* modal feili işlənir. Məsələn, *I wish I had money. I wish I could speak several languages. I wish I were a millionaire.*

4) Üçüncü tip kəndişinal cümlələr keçmişə aid olub arzu edilən, lakin reallaşması mümkün olmayan hərəkətləri bildirir. Bu zaman if-klozlarda feilin sabcanktiv şəklinin bitmiş zaman forması *(ing. past perfect subjunctive),* baş cümlədə isə feilin kəndişinal şəklinin keçmiş zaman forması *(ing. past conditional)* işlənir. Bu tip cümlələrdə də if-klozlar pripozitiv və postpozitiv mövqelərdə işlənə bilir. Məsələn, *if I had had the chance, I would have got the best education. I would have invited you if you had been free yesterday.*

Üçüncü tip kəndişinal cümlələrin digər variantı *if* bağlayıcısının düşdüyü hallardır ki, bu zaman inversiya baş verir və *had* mübtədadan əvvələ keçir. Məsələn, *had you informed me, I would have known how to answer = if you had informed me, I would have known how to answer.*

Üçüncü tip kəndişinal cümlələrdə if-klozlarda *could, ought to, might, should* modal feillərindən biri + *perfect infinitive* də işlətmək mümkündür. Məsələn, *if you had been more careful, you might not have been broken the window.*

Üçüncü tip kəndişinal cümlələrdə həm şərt, həm də nəticənin əldə edilməsi qeyri-mümkün olur.

If-klozlarının digər variantları kimi qarışıq kəndişinal *(ing. mixed conditional)* cümlələrini də təhlil etmək yerinə düşər. Qarışıq kəndişinal cümlələrin iki tipi vardır:

1) If-klozlarda keçmiş bitmiş sabcanktiv *(ing. past perfect subjunctive),* baş cümlədə isə feilin kəndişinal şəklinin indiki zaman forması *(ing. present conditional)* işlənir. Bu tip mürəkkəb cümlələrin if-klozlarında təsvir edilən hərəkət keçmiş zamana, baş cümlədəki hərəkət isə indiki zamana işarə edir. Məsələn, *if I had won the lottery, I would have a proper life now.*

2) İknci tip qarışıq kəndişinal cümlələrdə if-klozlarda işlənən hərəkət ümumi xarakter daşıyır, bəzən isə hər hansı bir şəxsin fərdi xüsusiyyətini bildirib feilin keçmiş zaman sabcanktiv şəkli ilə ifadə edilir. Baş cümlədə işlənən hərəkət isə keçmiş zamana aid olub feilin kəndişinal şəklinin keçmiş zaman forması ilə ifadə edilir. Məsələn, *if I weren't so lazy, I wouldn't have missed the lessons.*

If-klozlarından feilin indiki zaman sabcanktiv şəkli və sapozişinal şəklindən də istifadə edilir. Bu zaman baş cümlədə ya indiki qeyri-müəyyən zaman, ya da feilin əmr şəkli; budaq cümləd isə *to hissəciksiz məsdər* və ya *should + (have) infinitive* işlədilir. Bu zaman, if-klozlar problemli hərəkət bildirir. Məsələn, *if you should see (see) him, convey my best regards.*

Bu tip cümlələrin digər bir variantı if bağlayıcısının atılması ilə düzələn klozlardır. Bu zaman budaq cümlədə inversiya baş verir və *should* mübtədadan əvvələ keçir. Məsələn, *should you arrive early, come and visit me.*

If klozlarının digər növü qeyri-real şərtin açıq ifadə edilmədiyi, lakin asanlıqla başa düşüldüyü eyhamlı *(ing. implied)* kolazlardır. Məsələn, *I would have gone with you, but I had to study = if I hadn't had to study, I would have gone with you.*

If-klozlarının digər variant *without* sözönü ilə bağlanan şərt bildirən cümlələrdir. Bu tip cümlələr adətən inkarda işlənib özündən sonra cerund tələb edir [5, s. 115]. Məsələn, *I will not go without being invited = I will not go if I am not invited.*

Eyni hal cerund tərkibi üçün də xarakterikdir. Bu zaman cerunddan, yəni *ing*-li sözdən əvvəl yiyəlik halında olan isim və ya yiyəlik əvəzliyi işlənir. Məsələn, *you*

will not be able to cope with the work without my heping you = you will not be able to cope with the work if I don't help you.

If bağlayıcısı və keçmiş zaman feili sifəti vasitəsilə yaranan və şərt bildirən cümlələr də if-klozlarının digər variantlarındandır. Məsələn, *If proved, he will be free of the charge.*

If-klozlarının alternativ variantlarından biri kimi müstəqil nominativ feili sifət tərkibi ilə ifadə edilən və *permitting/failing* sözlərindən istifadə edilən klozlardır. Məsələn, *Father permitting, I'll join you for a camping = if my father permits, I'll join you for a camping. Hope failing, no intention for living remains = if hope fails, no intention for living remains.*

If-klozlarının digər növü isə *but for* ilə başlayan sadə cümlələrdir ki, bu tip cümlələr mənaca qeyri-real şərt bildirən if-klozlara uyğun gəlir. Məsələn, *but for the bad weather, I would have met with you = if it had not been for the bad weather, I would have met with you. But for her illness, she would accept the invitation = if she weren't ill, she would accept the invitation.*

Qeyd etmək lazımdır ki, *if* bağlayıcısı heç də həmişə şərt bildirmir. *If* bağlayıcısı *only* sözü ilə birləşərək arzu, istək bildirir. Bu zaman *if only* Azərbaycan dilinə *bircə* kimi tərcümə olunur və özündən sonra felin keçmiş zaman sabcanktiv formasını tələb edir. Məsələn, *if only I had wings like a bird.*

Feilin keçmiş bitmiş sabcanktiv şəkli ilə işləndikdə isə peşimançılıq, arzu olunmaz hərəkət bildirir. Məsələn, *if only he hadn't said such words.*

Tədqiqatdan aydın olur ki, müasir ingilis dilində if-klozları özünü müxtəlif formalarda büruzə verir. Aydın olur ki, if-klozlar əsasən şərt bildirir. Lakin bununla yanaşı, arzu, təəssüf, güman və s. kimi mənalar da ifadə edə bilərlər.

Ədəbiyyat

1. Qurbanova, F.F. Müasir ingilis dilində leksik-semantik variativlik: / filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı / - Bakı, 2018. – 24 s.
2. Sössür de F. Ümumi dilçilik kursu. Bakı, BDU, 2003
3. Трубецкой, Н.С. Основы фонологии / Н.С. Трубецкой. – Москва: Издательство иностранной литературы, - 1960. – 371 с.
4. Labov, W. Contraction, deletion and inherent variability of the English copula // Language, - 1969, vol. 45, nº 04, - p. 715-762.
5. Mammadova G. English grammar rules and exercises / G.Mammadova. – Bakı, - 2018. – 423 p.
6. Trask, R.L. Key Concepts in Language and Linguistics / R.L. Task. – Psychology Press, - 1999. – 378 p.

7. Wolfram, W. Variation and language: Overview. In: BROWN, K. (ed.). Encyclopedia of languages and linguistics II. - Oxford: Elsevier, - 2006. - p. 333-40
8. https://www.academia.edu/37959657/ENGLISH_GRAMMAR_Conditional_Sentences?email_work_card=view-paper

П.Т.Юсифова

СТРУКТУРНАЯ И СЕМАНТИЧЕСКАЯ ВАРИАТИВНОСТЬ ПРЕДЛОЖЕНИЙ С СОЮЗОМ «ЕСЛИ»

РЕЗЮМЕ

Язык постоянно терпет изменения, чтобы удовлетворить коммуникативные потребности говорящих. Такие изменения приводят к различным вариантам различных языковых форм на разных уровнях языка, что, в свою очередь, приводит к возникновению вариативности языка. Вариативность может применяться как к самому языку, так и к различным уровням языка. Вариативность характерна для всех уровней языка, в том числе и для синтаксического уровня. В работе рассматриваются структурно-семантические варианты предложений с союзом «если» в современном английском языке. В английском языке предложения с союзом «если», которые в основном выражают условия, называются условными предложениями. Условные предложения состоят из двух частей - придаточного предложения и главного предложения. Однако в статье также затрагиваются предложения с союзом «если» с различными семантическими оттенками, а так же их структурные свойства. В статье также рассматриваются придаточные предложения с разными семантическими оттенками. Например, нулевой тип условного предложения, первый тип, второй тип, третий тип, смешанный тип условного предложения и их структурные особенности. В статье также подчеркиваются различные структурные конструкции, которые могут быть вариантами предложений с союзом «если». Кроме того, придаточные предложения с союзом «если» также могут выразить желание, пожелание, нежелательное действие, сожаление и т. д.

Ключевые слова: вариант, вариативность, предложения с союзом «если», условные предложения, нулевой тип условного предложения, первый тип, второй тип, третий тип, смешанный тип.

P.T.Yusifova

STRUCTURAL AND SEMANTIC VARIATION OF IF-CLAUSES

SUMMARY

Language constantly undergoes changes to meet the communicative needs of the speakers. Such changes lead to different variants of various language forms on different levels of the language, which in turn leads to the emergence of variation in the language. Variation can be applied both to the language itself and to the different levels of the language. Variation is characteristic for all levels of the language, including the syntactic level. The research work deals with the structural and semantic variants of if-clauses in modern English. In English, if-clauses, which mainly express condition are called conditional clauses. Conditional sentences consist of two parts - if clauses and the main clause. The article covers if-clauses with different semantic shades, for example, zero, first, second, third or mixed types of conditional sentences and their structural features. The article also highlights different structural constructions that may be the variants of if-clauses. Moreover, in addition to expressing a condition, if-clauses may convey desire, wish, unwanted action, regret, etc.

Key words: variant, variation, if clauses, zero conditional, first conditional, second conditional third conditional, mixed type

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi f.f.d., dos. F.F.Qurbanova
tərəfindən çapa tövsiyə olunmuşdur

NİGAR MƏHƏRRƏMOVA
ADU
n.meherremova@yahoo.com

İNGİLİS DİLİNİN FORMALAŞMASINDA SKANDINAV MƏDƏNİYYƏTİNİN ROLU

Xülasə

Mədəniyyətlərarası ünsiyyəti müəyyən zaman-məkan kontiniumu çərçivəsində nəzərdən keçirdikdə, hər bir mədəniyyətin ümumi və xüsusi cəhətləri daha qabarıq şəkildə sezilir və linqvistik müxtəlifliyin multikulturalizmin formalaşmasında oynadığı rol daha aydın nəzərə çarpır. Orta əsrlərdə Britaniya multikulturalizminin formalaşmasında dil və mədəniyyətin əlaqəsi və bir-birinə təsiri diqqət cəlb edir.

Xüsusən də, Orta əsrlərdə Britaniyada multikulturalizm və dilin qarşılıqlı əlaqəsi ilə bağlı mövcud olan fikir müxtəlifliyi bu məsələ ilə bağlı ümumi məxrəcə gəlmək lüzumunu ortaya çıxarır.

Tədqiqat işinin yazılmasında nəzəri dilçiliyin ənənəvi metod və üsullarından, xüsusən təsvir, müşahidə, müqayisə, qarşılaşdırma, tutuşdurma üsul və metodlarından istifadə olunmuşdur. Məhz bu baxımdan Orta əsrlərdə Britaniya multikulturalizminin formalaşmasında linqvistik müxtəlifliyin rolunu tədqiq etmək xüsusi əhəmiyyət kəsb edir.

Açar sözlər: semantika, alınmalar, leksika, kontekst.

Bəşəriyyət yarandığı gündən etibarən daima bu və ya digər səbəbdən müxtəlif xalqlar və dövlətlərlə sıx əlaqədə olmuşdur. Bu əlaqələrin fonunda mədəniyyətlər formalaşmış, inkişaf etmiş və zənginləşmişdir. Eyni qaydada yeni mədəni dəyərləri ifadə edən leksik vahidlər dünya dillərinin inkişafına səbəb olmuşdur. Başqa sözlə müxtəlif dillərə müxtəlif səbəblərin təsiri altında bir sıra yeni leksik vahidlər daxil olmuşdur. Bir çox hallarda dilə daxil olan bu sözlər məhsuldar olmuş və daxil olduğu dilin söz yaradıcılığı prosesində fəal iştirak etmişlər. Lakin bununla belə qeyd etmək lazımdır ki, dilə daxil olan yeni leksik vahidlər hər zaman daxil olduğu dildə məhsuldar olmurlar. Bu zaman belə sual yaranır bunun əsas səbəbi nədir? Bunun əsas səbəbi isə birinci yeni leksik vahid ilk öncə öz dilində məhsuldar olmalıdır və ikinci əsas səbəb isə daxil olduğu dilin qayda-qanunlarına tabe olmalıdır. Təbii ki, bu zaman onun fonetik quruluşunda, leksik-semantik mənasında bir sıra dəyişikliklər baş verə bilər.

Bununla belə, burada mühüm məqamlardan biri dilə daxil olan yeni leksik vahidlə yeni ifadələr yaratdıqda həm onun qrammatik quruluşuna, həm də ifadə etdiyi leksik-semantik mənaya diqqət yetirmək lazımdır. Məhz buna görə də, insanın dünyagörüşü, təffəkkürü və mədəni dəyərləri ilə vahid bir sistem yaradan dil çox

mürəkkəbdir. Bu mürrəkəbliyin əsas səbəbi isə dilin daima mədəniyyətlə, tarixlə qarşılıqlı əlaqədə olub inkişaf etməsindədir. Başqa sözlə dil dəyişkəndir. O dayanmadan dəyişir və leksik tərkibi zənginləşir.

Məhz bu baxımdan qloballaşan müasir dünyamızda ingilis dili xüsusilə maraqlıdır. Beləki, german dilləri qrupuna daxil olan, beynəlmiləl dil hesab olunan ingilis dilinin formalaşması tarixinə nəzər yetirdikdə bu tarixin qədim zamanlara gedib çıxdığının şahidi oluruq.

İngilis dilinin Britaniya variantının formalaşmasında əsasən üç dilin rolu qeyd olunur ki, bunlar latın dili, anqlo-sakson (alman dili), fransız dilidir. Skandinav dilinin təsiri haqqında çox az tədqiqat aparılmışdır. Bunun əsas səbəbi isə orta əsrlərdə Britaniyada məskunlaşan və artıq özlərini ingilis adlandıran anqlo-saksonlar ilə skandinavlar arasında mədəni fərqlərin bir o qədər mühüm olmamağı ilə əlaqələndirilir. Hətta anqlo-saksonların skandinavlardan daha yüksək mədəni dəyərlərə sahibi olduqları qeyd olunur. Lakin bununla belə, ingilis dilinin Britaniya variantına daxil olan skandinav mənşəli leksik vahidləri təhlil edən zaman biz skandinav dilinin ingilis dilinin bütün səviyyələrinin təsir etdiyinin şahidi oluruq.

IX əsrdən başlayaraq Danimarka krallığının hücumları nəticəsində Britaniyanın mədəni həyatında baş verən dəyişikliklər öz əksini dildə də tapmışdır. Belə ki, IX əsrdən etibarən skandinav tayfalarının – vikinqlərin Britaniyaya hücumu nəticəsində Britaniyanın şimal-şərq hissəsinin Londondan Nortumbriaya qədər olan hissəsinin etnik tərkibi və sosial strukturu tamamilə dəyişdi. Burada bir sıra norveçlilər və danimarkalılar məskunlaşdılar və özləri ilə bərabər öz mədəniyyətlərini, dillərini gətirdilər. Hətta X əsrdə Anqlo-sakson krallığı öz hakimiyyətini burada bərpa etdikdən sonra belə, buranın səciyyəvi skandinav xarakteri qorunub saxlanıldı və bura *Deynlo (Danelaw)* adlandırıldı (Danimarkanın hüquq sahəsi). Hazırda da bu ərazidə skandinav lüğəti istifadə olunur və bir sıra coğrafi adlar skandinav mənşəlidir [7, s.45].

Anqlo-sakson monarxiyasının son dövrlərində İngiltərədəki skandinav təsiri daha da güclənmişdir: norveç və danimarkalı aristokratlar İngiltərənin ən yüksək vəzifələrində yer alırdılar və nəticə etibarilə, skandinav həyat tərzi və mədəniyyəti krallığın gündəlik həyatına daxil olurdu. Bu isə öz növbəsində, bu dövrdə İngiltərədə mövcud olan anqlo-danimarka cəmiyyətindən danışmağa əsas verir. Bu cəmiyyət hər iki mədəniyyəti özündə əks etdirir. Bu dövr Britaniya tarixində ingilislərin skandinav tayfalarının, onların dillərinin və mədəniyyətlərinin təsiri altında olduğu bir dövr kimi səciyyələnir. Skandinav dilinin təsiri nəticəsində inglis dilinin leksikası, qrammatikası dəyişiklikliyə məruz qalmışdır. Bildiyimiz kimi, ingilis dili sintetik dil olmuşdur, skandinav dilinin təsiri ingilis dili sözlərindəki sonluqların düşməsi və ingilis dilinin səciyyəvi analitik strukturunun formalaşması ilə nəticələnmişdir.

Bir dilin analitikliyi dedikdə, cümlədəki sözlərin əlaqəsinin birbaşa söz quruluşunun xüsusi sıra ardıcıllığının gözlənilməsi ilə yaradılması nəzərdə tutulur.

Sintetik dil dedikdə isə cümlədəki sözlərin əlaqəsininin sözlərin birbaşa özlərinin dəyişilməsi ilə yaranması başa düşülür.

Eyni zamanda, skandinav dilinin təsiri altında qədim ingilis sözləri olan *dag, gerd, gear* və s. kimi bir sıra sözlərdə *"g"* qrafemi *"y"* qrafemi ilə əvəz olunmuşdur *(dag – day (gün), gerd – yard (həyət), gear – year (il))*. Göründüyü kimi, bu cür multikultural fonda baş verən dəyişikliklər ingilis dili sistemində kök salaraq möhkəmlənmişdir.

Ümumiyyətlə, skandinav dilinin ingilis dilinə təsirini, əslində, iki dövrə ayırmaq olar. Bunun əsas səbəbi isə normanların skandinav əsilli olmasıdır. Belə ki, IX-X əsrlərdə skandinavların bir hissəsi Britaniyaya, bir hissəsi də Fransaya hücum etmiş, Fransanın böyük bir hissəsini tutmağa nail olmuşlar. Müəyyən zamandan sonra normanlar iqtisadi və siyasi cəhətdən gücləndikdən sonra, skandinavlarla olan əlaqəsini kəsmiş və yüksək mədəniyyət hesab edilən fransız mədəniyyətini qəbul etmiş və özlərini fransız adlandırmağa başlamışlar.

Beləliklə, bir neçə əsr eyni coğrafi ərazidə yaşamaq hər iki xalqın qaynayıb-qarışmasına səbəb olmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, bu cür sıx münasibətlər zamanı dilə bir sıra leksik vahidlər daxil olur. Bəzən dilə daxil olan leksik vahid dildə artıq mövcud olan leksik vahidi dilin leksik tərkibindən çıxardır, bəzi hallarda isə hər ikisi dildə öz mövcudluğunu qoruyub saxlaya bilir. Misal olaraq, ing. *whole (qəd. ing. hool)* və skand. *hale (qəd. skand. hail)* sözlərinə nəzər salaq. Hər iki leksik vahid orta əsrlərə aid olan *"hail and hool" (bütünlüklə dolu)* ifadəsində birlikdə işlənir. Digər bir misala diqqət yetirək, *no – nay*. Müasir zamanda *nay* yalnız fikri vurğulamaq məqsədilə işlənir "*it`s enough, nay to much" (kifayətdir, artıqlaması ilə)*. Lakin Orta əsrlərdə verilən suallara *"yox"* cavabı vermək məqsədilə işlənirdi. Düzdür *nay* sözü *no* qədər güclü deyildi *(İs it true? Nay "Bu düzdür? Yox."- İs it not true? No "Bu düz deyil? Xeyr.")*. Orta əsr ingilis sözü olan *leas* müasir ingilis dilində öz mövcudluğu *-less* leksik şəkilçisi formasında saxladığı halda, skand. mənşəli *loose (itirmək)* sözü onu tamamilə əvəz etmişdir [8, s.67].

Skandinavlar ilə anqlo-saksonların bəzən düşmənçilik münasibətlərində olmaqlarına baxmayaraq, müəyyən tarixi zamanlarda isə mehriban əlaqələrə sahib idilər. Skandinavlar Deynlo coğrafi ərazisində məskunlaşdıqdan sonra onlar arasında mehriban münasibətlər yaranmağa başlayır. Anqlo-saksonlar skandinavları döyüşkən, mərd xalq kimi tanıyırdı. Hətta bəzi mənbələrdə Kral Alfredin skandinavlar üzərində qələbə çaldıqdan sonra onların adət-ənənləri ilə yaxından maraqlandığına dair bir sıra məlumatlar var.

Lakin onu da qeyd etmək lazımdır ki, bu yaxınlıq bir mənalı qarşılanmırdı. Bəzi anqlo-saksonlar kral Alfredi qınayırdılar. O, ilkin vaxtlarda dinə hörmətlə yanaşdığından yerli xalq tərəfindən rəğbətlə qarşılandığı halda, sonralar skandinavlarla olan mehriban münasibətinə görə öz xalqı tərəfindən qınanırdı. Onlar kral Alfredi bütpərəst skandinavlarla yaxın dostluq münasibəti qurmamağa, anqlo-sakson adət-ənənələrinə sadiq qalmağa çağırırdılar [8, s.61-62].

Məhz skandinavlar ilə anqlo-saksonların uzun bir tarixi zaman çərçivəsində eyni bir coğrafi ərazidə yaşaması, skandinav dilinin ingilis dilinin formalaşmasında əhmiyyətli rol oynamaına səbəb olmuşdur. İngilis dilinə keçən skandinav mənşəli leksik vahidləri təhlil edən zaman bunu daha aydın görə bilirik. Eyni zamanda, bu cür leksik vahidlərin təhlili bizə müəyyən tarixi zaman çərçivəsində xalqlar və dövlətlər arasında olan münasibətlər, mədəni meyillər haqqında geniş məlumat verir. Misal olaraq, *Heithen* sözü skandinav tayfalarının Britaniya hücumu zamanı dilə daxil olmuşdur, skandinav inanclarını özündə əks etdirir. Mənası *bütpərəstdir*. Skandinavlar, bildiyimiz kimi, çox tanrılığa inanırdılar. Bəzi ədəbiyyatlarda bu sözə *heithen,* bəzi ədəbiyyatlarda isə *heathen* kimi rast gəlmək olur. Tədqiqatımız zamanı Orta əsrlərə aid bəzi yazıları nəzərdən keçirdikdə, anqlo-saksonların skandinavlar haqqında danışdıqda onlara *Heithen* deyə müraciət etdiklərinin şahidi oluruq.

Tədqiqat işimizə uyğun olduğu üçün bəzi parçaları təqdim edirik:

Transkripsiya: *"he loved foreign vices too much and gave heathen customs a firm footing in this country, alluring mischievous foreigners to come to this land."*

Tərcümə: *"O, əcnəbiləri çox sevirdi və bütpərəstlərin adətlərinin ölkəmizdə möhkəmlənməsinə şəarait yaradaraq, əcnəbilərin bizim torpaqlarda məskunlaşmağa cəlb etdi"* [8, s.61-62].

Göstərilən misallardan aydın olur ki, linqvokulturoloji terminlərin funksional xüsusiyyətlərinin təhlili bizim bir sıra suallarımızı cavablandırmağa yardımçı olur. Məhz bu cür təhlillər vasitəsilə biz multikultural cəmiyyətlərin hansı tarixi şəraitlərdə formalaşdığını və linqvistik müxtəlifliyin hansı dillərin təsiri altında baş verməsi ilə bağlı bir sıra suallara cavab tapa bilirik.

Skandinavların təsiri bir sıra coğrafi adların formalaşmasında da öz əksini tapmışdır. Bu cür coğrafi adlar skandinav dili şəkilçilərinin sözlərə əlavə edilməsi nəticəsində yaranmışdır ki, onlara misal olaraq, *-by* (skand. *byr* -məskunlaşma), *-beck* (skand. *Bekkr* – axın), *-thjorp* (skand. *thorp* – kənd), *-fell* (skand. *fjall* – dağ), *-toft* (skand. *topt* – əmlak) *–thwatte* (əmlak)və s. göstərmək olar. Bu cür coğrafi adlara *Brenceby (Brensbi), Howthorp (Hautorp), Dolby (Dolbi), Lowestoft (Lousoft), Easthorp (İstorp), Wadhurst (Voudhörst), Newnham (Nyunham), Norwich (Norviç), Berwick (Bervik), Heslington (Heslinqton), Maplestead (Məplstid)* və digərlərini göstərmək olar [6, s.31-32].

Skandinav və anqlo-sakson mədəniyyətlərinin qarşılıqlı əlaqəsi nəticəsində ingilis dilinə aşağıdakı skandinav söz qrupları keçmişdir:

– gündəlik işləmdə olan sözlər; *cliff (yarğan), dirt (çirk),sky (səma);*

– kənd təssərüfatı sahəsi; *land (torpaq), dale (dərə), egg (yumurta), root (kök);*

– fəsillərin adını ildirən sözlər; *winter (qış), summer (yay);*

– qanunla bağlı sözlər; *law (qanun), out law (qanundan kənar), by law (qanunla);*

– iqtisadiyyatla bağlı sözlər; *score (xal), loan (borc), thrift (qənaət), coin (qəpik), fellow – oğlan (*ilk zamanlarda*:fe-lagi – mülkiyyətin bölən və ya ilkin ödənişi edən insan* anlamında işlənirdi və ya *tərəfdaş* anlamında *);*

– dini sözlər; *Tuesday – Tura günü – qələbə günü (çərşənbə axşamı), Wednesday – Odin günü (çərşənbə), Thursday – Tor günü (cümə axşamı), Friday – Odinin yoldaşı Friqin günü (cümə);*

– coğrafi adlar – *Couton (Kouton), Grimston (Qrimston), Colton (Kolton), Suinton (Suinton), Stirsby (Stirsbi).*

Leksik yolla yeni leksik vahidlərin yaranması (istər şəkilçilərin köməyilə, istərsədə bir neçə sözün birləşməsi ilə) istənilən tarixi zaman çərçivəsində həmişə əhəmiyyətli rola sahib olmuşdur[2, s.76].

Qeyd etmək istərdik ki, IX əsrdə ingilislərdən fərqli olaraq skandinavlarda yazı mədəniyyəti olmadığından iki dilin assimilyasiyasını sübut edən çox az dəlil qalmışdır. bəlkə də, skandinav dilinin ingilis dilinə olan təsiri məhz bu səbəbdən kifayət qədər sistemli şəkildə araşdırılmamışdır. Belaki, Skandinavlar yalnız run sistemindən istifadə edirdilər. Bunlardan biri Şimali Yorkşayədə (North Yorkshire), Kirkdeyldə (Kirkdale) yerləşən *Müqəddəs Qriqori kilsəsində* daş üzərində oyulub yazılan yazını göstərmək olar, bu yazı günəş təqvimi ilə 1055-ci ilə aiddir.

Tədqiqat işimizə uyğun olduğu üçün bəzi parçaları təqdim edirik:

Transkripsiya: *orm gamalsuna bohte scs (= sanctus) gregorıvs mınster donne hıt wes lel tobrocan 7 to falan 7 he hıt let macan newan from grunde xpe (= chrıste) 7 scs gregorıvs ın eadward dagum cng (= cynıng) 7 ın tostı dagum eorl 7 haward me wrohte 7 brand prs (= preostas)*

Tərcümə: *orm gamalson bought st gregory's mınster when ıt was all broken & fallen down & he caused ıt to be made anew from the ground to chrıst and st gregory ın kıng edward's days & ın earl tostı's days & hawarth & brand prıests made me* [5, s.31].

Bir daha aydın olur ki, bəşəriyyət yarandığı gündən etibarən daima bu və ya digər səbəbdən müxtəlif xalqlar və dövlətlərlə sıx əlaqədə olmuşdur. Bu əlaqələrin fonunda mədəniyyətlər formalaşmış, inkişaf etmiş və zənginləşmişdir. Eyni qaydada yeni mədəni dəyərləri ifadə edən leksik vahidlər dünya dillərinin inkişafına səbəb olmuşdur. Başqa sözlə dil daima inkişafdadır. Unutmaq olmaz ki, dil yalnız inkişaf edə bilməz. Dilin inkişaf edib leksik tərkibinin zənginləşməsində daima müxtəlif mədəniyyətlər və dillər müstəsna rol oynayır. Məhz orta əsrlərdə Britaniyanın zəngin multikultural mədəniyyət mərkəzi olması səbəbindən bugündə biz zəngin, kifayət qədər inkişaf etmiş və inkişaf etməkdə olan ingilis dilini müşahidə edirik. Məhz bu səbəbdən dilin leksik tərkibinin zənginləşmə mənbələrinin tədqiqi xüsusi əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

1. Aslanova, R.N. Qloballaşma və mədəni müxtəliflik / R.N.Aslanova. – Bakı: "Elm", – 2004. – 264 s.
2. Hacıyeva, B.N. Türk dilinin leksik-semantik sistemində çoxmənalı sözlər və omonimlərin formalaşması [Elektron resurs] // Bakı Dövlət Universiteti, Türk filogiyası. – Bakı: – 2016. № 1, s. 75-81
   URL: http://genderi.org/esger-resulov.html?page=33
3. Cohen, J.J. Cultural Diversity in the British Middle Ages / J.J.Cohen. – US, Basingstoke: The Palgrave Macmillan, – 2008. – 240 p.
4. Crouch, D. Medieval Britain, c.1000-1500 / D.Crouch. – England: Cambridge University Press, – 2017, 18 May. – 388 p.
5. Freeborn, D. From Old English to Standard English: A Course Book in Language Variations Across Time / D.Freeborn. 1st Edition. –London: Macmillan, – 1992. – 218 p.
6. Freeborn, D. From Old English to Standard English: A Course Book in Language Variations Across Time / D.Freeborn. 2nd Edition. –London: Macmillan, – 1998. – 504 p.
7. Freeborn, D. From Old English to Standard English: A Course Book in Language Variations Across Time / D.Freeborn. 3rd Edition. –New York: Palgrave Macmillan, – 2006. – 446 p.
8. Jespersen, O. Growth and Structure of the English language / O.Jesperson. 2nd Edition Revised. – Leipzig: B.G.Teubner, – 1912. –274 p.

N. Maharramova

The role of Scandinavian culture in the formation of the English language

Summary

The article is devoted to the role of Scandinavian culture in the formation of English language. While intercultural communication is considered within a certain time-space continuum, the common and specific aspects of each culture are more clearly felt and the role played by linguistic diversity in the formation of multiculturalism is more clearly visible. In the formation of British multiculturalism in the Middle Ages, the connection and influence of language and culture attracts attention. In particular, the diversity of opinion on the relationship between multiculturalism and language in medieval Britain highlights the need to come to a common denominator on this issue. Traditional methods and methods of theoretical linguistics, especially description, observation, comparison, contrasting, confrontational methods were used in the writing of the research paper. Especially from this point of view it is of particular importance to study the role of linguistic diversity in the formation of British multiculturalism in the Middle Ages.

Key words: semantics, borrowings, lexics, context.

Н. Магеррамова

Роль скандинавской культуры в формировании английского языка

Резюме

Данная статья рассматривает роли скандинавской культуры в формировании английского языка. При рассмотрении межкультурной коммуникации в рамках определенного пространственно-временного континуума более отчетливо ощущаются общие и специфические аспекты каждой культуры и яснее видна роль языкового разнообразия в формировании мультикультурализма. В формировании британского мультикультурализма в средние века обращает на себя внимание связь и влияние языка и культуры. В частности, разнообразие мнений о взаимоотношениях мультикультурализма и языка в средневековой Британии подчеркивает необходимость прийти к общему знаменателю в этом вопросе. При написании исследовательской работы были использованы традиционные методы и приемы теоретической лингвистики, прежде всего методы описания, наблюдения, сравнения, противопоставления, конфронтации. Именно с этой точки зрения особое значение имеет изучение роли языкового разнообразия в формировании британского мультикультурализма в средние века.

Ключевые слова: семантика, заимствовании, лексика , контекст.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi Könül E. Abdurəhmanova filologiya üzrə e
lmlər doktoru, professor
tərəfindən çapa tövsiyə olunmuşdur

AFAQ CUMA QIZI HACIYEVA
ADPU
E/mail: afaqhaciyeva@mail.ru
ID: https://orcid.org:0000-0003-0535-6818

REKLAM MƏTNLƏRİNİN FORMALAŞMASI ÜZRƏ BEYNƏLXALQ TƏCRÜBƏNİN AZƏRBAYCANA TƏTBİQİ İMKANLARI

XÜLASƏ

Reklamlar xalqın dil və yazı mədəniyyətinin hansı səviyyədə olduğunun əsas göstəricisidir. Bu səbəbdən də reklamlarda dil normaları və eləcə də reklam mətnlərinin uyğunluğu mütləq şəkildə gözlənilməlidir. Bunun üçün isə reklam mütəxəssisləri dil mütəxəssisləri ilə birlikdə müntəzəm qaydada işləməli, reklam agentlikləri tərəfindən hazırlanmış reklam mətnləri dilçilər tərəfindən yoxlanmalı, reklamlar hazırlanarkən üslubi formalara, qanunauyğunluqlara, sintaktik fiqurlardan, perifrazlardan, metafora və metonimiyalardan istifadə etmə yollarına xüsusi diqqət etməlidirlər. Reklam mətnləri bir qayda olaraq, aforistik, obrazlı və aydın olmalıdır və reklam mətnləri hazırlanarkən lakonik və sintaktik üzvlənmə pozulmamalı, eyni zamanda da söz birləşmələrinin əlaqəsinə xüsusi diqqət yetirilməlidir.

Məqalənin əsas məqsədi reklam mətnlərinin formalaşması üzrə beynəlxalq təcrübəni araşdırmaq və bu təcrübənin Azərbaycana tətbiqi imkanlarını təhlil etməkdir. Qarşıya qoyulmuş məqsədə çatmaq ABŞ, Kanada, Rusiya, Almaniya, Holandiya, Türkiyə, Yaponiya və Hindistan modelləri təhlil olunmuş, bu modellərin Azərbaycana uyğunluq dərəcəsi araşdırılmışdır.

Açar sözlər: *reklam, reklam mətnləri, uyğunluq, dil normaları, beynəlxalq təcrübə.*

Афаг Джума кызы Гаджиева

ВОЗМОЖНОСТИ ПРИМЕНЕНИЯ МЕЖДУНАРОДНОГО ОПЫТА ПО ФОРМИРОВАНИЮ РЕКЛАМНЫХ ТЕКСТОВ В АЗЕРБАЙДЖАНЕ

РЕЗЮМЕ

Реклама является основным показателем уровня языковой и письменной культуры народа. По этой причине следует ожидать языковых норм в рекламе, а также совместимости рекламных текстов. Для этого специалисты по рекламе должны регулярно работать совместно со специалистами-лингвистами, рекламные тексты, подготовленные рекламными агентствами, должны проверяться лингвистами, особое внимание при подготовке рекламных объявлений следует уделять стилистическим формам, закономерностям, способам использования синтаксических фигур, перифраз, метафор и

метонимий. . Как правило, рекламные тексты должны быть афористичными, образными и четкими, при этом при составлении рекламных текстов не должна нарушаться лаконичность и синтаксическая организация, при этом особое внимание следует уделять связи словосочетаний.

Основная цель статьи - изучить международный опыт формирования рекламных текстов и проанализировать возможности применения этого опыта в Азербайджане. Для достижения поставленной цели были проанализированы модели США, Канады, России, Германии, Голландии, Турции, Японии и Индии и исследована степень совместимости этих моделей с Азербайджаном.

Ключевые слова: *реклама, рекламные тексты, сочетаемость, языковые нормы, международная практика*.

Afaq Juma gizi Hajiyeva

POSSIBILITIES OF APPLICATION OF INTERNATIONAL EXPERIENCE ON THE FORMATION OF ADVERTISING TEXTS TO AZERBAIJAN

SUMMARY

Advertisements are the main indicator of the level of language and writing culture of the people. For this reason, the language norms in the advertisements as well as the compatibility of the advertising texts must be expected. For this, advertising specialists should regularly work together with language specialists, advertising texts prepared by advertising agencies should be checked by linguists, special attention should be paid to stylistic forms, regularities, ways of using syntactic figures, periphrases, metaphors and metonymies when preparing advertisements. As a rule, advertising texts should be aphoristic, figurative and clear, and when preparing advertising texts, laconic and syntactic organization should not be violated, and at the same time, special attention should be paid to the connection of word combinations.

The main goal of the article is to examine the international experience in the formation of advertising texts and to analyze the possibilities of applying this experience to Azerbaijan. To achieve the set goal, the models of the USA, Canada, Russia, Germany, Holland, Turkey, Japan and India were analyzed, and the degree of compatibility of these models with Azerbaijan was investigated.

Keywords: *advertising, advertising texts, compatibility, language norms, international practice*.

GİRİŞ

Dünya miqyasında reklamın ən uğurlu inkişaf etdiyi ölkələr arasında ABŞ, Kanada, Rusiya, Türkiyə, Fransa, ABŞ, Almaniya və İngiltərənin də adını çəkmək olar. Azərbaycanda mövcud olan reklamların əksəriyyəti isə məhz bu ölkələrin reklamlarının Azərbaycan dilinə dublyaj olunmasıdır. Məhz bu səbəbdən də bu tipli reklamlarda daha böyük problemlər yaşanır. Azərbaycan dilinə dublyajların effektiv olmaması və yaxud da tərcümə xətalarının çoxluğu son nəticədə reklamların effektiv olmamasına gətirib çıxarır. Məhz bunun nəticəsidir ki, bu gün azərbaycanlılarda reklamla bağlı mənfi fikirlər formalaşmışdır.

Xarici ölkələrin praktikasına baxsaq, görərik ki, serialların içərisində verilən reklamlar insanlarda qıcıq yaratmır, əksinə reklamlara baxmaqla istehlakçılar öz maraq dairələrini genişləndirir, hansı məhsulu seçməli olduqlarını müəyyənləşdirirlər. Azərbaycanda isə bu vəziyyət tam əksinədir. Belə ki, hansısa bir serialın reklam vasitəsilə bölünməsi insanlarda qıcıq hissinin yaranması ilə yanaşı, eyni zamanda da televiziya kanalını dəyişmələrinə, reklam bitdikdən sonra isə kanalı geri çevirmələrinə səbəb olur. Bütün bunların da yeganə səbəbi: Azərbaycanda reklam istehlakçıya xitab etmir, onun maraq dairəsinə düşə bilmir.

Reklam mətnlərinin formalaşması üzrə beynəlxalq təcrübənin təhlili

Reklama önəm verən ölkələr içərisində ABŞ xüsusi qeyd oluna bilər. Reklamın əsas vətənlərindən biri hesab olunan Amerika öz reklamlarının özəlliyi ilə demək olar ki, bütün ölkələri geridə qoymağı bacarıb. Amerika reklamları daha çox amerikansayağı həyat tərzini ifadə edir. İnsan hüquqları, sərbəst yaşayış tərzi, biznesdə bərabər standartların hər kəs tərəfindən qəbul edilməsi, istehlak mədəniyyətinin yüksək olması, şəxsi inkişafa meylli olmaq, hər kəsin qazanmaq və xərcləmək hissinin çox güclü olması, öz istəklərinə nail olmaq, istədiyi həyatı istədiyi şəkildə yaşamaq, hamıdan fərqlənmək, liderlik və özünəgüvənmək kimi amillər ABŞ reklamlarının əsas motivini təşkil edir.

ABŞ reklamlarını təhlil etsək görərik ki, bu ölkənin reklamlarının kommunikasiya tonu kifayət qədər sərtdir. Belə ki, reklamlarda mesajlar birbaşa deyilir. Reklamlarda belə sərt mesajın göndərilməsi sanki gözünün içinə baxaraq üzünə ağır bir sözün deyilməsi effektini xatırladır. Azərbaycanda belə bir reklamların verilməsi nə qədər xoş qarşılanmasa da, bu metod ABŞ-da xüsusilə seçilir.

Amerika reklamlarını digər bir özəlliyi isə reklam videosu ilə reklam mətninin ahənglik təşkil etməsi, bərabər status daşımasıdır [4]. Son dövrlərdə ABŞ reklam sənayesində erotika və cinsəl məsələlərin də reklama gətirilməsinin şahidi oluruq. Bunun da əsas səbəbi ABŞ-ın mürəkkəb xarakterli həyat tərzinə malik olmasıdır. Məhz bu səbəbdən də amerikalıların gələcəkdə hansı motivlərə malik reklamdan istifadə edəcəklərini proqnozlaşdırmaq da mümkün deyildir. Çünki amerikalıların psixologiyaları zamanın tələbindən asılı olaraq asanlıqla dəyişilə bilir.

ABŞ reklamlarının ən böyük özəlliyi isə aydın və rasional mesaj verməsi ilə əlaqədardır. Belə reklam mətni nəticəsində istehlakçı düşünmür, dərhal gərəkli mesajı almış olur.


Amerikalı reklam mütəxəsisslərinin diqqət yetirdikləri əsas məqam reklam siması olaraq kimin seçilməsidir. Reklam simasının uğurlu seçilməsi də ABŞ reklamlarının rasional xarakterli olduğunu bir daha sübuta yetirir. Belə ki, amerikalı reklammeykerlər belə düşünür ki, reklam simasının uğurlu şəxslərdən ibarət olması son nəticədə həmin şəxsin reklam etdiyi məhsulun asanlıqla satılmasını təmin edəcəkdir. Amerikalı reklammeykerlərin belə düşünməsinin iki əsas səbəbi var. Birincisi məşhur simalara insanların inanmasıdır. Başqa sözlə desək, "məşhur şəxs pis məhsulu reklam etməz" ideologiyasına məxsus şəxslərin ələ alınması üçün hər kəs tərəfindən tanınan və qəbul edilən şəxslərin reklamlarda rol olması çox güclü reklam silahı olaraq qəbul edilir. İkinci əsas səbəb isə həmin məşhur şəxsin pərəstişkarlarının da həmin brendi seçməsidir. Məsələn, dünyaca məşhur olan "Nike" brendi idman mallarının satışını həyata keçirir. 1984-cü ildə şirkətin reklam siması o zaman 21 yaşında olan və bütün dünyaya öz oyunu ilə səs salan məşhur basketbolçu Maykl Cordan idi. Hazırki dövrdə məşhur idmançıların idman məhsullarının reklamlarında rol alması adi hala çevrilib. Lakin 1984-cü ildə "Nike" brendinin bu addımı dünyada bir ilk idi və qısa müddət ərzində milyonlarla insanın Maykl Cordanın reklam etdiyi basketbol ayaqqabısını almasına səbəb olmuşdur. Bu reklam müqabilində milyonlarla dollar qazanan Maykl Cordan Amerika Milli Basketbol Assosiasiyasının (NBA) rəsmi oyunlarına da "Nike" istehsalı olan ayaqqabılarla çıxır. Həmin dövrdə "NBA" qara-qırmızı rəngli ayaqqabılarla oyunlara çıxan basketbolçuları hər oyun üçün 1000 dollar məbləğində cərimələyirdi. Bütün bu xərcləri də üstünə götürən "Nike" şirkəti qısa müddət ərzində milyonla ayaqqabı satışına nail olmuşdur. "Nike" şirkətinin marketinq meneceri müsahibələrinin birində qeyd etmişdir ki, biz Cordana və NBA-a verdiyimiz milyonlarla dolları sadəcə 3 gün ərzində reallaşdırdığımız satışlarla kompensasiya edirik. Bu hadisənin üzərindən 30 ilə yaxın bir zaman keçsə də, hətta dünyaca məşhur Maykl Cordan dünyasını dəyişsə də "Nike" reklam siması kimi məşhurların seçilməsi ideologiyasından çıxmadı və bu gün şirkətin reklam siması ən az Maykl Cordan qədər məşhur olan Kobe Brayandır.

Reklamın uğurlu inkişaf etdiyi ölkələr içərisində Kanadanın da adını çəkə bilərik. Lakin Kanadanın reklam sənayesi ABŞ ilə çox oxşarlıq təşkil edir ki, bu da təəcüblü hal deyil. Eyni mədəniyyətlərə, çox yaxın dillərə (bir neçə fərqli sözləri var) və çox yaxın inkişaf səviyyələrinə malik olduqlarından reklam sənayelərinin də eyni səviyyədə və formada inkişafı normal qarşılanmalıdır.

Reklam mətnlərinə xüsusi diqqət verən ölkələr içərisində Rusiyanın adını xüsusilə çəkə bilərik. Belə ki, rus reklamları daha çox maarifləndirmə xarakteri daşıyır. Özünün öyrədici və informativ quruluşu ilə seçilən rus reklamları bu xüsusiyyətləri ilə istehlakçını daha tez ələ ala bilir. Reklamın düzgün olması və

informasiya ilə zəngin olması istehlakçıda inam hissinin yaranmasına səbəb olan əsas amillərdən biridir.

Reklam sənayesinin ən uğurla inkişaf etdiyi ölkələrdən biri Türkiyə Respublikası hesab edilir. Türkiyədə yayımlanan reklamlar həm reklam mətnlərinin ideallığı ilə, həm də reklam mövzusunun rəngarəngliyi ilə seçilir. Belə ki, türk reklam yaradıcı şirkətləri tərəfindən uğurla hazırlanaraq efirlərə verilmiş reklamlarda həm dil, həm də mövzu o dərəcədə həssaslıqla seçilir ki, nəticədə reklam hər bir istehlakçıya ünvanlanmış olur.



Şəkil 1. Reklam cəlbediciliyinin faydaları

Şəkil 1-də reklam cəlbediciliyinin faydaları verilmişdir. Şəkil 1-in təhlilindən məlum olur ki, reklam nə qədər cəlbedici xüsusiyyətlərə malik olarsa, bir o qədər də istehlakçıya yönəlmiş olur ki, bu da son nəticədə reklam olunan məhsulun asanlıqla reallaşmasına səbəb olur. Reklamın cəlbediciliyi özündə diqqət çəkmə, maraq oyatma, maarifləndirmə, məlumatvermə, fərqyaratma, marka imici formalaşdırma,

inandırma və satınalmaya istiqamətləndirmə kimi bacarıqları ehtiva etməklə alıcı kütləsini özünə cəlb edə bilir. Reklam cəlbediciliyinin əsas faydalarının hər birini ayrılıqda təhlil edək.

Reklam cəlbediciliyinin əsas faydalarından hesab olunan diqqətçəkmə adətən reklam mətnlərində uyğun rənglərin verilməsi ilə formalaşır. Uyğun rəng seçiminin olması son nəticədə istehlakçının diqqətinin həmin markaya yönləndirilməsinə səbəb olur. Bu baxımdan da hər bir müəssisə özünün reklamlarını yaradarkən rənglərin psixologiyasına müraciət edir. Əbəs yerə deyil ki, bu gün idman məhsullarının reklamlarında qırmızı rənglər üstünlük təşkil edir. Belə ki, aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, qırmızı rəng dinamikanı və gücü təmsil edir. Bu səbəbdən də dünyanın aparıcı idman brendləri kimi tanınan "Puma", "Nike". "Levi's" öz reklamlarında birmənalı olaraq qırmızı rənglərə üstünlük verir.

Bəzi reklam psixoloqları isə qırmızı rəngin iştahaçıcı olması səbəbindən qida istehsalçılarının reklamlarında qırmızı rəngə üstünlük verirlər. Belə qida istehsalçılarına misal olaraq "Coca-Cola", "McDonald's" və "KFC"-ni göstərmək olar.

Ağ rəng təmizlik, paklıq və sadəlik kimi mənaları simvolizə etdiyinə görə uşaqlara yönəlmiş məhsulların istehsalçıları daha çox öz reklamlarında ağ rənglərə üstünlük verirlər və s.

Reklam cəlbediciliyinin ən əsas özəlliklərindən biri də istehlakçılarda fərqyaratmadır. Belə ki, reklam mətnlərində reklam obyektinin digər brendlərdən üstünlüyünün nümayiş olunması həmin reklam obyektinin digərlərindən fərqini-üstünlüyünü göstərmiş olur.

Reklamın cəlbediciliyi istehlakçılarda məhsula qarşı inamın yaradılmasını təmin edir. Reklam nə qədər gözə xoş gələrsə, o qədər də həmin məhsulun keyfiyyətli olmasına dair istehlakçıda fikirlər formalaşmış olacaq.

Deməli onda reklamın cəlbediciliyi son nəticədə məhsulun asanlıqla realizə olunmasına xidmət edir. Türk reklam roliklərində üstünlük verilən ən əsas xüsusiyyət də məhz reklamların daha yüksək cəlbediciliyə malik olmasını təmin etməkdir.

Türk reklam mütəxəssisləri hansı formada reklamın daha effektiv olmasını araşdırarkən mütəxəssislər arasında fikir ayrılığı yaranmışdır. Belə ki, bir qrup mütəxəssis reklamların cəlbediciliyini və baxıcı kütləsini artırmaq məqsədilə reklamlarda cinsəl xarakterli məzmunların verilməsini uyğun görmüşlər [2]. Lakin digər qrup reklam mütəxəssisləri reklamın cəmiyyətin özəyi olan ailələrə təsiretmə qabiliyyətini nəzərə alaraq cinsəl məzmunlu reklamların heç də uğurlu olmayacağına inanırlar. Çünki reklamın əlçatan olması bu qrup mütəxəssislərin əsas ideologiyasını təşkil edir. Reklamın cinsəl məzmunlu olması isə 18 yaş üzərində insan kateqoriyasını əhatə etdiyinə görə bu kimi reklamların uşaqların izləməsində məhdudiyyət yaradacağını və bu səbəbdən də daha gec saatlarda yayımlanacağı reallığını irəli sürərək reklam mətnlərinin formalaşmasında milli mental dəyərlərin daha böyük rola malik olmasını, milli mənəvi dəyərləri özündə əks etdirən

reklamların daha asanlıqla daha böyük insan kütlələrinə xitab edəcəyini əsas motiv olaraq qəbul edirlər.

Türk reklam mütəxəssislərinin apardıqları araşdırmalar nəticəsində məlum olmuşdur ki, reklam mətnlərində mizah xarakterli yazıların verilməsi son nəticədə reklam obyektinin asanlıqla realizə olunmasına səbəb olacaqdır [2]. Belə ki, bu fikrin tərəfdarları iddia edir ki, mizah insan simasında yumor, gülüş, sevinc, əyləncə kimi hissinin yaranmasına səbəb olur. Məşhur türk reklam mütəxəssisləri Elden və Bakır öz əsərlərində göstərməyə çalışırlar ki, reklamlarda mizahların verilməsi istehlakçılarda reklam obyektinə qarşı inam hissinin yaranmasına, eləcə də insanların öz fikirlərini dəyişməsinə səbəb olur. Məsələn, reklamda mizahın verilməsi əvvəl "Ariel" yuyucu tozundan istifadə edən istehlakçının fikrini dəyişərək reklam olunan məhsulu almasına səbəb ola bilər.

Türk mütəxəsisslər tərəfindən aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, reklam mətnlərində qorxu, həyəcan və narahatlığın ifadə olunması istehlakçılarda həmin məhsula qarşı marağın yaranmasına səbəb olur [2]. Məsələn, Türkiyədə baş vermiş son zəlzələdən sonra minlərlə insanın dünyasını dəyişdiyi bir anda dəmir örtüklü reklamların efirə çıxarılması və bu reklamlarda zəlzələ anlarının göstərilməsi istehlakçıda zəlzələyə qarşı qorxunun yaranmasına və nəticədə alıcıların dəmir örtüklü yataqları almaq istəyinin yaranmasına səbəb olur.

Türk reklam mütəxəssislərinin apardıqları araşdırmalar nəticəsində məlum olmuşdur ki, reklamlara çəkilən simaların məşhur şəxslərdən seçilmiş olması alıcıların asanlıqla əldə olunmasına səbəb olur [1]. Belə ki, əhalinin xüsusi hörmət bəslədiyi hər hansısa bir məşhurun rol aldığı reklamlar effektivlik dərəcəsinə görə digər reklamları sürətlə qabaqlayır. Burada əsas diqqət çəkən nüans əhalinin həmin məşhur simaya olan inamı nəticəsində onun reklam etdiyi məhsula qarşı da inamın yaranmasıdır.

Reklam üzrə Fransa təcrübəsini nəzərdən keçirdək. Fransız mütəxəssislər belə hesab edirlər ki, reklamlarda ən böyük əhəmiyyətli faktor musiqidir. Musiqinin insan beyninə təsiretmə gücü də kifayət qədər yüksəkdir [5]. Məhz bu səbəbdən iri ticarət mərkəzlərində daimi ifa olunan musiqiləri duya bilərik. İri paltar mağazalarında musiqlərin səsləndirilməsinin əsas səbəbi insanları öz problemlərindən müəyyən qədər uzaqlaşdırmaq və onların alıcılıq motivasiyalarını artırmaqdır. Məlum məsələdir ki, insan beyni öz problemlərinə kökləndiyi halda daha az məhsul almağa yönəlir. Bu səbəbdən də iri ticarət mərkəzləri mütəmadi olaraq musiqilərdən istifadə edirlər. Burada diqqət çəkən digər bir nüans isə musiqinin insanı yormaması və uyğun səs tonunda verilməsidir. Musiqi insanı yorduğu təqdirdə insan həmin musiqinin səsləndiyi yerdən daha tez çıxmağa çalışacaqdır ki, bu da son nəticədə insanın alıcılıq qabiliyyətini aşağı salacaqdır. Reklamlarda da eyni prinsipi əsas gətirən fransız reklammeykerlər öz reklamlarında daha çox musiqilərə yer verərək insanları problemlərindən uzaqlaşdırmağa çalışırlar.

Fransız reklammeykerlərin diqqət yetirdiyi ikinci bir məqam isə reklamı səsləndirən şəxslərin səs tonunun hər kəs tərəfindən qəbul edilən olmasıdır. Məhz radio verilişlərində səs tonu hər kəs tərəfindən bəyənilən şəxslərin seçilməsinin də əsas səbəbi budur. Reklam mətnlərində səsin stilistikasına önəm verən fransızlar daha yüksək keyfiyyətdə reklam istehsalçısı olan ölkələr sırasındadır.

Digər ölkələrlə müqayisədə Skandinav ölkələrində reklam nisbətən zəif inkişaf etmişdir. Bunun da əsas səbəbi insanların televiziya verilişlərindən imtina etməsi, onlara lazım olan məlumatları internet üzərindən əldə etməsidir. Bu səbəbdən də İsveç, Norveç və Finlandiya kimi Skandinaviya ölkələrində internet üzərindən yayımlanan, sosial şəbəkələr vasitəsilə verilən reklamların çoxluğu diqqət mərkəzindədir.

Skandinaviya ölkələrinin əksinə olaraq ispanlar xalq olaraq televiziya yönümlüdürlər və istirahət zamanlarının çox böyük hissəsini televizor qarşısında keçirməyi sevirlər. Bu səbəbdən də İspaniyada televiziya reklamları daha xarakterik hal almışdır. İspan reklamlarının əsas xarakterik xüsusiyyəti isə insanlara səmimi yanaşmaları və onlara qarşı nəvazişli davranış tərzinin nümayiş olunmasıdır [3].

Reklamın inkişaf etdiyi ölkələr içərisində Almaniya və Hollandiyanın da adını çəkə bilərik. Bu iki ölkənin reklam sənayesini bir yerdə verməyimizin əsas səbəbi onların oxşar xarakterdə olması ilə əlaqədardır. Belə ki, hər iki ölkə reklamlarda dəqiqliyə, təmizliyə və sistemliliyə önəm verir. Reklamların dəqiq və sistemli formada verilməsi dəqiqliyi sevən alman xalqı üçün ən əsas nüansdır. Belə ki, əhali ona lazım olan məhsulu dəqiq reklam vasitəsilə yerindəcə müəyyən edə bilir. Alman reklam sənayesinin digər bir xarakterik cəhəti isə reklammeykerlərin öz məhsulunu reklam edərkən digər brendlərə qarşı da adil davranmaları və rəqibləri gözdən salmağa meylli hərəkətlərə yer verməmələridir [3].

Reklam sənayesinin xüsusilə inkişaf etdiyi regional ərazilərdən biri isə Asiya qitəsidir. Özünün fəlsəfi təməli ilə seçilən Asiya reklamları daha çox dünyanın bütövlüyünə, eləcə də mənəvi dərinliyə xidmət edir. Məsələn, Yaponiyada istehsal edilən reklamlar özünün obrazlılıq və müdrikliyi ilə seçilir. Hətta bu ölkədə hazırlanan reklamlarda istifadə olunan adi bir yarpaq da özündə hansısa bir fəlsəfi mənanı ifadə edəcəkdir.

Hindistanda reklam sənayesi daha çox dərin tarixi ənənələrə və incə milli köklərə əsaslanır. Belə ki, Hindistanda istehsal olunan hər bir reklam rolikində hind xalqı üçün xüsusi önəm daşıyan ornamentləri görmək mümkündür. Hindistanda audio-video daşıyıcılar vasitəsilə reklam əvəzinə çap məhsulları formasında reklam daha üstün rola malikdir.

NƏTİCƏ

Reklam özü-özülüyündə hər hansısa bir konkrek məkanda və yaxud da regionda yaşayan əhalinin sosial düşüncələrinin, həyat tərzinin, vərdişlərinin, adət və ənənələrinin, eləcə də davranışlarının təzahürü kimi formalaşır.

Azərbaycanda isə reklam sahəsində ən böyük problem başqa ölkələrin reklamlarını tərcümə edərək əhaliyə verməsidir. Təbii ki, başqa xalqların adət-ənənələrini özündə ehtiva edən reklam Azərbaycan xalqı tərəfindən birmənalı qarşılanmayacaq, əhali tərəfindən sevilməyəcək. Bu səbəbdən də reklam sənayemizdə plagiatlıqdan çıxıb öz milli reklamlarımızın yaradılmasını tələb etmək bu gün reklam sahəsində ən aktual məsələlərdən biri kimi qalmaqdadır. Milli ornamentlərlə zəngin reklamın yaradılması da qısamüddətli dövr üçün əlçatan görünmür. Bunun üçün xarici təcrübələri araşdırmalı, reklamın sürətlə inkişaf etdiyi ölkələrin bu sahədəki təcrübələrini öyrənməli, bu təcrübələri milli ornamentlərlə, adət-ənənələrlə zənginləşdirməli və son nəticədə öz milli reklamımızı yaratmalıyıq.

ƏDƏBİYYAT SİYAHISI

1. Çakır, H. (1996). "Türkiyede Reklamın Tarihçesi", İstanbul Üniversitesi İletişim Fakültesi Dergisi, Devrez, G. (1979). "Reklamın Etkilerinin Ölçülmesi" Ankara Üniveristesi Siyasal Bilgiler Fakültesi, Yay. NO:435
2. Elden, M. ve Bakır, U. (2010). Reklam çekicilikleri. cinsellik, mizah, korku. İstanbul: İletişim Yayınları.
3. Hoffmanna, S., Schwarz, U., Dalicho, L. ve Klug, K. (2014). Humor in cross-cultural advertising: A content analysis and test of effectiveness in German and Spanish print advertisements. Procedia - Social and Behavioral Sciences, 148, 94-101.
4. Main, K.J., Argo, J. ve Huhmann, B.A. (2004). Pharmaceutical advertising in the USA: Information or Influence? International Journal of Advertising, 23, 119-142. doi: 10.1080/02650487.2004.11072875
5. Williams, K. C. (2012). Fear Appeal Theory. Research in Business and Economics Journal, 5(1), 1-21.

İnternet resursları

6. https://www.youtube.com/watch?v=yt-zXuAAD6Q
7. https://www.youtube.com/watch?v=Ijhh5J48X9k
8. https://www.youtube.com/watch?v=uoOqLqHfwR4
9. https://www.youtube.com/watch?v=GmYVfyqzu4Y
10. https://www.youtube.com/watch?v=syXjUTleYO8
11. https://www.youtube.com/watch?v=75kcvEnkRWs&t=16s

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi Filologiya üzrə fəsləfə doktoru dosent
Könül İbrahim qızı Səmədovanın
tərəfindən çapa tövsiyə olunmuşdur

HƏSƏNOVA KÖNÜL İSRAFIL
ADPU
konul.salmanova@mail.ru
Müasir Azərbaycan dili kafedrasının müəllimi

FRAZEOLOGİZMLƏRİN ANTONİM TƏRKİB KOMPONENTLƏRİNƏ GÖRƏ TƏHLİLİ

XÜLASƏ

Elmi məqalədə linqvistikada əkslik semantik müstəvidə ortaya çıxan və cüt-cüt qarşı-qarşıya qoyulan əksmənalı sözlərdən, yəni antonim cütlərindən danışılır.Qeyd edilir ki, antonim sözlərin öyrənilməsi, ilk növbədə, bu sözlərin yaranmasının əsasında duran hadisənin mahiyyətinin aydınlaşdırmağı tələb edir. Əksliyin bir predmetə və ya fərqli predmetlərə aidliyi həmişə mübahisə doğurur, antonimliyin sərhədlərini dəqiqləşdirmur. Məqalədə müxtəliv müəlliflərin bu məsələyə münasibətləri nəzərdən keçirilmişdir.

Məqalədə belə bir məsələyə də toxunulmuşdur ki, antonimlər məna strukturlarına görə yüksək səviyyədə bircinsli olan sözlərlə təmsil olunurlar. Qeyd olunmuşdur ki, antonim tək bir söz deyil, söz cütüdür. Onların qarşılışdarılması məna komponenti əsasında gedir. Qarşılaşdırma qarşı-qarşıya qoyulan sözlərin məntiqi-predmet mahiyyətini nəzərə alır.

Sonda müəllif bu qərara gəlir ki, frazeologizmlərdə antonimliyi öyrənmək də bunu tələb edir. Əgər antonim leksik antonimlikdə iki tərəfin hər birində bir leksik vahid dururssa, məntiqə əsaslansaq, onda frazeoloji antonimlikdə də iki frazeoloji vahidi qarşılaşdırma ortaya çıxar.

Açar sözlər: linqvistika, leksik vahidlər, frazeoloji antonim, frazeoloji vahidlər, antonimlik, əksliklər, sözlərin birləşməsi, semantik əlasqələr.

Frazeologizmlərdən istifadə insanlara öz fikirlərini dəqiq, qısa və idiomatik ifadə etmək imkanını verir. Onlar məfhumu dolayı olsa da, konkret ifadə edir. Frazeologizmlərin əsas xüsusiyyətlərindən biri onların obrazlı, emosional, ifadəli olmasıdır. Belə ki, frazeologizmlər dilin ekspressivliyində onun emosionallığında xüsusi rol oynayır. Onlar bu və ya digər anlayışı ayrı-ayrı sözlərdən dəfələrlə təsirli və obrazlı əks etdirir. Frazeologizmlərdən həm bədii, həm publisist, həm də digər üslublarda istifadə olunur. Onlar ədəbi dilin yazılı növündə, əsasən bədii üslubda yazılan əsərlərdə, xüsusi üslubi rola malikdir. Frazeoloji birləşmələr yazıçı fikrinin tutumunu böyüdür, bədii əsərin emosionallığını, üslubi keyfiyyətlərinin

zənginləşməsinə xidmət eləyir. Yazıçı frazeoloji birləşmələri cümlədə işlədərkən mətnlə frazeoloji birləşmənin qarşılıqlı münasibətini əsas götürür, yəni mətn frazeologizmlərin semantik çalarlarını dəqiqləşdirir, frazeologizmlər isə mətnin. Böyük yazıçı və şairlərin əlində frazeologizmlər bu və ya başqa surətin danışığını fərdiləşdirmək, tipikləşdirmək üçün əsas vasitələrdən birinə çevrilmişdir. Frazeologiya bölməsində öyrənilən frazeoloji birləşmələr nitqə ifadəlilik, obrazlılıq gətirən, fikri ifadəli edən dil vahidlərindəndir. Belə birləşmələrə sabit birləşmələr də deyilir. Bir qayda olaraq, frazeoloji birləşmələr məcazi mənalı olur. Məsələn: ürəyi düşmək, qəlbinə toxunmaq, özündən çıxmaq, zəhləsi getmək, burnunu sallamaq və s

Frazeoloji birləşmələr bir sözə bərabər olan biləşmələrdir. Ümumilikdə frazeoloji birləşmələrin əsas xüsusiyyətləri bunlardır:

1. Frazeoloji birləşmələrin tərkibi dəyişməz olur.
2. Bu ifadələr dildə hazır şəkildə mövcud olur.
3. Frazeoloji birləşmələrin tərkibinə daxil olan sözlər öz ilkin həqiqi mənalarını itirir və yalnız məcazi mənada işlənir.
4. İki və daha artıq sözdən ibarət olurlar.
5. Frazeoloji birləşmələr bütöv leksik vahidlərdir, lüğətlərə düşürlər.
6. Əksəriyyəti bir sözlə ifadə oluna bilirlər.

Hər şeydən əvvəl yadda saxlamaq lazımdır ki, hər bir sözün, ifadənin, frazeoloji birləşmənin kontekstdən kənarda mənası yoxdur. Belə ki, ola bilər ki, həmin kontekstdə, həmin ifadə başqa məna kəsb etsin, ancaq ayrılıqda digər mənanı versin. Yadda saxlamaq vacibdir ki, frazeoloji birləşmə adətən hər hansı bir dildə hazır materialdır və o bir söz və ya ifadə ilə əvəz oluna bilər. Frazeoloji birləşmələr strukturca birləşmə və cümlə xarakterlidir. Bu cəhətdən frazeoloji vahidlər dörd qrupa ayrılır: nominativ frazeoloji vahidlər, nominativ – kommunikativ frazeoloji vahidlər, kommmunikativ frazeoloji vahidlər, nida tipli frazeoloji vahidlər. Frazeologizmlər bir sıra xüsusiyyətlərinə, o cümlədən tərkibindəki komponentlərin semantikasına görə müxtəlif qruplara bölünür.Məs: bitki adları ilə olan frazeoloji vahidlər ,somatic frazeoloji vahidlər,saylarla olan frazeoloji vahidlər,renglərlə olan frazeoloji vahidlər və s.Belə qruplardan biri də tərkibində rəng adları işlənən frazeologizmlərdir. Rənglərə insan həyatının və onu əhatə edən ətraf aləmin bütün sferalarında rast gəlmək mümkündür. Müxtəlif elm sahələrində, eləcə də dilçilik sahəsində rəng adlarının tədqiqi alimlərin diqqət mərkəzində olan məsələlərdəndir. Bildiyimiz kimi, xalqın mədəniyyəti, tarixi, sosial həyatı, adət - ənənələri və s. dildə öz əksini tapır.

Rəng adlarını tədqiq edən alimlər belə nəticəyə gəliblər ki, bu və ya digər xalqın rənglərə münasibəti, rənglərin insan həyatındakı rolu və s. məsələlər dil materialında, daha dəqiq desək, frazeoloji vahidlərdə, atalar sözləri və məsəllərdə, əfsanələrdə, rəvayətlərdə və s. öz əksini tapmışdır. Frazeoloji ədəbiyyatlara nəzər saldıqda, hər hansı bir dilin frazeoloji sistemində rəng adları ilə formalaşan frazeologizmlərin mühüm yer tutduğunu görərik. İngilis dilinin frazeologiyasında xeyli sayda rəng

adları ilə formalaşan frazeologizmlərə rast gəlmək mümkündür. Bu cür frazeologizmlər xalqın milli təfəkkürünü əks etdirir "Qara" rənglər spektrinda əsas rənglərdən biridir. O, xromatik rəng qrupuna aiddir. Tərkibində qara rəng işlənən frazeologizmlərin əksəriyyəti mənfi məna çaları ifadə edir. Bu da qara rəngin ingilis mədəniyyətində zülmətin, cəhənnəmin, kədərin və s. rəmzi hesab ediməsi ilə əlaqədardır.

Nəzəri semantikada hazırda sözlər arasındakı semantik əlaqələrin həm bu leksik vahidlərin qarşılaşdırılması, həm də sözlərin birləşməsi, əlavə komponent qəbul etməsi nəticəsində yaranmış semantik tam daxilindəki mənanın açılması planında öyrənilir. Burada ikinci istiqamətdə sözlərin birləşməsi məsələsinə də iki yöndən yanaşmaq olar. Birincisi, sözlər birləşərək sərbəst birləşmələr yaradır, ikinsi sözlərin əlaqəsi sabit birləşmələrin əmələ gəlməsinə səbəb olur. Sabit birləşmələr frazeoloji vahidləri özündə cəmləyir. Təbii ki, universal dil hadisəsi kimi antonimliyin frazeoloji vahidlərdə özünü hansı şəkildə göstərməsi, frazeoloji antonimlərin tərkibinin təyini xüsusi maraq doğurur.

Gerçəklikdə hadisə və predmetlərin arasında münasibətlərin xüsusiyyətləri bəzən eynilik, oxşarlıq, bəzən əkslik, bəzən mahiyyət əlaqələrinin yoxluğu şəklində təzahür edir. Dil gerçəkliyin bu cəhətlərini ifadə etmək imkanlarına malikdir.

Linqvistikada əkslik semantik müstəvidə ortaya çıxır və əksmənalı sözlər cüt- cüt qarşı-qarşıya qoyulur və antonim cütlər adlandırılır. Fəlsəfədə əksliyin iki növü göstərilir: 1) eyni bir hadisənin, şeyin, mahiyyətin daxilindəki əkslik; 2) müxtəlif hadisələrə, şeylərə, mahiyyətlərə aid olan əkslik.

Əkslik fərqli predmetlərdə olduqda antonimliyin təyini çətindir. Çünki əksliyin mövcudluğunun predmet bazası dəyişir.

Antonimlik əkslik və ziddiyyətlə gerçəkləşir. Bununla yanaşı, əkslik və ziddiyyət də eyni mənalı anlayışlar deyildir. Hərçənd ki, «əks» və «zidd», «əkslik» və «ziddiyyət» sinonim sözlərdir. Ziddiyyətin daxili və xarici, əsas və qeyri-əsas, antoqonist və qeyri-antoqonist növləri vardır.

Antonim yunanca anti (zidd) və onim (ad) sözlərinin birləşməsindən əmələ gəlib, «bir-birinə zidd olan söz, ad» anlamını verir.

Antonim sözlərin öyrənilməsi, ilk növbədə, bu sözlərin yaranmasının əsasında duran hadisənin mahiyyətinin aydınlaşdırmağı tələb edir. Əksliyin bir predmetə və ya fərqli predmeetlərə aidliyi həmişə mübahisə doğurur, antonimliyin sərhədlərini dəqiqləşdirmur.

M.R.Lvov əksliyin iki tipini qeyd edir: kontrar və komplementar ziddiyyət. Kontrar zidiyyət növ anlayışları əsasında formalaşır. Bu zaman iki növ analayışı arasına üçüyncü anlayış da daxil olur. Komplementar ziddiyyətdə iki anlayış bir-birini cins səviyyəsinə qədər tamamladığından onların arasına üçüncü anlayış daxil ola bilmir [2, s. 308].

C.Layonz əksliyin üç tipini qeyd edir: antonimiya (antonimlik), tamamlama və konversivlik. Tədqiqatçı bu üç tipin hər birinin əsasında əksliyin müxtəlif

formalarının dayandığını söyləyir. Dilçilik ədəbiyyatında antonimlik hadisəsinə C.Layonzun münasibətinə çox istinad olunur. Ona görə də üç əkslik tipi və onların dildə təzahür məsələsini C.Layonzun necə izah etməsini bir qədər geniş şəkildə nəzərdən keçirək [3, s.178].

Tamamlama prinsipi müəyyən xüsusiyyət üzrə sistemin qapanmasını tələb edir. Dildə elə sözlər vardır ki, onlar bir-birini qarşılıqlı inkar edir. Bu cür sözlərdən biri doğru olduqda digəri yalan olur. Tamamlama prinsipində inkar məsələsinin ortaya çıxması aşkardır. Məlumdur ki, inkar fəlsəfədə, məntiqdə, riyazi məntiqdə və linqvistikada təyin olunan anlayışdır. Müxtəlif elmlərə aid anlayışı ifadə edən bu terminin təyin olunmasında oxşar və fərqli cəhətlər vardır. Fəlsəfdə, məntiqdə, riyazi məntiqdə qeyd olunan inkar arasındakı yaxınlıq və oxşarlıqlar linqvistika müstəvisində kəsişir, nəticədə inkar və inkarlığın linqvistik təbiətinin, eləcə də statusunun təyin olunmasında kifayət qədər mübahisəli məqamlar ortaya çıxır.

Bir sıra sözlər isə qarşılaşdırıldıqda bir-birini inkar edir. C.Layonzun tamamlama prinsipi də buna əsaslanır. Müəllif irəli sürdüyü prinsipin izahını verərkən, “Cohn isn`t married” və “Chon is single” cümlələrini misal gətirir. Bu cümlələrdən birincinin doğru olmasından, ikincinin doğruluğu çıxır. Nəzərə almaq lazımdır ki, birinci cümlə inkarda, ikincinin isə təsdiqdə olması iki hadisənin eyni zamanda doğruluğuna səbəb olur. «Con evli deyil», deməli, «Con subaydır». Subay və evli sözləri fərdin ailə vəziyyətini bildirən sözlərdir. Ailə vəziyyəti üçün iki haldan biri doğrudur. Şəxs ya evli, ya da subay ola bilər. «Evli» və «subay» sözləri bir-birini qarşılıqlı tamamlayır. Onlardan biri digərini inkar edir. Şəxs subaydırsa, deməli evli deyil və əksinə. Beləliklə, «evli» və «subay» sözləri müəyyən əksliyi ifadə edən sözlər kimi çıxış edir və bir-birini qeyd edilən əksliyə görə tamamlayırlar. Təbii ki, həyatda insanlararası münasibətlərdə elə vəziyyətlər vardır ki, onlar dildə ifadəsini tapır. Azərbaycan dilində «dul» sözü vardır. Bu söz evli olmuş, lakin ərini (arvadını) itirmiş şəxsə deyilir. Evlənmiş və boşanmış şəxslər də dul sayılırlar. Buradan belə bir nəticə çıxır ki, Azərbaycan dilində «evli», «subay» sözlərinin olduğu leksik-semantik qrupa «dul» sözü də daxil olur [3, s.487].

Antik dövrlərdən kontrar və kontradiktor əksliklər fərqləndirilmişdir. Kontrar anlayışlar eyni bir cinsin növləridir. Bu növlərdən birinə xas olan əlamətləri ikinci növ həm inkar, həm də başqa əlamətlərlə əvəz edir. Kontrar anlayışlar arasında aralıq orta anlayış olur.

Kontradiktor anlayışlar da eyni cinsin növləridir. Bu anlayışlardan biri müəyyən əlamətləri ifadə edir, digəri həmin əlamətləri inkar və istisna edir, başqa əlamətlərlə əvəz etmir. Kontradiktor anlayışlar arasına heç bir başqa anlayış daxil ola bilmir.

Antonimlər məna strukturlarına görə yüksək səviyyədə bircinsli olan sözlərlə təmsil olunurlar. Antonim tək bir söz deyil, söz cütüdür. Onların qarşılışdarılması məna komponenti əsasında gedir. Qarşılaşdırma qarşı-qarşıya qoyulan sözlərin məntiqi-predmet mahiyyətini nəzərə alır.

Antonimlərin mənalarının müqayisəsi zamanı əks əlamətlərin əlaqələri aşkara çıxır. Antonim olmayan sözlər arasında belə korrelyasiya özünü göstərmir.

Antonimlərin məna əksliyi onların bir-birini istisna etməsini deyil, bir-birini şərtləndirməsinə səbəb olur. Ona görə də antonimlərin məna strukturunda həm ümumi (inteqral), həm antonim (differensial) semlər vardır. İnteqral semin mövcudluğu müqayisəyə zəmin yaradır.

Beləliklə, antonimlik və ya antonimiya hadisəsi obyektiv gerçəkliyə xasdır. Əksliklər obyektiv gerçəkliyin predmetləri, obyektləri, subyektləri ilə bağlıdır. Əkslik bir predmeti, bir predmetin müəyyən keyfiyyətini, əlamətini, halını fərqli istiqamətlərdən səciyyələndirir. Eyni zamanda, əkslik müxtəlif predmetlər arasında da üzə çıxa bilir. Əksliyin məntiqi, fəlsəfi və riyazi məntiqi müxtəlif tip və formaları vardır. Bütün bunlar ifadəsini dil vasitələrində tapdıqda əksliyin linqvistik statusu yaranır və bu, dilçilikdə antonimlik hadisəsi kimi öyrənilir. Şübhəsiz ki, antonimliyin linqvistik təyini onun fəlsəfi və məntiqi təyinindən fərqlənir.

Nəzərə almaq lazımdır ki, antonim münasibət zidd, qarşılıqlı əks münasibətdir. Belə münasibətdə iki tərəfin mövcudluğu vacib və zəruri şərtdir. Lakin tərəf ümumi mahiyyət daşıyan təyinedici sözdür, onun arxasında, məğzində konkret olaraq nəyin durması bəlli deyildir. Məlum olan iki tərəf arasında ziddiyyətin mövcudluğudur. Bu baxımdan təsdiq inkarın və əksinə, inkar təsdiqin ziddi olandır. Linqbistik neqasiya prizmasından yanaşsaq, təsdiq-inkar predikasiya çərçivəsinə daxil olur, doğru-yalan ölçüsü qazanır, hadisənin zaman və məkan hüdudlarında reallıq, yaxud irreallıq şərtini təyin edir. Təsdiq-inkar münasibətində iki tərəf yoxdur, bir reallıq mövcuddur. Şübhəsiz ki, bu fikri irəli sürməkdə məqsəd təsdiq-inkar ilə antonimik münasibət məsələsinə aydınlıq gətirmək deyil. Antonimik münasibətin tərəfləri məsələsini dəqiqləşdirməyə cəhd göstərməkdir. Frazeologizmlərdə antonimliyi öyrənmək də bunu tələb edir. Əgər antonim leksik antonimlikdə iki tərəfin hər birində bir leksik vahid dururs a, məntiqə əsaslansaq, onda frazeoloji antonimlikdə də iki frazeoloji vahidi qarşılaşdırma ortaya çıxar. Belə olanda tərəflərdən birində frazeologizm, digərində başqa linqvistik vahid yerləşdirmək özünü doğrultmur. Lakin vahidlərdə antonimiya onların mənalarının qarşılaşdırılması yolu ilə müəyyənləşdirilir. Bu mənalar bir-birinin əksi olduqda antonimlik faktı təsdiqini tapır, antonim cütü təyin olunur.

Hər bir dilin frazeoloji tərkibi həmin dildə olan leksik vahidlər arasındakı sistem münasibətləri özündə əks etdirir. Dil vahidlərinin sistem münasibətlərinin qurulmasında semantik əlaqələrdən də istifadə olunur. Bir çox hallarda leksik vahidlərin qarşılaşdırılması, semantik planda müqayisə olunması bu vahidlərin yaxın ətrafda işlənmə xüsusiyyətlərini üzə çıxarır. Paradiqmatik münasibətlər sistemində ziddiyyətə və ya əksliyə görə qarşılaşdırma geniş yayılmışdır.

Şübhəsiz ki, frazeoloji antonimlik leksik antonimliklə müqayisədə az yayılmışdır. Yəni frazeoloji antonimlərin sayı leksik antonimlərin sayından azdır.

«Leksik antonimlərin əmələ gəlmə bazası frazeoloji antonimlərin əmələ gəlmə bazasından kifayət qədər böyük həcmli olduğundan, təbii ki, frazeoloji antonimlər sayca az olacaqdır»[4, s.97].

Qeyd etmək lazımdır ki, frazeoloji antonimlərin öyrənilməsinə tədqiqatçılar son dövrlərdə başlamışlar. Bununla belə, bu sahədə artıq xeyli araşdırmalar aparılmışdır. Həmin işlərdə frazeoloji antonimlər məsələsinin mahiyyətini açmağa, frazeoloji antonimlərə tərif verməyə, frazeoloji antonimlərin təsnifinə cəhd göstərilmişdir. Təbii ki, leksik antonimlərlə bağlı müxtəlif mübahisəli məsələlərin hələ də həllinin tapmadağı qeyd edildiyi yerdə, frazeoloji antonimlərin əsaslı şəkildə öyrənilməsindən danışmaq tezdir. Bununla belə, frazeoloji antonimlər dildə semantik münasibətlərin yeni bir növü, frazeoloji vahidlər arasında polyar münasibətlərin təzahürü kimi diqqət mərkəzindədir.

Eyni quruluşlu frazeoloji antonimlərdə frazeoloji vahidin tərkibindəki komponentlərin qarşılaşdırılmasına istinad olunur. Belə frazeologizmlərdə tərkib qismən üst-üstə düşür, sintaktik model eyniliyi ilə seçilir. Məsələn, in hot blood-in cold blood; in a good hour-in an ill hour; in a happy hour- in an evil hour; isti münasibət –soyuq münasibət; ağlını itirmək – ağıla gəlmək və s.

Bu tipli frazeologizmlərdə antonim münasibətin yaranması müxtəlif yollarla baş verir. İn hot blood-in cold blood antonim cütündə komponentlərin sayı bərabərdir və antonim münasibət tərkiblərdəki iki fərqli komponent hesabına formalaşır: hot – cold. “Be in good form” (yaxşı formada olmaq) - “be in bad form” (pis formada olmaq) antonim cütü də eyni tiplidir.

İn a good hour - in an ill hour frazeoloji cütündə də antonimlik iki leksik vahidin iştirkı ilə əmələ gəlir: good – ill. Lakin əvvəlki nümunələrdən fərqli olaraq, burada good və ill sözləri antonim cüt təşkil etmir. Onlar frazeologizm daxilində hour sözü ilə birləşərək əks mənalar əmələ gətirir. Xoş anlar – kədərli anlar; sevincli anlar – kədərli anlar; yaxşı anlar – pis anlar kimi məna əksliklәri formalaşır.

Antonim frazeologizmlərin komponentləri əsasında onların tərkib xüsusiyyətlərinin aşkara çıxarılması həmin komponentlər arasındakı münasibət, eləcə də birləşmə nəticəsində əmələ gələn məna üzrə gedir.

Frazeoloji antonimlərin eyniüslubluluğu və fərqli üslublara aidliyi fikrini A.V.Kunin irəli sürmüşdür. Müəllif to lose heart frazeologizmini bədii üsluba, to keep one's chin (və ya pecker) up frazeoloji vahidini isə danışıq üslubuna aid edir və onların müxtəlif üslublara aid antonim cüt təşkil etdiyini söyləyir [1, 63 s.].

İstifadə olunmuş ədəbiyyat

1. Кунин А. В. Курс фразеологии современного английского языка. Москва, Высшая школа, 381 с.

2. Львов М.Р. Опыт систематизации лексических антонимов // Актуальные проблемы лексикологии и лексикографии. Пермь, 1972. - С. 307-311.

3. Лайонз Дж. Введение в теоретическую лингвистику. Москва, Прогресс, 1978. -544 с.

4. Миллер Е.Н. Природа лексической и фразеологической антонимии. Саратов, Изд-ние СУ, 1990, 222 с.

K. İ. Hasanova

ANALYSIS OF PHRASEOLOGISMS ACCORDING TO ANTONYM COMPONENTS

SUMMARY

The scientific article deals with opposite words in linguistics, i.e. pairs of antonyms that act in the semantic plane and are placed in pairs. It is noted that the study of antonyms, first of all, requires clarification of the essence of the event underlying the origin of these words. The belonging of the opposite to the same or different objects is always controversial and does not clarify the boundaries of antonyms. The article examines the attitude of various authors to this issue.

The article also addresses the issue that antonyms are represented by words that have a high degree of homogeneity in semantic structures. It is noted that the antonym is not a single word, but a pair of words. Their comparison is based on the semantic component. Comparison takes into account the logical-objective nature of the opposed words. As a result, the author believes that the study of antonyms in phraseology also requires this. If in an antonymous lexical antonym there is a lexical unit on each of the two sides, based on logic, then in phraseological antonymy there is a comparison of two phraseological units.

Keywords: linguistics, lexical units, phraseological antonyms, phraseological units, antonymy, opposites, phrases, semantic connections

К. И. Гасанова

АНАЛИЗ ФРАЗЕОЛОГИЗМОВ ПО АНТОНИМНЫМ КОМПОНЕНТАМ

РЕЗЮМЕ

В научной статье противопоставлением в языкознании являются слова с противоположным значением, т. е. пары антонимов, которые появляются на семантическом уровне и противопоставляются попарно.Отмечается, что изучение антонимичных слов требует, прежде всего, уточнения суть события, которая лежит в основе создания этих слов. Отношение противоположного к одному предмету или к разным предметам всегда спорно и не определяет

границ антонимии. В статье рассмотрено отношение различных авторов к данному вопросу.

В статье также затрагивается вопрос о том, что антонимы представляют собой слова, весьма однородные по своей смысловой структуре. Отмечено, что антонимом является не отдельное слово, а пара слов. Их встреча строится на смысловой составляющей. Сопоставление учитывает логико-предметную сущность сопоставляемых слов.

В итоге автор приходит к выводу, что этого требует и изучение антонимии во фразеологии. Если антонимом является по одной лексической единице с каждой стороны лексической антонимии, исходя из логики, то во фразеологической антонимии появляются две фразеологические единицы.

Ключевые слова: языкознание, лексические единицы, фразеологические антонимы, фразеологические единицы, антонимия, противоположности, словосочетания, смысловые связи.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi Filologiya üzrə fəsləfə doktoru dosent
Könül İbrahim qızı Səmədovanın
tərəfindən çapa tövsiyə olunmuşdur

NƏZRİN MƏHƏMMƏD QIZI YUSİFOVA
Azərbaycan Dövlət Pedoqoji Universiteti
ms.nazrin88@gmail.com

XARİCİ DİLİN TƏDRİSİNDƏ İNTERAKTİV METODLARIN ƏHƏMİYYƏTİ

Xülasə

Xarici dilin öyrənilməsi müxtəlif dövrlərdə ən müxtəlif tədris və təlim metodlarının tətbiqini zəruri etmişdir. Məqalədə ən son təlim metodlarından olan interaktiv təlimdən bəhs olunur. Ənənəvi metodlarla interaktiv metodlar qarşılaşdirilir. Onların dil tədrisində,dil bacarıqlarinin və fərdi keyfiyyətlərin təkmilləşdirilməsində rolu ifadə olunur. Eyni zamanda məqalədə fəal təlim meodlarından da bəhs olunur. Fəal təlim metodları ilə interaktiv metodların müqayisəsi verilir. Belə ki,tədris prosesinə fəal və interaktiv təlim metodlarının daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, təfəkkürün inkişafına, təlimin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. İnteraktiv təlim zamanı öyrənənlərə bilik vermə prosesində həm də onları iradi, əxlaqi, əqli, estetik, mədəni, hüquqi dəyərlər yönümündən inkişaf etdirib formalaşdırır. Hazırda interaktiv metodlar, fəal təlim metodları, təlim texnologiyaları anlayışlarına tez-tez rast gəlirik. Xarici beynəlxalq təşkilatlar, milli qurumlar, müasir təlim metod və texnologiyalarının təbliği müəllimlər arasında yayılması ilə əlaqədar 10ildən artıqdır ki, seminarlar, mühazirələr, layihələr keçirirlər. Bu təlim metolarının müsbət və mənfi tərəflərini öyrənib araşdırırlar. Öyrənilən yeni tərz, metod, vasitə və yanaşmalar xüsusən xarici dil bacarıqlarını inkişaf etdirməklə yanaşı, yaradıcılığı, müstəqilliyi, insan şəxsiyyətini, onun insanlara, təbiətə, cəmiyyətə münasibətini, mənəvidünyasını və s. inkişaf etdirməli, zənginləşdirməlidir. Çünki interaktiv təlim eyni zamanda yaradıcı bir prosesdir. Bu təlim metodlarının tətbiqi nəticəsində dil bacarıqlarının təkmilləşdirilməsi fonunda təlim-tərbiyə prosesinin demokratikləşdirilməsi, humanistləşdirilməsi, humanitarlaşdırılması, diferensiallaşdırılması, fərdiləşdirmə, inteqrasiya prinsiplərinin geniş tətbiqi həyata keçirilmiş olur.

Açar sözlər: təlim, xarici dil, tədris, metod, interaktiv təlim, fəal təlim,

Keçmiş bu günlə sıx bağlı olduğu kimi, bu gün də gələcəklə sıx bağlıdır. Bir çox məsələlərdə gələcək üçün zəmin təşkil edəcək bu günün ağıllı,qabaqcıl fikirli ideyaları keçmişin mütərəqqi irsi ilə bağlıdır. Eyni zamanda gələcək üçün daha yaxşı perspektivin yaradılmasına, təhsil və tərbiyənin daha optimal üsulunun tapılmasına yardım edir.

Təhsil, tərbiyə təchizatlarının inkişafı zaman keçdikcə yeni təhsil modelləri cərəyanlarının meydana çıxmasına, təhsilin insanları peşəkar fəaliyyətə və həyata

hazırlanmasında önəmli rol almasına gətirib çıxarmışdır. Ənənəvi təhsildə fakt və hadisələri əzbərləməyə diqqət yetirilirdisə, müasir məktəbin əsas məqsədi isə rəqabətə qabil, tənqidi təfəkkürə malik, çevik idarəetmə təfəkkürünə malik, onu əhatə edən təsirlərə tənqidi yanaşmaq bacarığına malik, sərbəst qərar qəbul etmək qabiliyyətinə malik, dəyişən şəraitə çevik uyğunlaşmaq qabiliyyətinə malik, əməkdaşlıq etmə, "ünsiyyətqurma",müstəqil öz fikrini ifadə edə bilən şəxsiyyət formalaşdırmaqdır.Xarici dil tədrisinin tarixi ikinci və ya xarici dilləri öyrətməyin daha effektiv yollarının axtarışıyla səciyyələnir. Uzun müddətdir ki, pedoqoqlar arasında müzakirələr və mübahisələr çox vaxt qrammatikanın ingilis dilinin tədrisində rolu kimi mövzular üzərində cəmlənmişdir. Dil kurikulumu, tədrisdə dəqiqliyin və səlisliyin inkişafı, dilin öyrənilməsində lüğətin rolu, məhsuldar və reseptiv bacarıqların öyrədilməsi, öyrənmə nəzəriyyələri və onların tədrisdə tətbiqi, əzbər və öyrənmə, öyrənənləri həvəsləndirmək, effektiv öyrənmə strategiyaları, müxtəlif tədris strategiyaları və metodlarının effektivliyi,üsullar, dörd dil bacarığı-oxuma, yazma, dinləmə və danışma və bu bacarıqların inkişaf etdirilməsində vizual materialların və texnologiyanın rolunu öyrətmək və s. Bu müzakirələrin əsas elementləridir. Xarici dilin tədrisində bu və digər mühüm suallara aydınlıq gətirmək üçün çox iş görülsə də, bu sahə üzrə olan pedaqoqlar bu və digər əsas məsələlərin həlli üçün daim yeni variantları axtarıb araşdırır.

Əvvəlcə, interaktiv sözü haqqında: "interakriv" anlayışı ingilis dilindən dilimizə, o cümlədən digər dillərə keçmədir. Alman tədqiqatçısı Hans Fritsə görə interaktivliyi müəllim və şagirdin qarşılıqlı təsir – əməkdaşlıq qabiliyyəti kimi izah etmək olar. İnter – (ingilis dilində Enter) – ara (insanlar arası), qarşılıq (insanların qarşılıqlı anlaşması, əməkdaşlığı, işi) və s. kimi başa düşülür. Metod olaraq interaktivlik təlim prosesində müəllim və şagird arasında işin gedişindən – mövzudan, şərhdən, dialoqdan, rollu oyundan həmin anda meydana çıxan yanaşma, izah və s.-dir. Yəni, bu tərz irəlicədən planlaşdırılmır, işin – təlim prosesinin gedişi bu məqamı ortaya çıxarır və daha çox şagirdin müstəqilliyi müdaxiləsi ilə baş verir.

Digər tərəfdən, interaktivlik şagirdlərin özləri arasında da ola bilər. Əsas cəhət odur ki, bu prosesdə əməkdaşlıq edən, öyrənənlər və öyrədən eynihüquqlu mövqedə dayanırlar. Təbii ki,müəllim öyrədən olaraq təşkilatçılıq, koordinator, məsləhətçi,fasilifator funksiyasını yerinə yetirir. Şagirdlərin işlərinə müdaxilə etmədən problemləri qoyur, istiqamət verir, nəzarət edir,axtarış strategiyasını hazırlamağa kömək edir, amma təlim tapşırıqları üzərində uşaqlar özləri birlikdə öz aralarında mübahisə edərək, diskussiya apararaq işləyirlər.Bununla yanaşı, hər bir şagirdin öz fikri, ideyası olur.Mübadilə nəticəsində fikirlər dəyişir, ideyalar təzələnir. Beləliklə, psixoloji abu-hava dəyişir. Qrupdakı zəif şagirdlər də müzakirədə fəal iştiraka qoşulurlar: məsələlərin müzakirəsi və kollektiv müzakirənin gedişində biri-birini dinləməyə alışırlar. Belə olduğu zaman onlar ingilis dili bacarıqlarını, xüsusən də dinləyib anlama və xarici dildə danışma,

özünü ifadə etmə bacarıqlarını inkişaf etdirmiş olurlar. Hər bir təlim tapşırığının bu cür həlli vasitəsilə eyni zamanda onlar idraki axtarıcılıq taktikalarını təkmilləşdirir, təlimdə öz müvəffəqiyyət formulunu hər kəsin özü qurur.

Beləliklə, təlim prosesində şagirdlərarası əlaqə, qarşılıqlı təsir və əməkdaşlıq əsas olur. Xarici dilin öyrənilməsi zamanı interaktiv təlimin tətbiqi imkan verir ki, şagirdlər:

– Biliyi qavrama prosesini daha anlaşıqlı etsinlər;
– Öz fikrini formalaşdırmağı, onu ikinci dildə düzgün ifadə etməyi,öz nöqteyi-nəzərini əsaslandırmağı, müzakirələşdirməyi və sübut etməyi öyrənirlər;
– Digərini eşitməyi, dinləməyi, alternativ fikrə hörmət etməyi öyrənirlər;
– Müxtəlif sosial vəziyyətləri modelləşdirməyi, müxtəlif həyatı vəziyyətlərə qoşulmaqla və bu həyatı duymaqla öz sosial təcrübələrini zənginləşdirirlər;
– Qrupda konstruktiv münasibətlər qurmağı, burada öz yerini müəyyənləşdirməyi, konfliktlərdən qaçmağı, onları həll etməyi, kompromis axtarmağı, dialoqa səy etməyi öyrənirlər;
– Xarici dildə olan təlim materiallarını təhlil edir, onlara yaradıcı yanaşırlar;
– Problemin ümumi həllini tapırlar;
– Layihələrlə iş fəaliyyətinə, müstəqil işləməyə, yaradıcı işlər görməyə alışırlar və s.

Həqiqi təlim üçün metod və texnologiyalar qarşıya qoyulmuş məqsəd və şəraitdən asılı olaraq seçilməlidir. Fənnə, mövzuya, şagirdlərin təcrübə və bilik səviyyəsinə görə bütün təlim modellərində müxtəlif metodika və texnologiyalardan istifadə edilməlidir. Əsas odur ki, təlim uşaqları inkişaf etdirsin. Onlara ikinci dildə (ingilis) düşünmək, müstəqil fikir söyləmək, biliklərini tətbiq edə bilmək bacarıqları aşılasın.

Fəal və interaktiv metodlar bir-birilə sıx bağlıdır, amma tam eyni deyillər. İnteraktiv metodların hansı prosesdə zərurətə çevrildiyini irəlidə qeyd etmişik. Bəs, fəal təlim metodları nədir? Bu anlayış XX əsrin 80-cı illərindən Azərbaycanda işlənməyə başlamışdır. “Fəal” sözü bəlli olduğu kimi daha işlək, hərəkətdə, təsirdə olan mənasını verir. Fəal təlim metodlarının interaktiv təlim metodları ilə yaxınlığı mahiyyətindən doğur, lakin doğuluş və seçim təsirinə görə bir-birindən fərqlənir. Belə ki, interaktiv metodlar dərsdə təlim prosesinin gedişindən doğursa, yəni biri digərini əvəz edərək meydana çıxırsa, fəal metodlar əvvəlcədən planlaşdırılmış təlimin fəallaşdırılmasına şərait yaradır. Ənənəvi olaraq işlənən söz metodları, əyani, praktik metodlar bu gün də fəal metodlar sırasına daxildir. Rollu oyunlar, müxtəlif xarakteristikaları malik didaktik çalışmalar, esse, test tapşırıqlarının icrası, diskussiya, müzakirə və s. fəal təlim metodlarıdır. Təlimin fəal metodları dedikdə, öyrənənlərin məlumatlanmasını, idrak müstəqilliyini, fikri fəallığını, yaradıcılığını artıran metodlar nəzərdə tutulur.

Bəs intraktiv təlim metodlarını tətbiqi hansı zərurətdən doğur? İnteraktiv metodları aktuallaşdıran bir sıra tələblər var:

1. İnsanların bazar iqtisadiyyatı cəmiyyətində yaşaması və fərdlərin bu cəmiyyətdə var ola bilmək üçün hazırlanması zərurəti;
2. Uşaqların onilliklər əvvəlki zamanla müqayisədə daha dünyagörüşlü olması, sosial, texniki məlumatlıq səviyyələrinin daha yüksək olması;
3. Çevik, düşündürücü idrak fəallığının inkişafını özündə ehtiva etməyən metodlar uşaqların marağını təmin etmir, onları canlandırır, həvəsləndirmir, fəaliyyətə qoşmur.

İnteraktiv təlim qarşılıqlı fəaliyyət prosesində yaradıcı fəaliyyətə əsaslanmaqdır. Ənənəvi təlimin əsasında isə öyrədənin fəaliyyətinin izahlı illüstrativ xarakteri üstünlük təşkil edir.

Beləliklə, interaktiv təlim dedikdə, təlim prosesində meydana çıxan, şagirdlərarası öyrənmə ünsiyyəti və əməkdaşlığı, öyrədən-öyrənən birliyi nəzərdə tutulur. Çevik, düşündürücü, iştirak fəallığı doğurmayan metodlar uşaqların marağını təmin etmir, onları canlandırmır, fəaliyyətə qoşmur. Digər tərəfdən, hər bir uşağın (şagirdin) öz idealı, marağı, həyata hazırlıq istəyi var. Təlimin həm məzmunu, həm də metodları bu istəyi təmin etməlidir. Bu təlim metodu ikinci dil bacarıqlarının inkişafını təmin edərkən eyni zamanda fərdi keyfiyyətləri də aktivləşdirir.

Istifadə edilmiş ədəbiyyat

Bünyatova F.,Abdulla B. Təlim və Tərbiyəd İnteraktiv Texnologiya. Bakı 2000
Qədimova X.H. İnteraktiv təlim metodları və onların tətbiqi yolları. Metodik tövsiyə. Bakı, 2003, 145s.
Lie A. Education policy and EFL curriculum in İndonesia: Between the commitment to competene and quest for higher test scores. TEFLIN Jounal V.18(1), 2007, pp.1-14
Richards J.C. and Renandya W.A. (Eds.). Methodology in language teaching: An anthology of current practice. Cambridge: Cambridge University Press. 2002
Skiner B.F. Verbal Behavior. Methuen, London, 1957

Resume

Learning a foreign language necessitated the application of the most diverse teaching and learning methods at different times. The article talks about interactive training, one of the latest training methods. İn the article, interactive methods are compared with traditional methods. Their role in language teaching, improvement of language skills and personal qualities is expressed. At the same time, active training methods are also discussed in the article. A comparison of active learning methods and interactive methods is given. Thus, the inclusion of active and interactive learning methods in the teaching process creates conditions for the elimination of students' passivity, the development of thinking, and the

improvement of the quality of training. The process of imparting knowledge to learners during interactive training, also develops and shapes them in terms of will, moral, intellectual, aesthetic, cultural, and legal values. Currently, we often come across the concepts of interactive methods, active learning methods, and learning technologies. Foreign international organizations, national institutions, have been conducting seminars, lectures, and projects for more than 10 years in connection with the dissemination of modern teaching methods and technologies among teachers. They study and research the pros and cons of these training methods. In addition to developing foreign language skills, the new ways, methods, tools and approaches should deelop and enrich creativity, independence, human personality, his attitude to people, nature, society, spiritual world, etc. Because interactive learning is scpecially a creative process as well. As a result of the application of these training methods, the principles of democratization, humanization, humanitarianization, differentiation, individualization, and integration of the educational process are implemented in the backgound of improving language skills.

Key words: training, second language, teaching, method, interactive training, active learning

Резюме

Изучение иностранного языка требовало применения самых разнообразных методов преподавания и обучения в разное время. В статье рассказывается об интерактивном обучении, одном из новейших методов обучения. Интерактивные методы сравниваются с традиционными методами. Выражена их роль в обучении языку, совершенствовании языковых навыков и личных качеств. В то же время в статье упоминаются и активные методы обучения. Дается сравнение активных методов обучения и интерактивных методов. Таким образом, включение в учебный процесс активных и интерактивных методов обучения создает условия для устранения пассивности учащихся, развития мышления, повышения качества обучения. В процессе передачи знаний учащимся в ходе интерактивного обучения оно также развивает и формирует у них волевые, нравственные, интеллектуальные, эстетические, культурные и правовые ценности. В настоящее время мы часто сталкиваемся с понятиями интерактивных методов, активных методов обучения и технологий обучения. Зарубежные международные организации, национальные институты более 10 лет проводят семинары, лекции, проекты в связи с распространением среди учителей современных методов и технологий обучения. Они изучают и исследуют плюсы и минусы этих методов обучения. Помимо развития навыков иностранного языка, изучаемые новые способы, методы, средства и подходы также развивают творческие способности, самостоятельность,

личность человека, его отношение к людям, природе, обществу, духовному миру и т.д. должны развиваться и обогащаться. Потому что интерактивное обучение — это еще и творческий процесс. В результате применения данных методов обучения реализуются принципы демократизации, гуманизации, гуманитаризации, дифференциации, индивидуализации, интеграции образовательного процесса на фоне совершенствования языковых навыков.

Ключевые слова: обучение, иностранный язык, метод, интерактивное обучение, активное обучение

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi fil.elm.d., prof. Nailə Sadıqova
tərəfindən çapa tövsiyə olunmuşdur

AĞAYEVA NƏRGİZ
Odlar Yurdu Universiteti
Koroğlu Rəhimov küç, 13 AZ1072, agayevanergiz33@gmail.com
ORCHID NO: 0000-0002-2980-0082

MÜRƏKKƏB SÖZLƏRİN YARANMA YOLLARININ MÜXTƏLİFLİYİ

Açar sözlər: *mürəkkəb sözlər, dil tarixi, komperavistik baxış, alternativ yollar*
Keywords: compound words, history of linguistics, comparative view, alternative paths
Ключевые слова: составные слова, история языкознания, сравнительный анализ, альтернативные пути.

Mürəkkəb sözlərin yaranması həm tarixi aspektdən həm də günümüz etibarı ilə maraqlı və aktualdır. Mürəkkəb sözlərin yaranma yollarını konkret qəlibləşdirmək, bir çərçivəyə salmaq mümkün deyil və hər bir yeni söz yeni informasiya, yeni yaranma qrupundan məlumat verir.

Bir qrup alimlər mürəkkəb sözləri məzmununa görə, digər qrup isə forma xüsusiyyətlərinə görə ayırmış və qruplaşdırmışdır, lakin mürəkkəb sözləri bu cür çərçivələməyin düzgün olmadığı qənaətindəyik.

Tarixi qrammatikaya nəzər saldıqda mürəkkəb sözlərin müxtəlif yaranma yollarının olduğunun şahidi oluruq. Ancaq həmin yolları müasir dövrlə müqayisəli şəkildə tədqiq etdikdə yeni sözyaratma prosesində bəzi üsulların artıq passivləşdiyini deyə bilərik. Qədim və Orta əsrlərə aid olan nümunələrə nəzər saldığımız zaman aydınlaşır ki, müəyyən bir dönəmə aid mürəkkəb sözlər daha çox söz birləşməsi formasında mövcud olub, zamanla mürəkkəb söz formasına transformasiya olmuşdur. Bu xüsusiyyəti biz daha çox mürəkkəb sifətlərə aid edə bilərik.

Tarixən sözlərin inkişaf yoluna baxdıqda görürük ki, keçmişdən bu günə fərqliliklər də çoxdur, ortaq xüsusiyyətlər də həmçinin yetəri qədər vardır, məsələn isimləri, sifətləri müqayisə edək.

XVIII əsrə qədərki vaxtlarda struktur-semantik cəhətdən birləşən isimlərə az rast gəlinir, söz birləşmələrinin formalaşaraq mürəkkəb ismə çevrilməsinə daha çox rast gəlinir. Bununla belə həmin əsrə qədər olan abidələrə, əsərlərə diqqət yetirdikdə görərik ki, az miqdarda da olsa, bu tip mürəkkəb sözlər vardır: bəglərbəgi, qərayüzlik, şey-mey, odu-modun və s. Lakin müqayisə etdikdə görürük ki, daha çox söz birləşmələrinin inkişaf edib mürəkkəb söz kimi formalaşması halları mövcuddur.

1-ci növ təyini söz birləşmələrinin inkişafı əsasında qaradərə, qırxqınuq və s. mürəkkəb isimlər yaranmışdır. 2-ci növ təyini söz birləşmələrinin inkişafı yoluna baxdıqda qabanqüci, əmiraxurbaşı, quzuqulağı və s. tipli mürəkkəb isimlərdən danışmaq olar. Bu məqamda bildirmək lazımdır ki, ikinci növ təyini söz

birləşmələrinin birinci tərəfində ümumilik özünü göstərdiyi üçün, yəni qeyri-müəyyən yiyəlik halda olduğundan daha asanlıqla inkişaf yolu keçib mürəkkəb söz kimi formalaşa bilir, lakin 3-cü növ təyini söz birləşmələrinin birinci tərəfində konkretlik var, yəni müəyyənlik bildirən yiyəlik haldadır, bu söz birləşmələrinin tarixən mürəkkəb söz kimi inkişaf etdiyini müəyyən etmədik. Bu məsələ özünü söz və söz birləşmələrini müqayisə etdikdə sözün nisbətdə mücərrədlik bildirməsi məsələsi müstəvisində özünü tapır [2, səh 227].

Müasir ədəbi dilimizdə isə mürəkkəb sözlərin yaranma yollarının bir çox forması verilir, müxtəlif aspektlərdən yanaşmaq olar, müxtəlif xüsusiyyətlərə görə qruplaşdırmaq olar, bölmək olar: Mürəkkəb isimlərin bir də tarixən formalaşmasına deyil, müasir dövrdə hansı qruplara bölündüyünə baxıb müqayisə edə bilərik. Mürəkkəb isimlər tabesizlik əlaqəsi və tabelilik əlaqələri əsasında düzələnlər deyə 2 böyük qrupa bölünə bilər, lakin alt qruplar da özünü göstərir.

Tərəfləri arasında tabesizlik əlaqəsi olan mürəkkəb sözlər:

1.İnsan adı bildirən sözlərin birləşməsi: Hüseynqulu, Gülbahar vəs.

Yaxud buna əlavə olaraq müxtəlif mənalı, formalı isimlərin birləşməsi də deyə bilərik:

qayınata, qolbaq və s.

2. Eyni ismin təkrarlanması ilə düzələnlər: top-top, xana-xana, yastıq-yastıq. Bu tip mürəkkəb sözlər defislə yazılır.

3. Antonim sözlərdən formalaşanlar: qaç-qov, get-gəl, dərə-təpə və s.

4. Nisbi sinonimlər və sinonim sözlərinlərin köməyiylə formalaşan mürəkkəb isimlər: dost-yoldaş, çöl-bayır, dava-dalaş və s.

5. Eyni feilin –a, -ə, -ha bitişdirici ünsürlərinin köməyiylə formalaşanlar: vurhavur, basabas, qaçaqaçvə s.

Bir də tərkibi arasında tabelilik əlaqəsi olan mürəkkəb sözlər vardır:

1. Yanaşma əlaqəsi əsasında formalaşan, yəni birinci növ təyini söz birləşmələri hesabına formalaşanlar:

Haçadınaq, Ağdam, Göygöl, qırxayaq, qırxbuğum, beşdaş və s.

2. Fərqli predikativ birləşmələrinin yanaşması nəticəsində: oldu-bitdi, özünütənqid və s.

3. İkinci tərəfində -ma, -mə leksik şəkilçisi olan mürəkkəb isimlər: sözatma, başdansovma, başbişirmə və s.

4. İkinci növ təyini söz birləşmənin formalaşması nəticəsində yaranan mürəkkəb sözlər: ayaqqabı, qarğıdalı, qulaqburması və s.

5. Feili sifətlərin formalaşması nəticəsində yaranmış mürəkkəb isimlər vardır: saçağardan, qızdırmaölçən, tozsoran və s. [6, s.182]

XVIII əsrə qədərki dönəmlərdə mürəkkəb sifətlərə əsərlərdə az rast gəlinir, daha çox mürəkkəb sifətləri söz birləşməsi formasında görə bilirik, onları müəyyən qruplarda birləşdirmək də olur:

Bu dövrə qədər olan, əsərlərdə raslaşdığımız mürəkkəb sifətləri aşağıdakı kimi qruplaşdırmaq da olar:

1.Təyini söz birləşmələrinə aid olmayan birləşmələrin formalaşması nəticəsində düzələn sifətlər:

yüziqara

2.Tərkib hissələrindən biri ayrılıqda işlənə bilməyən sözlərin birləşməsindən yarananlar:

kələ-kötür, yamrı- yumru, tadım-dayəm

3.Birinci hissəsi say, ikinci hissəsi düzəltmə sifət olan olan mürəkkəb sözlər:

ikiyüzlü.

Bu tip mürəkkəb sifətlərə əsərlərdə çox az rast gəlinir.

4.Birinci tərəfində sadə sifət,ikinci tərəfində düzəltmə sifət olan mürəkkəb sifətlər:

qərayüzlü və s. [2, s. 243]

Bu araşdırmalardan onu anlaya bilərik ki, mürəkkəb sözlərin inkişafı və formalaşıb bugünkü halına düşməsi heç də asan olmayıb, asan yol keçməyib. Tarixi inkişaf dönəmində uzun yol keçərək dönəm-dönəm müəyyən ehtiyaclar, şərait yarandıqca ortaya mürəkkəb sözlər çıxmış və formalaşmışdır.

Dilmizdəki mürəkkəb sözlər öz-özlüyündən, yaxud şəxsi seçim, istək üzərinə yaranmamış insanların xarici aləmlə əlaqəsi, ətraf mühitə, hadisələrə qarşı münasibəti nəticəsində yaranmışdır.

Azərbaycan dilində mürəkkəb feillərin də tarixi keçmişinə baxdıqda görürük ki, qruplaşmalarında müxtəlif fikirlər var. Məsələn, H. Mirzəzadə abidələrimizin dilində rastlaşdığımız mürəkkəb feilləri iki qrupa bölür:

Köməkçi feillərlə düzələnlər və müstəqil feillərin köməyiylə düzələnlər.

Köməkçi feillərin köməyiylə düzələnlərə bu cür nümunə göstərmək olar: ah eləmək, yad eləmək, qan eləmək və s. və bu cür sözlərin hər iki tərəfi Azərbaycan sözüdür) ,qiyamət eləmək, aşiq olmaq, rəvan olmaq və s. (və qeyd etmək lazımdır ki, bu cür sözlərin birinci tərəfi alınma sözdür).

Müstəqil feillərlə düzələn mürəkkəb feillərə isə bu tip nümunələr göstərmək olar: yana durmaq, baqa qalmaq, tökə qalmaq və s. [2, s. 279]

Z. Budaqovaya görə isə mürəkkəb feillərin yaranma yollarını bu cür qruplaşdırmaq lazımdır: isim, sifət, əvəzlik və zərf ilə təsriflənən feillərdən ibarət olan mürəkkəb feillər, adla müstəqil mənalı feillərdən ibarət olan mürəkkəb feillər, feili bağlama və təsriflənən feillərdən ibarət olan mürəkkəb feillər.

M. Hüseynzadəyə görə isə iki və daha artıq sözün birləşməsi ilə yaranan feillərin yaranma yollarını başqa cür qruplaşdırmaq lazımdır:

1. İsim, sifət kimi nitq hissələrinin köməkçi feillərdən, yaxud qismən müstəqil sayılan feillərdən sonra gələrək mürəkkəb feil yaratması. Bu feillərə ol, et, elə feillərini aid etmək olar: şad olmaq, hazır olmaq, daxil etmək, nail olmaq, xəstə olmaq, mənasız olmaq, naz etmək, kömək etmək, yardım etmək və s.

2. İsimdən sonra müstəqil feillərin işlənməsi ilə ortaya çıxan mürəkkəb feillər. Belə feillərin tərkib hissələri, yəni həm isim, həm də feil eyni kökə sahib olur: ov ovlamaq, sap saplamaq, ütü ütüləmək, su suvarmaq və s.

3. Təsriflənən feillə -ıb şəkilçisi birləşərərək mürəkkəb feil əmələ gətirir: vurub-tutmaq, çalıb-çapmaq, silib-süpürmək, yazıb-pozmaq, gəlib-getmək, bəzənib-düzənmək və s.

4. Frazeoloji birləşmələri də həmçinin mürəkkəb feillərin bir növü, tərkib hissəsi hesab edirlər:

göz qoymaq, başa çıxmaq, dilə gəlmək, başa vurmaq, söz vermək, hirsindən partlamaq, cin atına minmək, nazıyla oynamaq və s. [2, s. 280]

Zaman keçdikcə tarixin müxtəlif dövrləriylə mürəkkəb sözlər təkmilləşmiş, yoğrulmuş, formadan-formaya düşmüş, qrammatik formalarına görə qruplaşmışdır.

Mürəkkəb sözlərin bu cür təsirlər nəticəsində yaranmasında, formalaşmasında müxtəlif maddi əsaslar var ki, bunlardan biri sözlərin funksiyasına görədir, yəni bir sıra mürəkkəb sözlərin formalaşmasında əşyanın daşıdığı funksiya mühüm yer tutur: məsələn, hər hansısa bir vinti açmaq, bağlamaq üçün istifadə edilən təmir alətinə vintburan, əl tutmaq üçün qapıya vurulan müəyyən bir əşyaya əltutan adı verilmişdir.

Bu məqamda əlavə etməliyik ki, vintburan, əltutan kimi sözlərdə materialı, ölçüsü, həcmi, forması müxtəlif ola bilər, lakin bu tip əşyaların adı ümumi olur, ona görə də bu cür əşyaların adı formalaşaraq mürəkkəb söz olur, həmin sözlərdən hər hansısa biri ümumiləşmiş bir anlayışı bildirməsə, o halda söz birləşməsi olaraq qalar, mürəkkəb söz kimi formalaşa bilməz.

Funksiya məsələsinə görə əmələ gəlmiş mürəkkəb sözlər üç hissəyə ayrılır:

A) Müəyyən bir prosesi xatırladanlar: qanlıtəpə, qanlıqobu, soyqırımı və s.

B) Hər hansısa bir hadisəni, prosesi formal cəhətdən xatırladanlar: əlüzyuyan, beşaçılan, topaldıqaç və s.

C) Hansısa bir prosesin obyekti olanlar: qolbaq, qartopu, beşdaş və s.

Bir sıra mürəkkəb sözlərin formalaşmasında əşyanın malik olduğu əlamət böyük rol oynayır, iştirak edir: qaratoyuq, qaraquş, qızılgül, qırxayaq, üçbucaq və s.

Əlamətə görə yaranan mürəkkəb sözləri iki qrupda birləşdirmək olar:

A) O ankı prosesə görə bir əlamət əsasında əmələ gələnlər: günəbaxan, gündoğan, südəmər, şüşəbənd, taxtabənd, aynabənd və s.

B) Ümumiyyətlə, bir sabit əlamətə görə formalaşanlar: qaraquş,göydaş, şorqoğalı, istisu, beşillik, göygöz və s [6, s.173].

Deməli, zaman keçdikcə insanlar çalışıblar ki, fikirlərini daha aydın, daha yığcam ifadə etsinlər və beləliklə, mürəkkəb sözlər yaranıb.Məsələn, həyətin yanındakı sahə yerinə həyətyanı sahə deyilməyə başladıqda həm birləşmə bir vurğu

altında deyildiyi üçün bir nəfəsə deyilmiş, həm qrammatik və leksik şəkilçilər atıldığından daha da yığcamlıq ortaya çıxmışdır.

Azərbaycan dilində bəzi mürəkkəb sözlər mənanı qüvvətləndirməyə xidmət edir, bu məqsədlə düzəlir, bu yolla düzələn mürəkkəb sözlərdə eyni sözün təkrarlanması məsələsini görə bilirik:

qaça-qaça, dizin-dizin, bərk-bərk, bir-bir, nazlı-nazlı, hoppana-hoppana və s.

Bu cür yaranan mürəkkəb sözləri də müxtəlif yerlərə ayırmaq olar:

A) Yaranan mürəkkəb sözlərdə mənanın qüvvətlənməsi əsas yer tutur və mürəkkəb sözü formalaşdıran sadə sözlər hansı nitq hissəsinə aiddirsə, nəticədə yaranan mürəkkəb söz də həmin nitq hissəsinə aid olur: sərin-sərin, bərk-bərk və s.

B) Bu isə digər qrupdur, burada mənanın qüvvətlənməsini gördüyümüz kimi keyfiyyətin dəyişməsini də görürük və keyfiyyətin dəyişməsi bu cür mürəkkəb sözlərdə önəmli bir yer tutur: bir-bir, dalbadal, üz-üzə və s. kimi nümunələrə baxsaq, görərik ki, mürəkkəb sözün özü nitq hissəsinə görə zərfdir, lakin tərkib hissələri ya isim, ya da saydır.

Mənsubiyyət şəkilçisinə, ənənəyə görə, hərfi tərcüməyə əsasən də mürəkkəb sözləri qruplaşdırmaq olar.

Bir qisim mürəkkəb sözlər mənsubiyyət şəkilçisi ilə, mənsubiyyət mənası əsasında düzəlir:

əmidostu, meşəbəyi, ələğacı, ayaqqabı, ələarabası, külqabı, duzqabı və s.

Ənənəyə görə əmələ gələn mürəkkəb sözlər dini etiqad və mövhumatla bağlı olur. Ümumiyyətlə, islam dininə mənsub olan xalqlarda bu cür mürəkkəb sözlərin yaranması ümumi bir xarakter daşıyır, bu tip mürəkkəb adlar şəxs adlarını bildirmək üçündür, Allah, Məhəmməd, Əli, Abbas, Mehdi kimi adlar başqa sözlərlə birləşərək yeni mürəkkəb sözlərin ortaya çıxmasına şərait yaradır:

Məhəmmədəli, Abbasəli, Mehdiqulu, Allahverdi, Əlimehdi, Abbasəli, Allahqulu, Hacəli, Sultanəli, Nəzirməmməd və s.

Mürəkkəb sözlərin bir qismi isə hərfi tərcümə nəticəsində düzəlir, digər dillərdən, qonşu dillərdən eyniylə mənanı saxlayaraq tərcümə edilir və ortaya yeni bir fikir ifadə edən mürəkkəb söz çıxır. Bu yolla sözlərin yaranması Azərbaycan dilinin lüğət tərkibinin genişlənməsində, zənginləşməsində əvəzsiz rol oynamışdır.

Bu üsulun digər adı kalka üsuludur, bu üsul ilə söz yaratmada dilin daxili imkanları əsas rol oynayır, sözü tərcümə edərkən dilin daxili imkanları hesabına tərcümə edilir: uzaqgörən, özünütənqid, seçkiqabağı, bayramqabağı və s.

Hərfi tərcümə yolu ilə yaranan mürəkkəb sözlərdə həmin dilin əlaqədə olduğu dillərin təsiri böyük olur, yaxud tərcümə elə həmin dillərdə olan sözlərdən götürülür. Azərbaycan dili isə tarix boyu ərəb, fars, rus dilləri ilə əlaqədə olmuşdur, çünki qonşu dillərdir və bu dillərdən təqlid edilməklə ortaya xeyli mürəkkəb söz çıxmışdır. Bu yolla dildə yaranan sözlər də müxtəlif qruplara bölünə bilər:

A) iki sadə sözün birləşməsindən ortaya çıxan sözlər: əməkhaqqı, dünyagörüşü və s.

B) bir tərəfində sadə söz, digər tərəfində isə düzəltmə söz olan mürəkkəb sözlər: ayaqqabıçı, dəmiryolçu və s.

C) Sərbəst tərcümə əsasında əmələ gələnlər də vardır: yerdəyişmə, səsartımı, səsdüşümü, radioqəbuledici və s. [6, s.174], [1, s.396-397].

Məqaləmizin sonlarına doğru bir də mürəkkəb sözləri nitq hissələrinə görə qruplaşdırıb baxmaq istədik,

bu bölgüdə də müxtəlif yanaşmalar və fikirlər vardır.

Mürəkkəb isimlər, sifətlər, zərflər həm tabesizlik əlaqəsi, həm tabelilik əlaqəsi vasitəsiylə düzələr bilirlər .

Tabesizlik əlaqəsi ilə düzələn mürəkkəb sözlərə nəzər saldıqda görərik ki, müxtəlif yollar vardır.

a) Antonim sözlərin birləşməsi nəticəsində yaranan mürəkkəb isimlər həm də defislə yazılır: qaç-qov, al-ver, baş-ayaq, üz-astar və s.

b) Eyni feillərin –a, -ə, -ha ünsürləriylə birləşməsi nəticəsində də mürəkkəb isimlər bitişik yazılır: vurhavur, qovhaqov, qaçaqaç və s.

c) Nisbi və tam sinonimlərin birləşməsiylə də mürəkkəb isimlər yaranır və defislə yazılır: dava-dalaş, dost-tanış və s.

ç) Komponentləri bir-birini tamamlamaq məqsədiylə işlənən mürəkkəb isimlər də vardır və defislə yazılır: mühəndis- elektrik, bort-mexanik, kino-teatr və s.

d) Müxtəlif mənalı və formalı sözlərin birləşməsiylə yaranan mürəkkəb isimlər bitişik yazılır: ördəkburun, sacayaq, qayınata, Əlikram, Kərəməli, Əliqulu və s.

e) Eyni ismin təkrarıyla yaranan mürəkkəb isimlər həm də defislə yazılır: qoz-qoz, dama- dama, xal-xal, üzük-üzük və s.

Mürəkkəb sifətlər də tabesizlik yollarıyla yarana bilir, lakin mənasına görə mürəkkəb isimlərdən fərqlənir, mürəkkəb sifətlərin bu yolla yarananları arasında həm bitişik yazılan, həm defislə yazılanlar vardır:

a) Bir-birinə yaxın yaxud eyni mənalı olan sifətlərin birləşməsiylə yaranan mürəkkəb sifətlər: al-əlvan, al-qırmızı,gözəl-göyçək və s.

b) Eyni cür sifətlərin təkrarlanması ilə yaranan mürəkkəb sifətlər: yığın-yığın, koma-koma, şirin-şirin, qırmızı-qırmızı və s.

c) Eyni yaxud yaxınmənalı düzəltmə sifətlərin birləşməsiylə: tozlu-torpaqlı, pullu-paralı, saysız-hesabsız və s.

Tabesizlik əlaqəsiylə düzələn mürəkkəb zərflər də vardır, bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

a) İkinci tərəfi yönlük halda olan sifətlərin təkrarından düzələnlər: düz-düzünə, açıq-açığına və s.

b) İkinci tərəfi –a, -ə ünsürünü qəbul etmiş təkrarlanan isimlərin köməyiylə düzələn mürəkkəb zərflər: ağız-ağıza, üz-üzə, diz-dizə, yan-yana,əl-ələ, qol-qola, baş-başa, göz-gözə, çiyin-çiyinə və s.

c) Təkrarlanan sadə zərflər və ya qeyri-müəyyənlik bildirən miqdar saylarının köməyiylə düzələn mürəkkəb zərflər: yeyin-yeyin, tez-tez, gec-gec və s.

ç) Əksmənalı sözlərin birləşməsiylə yaranan mürəkkəb zərflər: gec-tez, bu gün-sabah, dal-qabaq, sağ-sol və a.

d) Təkrarlanan isim yaxud sifətin arasına –ba, -bə ünsürünün daxil olması ilə yaranan mürəkkəb zərflər: yanbayan, gözbəgöz, qarabaqara, dalbadal, üzbəüz, sözbəsöz, dilbədil və s.

Mürəkkəb isimlərin tabelilik əlaqəsi əsasında düzələn formaları da vardır:

a) yanaşma əlaqəsi, yaxud birinci növ ismi birləşmələr əsasında formalaşanlar: incəsənət, haçadırnaq, ağcaqanad, şahdamar, üçbucaq və s.

b) ikinci tərəfi -ma, -mə şəkilçili isim vasitəsiylə düzələnlər: sözatma, başdansovma, diltökmə, üzvurma və s.

c) təsriflənməyən feillərin növü olan feili sifətin köməyiylə düzələnlər: tozsoran, istilikölçən, günəbaxan, tozsoran və s.

d) ikinci növ ismi birləşmələr əsasında formalaşanlar: ayaqqabı, qarğıdalı, quzuqulağı, qulaqburması və s.

Tabelilik əlaqələri əsasında yaranan mürəkkəb sifətlər:

a) Birinci tərəfində mənsubiyyət şəkilçili söz, yaxud təktərəfli birləşmə , ikinci komponenti isə sifət olan mürəkkəb sifətlər: sözüötkəm, qanışirin, beliəyri, saçıağarmış, başıboş və s.

b) İkinci növ ismi birləşmələrin köməyiylə yaranan mürəkkəb sifətlər: yeraltı, şəhəryanı, məktəbyanı və s.

c) Sadə say və sifətlə leksik şəkilçi qəbul etmiş sifətin birləşməsiylə yaranan mürəkkəb sifətlər: hündürboylu, üçmərtəbəli, ikiüzlü, uzunsaçlı, sarıbənizli, göyüzlü, göygözlü, hündürboylu, göyçuxalı və s.

d) Feili sifət tərkibinin köməyiylə yaranan mürəkkəb sifətlər: əldəqayırma, gözəgörünməz, sülhsevər, sözqanan və s.

Mürəkkəb zərflər də isim və sifətlər kimi həmçinin tabelilik əlaqəsi ilə də düzələ bilir:

a) Təsriflənməyən feillərin bir növü olan feili sifətlərin əsasında formalaşanlar: gözgörəsi.

Əlavə etmək lazımdır ki, bu cür mürəkkəb zərlərə çox az hallarda rast gəlinir.

b) İkinci növ ismi birləşmələr sayəsində yaranan mürəkkəb zərflərə aiddir: atüstü, ayaqüstü, dilucu, dodaqaltı və s

Mürəkkəb saylardan, əvəzliklərdən danışsaq, deyə bilərik ki, daha çox analitik yolla yaranan mürəkkəb saylar və əvəzliklər var. Bu yolla yaranan mürəkkəb əvəzliklərə nümunə olaraq demək olar ki: heç kəs, bir kəs, heç kim və s.

Analitik yolla yaranan saylara nümunə göstərsək: səksən beş, min doqquz yüz on səkkiz, iki min iyirmi səkkiz və s. [6, s.183-184].

Bu məqaləmizdə ən son mürəkkəb feillərin yaranma yollarına da nəzər salmaq istəyərik. Mürəkkəb feillərin də çoxu analitik yolla yaranır, burada cürbəcür, rəngbərəng mürəkkəb feillərdən danışacaq, bəhs edəcəyik.

Mürəkkəb feilləri müxtəlif qruplarda birləşdirmək, yaxud müxtəlif qruplara bölmək, paylaşdırmaq olar, ilk öncə onu deyək ki, analitik yolla yaranan mürəkkəb feillər iki hissəyə ayrılır: tərəfləri feil olanlar və tərəflərindən təkcə sonuncusu feil olanlar.

Tərkib hissələrinin hər ikisi feil olan mürəkkəb feillərə nümunə olaraq bunları göstərmək olar: əriyib getmək, qaçıb gəlmək, uçub getmək, deyib durmaq, donub qalmaq, gəlib çıxmaq, sönüb getmək, atılıb-düşmək və s.

Mürəkkəb feillərin bir qismi isə müstəqilliyini tam itirməmiş köməkçi feil hesab edilən feillərin vasitəsiylə yaranır, bu növ feilləri bir çox qruplara ayırmaq olar:

a) birinci tərəfi digər nitq hissələrinə aid olur.
b) birinci tərəfində hal şəkilçisi olur.
c) mənsubiyyət şəkilçilərinin köməyi də birinci tərəfi formalaşır.

Bu tip mürəkkəb feillərə aid etmək olar: başı qarışmaq, dili çəkilmək, qanı qaralmaq, baş ağarmaq, dil tökmək, gününü saymaq, yolunu itirmək, üz vermək, ad almaq, dilə basmaq, lağa qoymaq, işə salmaq, başına salmaq, gücünə güvənmək, əldə oynatmaq, gücdən düşmək, abırdan düşmək, sudan çıxmaq, əlindən yapışmaq, xəyalından keçirmək, həddindən çıxmaq, səfərə getmək, yola aparmaq, əlinə baxmaq, könlünə düşmək, ürəkdən gülmək, ürəkdən çıxmaq, dibindən baltalamaq, qabağından yeməmək, dalından qorxmaq və s.

XÜLASƏ

AĞAYEVA NƏRGİZ

MÜRƏKKƏB SÖZLƏRİN YARANMA YOLLARININ MÜXTƏLİFLİYİ

Bu məqalədə ilk öncə mürəkkəb sözlərin yaranma tarixinə, onların qədimdən bu günümüzə qədər olan dövrdə necə və hansı yollarla formalaşması və təkmilləşib indiki halına düşməsindən bəhs edilmişdir. Araşdırmanın ilkin hədəfi bu idi ki, qədim abidələrdə, əsərlərdə olan mürəkkəb sözlərlə müasir dilimizdəki mürəkkəb sözlər qarşılaşdırılsın, yaranma yollarına əsasən müqayisə edilsin, həmçinin hansı yaranma yolunun hələ də yaşamasını, hansı yaranma yolunun isə mürəkkəb sözlərin tarixi inkişaf yolunda aradan çıxmasını, passivləşməsini araşdırmaq idi. Bunun üçün ilkin olaraq tarixi qrammatikaya baxılmış, yaranma yolları araşdırılmış, hər bir əsas nitq hissəsinə aid olan mürəkkəb sözlərin yarandığı yollara baxılmışdır.

Məqalə üçün araşdırmalardan müəyyən olunmuşdur ki, 18-ci əsrə qədər olan əsərlərdə, qədim abidələrdə iki və daha artıq sözün struktur-semantik cəhətdən birləşməsi yolu ilə yaranan mürəkkəb sözlərə az rast gəlinir, həmin mürəkkəb sözlərin yaranma yollarına baxılmış, müxtəlif qruplarda birləşdirmək üçün hansı ortaq xüsusiyyətlər olduğuna toxunulmuşdur. Bununla belə, həmin qeydlərlə kifayətlənmək, onlara əsasən qənaətə gəlmək olmazdı, çünki araşdırmanın

nəticəsində bəlli olmuşdur ki, söz birləşməsi formasında olan mürəkkəb sözlər daha çoxdur, yaxud da söz birləşmələrinin inkişaf edib təkmilləşməsi nəticəsində ortaya daha çox yeni və müasir mürəkkəb sözlər çıxmışdır.

Müasir qrammatikamıza baxdıqda görülmüşdür ki, mürəkkəb sözlərin yaranma yoları çox müxtəlifdir, ayrı-ayrı araşdırmaların nəticəsində bu müxtəlif qruplara toxunulmuş, alimlərin fikri, qənaəti qeyd edilmişdir.

Mürəkkəb sözlərin ən əsas fərqləndirici xüsusiyyəti tərəflərinin semantikasının bir-birini tamamlamasındadır. Ümumiyyətlə, mürəkkəb sözün mənası tərkib hissələrinin mənasından yaransa da, bu bütöv leksik, semantik vahid, bəlkə də, tərəflərinə görə deyil, tarixi inkişaf prosesində formalaşmışdır.

Mürəkkəb sözlərin bir yaranma yolu da birinci növ təyini söz birləşmələrinə görədir, bu yaranma yoluna baxdıqda sözün qrammatik strukturuna da nəzər salınmalıdır.

АГАЕВА НАРГИЗ

РЕЗЮМЕ

РАЗНООБРАЗИЕ СПОСОБОВ ОБРАЗОВАНИЯ СЛОЖНЫХ СЛОВ

В этой статье, прежде всего, история создания сложных слов, как и какими способами они образовывались с древнейших времен до наших дней, и как совершенствовались и дошли до наших дней. Первоначальная цель исследования состояла в том, чтобы сопоставить сложные слова, встречающиеся в древних памятниках и произведениях, со сложными словами нашего современного языка, сопоставить их по путям происхождения, а также выяснить, какой способ происхождения еще жив и какой способ происхождения исчез и стал пассивным в ходе исторического развития сложных слов. Для этого изначально рассматривалась историческая грамматика, исследовались способы образования, рассматривались способы образования сложных слов, относящихся к каждой основной части речи.

В результате исследований для статьи установлено, что в произведениях до XVIII века в памятниках древности редко встречаются сложные слова, образованные структурно-семантическим сочетанием двух и более слов, способы образования этих были рассмотрены сложные слова, и какие общие признаки использовались для их объединения в разные группы. Однако удовлетвориться этими заметками и сделать на их основе выводы не представлялось возможным, так как в результате исследования выяснилось, что слова в виде словосочетанийпоявились более сложные слова, либо в результате развития и совершенствования словосочетаний появилось больше новых и современных сложных слов.

При взгляде на нашу современную грамматику видно, что способы образования сложных слов весьма разнообразны, в результате отдельных исследований затронуты эти разные группы, отмечены мнения и выводы ученых. Основная отличительная черта сложных слов состоит в том, что семантика их частей дополняет друг друга. Вообще, хотя значение сложного слова возникает из значения его составных частей, вся эта лексическая, семантическая единица, может быть, образовалась в процессе исторического развития, а не по своим частям.

Один из способов образования сложных слов - по первому типу определения словосочетаний, при рассмотрении этого способа образования следует учитывать и грамматический строй слова.

AGAYEVA NARGIS

SUMMARY

A VARIETY OF WAYS TO FORM COMPOUND WORDS

In this article, first of all, the history of the creation of compound words, how and in what ways they were formed from ancient times to the present day, and how they improved and survived to this day. The initial goal of the study was to compare the compound words found in ancient monuments and works with the compound words of our modern language, to compare them according to the ways of origin, and also to find out which way of origin is still alive and which way of origin disappeared and became passive in the course of the historical development of compound words.For this, historical grammar was initially considered, methods of formation were studied, methods of formation of compound words related to each main part of speech were considered.

As a result of research for the article, it was found that in the works before the 18th century in ancient monuments there are rarely compound words formed by a structural-semantic combination of two or more words, the ways of forming these compound words were considered, and what common features were used to combine them into different groups. However, it was not possible to be satisfied with these notes and draw conclusions based on them, since as a result of the study it turned out that more complex words appeared in the form of phrases, or as a result of the development and improvement of phrases, more new and modern compound words appeared.

When looking at our modern grammar, it is clear that the ways of forming compound words are very diverse, as a result of separate studies, these different groups are affected, the opinions and conclusions of scientists are noted.The main distinguishing feature of compound words is that the semantics of their parts complement each other. In general, although the meaning of a compound word arises

from the meaning of its component parts, this entire lexical, semantic unit, perhaps, was formed in the process of historical development, and not in its parts.

One of the ways to form compound words is according to the first type of definition of phrases; when considering this method of formation, the grammatical structure of the word should also be taken into account.

ƏDƏBİYYAT SİYAHISI:

1. B. Xəlilov- Müasir Azərbaycan dilinin leksikologiyası, Bakı: Nurlan, 442 səh
2. Ə. Tanrıverdi- Azərbaycan dilinin tarixi qrammatikası, Bakı: Elm və təhsil, 537 səh
3. Ə.Abdullayev, Y.Seyidov, Ağamalı Həsənov- Müasir Azərbaycan dili (Sintaksis), Bakı: Şərq-Qərb, 422 səh
4. H. Həsənov- Müasir Azərbaycan dilinin leksikası, Bakı: Nurlan, 451 səh
5. M. Adilov- Əsərləri I, Bakı: Elm və təhsil, 308 səh
6. S.Cəfərov-Müasir Azərbaycan dili (Leksika)- Bakı: Şərq-Qərb, 191 səh

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi fil.f.d Sofiyeva Gülçin
tərəfindən çapa tövsiyə olunmuşdur

SADIQOVA AKİFƏ
ADU
Təbriz küqçş, 49

ALMAN DİLİNDƏ OMONİMLİK, MÜRƏKKƏB SÖZLƏR VƏ TƏTBİQİ

Açar sözlər: mürəkkəb sözlər, kompenetlərin məna xüsusiyyətləri, sözdüzəltmə, sözdüzəldici vasitə, dilin lüöət tərkibinin zənginləşməsi,forma və məzmun.

Keywords: complex words, semantic features of components, word correction, means of word correction, vocabulary enrichment, form and content.

Ключевые слова: сложные слова, семантические особенности компонентов, словокоррекция, средство словокоррекции, обогащение словарного запаса, форма и содержание.

Dildə işlənən mürəkkəb sözlər öz- özünə və ya ayrı- ayrı şəxslərin istəyinə görə əmələ gəlmir. Mürəkkəb sözlərin əmələ gəlməsi, əsasən, bizim xarici aləmlə olan əlaqəmiz və ona münasibətimiz nəticəsində baş verir ki, bu da onların maddi əsasını təşkil edir.

Dildə işlədilən mürəkkəb sözlərin əmələ gəlməsində bir çox cəhətlər özünü göstərir: maddi əsas, komponentlərin məna xüsusiyyətləri; komponentlərin tipləri; forma və məzmun münasibətləri; komponentlər arasında əlaqə. Dildə olan mürəkkəb sözlərin əmələ gəlməsində rol oynayan belə maddi əsasın bir çox xüsusiyyətinə təsadüf edilir: funksiyaya görə; əlamətə görə; bənzətməyə görə; qüvvətləndirməyə görə; mənsubiyyətə görə; ənənəyə görə; hərfi tərcüməyə görə.(7.1)

Alman dilində sözlərin əmələ gəlməsində mühüm rol oynayan maddi əsasın xüsusiyyətləri bir – birindən fərqənir. Alman dili üçün sözdüzəltmə aşağıdakı əlamətlərlə xarakterikdir.:

Mürəkkəb sözlər sözdüzəltmənin bir növü kimi alman dilinin qədim inkişaf dövründə böyük rol oynamışdır. 17- ci əsrdən başlayaraq mürəkkəb sözlər sözdüzəldici vasitə kimi çox məhsuldar olmuşdur .Elə də olur ki, mürəkkəb sözlərin ayrı-ayrı elementləri söz mənasının qüvvətləndirilməsinə xidmət edir: -*stockfinster, sehr finster.(7.**2**)*

Söz mənasının qüvvətləndirməsi yolu ilə əmələ gələn mürəkkəb sözlər öz məna xüsusiyyətinə görə 2 qismə ayrılır.

a) mürəkkəb sözlərdə mənanın qüvvətləndirilməsi əsas yer tutur və sadə söz hansı nitq hissəsinə mənsubsa ondan düzələn mürəkkəb söz də eyni nitq hissəsinə aid olur.

b) Mənanin qüvvətlənməsi ilə bərabər keyfiyyətin dəyişməsi xüsusiyyəti də rol oynayır.

-Məsələn:- *Mordsskandal*, *Heidenlärm* (*Höllenlärm*).

Alman dilində söz mənasının tutqunlaşması.*Ohrfeige*- ikinci-*feige* elementi müasir alman dilində ,Hieb- müstəqil məna bildirmir.

Orta əsrlər alman dilində "Hieb ins Ohr"deməkdir. Nachtigall-die Sängerin der Nacht.

Mürəkkəb sözlərin əmələ gəlməsində mühüm rollardan birini də sözlərin çoxmənalılığı oynayır.Bundan başqa dildə iki-üç müstəqil sözdən əmələ gəlmiş sözlər də(mürəkkəb sözlər) fəaliyyət göstərir.Mürəkkəb sözlərin "zahiri görkəmi", ifadə üsulu söz birləşməsi ilə çox yaxınlıq təşkil edir, bəzən ən incə cəhətlərini nəzərdən keçirmədən onları bir –birindən ayırmaq çox çətin olur(7.3).Sözlə söz birləşməsinin fərqləndirilməsi bir qədər asandırsa da, mürəkkəb sözlərlə söz birləşməsinin münasibətini müəyyənləşdirmək, onları fərqləndirmək nisbətən çətindir.

Mürəkkəb sözlər də, əsasən, hətta birləşmələrin tərəfləri arasında olan sintaktik əlaqələr mürəkkəb sözlərin əmələ gəlməsi üçün də mühüm əhəmiyyət kəsb edir və söz birləşmələrində olduğu kimi, mürəkkəb sözlər də bu cəhətdən qruplaşır. Lakin bəzi ümumu oxşarlığa baxmayaraq, söz birləşmələri ilə mürəkkəb sözlər arasında bir sıra fərqlər də var; söz birləşmələrini əmələ gətirən sözlər leksik- semantik müstəqilliyini tamamilə saxlayır,ayrılıqda olduğu kimi ,birləşmə daxilində də ayrı-ayrı məfhumlarla bağlı olur. Mürəkkəb sözləri əmələ gətirən sözlərdə isə bu müstəqillik,adətən, qalmır və onlar ayrılıqda əlaqədar olduqları məfhumlarla bu və ya başqa şəkildə əlaqəni kəsir ya da çox zəifləyir.

Bir neçə predikativ kök olan mürəkkəb cümlələrdə tabelikli cümlələrin tabeliyi də ola bilər. Bağlı cümlələr bir baş cümlədən asılı olan tabe cümlələrdir. Ardıcıl tabelik tabeliyindən fərqlidir. Məsələ burasındadır ki, ardıcıl tabeli mürəkkəb cümlələrdə tabeli cümlələrin heç də hamısı baş cümlədən asılı deyil, yəni tabelikdə olmur.

Xüsusən ardıcıl tabeli cümlələrdə tabe cümlələrin növlərini müəyyən etmək asan iş deyil. Məsələ tabe cümlələrin ardıcıl tabeliyini necə tapmaqdır. Əsas odur ki, sualın cavabını, tabeli cümlələrin ardıcıl tabeliyini bilməkdir - bu nədir? Bu mürəkkəb cümlədir ki, belə bir tabeli cümlə başqa tabelikli cümlə üçün əsas olan baş cümlədən asılıdır.

Yazılanlardan bu nəticəyə gəlmək olarki, alman dilinin lüğət tərkibinin zənginləşməsində mürəkkəb sözlərin rolu böyükdür. Bu günkü alman dili daha çox neologizmlərlə zənginləşir.

Söz yaradıcılığı prosesinin ən qədim növlərindən biri olan bu qayda ədəbi dilin leksikasının inkişafında böyük rol oynayır. Müasir dildə sintaktik yolla söz yaradıcılığı prosesi öz qədim dövrlərindən fərqli olaraq, bir sıra yeni xüsusiyyətlərə malik olmuş və yeni qaydalar yaratmışdır. Ona görə də sintaktik yolla söz

yaradıcılığı prosesinin tədqiq obyekti mürəkkəb sözlərdir. Mürəkkəb sözün tərkibində iştirak edən elemetlərin ayrılıqda müstəqil məfhum ifadə edən sözlərdən ibarət olduğuna baxmayaraq, mürəkkəb söz problemi düzəltmə söz problemindən daha qarışıq, daha mürəkkəbdir. Cünki mürəkkəb sözlərin tərkib hissələri həm sərbəst şəkildə, həm də başqa sərbəst söz tərkiblərində-daxilində iştirak edə bilirki, bu da həmin tərkiblərin öz forması etibarı ilə mürəkkəb sözlərə oxşarlığını meydana gətirir.Məsələn:

-*Goldschmied*- mürəkkəb sözünün tərkibində olan *Gold* və *Schmied* sözləri ayriliqda hərəsi müəyyən bir məfhum ifadə etdiyi kimi, sənət bildirən zərgər(adam) mürəkkəb sözündə və - Goldschmied feli sifət tərkibində də iştirak edir.

Mürəkkəb sözlərin müəyyənləşdirilməsi üçün ancaq mənani və ya ancaq formanı nəzərə almaq olmaz.

Sözlərin birləşərək mürəkkəb söz əmələ gətirilməsində məzmun rol oynadığı kimi, forma da mühüm yer tutur, cünki formasiz heç bir məzmun yoxdur və bunu təsəvvür etmək qeyri- mümkündür.(7,4)

Ümumiyyətlə, hər hansı bir mürəkkəb söz tərkibinə girən leksik vahidlər özlərinin ayrılıqda ifadə etdiyi məna xüsusiyyətlərini az və ya çox dərəcədə itirir və birlikdə yeni vahid bir məfhum ifadə etməyə xidmət edir. Bu məsələ yenə də mürəkkəb sözlərin etimologiyası ilə əlaqədar bir məsələ olub formalaşması üçün də əsas təşkil edir.

Mürəkkəb sözlərin əmələ gəlməsi, əsasən bizim xarici aləmlə olan əlaqəmiz nəticəsində baş verir. Qeyd etdiyimiz kimi, dildə olan mürəkkəb sözlərin belə maddi əsasları bu xüsusiyyətdə birləşir.

-Funksiyaya, əlamətə, bənzətməyə, qüvvətləndirməyə, mənsubiyyətə və hərfi tərcüməyə görə.

Funksiyaya görə bir sıra mürəkkəb sözlərin əmələ gəlməsində əşyanın daşıdığı funksiya mühüm yer tutur.

Mürəkkəb sözləri müxtəlif prinsiplər üzrə təsnif etmək olur. Əvvəlcə morfoloji baxımdan təsnif etmək lazımdır. Mürəkkəb sözlər istənilən söz növünə aid ola bilərki, bu da birləşmənin qrammatik xarakterini təsvir edən ikinci elementdən asılıdır. İstənilən söz ilk element kimi çıxış edə bilər.

Semantik –sintaktik baxımdan mürəkkəb sözləri dörd növə ayırmaq olar:

1. Attributive Zusammensetzungen-bu növ mürəkkəb sözlər komponentlərin atrubutiv əlaqəsilə xarakterikdir; yəni,1-ci komponent 2-cini təyin edir.Təyini sözbirləşməsi, nəinki ismi, həm də təyini ola bilər: Schwarzbrot, Tischlampe, dunkelrot.u.a

Buraya xüsusi bir növ kimi *Bahuvrihi*-lər də daxildir.

Graukopf, Rotkäppchen u.a kimi.Bahuvrihiləri digər hind- avropa dillərində də görmək olar: yunan, rus, qotik və s. Yunan mifologiyasında bahuvirihilər çox geniş yayılmışdır. Rus dilində isə bahuvrihilər yalnız mürəkkəb söz-(krasnoqrudka) - kimi

deyil, sabit söz birləşməsi-(krasnaya şapoçka, siniy çulok)- kimi də formalaşıb, bu isə rus dilinə xas səciyyəvi bir xüsusiyyətdir.

Mürəkkəb sözlərin bir qismi də başqa dillərdən *hərfi tərcümə* (*kalka*) yolu ilə düzəlir. Hərfi tərcümə yolu ilə əmələ gələn mürəkkəb sözlər, bir qayda olaraq, hər hansı bir dilin əlaqədə oldugu dil materialına əsaslanır.

Komponentlərin tipləri etibarı ilə mürəkkəb sözləri iki cəhətdən nəzərdən keçirmək olar: komponentlərin məzmun və forma etibarı ilə münasibətləri; komponentlərin nitq hissələrinə görə münasibətləri.

Bəzi mürəkkəb sözlər sinonim sözlərin qoşulması ilə düzəlir:

- an Ort und Stelle , Tritt und Schritt və s.

Mürəkkəb sözlərin bir qismi də antonim sözlərin birləşməsindən düzəlir:

- Tag und Nacht

Mürəkkəb sözlər komponentlər arasındakı əlaqəyə görə iki yerə ayrılır: tabesizlik əlaqəsi, tabelilik əlaqəsi ilə birləşən mürəkkəb sözlər.

Bu iki əlaqənin əsas mahiyyəti ondan ibarətdir kiç bəzi mürəkkəb sözlərin komponentləri məna etibarı ilə öz müstəqilliyini mühafizə etdiyi və biri digərindən asılı olmadığı halda, bəzi mürəkkəb sözlərin komponentləri məna etibarı ilə biri digərindən asılı olur və birinci komponent ikincisini bu və ya digər cəhətdən tamamlamaga xidmət edir.

Ədəbiyyat

1. S.Cəfərov. Müasir Azərbaycan dili. Baki-1970
1. A.İskos.A. Lenkova. Deutsche Lexikologie.Uçpedqiz-1963
3. K.A. Levkovskaya. Leksikoloqiya nemetskoqo yazıka.Uçpedqiz.1956.
4. Grammatik der Deutschen Sprache.Veb Bibliographisches İnstitut Leipzig.1967.
5. P.A . Очерки по языкознанию,изд.AH CCCP, 1953.
6. https://language.az/az/07211951.html
7. https://en.wikipedia.org/wiki/Homonyme

Xülasə

Alman dilində omonimlik, mürəkkəb sözlər və tətbiqi.

Dilin lüğət tərkibinin dəyişməsində təkcə mürəkkəb sözlər rol oynamır, burada omonimlərin də rolunu qeyd etmək lazımdır. Bir-biri ilə əlaqəsi olmayan və ya məna əlaqələrini çoxdan itirmiş məfhumları ifadə edən eyni səs tərkibinə malik sözlərə omonim deyilir.

Omonim sözü yunanca olub,dilimizə rus dili vasitəsilə keçmişdir.Omonim yunanca homos oxşar və onoma-ad deməkdir.

Omonim problemi hələ kifayət qədər tədqiq edilməmişdir. L. Schüttelin omonimləri bir tərəfdən səslənməsinə görə, digər tərəfdən isə səs oxşarlığına, formasına görə eyni sözlər adlandırmışdır. H. Paul isə özünün “ Dil tarixinin

prinsipləri" əsərində omonimlərdən bəhs etsə də məsələnin qaneedici həllini verməmişdir.E. Öhmann isə öz kitabında omonimləri izah edərək təsnifatını verməyə çalışmışdır. V,W. Winogradov, R. A. Budagow, O. Axmanov isə omonimləri söz və sözbirləşmələrinə şamil etmişdir. Abayev isə yalnız fonetik səslənməsinə görə eyni olan sözləri omonim hesab etmişdir.(**7.5**)

İstər çoxmənalı sözlərdə, istər omonimlərdə eyni səs tərkibinə malik bir söz müxtəlif mənalar ifadə edir. Çoxmənalı olmaq üçün söz, söz birləşmələrində və cümlələrdə əlavə mənalar kəsb edir. Çoxmənalı sözlərdə hər hansı bir sözün ifadə etdiyi mənalar,əsasən, bir məfhum ətrafında toplaşaraq onu müxtəlif məna çalarlıqları ilə ifadə edir.

Omonimlər isə başqa sözlərlə əlaqədə müstəqil leksik vahid kimi çıxış edir və sözdüzəltmənin əsasi rolunu oynayır.Omonim sıranın hər bir sözü bir sözdüzəldici mərkəz olur.

Məs:*dichten*-feli poetik söz kimi bir sira sözlərin tərkibində işlənir.

Dichter, Gedicht, Dichtung, erdichten, Dichtergabe, Dichterberuf u.a. "dicht machen"sözündən- das Dichten,Dichtigkeit, abdichten -sozləri törəmişdir.

Deməli, omonimlər çox sayda sözləri əhatə edir və əhəmiyyətli semantik qrup yaradır.

Omonimlərin yaranmasi yollarından biri də semantik vasitədir. Omonimlərin coxmənalılığı inkişaf edir və polisemiyanin düşdüyü hiss olunur.(**7.6**)

Məs: Pfeife- odundan yaxud da metaldan düzəlmiş sadə,qədim bir musiqi alətidir. Forma eyniliyinə görə söz dildə siqar cəkmək ücün işlədilən əşyaya gətirilmişdir.Bu yolla 2 omonim yaranmışdır.1-cisi Pfeife- musiqi aləti, 2- si tənbəki cəkmək üçün.

Metanomik əlamətlərin adlra köçürülməsi bir çox sözlərdə baş vermişdir.

Schloss- Wohn,oder Vervaltungsbau und Schloss- Vorrichtung zum Abschliessen von Türen.

Schild, Kugel, Flügel, Bank ,Fuss, scheinen ,lassen u.a,

Deməli, söhbət burada məna dəyişməsindən və fonetik inkişafdan, sözdüzəltmədən gedir.

Omonimlər düzəlişinə görə fonetik,fonetik- sözdüzəldici və semantik qollara ayrılır.3-cüsü isə semantik yoldur.

Yazilanlara yekun vuraraq bu qənaətə gəlmək olar ki,omonimlər həm bir,həm də müxtəlif sözlərdən düzələ bilir. Lakin daim forma, yaxud mənasına görə inkişaf edir. Bu da onu göstərir ki, omonimlər dilə məxsus olan hər şey kimi tarixi hadisədir(**7.7**). Buradan bir fakt da irəli gəlir ki, dilin inkişaf prosesində bəzi omonimlər yoxa cixir.

Məs: Mund- Maul və Mund- Schutz sözsırası düzəlmişdir.

Eyni dilin inkişaf prosesi ilə birgə və əlaqəli olaraq digər başqa omonim sırası da bu yolu keçmişdir.

SADYGOVA AKIFA

SUMMARY
HOMONYMY, COMPOUND WORDS AND THEIR APPLICATION IN GERMAN

This rule, which is one of the oldest types of word-formation process, plays an important role in the development of the lexicon of literary language. The process of syntactic word formation in the modern language, in contrast to its ancient times, had a number of new features and created new rules. Therefore, the object of study of the process of word formation in a syntactic way are complex words. Although the elements involved in a compound word consist of words that express independent concepts, the compound word problem is more complex than the word correction problem. This is because the components of compound words can be present both freely and within other free word structures, which makes these components similar in form to compound words. For example: The words Gold and Schmied, which are part of the compound word -Goldschmied-, are also present in the compound word jeweler (man), which expresses art, as well as in the adjective - Goldschmied. Meaning or form alone cannot be used to define compound words. Just as content plays a role in the formation of complex words by combining words, form also plays an important role, because without form there is no content and it is impossible to imagine. In general, lexical units that are part of any compound word more or less lose the semantic features they express separately, and together serve to express a new single concept. This issue is still a matter of etymology of complex words and is the basis for its formation. The formation of complex words occurs mainly as a result of our interaction with the outside world. As we have noted, such material bases of complex words in language are united in this feature. -For function, sign, analogy, reinforcement, affiliation and literal translation. According to the function, the function of the object plays an important role in the formation of a number of compound words.

САДЫХОВА АКИФА

РЕЗЮМЕ
РОЛЬ СЛОЖНЫХ СЛОВ И ОМОНИМОВ В ОБОГАЩЕНИИ СЛОВАРНОГО ЗАПАСА ЯЗЫКА

Это правило, являющееся одним из древнейших типов словообразовательного процесса, играет важную роль в развитии лексики литературного языка. Процесс синтаксического словообразования в современном языке, в отличие от его древних времен, имел ряд новых особенностей и создал новые правила. Следовательно, объектом изучения

процесса словообразования синтаксическим способом являются сложные слова. Хотя элементы, входящие в составное слово, состоят из слов, которые выражают независимые концепции, проблема составного слова более сложна, чем проблема исправления слов. Это связано с тем, что компоненты составных слов могут присутствовать как свободно, так и внутри других свободных структур слов, что делает эти компоненты похожими по форме на составные слова. Например: Слова Gold и Schmied, которые являются частью составного слова -Goldschmied-, также присутствуют в составном слове jeweler (человек), которое выражает искусство, а также в прилагательном - Goldschmied. Сами по себе значение или форма не могут использоваться для определения составных слов. Подобно тому, как содержание играет роль в образовании сложных слов путем комбинирования слов, форма также играет важную роль, потому что без формы нет содержания и его невозможно представить. В общем, лексические единицы, входящие в состав любого составного слова, более или менее теряют семантические характеристики, которые они выражают по отдельности, и вместе служат для выражения нового единого понятия. (**7.5**)Этот вопрос до сих пор остается вопросом этимологии сложных слов и является основой для его образования. Образование сложных слов происходит в основном в результате нашего взаимодействия с внешним миром. Как мы уже отмечали, такие материальные базы сложных слов языка объединяет это свойство. -Для функции, знака, аналогии, подкрепления, принадлежности и дословного перевода. Согласно функции, функция объекта играет важную роль в образовании ряда сложных слов.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi fil.e. n; dos: Aida Sobor
tərəfindən çapa tövsiyə olunmuşdur

ŞÖVKƏT ŞAHIN QIZI TƏHMƏZOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
shoovkat.18@gmail.com

XARİCİ DİL TƏDRİSİNDƏ DANIŞIQ BACARIQLARININ İNKİŞAFI ÜÇÜN İSTİFADƏ OLUNAN FƏALİYYƏTLƏR

Xülasə

Xarici dil bilmək insanların həyatına əhəmiyyətli dərəcədə təsir edir. İnkişaf etmiş ölkələrdə savadlı və uğurlu kadrların yetişdirilməsində xarici dil tədrisi mühüm rola sahibdir. Buna görə də xarici dil tədrisinə həm məktəblərdə həm də universitetlərdə xüsusi diqqət yetirilir. Yeni bir dil öyrənərkən əsas məqsəd başqa ölkələrdən olan insanlarla ünsiyyət qurmaq, yeni mədəniyyətlərlə tanış olmaq, yeni bilik və bacarıqlar əldə etməkdir. Hədəf dilin bütün bu üstünlükləri dil öyrənməyə maraq yaradır. Xarici dil öyrənmək üçün aparılan tədqiqatlar bir çox metodların yaradılmasına və inkişafına səbəb olmuşdur. Effektiv metodların ortaq nöqtəsi danışıq bacarıqlarını inkişaf etdirməkdir. Çünki danışıq bacarıqlarına yiyələnmək kommunikasiyanın təşkili üçün çox vacibdir. Tələbələrin öyrənmə prosesində fəal iştirak etmələrini təmin etmək üçün müəllimlər müxtəlif interaktiv oyunlardan və kommunikativ tapşırıqlardan istifadə edirlər. Bütün bu kommunikativ fəaliyyətlərin istifadəsi dərsin əyləncəli və uğurlu təşkilinə dəstək olur. Fəaliyyətlər tələbələrin maraqlarına uyğun olmalıdır. Beləliklə, tələbələr effektiv şəkildə öyrənəcəklər. Onlar xarici dilə dərs kimi deyil, ünsiyyət vasitəsi kimi yanaşacaqlar. Tədqiqatın məqsədi xarici dil tədrisində danışıq bacarıqlarının inkişafı üçün istifadə olunan fəaliyyətlər və onların ətraflı şəkildə təhlilidir. Hazırda danışıq bacarıqlarının inkişafına yönəlmiş fəaliyyətlər təhsil müəssisələrində müəllimlər tərəfindən uğurla tətbiq edilir.

Açar sözlər: Xarici dil tədrisi, danışıq bacarıqları, kommunikasiyanın təşkili, kommunikativ fəaliyyətlər, interaktiv oyunlar.

Shovkat Tahmazova

ACTIVITIES USED FOR THE DEVELOPMENT OF SPEAKING SKILLS IN FOREIGN LANGUAGE TEACHING

Summary

Knowing a foreign language has a significant impact on people's life. Foreign language teaching has an important role in developing educated and successful personnel in developed countries. Therefore, special attention is paid to the teaching of foreign language in both schools and universities. When learning a new language, the main goal is to communicate with people from other countries, get to know new cultures, and acquire new knowledge and skills. All these advantages of the target language create interest in language learning. Researches for learning a foreign language have led to the creation and development of many methods. Common point

of effective methods is to develop speaking skills. Because mastering speaking skills is very important for the organization of communication. Teachers use various interactive games and communicative tasks to ensure students' active participation in the learning process. The use of all these communicative activities supports the fun and successful organization of the lesson. Activities should be related to students' interests. So students will learn effectively. They will approach the foreign language as a means of communication, not as a lesson. The purpose of the study is the activities used for the development of speaking skills in foreign language teaching and their detailed analysis. Currently, activities aimed at the development of speaking skills are successfully applied by teachers in educational institutions.

Key words: Foreign language teaching, speaking skills, organization of communication, communicative activities, interactive games.

Шавкет Тахмезова

ДЕЯТЕЛЬНОСТЬ, ИСПОЛЬЗУЕМАЯ ДЛЯ РАЗВИТИЯ РАЗГОВОРНЫХ НАВЫКОВ ПРИ ОБУЧЕНИИ ИНОСТРАННОМУ ЯЗЫКУ

Резюме

Знание иностранного языка оказывает значительное влияние на жизнь людей. Преподавание иностранных языков играет важную роль в подготовке образованных и успешных кадров в развитых странах. Поэтому особое внимание уделяется преподаванию иностранных языков как в школах, так и в вузах. При изучении нового языка главной целью является общение с людьми из других стран, знакомство с новыми культурами, получение новых знаний и навыков. Все эти преимущества изучаемого языка вызывают интерес к изучению языка. Исследования по изучению иностранного языка привели к созданию и развитию многих методов. Общим моментом эффективных методов является развитие навыков разговорной речи. Потому что овладение навыками речи очень важно для организации общения. Для обеспечения активного вовлечения учащихся в учебный процесс преподаватели используют различные интерактивные игры и коммуникативные задания. Использование всех этих коммуникативных мероприятий способствует веселой и успешной организации урока. Деятельность должна соответствовать интересам учащихся. Так студенты будут учиться эффективно. Они будут подходить к иностранному языку как к средству общения, а не как к уроку. Целью исследования являются мероприятия, используемые для развития навыков разговорной речи при обучении иностранному языку и их детальный анализ. В настоящее время мероприятия, направленные на развитие навыков разговорной речи, успешно применяются педагогами общеобразовательных учреждений.

Ключевые слова: обучение иностранному языку, навыки разговорной речи, организация общения, коммуникативная деятельность, интерактивные игры.

Danışıq bacarıqlarının əldə edilməsi xarici dil tədrisinin əsas məqsədidir. Tədris prosesinə müasir yanaşmaya əsasən dərs müəllim mərkəzli deyil tələbə mərkəzli olmalıdır. Ona görə də müəllimlər danışıq bacarıqlarını tədris edərkən müxtəlif metodları, strategiyaları və texnikaları dərs prosesində tətbiq edirlər. Bütün bu üsulların tətbiqi zamanı müəllimlər sözsüz ki, dərs prosesində kommunikasiyanın təşkili üçün interaktiv oyunlardan və tapşırıqlardan istifadə edirlər. Bu interaktiv oyunlar və tapşırıqlar tələbələri dərs prosesinin fəal iştirakçıları olmağa yönləndirərək tədrisin uğurlu təşkilinə dəstək olur. Xarici dil tədrisində danışıq bacarıqlarını inkişaf etdirmək üçün istifadə olunan bəzi kommunikativ fəaliyyətlərə nəzər salaq:

1. Qısa danışmaq. Müəllim müxtəlif mövzulardan ibarət kartlar hazırlamalıdır və hər tələbə bir kart seçməlidir. Müəllim tələbələrin verilən mövzu haqqında neçə dəqiqə danışacaqlarını təyin edir və onlara hazırlaşmaları üçün vaxt verir. Tələbələr danışacaqları mövzunun əsas xəttini təşkil etmək üçün bir neçə cümlə yaza bilərlər. Cümlələr çox olmamalıdır. Yaxşı olar ki, onlar üç və ya beş cümlə qeyd etsinlər. Bu cümlələrin məqsədi mövzunun ardıcıllığını və əsas xəttini unutmamaqdır. Xarici dilin tədrisində danışıq bacarıqlarının bu fəaliyyət növü vasitəsilə təşkili tələbələrin xarici dildə düşünmə və danışma bacarıqlarını inkişaf etdirir. Tələbələr fərqli mövzular haqqında danışmalıdırlar. Ola bilər ki, dinləyən tələbələrin diqqətlərinin yayınmaması üçün müəllim bu tapşırığın içində başqa bir oyun növündən istifadə etsin. Məsələn, tələbə mövzunu danışmadan əvvəl mövzunun adını deyir və dinləyici olan tələbələrə vaxt verilir ki, bu mövzu haqqında eşitməyi gözlədikləri 5 sözü yazsınlar. Mövzunu dinlədikcə eşitdikləri sözləri dairəyə almalıdırlar və danışan nitqini tamamladıqda 5 sözü də düzgün təxmin edən tələbələr əllərini qaldırıb təxmin etdikləri sözləri oxuyurlar. Beləliklə, tələbələr daha diqqətlə dinləməyə çalışacaqlar.

2. Əşya göstərmək və danışmaq. Müəllim tələbələrin sevimli əşyalarını sinfə gətirmələrini və bu əşyalar haqqında danışmalarını istəyə bilər. Bu kommunikativ fəaliyyət tələbələr üçün çox maraqlı və əyləncəlidir. Kommunikasiyanın təşkili üçün ən vacib olan öyrənənlərə danışmaq üçün real bir səbəb verməkdir və bu oyunun xarici dil tədrisində tətbiqi öyrənənlərə həqiqətən də danışmaq üçün əsl real səbəb verir. Danışan nitqini tamamladıqda müəllim dinləyiciləri bu əşya haqqında onları maraqlandıran sualları soruşmağa təşviq etməlidir. Beləliklə, kommunikasiyanın təşkili uğurlu olacaqdır. Həmçinin müəllim də sinfə bir obyekt gətirib tələbələrə göstərə bilər və bu obyektin nə üçün istifadə edildiyini soruşa bilər. Tələbələrin bu obyekt haqqında daha çox danışmaları və onlara bu əşyanın maraqlı olması üçün ilk baxışdan təxmin edilməsi asan olmayan obyekt seçmək daha yaxşı olar. Məsələn, bu qədim zamanlarda istifadə edilən bir əşya ola bilər və ya müəllim sinfə bir şəkil

gətirə bilər. Tələbələr bu şəkli cütlər şəklində, qruplara bölünərək və ya bütün sinif birlikdə müzakirə edə bilərlər.

3. Video lüğət. Müəllim tələbələrin hər hansı mövzuda müəyyən sözləri öyrənmələrini istəyirsə, bu mövzu haqqında videonu tələbələrə təqdim edir və tələbələrin öyrənmələrini istədiyi sözləri və onların xarici dildə tərifini tələbələrə yazılı şəkildə verir və ya bu materialı prezentasiya şəklində təqdim edir. Bu fəaliyyət vasitəsilə tələbələr videodan müəyyən sözləri öyrənəcəklər. Sonra öyrəndikləri bu sözlər əsasında cümlələr quracaqlar. Müəllim bu tip videolar seçərkən tələbələrin maraqlarını və öyrənmə səviyyələrini nəzərə almalıdır. Xarici dilin tədrisi zamanı hədəf dildə orjinal videolara baxmaq həm tələbələrin dinləmə bacarıqlarını inkişaf etdirir həm də bu videolardan öyrəndikləri sözlər əsasında bir-biri ilə ünsiyyət quraraq kommunikasiyanın təşkilinə kömək edir. Videolar musiqilərdən, film və serialların qısa hissələrindən, xəbər proqramlarının müəyyən hissələrindən ibarət ola bilər. Xarici dil öyrənməyə yeni başlayanlar və uşaqlar üçün cizgi film və ya mahnı seçmək olar. Orta səviyyəli tələbələr üçün reklam və ya filmin klipi kimi maraqlı videolardan istifadə etmək olar. Yuxarı səviyyəli tələbələr üçün ruhlandırıcı çıxışdan ibarət bir video seçmək olar. Tələbələr videoları izlədikdən sonra onlar 3-4 nəfərdən ibarət qruplara bölünür və onlar öz düşüncələri əsasında bu sözlərin aydın tərifini yazmalı və cümlələrdə istifadə etməlidirlər. Sonra tələbələr yazdıqları cümlələr və tərifləri haqqında müzakirə apara bilərlər.

4. İnformasiya toplama tapşırıqları. Tələbələr tərəfindən təşkil olunan anketlər, sorğular, müsahibələr, araşdırmalar bura daxildir. Tələbələrdən tələb olunur ki, özlərinin linqvistik resurslarından istifadə edərək müəyyən bir mövzu haqqında məlumat toplasınlar.[1, 97] Xarici dil tədrisində danışıq bacarıqlarını formalaşdırmaq üçün çoxlu suallar soruşmaq və suallara cavab vermək lazımdır. Müəllim tələb edir ki, tələbələr cütlər şəklində verilən mövzu haqqında bir-birinə suallar versinlər. Məsələn, fərz edək ki, mövzu yemək haqqındadır. Tələbələri bir-birindən sevimli yeməkləri, hazır satılan yeməklər, səhər yeməyi, restoran yeməkləri, evdə hazırlanan yeməklər, milli və xarici mətbəxtin yeməkləri haqqında suallar soruşmağa təşviq etmək lazımdır. Sonra tələbələr ehtiyac duyarlarsa, bir-birinin cavablarını kağızda qeyd edirlər və onlar qeyd etdikləri cavabları bütün sinfin eşitməsi və müzakirə etməsi üçün oxuyurlar. Bu tip kommunikativ fəaliyyətlər dərs prosesində kommunikasiyanın təşkilinə dəstək olur.

5. Gizli söz oyunu. Bu oyunda oyunçunun dörd sözdən ibarət bir kartı olur. Birinci söz gizli sözdür. Oyunçu başqa bir oyunçunun bu sözü tapması üçün gizli sözü dolayı yol ilə izah etməlidir. Dinləyən tələbə bu sözü tapana qədər izah edən tələbə sözü təsvir etməyə çalışır. Digər üç söz isə gizli olan sözü aydın şəkildə bildirən sözlərdir. Onların hamısı qadağan olunmuş sözlərdir və bu sözlər gizli sözü izah etmək üçün istifadə oluna bilməz. Çünki bu sözlərin mənası aydın olduğundan gizli sözü tapmaq asan olacaqdır. Ona görə də bu sözlər oyunda istifadə edilmir. Tələbələr bu oyunu iki qrup və ya cütlər şəklində oynaya bilərlər. Eyni zamanda bir

tələbə sözü izah edərkən başqa bir tələbə qadağan olunmuş sözlərdən istifadə edilməməsi üçün izah edən tələbənin kartına baxa bilər. Bu tip interaktiv oyunlar tələbələrin hədəf dildə cəld düşünmələrinə və danışmalarına dəstək olur.

6. Müzakirə və debat. Müəllimlər müzakirə və debat mövzusunu seçərkən tələbələrin maraqlarına və biliklərinə uyğun olan mövzu seçməlidirlər. Bu tip kommunikativ fəaliyyətlər xarici dil tədrisində əhəmiyyətli rola sahibdir. Çünki onlardan istifadə etmək kommunikasiyanın təşkili üçün çox vacibdir. Tələbələr həm onlara maraqlı olan mövzu haqqında danışaraq danışıq bacarıqlarını inkişaf etdirəcəklər həm də bir-birlərini dinləyərək bu mövzu haqqında yeni biliklər qazanacaqlar. Bu kommunikativ fəaliyyət növü qrup, cütlər şəklində və bütöv sinif müzakirəsi şəklində təşkil oluna bilər.

7. "Mən ... insanları xoşlayıram" oyunu. Tələbələr dairəvi şəkildə stullarda otururlar. Əgər oyunda 10 nəfər iştirak edirsə, 9 stul dairəvi şəkildə düzülməlidir. Müəllim oyunu başlatmaq üçün dairənin mərkəzində dayanır. Onlardan tələb olunur ki, müəllimin dediklərinə diqqətlə qulaq assınlar və müəllimin qurduğu cümlə hansı tələbələrə aiddirsə, onlar ayağa qalxmalıdırlar. Məsələn, Mən qəhvəyi gözlü insanları xoşlayıram. Bu zaman qəhvəyi gözlü olan tələbələr ayağa qalxmalıdırlar və oturmaq üçün başqa boş stul tapmalıdırlar. Onlar qalxdıqları zaman yer tapmadıqda öz stullarında oturmamalıdırlar. Həmin ayağa qalxan tələbələr digər tələbə yoldaşları ilə yerlərini dəyişdirməlidirlər. Bu zaman ayaqda bir tələbə qalacaq və həmin tələbədən tələb olunur ki, "mən ... insanları xoşlayıram" ifadəsi ilə yeni bir cümlə qursun. Bu oyunda əsas o deyil ki, tələbə həqiqətən də yalnızca xoşladığı tərzdə insanlar haqqında cümlə qursun. Tələbə digər tələbələrin stullarından qalxmaları üçün bir cümlə qurmalıdır. Ola bilər ki, cümlə quran tələbə qısa saçı sevmir amma bu tip cümlə qura bilər ki, mən qısa saçlı insanları xoşlayıram. Bu zaman qısa saçlı tələbələr ayağa qalxacaq və cümləni quran tələbə və digər ayaqda olan tələbələr tez oturmaq üçün boş yer axtaracaqlar. Ayaqda qalan tələbə isə yeni bir cümlə quracaq və oyun bu şəkildə davam edəcək. Bu oyunun sonu olmadığı üçün tələbələr bir müddət sonra sıxıla bilərlər. Bu zaman biz onları digər kommunikativ fəaliyyətlərə yönləndirməliyik. Xarici dil tədrisində danışıq bacarıqlarını inkişaf etdirən və hədəf dildə cəld düşünməyə təşviq edən bu tip interaktiv oyunlar həm uşaqlar həm də böyüklər üçün çox maraqlıdır.

8. Tələbənin öz maraqları ilə bağlı təqdimat hazırlaması. Hər kəsin zövq aldığı hobbiləri vardır. Müəllimlər xarici dilin tədrisi zamanı tələbələri bu hobbilərini tələbə yoldaşlarına təqdim etmək üçün hədəf dildən istifadə etməyə yönləndirməlidirlər. Onlar bu fəaliyyət növü ilə həm xarici dildən istifadə edərək danışıq bacarıqlarını inkişaf etdirirlər həm də hobbilərini tələbə yoldaşları ilə bölüşürlər. Müəllim bu fəaliyyət növünü tələbələrə ev tapşırığı kimi verir və onların edəcəkləri təqdimata hazırlaşmaları üçün kifayət qədər vaxtı olur. Müəllim tələbələrin bu fəaliyyət növünə hazırlaşmağı üçün bir neçə gün vaxt verir. Əgər sinifdəki tələbələrin sayı çoxdursa, müəllim tələbələri kiçik qruplar və ya cütlər şəklində qruplaşdıra bilər. Beləliklə

tələbələr hobbilərini təqdim etmək üçün kifayət qədər vaxta sahib olacaqlar. Müəllim tələbələrə çıxış etmələri üçün 10-15 dəqiqə vaxt təyin edir. Tələbələr bu hobbini niyə seçdiklərini, bu hobbi vasitəsilə öyrəndikləri bilikləri və bacarıqları və bu hobbinin tətbiq edilmə üsulunu tələbələrə izah edirlər. Müəllim təqdimat bitdikdən sonra dinləyiciləri təqdimatçıya suallar ünvanlamağa təşviq etməlidir. Kommunikasiyanın təşkili üçün tələbələrin maraqları əsasında tətbiq olunan kommunikativ fəaliyyətlər dərs prosesini maraqlı edir. [5]

9. Şəkli müəyyən etmək. Müəllim tələbələri cütlər şəklində qruplaşdırır. Tələbələrdən birinə 6 şəkil verir. Məsələn, bu bir evin qonaq otağı ola bilər. Şəkillər eyni qonaq otağına aiddir. Lakin onlar bir-birindən bir az fərqlənirlər. Məsələn, ola bilər ki, bir şəkildə radio stolun üzərində digər şəkildə isə stulun üzərindədir. Bir şəkildə stol sağda digər şəkildə soldadır. Bir şəkildə pərdə ağ digər şəkildə mavi rəngdədir. Digər tələbəyə isə bu 6 şəkildən birinin kopyasını verir və 6 şəkli olan tələbə digər tələbənin əlindəki şəkli müxtəlif suallar verərək tapmağa çalışır. Əgər öyrənənlər orta səviyyəli tələbələrdirsə, daha çətin şəkillər seçmək olar və ya 4 fərqli qonaq otağının şəkillərini tələbəyə vermək olar digər tələbədə isə yalnızca bir qonaq otağının şəkli olacaq. [4, 23] Xarici dilin tədrisi zamanı danışıq bacarıqlarını inkişaf etdirmək üçün sual sözlərini bilmək və onlardan düzgün şəkildə istifadə etmək çox vacibdir. Tədris prosesində kommunikasiyanın təşkili üçün müəllim tələbələrin sual sözlərini öyrənmələrini, istifadə etmələrini və suallara düzgün şəkildə cavab vermələrini təmin etmək məqsədi ilə bu tip kommunikativ fəaliyyətlərdən istifadə edir.

10. Sadəcə bir dəqiqə oyunu. Bu interaktiv oyun zamanı hər bir tələbə tərəddüt etmədən, dediyi sözü təkrarlamadan, danışdığı mövzudan yayınmadan və səhv etmədən 1 dəqiqə ərzində seçilən mövzu haqqında danışmalıdır. Əgər dinləyici olan tələbə danışan tələbənin nitqində bu qeyd edilənlərdən birini eşidərsə, nəzakətli bir şəkildə tələbənin nitqini dayandıraraq onun etdiyi səhvi düzəldir və bir xal qazanır. Əgər düzəlişi edən tələbə həmin mövzunu 1 dəqiqəni tamamlayana qədər danışarsa, bu zaman 2 xal qazanır. [2, 272] Bu oyun tələbələr üçün həm əyləncəli həm də öyrədici bir oyundur. Müəllimlər bu oyunu tələbələrin nitqlərindəki zəifliklərı aradan qaldırmaq üçün istifadə edirlər. Tələbələr müəyyən bir mövzu haqqında danışdıqları zaman tez-tez sözləri kəsildikdə və düzəlişlər edildikdə özlərini narahat hiss edirlər. Müəllimlər də həm tələbələrin nitqlərindəki çatışmazlıqları aradan qaldırmaq həm də onların narahat olmaması üçün bu tip interaktiv oyunlardan istifadə etməlidirlər. Xarici dilin tədrisi zamanı bu oyun vasitəsilə tələbələr həm danışıq bacarıqlarını inkişaf etdirəcəklər həm də əylənərək öyrənəcəklər.

Tədqiqatın nəticəsindən aydın olur ki, bütün bu kommunikativ fəaliyyətlərin istifadəsi xarici dil tədrisində danışıq bacarıqlarının inkişafına kömək edir. Tələbələr arasında kommunikasiyanın təşkili üçün müəllimlər müxtəlif interaktiv oyunlardan və kommunikativ tapşırıqlardan istifadə edirlər. Bu kommunikativ fəaliyyətlərin məqsədi tələbələrin hədəf dildə danışmalarını təmin etmək və tələbələrə danışmaq

üçün real səbəb verməkdir. Real səbəb dedikdə o nəzərdə tutulur ki, fəaliyyət növü süni deyil, təbii xarakter daşımalıdır. Bu fəaliyyətlərin çoxluğu həm tələbələrin diqqətini dərsə yönləndirir həm də dərs prosesini tələbələr üçün maraqlı edir. Yalnızca bir fəaliyyət növündən istifadə etmək tələbələr üçün darıxdırıcı ola bilər və tələbələrin diqqəti bir müddət sonra mövzudan yayına bilər. Ona görə də xarici dil tədrisində kommunikasiyanın təşkili üçün mümkün qədər bu kommunikativ fəaliyyətlərin sayını artırmaq lazımdır.

Ədəbiyyat siyahısı

1. Jack C. Richards and Theodore S. Rodgers, Approaches and Methods in Language Teaching, Cambridge University Press, 2014, 410 s
2. Jeremy Harmer, The Practice of English Language Teaching, Pearson Education ESL, 2001, 370 s
3. Penny Ur, A Course in Language Teaching, Cambridge University Press, 1996, 388 s
4. William Littlewood, Communicative Language Teaching, Cambridge University Press, 1981, 108 s
5. https://www.fluentu.com/blog/educator-english/esl-speaking-activities-for-adults/

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi filologiya üzrə fəlsəfə doktoru Səbinə İsgəndərova tərəfindən çapa tövsiyə olunmuşdur

САБИНА РАГИМОВА
Азербайджанский Университет Языков
Старший преподаватель
Тебриз 81
baau@mail.ru

РОЛЬ КОМПЬЮТЕРНЫХ ТЕХНОЛОГИЙ ПРИ ОБУЧЕНИИ РУССКОМУ ЯЗЫКУ В АЗЕРБАЙДЖАНСКИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

Резюме: Статья посвящена применению современных технологий в преподавании русского языка в учебных заведениях Азербайджана. Рассмотрена роль компьютерных технологий в изучении пройденного материала при обучении русскому языку. Отмечается, что информационные процессы в современном республиканском образовании основаны на умственном труде, а точнее, на культуре научного поиска, основанной на первоначальном и текущем знакомстве обучающихся с источником информации, использовании систем поиска информационных ресурсов, анализе, структурирование, обработка и обработка информации с учетом новейших технологий тесно связана с умением представлять.

В то же время интенсификация научных исследований влияет на рост информационного поля, что в свою очередь приводит к совершенствованию педагогических форм, способов и методов работы с информацией.

Ключевые слова: русский язык, методика, обучение языку, применение современных технологий, компьютерные средства, образовательные учреждения.

Обучение иностранным языкам является одним из основных задач, которые стоят перед педагогами русского языка. Русский язык сегодня изучается в средних и высших учебных заведениях Азербайджана. Основная задача современного образования – это развитие социально значимых поведений и характеристик обучаемых в процессе воспитания и обучения. Для решения этой задачи требуется построение учебного процесса, направленного на формирование личности учащихся с учетом их индивидуальных особенностей. Учащиеся и их познавательная и творческая деятельность имеют важное значение для учебного процесса. Нынешние занятия по русскому языку должны быть обучающими, воспитывающими, развивающими и интересными. В связи с этим использование современных технологий на занятиях в учебных заведениях – это востребованность сегодняшнего дня.

С исторической динамикой языка связаны изменения в обществе. Разно ориентированность значительных сдвигов в рамках русского языка характеризуется нынешнее время российской исторической парадигмы.

В нынешнее время в лингвистике проявляется существенный интерес к языковой картине мира. Впервые об этом писал В. Гумбольдт в своих работах [2]. Благодаря тезаурусному изучению лексики, в русской лингвистике начали разрабатывать вопросы, связанные с изучением данной проблемы. Языковая картина мира – это классический объект в языкознании, которая исследуется в работах многих авторов (Горбов, Маслова, Караулов и др.). Далее, изучение данной концепции дает обоснование считать ее верным положением в лингвистических разработках. На основе принципов, изложенных в лингвистических разработках вышеупомянутых авторов, можно прийти к заключению, что картина мира концептов намного широкая, чем языковая картина мира. Последняя представляет собой металингвистическое поле. Различные классификации языковых картин мира были выдвинуты в более поздних исследованиях. Появился большой интерес к анализу языковой картины мира. Все уровни языковой иерархии того или иного народа показывают языковую модель мира. В нынешнее время представляется возможным доказать два устоявшихся направления в исследовании данной концепции.

Следствие вышесказанного – изменение языково-речевого стиля носителей языка. Данные направления сегодняшних лексических процессов разносторонни, и поэтому они характеризуются различными словарными сдвигами. Несмотря на это, развитие антропологической концепции в современном языкознании научных исследований вызвал интерес к лексическим трансформациям, представляющим собой развитие в русской языковой картине мира. Это развитие является последствием соответствующих механизмов когнитивизма, которые демонстрируют трансформации в восприятии мира, системе представлений о мире, включенных в семантическую структуру языковых единиц. Данные концептуальные сдвиги, несомненно, характеризуются воздействием экстралингвистических причин, но тем не менее здесь нельзя отрицать роль психологических факторов, от которых зависят внешние механизмы языкового движения. В связи с ним в периоды активации когнитивные потенциалы языка выражают себя наиболее ярко и показывают развитие русской языковой картины мира, обучение русскому языку по новейшим стандартам, включая современные технологии.

Применение современных технологий в наших учебных заведениях очень важно и эффективно как предварительная база на пути к получению высшего (то есть вузовского) образования. Учащиеся словно погружаются в информационные потоки. Для детей и подростков это особенно значимо с познавательной точки зрения, так как они получают знания, а новейшие

технологии служат им подспорьем для лучшего запоминания и дальнейшего восприятия пройденного материала. Для педагогов они в первую очередь являются отражением процессов социального познания, что в концентрированном виде способствует изменению мировоззрения. Совместный же эффект для учащихся и педагогов, по нашему мнению, заключается в том, что применение современных технологий способствует развитию абстрактного мышления. Оно учит обучающихся и обучаемых группировке информации, включению ее в эмоциональное пространство текста, объединению образного мышления с логическими элементами и т.д., сопровождает его с формированием связей и накопленным знанием, что очень важно для педагогов как ретрансляторов этих знаний, а для учащихся – их правильного восприятия. Причём, очевидно, что это относится к методике преподавания всех языков.

«Использование новых информационных технологий в обучении позволяет рассматривать школьника как центральную фигуру образовательного процесса и ведет к изменению стиля взаимоотношений между его субъектами. При этом учитель перестает быть основным источником информации и занимает позицию человека, организующего самостоятельную деятельность учащихся и управляющего ею» [3].

Все компоненты современных ИКТ взаимно обогащают друг друга. Выделение компонентов технологии при отсутствии книжной, научной, лексической, интеллектуальной культуры, делает ненужной информационную культуру. Помимо этого, отсталость компонентов – нравственного, мировоззренческого, информационно-правового – при возможности технологических знаний рассматривает использование их в социально-деструктивном значении. Привлекает внимание использование большой возможностей данной техники для обычных компьютерных игр. Отсутствия необходимых компонентов информационных культур часто приводят к тому, что полученные знания элементарно утрачиваются.

Комплекс современных информационных культур ориентирует педагогов на воспитание у своих подопечных чувства гармонии с окружающим миром. Порою молодое поколение нуждается в изучении языков по мере роста интеллектуального уровня. Им нужно увеличивать работу с большим масштабом информации. Они соединяют теорию с практикой, расширяют, усложняют информационное поле. Ученики и студенты самостоятельно приходят к тому, чтобы рационализировать этот процесс, усовершенствовать его. В результате они достигают более высокого уровня культуры ИКТ. Следовательно, образовательные учреждения в нашей республике должны следовать тому, чтобы учащихся приобрели заданные уровни информационных культур при обучении иностранным языкам, в том числе русскому, всем своим выработанным комплексом методов.

Следует отметить, что в сфере процесса обучения понятие гуманизации представляет собой отказ от того мышления, что учитель – исполнитель социального заказа, который способствует формированию личности конкретного типа. С другой стороны, умение педагога всегда в сфере обучения, где происходит непрерывное становление и развитие. В этом процессе можно полагать личностную структуру через системный сдвиг, где все компоненты тесно связаны между собой и влияют на личность грядущего педагога. При этом принцип упорядоченности отношения рассматривает эти элементы в их совокупности, потому что отдельный элемент будет изолированным и не способен показать характеристики каждого компонента.

В связи с указанными есть необходимость разъяснения самого понятия информационной культуры учителей учебных заведений. Нам кажется, что это понятие надо выделить как системный компонент, который отражает культурологические особенности характера педагога. Его можно охарактеризовать как пирамиду, где в основе базируется понятие общей культуры индивида. Сюда можно отнести профессиональную педагогическую культуру самого педагога. Другими словами, определяемое понятие требует опоры на более крупные понятийные единицы. Попытаемся разобраться в этом вопросе глубже.

Неоспоримо, что информационная современная культура может быть рассмотрена как различные результаты предметов, которые включают в себя деятельности людей (техники, сооружения, искусства, электро-вычислительные машины, произведения науки, нормы морали и права). Впрочем, данная новейшая технология служит человеку, знания, навыки и умения, реализуемые в его деятельности, показывают интеллектуальный, нравственный и эстетический уровни развития личности, его мировоззрение, формы и способы общения.

Видные русские учёные (В.К. Милитарев, Е.П. Смирнов и И.М. Яглом) трансформируют второй обозначенный нами пункт в область преподавания русского языка в учебных заведениях. В частности, они указывают: «Культура поведения и речи учащихся … отражают культурные интересы и запросы современных детей, а также уровни их мышления. Следовательно, самый термин «культура», как и «информационная культура» используется не только для описания состояния общества, но и отношения человека к достоянию цивилизации. Они определяют способности учащихся, реализуемые в деятельности (знания, умения, навыки, уровни интеллекта, нравственного и эстетического развития, мировоззрения, способов и форм общения людей» [6, с.28-29].

Показательно, что ряд азербайджанских учёных полностью согласен с такой позицией. Например, З.И.Алиева подводит термины «культура» и «информационная культура» под уровни развития интеллекта учащихся, с

одной стороны, и пути формирования социальной активности – с другой. Они пишут: «Успех в деле активизации «информационной культуры» для учащихся школ, колледжей и училищ достигается в основном точным соблюдением нижеследующих условий: учётом особенностей подросткового возраста и предшествующего полезного опыта отношений учащихся непосредственно в учебной деятельности. Кроме того, эта культура также предполагает получение новых знаний и использование очень больших возможностей учебной деятельности. Наконец, важен учёт влияния других сфер жизнедеятельности коллектива колледжей, школ или училищ, их социальных связей, а также понимание каждым педагогом тех важных воспитательных мер, которые обеспечивают подготовку учащихся к выполнению социальных обязанностей» [1, с.203].

Попытаемся настоящий постулат обосновать. Педагогическая культура, с одной стороны, как выяснили, вытекает из «информационной». С другой – выполняет роль гуманистической культуры и основного качества индивида, который предполагает общую культуру профессии. Поэтому информационную культуру правильнее принять в отношении профессии педагога как одно из направлений педагогической культуры, как востребованность образования.

Однако терминологическое определение вышеприведённой нами цепочки (причина – следствие), как нам видится, само по себе, скорее всего, может оказаться явлением аморфным, если под него не подвести соответствующую базу. Мы имеем в виду тот факт, что преподавание педагогических дисциплин, методики преподавания языков в учебных заведениях республики всё равно останется на невысоком уровне, если учитель не сделал необходимых выводов из полученной информации. Ведь её в наш век так много, что волей-неволей приходится отбирать самое необходимое для передачи собственных знаний ученикам и жизнедеятельности в целом.

Чтобы избежать начётнического отношения к информационной культуре, учитель прежде всего должен относится к искомому понятию с особым вниманием к ряду взаимосвязанных между собою подсистем. А именно: качество преподавания зависит от глубоких научно-теоретических познаний, в свою очередь базирующихся на практически-деятельностном и одновременно с тем эмоционально-психологической подходами. Здесь особо оговорим фактор непосредственного определения информационной культуры в качестве одного из основных показателей профессиональной готовности учителей азербайджанских учебных заведений к преподаванию иностранных языков, в том числе русского.

«Как компьютер вошел в нашу жизнь, а мы уже не представляем себе современный урок без использования информационных технологий. ИКТ становится неотъемлемым помощником в повышении интереса учащихся к изучаемым проблемам и развивает наглядно-образное мышление» [4, с.64].

Итак, социальный опыт является одним из репрезентативных признаков, усвоение которых, во-первых, может обеспечить развитие личности, во-вторых, уточняет и дополняет само понятие «информационной культуры», в-третьих, расширяет знания педагогов и учащихся о мире, обществе, природе и технике.

Далее, социальный опыт как обобщение всех наиболее существенных черт информационной современной культуры, воплощается в умениях и навыках.

В свою очередь опыт творческой, поисковой деятельности, который, как нам удалось узнать, сегодня активно внедряется в учебных заведениях Азербайджана, подготавливает детей и подростков к решению новых проблем. Скажем больше того, опыт в реализации потребностей обуславливает особо бережное отношение к сохранению прежней системы эстетических ценностей личности.

Сегодня введение современных информационных технологий в образовательный процесс является обязательным элементом обучения в учебных заведениях [7, с.256].

Нынешний ученик уже в начале процесса обучения имеет базовый опыт пользователя компьютера. В связи с этим учителю необходимо интенсивно применять современные интерактивные технологии, развивать в нем умения использовать необходимые информационные системы. Несомненно, что работа с компьютерными технологиями во время урока неизбежно, так как значительно увеличивается качество обучения и формирующихся ЗУН.

Применение информационных технологий на уроках русского языка помогает педагогу не только изменить классические формы обучения, но и разрешить другие цели: повысить убедительность обучения, создать его разнообразие, помочь контроль знаний, повысить интерес к уроку. Есть еще другие значительные факторы, где необходимо употребление компьютерных средств, это нехватка учебных материалов. Помимо прочего с использованием информационных технологий, можно решить не только образовательные цели установки процесса обучения, направленного на достижение целей образования, и имеется в виду создание и использование учебной обстановки, проекции, и осуществление профессионального самообразования, которое становится актуальным для нашей республики. Задачи, которые стоят перед педагогом русского языка при применении компьютерных средств, предполагают работу с текстом. Учителю русского языка нужно создать атмосферу, где можно использовать надежные орфографические умения и навыки, обогатить словарный запас учеников, научить их владеть нормами грамматики и литературного языка, дать им знание лингвистических и литературоведческих терминов. Настоящим помощником для претворения этих задач в реальность являются компьютерные технологии.

Следовательно, можно утверждать, что обучение в учебных заведениях Азербайджана, выполняет роль трансфера уровня культуры молодому поколению, достигнутого обществом путём достижения, активное обучение предполагает превращение достижений культуры, отраженных в содержании образования, в достояние личности.

«Так как основной целью обучения иностранным языкам является формирование и развитие коммуникативной культуры учащихся, обучение практическому овладению иностранным языком, то применение компьютерных технологий и интернет-ресурсов является самым лучшим подходом в обучении» [4, с. 55-56]

Тем самым можно прийти к заключению, что информатизация образования в нашей республике на пороге третьего десятилетия XXI века – это такое масштабное явление, которое объединяет несколько понятий. Прежде всего, это часть общей культуры человечества. Затем, опираясь на опыт учителей предшествующих поколений, она отбирает всё самое лучшее, передовое, одновременно отсеивая негативное, наносное, отживающее. Наконец – и это, пожалуй, самое главное в русле исследуемой нами темы, – позволяет отделить собственно информатизацию от педагогической культуры. Последнее же, на наш взгляд, есть панацея повышения качества преподавания любых предметов в азербайджанских образовательных учреждениях, но в первую очередь, конечно, педагогических дисциплин.

Литература

1.Алиева З.И. Пути формирования социальной активности в учебной и общественно полезной деятельности // Тезисы докладов. Указ. соч. с. 202-203.

2.Гумбольдт В. фон. О различии строения человеческих языков и его влиянии на духовное развитие человечества // Избранные труды по языкознанию. М.: Прогресс, 1984

3.Давкаева Ф.М. Современные образовательные технологии на уроках русского языка и литературы // https://urok.1sept.ru/articles/646665

4.Карoматова З.Ф. Инновационные технологии в преподавании и изучении английского языка // Достижения науки и образования. Научно-методический журнал. № 4 (17), 2017, с.63-65

5.Матвеева Н.В. Применение компьютерных технологий при обучении иностранным языкам //Информатика и образование. М., 2006. № 6. С. 72-76

6.Милитарев В.К., Смирнов Е.П., Яглом И.М. Информатика и информационная культура \\ Советская педагогика, 2008, № 6, с. 28-31.

7.Селевко Г.К. Современные образовательные технологии: Учебное пособие. М.: Народное образование, 1998. 256.

APPLICATION OF MODERN TECHNOLOGIES IN TEACHING RUSSIAN IN AZERBAIJANI EDUCATIONAL INSTITUTIONS

Summary

The article is devoted to the application of modern technologies in teaching Russian in Azerbaijani educational institutions. The role of computer technologies in the study of the material studied in teaching the Russian language is considered. It is noted that information processes in modern republican education are closely related to intellectual work, more precisely, the culture of scientific research based on preliminary and current familiarization of students with the source of information, the ability to use search engines of information resources, analysis, structuring, processing and presentation of information taking into account the latest technology. At the same time, the intensification of scientific research affects the growth of the information field, which in turn causes the improvement of pedagogical forms, ways and methods of working with information.

Keywords: Russian language, methodology, language teaching, application of modern technologies, computer tools, educational institutions

AZƏRBAYCAN TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ RUS DİLİNİN TƏDRİSİNDƏ KOMPUTER TEXNOLOGIYALARININ ROLU

Xülasə

Məqalə Azərbaycan təhsil müəssisələrində rus dilinin tədrisində müasir texnologiyaların tətbiqinə həsr olunub. Rus dilinin tədrisində keçilən materialın öyrənilməsində kompüter texnologiyalarının rolu nəzərdən keçirilir. Qeyd olunur ki, müasir Respublika təhsilindəki informasiya prosesləri zehni əməklə, daha doğrusu, tələbələrin məlumat mənbəyi ilə ilkin və cari tanışlığına əsaslanan elmi tədqiqat mədəniyyəti ilə, informasiya resurslarının axtarış sistemlərindən istifadə etmək, ən son texnologiyaları nəzərə alaraq məlumatları təhlil etmək, strukturlaşdırmaq, emal etmək və təqdim etmək bacarığı ilə sıx bağlıdır. Eyni zamanda, elmi tədqiqatların intensivləşməsi informasiya sahəsinin böyüməsinə təsir göstərir ki, bu da öz növbəsində məlumatla işləmək üçün pedaqoji formaların, yolların və metodların təkmilləşdirilməsinə səbəb olur.

Açar sözlər: rus dili, metodika, dilin tədrisi, müasir texnologiyaların tətbiqi, kompüter vasitələri, təhsil müəssisələri

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi filologiya üzrə fəlsəfə doktoru, dosent Nərgiz Yusifxanova tərəfindən çapa tövsiyə olunmuşdur

ABIYEVA VALİDƏ
SƏFİXANOVA AFƏT
asəfixanova@gmail.com
Azərbaycan Tibb Universiteti

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ MÜASİR METODLARDAN İSTİFADƏ EDİLMƏSİ

Açar sözlər: Müasir metodlar, qrammatik qaydalar, innovasiya, leksika.

Təqdim edilən məqalədə xarici dillərin tədrisi zamanı şifahi nitqin tədqimatı və öyrənilməsinə həsr olunmuşdur. Şifahi nitqin gerçəkləşdirildiyi zaman ortaya çıxan problemlər, bu problemlərri yaradan faktorlardan bəhs edilən bu məqalədə xarici dillərin öyrənilməsi prosesinin iştirakçısı olan tələbə və müəllimlərin bu prosesdə uğur qazamnası üçün konkret təkliflər irəli sürülmüşdür. Məqalənin giriş, hissəsində mövzunun aktuallığı vurğulanmır və üzərində dayanmaq suallar öz plana çəkilmişdir. Bu məqalədə ingilis dili dərslərində innovative metodlar və texniki vasitələrdən istifadə əsas məqsəd kimi göstərilmişdir. Tələbələrlə kommumikativ prosesin inkişaf etdirilməsində əyani vasitələrdən istifadə özü də əsas yer tutur. Məqalədə mövzuya dair müxtəlif fikirlər araşdırılmış və mütəxəssislərdən sitatlar verilmişdir. Nəticə hissəsində müxtəlif konkret təkliflər irəli sürülmüşdür. Bu təkliflər tələbələr və müəllimlər qarşısında dayanan düzgün vəzifə bölgülərini özündə əks etdirməklə yanaşı məqalədə qoyulan sualların həlli yolarını da göstərir. İngilis dilinin tədrisində bir qayda olaraq yeni metod və üsullardan istifadə olunur. Müasir dövrdə dünyada ənənəvi üsullardan fərqli olaraq geniş yayılan tətbiq olunan metodlardan biri "kallan" metodudur. Kallan metodu ingilis metodudur. Bu metod ingilis dilini öyrədən təhsil sistemləri arasında daha çox seçilir. Bu metodla müəllim dinləmə və danışıq qabiliyyətlərini tələbələrdə aşılayır.

Xarici dillərin tədrisində intekaktiv təlim metodu. Avropada 1990-cı illərdən bəri bir metodiki iş üsulu kimi tətbiq edilməyə başlamışdır. Tədsrisin keyfiyyətini yüksəltmək məqsədilə Azərbaycan hökuməti ilə UNİCEF arasında əməkdaşlıq proqramının bir hissəsi kimi fəal və intekativ təlim metodlarının yeniləşməsi və genişləndirilməsi nəzərdə tutulmuşdur. Fəal interaktiv təlimin məqsədi təhsil sahəsində tətbiq edilən yeniliklərlə bağlı bütün səviyyələrdə çalışan təhsil işçilərinin bilik, bacarıq və vərdişlərinin təkmilləşdirilməsindın, fəal və səmərəli fəaliyyət göstərən təhsil müəssisələrinin yaradılmasından ibarətdir. Orta məktəv və ali məktəblərdə innovativ metodlardan istifadə ingilis dilinin müasir tələblərə uyğun səviyyədə keçirilməsinə kömək edir. Müsair təlim texnologiyası və prinsipləri təhsil alanlardan fəallıq, məntiqi, süşüncə, müstəqil tədqiqatlar aparma, biliklərə konkret yiyələnmə və fərdi inkişaf etmə bacarıqlarının formalaşdırılmasını tələb edir (1 səh.

3-4). Elmi texniki nikişafının vüsət aldığı dövrdə təlimdə texniki vasitələrinin tətbiqinə ciddi zəhmət və geniş imkan yaratmışdır. Təhsilin keyfiyyətinin yüksəltmək məqsədilə KİT-nin intensiv tətbiqinə əsaslanır, təhsildə mövcud vəziyyətin dəyişməsinə, onun yeniləşməsinə bütövlükdə təhsilin məzmun və forma etibarilə texnoloji baxımdan innovativ xarakter almasına xidmət edir. Pedaqoji texnologiya təlimə yeni baxışdır və məhz müasir tədris prosesi ənənəvi təlimdən fərqli olaraq, idarə olunan proses hesab olunur. İKT-nin tətbiqi hesabına təhsil kütləviləşir, fərdiləşir, fasiləsiz xarakter daşıyır. Müasir cəmiyyətdə tələbə lazımi məlumatı axtarmaq. Seçmək, təhlil etmək, yəeni informasiya yaratmaq, bu əsasda mövqe formalaşdırmaq, qərar qəbul etmək və qərarı həyata keçirtmək kimi səriştələrə sahib olur. Müasir təhsil prosesində hər bir müəllimin vəzifəsi təhsilalanlara öyrənməyi öyrətmək, onlara kömək etmək, bələdçi rolunda şıxış etmək, informasiya mənbələri ilə tələbə arasında vasitəçi funksiyasını yerinə yetirməkdir. Təlimin yeni təlim prosesi ilə aparılmasında müəllim təşəbbüskarlığı və fərdi nümunəviliyi, problemə yaradıcı yanaşması ən vacib şərtlərdən hesab edilir. Müəllim öz düşünəclərini təhsilalanların fikir və fəaliyyəti ilə birləşdirdikdə, başqa sözlə, düzgün ümumilləşdirmə apardıqda, tədrisi interaktiv səmtə istiqamətləndirdikdə təlimin texnoloji səmərəsi daha üstün olur. Yəni təlim prosesində sistem halında baxmaqla həm təhsilalanların idrakının formalaşmasına, fəaliyyət çevirməsinin genişlənməsinə, həm də müəllim novatorluğy məkan və zaman daxilində yeni keyfiyyətlərlə əlverişli yaradılmır olue (2 səh 17-20). Bu gün təlim innovativ metodların istifadəsi əsas yer tutmuşdur. Xarici dilin öyrənilməsi həm siyasıt, maddi və mənəvi ehtuyacın təcəssümüdür. Bu prosesin gerçəkləşdirilməsi üçün nə qədər çox vasitələr və eyni zamanda müxtəlif mühit kontekst mövcud olursa, olsun ən əsası düzgün təşkil edilmiş tədris prosesidir. Xarici dildə düzgün oxu qaydalarını lüğət, qrammatik material və s. xırda görünən səlis, cilalanmış irəvan dil danışıqlarlarını formaşlaşdırır. Müxtəlif kompüter proqramlarından istifadə fəal təlim prosesini zənginlə.dirən elementlərdən hesab edilir. İnnovasiya sistemindən istifadı müasir təhsildə beynəlxalq standartlara əsaslanmaq deməkdir. İngilis dili dərslərində elektron vasitələrdən etmək üçün ilk növbədə müəllimin komputer bilikləri olmalı və o, onlardan istifadəni bacaqmalıdır. Proqramlar içərisində Power Pointə üstünlük verilir. Məhz bu proqram vasitəsilə müəllim mövzuya uyğun müəyyən slaydlar hazırlayaraq vizual görüntü yarada və əyani vəsait kimi ondan istifadə edə bilər. Tələbələr eşitdiklərini vizual gördükləri zaman daha aydın və maqarlı olur. Power Point proqramı interaktiv üsulla keçirilən məşğələlərdə tələbə mövzuya tənqidi yanaşmanı və beyin hücumunu həyata keçirir. İngilis dili dərslərində müasir təlim texnologiyaıarının tətbiqində yanaşmalar aşağıdakı kimi göstərilir.

1) Komputer vasitəsilə sinxron və qeyri-sinxron ünsiyyət qurmaq;
2) Hipermətn tətbiqi proqramlar, elektron poçt, e-poçt ünvanları qlobal şəbəkə ilə tanış olmaq;

3) Peşəkar inkişafı təmin edən resuslardan peşəkar jurnallardan, nəşrlərdən və virtual kitabxanalardan istifadə etmək;
4) İngilis dilinin tədrisinə dair internet səhifələri ilə tanış olmaq;
5) Kooperativ və əməkdaşlıq şəraitində işləmək.

Bu mərhələlər tələbələrin biliklrərinin möhkəmləndirilməsinə kömək edir. Bu mərhələlər müəllimlərə də çox kömək edir (2 .32). Müasir təlimin müəllimdən əsas istəyi odur ki, onun təqdim etdiyi təlim metdoları və vasitələri dövrün tələblərilə uyğunlaşsın, daha doğrusu, demokratik olsun. Demokratik yanaşma zamanı tələbələr öz fikirlərini sərbəst bildirir, oxuduqlarını və eşitdiklərini yoldaşlarına bölüşdürməyə həvalə olsunlar, söhbətlərə tez qoşulurlar, qrup daxilində aparılan müzakirələrdə fəal iştirak edirlər. Dərs prosesi zamanı elə təlim metodlarından istifadə edilməlidir ki, tələbələr özlərində fəal yaradıcı dil öyrənməyə və ünsiyyət qabiliyyətlərini formalaşdıra bilsinlər. İnteraktiv təlim bu istəkləri əhatə etmək və yerinə yetirmək imkanına malikdir. İnteraktiv təlim metodlarının əsas məqsədi tələbələrdə öyrədici, məlumatlandırıcı, yaradıcı problemlərin həlli düşünməyə yönəltmə, dərketmə, təhlil etmə qabiliyyətlərini formalaşdırmaq və inkişaf etdirməkdir. Bu cür təlim canlı ünsiyyət prosesində interaktivliyi təmin edə bilir. Xarici dilə yiyələnmək üçün tələbəyə dili öyrənməyə maraq, müstəqil işləməyə həvəs və düzgün təhlil apara bilmək vərdişlərini aşılanmalıdır.

Tələbə xarici dilin müasir təlim texnologiyalarının vasitəsilə öyrənməyi, sərbəst yiyələnməyi, sərbəst şəkildə ünsiyyət modellərini düzgün mənimsəməli, biliklərin müstəqil əldə edilməsinə və özünün şəxsi kommunikativ bacarıqlarının inkişad etdirilməsinə səy göstərmişdir. Tələbələrin ünsiyyət prosesinə artan ehtiyaclarının ödənilməsi məqsədilə dil və nitq materiallarının məqsədyönlü şəkildə birləşdirmək əlaqələndirilməsi interaktiv fəaliyyətin asasını təşkil edir. Fəal dərslərdə şifahi nitq üzrə motivasiyanın yaradılmasının mümkün üsullarını şərti olaraq bir neçə qrupa bölmək olar. Yeni innovativ metodlar tələbələtdə dərsə daha çox maraq yaradaraq onlarda həvəs oyadır. Müəllimin tələbələrə müəyyən şəkil, fotoşəkil, əşya, sxem, bədii əsərdən parça, qrammatik struktur, müxtəlif söz birləşmələri və s. təqdim edə bilər. Təqdim edilən sualların xarakteri təxminən aşağıdakı kimi olur. Bu məsələ barədə nə deyə bilərsiniz? Bu şəkildə gördüklərimizə münasibətlərinizi bildirir və s. Tələbələrin təfəkkürünü inkişaf etdirmək üçün suallar müxtəlif olur. Təfəkkür prosesini aktuallaşdıran sualların xarakterinin müxtəliflik aşağıdakı kimi qeyd etmək olar. Haqqında deyilənlər doğrudurmu? Haqqında bildiyimiz məlumatlar doğrudurmu? və s. Qrammatik strukturların və ya cümlənin nitq də işlədilməsi əsas yerlərdən birini tutur. Burada tək cümlə ilə fikrin ifadəsi və ya bir neçə cümlə ilə fikrin ifadəsi qeyd oluna bilər (3 səh. 24-27). Müasir dövrdə həm universitetlərdə. Həm də orta məktəblərdə xarici dil dərslərində olan yenilkləri qənaətbəxş hesab etmək olar. Ağilli lövhələrdən istifadə edərək həm leksik, həm qrammatik materialların tələbələrə çatdırılması elmdə olan yenilik kimi qeyd oolunur. Yeni

məlumatların mövzuların əldə edilməsi üçün internetin tələbələrə çox böyük köməyi olmuşdur. Bu da tələbələrdə daha geniş məlumatların öyrənilməsinə zəmin yaradır.

Ümumiyyətlə, ingilis dilinin tədrisində bir neçə metodlardan istifadə olunur. English Teaching Metodology ingilis dili müəllimləri və dil təhsili sahəsində fəaliyyət göstərən təcrübə keçən müəllim üçün nəzərdə tutulmuş metodik vəsaitdir. Bu kitab dilin tədrisi metodikasının bütün aspektlərinin – dinləmə, danışıq, oxu, yazı, qrammatika, tələffüz, lüğət və öyrənmə strategiyalarının əsas xüsusiyyətlərindəən bəhs edir və eyni zamanda auditoriya daxilində qarşılıqlı əlaqələr, materialların hazırlanması və dilin tədrisində alternativ metodlardan istifadə edilməsi kimi məsələlərə toxunmuşdur. "English Teading Methodology" dərsliyində tədrisin yeni metodları göstərilmişdir. Yalnız ingilis dili deyil, bütün dərslərdə də interaktiv metodun tətbiqi vacib şərtlərdəndir. Lakin dil dərslərində bu daha və interaktiv metodlardan istifadə həmişə öndə olmalıdır. Həm də təkcə müəllim deyil tələbələr öz aralarında müzakirələr aparmalıdır. Kompyuter sahəsindən istifadə olunmalı, müxtəlif qısametrajlı filmlərə baxmalı, xarici dildə musiqilər dinlənməlidir. Bu interaktiv metodlar yəni ingilis dilində mövzu filmlərinə üstünlük verirlər. İnkişaf etmiş ölkələrin təhsil təcrübəsi göstərir ki, müasir insan yetişdirmənin ən doğru yolu, tələbəni sinifdə təlimin obyekti kimi yox, subyektiv kimi qəbul edən tələbəyönümlü interaktiv təlim metodlarından istifadə etməkdir. Artıq Avropa təhsilində əsas metod kimi interaktiv metod tətbiq edilir. Bu metod da mövzunun müzakirəsi ilə yanaşı, tələbələr arasında da müzakirə olur. Müəllim yeni dərslərin izahında mətnlərin tələbələrə çatdırılmasında mütləq interaktiv metoddan istifadə edir. Həmçinin interaktiv metodlardan istifadə edən hər bir müəllimin ilk öncə özünün kompyuter bilikləri olmalıdır (4 səh.10-13). Xarici dillərin öyrədilməsində əsas məqsəd kimi, o, dilin effektivliyinin artırılması müasir tədris sisteminin qarşısında durdu. Əsas vəzifələri dəqiqləşdirməkdir. Xarici dilin vəzifələri dəqiqləşdirməkdir. Xarici dilin öyrənilməsinin intensivləşdirilməsi müasir tədris metodologiyasının və texnoloji avadanlıqların, kompyuter, audio-video texnikasının, elektron vəsaitlərin müntəzəm istifadəsini tələb edir. Metodik ədəbiyyatların analizi də göstərir ki, ənənəvi birtərəfli tədris metodologiyası ilə əvəzlənməlidir. Ənənəvi metoddan müəllim öz işini izah etmək, tapşırıq vermək və yoxlamaq üzərində qurur, tələbə-müəllim ünsiyyəti yaradır, tələbə isə, əsas funksional fiqura çevrilərək bacarığını ifadə etmək imkanını qazanır. Bu zaman tələbə dil baryerlərini daha rahat aşır. Dərs vəsaiti olaraq audio-video texnikasından istifadə danışaraq göstərə bilmək tələbələri dərsə daha həvəs və maraqla yanaşmağa sövq edir. Bu da bir həqiqədir ki, tələbə həvəsi olmadığı işi görmək istəmir və ya onu "qavraya bilmirəm" deyərək yalnış fikirlərlə dərsdən uzaqlaşır. Yeni metodların daxilində interaktiv metodlarla yanaşı qarşılıqlı sual cavab və testlərdən istifadə olunmalıdır. Müasir tədris metodu yeni dərslərin müəllim tərəfindən xarici dildə tanış sözlərlə, keçilmiş dil formulları, qrammatik konstruksiyalar, mimika və jestlərlə yanaşı, digər vizual təqdimat vasitələri ilə aparılmasını tələb edir. Həmçinin kommunikativ metod da bu yeni metodlara daxil

olunur. Artıq orta məktəblərdən başlayaraq bütün orta-ixtisas və ali məktəblərdə innovativ metodlardan istifadə olunur. Bəzi məktəblərdə və universitetlərdə ağıllı lövhələrdən, kompyuterdən istifadə olunur. Nəticədə, müxtəlif fikirlərin bir məsələdə eynilik təşkil etməsi qənaətə gəlirik ki, keçilən hər bir dərs prosesi kommunikativ xarakter daşınmalıdır. Yeni təlim texnologiyalaranın imkanlarından maksimum istifadə edilməlidir.

Safixanova A.H.
Abıyeva V.G.

SUMMARY
THE USAGE OF MODERN METHODS IN TEACHING ENGLISH.

Key words: modern methods, lexis, grammar rules, innovation.

This article deals with the new methods in teaching English. This application of this approach begins by determining the one, global objective that individual or group of students. Innovation methods help us to increase the students knowledge. For the new method to work, teachers must understand their students needs and expectation in order to design lessons that help their students succeed. Qrammar, vocabulary and language skills are just the vehides that enable students to aduiteve their fircal autcomes. Educators must look at way to help their personal professional goals. The answers to these questions will help create a programme that`s relevant to students. Smartphones provide many useful tools for students such as dictionary translator and grammar reference apps. People can frequently distinguish the finest language educators. Techniques involve reading subject-specific texts, listening to subject based audio. The article is dedicated to the teaching and presenting new methods to language. Different points of view and quotations given from researcheirs are pointed out in the article. Suggestions given by the author reflects the clear relationslup between teaching and students.

Сафиханова А
Абыева В.

РЕЗЮМЕ
ИСПОЛЬЗОВАНИЕ СОВРЕМЕННЫХ МЕТОДОВ В ОБУЧЕНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

Ключевые слова: методика, обучение, интерактивное обучение, модернизация, инновация.

В этой статье речь идет об использовании новых методов на уроках английского языка. Эти методы играют важную роль в уровне развития учащихся. Метод создания ситуации новизны учебного материала очень помогает студентам. Основой современной методики преподавания иностранных языков исследует М.А.Адамко. Она раскрывает цели, задачи,

принципы, содержание, формы и методы обучения студентов. Обучение английскому языку – это сложный, многогранный процесс, который требует регулярной и творческой деятельности. Современная коммуникативная методика предлагает широкое внедрение в учебный процесс. На оптимизацию учебного процесса влияют комфортное физиологические существование, аппаратура и другие. В обучение английского языка и методике по разному-определяются новые материалы. В этой статье освещаются актуальные проблемы модернизации и повышения качества обучения английского языка. Реализация этой идеи невозможна без разработки и внедрения соответствующих технологий обучения. Высшая школа должна быть не подготовкой к жизни, высшая школа должна быть жизнью. Достичь этого можно за счет инновационной среды. В работе рассматриваются особенности применения интерактивных методов обучения на занятиях по английскому языку. В данной статье рассказывается об использовании новых материалов и технических средств.

ƏDƏBİYYAT

1. Brown G., G.Jule. Teaching the spiken language. Cambrige university Press, 1983.
2. Homby A.S. Oxford Advnced Learners dictionary of English. Britain, 2002.
3. Linghtbown P.M. and Spada “How languages are learned”. Oxford University, 1993.
4. Hümmətova K. “Linqvistik təhlilin elmi” metodiki əsasları. Bakı, 2017.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi prof. Məmmədova Z.Ş.
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜNEL YUSİFLİ-MƏMMƏDBƏYLİ
Odlar Yurdu Universiteti
Bakı, Nərimanov r-nu,
Koroğlu Rəhimov küç, 13 AZ1072
gunel.yusifli.94@gmail.com

XARİCİ DİL TƏDRİSİNİN AKTUAL PROBLEMLƏRİ

Açar sözlər: elm və mədəniyyət, xarici dilin tədrisi,fərdi proses
Ключевые слова: наука и культура, преподавание иностранных языков, индивидуальный процесс
Key words: science and culture,teaching of foreign language,individual process

Elm və mədəniyyətdə baş verən yeniliklər və nailiyyətlərdən xəbərdar olmaq, eləcə də, xalqlar arasında ünsiyyət və əlaqə yaratmağın ən mühüm vasitələrindən biri də məhz xarici dil öyrənilməsi və araşdırılmasıdır. Buna daha tez çatmaq üçün isə geniş miqyasda araşdırmalar aparılmışdır. Qarşıda dayanan ən vacib məsələ isə dili öyrənməyin və öyrətməyin ən asan üsulunu müəyyən etməkdir. Yeni yaradılmış hər bir öyrənmə vasitəsi, öyrətmə üsulu və yaxud da metodikası bu məsələni daha da aydınlaşdırır, ən optimal variantı seçməyə kömək etməklə məqsədə dorğu atılan addımları bir pillə daha irəliyə aparır.

Lakin onu da nəzərə almaq lazımdır ki, dilin tədrisi zamanı hər hansısa üsulu, öyrətmə metodikasını, öyrənmə vasitəsini üstün tutub onu ən optimal, ən effektiv variant kimi qələmə versək, yanılmış olarıq. Çünki dil tədrisi özü individual prosesdir. Ona görə də dil tədrisi ona fərdi şəkildə yanaşmağı, mövcud olan aktiv problemləri daha ətraflı şəkildə öyrənməyi tələb edir. Tədrisi bir sistem kimi nəzərə alsaq, ilk öncə öyrnən və öyrədən şəxsi təsəvvür etməliyik. Təbii olaraq, hər kəsin məqsədindən asılı olaraq tədris üsulu başqa sözlə desək, "hərəkət trayektoriyası" da dəyişmiş olur. Yəni, ilk öncə bu dili biz hansı məqsədlə öyrənirik, bu dili mənimsəmək bizə hansı nailiyyətlər bəxş edəcək, şəxsi inkişafımıza necə təsir edəcək kimi suallarına cavab tapmalıyıq ki, nə istədiyimizi də daha rahat şəkildə aydınlaşdıraq. Bunu aydınlaşdırmaq üçün ən bariz nümunə kimi isə ingilis dilini göstərə bilərik. Misal olaraq deyə bilərik ki, hazırki dövrdə ingilis dilinin tədrisinin müxtəlif məqsədləri mövcuddur: nümunə olaraq Ümuni ingilis dili (General English), Biznes üçün- (Business English), Akademik ingilis dili (Academc English) və digərlərini göstərmək olar. Bir sözlə bizim qarşımızdakı məqsəddən asılı olaraq bizə nələrin lazım olacağı da dəyişir. Lakin bu yolda hədəfimizdən, potensialımızdan irəli gələrək qarşımıza çıxan çətinliklərin qaçınılmaz olduğunu vurğulamaq lazımdır.

Baxmayaraq ki, elmi nailiyətlər günü gündən artmaqda davam edir, texnika sürətlə inkişaf edir, lakin yenə də dil tədrisindəki qarşıya çıxan maneələrin mövcudluğu qalmaqda da davam edir. Ortaya belə bir sual çıxır ki, bəs bu problemlər nələrdən ibarətdir yaxud da, hansı probemlər qaçınılmazdır? Bir sözlə bizi nə kimi problemlər gözləyir?

Yuxarıda dilin tədrisinin ona fərdi şəkildə yanaşmaq tələbindən artıq danışılmışdır. Lakin bununla belə, ingilis dilini II dil kimi tədris edən bir çox ölkələrdə dil öyrənənlər müəyyən çətinliklərlə rastlaşır.

Xarici dil öyrənən hər hansısa bir şəxsin üzləşdiyi ən başlıca problem motivasiyadır. Bəs motivasiya deyilən bu şey nədir? Onun dil tədrsində rolu nədən ibarətdir? Brussard and Garrisonanın (2004) fikirlərinə görə motivasiya dedikdə bizi müəyyən məqsədimizi reallaşdırmağa sövq edən xüsiyyət nəzərdə tutulur. Onlar həm də motivasiyanı insanın arzu və istəklərinin altında yatan bir səbəb kimi görürdülər.

Bəzi mütəxəssislər motivasiyanın iki növünün olduğunu qeyd edirlər. Belə ki, ilk motivasiya insanda əsas olan gerçək yəni intrinsic motivasiya, ikincisi isə insanda sonradan qazanılmış, əldə edilmiş yəni extrinsic motivasiya olmaqla adlandırırlar. Onlar hesab edirlər ki, əsas motivasiya dedikdə bu insanın öz maraq və istəklərini reallaşdırmağa təşviq edir. Digər motivsiya isə bizə olunan kənar müdaxilələr nəticəsində yaranır. Dil öyrənərkən insanın müəyyən hədəfə, məqsədə çatmaq istəyi onda motivsiya gücünün yaranmasına gətirib çıxarır.

Şagirdlərdə bu motivasiya mexanizmini yaradan ən başlıca amil müəllimlərdir. Müəllimlərin dərs zamanı göstərdiyi hətta ən kiçik nüans belə şagirdlərdə motivasiya yarada bilər. Bu isə heç də deyildiyi qədər asan məsələ deyil, çünki, müəllim hansısa şagirddə motivasiya yaratmaq üçün ilk öncə onu daha yaxından tanıyıb, xarakterinə, düşüncələrinə eləcə də, maraq dairəsinə daha yaxından bələd olmalıdır. Motivasiyanı hətta tədrisin ilk mərhələsi kimi də qiymətləndirmək olar, belə ki, tədris hansı səviyyədə ruh yüksəlişi, motivasya ilə başlanarsa, sonda əldə olunmuş nəticəmiz də həmin səviyyədə olar. Motivasiyaya təsir göstərən bəzi amillər vardır ki, onları aşağıdakı kimi qruplaşdırmaq olar:

a) Xarici dili öyrənməkdə hədəfimiz nədir? (yüksək maaşlı iş tapmaq, dərslərimizdə müvəfəqiyyətli olmaq, səyahət etmək və digərləri) ;
b) Öyrənəcəyimiz dilin mədəniyyətinə baxışımız;
c) Öyrəndiyimizin dilin bizə bəxş edəcəyi nailiyyətlər;
d) Ətrafdan bizə verilən mənəvi dəstək;
e) Dil tədrisinə bizim marağımız və s.

Məhşur tədqiqatçı Z.Dörnyey və K.Çsizer motivasiya barəsində tədqiqat işləri aparmış və o bu sahədə 10 əsas faktoru göstərmişdir:

1) Dili öyrədən şəxs yəni müəllim;
2) Dərs prsesində audiotoriyada yaranan atmosfer;
3) Dilin daha yaxşı mənimsənilməsi üçün edilən tapşırıqlar;
4) Müəllimənin dərs prosesinə olan münasibəti;

5) Bu dili öyrənəcəyimizə bizdə olan əminlik səviyyəsi;
6) Tədrisə olan marağımız;
7) Müstəqilliyimiz;
8) Dilə olan uyğunluğumuz;
9) Dili öyrənməkdə olan məqsəd və hədəflərimiz;
10) Dil mədəniyyəti

Dil öyrənmək istəyənlərin bir çoxunun rast gəldiyi digər problem isə birinci dillə bağlı yaranan çətinliklərdir. Bu çətinliklərə dilin qrammatik qaydaları, fonetik quruluşu, lüğəvi tərkibi aid etmək olar. Belə hesab olunur ki, öyrəndiyimiz hər hansısa bir xarici dil, onu hansı səviyyədə bilməyimizdən asılı olmadan hər zaman ana dilimiz aktiv vəziyyətdə qalır. Bizdən asılı olmadan beynimizdə gedən istənilən proses öz ana dilimizin aktivləşməsinə təkan verici təsir göstərir. Hətta tədris müddəti ərzində müəllimələr doğma dillərindən auditoriyada maksimum dərəcədə az istifadə etsələr də, şagirdlər dillər arasındakı əlaqəni zehnində saxlamaqda davam edir. Bu ondan irəli gəlir ki, xarici dil öyrənməyin ilk mərhələsi məhz dil öyrənən şəxsin bu dillər arasındakı fərqi təhlil etməsi, bənzətmələr aparması ilə bağlıdır.

Belə bənzətmələrin aparıldığı ən birinci sahə isə qrammatikadır. Lakin onuda nəzərə almaq lazımdır ki, əksər dillər bir birindən fərqli qrammatik quruluşa malikdir. Misal olaraq Azərbaycan və ingilis dillərindəki fərqə baxsaq görərik ki, istər cümlə quruluşu olsun, istərsə də morfoloji cəhətdən şəkilçilər bölməsi olsun hər iki dildə bu sahələr bir – birindən əsaslı şəkildə fərqlənir. Əlbəttə ki, belə fərqli məqamların artması dilin tədrisi prosesini də mürəkkəbləşdirir.

Dilin tədrisində şagirdlərin çaşqınlığına səbəb olan məqamlardan biri də sözün hərf və səs tərkibinin hər dildə müxtəlif olmasıdır. Daha aydın şəkildə desək, fərqli artikulasiya və tələffüz qaydaları, xüsusilədə müxtəlif səsləri ifadə edən eyni hərflərin olması kimi məqamlar şagirdlərdə müəyyən çətinliklər yaradır. Buna səbəb olan əsas amil isə şagirdlərin öz doğma dillərinin təsiri altında olmasıdır.

Dillər arasındakı fərqlərdən ən normal hal kimi qarşılanan isə onların lüğət tərkibindəki müxtəliflikdir. Ona görə ki, hər bir dil müəyyən söz ehtiyatına, bazasına malikdir. Biz bu dilə yiyələnmək üçün isə həmin söz ehtiyatına kifayət qədər bələd olmalıyıq. Bununla belə müqayisələrə baxsaq ana dilin lüğət tərkibinə də olan təsirini aydın şəkildə görmüş olşarıq. Aşağıdakı müqayisə nümunəsinə diqqət yetirək:

mağaza – magazine

artist - artist

Yuxarıdakı sözlər hər biri həm tələffüz forması, həm də yazılış qaydasına görə bir- birinə çox yaxın olub Azərbaycan və ingilis dilində aktiv istifadə olunan sözlər sırasındadır. Lakin bu yaxınlığı onların leksik mənalarına heç də aid etmək olmaz. Belə ki, mağaza sözü dilimizdə dükan daha dəqiq desək, hər hansısa növ məhsulun satıldığı yer mənasını bildirir. İngilis dilində isə, bu sözün leksik mənası jurnal deməkdir. Artist sözünə gəldikdə isə, bu söz dilimizdə incəsənətdə peşə anlamını daşımasına baxmayaraq, ingilis dilində rəssam mənasını ifadə edir. Bu kimi fərqli

məqamların mövcudluğu ingilis dilində false friends yəni yalançı dostlar olaraq adlandırılır. Həmin fərqli məqamlar isə dil öyrənənlərin qarşısına çıxan çətinliklər sırasındadır.

Rastlaşdığımız ən əsas problemlərdən biri də, tərcümə zamanı yaranan probledir. Belə ki, beynimizdə gedən proseslərə görə, bizdən asılı olmadan tərcümə zaman ilk olaraq öz ana dilimizə istinad edirik. Və buda aydındır ki, etdiyimiz tərcümənin doğruluğuna xələl gətirir, səhvlərə yol açır. Məsələn tərcümə zamanı magazine sözünü jurnal əvəzinə dilimizdəki sözə bənzədib mağaza kimi tərcümə etsək kobud səhv etmiş olarıq. Lakin bu heç də, qarşısı alınmayacaq problem deyildir, əlbəttə ki, bunun üçün müəyyən dərəcədə təcrübə lazımdır.

Lakin etdiyimiz bu kimi səhvlər bəzən xarici dilə olan marağımızı azaldar, bizi mənəvi cəhətdən ruh düşkünlüyünə gətirir çıxaraq, bir sözlə tədris prosesinə mənfi təsir bağışlayar. Bu da öz növbəsində tədris prosesinin gedişatının zəifləməsinə, hətta dayanmasına gətirib çıxardar. Lakin unutmamalıyıq ki, səhvlərimiz tədrisin bir hissəsidir, burada əsas olan həmin səhvlərdən dərs çıxartmaqdır.

Ətrafdakı insanların verdiyi reaksiyalar isə şagirdlərdə səhv etməkdən qorxmağa səbəb olan əsas amildir. Məhz bunun nəticəsidir ki, şagird tədris zamanı səhv etməkdən qorxur və düz bildiyi cavabı belə deməyə çəkinir yaxud heç demir, nəticədə dərs prosesində passiv iştirak etmiş olur. Səhvlərini özündə bir sədd, maneə kimi görür və bu maneəni keçməyə heç cəhd də göstərmir. Lakin bu səhvləri düzəltmək müəllimin vəzifəsi olduğunu nəzəra alsaq deyə bilərik ki, şagirdləri bu səddi aşmağa təşviq edən yalnız və yalnız müəllimin özüdür. Ona görə də müəllim tədris zamanı hər bir şagirdə bu səddi açmağın yollarını öyrətməlidir.

Xarici dilin ən aktual problemlərindən biri də elə məhz səhvlərin düzəldilməsidir. Bir müəllim kimi, bu səhvlərin təkrarlanmasına yol verməmək üçün ən uyğun, optimal metoddan istifadə etmək lazımdır. İlk olaraq ən vacib məqam odur ki, bu səhvərin mahiyyəti şagirdlərə izah olunsun. İkinci addım isə bu səhv necə və hansı üsulun köməyi ilə düzəltməyimizdir. Şagirdər arasındakı müxtəlifliyə də nəzər salsaq görərik ki, bəziləri səhvlərinin həmin an düzəldilməsini istəyir və ondan nəticə çıxarmağa çalışır. Digərləri üçün isə bu səhvlər qəbulolunmazdır. Buna görə də, səhvlərin düzəldilməsi fərdilik xarakteri daşıyan mərhələdir.

Dil tədrisinin digər mühim problemi isə dərs vəsaitləri, istinad mənbələri, verilən tapşırıqlarla bağlıdır. Başqa sözlə desək, elmiliyin qorunması şərti altında, dilin tədrisi nə dərəcədə başa düşülən, asan və ən mühimi dil öyrənən şəxslərin yaşlarına, şəxsi maraqlarına, hədəflərinə uyğun olsa, dilə yiyələnmək də bir o qədər müvəffəqiyyətli olar. Dil tədrisində çətin olan dərs materialları və tapşırıqları seçimi dil öyrənən şəxslərdə ruh düşkünlüyünə gətirib çıxardan faktor kimi çıxış edir. Bu da tədrisin daha uzun müddət davam etməsinə gətirib çıxardır. Üstəlik motivasiyası düşmüş bir şagirddə bu motivasiyanı bərpa etmək də, əvvəlkinə nisbtən çətinləşir.

Xarici dilin ən əsas problemlərini sadalayarkən, metodikanı da gözdən qaçırmamaq lazımdır. Təlim dedikdə fikrimizdə canlanan ilk şey müəllim-şagird

münasibətidir. Buna paralel olaraq isə təlim dedikdə onu təşkil etmək üçün zəruri olan metodika nəzərdə tutulur. Bu nüansda həm müəllimin, həm də şagirdin əməkdaşlığı vacib olduğu qədər, müəllimin üzərinə düşən öhdəlik də əsas şərtdir. Çünki, seçilmiş olan metodika hər şeydən öncə şagirdin yaşına, maraqlarına, məqsəd və hədəflərinə, dil təcrübəsinə uyğun olmalıdır.

Son olaraq onu qeyd etmək istərdim ki, xarici dildə olan problemləri yuxarıda sadalananlarla yekunlaşdırmaq olmaz. Lakin onu da vurğulamaq lazım dır ki, bu istiqamətdə bir çox tədqiqat işləri aparılır və problemlərin aradan qaldırılması üçün mümkün olan bütün əhəmiyyətli tədbirlər həyata keçirilir.

İstifadə edilmiş ədəbiyyat:

1.Ağayev Ə. Yeni təlimin metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri. // ARTPİ-nin elmi əsərləri //, Bakı, 2006, s. 132.
2. A.Mehrabov. Təhsilin demokratikləşməsi: problemlər, vəzifələr. //Təhsil, mədəniyyət və incəsənət, Bakı, №4, 2001
3.Bakalavr pilləsi üçün "Xarici dillərin tədrisi metodikası" fənni üzrə proqram, Bakı, 2003.s22-29
4.British Council, Innovations in learning technologies for English language teaching. British Council 2013, 43p.
5. Druzhinin VI, Krivolapova NA. Organization of innovative activity in educational institution. Kurgan: IPKiPRO of Kurgan region, 2008.
6. Eaton, S. E. Global trends in language learning in the twenty-first century. Calgary, Canada: Onate Press, 2010.

Yusifli-Məmmədbəyli Günel

Xarici dil tədrisinin aktual problemləri

XÜLASƏ

Azərbaycan Respublikasının ali və ümumtəhsil məktəblərində xarici dilin tədrisində yeni metodlarin tətbiqi mövzumuzun nəticəsi olaraq bir daha qeyd edək ki, interaktiv termini "qarşılıqlı fəaliyyətə əsaslanan" deməkdir. Lakin qarşılıqlı fəaliyyət istənilən tədris metodunun istifadəsi zamanı az və ya çox dərəcədə mövcud olur. Xarici dilin öyrənilməsində interaktivlik dedikdə sadəcə obyektlərin qarşılıqlı təsir prosesi deyil, təhsilalanların tədqiqat xarakteri daşıyan xüsusi təşkil olunmuş idrak fəaliyyəti də başa düşülməlidir.

İnteraktiv metodlara xarici dilin tədrisində elə metodları aid edilir ki, onlar öyrənənin dərs materialı (mənbələr, sənədlər, xəritələr, illüstrasiyalar, tədqiqatçıların ziddiyətli fikirləri) ilə, eləcə də, ətraf aləmin reallıqları və təzahürləri ilə (rollu oyunların, müxtəlif hüquqi və münaqişəli vəziyyətlərin müzakirəsinin, layihələrin tərtibinin, müsahibələr aparılmasının və s. köməyi ilə) sərbəst iş prosesini təmsil edir, nəticədə onlara əsasən təhsil alanlarla yeni biliklər yaranır.

Beləliklə, interaktiv təlim metodları, tədris edənin iştirakı ilə öyrənənlər digər informasiya mənbələri (kitab, xəritə, illüstrasiya və s.) və ya bir-biri ilə qarşılıqlı fəaliyyət prosesində yeni biliklər əldə etməyə imkan verən təlim üsullarının və dərs formalarının məcmusudur.

YUSIFLI-MAMMADBAYLI GUNEL

SUMMARY

ACTUAL PROBLEMS OF FOREIGN LANGUAGE TEACHING

In the study of a foreign language, interactivity should be understood not only as a process of interaction of objects, but as a specially organized cognitive activity of students of a research nature. So, one of the important elements - interaction exists to a greater or lesser degree during the use of any teaching method. Foreign language teaching is now taught in an environment where technology is widely present, according to modern rules. Now the student is not only able to read and learn information, but can also see it visually and even listen to it. Such a learning process not only teaches a language to the student, but also allows him to create a certain idea about the speakers of this language. The changes brought by the new teaching method, of course, are not limited to this. It also imposes a different task on the participants of the process. So, the teacher does not only provide information, he also performs the function of facilitator.

The student independently analyzes, investigates, makes judgments and draws conclusions. The mutual exchange of information makes the foreign language teaching process more effective and leads to development. Finally, we come to the conclusion that one of the most important problems during foreign language teaching is motivation. According to Brussard and Garrison (2004), motivation is an underlying reason behind a person's desires and wishes. Another problem faced by many people who want to learn a language is the difficulty between native language and foreign language. The grammatical rules of the language, the phonetic structure, the lexical composition, and etc. can be attributed to these difficulties.

ЮСИФЛИ-МАМЕДБЕЙЛИ ГЮНЕЛЬ

РЕЗЮМЕ

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ

При изучении иностранного языка под интерактивностью следует понимать не только процесс взаимодействия предметов, но и специально организованную познавательную деятельность исследовательского характера у учащихся. Таким образом, взаимодействие, являющееся одним из важных элементов, в большей или меньшей степени существует при использовании любого метода

обучения. Преподавание иностранного языка в настоящее время ведется в среде, где широко распространены технологии, в соответствии с современными правилами. Теперь ученик может не только читать и усваивать информацию, но и видеть ее визуально и даже слушать. Такой процесс обучения не только обучает языку учащегося, но и позволяет ему составить определенное представление о носителях этого языка. Конечно, изменения, вносимые новой методикой обучения этим не ограничиваются. Это также накладывает иную задачу на участников процесса. Итак, преподаватель не только предоставляет информацию, но и выполняет функцию фасилитатора. Студент самостоятельно анализирует, исследует, выносит суждения и делает выводы. Взаимный обмен информацией делает процесс обучения иностранному языку более эффективным и ведет к развитию. В итоге мы приходим к выводу, что одной из важнейших проблем при обучении иностранному языку является мотивация. Согласно Брюссарду и Гаррисону (2004), мотивация является основной причиной желаний человека. Еще одна проблема, с которой сталкиваются многие люди, желающие выучить язык, — это трудности, возникающие между родным и иностранным языком. К таким трудностям можно отнести грамматические правила языка, фонетическую структуру, лексический состав и т. д.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi dosent Ulviyyə Nəsirova
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏDƏBİYYATŞÜNASLIQ

BİLAL HÜSEYNAĞA oğlu HÜSEYNOV,
Filologiya üzrə fəlsəfə doktoru,
ADPU Cəlilabad Filialının müəllimi,
Naxçıvan Dövlət Universitetinin
elmlər doktorluğu üzrə dissertantı
bilalalarli58@mail.ru

BORÇALI FOLKLORUNUN JANR ÖZƏLLİKLƏRİ

Xülasə

Məqalədə qədim Borçalı diyarının zəngin folklor nümunələrindən söhbət açılır. Borçalı folklorunun janr imkanları öyrənilir, janrdaxili dəyişmələri araşdırılır. Aşıq ədəbiyyatının, dastan janrının dinamikasında *deyişmə, görüş, səfər, rəvayət, söyləmə, bəzəmə, hekayət, əhvalat* kimi folklor örnəklərinin rolu tədqiq olunur.

Həmçinin lirik və epik folklor janrlarının janrdaxili dəyişmələri nəzərdən keçirilir. *İnam və etiqadlar, alqışlar və qarğışlar, andlar,* həmçinin paradiqmatik təsəvvürlərin janr təzahürləri bölgə folklorunun tarixini çəkib daha qədim dövrlərə aparır. *İnanclar və etiqadlar* mifik təfəkkürün təzahür formalarından biridir. Oxşar fəlsəfi-mifoloji görüşlər miflərdə və əfsanələrdə də yaşayır.

Ovsun və sınamalar da inanclarla bağlıdır. Belə nümunələr icra olunan, tətbiq edilən folklor örnəkləri sırasına daxildir. Təkcə rəvayət janrı *əhvalatlar, uydurmalar, söyləmələr və hekayətlər* kimi janrdaxili dəyişmələrə bölünür.

Açar sözlər: *Borçalı folkloru, janr özəllikləri və janrdaxili dəyişmələr.*

Qədim Borçalı diyarı zəngin folkloru ilə fərqlənən bölgələrdən biridir. Əhalisi türk əsilli olan bu bölgə tarixin müxtəlif mərhələlrində sultanlıq, əmirlik, qəza, mahal, hətta "Borçalı Qarapapaq Türk Cümhuriyyəti" kimi tanınıb. Əvvəllər Borçalı Aran və Dağ hissələrinə bölünmüş, sonralar Dağ Borçalı (Baranlı, Hamamlı, Ağbaba, Calaloğlu və Daşır) ərazisi Ermənistana qatılmış və tədricən türk əsilli əhali bu yerlərdən çıxarılmışdır. Haqqında söhbət açdığımız bölgə əslində Aran Borçalıdır, bu diyar Bostandərə, Bolus, Qaratəpə, Sarvan, Candar, Qızılhacılı, Çörük Qəmərli, Başkeçid, Ağbulaq və Barmaqsız rayonlarını əhatə edir. Bu diyarda eramızdan əvvəl xəzərlərin əcdadlarının yaşadığı və iskit-kimmer tayfalarının məskunlaşdığı məlumdur. Tarixçilər bu bölgədən tapılan insan qalıqlarını antropoloji cəhətdən Azərbaycan türklərinin aid olduğu Oğuz (Kaspi) irqi tipinə daxil edirlər. Borçalı türklərinin əcdadlarını həm də qıpçaq, buntürk, kimmer, hun, bulqar, savir və onoğur

tayfaları ilə bağlayırlar. Borçalını "Qurd adamların yurdu", "Qurd çalası" da adlandırırlar. Tarixi hadisələr, işğalçıların yürüşləri Borçalının milli tərkibinə təsirsiz ötməmiş, zaman-zaman buraya ermənilər, aysorlar, yunanlar, Svanetiya köçkünləri yerləşdirilmişdir **(Borçalı folklor örnəkləri, I 2013: 16).** Bütün bu tarixi silkələnmələrə baxmayaraq, yerli türk əhalisi öz etnik adətlərini, folklorunu yaşatmış, nəsillərdən-nəsillərə ötürmüşdür. Borçalı folklor mühitinin əhatə dairəsi genişdir, xüsusən bu ad altında tanınan aşıq sənəti daha böyük ərazini özündə birləşdirir. Məhərrəm Qasımlı "Ozan-aşıq sənəti" araşdırmasında Borçalı aşıq mühitinin öz sənət şəbəkəsini adını daşıdığı coğrafi hüdudlarla məhdudlaşdırmadığını bildirir: "Borçalı mahalından əlavə qonşu Başkeçid, Qarayazı, Qaraçöp regionları da sənət ahəngindəki uyğunluğa görə bu mühitin adı altında fəaliyyət göstərir. Qazax mahalının da böyük bir kəsimi Borçalı aşıq mühitinə məxsus sənət ənənəsinə bağlıdır. Tarixi baxımdan yanaşdıqda buraya iyirminci yüzilliyə qədər Tiflis ərazisini də əlavə etmək olar" **(Qasımlı 2011: 222)**.

Öz folklor zənginliyi ilə diqqət çəkən Qaraçöp yurdu 1880-ci ilə qədər Borçalı sultanlığının tərkibində olmuşdur. Düz-Əyrəm (Ayrım), Qazlar, Qarabağlı, Keşəli, Ləmbəli, Paldı (Baldoy-Baldöy), Tüllər, Yor-Muğanlı kəndləri Qaraçöp icmasına daxildir. Bundan başqa, Qombor kəndində yaşayan türklər də milli dəyərlərini qoruyub saxlayırlar. Saqareco rayonu öz adında türk mənşəyini, Dədə Qorqud ənənələrini yaşadır və bu sözün mənası "Qaraca yurdu" deməkdir. Qaraca Çoban "Dədə Qorqud dastanı"nın əsas qəhrəmanlarından biridir. Qaraçöp Saqareco rayonunun bir hissəsini təşkil edir. Gürcülər özləri Saqareconu "Böyük Türklük" (Didi-Türkoba) dövrünün toponimi sayırlar. Maraqlıdır ki, bir mənası "qara camaat" kimi yozulan Qaraçöp el arasında Yor Muğanlı adlanır və burada yaşayan əhalinin Muğanlı elinə mənsub olduğu bildirirlir. Muğan sözünü isə muğ türk tayfasının yurdu kimi mənalandırırlar **(Qaraçöp 2019: 43-46)**. Qaraçöp "Qaraca Qala" kimi yozulur, bu yerlərdə yaşayanların Qarapapaq/Tərəkəmə adlandırılan boyla, qıpçaqlarla bağlı olması haqqında versiyalar da var **(Qaraçöp 2019: 16-17)**. Göründüyü kimi, Borçalının yer-yurd adları özündə folklor yaşadır. Hər toponim müxtəlif əfsanə, rəvayət və əhvalatlarla bağlıdır. Bu diyarda yaşayanların yaddaş xəzinəsi isə folklorumuzun bir qolunu təşkil edir.

Borçalı folklorunu Valeh Hacılar, Elxan Məmmədli, Tinatin Məmmədova, Nəriman Əbdülrəhmanlı və başqaları öyrənmişlər. Bu diyar həm də aşıq sənətinə böyük töhfələr vermişdir. Aşıq Sadıq, Aşıq Məhəmməd, Xındı Məmməd, Aşıq Alxan Qarayazılı, Aşıq Musa Qaraçöplü, Aşıq Əmrah, Hüseyn Saraclı, Aşıq Kamandar, Aşıq Aslan Kosalı və başqa aşıqlar Azərbaycan aşıq sənətində önəmli yer tutan sənətkarlar olmuşlar **(Borçalı folklor örnəkləri, I 2013: 7).** Borçalı folklor mühitinin zənginliyi aşıq yaradıcılığı nümunələrində də özünü göstərir. Borçalı aşıqları sənətə öz saz havaları ilə gəlmişlər. Çoxlu aşıq bəstələri içərisində yer-yurd adını daşıyan "Faxralı müxəmməsi", "Faxralı Dilqəmi", "Başkeçid gözəlləməsi" və digər saz havalarını bölgənin sənətə töhfələri saymaq olar **(Qasımlı 2011: 225)**.

Bölgədən müxtəlif dastanlar yazıya alınmışdır. Dastanların təkmilləşməsində, janrın dinamikasında *deyişmələr, səfərnamələr, görüşlər, bəzəmələr, hekayətlər və əhvalatlar* mühüm mərhələni təşkil edir **(Borçalı folklor örnəkləri, I 2013: 172-208).** Dastanın janrdaxili dəyişmələri kimi diqqəti çəkən bu nümunələr həcm fərqi ilə yanaşı, strukturuna və tematik təyinatına görə ayrıca folklor örnəkləri kimi yazıya alınmışdır. "Şair Nəbi ilə Şair Abdullanın deyişməsi" **(Borçalı folklor örnəkləri, I 2013: 182-186),** "Aşıq Alxan Qarayazılının Qaraçöplü Aşıq Musa ilə deyişməsi"**,** "Faxralı şairləri Rəhim Nəbi oğlu ilə İsmayıl Güllərin deyişməsi" **(Borçalı folklor örnəkləri, I 2013: 203-208)** dastan janrının özülündə dayanan *deyişmə* nümunələridir. Deyişmələrin bir qismi dastanvari mətnlərlə müşayiət olunur. *Görüşlər* isə mətnli nəzm parçaları üzərində qurulmuşdur. Lakin bu nümunələrdə görüşən aşıqların haqqında ətraflı məlumat verilir, görüşün məqsədi nağıl olunur, görüş zamanı aşıqların deyişmə səhnəsi təsvir edilir. "Aşıq Musanın Azaflı Mikayılla görüşü" belə başlayır: *"Aşıq Musa təkcə Qaraçöpdə yox, Gəncəbasardan, Tovuzdan, Qazaxdan, Borçalıdan, Başkeçiddən, Qarayazıdan belə hər yerdə tanınan el sənətkarıydı. Üzünü görməyənlər belə qoşqularını sevə-sevə oxuyardılar. Qaraçöp məclislərinə dəvət alan aşıqlar Aşıq Musanın xeyir-duasını alırdılar, onunla yekbəyek deyişməyə cürət etməzdilər. Tovuzlu adıbəlli el şairi, ustad Aşıq Mikayıl Azaflı da cavanlığında Aşıq Musanın məclisində olub, onun xeyir-duasını alıb"* **(Borçalı folklor örnəkləri, I 2013: 198).** Görüşün məqsədi, mahiyyəti dilə gətiriləndən sonra Aşıq Musa ilə Mikayıl Azaflı deyişir. Aşıq Musa deyir:

Yaylaqlarda toy-düyünün çağıdı,
Arzulu toyları çalsan, necədi?
Özüm bağban, könlüm bülbül bağıdı,
Küsənin könlünü alsan necədi?

Mikayıl Azaflı cavab verir:
Tale qismətimə toy-düyün yazıb,
Toy-düyün mənimdi, çalaram, ustad.
Coşuban çağlayıb, şir kimi qızıb,
İncimiş könlünü alaram, ustad **(Borçalı folklor örnəkləri, I 2013: 201).**

Səfərlər də deyişmə səhnələri ilə zəngindir və bu deyişmələr prinsipial, iddialı mövqeyi ilə seçilir. Səfər(namə) dastan ənənəsi üçün səciyyəvi olan aşıq yaradıcılığı nümunəsi sayılır. Aşıqların ayrı-ayrı bölgələrə səfərləri "dastan, hekayət və əhvalatların yaranması ilə nəticələnmiş", "maraqlı bir hadisəni, maraqlı bir tarixi" əhatə etmişdir **(Qasımlı və Allahmanlı 2019: 188)**. Aşıq ədəbiyyatının tədqiqatçıları "Koroğlu" dastanında qolların böyük bir qisminin səfər adı ilə təqdim olunduğunu, bu səfərlərin Koroğlunun qəhrəmanlığına, həmçinin apardığı mübarizənin məqsəd və mahiyyətini açmağa xidmət etdiyini yazırlar **(Ozan-aşıq ensiklopediyası, I 2020:**

268). "Ağacanın Türkiyə səfəri" adlı nümunədə hadisələr Ərzurumda baş verir və Şoragül mahalından gəlmiş şair Ağacanla Məhəmməd və Dollu Mustafa arasında deyişmələr olur. Bu deyişmələr həm də qıfılbənd xarakterlidir. Səfərnamənin mətni dastan mətnindən seçilmir: "...Dollu Mustafa götürür görək nə deyir:

Arif olan, gəlin sizə söylüyüm, olun halı,
Ağalıq, bəylik, paşalıq, türklərin nəslindədi.
Neçə min il keçib, Rəsul aləmnən bəri,
Ay dolanıb gərdiş eylər, il hansı fəslindədi?

Ağacan deyir ki, paşalara yaltaqlanma, indi sözünə cavab verim qulaq as:

Arif olan, gəlin mən də söylüyüm, olun halı,
Bütün güllər hamısı bir-bir öz nəslindədi.
1334 il keçib Rəsul aləmnən bəri,
Ay dolanıb gərdiş edər, il cahar fəslindədi **(Borçalı folklor örnəkləri, I 2013: 191-192)**.

Aşıq *bəzəmələri və aşıq əhvalatlarını* "Qaraçöp söyləmələri" də adlandırırlar. Qaraçöp məclislərində, yığnaqlarda Qaraçöp söyləmələrinə yer verilirdi ki, "bu da ağır dastanlardakı fasilələrdə, sanki nəfəslik rolunu oynayır, məclis əhlinin ovqatını dəyişirdi" **(Qaraçöp 2019: 491)**. Qaraçöp məclislərini Aşıq Musanın, Aşıq İvadın, Aşıq Teymurun, Əslioğlu Məhəmmədin, Şair Bağının, Aşıq Şaxəsənin, Aşıq Dursunun, Aşıq Cavanşirin nəql etdikləri söyləmələr bəzəyirdi. *Söyləmələrin məzmunu* da maraqlıdır: "Qaraçöp söyləmələri kiçik dastanları xatırladır, baş vermə məkanları, süjetləri, iştirakçıları, meydana çıxanları, üstün gələnləri, məğlub olanları var. Bununla yanaşı, o söyləmələrdə incə yumor da nəzərə çarpır, bu da təbii ki, məclis əhlinin əhvalını yaxşılaşdırmağa hesablanıb" **(Qaraçöp 2019: 491)**. *Bəzəmə* adlı söyləmə nağıl kimi başlayır, dastan kimi bitir. "Molla Qasımın Alı kişini bəzəməsi" nümunəsində nəvəsi yerində dul gəlinə aşiq olan Zorba Alının başına gələnlərdən danışılır **(Qaraçöp 2019: 491-493)**. Əslində, bu bəzəmə bir el qınağıdır. Qaraçöp aşıqlarının söylədikləri *əhvalatlar* da bəzəmələrə yaxın mövzudadır. "Aşıq Musanın nigah əhvalatı"nda Türkiyədən gəlmiş yaşlı bir əfəndinin cavan bir qadınla evlənməsindən söhbət açılır **(Qaraçöp 2019: 494-495)**. Göründüyü kimi, söyləmələrin adları fərqlənsə də, məzmunu bir-birinə oxşardır. "Aşıq Musanın dağ əhvalatı", "Aşıq Musanın Bələkən əhvalatı" dialoqlar və deyişmələr üzərində qurulmuş səhnələrdən ibarətdir **(Borçalı folklor örnəkləri, I 2013: 498-507).** "Şair Bağının ov əhvalatı" isə *başagəldini* təsvir edən qoşmaya hesablanıb:

Qışın bir günüydü, mehriban dayı,
Təşrif qılıb gəldi bizə ovçular.

Məni də özlərinə şərik etdilər,
Yön götürüb getdi düzə ovçular.

Bir qaraltı görüb tez dayandılar,
Qartikan kolunu ovçu sandılar.
Kişilər bir-birinə arxalandılar,
Endirdi tüfəngi dizə ovçular.

Bəxti üzlərinə gülməyən ovçuların başagəldisi Şair Bağının evində yağlı xəngəl yeyib dağılışmaqla bitir **(Qaraçöp 2019: 524-525)**.

Deyişmə janr etibarı ilə söyləmənin aşıq şeiri şəklinə uyğun hadisə ilə bağlantısıdır. Amma *bir deyişmənin söyləmə variantında* bir neçə deyişmə şeir şəklindən də istifadə olunur. "Şair İvadın Touzdu Xanımnan deyişməsi"ndə təkcə deyişmə janrına deyil, *tərənnüm, tərif və döşəmələrə* də müraciət olunur. "Şair İvad sazı sinəsinə basır, görək Xanıma nə deyir:

Cəmi könülləri pərvaz eylədin,
O nədi ki, xoş avazı gözəldi?
Doqquz qulağı var, on dörd dodağı,
Həmi qışı, həmi yazı gözəldi?" **(Qaraçöp 20196: 491)**.

Xanım, Şair İvadın sözünün cavabını tapa bilmir. "Durnaboylu, qaymaq dodaqlı Xanım" ona naz-qəmzə satır, Şair İvad qocaldığını anlayıb qubarlanır, götürür, görək nə deyir:

Qojalmamışamsa, cavan da döyüləm,
Tökülüb ağzımnan çiş, əldən gedif.
Əllini-altmışı keçirmişəm mən,
Ötüfdü yarıdan yaş, əldən gedif.

Təbim yoxdu sazı yaxşı çalmağa,
Deyif, gözəlləri yada salmağa.
Nazdı xanım, sənin könlün almağa,
Azalıf təmənnam, baş əldən gedif.

Oğrun baxır daldalardan gözələ,
Hər nə idisə dedi gözəl-gözələ.
İvad, urfun pərviz etməz gözələ,
Uçufdu konlumnan quş, əldən gedif **(Qaraçöp 2019: 513)**.

Deyişmə təhkiyələrinin bu şəkildə qurulması və onların məzmunun aşıq şeirinin yalnız bir deyişmə şəklində olmaması söyləmələri dastan janrına yaxınlaşdırır. İnamla demək olar ki, bu tipli söyləmələr dastanların yaranmasında mühüm mərhələni təşkil edir. Borçalının bölgə səciyyəli dastanlarından söhbət açan Məhərrəm Qasımlı *hekayət və söyləmələri* də unutmur, Şair Nəbi, Şair Ağacan, Xındı Məmməd, Səadət Buta və başqa sənətkarlarla bağlı belə nümunələri xüsusi olaraq xatırladır **(Qasımlı 2011: 226)**.

Şair Nəbi Borçalı, el şairi Ağacan Cabbar oğlu, Təhləli şair Novruz, İsmayıl Güllər, Aşıq Sona, Aşıq Alxan Qarayazılı, Aşıq Aslan Kosalı, Məhəmməd Sadaxlı və Zahid Ələmpaşalıdan yazıya alınmış dastanlar Borçalıda söz sənətinin qiymətli nümunələridir **(Borçalı folklor örnəkləri, II 2013: 381-388).**

Yekun olaraq deyə bilərik ki, Borçalı aşıq sənətinin ərsəyə gətirdiyi *deyişmələr, səfər(namə)lər, görüşlər, əhvalatlar, bəzəmələr, hekayətlər, söyləmələr* dastanın janrdaxili dəyişmələri sayılır. Bu cür təhkiyələrə digər aşıq mühitlərində də rast gəlirik, lakin Başkeçid və Qaraçöp də daxil olmaqla Borçalı aşıq mühiti daha geniş areala çıxa bilmişdir, Dədə Qorqud boylarından üzübəri yol alaraq, "Koroğlu" qollarından şaxələnərək regional xüsusiyyətləri yaşada bilmiş, inkişaf etdirmişdir.

Borçalı folklorunun *həm lirik, həm də epik örnəklərində* rəngarəng janr özəllikləri mövcuddur. Təkcə rəvayət janrı *əhvalatlar, uydurmalar, söyləmələr və hekayətlər* kimi janrdaxili dəyişmələrə bölünür **(Borçalı folklor örnəkləri, I 2013: 66)**. Aşıq rəvayətlərinə örnək olan söyləmələr epik folklor janrı kimi də qələmə alınmışdır. Söyləmələr adı altında ibrətamiz hadisələrlə yanaşı, komik nəticələrə səbəb olan əhvalatlar da verilir. "Üstüörtülü işarə" söyləməsində deyilir: *"Böyük bir məclisdə plov yeyən ağanın bığına düyü dənəsi yapışdığını aşağı tərəfdə oturan nökər görür. O, tez ayağa durub deyir:*

-Ağa, beş qardaşı göndər tövlənin həyətini təmizləsinlər.

Bu işarəni ağadan başqa heç kəs başa düşmür. Odur ki, əli ilə ağzını təmizləyir. Nökər "beş qardaş" deyəndə əlin beş barmağını nəzərdə tuturdu" **(Borçalı folklor örnəkləri, I 2013: 68-98)**.

Rəvayətlər haqqında onun toplayıcılarının maraqlı mülahizəsi vardır: "Nə vaxtsa deyilmiş ən böyük yalanın kiçik həqiqəti elə onun nə vaxtsa deyilməsidir. Beləcə rəvayətlər öz bəzəmə və düzəmələri ilə bizi nə vaxtsa olmuş bir həqiqətə səsləyir" **(Borçalı folklor örnəkləri, I 2013: 66)**. "Gəlin-qaynana" rəvayəti *ailə-məişət* mövzusundadırsa, "Nənəvay" rəvayəti *toponimik* xarakterlidir: *"Alget çayının sahilində ağirçək tənha qarı yaşayırmış. Qızları... köçübmüş bu qarının. Oğlu olmadığına görə qız nəvəsini yanında böyüdürmüş. İllər keçib gedir. Qız böyüyüb dünya gözəli olur. Elçi elçi dalınca gəlirmiş. "Nəvəm hələ körpədir" – deyə qarı nəvəsini heç kimə vermirmiş.*

Günlərin birində qarı qızı evdə qoyub yolun kənarındakı bulağa gedir. Bundan istifadə edən bir neçə cavan, qızı atın üstünə qaldırıb qaçırır. Atlılar bulağın

yanından keçərkən qızın ağzındakı dəsmal düşür. O, nənəsini görən tək qışqırır ki, "Nənə vay, vay..."

Elə o gündən bu günə kimi həmin yerə "Nənəvay" deyirlər" **(Borçalı folklor örnəkləri, I 2013: 66-67)**.

"Şah və Çoban", "Quyu qazan özü düşər", "O boyda enişin o boyda da yoxuşu var" və başqa bu kimi Qaraçöp rəvayətləri *olmuş əhvalatlardır* **(Qaraçöp 2019: 384-400)**. "Bir Novruz rəvayəti" isə *İlaxır çərşənbəsi inancları* ilə bağlıdır. Nişanlısı ilə görüşə gedən oğlan atının cilovunu başını torpağa əymiş tut ağacına bağlayır, qayıdanda görür ki, ağacın budağı qalxıb, at da budaqdan asılı qalıb **(Qaraçöp 2019: 467)**. Bu məqamda rəvayət *əfsanə ilə oxşar məzmun* daşıyır. "Olub-keçənlər" başlığı altında *xatirələr (memoriat) və əhvalatlar* verilir. Xatirələr, adından da göründüyü kimi, müəyyən şəxslərlə və müəyyən hadislərələ bağlıdır. Xatirələrlə əhvalatların arasında bir yaxınlıq var. Aşıq əhvalatlarında aşıqların başına gələn hadisələrdən danışılırdısa, müxtəlif məzmunlu əhvalatlarda ayrı-ayrı şəxslərin rastlaşdığı olaylar yer almışdır. "Həvillik kişinin əhvalatları", "Hacı Usufun əhvalatları", "Nəjməddin kişinin əhvalatları" və digər əhvalatların bir qismi *komik* xarakterdədir **(Qaraçöp 2019: 405-413)**. *Şəbədələr* də ayrı-ayrı şəxslərin başına gəlmiş gülməli hadisələrlə bağlıdır və lətifənin janrdaxili dəyişimidir. Qaraçöpdə başına qəribə əhvalat gələnlər həm də şəbədələrin qəhrəmanıdır. Şəbədələrdən birində deyilir: *"Camaloğlu Vəli yolnan gedirmiş. Qonşunun uşağı onu görüb deyir:*

-A Vəli baba, uğur olsun!

Kişi cavabında qayıdır ki:

-A gəyə, uğuru-zadı yoxdu, burya, qızımın öyünə gedirəm!" **(Qaraçöp 2019: 420)**.

Şəbədələrlə rəvayətlərin də *oxşar cəhətləri* var. Komik məzmunlu rəvayətlər şəbədələrə bərabər tutulur. Nəriman Əbdülrəhmanlının "Şəbədələr" adlı toplusunda verilmiş "O boyda enişin o boyda da yoxuşu var" başlıqlı şəbədə **(Şəbədələr 1991: 5-6)** "Qaraçöp" ensiklopedik toplusunda rəvayət kimi təqdim olunur **(Qaraçöp 2019: 387-388)**. Şəbədələrin bir qismi isə *zarafat* kimi verilir. "Hajı Usufun zarafatı"nda deyilir: *"Hajı Usuf kişi yarızarafat-yarıdoğru deyirmiş:*

-Mən kotanın qolunu nə qədər dərinə bağlıyıram, gənə kotan cızınnan çıxıf Navadın xərək cızına düşür" **(Qaraçöp 2019: 421)**.

Əslində təqdim olunan zarafat özü lətifənin janrdaxili dəyişimlərindən biridir. Borçalı bölgəsində lətifələr həm də *dodaqaçdılar* adıyla geniş yayılıb. Borçalı folklorunun toplayıcıları bu komik janr nümunələrini bir-birindən ayrımır, onları "Lətifələr və dodaqqaçdılar" adı altında təqdim edirlər **(Borçalı folklor örnəkləri, I 2013: 124-148)**. Şəbədə də konkret bir janrın hüdudlarına sığmır, hətta ədəbi növ baxımından həm epik, həm də lirik əlamətlər daşıyır. Bir qədər komik məzmunda olan *toy nəğmələri* Borçalıda "Əvədə-şəbədələr" adlanır. Folklor toplularında *deyimlər və düzgülər* kimi də qruplaşdırılan əvədə-şəbədələr oğlan evi ilə qız evi arasındakı *deyişmələrdən*, qaynana ilə gəlinin arasındakı *atışmalardan* ibarətdir.

Oğlan evinin əvədə-şəbədəsi:
Quda, quda, can quda,
Gözləri mərcan quda.
Alışdıraq, verişdirək,
Yüz tümənə barışdıraq **(Borçalı folklor örnəkləri, I 2013: 107)**.

Qız evinin əvədə-şəbədəsi:
Qızımız nazdı,
Yüz tümən azdı.
Min tümən gətirin,
Gəlini götürün **(Borçalı folklor örnəkləri, I 2013: 107)**.

Qaynana ilə gəlinin əvədə-şəbədəsi daha sərtdir. Qaynana gəlinə deyir:
Evindən bezən,
Qapılar gəzən,
Dabanı çatdaq,
Balığı batdaq,
Doğduğu söyülməz,
Bişirdiyi yeyilməz!

Gəlinin əvədə-şəbədəsi baldızdan da yan ötmür:
Baldızım, çuvaldızım,
Zırıldayır ötür, mən neynim?
Qayınanam – qara köpək,
Mırıldayır ötür, mən neynim? **(Borçalı folklor örnəkləri, I 2013: 107)**.

Gətirilən nümunələr bölgə folklorunda *janrdaxili dəyişmələrin vahid çərçivədə olmamasının* bariz göstəricisidir. Bu fikri Borçalıdan toplanmış digər folklor nümunələri haqqında da söyləmək mümkündür. Məsələn, Qaraçöpdə atalar sözü və məsəllərə bənzər *deyimlər* mövcuddur. Lakin deyimlər ifadə tərzinə və formasına görə atalar sözü və məsəllərdən fərqlənir, əsasən şəxslərə müraciət üzərində qurulur: *"Harda toydu, orda gəlindi!"* Yaxud: *"Nədi, noluf, baş kəsməkdənmi gəlifsən?"* Yaxud da: *"Hamısını itə atıflar, it də yemiyif!"* **(Qaraçöp 2019: 457)**. "Borçalı folklor örnəkləri"ndə təqdim olunan deyimlər isə lirik janrdadır və düzgülərə bərabər tutulur. "Deyimlər-düzgülər" qoşalaşdırması kimi verilən nümunələr əslində düzgülərdir, lakin onların tərkibində *oyun nəğmələri, cırnatmalar, uralamalar, hətta bayatılar* var.

Oyun nəğməsi olan deyim:
A Nərgizə, Nərgizə,
Qaşıq gətir gəl bizə,
Bizdən gedək Tiflisə,

Tiflis yolu bağlıdı,
Anamın əli yağlıdı.
Anam qaymaq bişirdi,
Pişik qabı düşürdü **(Borçalı folklor örnəkləri, I 2013: 103)**.

Cırnatma nümunəsi olan deyim:
Zəhra-Zübeydə,
İkisi bir öydə,
Zəhra dalaşdı,
Zübeydə qaşdı.
İtlər hürüşdü,
Kişilər gülüşdü **(Borçalı folklor örnəkləri, I 2013: 100)**.

Uralama nümunəsi olan deyim:
Qatar gedir
Sola sağa,
Çəngəl düşür
Bizim dağa,
Əmim oğlu
Sultanağa,
Gəlin, gedək
Oynamağa,
Oynamağın vaxtıdı,
Qızılgülün taxtıdı.
Ix, nıx,
Çıx **(Borçalı folklor örnəkləri, I 2013: 101)**.

Deyim-düzgülərin bir qismi isə deyimlər "janrına" uyğun gəlir:
Urvan mənnən olmasa, kündən küt gedər;
Ət yeyilmir, gönü geyilmir – İnsan insana yağı kəsilib;
İt itnən boğuşdu, yolçunun işi düzəldi **(Borçalı folklor örnəkləri, I 2013: 103)**.

Deyimlərdən fərqli olaraq, *hədə-qorxular* yalnız təhkiyə şəklindədir və bu nümunələrin hamısını epik növün janrı saymaq olar. Hədə-qorxunu söyləyən qarşı tərəfi edəcəyi hərəkətə inandırmaq üçün and içir. Demək olar, bütün hədə-qorxuların *birinci tərəfi andlardan* ibarətdir:
Allah haqqı, qulağıyın divini qızardaram!
Həzrət Abbas Haqqı, ağız-burnunun qatığını (qanını) bir-birinə qataram!
Bizi yaradana and olsun, burnunu əzərəm!
Dədəmin goru haqqı, qol-qavırğanı qıraram!
Bizi yaradan Allah haqqı, yiyif-işdiyini burnunnan gətirərəm! **(Qaraçöp 2019: 457)**.

Bayatı nümunəsi olan deyim:
Gül əkəmmirəm,
Su çəpəmmirəm.
Özüm sevmişəm,
Əl çəkəmmirəm.
Yaxud:
Atım bozdu, neyliyim?
Tükü tozdu, neyliyim?
Özün yaman gözəlsən,
Ağlın azdı, neynim? **(Borçalı folklor örnəkləri, I 2013: 107)**.

Bayatışəkilli deyimlərə "Qaraçöp" ensiklopedik toplusunda da rast gəlirik. Bu tipli nümunələr *"Novruz deyimləri"* adlanır və "Borçalı folklor örnəkləri"ndə deyim-düzgülər adıyla təqdim olunan bayatılara uyğundur:

Qızıl üzüyüm laxladı,
Anama verdim, saxladı.
Toy günü, bayram günü,
Yar bizi qonaxladı.

Çəpər-çəpər oldu, gəl,
Çəpərə quşdar doldu, gəl.
Vədəsiz gedən oğlan,
Vədə tamam oldu, gəl **(Qaraçöp 2019: 467)**.

Bayatılar da janrdaxili dəyişmələrə məruz qalır. Təfsilati bayatıları müşayiət edən epik parçalar bu folklor nümunəsinin yaranma səbəblərini əhvalat şəklində izah edir. Ovda öz öğlunu vuran ovçu haqqında olan *təfsilati bayatı* belədir:

...dağdağan,
Dağda bitər dağdağan.
Ovçu vurub balasın,
Göl-göl olub dağda qan **(Borçalı folklor örnəkləri, I 2013: 55)**.

Bir-biri ilə bağlı bayatılar da həmin bayatıların məzmununu aydınlaşdıran epik mətnlər üzərində qurulmuşdur **(Borçalı folklor örnəkləri, I 2013: 56-58)**.

Məzmununa görə janr təyinatı aparılan folklor örnəklərindən biri tapmacadır. *Tap-tapmaca* kimi verilən bu nümunələrin, demək olar, hamısı lirikdir, ritmik bir ahəngə köklənmişdir. İki, üç, dörd misralı tapmacalar daha çoxdur. Amma bəzi tapmacalar bayatı janrının ölçüləri çərçivəsindədir. *Tapmaca-bayatılardan* nümunə:

Kim sənəmdi?
Kim mənim kimsənəmdi?
Nə kimin kimsəsiyəm,
Nə kimsə kimsənəmdi **(Qaraçöp 2019: 447)**.

"Borçalı folklor örnəkləri"nin birinci cildinə redaktor kimi qeydlərini əlavə edən Mahmud Allahmanlı folklor nümunələrinin arxasında hər hansı bir hadisənin, reallığın durduğunu yazır: "Fikrimizcə, bütün folklor nümunələrinin arxasında bu və ya digər dərəcədə həyatiliyə, həyat reallığına söykənən məqamlar var. Bunlar ya üst qatda, ya da bir qədər alt qatda dayanır. Bayatı nümunələrində də bu hal özünü göstərmədədi. Arxasında hansısa əhvalat dayanan bayatılar bunu bir aydınlıqla təsdiqləyir" **(Borçalı folklor örnəkləri, I 2013: 9)**.

İnam və etiqadlar, alqışlar və qarğışlar, andlar, həmçinin paradiqmatik təsəvvürlərin janr təzahürləri bölgə folklorunun tarixini çəkib daha qədim dövrlərə aparır. İnanclar və etiqadlar mifik təfəkkürün təzahür formalarından biridir. Oxşar fəlsəfi-mifoloji görüşlər *miflərdə və əfsanələrdə* də yaşayır. Janr əslində folklor nümunəsində ifadə olunan tematik yaxınlığın struktural fərqləri, yaxud tematik fərqlərin struktural oxşarlığı üzərində qurulur. Buna görə də janrın təyinatı həm struktural, həm də tematik xüsusiyyətlər nəzərə alınmaqla aparılır. Türkiyəli tədqiqatçı Yaşar Kalafatın "Qaraçöp" ensiklopedik toplusunda oxuculara təqdim olunan "Karaçöp Türk Halk İnançları" adlı yazısında bölgədən öyrənilən bu tipli folklor örnəkləri üç qrupa bölünür:

-İnanc ve İtikarları ile İlgili Tesbitler;
-Beddua ve Dualarla İlgili Tesbitler;
-Antlar-Yeminlerle İlgili Tesbitler **(Qaraçöp 2019: 459-464)**.

Yaşar Kalafat inancları *"uyğulama", "tekerleme", "mesaj içeritli ögütler"* adlandırır **(Qaraçöp 2019: 461)**. Müəllif oxşar mövzuda əvvəllər də araşdırma aparmış, "Ahıska Türkleri Halk İnançları konusunda bir çalışma" etmişdir **(Qaraçöp 2019: 464)**. İnam və etiqadların tərbiyəvi əhəmiyyəti də var, bəzi *yasaqlar, inamlar* insanları pis əməllərdən çəkindirir:

-Bir-birinin ayağını tapdalamış adamlar əl tutarlar. Yoxsa onların arasında dava düşər.
-Evdə fit çalmazlar. Bu, evin kasıblaşmasına gətirib çıxarır.
-Çox quzu istəyən çoban davarı gecələr otarmalıdır **(Borçalı folklor örnəkləri, I 2013: 115)**.

Bəzi inamlar *xalq meteorologiyasından, türkəçarələrdən və yuxuyozmalardan* qidalanır.

Yuxuyozma inamları:
-Yuxuda xana darrıqdır, deyərlər.
-Yuxuda ilan yoldur, deyərlər **(Borçalı folklor örnəkləri, I 2013: 117)**.
Türkəçarə inamları:

-Yeni doğulmuş uşağın üstünə ət gətirməzlər.

-Yeni doğulmuş uşağın üstünə bədniyyət adamı buraxmazlar **(Borçalı folklor örnəkləri, I 2013: 110)**.

Ovsun və sınamalar da inanclarla bağlıdır. Belə nümunələr *icra olunan, tətbiq edilən* folklor örnəkləri sırasına daxildir. Ovsun qabaqcadan tədbirgörmədir. Sınama isə həyat təcrübəsindən irəli gəlir və bəzən real olmasa da, adamlar sınanmış əlamətlərə əməl edirlər:

-Uşağı gözdəymədən, nəzərdən qorumaq üçün üzərrik yandırırlar;

-Mal-qaranı yetişmiş və ya göy taxıl zəmisinə buraxmazlar;

-Çörəyi iri parçalarla itə atmazlar. Çünki itin ayaqları ilə çörəyi çığnaması böyük günahdır, deyərlər **(Borçalı folklor örnəkləri, I 2013: 25-27)**.

Qaraçöpdə *ayamalar* da folklordan gəlir. Ayamalar adamlara xarakterinə, əməllərinə, görkəminə görə verilir. Haqqında ayama ilə danışılan şəxsin mütləq bir komik əhvalatla bağlılığı olur. Ayamanı xarakterizə edən məlumat özü folklor nümunəsidir: *"Camaatın bazburtuna, igidliyinə görə "Pələ" ayaması yaraşdırdığı İsa oğlu Məcidin əhvalatları indi də söylənilir. Pələ Məcid təkbaşına bir dəstə adamın öhdəsindən gələrmiş"* **(Qaraçöp 2019: 62)**.

Qaraçöplülər ilin aylarını və həftənin günlərini "öz dillərində" adlandırırlar. Bu özümlü adların hər birində bir folklor dünyası yaşayır. Aylar:

Boz ay (22 fevral – 21 mart);
Yağarlıq ayı (22 mart – 21 aprel);
Boş ay (22 aprel – 21 may);
Vaynənə (22 may – 21 iyun);
Quraq ay (22 iyun – 21 iyul);
Qorabişirən (22 iyul -21 avqust);
Quyruqdoğan (22 avqust – 21 sentyabr);
Xəzəl (22 sentyabr – 21 oktyabr);
Qırovdüşən (22 oktyabr – 21 noyabr);
Böyük çillə (dekabrın ikinci ongünlüyündə başlayır);
Kiçik çillə (Fevralın əvvəlində başlayır).

Həftənin günləri:

Bazar ertəsi; Xaş günü; Çərşənbə; Adna axşamı; Adna günü; Adna ertəsi; Bazar **(Qaraçöp 2019: 330)**.

Borçalının söz sənətinin janr imkanları, daha doğrusu, bu şifahi söz sənəti nümunələrində janrdaxili dəyişmələr folklor mühitinin zənginliyindən soraq verir. Borçalı diyarının söz sənəti kifayət qədər öyrənilmişdir, lakin bölgə folklorunun janr imkanları yetərincə araşdırılmamışdır. Janrdaxili dəyişikliklərin öyrənilməsi ayrı-ayrı janrların təyinatının aparılmasına, assiqnmentativ xüsusiyyətlərinin dəqiqləşdirilməsinə kömək edir.

Ədəbiyyat

Borçalı folklor örnəkləri, I 2013 - Borçalı folklor örnəkləri, I kitab. Toplayanlar Valeh Hacılar və Elxan Məmmədli. Bakı, Elm və təhsil, 2013, 328 s.

Borçalı folklor örnəkləri, II 2013 - Borçalı folklor örnəkləri, II kitab. Toplayanı Elxan Məmmədli. Bakı, Elm və təhsil, 2013, 390 s.

Qaraçöp, 2019 - Qaraçöp. Ensiklopedik toplu. Təkmilləşdirilmiş ikinci nəşri. Tərtib edəni və nəşrə hazırlayanı Nəriman Əbdülrəhmanlı. Bakı, Qanun, 2019, 880 s.

Qasımlı və Allahmanlı 2019 - Qasımlı M., Allahmanlı M. İzahlı aşıq ədəbiyyatı sözlüyü. Bakı, 2019, 224 s.

Qasımlı 2011 - Qasımlı M. Ozan-aşıq sənəti. Bakı, Uğur, 2011, 304 s.

Ozan-aşıq ensiklopediyası, I 2020 - Ozan-aşıq ensiklopediyası. İki cilddə, I cild. Bakı, Gənclik, 2020, 432 s.

Şəbədələr 1991 - Şəbədələr. Toplayanı Nəriman Əbdülrəhmanlı. Bakı, Gənclik, 1991, 48 s.

Гусейнов Билал Гусейнага оглы

ЖАНРОВЫЕ ОСОБЕННОСТИ БОРЧАЛИНСКОГО ФОЛЬКЛОРА

Резюме

В статье рассказывается о богатых фольклорных образцах древней земли Борчалы. Исследуются жанровые возможности борчалинского фольклора, исследуются изменения внутри жанра. Исследуется роль таких фольклорных образцов, как *дейишме, гюруш, сафар, раваят, сойлама, базама, хекаят, ахвалат* в динамике любовной литературы и эпического жанра. Также рассматриваются внутрижанровые вариации лирического и эпического фольклорных жанров. *Инам т етигадлар, алгыш и гаргышлар, андлар,* а также жанровые проявления парадигматических идей тянут историю регионального фольклора и уводят в более древние времена. Верования и поверья (*инанджлар и етигадлар*) являются одним из проявлений мифологического мышления. Подобные философско-мифологические встречи живут в мифах и легендах. Заклинания и испытания (овсунлар и сынамалар) также связаны с верованиями. Такие примеры входят в круг исполняемых, прикладных фольклорных образцов. Сам жанр повествования делится на вариации внутри жанра, такие как *ахвалатлар, уйдурмалар, соуламалар и хекаятлар.*

Ключевые слова: *борчалинский фольклор, жанровые особенности и изменения внутри жанра.*

Huseynov Bilal Huseynaga oglu

GENRE FEATURES OF BORCHALI FOLKLORE

Summary

The article talks about the rich folklore examples of the ancient land of Borchali. Genre possibilities of Borchali folklore are studied, changes within the genre are investigated. The role of folklore examples such as *deyishme, sefer, revayet, soylama, bezeme, hekayat, ehvalat* in the dynamics of ashuq literature and epic genre is studied. Also, intra-genre variations of lyrical and epic folklore genres are considered. *İnam and etiqadlar, alqish and qargishlar, andlar,* as well as genre manifestations of paradigmatic ideas, draw the history of regional folklore and lead to more ancient times. *İnanjlar and etiqadlar* are one of the manifestations of mythical thinking. Similar philosophical-mythological meetings live in myths and legends. *Ovsun and sinamalar* are also related to beliefs. Such examples are included in the range of performed, applied folklore examples. The genre of revayat alone is divided into variations within the genre, such as *ehvalatlar, uydurmalar, soylamalar and hekayetler*.

Keywords: *Borchali folklore, genre features and changes within the genre.*

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi filologiya üzrə fəlsəfə doktoru Akif Əhmədov tərəfindən çapa tövsiyə olunmuşdur.

ŞAKİR CƏFƏROV,
“Azərbaycan müəllimi”q.
Filologiya üzrə fəlsəfə doktoru
ceferov.shakir@yandex.ru

MİR CƏLAL VƏ DÖVRÜ MƏTBUAT

Xülasə

1923-cü ilin noyabrında təsis olunan “Şərq qadını”adlanan jurnalın adı da 1938-ci ildə dəyişdirilmiçdir. Sonradan bu jurnal “Azərbaycan qadını” adlanmışdır. Jurnalın yarandığı gündən, Azərbaycan ədəbiyyatının bir çox tanınmış şəxsləri onunla əməkdaşlıq etmişlər. Nəşrdə Mir Cəlal, Mirzə İbrahimov, İlyas Əfəndiyev, Səməd Vurğunun, Rəsul Rzanın, Nigar Rəfibəylinin, Mirvarid Dilbazinin, digər görkəmli Azərbaycan şairlərinin və yazıçılarının əsərləri yer almışdır. 27 oktyabr 1919-cu ildə “Gənc işçi” adı ilə çıxmış, 1945-ci ilin iyulunda isə “Azərbaycan gəncləri” adı ilə yenidən nəşrə başlayan bu qəzetdə də qocaman jurnalist Şirməmməd Hüseynov, Famil Mehdi, yazıçı və şairlər- Süleyman Rəhimov, Mehdi Hüseyn, İlyas Əfəndiyev, Mir Cəlal, Nəbi Xəzri, Xəlil Rza, maestro Niyazi və başqaları redaksiyanın ştatdankənar müxbirləri olmuşlar. 1928-ci ildən ədəbi fəaliyyətə başlayan Mir Cəlal Paşayev isə "Kommunist" qəzetində şöbə müdiri, "Gənc işçi" qəzetində məsul katib vəzifələrində işləmişdir.

1930-cu ildən hekayə yazmağa başlamışdır. Yazıçı o dövrün “Şərq qadını”(“Azərbaycan qadını”), “Gənc işçi”(“Azərbaycan gəncləri”), “İnqilab və mədəniyyət”

("Revolyusiya və kultura"), “Ədəbiyyat və incəsənət” (“Ədəbiyyat qəzeti”) və başqa nüfuzlu nəşrlərində “Doktor Cinayətov”, “İfşa”, “Mərkəz adamı”, “Naxələf”, “Bostan oğrusu”, “Qüdrət nümayişi”, “İstifadə”, “Dəzgah qızı” və s. hekayə və romanlarını o dövrün qəzet və jurnallarında şap etdirmişdir. Dövrü nəşrlərdə çap olunan əsərlərindən bir neçəsinə nəzər yetimək daha önəmlidir . Məsələn, «Dəzgah qızı» hekayəsində Mir Cəlal, bir çox digər əsərlərindən fərqli olaraq, qəhrəmanı bilavasitə dəzgah başında, əmək və istehsalat şəraitində göstərmir. Surəti təqdim üsulunun başqa formasından istifadə edir.

Ümumiyyətlə, Mir Cəlalın yaradıcılığı çox zəngin və genişdir. Araşdırma zamanı məlum olur ki, onun ədəbi fəaliyyətində jurnalistika da mühüm yer tutmuşdur. Nəticədə, Mir Cəlal müasir jurnalistika məktəbi və gənc müxbirlər üçün bir örnək yaratmışdır

Açar sözlər: jurnalist, maestro, hekayə, roman, gənc müxbir, örnək

Azərbaycanda mətbuat tarixinin başlanğıcından bu yana yüzlərlə nüfuzlu qəzetlər nəşr edilib. Bəziləri qısa ömür sürsə də, xeyli mətbu orqan uzun müddət çap olunmağı bacarıb. Təbii ki, çoxsaylı mətbu orqanların böyük hissəsi ictimai-siyasi, müəyyən bir qismi isə mədəniyyət və ədəbiyyat sahəsinə aid qəzet və jurnallar olub. Əlbəttə, ictimaiyyətin hər təbəqəsinə xitab edə bilmək mühüm amil sayılır. O dövrdə, 1923-cü ilin noyabrında təsis olunan "Şərq qadını"adlanan jurnalın adı da 1938-ci ildə dəyişdərələrək "Azərbaycan qadını" adlanmışdır. Jurnalın yarandığı gündən , Azərbaycan ədəbiyyatının bir çox tanınmış şəxsləri onunla əməkdaşlıq etmiş və bu nəşrdə Mir Cəlal, Mirzə İbrahimov, İlyas Əfəndiyev, Səməd Vurğunun, Rəsul Rzanın, Nigar Rəfibəylinin, Mirvarid Dilbazinin, digər görkəmli Azərbaycan şairlərinin və yazıçılarının əsərləri yer almışdır. 27 oktyabr 1919-cu ildə "Gənc işçi" adı ilə çıxmış, 1945-ci ilin iyulunda isə "Azərbaycan gəncləri" adı ilə yenidən nəşrə başlayan bu qəzetdə də qocaman jurnalist Şirməmməd Hüseynov, Famil Mehdi, yazıçı və şairlər- Süleyman Rəhimov, Mehdi Hüseyn, İlyas Əfəndiyev, Mir Cəlal, Nəbi Xəzri, Xəlil Rza, maestro Niyazi və başqaları redaksiyanın müxbirləri olmuşlar. 1928-ci ildən ədəbi fəaliyyətə başlayan Mir Cəlal Paşayev isə "Kommunist" qəzetində şöbə müdiri, "Gənc işçi" qəzetində məsul katib işləmişdir.

1930-cu ildən hekayə yazmağa başlayan Mir Cəlal Paşayev o dövrün "Şərq qadını"("Azərbaycan qadını"), "Gənc işçi"("Azərbaycan gəncləri"), "İnqilab və mədəniyyət"

("Revolyusiya və kultura"), "Ədəbiyyat və incəsənət" ("Ədəbiyyat qəzeti") və başqa nüfuzlu nəşrlərində "Doktor Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf", "Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı" və s. hekayə və romanlarını o dövrün qəzet və jurnallarında şap etdirmişdir. Dövrü nəşrlərdə çap olunan əsərlərindən bir neçəsinə nəzər yetimək daha önəmlidir . Məsələn, «Dəzgah qızı» hekayəsində Mir Cəlal, bir çox digər əsərlərindən fərqli olaraq, qəhrəmanı bilavasitə dəzgah başında, əmək və istehsalat şəraitində göstərmir. Surəti təqdim üsulunun başqa formasından istifadə edir. Bayram təntənəsinə nümayəndə göndərilən iki gəncin - vaxtilə qapıbir qonşu, uşaqlıq dostu və sirdaşı olmuş Həbibə ilə müəllimin vaqonda görüşməsini söhbət üçün, daha doğrusu, ideyanı ifadə üçün münasib zəminə çevirir. Əsərin mərkəzində yeni insan, onun böyük arzusu, həyat eşqi və əməli dayanır. Həbibə «əsrin dili ilə danışan» bir qız, müasir, mədəni bir insan kimi səciyyələndirilir. Qızın danışığı, müəllimin söhbətləri, müəllifin münasibət və təsvirləri oxucunu obrazın həyat tarixçəsinə dair bəzi xarakter hadisə-xatirələrlə, onun fabrikdə ilk azərbaycanlı toxucu qızlardan biri olması, habelə başqa duyğu və fikirləri ilə tanış edir (4 - 292 s.). Müəllif mətbuatda çap etdirdiyi digər "Həkim Cinayətov" əsərinə satirik məna və məzmun daşıyan ad seçmişdir. Ona görə ki, burada canlandırılmış «qəhrəman» vəzifəsinə etinasız yanaşan, insan sağlamlığı qayğısına qalmayan bir həkimdi. Xəstə sahibinin tələsməsi, vəziyyəti ağır atasına təcili yardım zərurətindən dönə-dönə söz açması ilə həkimin son dərəcə arxayınçılığı, etinasızlığı, heç nəyi vecinə almaması qüvvətli

bədii təzad təşkil edirdi. Cinayətov köməyə təcili ehtiyacı olan xəstə ardınca gedən həkimə yox, sanki istirahət məqsədi ilə gəzməyə çıxan, gördüyü mağaza vitrinlərinə tamaşa edən, hətta «öz yerişində gigiyenanın bütün qanunlarını» gözləyən adama bənzəyirdi. Onun termometri unudub, yenidən ağır addımlarla klinikaya qayıtması da sadəcə huşsuzluq əlaməti deyildi, işə soyuq və səhlənkar münasibətin əyani təzahürü idi. Cinayətovun bədii cizgilərlə canlandırılan hərəkəti, danışıq və ədası ona qarşı oxucuda dərin nifrət oyadırdı. Şəfa vermək üçün yox, cinayət törətmək üçün yaranan bu cür həkimlər hekayədə satira obyekti alınaraq inandırıcı ifşa olunurdu. "Mərkəz adamı" hekayəsində Əntərzadənin işləmək üçün kəndə göndərilməsini eşidəndə düşdüyü vəziyyəti ifadə etmək üçün Mir Cəlal yenə qafiyəli nəsri münasib bilmişdir: Rayona getmək xəbərini söyləyəndə deyəsən kişiyə vay xəbərini verdilər: Saraldı, kiçildi, boğazı biçildi. Yalvardı, buraxmadılar. Hədələdi, qorxmadılar. Səs-küy saldı, eşitmədilər (1 - 479 s.). 1937-39-cu illərdə hissə-hissə "Revolyusiya və kultura" jurnalında nəşr olunan "Bir gəncin manifesti" əsəri isə yazıçının həyatında böyük bir dönüş yaratmış, ədəbi zirvəyə aparan yoluna cığır açmış və müəllifə böyük oxucu auditoriyası qazandırmışdır. Çünki əsərdə Sona, Mərdan və Baharın acınacaqlı taleyi çox böyük ustalıqla qələmə alınmışdır. Əsərdən görürük Mərdan hələ inqilabın əsil məqsəd və vəzifələrini dərk etmir, ayrı-ayrı dövlətliləri «plana salmaq», məhv etmək qənaətindədir. Doğrudur, o şəhərdə ikən kənddə qoyub gəldiyi anasını, körpə qardaşı Baharı xatırlayır. «Burada dünyanın düzəlməyi ilə məşğul olursan, öz doğma ana və qardaşının halından xəbər tutmursan»- deyə özünü məzəmmət edir. Həmçinin məsləkdostu Bağır ona lazımı məsləhətlər verir. Əsərdə Mərdanın, Sonanın və Baharın kənddəki həyatını təsvir edərkən biz Mir Cəlal Paşayevin daha səmimiliyini duyuruq. Müəllif özünü sevimli qəhrəmanlarından kənarda duran adi müşahidəçi, seyrçi rolunda göstərmir, bəlkə onların sevincinə, kədərinə şərik olur. Dünyaya gəldiyi gündən ehtiyac və məşəqqətin sərt üzünü görən, «nəvazişi kötək, duyduğu əzab, son qisməti faciəli ölüm» olan körpə Baharın taleyi nə qədər kədərlidir. Düzdür, Mir Cəlal Paşayev onun sevinclərini, bir qədər zahirən qayğısız, əyləncəli görünən məşğuliyyətini də təfərrüatı ilə təsvir edir. Lakin burada onun sevinclərinin ötəri olduğu, bunun ailə asudəliyindən doğmadığı dərhal hiss olunur.

Qeyd etməliyik Mir Cəlalın əsərdə məhəbbətlə təsvir etdiyi qəhrəmanlar içərisində Sona xüsusilə fərqlənir. O, həm qayğıkeş bir ana, həm də öz qürurunu, izzəti-nəfsini, insani ləyaqətini yüksək qiymətləndirən vətəndaş kimi nəzəri cəlb edir. Onun ehtiyac içərisində qalması, «Yusif - Züleyxa» xalçasını satması ilk baxışda adi bir vəziyyət kimi görünür. Əslində oğlunun toy günü üçün qiymətli bir hədiyyə kimi saxlanan bu xalça «əbədi və təmiz bir məhəbbətin» timsalıdır. Belə bir hədiyyəni satmaq onun qüruruna toxunur. Ana ingilisin saydığı «sarı və buz kimi soyuq qızılların bir-bir əlinə toxunduğunu» hiss edərkən adi bir fəhlənin sözü onu sanki yuxudan ayıldır: «Verin, verin aparsın fahişələrə fərş eləsin. Qoy onu toxuyanlar quru yerdə qalsın. Ay bədbəxt, qafil müsəlman» (5 - s.196). Yaradıcılıq axtarışları yolunda olan Mir Cəlal xeyirxah bir insan, savadlı bir vətəndaş kimi xalqına xidmət

etməyə, gənclik ehtirası ilə mühüm təşəbbüslərə qoşulmağa həmişə can atırdı. Gədəbəy, Gəncə məktəblərində müəllimlik edəndə, ictimai təşkilatlarda fəaliyyət göstərəndə, Azərbaycan rayon və kəndlərinə (Bərdə, Göyçay, Qaraməryəm, Qarabaqqal, Bığır və s.) gedib tədbirlər, gəlir bölgüsü və pambıq yığımı kompaniyaları keçirəndə, Bakıda aspiranturada oxuyub «Kommunist», «Gənc işçi» qəzetlərində işləyəndə həyatla, adamlarla yaxından tanış olurdu. Mir Cəlal etiraf edirdi ki, ilk oçerklərini məhz həmin səfərlərdən, əlaqə və münasibətlərdən aldığı canlı təəsürat əsasında yazmışdır. Dövrün tələbinə uyğun olaraq «Sağlam yollarda» (1932) adlandırdığı kitabı ədibin müasir həyatla, xalqımızın fədakar əməyi və mübarizəsi ilə əlaqəsini göstərirdi. Kitabda «Qələbənin açarı», «Səsimizi dünya eşitsin», «Özək raport verir», «Münəvvəri dinləyin!», «İşləməyən dişləməz», «Bayrağı bərk saxla», «Volqamn qucağında», «Zavodun tərcümeyi-halı» kimi oçerklər toplanmışdır. Oçerklər adamlarımızın həyatında, məişətində, əhvali-ruhiyyəsi və işində yaranan yenilikləri faktlar əsasında əks etdirirdi. Həyatın müxtəlif sahələrində görünən, əldə edilən nailiyyətlər yazıçının qələminə hərarət verir və oçerklərin vətənpərvərlik ruhunu artırırdı.

1941-ci ildə tamamlanan, lakin müharibə başlandığı üçün 1944-cü ildə ("Vətən uğrunda", №2, 3, 4-5) çap olunan "Açıq kitab" müəllifin nisbətən az öyrənilmiş, müasir mövzulu ilk romanıdır. Əsərin süjeti bilavasitə ziyalı mühiti, məktəb həyatı ilə bağlansa da, o sahə ilə məhdudlaşmır, 30-cu illərin mürəkkəb hadisələrindən də bəhs olunur. Dövrün bir sıra nöqsan və mənfilikləri cəsarətlə açıqlanır, "gəldiyevçiliyin" ictimai xarakteri dürüst müəyyənləşdirilirdi. O zaman haqqında müxtəlif mülahizələr söylənən roman həm yüksək qiymətləndirildi, həm də kəskin tənqid olundu. Bəziləri onu "həqiqətin üzünə dik baxan əsər", Mir Cəlalı "ədəbiyyata həyat gətirən yazıçı" adlandırır, bəziləri də "Açıq kitab"a başqa cür yanaşır, müəllifi həyat həqiqətini təhrif etməkdə, varlığı birtərəfli qələmə almaqda, mütərəqqi realist ənənələrdən uzaqlaşmaqda, zəif və sönük əsər yazmaqda günahlandırırdı. Əsərin əsas "qəhrəmanı"(“Açıq kitab”) Kərim Gəldiyevdir. Mir Cəlal bu obraz vasitəsilə vətənə, millətə, xalqa yabançı olan, təmiz və namuslu insanlara quyu qazan, böhtan atan, kiçik-murdar güzəranı naminə onlarca istedadların yolunu kəsən, ailələr dağıdan adamların ümumiləşdirilmiş obrazıdır. Açıq, birbaşa tənqid-ifşa romanın bütün mətninə hopub. O zaman roman çap olunanda ("Vətən uğrunda" jurnalı, 1944) ədəbi aləmdə böyük əks-səda doğurmuşdur. Tənqidçi və ədəbiyyatşünaslardan Məmməd Cəfər, Orucəli Həsənov əsəri yüksək qiymətləndirmişlər.

O, hekayə janrının inkişafında və formalaşmasında xüsusi xidmətləri olan sənətkarlarımızdandır. Yazıçının hekayələri haqqında keçən əsrdə bir sıra mətbuat səhifələrində ədəbiyyatşünas alimlərin məqalələrində rast gəlirik. Belə ki, M.Rzaquluzadə “Nəsrimizdə kiçik hekayə” (Ədəbiyyat qəzeti, 1939, 24 aprel) sərlövhəli məqaləsində “Gözün aydın” hekayəsindən danışır, Z.Xəlil “Ədəbiyyatımızda ailə və məişət məsələsi” məqaləsində (Ədəbiyyat qəzeti, 1940, 25 oktyabr) “Şəxsi məsələ” hekayəsindəki ailə məsələsinin də təhlilini vermişdir.

M.Arif “Qəzəbli hekayələr” (Ədəbiyyat qəzeti, 1941, 11 dekabr), Ə.Mirəhmədov “Mir Cəlalın yeni hekayələri” (Ədəbiyyat qəzeti, 1943, 13 fevral) məqaləsində yazıçının hekayə yaradıcılığından bəhs edir. Y.Əzimzadə “Həyat hekayələri”ndə (Ədəbiyyat qəzeti, 1946, 3 iyul) eyni adlı hekayəsi haqqında, R.Rza “Uşaq ədəbiyyatının ideya və bədii səviyyəsinin yüksəlişi uğrunda” məqaləsində (Ədəbiyyat qəzeti, 1952, 16 yanvar) “Söyüd kölgəsi” hekayəsindən də yazıb. Qulu Xəlilovun “Hekayələr haqqında” məqaləsində (Ədəbiyyat qəzeti, 1954, 10 aprel) “Badam ağacı” hekayəsindən bəhs olunur. B.Nəbiyevin “Yeni hekayələrimiz haqqında” (“Azərbaycan”, 1958) məqaləsində Mir Cəlalın məişət mövzusunda yazdığı satirik hekayələrindən, M.Kamranın “Hekayələrimiz haqqında” məqaləsində (“Kommunist”, 1955, 15 mart) Mir Cəlalın “Ulduz”, “Badam ağacları” hekayələrindən danışılır. Ə.Hüseynovun “Mir Cəlalın hekayələri” (“Azərbaycan”, 1956, № 2, s.137-149).

Ümumiyyətlə, Mir Cəlalın yaradıcılığı çox zəngin və genişdir. Araşdirma zamanı məlum olur ki, onun ədəbi fəaliyyətində jurnalistika da mühüm yer tutmuşdur. Bir fakt: “Müxbir” şeirində bir müxbirin həyatını təsvir etmişdir. O, müxbirlərin həyat hadisələrini doğru-düzgün əks etdirməli olduqlarını diqqətə çatdırmışdır. Nəticədə, Mir Cəlal müasir jurnalistika məktəbi və gənc müxbirlər üçün bir örnək yaratmışdır.

İstifadə olunmuş ədəbiyyat

1. Mir Cəlal. Seçilmiş əsərləri: hekayələr və romanlar. Bakı, Çaşıoğlu, 2005, 479 s.
2. Mir Cəlal. “Bir gəncin manifesti” Bakı, Azərnəşr, 1964, 451 s.
3. İsa Həbibbəyli. Ədəbi şəxsiyyət və zaman. Bakı, “Elm və Təhsil”, 2017, 617 s.
4. Yaqub İsmayılov. Mir Cəlalın yaradıcılığı. Bakı, “Elm,” 2010, 292 s.
5. Əhəd Hüseynov, Mir Cəlalın bədii nəsri. Bakı, “Elm və təhsil”, 2011, s.196.
6. Himalay Ənvəroğlu. Ustad sənətkar, qüdrətli ədəbiyyatşünas, böyük pedaqoq. “Xalq qəzeti”, 22 fevral 2008-ci il.

ДЖАФАРОВ Ш.Д

REZЮME
МИР ДЖАЛАЛ И ПРЕССА

Основанный в ноябре 1923 года журнал «Восточная женщина» был изменен в 1938 году. Позднее этот журнал назывался «Азербайджанская женщина». За время существования журнала с ним сотрудничали многие известные деятели азербайджанской литературы. В издание вошли произведения Мир Джалала, Мирзы Ибрагимова, Ильяса Эфендиева, Самеда Вургу, Расула Рзы, Нигяр Рафибейли, Мирварида Дилбази и других выдающихся азербайджанских поэтов и писателей. В газете, вышедшей 27

октября 1919 года под названием «Молодой рабочий» и переизданной под названием «Азербайджанская молодежь» в июле 1945 года, печатались старые журналисты Ширмамед Гусейнов, Фамиль Мехди, писатели и поэты - Сулейман Рагимов, Мехди Гусейн. , Ильяс Эфендиев., Мир Джалал, Наби Хазри, Халил Реза, маэстро Ниязи и другие были внештатными корреспондентами редакции.

Мир Джалал Пашаев, начавший свою литературную деятельность в 1928 году, долгое время работал заведующим отделом в газете «Коммунист» и ответственным секретарем в газете «Гяндж Ярби». Адиб начал писать рассказы в 1930 году. Писатель того времени «Шарк женщина" ("Азербайджанская женщина"), "Молодой рабочий" ("Азербайджанская молодежь"), "Революция и культура" ("Революция и культура"), "Литература и искусство" ("Литературная газета") и другие престижные издания "Доктор Жинайтов", "Экспозиция", "Человек в центре", "Нахалаф", "Бостан огрусу", "Шоу Сила», «Использование», «Дазгях кызы» и другие. опубликовал свои рассказы и романы.

Важнее обратить внимание на некоторые его работы, опубликованные в периодических изданиях. Например, в повести «Дазгях кызы» Мир Джалал, в отличие от многих других своих произведений, не показывает героя непосредственно у станка, в условиях труда и производства. Он использует другую форму подачи копии... В целом творчество Мир Джалала очень богато и широко. В ходе исследования выясняется, что немаловажное место в его литературной деятельности занимает и журналистика. Не ошибемся, если скажем, что Мир Джалал буквально создал современную школу журналистики и пример для молодых журналистов. Поэтому для современных журналистов очень важно иметь в качестве объекта исследования публицистическую деятельность писателя.

Ключевые слова: журналист, маэстро, рассказ, роман, молодой репортер, пример

Jafarov Shakir

MIR JALAL AND THE PRESS
SUMMARY

Founded in November 1923, the name of the magazine called "Eastern Woman" was changed in 1938. Later, this magazine was called "Azerbaijani woman". Since the beginning of the magazine, many well-known people of Azerbaijani literature have worked with this magazine. The publication includes the works of Mir Jalal, Mirza Ibrahimov, Ilyas Efendiyev, Samad Vurgun, Rasul Rza, Nigar Rafibeyli, Mirvarid Dilbazi, and other famous Azerbaijani poets and writers.

The newspaper, published on October 27, 1919 under the name "Young Worker" and republished under the name "Azerbaijani Youth" in July 1945, featured old journalist Shirmammad Huseynov, Famil Mehdi, writers and poets - Suleyman Rahimov, Mehdi Huseyn, Ilyas Efendiyev. Mir Jalal, Nabi Khazri, Khalil Reza, maestro Niyazi and others were part-time officials of the editorial office.

1 Mir Jalal Pashayev, who began his literary career in 1928, worked for a long time as a department head in the newspaper "Communist" and as a responsible secretary in the newspaper "Ganj rabari". Adib started writing stories from 1930. The writer of that time "Sharq woman" ("Azerbaijani woman"), "Young worker" ("Azerbaijani youth"), "Revolution and culture" ("Revolution and Culture"), "Literature and Art" ("Literary Newspaper") and other prestigious publications "Dr. Jinayətov", "Exposure", "Center Man", "Nakhalaf", "Bostan oglu", "Show of Power" , "Usage", "Dazgah gizi" and others. they published their stories and novels. It is more important to pay attention to a few of the works printed in periodicals. For example, in "Dazgah gizi" Mir Jalal, unlike many other works, the hero is directly at the loom, a display of labor and production products. It uses a different form of copy production...

Mir Jalal's creativity is long and extensive. During the research, it becomes clear that journalism also occupies an important place in his literary activity. We would not be wrong if we say that Mir Jalal created a modern school of journalism and an example for young professionals in the truest sense of the word. That's why it is very important for today's work to have the writer's journalistic activity as a research object.

Keywords: journalist, maestro, story, novel, young reporter, example

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi Himalay Qasımov, filologiya elmləri doktoru, professor tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏFAHƏT MÜZƏFFƏR OĞLU ƏLİYEV
Bakı Avrasiya Universiteti
E-mail: yeniavrasiya@gmail.com

QƏRBİ AZƏRBAYCAN: FOLKLOR MÜHİTİ, REGİONUN ŞİFAHİ ƏDƏBİYYAT ÖRNƏKLƏRİ, TÜRKÜN QƏDİM MƏDƏNİYYƏT BEŞİYİ TİMSALINDA

Xülasə:

Qərbi Azərbaycan türkün qədim mədəniyyət ocaqlarından biri kimi müxtəlif istiqamətli təhlillərin mövzusuna çevrilmiş və bu gün də özünün ictimai-siyasi, ədəbi-mədəni, tarixi-coğrafi mənzərəsi ilə ciddi araşdırmalara şərait yaradır. Dağıdılmış, məhv edilmiş bu qədim mədəniyyət ocağı on doqquzuncu yüzilliyin ilk onilliklərindən günümüzə qədər humanitar fəlakətlə üz-üzə qalmış, müxtəlif səpkili qarşıdurmaların, ziddiyyətlərin acılarını yaşamışdır. Rus çarizminin əli ilə həyata keçirilən işğalçılıq siyasəti, erməni məkrinin bitib-qurtarmayan "oyunlarına", dəhşətlərinə şahidlik etmişdir. Xalqın zəngin şifahi və yazılı mədəniyyəti , eləcə də gəlinən yolun tarixi dinamikasını təfsilatı ilə təqdimə üstünlük vermiş, nəğmə, bayatı, məsəl, əhvalat, hadisə, rəvayət, nağıl, dastan səviyyəsində gələcəyə daşımaq yolunu tutmuşdur.

Bəşər sivilizasiyasının qədim mədəniyyət ocaqlarından olan İrəvan, Zəngəzur, Göyçə, Axıska, Dərələyəz, Gümrü, Hamamlı, Lori, Ağbaba, Dərəçiçək və s. zəngin mədəniyyət abidələri ilə tarixə yol yoldaşlığı etmiş və özünün əsrarəngiz fakturası ilə səyyahların, coğrafiyaşünasların, müxtəlif yönlü elm və sənət adamlarının marağına səbəb olmuşdur. Humanitar fəlakətin son mərhələsi monoetnikləşdirmə örnəyi kimi bəşər tarixinə yaddaşına insanlığın faciəsi kimi yazılmışdır. Qərbi Azərbaycan bir tarix və yaddaş hadisəsi olaraq gələcək nəsillərə olanları ilə, daha doğrusu, sakinlərinin müxtəlif səpkili söyləmələri ilə kitablaşaraq daşınır.

Açar sözlər: Qərbi Azərbaycan, erməni işğalı, köç, qədim Oğuz yurdu, xalq yaradıcılığı, rəvayət, atalar sözü, bayatı, dastan və s.

Shafahat Muzaffar oglu ALIYEV
PhD student at Baku Eurasian University
E-mail: yeniavrasiya@gmail.com

Abstract:

As one of ancient centers of the Turkish culture, Western Azerbaijan has become a subject of various analyses, and today it creates conditions for serious analyses with its public-political, literary-cultural and historical-geographical nature. The destroyed and perished ancient culture has faced humanitarian disaster since the first decades of the nineteenth century and suffered the damage of various conflicts and contradictions. The occupation policy conducted by Russian tsarism has

witnessed myriad horrors of Armenian machinations. The abundant oral and written culture of the nation has preferred the presentation of the history so far in detail, and was intended to pass them on to future as an old song, bayati, saying, story, event, narration and dastan.

Iravan, Zangazur, Goycha, Akhiska, Daralayaz, Gumru, Hamamli, Lori, Aghbaba, Darachichak, the ancient cultural centers of human civilization have gone into history with their abundant historical monuments and drawn the attention of different travellers, geographers and artists with their fabuluous texture. As an example of mono-ethnicization, the last stage of the humanitarian disaster has gone into history as a tragedy of humanity. The Western Azerbaijan is transmitted to future generations with its belongings or rather by writing books on various narrations of its residents.

Key words: Western Azerbaijan, Armenian occupation, migration, ancient Oghuz land, folk creativity, narration, proverb, bayati, dastan etc.

Шафахат Музаффар оглы АЛИЕВ
Докторант Бакинский Евразийский Университет
Электронная почта: yeniavrasiya@gmail.com

Резюме:

Западный Азербайджан, как один из древних центров тюркской культуры,стал предметом различных исследований и сегодня своей общественно-политической,литературно-культурной,историко-географической фактурой создает условия для серьезных анализов. Этот разрушенный и уничтоженный древний культурный центр с первых десятилетий девятнадцатого века столкнулся с гуманитарной катастрофой, испытал на себе последствия различных конфликтов и противоречий. Он был свидетелем оккупационной политики, проводимой со стороны русского царизма, видел все бесконечные ужасы армянских козней. Богатую устную и письменную культуру народа, а также историческую динамику грядущего он предпочитал излагать в деталях и шел по пути переноса ее в будущее посредством песен, старинных поговорок, пословиц, сказок, событий, повестей, сказок, былин.

Иреван, Зангезур, Гейча, Ахыска, Дарелаяз, Гюмру, Хамамлы, Лори, Агбаба, Деречичек и др., относящиеся к числу древних культурных центров человеческой цивилизации, сопровождали историю своими богатыми культурными памятниками и своей загадочной фактурой вызывали интерес путешественников, географов, ученых и художников. Заключительный этап гуманитарной катастрофы на примере моноэтничности вписан в историю как трагедия человечества. Западный Азербайджан, как событие истории и памяти, передается грядущим поколениям посредством книг, а точнее, разножанровых рассказов его жителей.

Ключевые слова: Западный Азербайджан, армянское нашествие, переселение, древняя огузская страна, народное творчество, повествование, пословица, сказка, сага и др.

Giriş. Təxminən otuz illik zaman məsafəsində toplanıb nəşr olunan Qərbi Azərbaycan folklor örnəkləri bütün parametrlərdə zəngin xalq irsini qorumaq baxımından cəlb edir. Ümumiyyətlə, dünya folklor mədəniyyəti bütün səviyyələrdə (paradiqmatik səviyyə, sintaqmatik səviyyə, janr səviyyəsi) mətn//mühit münasibətləri müstəvisində əvəzsiz rol oynayır. Qərbi Azərbaycan folklor mühiti də öz gələnəyi, ortaya qoyduğu yaddaş formulası ilə özünüifadənin seqmenti kimi bütün kontekstlərdə möhtəşəmlik sərgiləyir. "Azərbaycan folkloru antologiyası" seriyasından çıxan "Göyçə folkloru" (III cild), "Qaraqoyunlu folkloru" (VII cild), "Ağbaba folkloru" (VIII cild), "İrəvan çuxuru folkloru" (X cild), "Zəngəzur folkloru" (XII cild), "Dərələyəz folkloru" (XV cild), "Göyçə dastanları və aşıq rəvayətləri", "Göyçə aşıqları və el şairləri", "Daşkənd aşıqları və el şairləri" və s. bunun bariz nümunəsidir.

Regionun şifahi ədəbiyyat örnəkləri. Qərbi Azərbaycan foklor abidələrində əksini tapan rəngarəng örnəklər toplumun mədəniyyət və həyat təsəvvürlərini olduğu kimi əks etdirir. Ümumiyyətlə, folklor strateji müəyyənlik kodu olaraq etnosun mövcudluq və yaşam fəlsəfəsinin təzahür tipidir. Qərbi Azərbaycanda isə bunun intəhasızlığı heç nə ilə müqayisə olunmayacaq imkanlılıqla özünü göstərir. Çünki "folklor etnik mədəniyyətin müxtəlif təzahür tiplərinin genezisində də dayanır, başqa sözlə, həmin tiplərin millilik keyfiyyəti folklora münəccər olunur" **(13, 31).** Folklorun mətn konteksti və onun ifadə tipi kimi müxtəlif yanaşmalarda işarə modeli olaraq üst qatda olandan əlavə, alt qatda daha dərin mətləbləri də ehtiva edə bilmək funksiyası ilə çıxış edir.

Regionun şifahi və yazılı ədəbiyyat örnəkləri tarix, mədəniyyət, etnik milli-mənəvi dəyərlər, mənəvi azadlıq formasında etnosun geneologiyasına dayanan nə varsa hamısını əhatələmək imkanları ilə əvəzsizdi. Məlum olduğu kimi, "etnomilli mədəniyyət sistemində mühüm struktur vahidlərindən birini folklor təşkil edir. Bunu şərtləndirən başlıca səbəb odur ki, folklor yazılı ədəbiyyatdan fərqli olaraq, dolayısı ilə deyil, birbaşa, bilavasitə onu yaradan mədəni subyektin – etnosun təfəkküründün etik-estetik təzahürü kimi meydana çıxır*"* **(11, 101-102)**. Qərbi Azərbaycan folkloru timsalında problemin nəzəri-mədəni aspekti daha fundamental və həm də son dərəcədə mükəmməl formada özünü göstərir. Ümumiyyətlə, bütün parametrlərdə folklor etnik-milli mədəniyyətdə milliliyin meyarı və həm də etalonu olaraq özünü təzahür etdirmək xüsusiyyəti ilə səciyyəvilik qazanır.

İrəvan, Zəngilan, Göyçə, Dərələyəz, Gümrü və s. bölgələrin müxtəlif zaman kəsiklərində yaranmış çeşidli folklor örnəkləri mühiti xalqın tarixini əks etdirir. Bunların böyük bir qismində tarixi mənzərə daha qədimləri, əski təsəvvürdən Rusiyanın işğalına qədər olanları əhatələyirsə, digər bir hissəsi son iki yüzillik

zamanın məşəqqətlərinə dayanır. Köçkünlük, qəriblik, həsrət, yurd nisgili, ayrılıq, müxtəlif tarixi hadisələri işarələyən faktlar və s. bölgənin folklor resurslarında özünə daha çox yer alır. Məsələn, folklorşünas P.Əfəndiyev bir folklor dəftəri örnəyindən tipik olacaq nümunəni təqdim edir. "Bu dəftərə hələ çox sinələrdə yatıb qalımş şirin söhbətləri toplamaq istərdim. Ancaq çox təəssüf, mənim ümidlərim, arzularım kimi bu dəftər də yarımçıq qaldı. Qulaqlarımda ancaq pulemyotun, topun, qrad qurğularının atdığı od, alov, atəş səsi qaldı. Erməni ordusu artıq qonşu Xanlıq kəndini zəbt edib. Bu dəhşəti qələmə ala bilmirəm. Ayaqyalın dağdan aşıb, çaydan keçən qız, gəlinin, anaların fəğanı tük ürpədir. Biz kənddən çıxanda artıq erməni tankları dağı aşıb bizim kəndə enirdi. Kənddən bir qədər uzaqlaşdıqca tankdan dəhşətli bir atəş açıldı. Bu mərmi bizim evi alt-üst etdi.

Bir əsrdə bu faciə bu rayonda ikinci dəfə təkrar olunurdu. Mənim yarımçıq qalmış düşüncələrim də təkrar olunurdu. Yeni heç nə yox idi. Doğrudanmı, müqəddəs sandığım bu torpaq düşmən ayaqları altında əzilirdi.

Ağla ana torpaq, ağla kimsəsiz qalan məzarlar, ağla, ana! Ağla ki, Vətən övladı bu səbəbdən ayağa qalxsın. Qalxsın, əyilməsin"! **(8, 308-309)**. Bir tələbə qızın folklor toplu dəftərindən verilən bu örnək bütünlükdə işğal, işğalçı, yurd yeri, vətən, vətən sevgisi, köç kimi məsələləri özündə sərgiləyir. Bunun bədiilik yanğısı isə bayatı, nəğmə, rəvayət və s. formalarda özünün ifadəsini taparaq tarixə yol yoldaşlığı edir.

Əzizim, yalın dağlar,
Dərd-qəmə dalın, dağlar.
Köç qalxdı gedər oldum,
Sağlıqla qalın, dağlar. **(8, 277)**.

Onu da əlavə edək ki, iki yüz illik zamanın ağrılarını folklor yaddaşı qədər əhatələyən başqa bir düşüncə örnəyi tapmaq çətindi. Ədəbiyyatın həm yazılı, həm də şifahi qolu, eləcə də tarixçilər, etnoqraflar, müxtəlif sənət adamları (məsələn, rəssamlar) köç problemini, böyük bir etnosun yerindən-yurdundan didərgin salınmasını müxtəlif səviyyələrdə faktlaşdırmışlar. Onların hər birinin reallığı əksetdirmə baxımından öz yeri vardır. Ancaq folklorun bu istiqamətdəki çalışmaları reallığı əks etdirmə baxımından tamamilə fərqlidir.

Haradı vətən yolu,
Aradım itən yolu.
Sinəm üstdən sel qırdı,
Köysümdən ötən yolu. **(9, 104)**.

Bu nümunə iyirminci yüzilliyin səksəninci illərinin köçürmə prosesini əks etdirir və vətən həsrətini, itən yolun acılarını özündə ehtiva edir. Burada əlavə olunur ki, "həsrətin yolu qısa, intizarın ömrü gödək olar. Otlar, alaqlar bassa belə, cığırlarını tapar, sellər-sular kəssə belə yolumuzu, keçərik, təki Sən unutma bizi, Ana Vətən"! **(9, 102)**. Qərbi Azərbaycanın ayrı-ayrı bölgələrində yaranmış və oradan toplanmış

çeşidli örrnəklər mühiti, humanitar fəlakət səviyyəsində baş verənləri və yaşananları bütün təfsilatı ilə əks etdirə bilmək gücündədir.

Folklor elə ecazkar mədəniyyət hadisəsidir ki, bir ştrix, epizod, misra, hadisə ilə böyük bir tarixi olayı əks etdirə bilir. Qərbi Azərbaycanın rəngarəng şifahi yaddaş örnəkləri bölgəni, tarixi, sosial-siyasi mənzərəni ifadə formulası ilə xalqın bütün yaşam tərzini, qarşılaşdığı hadisələri, iki yüz illik zaman ərzində baş verənləri əhatələmək baxımından əvəzsizdir. "Azərbaycan folkloru konservativ mühit hesab edilən Qərb bölgəsində daha saf şəkildə qorunub saxlanmışdır. Tarixi Azərbaycan torpağı olmuş, ötən əsrin sonlarınadək Azərbaycan türklərinin yaşadığı Dərələyəz mahalı da Qərb bölgəsinin belə regionlarından biridir. Qərbi Azərbaycanın digər bölgələrində olduğu kimi, Dərləyəz mahalından da azərbaycanlılar son nəfərinə qədər qovulmuş, əhali soyqırıma məruz qalmışdır. Ermənilərin bu siyasətinin ziyanı eyni zamanda, həmin bölgənin zəngin maddi və mədəniyyət abidələrinə, xüsusən də folkloruna dəymişdir" **(2, 8)**. Qərbi Azərbaycan folklorunun zənginliyi bir istiqamətdə soyqırım, humanitar fəlakət səviyyəsində ciddi itkilərə məruz qalmışsa da, digər istiqamətdə baş verənlərin timsalında isə yüz ilin irticasına hesablanan yeni örnəklərin təbii yaranmasını da qaçılmaz etmişdir. Coğrafi baxımdan etnosun itirdikləri onun folklorunda qorunmuşdur. Bütün bunlar problemin humanitar fəlakət mənzərəsini müxtəlif aspektlərdə (Qərbi Azərbaycan aspekti, ortaq türk aspekti və Ümumşərq aspekti) təhlilə gətirməyi milli məsələ səviyyəsinə qaldırır.

Nağıl, rəvayət, məsəl, atalar sözü, dastan, aşıq yaradıcılığı və s. baş verənləri humanitar fəlakət səviyyəsində əks etdirməklə imperiya məfkurəsinin mahiyyətini diqqət önünə gətirir. Məsələn, "Göyçə folkloru" antologiyasında **(6)** özünə yer almış əfsanələr ("Göyçə gölü", "Uğuz qəbri", "Bəzirgan qayası", "Xor-xor", "Ağ daş, qara daş", "Kəmənd qaya", "Qırxbulaq", "Pir dağı", "Pəri bulağı", "Ağca qala", "Qoşabulaq", "Qız qalası", "Daş çoban", "Subatan" və s.), rəvayətlər ("Balığı at dəryaya, balıq bilməsə də, xalıq bilər", "Bəynən bostan əkənin tağı çiynində bitər", "Tələ yiyəsi gəlib tələsini açacax", "İlanın ağına da lənət, qarasına da", "Cığal Həsən", "Bəylik kəndi", "Ehtiyatlı ol" və s.), lətifələr ("Bir od yox, ikisini gətirdim", "Rəhmətlik tanış çıxdı", "Fəndini də gətirin", "Oralar kişi yeridi", "Al, zurnanı çal", "Dadanıb qaz ətinə", "Sən də keçini vermə", "Yükünü ağır elə", "Pristav olan yerdə it lazım deyil", "Kərkin başını kəssin", "Gülalı İrəvana gedir", "Bax, belə oldu, yıxıldım" və s.) bütöv bir mədəniyyət və düşüncə fondu olaraq etnosun yaşam fəlsəfəsini aydınlaşdırır. Belə bir zənginliyin düşünülmüş və məqsədli şəkildə sıradan çıxarılması humanitar fəlakət səviyyəsində təkcə Qərbi Azərbaycanın deyil, bütünlükdə insanlığın fəlakətidir.

Türkün qədim mədəniyyət beşiyi. Türkün qədim mədəniyyət beşiklərindən olan Göyçə, İrəvan, Dərələyəz, Ağbaba ozan-aşıq yaradıcılığından gələn düşüncəni əks etdirmək baxımından da funksional mənzərə ilə diqqət önünə gəlir. İbtidai təsəvvürlərə bağlanan mühitin ozan-aşıq gələnəyi çar Rusiyasının işğalından sonra Göyçə istisna olunmaqla tədrici prosesdə öləzimiş və sıradan çıxmaq vəziyyətinə

qədər çatdırılmışdır. Lakin bu mühitlərin zəngin informasiya bazası dastanlarda, xalq rəvayətlərində özünə geniş yer almışdır. Məsələn, Aşıq Alı ilə bağlı söyləmələr, eləcə də Aşıq Ələsgərlə əlaqədar yaranmış dastan-rəvayətlər bunun göstəricisidir "1988-1989-cu illərdə Sovet hökumətinin himayədarlığı ilə ermənilər azərbaycanlılara qarşı etnik təmizləmə və milli soyqırımı siyasəti həyata keçirdilər. Ermənistan adlanan qədim türk torpaqlarından, o cümlədən, Ağbab-Şörəyel mahalından azərbaycanlılar axırıncı nəfərinədək deportasiya olundu. Yüzlərlə insan vəhşicəsinə qətlə yetirildi.

"Xalqımıza dəyən maddi ziyanın ölçüsü olmadığı kimi, folklorumuza vurulan zərbələri, mənəvi sərvətlərimizə edilən qəsdləri heç nə ilə ifadə etmək mümkün deyildir" **(1, 5)**. Zəngin folklor örtüyü, eləcə də yazılı ədəbiyyatdan gələnlər, milli və ümumtürk səviyyəsində təhlillərə zərurət yaratmaqla, həm də onun sistemini bir zərurət olaraq açmağa ehtiyac doğurur. Bütünlükdə böyük bir coğrafi atlası əhatələyən dastan-rəvayətlər mühitin özgürlük nişanıdır. Həmin dastan-rəvayətlərdə köç, erməni təcavüzü müxtəlif səviyyələrdə ifadəsini tapır. Məsələn, Aşıq Ələsgərlə bağlı yaranan "Aşığın qocalığı" dastan-rəvayətində deyilir: "1917-ci ildə Nikolay yıxılanda hamı sevindi. Bir az keçməmiş Göyçədə daşnaxlar peyda oldular. Başladılar camaatın əlində olanını almağa. Daşnaxların qoşunu haraya gedirdisə, o kəndi soyurdu.Müsəlman kəndlərinin çoxunu yandırdılar" **(5, 362).** Foklorda ermənilərin xəyanətkar obrazı bütün mahiyyəti ilə əhvalat, hadisə, dastan və s. şəklində özünə yer almışdır.

Hanı mən gördüyüm qurğu büsatlar?!
Dərdi-məndlər görsə, tez bağrı çatlar;
Mələşmir sürülər, kişnəşmir atlar,
Niyə pərişandı halların, dağlar?! **(4, 87).**

Göründüyü kimi, poetik örnək 1905-ci və 1918-ci illərdə baş verən erməni təcavüzünü, xalqın hansı faciələrə düçar olmasını, köç mənzərəsini yüksək ustalıqla əks etdirir. Sözün hadisə və əhvalat səviyyəsində işarələdiyi informasiya erməni tipini insanlığın bəlası kimi obrazlaşdırır.

Qərbi Azərbaycan folklor mühiti ayrı-ayrı bölgələr timsalında lokal (regional) səviyyənin zənginliyini və hansı etnoqrafik möhtəşəmliyə yükləndiyini diqqət önünə gətirir. Məsələn, Ağbaba folklor **(7)** zənginliyində nəzərə çarpan əfsanə və rəvayətlər ("Gəlin qaya", Mumaq xan", "Qoyun dağı", "Canavar bulağı", "Yeddi bölük", "Cəhənnəm pulu", "Xata nökərdən dəydi" və s.), aşıq rəvayətləri ("Ellərkənddi Bilalın ermənilərlə qabaqlaşması", "Aşıq Şenliyin Nəsifnən görüşməsi", "Çorru Məhəmmədin Suxara səfəri", "Canbaz qızı", "Xəstə Hasanın Daşdıqullar səfəri" və s.) bütünlükdə lokal səviyyədə regionun tarixi-mədəni, ictimai-siyasi mənzərəsini əhatələyir.

Son dərəcədə fundamental təhlillər ilə diqqət önünə gələn bu mühit dəfələrlə erməni təcavüzlərinə, qırğınlara, fəlakətlərə məruz qalmışdır və son mərhələsi 1988-ci ildə etnik təmizləmə, monoermənişləşdirmə ilə yekunlaşdı. "1918-1920-ci illərdə

gəlmə ermənilərin törətdiyi kütləvi qırğınlar nəticəsində Ağbaba əhalisinin bir qismi Türkiyənin Qars vilayətinə köçmüş, bir hissəsi isə erməni "təmərgüzləşməsi" nəticəsində ağır məhrumiyyətlərə düçar edilmiş, kəndləri xarabazara çevrilmişdir. Rəsmi sənədlərdən məlum olduğu kimi, keçən əsrin əvvəllərində Ağbabada rus imperiyasının havadarlığı ilə ermənilər tərəfindən bölgə kəndlərinin təxminən yarısı 50-ci illərədək yerlə-yeksan edilmişdir" **(10, 6).** Düşünülmüş və məqsədyönlü imperiya siyasətinin tərkib hissəsi olan erməni vandalizmi təkcə cismani mövcudluğa varlığa təhlükə yaratmamış, həm də zəngin maddi və mənəvi atlası sıradan çıxarmaq yolunu tutmuşdur.

Ucu-bucağı görünməyən zəngin folklor mədəniyyəti regionun etnoqrafik, musiqi, coğrafi, tarix, fəlsəfi qatındanxəbər verir. "Qərbi Azərbaycan, indiki Ermənistan adlanan yer, o cümlədən Dərələyəz mahalı sırf oğuz torpağıdır və bu yerlərdə hələ bizim eradan çox-çox əvvəllər də azərbaycanlılar yaşamışdır. Rus şovinistləri 1828-ci il Türkmənçay müqaviləsindən sonra bu yerlərə, o cümlədən Dərələyəzə Türkiyədən, İrandan, Suriyadan və başqa yerlərdən çoxlu erməni ailələri köçürüb məskunlaşdırdılar" **(12, 3).** İmperiyanın azərbaycanlılara yönəlik siyasəti və erməni streotipi dağıdıcı funksiyası ilə özü ilə birgə "erməni tipi"ni formalaşdırmışdır. Əzəli-əbədi türk torpaqları olan Qərbi Azərbaycanın etnik coğrafiyası müxtəlif səviyyələrdə köç, qəriblik, vətən həsrəti, yurd itkisi, soyqırım folklorunun yaranmasını qaçılmaz etmişdir.

"Vedinin yanı dağlar,
Ürəyi, canı dağlar,
Burda bir el vardı,
Siz deyin hanı dağlar"? **(12, 276)**-

yaşananların bariz örnəyidir. "Dərələyəz folkloru" antologiyasında toplanan Dərələyəzlə bağlı hadisə və əhvalatlar ("Qaçaq Nəbinin Dərələyəzdə qoburnatla döyüşü", "Canalı Cəlal bəylə Qaçaq Nəbinin döyüşü", "Qanlı dərənin qisası Bərk dərədə alındı" və s.) müxtəlif forma və biçimlərdə el bağrının başından qopmuş folklor örnəkləri böyük bir mədəniyyət layının məhəlli aspektlərini əhatə etmək baxımından diqqəti cəlb edir. Bütün bu zənginliklər onu yaradan etnosla birlikdə repressiya, deportasiya, soyqırımla üz-üzə qaldı və humanitar fəlakətin qurbanı olaraq olmazın acıları yaşadı. Beləliklə, etnosun Qərbi Azərbaycan timsalında coğrafi atlası erməni təcavüzü nəticəsində tarix səhnəsindən silinsə də, onun folklor atlası maddi və mədəniyyət fondu anlamında həmin tarixi və etnoqrafik zənginliyi gələcəyə daşımaq kimi bir funksiyaya köklənir.

Nəticə. Dədə Qorquddan üzü bəri daşınan etnoqrafik zənginlik, davranış və tərbiyə institutu, folklor yaddaşı mükəmməl mədəniyyət və mənəviyyat hadisəsi olaraq bölgənin tarixi-mədəni irsinə etnik müəyyənlik səviyyəsində öz möhürünü vurmuşdur. Ona görə də regionun mənəvi atlası onun coğrafi atlasını tamamlaya

bilmək gücündə görünür. Xalqın inam və etiqadları, mərasim folkloru, məişət zənginliyi, atalar sözü, məsəl, tapmaca, əfsanə, rəvayət, nağıl, dastan örnəkləri, musiqi fondu bunun göstəricisi olaraq milli kimlik səviyyəsində normativlik qazanmışdır. Ədəbiyyatın yazılı qolu da bunları əsas götürməklə yüksək keyfiyyət göstəriciləri ilə zaman və məkan tanımadan yoluna davam etmişdir.

Son iki yüzillik timsalında baş verənlər imperiya məfkurəsində tarixi yaddaşın zədələnməsi ilə müşayiət olunmuşdur. Gülüstan və Türkmənçay müqavilələrinin ortaya qoyduğu mənzərə sonrakı dönəmlərdə baş verən fəlakətlərin başlanğıcı olmuşdur. Ermənilərin tarixi Oğuz yurdlarına məqsədli olaraq yerləşdirilməsi perspektivdə imperiya ideolojisində müəyyənləşmiş baza prinsiplərinə hesablanmışdır. Yaxın-uzaq ərazilərdən köçürmələr, Qərbi Azərbaycan torpaqlarına ermənilərin yerləşdirilməsi siyasi sistemin strateji hədəflərini reallaşdırmaq üçün bir vasitə olmuşdur. On doqquzuncu yüzillikdə təməli qoyulan bu prosesin məkrli niyyətini sovet bolşevizmi iyirminci yüzillikdə daha kəskin şəkildə reallaşdırma yolunu tutmaqla erməni dövlətinin yaranmasına xeyir-dua vermişdir. Bədii düşüncə şifahi və yazılı axarda bütün bunları bir tarix, etnik kimliyin sarsıdılması kimi müxtəlif səviyyələrdə faktlaşdırmışdır.

ƏDƏBİYYAT

1. Ağbaba, A.İ. Ağbaba-Çıldır aşıq mühiti / A.İ. Ağbaba. - Bakı: Elm və təhsil, -2012. - 372 s.

2. Alıyev, A.A. Dərələyəz folklorunun regional xüsusiyyətləri / A.A. Alıyev. - Bakı: Dərələyəz-M, -2008. - 168 s.

3. Allahmanlı, M.Q. Mənəviyyat və vətənpərvərlik dərsliyimiz. İbrahimoğlu N. Öz kitabımız / M.Q. Allahmanlı.- Bakı: Ləman MMC, -2020. - 8-12.

4. Aşıq Ələsgər. 2 cilddə, I c., / Ələsgər Aşıq. - Bakı: Elm, -1972. - 326 s.

5. Aşıq Ələsgərlə bağlı dastan-rəvayətlər. (hazırlayanlar: M.Qasımlı, M.Allahmanlı, A.Xəlilova) / Bakı: Azərbaycan Aşıqlar birliyi, -2021. - 400 s.

6. Azərbaycan folkloru antologiyası. Göyçə folkloru. (toplayıb tərtib edəni H.İsmayılov). III c., / -Bakı: Səda, -2000. - 766 s.

7. Azərbaycan folkloru antologiyası. Ağbaba folkloru. (toplayıb tərtib edənlər: H.İsmayılov, T.Orucov), VIII kitab. / - Bakı: Səda, -2003. - 476 s.

8. Əfəndiyev, P.Ş. Azərbaycan folklorşünaslığının problemləri // P.Ş.Əfəndiyev. IV c. - Bakı: Elm və təhsil, -2010. - 424 s.

9. İbrahimoğlu, N. Öz kitabımız / N.İbrahimoğlu. - Bakı: Ləman MMC, -2020. - 174 s.

10. İsmayılov, H.Ə. Ağbab folkloru. (Azərbaycan folkloru antologiyası. Ağbaba folkloru. (toplayıb tərtib edənlər: H.İsmayılov, T.Orucov), VIII kitab,. H.Ə.İsmayılov. - Bakı: Səda, -2003. - 5-20 s.

11. İsmayılov, H.Ə. Azərbaycan folklorunun regional xüsusiyyətləri / H.Ə.İsmayılov. - Bakı: Səda, - 2006. - 326 s.

12. Mirzəyev, H.İ. Dərələyəz folkloru. VIII c., / H.İ.Mirzəyev. - Bakı: Elm, - 2006. - 768 s.

13. Rzasoy, S.G. Mifologiya və folklor: nəzəri metodoloji kontekst / S.G.Rzasoy. - Bakı: Nurlan, - 2008. - 188 s.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi filologiya üzrə fəlsəfə doktoru,
dosent Elmira Fikrət qızı Məmmədova-Kekeç
tərəfindən çapa tövsiyə olunmuşdur

ARZU TALIB QIZI HÜSEYNOVA
Gəncə Dövlət Universiteti
Mingəçevir şəh., D.Əliyeva küç., ev. 20/1, m.9
saadatmursaliyeva@gmail.com

HEYDƏR ƏLİYEV MİLLİ MƏDƏNİYYƏT ABİDƏLƏRİMİZİN QAYĞIKEŞİDİR

Açar sözlər: *abidə, millilik, mədəniyyət, arxaizm, paralellik*
Ключевые слова: *памятник, национальность, культура, архаизм*
Key words: *monument, nationality, culture, archaism, paralellism*

Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü il Heydər Əliyev ili elan edilib. Sərəncamda deyildiyi kimi, "*Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyev həyat amilinin təntənəsidir*" [10]. Onu demək lazımdır ki, Heydər Əliyev şəxsiyyəti hər bir zaman üçün Azərbaycan xalqının tarixi yaddaşında öz əziz xatirəsini, ictimai-siyasi və milli-mənəvi həyatında müasirliyini saxlayacaqdır. Heydər Əliyev taleyin Azərbaycan xalqına bəxş etdiyi elə bir əzəmətli, elə bir dahi şəxsiyyətidir ki, o öz müdrik zəkası ilə zamanın müdhiş zülmətlərini yarıb keçmiş və doğma vətənin azadlığa qovuşmasında tarixlərə örnək göstərmişdir. Heydər Əliyev dahilər içərisində zamanlara özünün milli vətənpərvərlik möhrünü vurmuş böyük bir şəxsiyyətdir. Heydər Əliyevin dahiliyi ondadır ki, o baş verə biləcək hadisələri görürdü və çətinlikləri dəf etmək üçün qabaqlayıcı tədbirlər hazırlayıb onları yaradıcılıqla həyata keçirirdi. Heydər Əliyev hələ Azərbaycan Respublikasına rəhbərlik etdiyi sovet diktaturası dövründə gənclərin fəal həyat mövqeyinə malik olması barədə öz müdrik tövsiyələrini verirdi. Göstərirdi ki, "*Fəal mövqe şəxsiyyətin əqidəsini, onun iradə zənginliyini, ideya-mənəvi düşüncələrini və keyfiyyətlərini ifadə edərək insana yeni-yeni məsələləri irəli sürüb həll etməkdə, çətin şəraitdə özünü itirməməkdə, qabiliyyətli hərəkət etməkdə öz üzərinə məsuliyət götürməkdə kömək edir. Fəal mövqe bəşəriyyətin hazırladığı bütün mənəvi sərvətlər ilə öz daxili aləmini zənginləşdirməyi tələb edir*" [4, s. 15; 12, s.56].

Heydər Əliyev milli düşüncənin mühüm bazası kimi qədim mədəniyyət abidələrimizin tədqiqi, nəşri, qorunması, saxlanması və təbliği sahəsində o zamana qədər misli görünməmiş tədbirlərin həyata keçirilməsi sayəsində böyük işlər görmüşdür. Xüsusən, xalqımızın müdriklik abidəsi olan "Kitabi-Dədə Qorqud"la bağlı aparılan işlər Azərbaycan milli düşüncəsinin təbliğinə, milli vətənpərvərlik tərbiyəsinin aşılanmasına yönəlmiş möhtəşəm tədbirlər silsiləsindən ibarətdir.

"Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi Heydər Əliyev tərəfindən 21 fevral 1999-cu il tarixində imzalamış 98 saylı Sərəncam əsasında keçirilmişdir [2]. Yubiley tədbirinə həsr olunmuş gecə Prezidentin imzaladığı 2000-ci il tarixli, 330 nömrəli Sərəncama əsasən Türkdilli dövlətlərin VI Zirvə toplantısına gəlmiş dövlət başçılarının iştirakı ilə Bakı şəhərində 2000-ci il aprelin 9-da keçirilmişdir [3]. Yubiley tədbirində ümummilli Lider Heydər Əliyev çıxış edərək demişdir ki, "*Ölkəmiz dövlət müstəqilliyini əldə edəndən sonra biz azərbaycanlılar öz tariximizi, tarixi keçmişimizi və tariximizdə mövcud olan mühüm hadisələri, mərhələləri yenidən təhlil edirik və onları müstəqillik mövqeyindən daha da obyektiv, doğru-düzgün yazmağa və həm ölkəmizin ictimaiyyətinə, həm də dünyaya çatdırmağa çalışırıq*" [9]. Buradan göründüyü kimi, Ulu Öndər "Kitabi-Dədə Qorqud"un nümunəsində ümumtürk təfəkküründə qaynaqları təməlindəki milli Azərbaycançılıq ideyalarının beynəlxalq aləmə yayılmasına da xüsusi diqqət yetirmişdir. Xatırlatmaq lazımdır ki, Sovet diktaturası dövründə Azərbaycan xalqının bir çox milli mədəniyyət abidələri kimi "Kitabi-Dədə Qorqud"un nəşri, oxunması, yayılması və təbliği qarşısında kəskin bir sədd yaradılmışdı. Belə nümunələrə "Xalq düşməni" damğası vurulması xalqın milli mədəni ənənələrini təsəvvürlərdən, tarixi yadigarları yaddaşlardan silməyə yönəldilmişdi. Bununla bağlı bir mənbədə göstərildiyi kimi, "*1951-ci ilin may ayında Azərbaycan KP-nin 18-ci qurultayında o vaxtkı respublika rəhbəri xalqımızın soykökü ilə bağlı olan və daha çox Azərbaycan dilinə yaxın olan "Kitabi-Dədə Qorqud"u antixalq və zərərli adlandıraraq onu ifşa etməyə çağırır*" [7].

Xalqın milli mədəni və tarixi keçmişi ilə bağlı bu cür qərəzli münasibətlərin mövcudluğunu nəzərə almaqla demək mümkündür ki, zaman insanları dəyişdirmir, onların təfəkküründə ziddiyyət yaratmır, zaman öz axarında gedir, ictimai şərait isə insan təfəkküründə yeniliklərlə təcəssüm olunur. Tarixi yaddaşın pozulmasına cəhd göstərilməsi isə heç bir kəsə heç bir vəchlə haqq qazandırmır. Cəmiyyətin, ictimai həyat hadisələrinin obyektiv dərki dəyişmir, o da öz axarında inkişaf edir. Bu mənada Heydər Əliyev şəxsiyyəti tarixlərə bir örnəkdir. Heydər Əliyevin milli mədəniyyətimizə münasibəti ilə bağlı bir yazıda bu həqiqət belə ifadə olunur: "*Siyasi mübarizədə müdriklik və qətiyyət, həyatda praqmatizm, dövlət idarəçiliyində ustalıq-Heydər Əliyev siyasi məktəbinin əsasını təşkil edən bu amillər Vətənə və xalqa xidmət naminə real siyasətlə məşğul olan hər bir kəs üçün tarixi örnəkdir. Heydər Əliyevi minlərdən, milyonlardan fərqləndirən üstün cəhət bu idi ki, o məmləkətin inkişafı üçün zəruri olan məqamları görə bilirdi, qarşıya konkret məqsədlər qoyurdu və insanları bu məqsədlər naminə səfərbər edirdi*" [5, s.4].

Heydər Əliyev xüsusən, gənc nəslin milli Azərbaycançılıq, milli vətənpərvərlik ideyaları əsasında tərbiyələnməsi üçün xalqın mənəvi mədəniyyət xəzinəsini yaratmış şəxsiyyətlərin irsinin öyrənilməsinə və təbliğ olunmasına çox yüksək qayğı ilə yanaşırdı. Heydər Əliyev Azərbaycan ədəbiyyatı və mədəniyyətinin möhtəşəm nümunələrini ərsəyə gətirmiş Nizami Gəncəvinin, Xaqaninin, Nəsiminin,

Füzulinin, Vaqifin və digər söz sənətkarlarının irsinin öyrənilməsinə ona görə rəğbət göstərirdi ki, onların əsərlərində təcəssüm olunan ictimai ideyalar gənc nəslin mədəni həyatında kamillik zirvəsinin təcəssümünü özündə canlandırır. Əlbəttə ki, Azərbaycan xalqının humanitar düşüncəsini və milli təfəkkürünü səciyyələndirən nümunələr olduqca zəngindir. "Kitabi-Dədə Qorqud"da və klassik mənbələrdə müşahidə edilən ideyalar birbaşa Azərbaycançılıq təəssüratı ilə bağlı olduğu kimi türk xalqlarına məxsus daha qədim nümunələrdə, o cümlədən, Göytürk abidələrində Azərbaycan mentallığını özündə cəmləşdirən bir çox məqamlar da vardır. Həmin nümunələrdə türk xalqlarından biri kimi Azərbaycan xalqına məxsus təfəkkür tərzi, ictimai və mədəni-məişət təfərrüatı aydın müşahidə edilir. Məsələn, Göytürk dilinin "Kül Tiqin" abidəsində Tanrının hər şeyə qadir olduğu, hətta hakimiyyətin də bəzi seçilmiş şəxslərə Tanrı tərəfindən verildiyi barədə qətiyyətli fikrin mövcudluğunu görmək mümkündür.

Abidənin Şərq tərəfinin 11-ci bəndində deyilir: "*Türk bodun yok bolmazun tiyin bodun bolçun tiyin kaŋım İltəris kağanığ, ögim İlbilgə katunığ Teŋri təpəsində tutıp yögərü kötürmis erinç*" [11, s.281].

[Tərcüməsi: Türk xalqı yox olmasın deyə, xalq olsun deyə atam İltəris xaqanı, anam İlbilgə xatunu tanrı təpəsində tutub (yəni üstün tutub) yuxarı qaldırmış].

Kül Tiqin abidəsinin Şərq tərəfinin 25-ci, 26-cı bəndlərində də bu inamın davamı kimi belə deyilir: "*Türk bodunığ atı, küsi yox bolmazun tiyin kaŋım kağanığ, ögim katunığ götürmiş. Teŋri il birikmə Teŋri Türk bodun atı, küsi yox bolmazun tiyin özümin ol Teŋri kağan olurtı erinç*" [11, s. 283].

[Tərcüməsi: "Türk xalqının adı, şöhrəti yox olmasın deyə atam xaqanı, anam xatunu yüksəltmiş Tanrı türk xalqının adı, şöhrəti yox olmasın deyə, özümü Tanrı xaqan oturtdu]". Buradan göründüyü kimi qədim Türklərdə Tanrının hər şeyə qadir olduğu, istədiyinə nemət verməsi düşüncəsi təfəkkürlərdə özünə möhkəm inam formalaşdırmışdır. Bu mənada "Kitabi-Dədə Qorqud"da oxşar təfəkkür tərzi aşağıdakı kimi ifadə olunur:

"*Allah, Allah deməyincə işlər onməz*
Qadir Tanrı verməyincə ər bayımaz" [8, s. 19]

"Duxa Qoca oğlu Dəli Domrulun boyunu bəyan edər" boyunda isə Dəli Domrulun dilindən belə deyilir:

"*Ucalardan ucasan!*
Kimsə bilməz necəsən
Görklü Tanrı!
Sən xud möminlər könlündəsən
Daim duran Cabbar Tanrı" [8, s. 19].

Göytürk dili ilə "Kitabi-Dədə Qorqud" dastanı arasındakı paralellik və müştərəklik əlbəttə ki, təkcə Tanrıya olan inamla bitmir. Burada bir çox müştərək və paralel leksik vahidlər vardır ki, onların araşdırılması, tədqiqi və təhlili ümumtürk birliyi kontekstində Azərbaycan xalqının qədim tarixə, mədəniyyətə, sivilizasiya

malik olduğunu meydana çıxarmaq baxımından çox qiymətli mənbədir. Məsələn, qədim türklərdə kosmoqonik inam kimi işlədilən Tanrı (Təŋri, Teŋri) adı Göytürk dilində 77 dəfə işlənmişdir. "Kitabi-Dədə Qorqud"un bütü boylarında da Tanrı adı qədim türk inamı ilə bağlı olaraq yaradıcı, qüdrətli bir fenomen kimi xatırlanır.

Göytürk dilində Azərbaycan etnosu ilə bağlılığı olan Oğuz, Türk etnik adlarının da çox işlənməsinə rast gəlmək olur. Oğuz etnoimi Göytürk nümunələrində 38 dəfə işlənmişdir. "Kitabi-Dədə Qorqud"un dilində də Azərbaycan xalqının daxil olduğu birlik kimi Oğuz etnonimi tez-tez xatırlanır. Elə onu demək lazımdır ki, dastanın ilk cümləsində *Bayat* boy adından sonra *Oğuz* etnonimi işlədilir: "*Rəsul əleyhüssəlam zamanına yaxın Bayat boyundan Qorqud Ata derlər bir ər qopdu. Oğuzun ol kişi tamam bilicisiydi*" [8; s. 19].

Göytürk abidələrinin dilində ən çox işlənən etnonimlərdən biri də bütün etnik birlikləri özündə cəmləşdirən *Türk* adıdır. *Türk* adı Göytürk mənbələrində 67 dəfə işlənir. "Kitabi-Dədə Qorqud"da *Türk* etnonimi *Türküstan* [KDQİL, s. 175] və Türkman [KDQİL, s. 175] adlarında işlənir.

Göytürk dilində bir çox leksik vahidlər vardır ki, "Kitabi-Dədə Qorqud"da da eyni şəkildə işlənir və eyni məna daşıyır. Həmin tipli sözlər həmçinin müasir Azərbaycan dilində də öz anlamını saxlayır. Məsələn, Göytürk abidələrinin dilində işlənən *Toğan* (şahin) [IB 6; 65; 67; 98], *tuğ* (bayraq) [MÇ 8; 17; 33, 42, 45, 46], *uzun* (uzun) [T, 52; IB 72]; *ulus* (el, xalq) [KTşm, 12] *uç*, *uçmaq* (uçmaq, ölmək) [Ktş, 16, 24, 30; KTşm, 1; KTcş, 1; BXc 10; BXc 2; Mç, 12; IB, 20, 95, YN XXVIII 2], *ün* (səs) [YHXXV, 6]; *yazı* (çöl, səhra) [KTc, 7; KTş, 17; 33; 36; Tl, VI, 3]; *ağ* (qalxmaq, yüksəlmək, hündür) [BXş, 37; IB, 29, 96; Tl, VII 1]; *ağız* (dərə, ağız) [IB, 40, 10; Tl, 3] və s. kimi sözləri buna nümunə gətirmək olar. "Kitabi-Dədə Qorqud"da da oxşar sözlərin oxşar mənada işlənməsinə rast gəlmək olur: *Toğan* "*Toğanın əlinə aldı, ardına düşdü*" [KDQİL, s. 170]; *Tuğ:* "*Boyu uzun Burla xatun tuğı kafərin qılıcladı, yerə saldı*" [KDQİL, s. 173]; *Uzun*: "Saqalı uzun tat əri baŋladıqda" [KDQİL, s. 176]; *Ulu*: "*Bəzirganlar ulusi tutuldu*" [KDQİL, s. 177]; *Uç*, *uçmaq*: "*Ağ saqqalı baban yeri uçmaq olsun*" [KDQİL, s. 178]; *Ün*: "*Üüm ünləŋ, bəglər, sözüm dinləŋ, bəglər*!" [KDQİL, s. 180]; *Yazı*: "*Ötə yazıdan-yabandan bir udlu qonuq gəlsə*" [8, s.23]; *Ağ*: "*Bayındır xanın ağ meydanında bu oğlan cəng etmişdir*" [KDQİL, s.9]; *ağız*: "*Ağam Qazan sası dinli gürcüstan ağzında oturarsan*" [KDQİL, s.10].

Göytürk dilində işlənmiş leksik vahidlərin müəyyən qismi "Kitabi-Dədə Qorqud" dilindəkindən cüzi fərqlənsə də məna və anlayış eyniliyi mühafizə olunur. Bunlara nümunə kimi aşağıdakıları misal göstərmək olar: *bod* (qəbilə, tayfa, boy) [T, 4; 60; MÜ, 22, 40]; *bedük* (böyük, iri) [Öö, 6]; *ülə* (bölmək, bölüşmək) [KTc, 6, 7, 10]; *idi* (yiyə, sahib) [KTc, 4; KTş, 3, 19, 20; T, 11; 47; 60; IB, 101], *isrik* (sərxoş) [Yn, XXIX] və s.

"Kitabi-Dədə Qorqud"da nümunə göstərilən sözlərin eyni məna bildirməsini aşağıdakı ümunələrdə müşahidə etmək olur:

Bod-boy: "*Rəsul əleyhüssəlam zamanına yaxın Bayat boyundan Qorqud ata deyərlər, bir ər qopdu*" [KDQİL, s. 39]; *Bedük- böyük* "Əlhəmdülillah, mənim oğlancığım böyük ər olmuş…" [KDQİL, s. 40]; *Ülə-ülüş bölmək, bölüşmək*: "*Kafər dəxi düşübən bir yerdə ağca ülüşməkdəydi*" [KDQİL, s. 179]; *İdi-iyə*: "*Qonur atın iyəsi, xan Uruzun ağası, Bayındır xanın göygüsü… Salur Qazan yerindən durmuşdu*" [KDQİL, s. 95]; *İsrik-Əsrük*: "*Ol şərabda içən əsrük olur*" [KDQİL, s. 92].

Göytürk abidələri ilə "Kitabi-Dədə Qorqud" arasındakı leksik paralellərin müəyyən qismi müasir Azərbaycan dili üçün arxaikləşmiş olsa da onar heç də unudulub itmir, öz izlərini bu və ya digər bir variantda saxlayır. Məsələn, Göytürk yazılı abidələrinin dilində *çərik* (Qoşu, ordu, əsgər) [Kç, 9; Mç, 15; 16; Yn Xl, 8]; *ödük* (nəsihət) [Kç, 28]; *üküş* (çox, artıq) [KTc, 10; 16; 29; BXş 31; IB, 54, Yn III, 6; Yn XXX IX, 6]; *ögsüz* (yetim, anasız) [KTŞm, 9; Yn, XLV, 2], *ağır* (hörmətli, möhtəşəm) [BXş, 2; BXc 15; Kç, 5, UA, 1, 3]; *yablak* (pis, iyrənc) [KTc, 7; KTş 5; 23; 24; 26; 39; KTşm 7; 11; BXş 30; Mç, 11; 17; 17; IB, 11; 13; 14; 24; 34; 38; 50; 55; 59; 65; 70; 77; 95; 101] kimi sözlər işlənir.

Qeyd olunan sözlər "Kitabi-Dədə Qorqud"un dilində də işlənmişdir. Həmin sözlərə dair "Kitabi-Dədə Qorqud"un izahlı lüğəti" adlı kitabın aşağıda göstərilən səhifələrində müvafiq nümunələr misal verilmişdir: *çərik-çəri* (qoşun, ordu, əsgər) [KDQİL, s. 193]; *ödük-ögüt* (öyüd, nəsihət) [KDQİL, s. 142]; *üyküş-üyüşmək* (çox, çoxalmaq) [KDQİL, s. 179]; *öksüz-öksüz* (yetim, anasız) [KDQ, 2004, s. 146]; *ağır* (hörmətli) [KDQİL, s. 11]; *yablak-yavuz* (yaman, pis) [KDQİL, s. 98].

Göytürk və "Kitabi-Dədə Qorqud" dilində qoşun, ordu mənasındakı *çərik* (çəri) sözləri artıq müasir Azərbaycan dilində arxaikləşərək ilkin mənasından uzaqlaşmışdır. Lakin həmin sözün *çər* kökünün *cər* variantı *cərgə* sözündə qalmışdır ki, həmin sözün sıra, sıralanma anlayışı qoşunun, ordunun sıralanması mənası ilə səsləşir.

Ödük sözü Göytürk dilidə *öyüd*, nəsihət mənasında işlənmişdir. "Kitabi-Dədə Qorqud"da sözün *ögüt* variantı işlənir. Azərbaycan dilində sözün *ög-* tərkibinin *öy-* kökü əsasında formalaşmış *öyüd* (nəsihət), *öymək* (tərifləmək), *öyünmək* (qürurlanmaq), *öyrətmək* derivatları düzəlmişdir.

Göytürk dilində *üküş* sözü çox, artıq məasında işlənir. "Kitabi-Dədə Qorqud"da *ük-* kökünün *üy-* variantı üzrə düzəlmiş *üyüşmək* sözü işlədilir. Bu söz dastan dilində çox, çoxalmaq mənasını bildirir. *Üyüşmək* sözünün çoxalmaq, toplaşmaq, bir yerə yığışıb çox olmaq mənası müasir dildə "*qarışqa topası*" anlamında da işlənir. Həmçinin, *üy-, ük-* kökünün başlanğıcına *y* əlavəsi ilə formalaşmış *yük* sözü də vardır ki, bu da özündə başqa çalarlıqlarla birlikdə çoxluq anlayışı bildirir. Əlavə olaraq onu da demək mümkündür ki, klassik mənbələrə *üküş* sözünün eyni məna bildirən *yüküş* variantının işlənməsinə də rast gəlmək olur:

Töküb mey cami-mey tutmaq təmənnasın çıxar
Yüküş qanlar töküb aləmdə xunabə yutdun tut [6, s. 308].

Göytürk dilində işlənən *ögsüz* sözü "Kitabi-Dədə Qorqud"da da oxşar şəkildə işlənir. Müasir Azərbaycan dilində *öksüz* sözü artıq işlənmir. Onun əvəzinə *yetim* sözünün işlək olduğu müşahidə edilir. Eyni zamanda ana mənasındakı *ög-* tərkibi də öz işləkiyini itirmişdir. Lakin *ög-* kökündən olan ana anlayışı müasir dildəki *ögey* (ögey ana) sözündə qalmışdır. Bu mənada hesab etmək olar ki, məsələn, *ögey qardaş* sözü *anabir olmayan qardaş* və *ögey bacı* sözü *anabir olmayan bacı* mənasını bildirmişdir.

Göytürk və "Kitabi-Dədə Qorqud"dakı *ağır* sözünün hörmətli, ehtiramlı anlayışı da müstəqil ifadə baxımından artıq unudulmuşdur. Lakin bu mənanın izləri "*ağıryana adam*", "*ağıryana hərəkət*", "*ağıryana oturub-durmaq*" kimi ifadələrdə qalmışdır. Maraqlıdır ki, *ağır* sözü ilə bağlı olan və hörmət, ehtiram mənası bildirən *ağırdamaq* sözünə Azərbaycan dilini Cəbrayıl, Göygöl, Şəmkir rayon şivələrində rast gəlmək olur: "*Sən qonax gəlseydiŋ soŋra gedif deysiŋ ki, məni yaxşı ağırradılar"* (Göygöl) [1, s. 14].

Göytürk dilindəki *yablak* sözünün "Kitabi-Dədə Qorqud"da *yavuz* variantı işləndiyi halda müasir dildə artıq bu variantların heç biri işlək deyildir. Lakin bəzi dialekt və şivələrimizdə *pis*, *kobud* anlamındakı *yava* (yava adam), *yava-yava* danışmaq sözlərində qədim *yablak-yavuz* sözlərinə məxsus anlayışı müşahidə etmək olur. Təhlil edilən nümunələrdən göründüyü kimi, dil heç vaxt öz kökündən ayrılmır, öz ənənələrini zaman-zaman yaşadır və davam etdirir. Dil öz ənənələrini yaşatdığı kimi xalq da öz kökü ilə bağlı olur və onun qədim ənənələri də zaman-zaman yaşayır, inkişaf etdirir, zənginləşdirir. Məhz Ulu Öndər Heydər Əliyevin Azərbaycan milli şüurunun formalaşdırılması sayəsindəki düşünülmüş, uzaqgörən, müdrik fəaliyyəti ona istiqamətlənir ki, xalq öz keçmiş mədəni irsinin davam və inkişaf etdirməklə öz kökünə bağlı olsun, hər bir dövrdə, hər bir ictimai şəraitdə kök birliyini nümayiş etdirsin, türkçülük kökü üzərində Azərbaycançılıq ideyalarının möhtəşəmliyini qoruyub saxlasın. Ulu Öndər Heydər Əliyevin öyrətdiyi kimi, biz qəhrəmanlıq salnaməsi yaratmış tariximizlə, zamanların sınağından keçmiş ana dilimizlə, milli və zəngin mədəniyyətimizlə, ən başlıcası isə türkköklü ideallarımızın vəhdəti ilə qürur duymalıyıq.

İstifadə edilən ədəbiyyat

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, Şərq-Qərb, 2007, 568 s.
2. e-qanun az/frame work/5175
3. e-qanun az/frame work/151
4. Əliyev H. Fəal həyat mövqeyinin formalaşdırılması, mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri-// Ümumittifaq elmi-praktik konfransda məruzə. 25 aprel, 1979-cu il. Bakı, Azərnəşr, 1979, 58 s.
5. Əliyev M. Heydər Əliyev elm, təhsil və mədəniyyətin himayədarı idi.// Xalq qəzeti, 2010, 16 may.

6. Füzuli M. Əsərləri. 6 cilddə, I c., Bakı, Şərq-Qərb, 2005, 400 s.
7. Heydər Əliyev Azərbaycan mədəniyyətinin ən böyük himayədarı və qayğıkeşidir: www.goranboy-ih.gov.az/az news/1711. html.
8. Kitabi-Dədə Qorqud. Öndər nəşriyyat, Bakı, 2004, 376 s.
9. lib.aliyevheritage.org/az/71015293 html.
10. President.az/az/ articles/view/57413.
11. Rəcəbli Ə. Qədim türk yazısı abidələri. Bakı, Nurlan, 2006, 480 s.
12. Yusifov M. Heydər Əliyev və Azərbaycançılıq ideologiyası. Bakı, Nurlan, 2003, 204 s.

İxtisarlar

1. Bxc – Bilgə xaqan abidəsi, cənub tərəfi
2. BXş – Bilgə xaqan abidəsi, Şərq tərəfi
3. İA – İhe – Achete abidəsi
4. IB – Irk Bitik abidəsi
5. KDQİL – "Kitabi-Dədə Qorqud" dastanının izahlı lüğəti. Bakı, Elm, 1999, 204 s.
6. KT şm- Kül tiqin abidəsi, Şimal-şərq tərəfi
7. KTş- Kül Tiqin abidəsi, Şərq tərəfi
8. KTcş – Kül Tiqin abidəsi, Cənub-şərq tərəfi
9. Mç – Moyun Çur abidəsi
10. KTc – Kül Tiqin abidəsi, Cəub tərəfi
11. Kç – Küli Çor abidəsi
12. Oö – Ongin abidəsi, ön tərəf
13. Tl – Talas abidələri
14. T – Tonyukuk abidəsi
15. Yn – Yenisey abidələri

Arzu Hüseynova

Heydər Əliyev milli mədəniyyət abidələrimizin qayğıkeşidir

Xülasə

Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etdiyi müddətdə xalqın ictimai təfəkküründə milli düşüncənin formalaşdırılmasına xüsusi bir diqqət yetirmişdir. Totalitar Sovet rejimi dövründə əlbəttə ki, bu sahədə açıq təbliğat aparmaq mümkün deyildi. Ancaq Heydər Əliyev bu ideyanı dahiyanə bir uzaqgörənliklə həyata keçirirdi. Heydər Əliyevin bütün ictimai fəaliyyətində Milli Azərbaycançılıq ideyalarının təcəssümü aparıcılıq təşkil edirdi. Milli düşüncəli bədii yaradıcılıq ustalarına, mədəni və tarixi abidələrimizin qorunub saxlanılmasına, ana dilinə, onun nitq mədəniyyətinə göstərilən diqqət və qayğı Heydər Əliyev siyasi məktəbinin başlıca qayəsini təşkil edirdi. Heydər Əliyev cəmiyyətin milli təməl

üzərində inkişafı üçün bütün potensial imkanlardan ustalıqla və bacarıqla istifadə edirdi. Ulu Öndərin dahiyanəliyi onda idi ki, onun Azərbaycançılıq ideyaları Respublikamızın müstəqilliyini əldə etməsi ilə öz təsdiqini tapdı. Heydər Əliyev qədim mədəniyyət abidələrimizin öyrənilməsinə ona görə xüsusi diqqət yetiridi ki, xalqın qədim keçmişi ilə müasirliyi arasında qırılmaz bağlılıq yaransın, xalq öz tarixi köklərindən ayrılmasın, milli, etnik birlik ideyalarına sadiqlik daimi və başlıca amilə çevrilsin. "Kitabi-Dədə Qorqud" un 1300 illik yubileyinin keçirilməsi əlbəttəki, təsadüfi deyildi. Bu və bunun kimi tədbirlər ona istiqamətlənirdi ki, Azərbaycan xalqı həqiqətən şərəfli bir keçmişə malik olmuşdur. Bu keçmiş üzərində qurulan yeni Azərbaycan cəmiyyətinin başlıca hədəfi də gənc nəslin vətəpərvərlik tərbiyəsinin mənəvi saflıq, milli, tarixi və etnomədəni birlik ideyalarına sadiqlik təməli üzəridə formalaşdırılmasından ibarətdir.

Арзу Гусейнова

Гейдар Алиев – хранитель наших национальных культурных памятников

Резюме

Великий лидер Гейдар Алиев в период своего руководства Азербайджанской Республикой уделял особое внимание формированию национальной мысли в общественном мышлении народа. Конечно, при тоталитарном советском режиме нельзя было вести открытую пропаганду в этой сфере. Однако Гейдар Алиев с гениальной предусмотрительностью реализовал эту идею. Во всей общественной деятельности Гейдара Алиева ведущим было воплощение идей национального азербайджанства. Внимание и забота, проявленные к мастерам художественного творчества с национальным складом ума, к сохранению наших культурно-исторических памятников, к родному языку, к его речевой культуре, были главным принципом политической школы Гейдара Алиева. Гейдар Алиев умел и умело использовал все потенциальные возможности для развития общества на национальной основе. Гениальность Великого Лидера заключалась в том, что его идеи азербайджанства были подтверждены независимостью нашей Республики. Гейдар Алиев уделял особое внимание изучению наших древних памятников культуры, чтобы создать неразрывную связь между древним прошлым народа и современностью, чтобы народ не отрывался от своих исторических корней, а верность идеям национального и этнического единства стала постоянным и основным фактором. Празднование 1300-летия «Китаби-Деде Горгуд» было, конечно, не случайным. Эти и подобные меры были направлены на то, чтобы азербайджанский народ имел поистине славное прошлое. Главной целью

нового азербайджанского общества, построенного на этом прошлом, является формирование патриотизма, воспитание молодого поколения на основе верности идеям нравственной чистоты, национального, исторического и этнокультурного единства.

Arzu Huseynova

Heydar Aliyev is the custodian of our national cultural monuments

Summary

The great leader Heydar Aliyev, during his leadership of the Republic of Azerbaijan, paid special attention to the formation of national thought in the public thinking of the people. Of course, under the totalitarian Soviet regime, it was impossible to conduct open propaganda in this area. However, Heydar Aliyev realized this idea with brilliant foresight. In all social activities of Heydar Aliyev, the embodiment of the ideas of national Azerbaijanism was the leading one. The attention and care shown to the masters of artistic creativity with a national mindset, to the preservation of our cultural and historical monuments, to the native language, to its speech culture, were the main principles of Heydar Aliyev's political school. Heydar Aliyev knew how and skillfully used all the potential opportunities for the development of society on a national basis. The genius of the Great Leader was that his ideas of Azerbaijanism were confirmed by the independence of our Republic. Heydar Aliyev paid special attention to the study of our ancient cultural monuments in order to create an inextricable link between the ancient past of the people and the present, so that the people would not break away from their historical roots, and loyalty to the ideas of national and ethnic unity would become a permanent and main factor. The celebration of the 1300 th anniversary of "Kitabi-Dede Gorgud" was, of course, not accidental. These and similar measures were aimed at ensuring that the Azerbaijani people have a truly glorious past. The main goal of the new Azerbaijani society, built on this past, is the formation of patriotism, the education of the younger generation on the basis of loyalty to the ideas of moral purity, national, historical and ethno-cultural unity.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi Prof. Mübariz İmran oğlu Yusifov
tərəfindən çapa tövsiyə olunmuşdur

XƏLİLOVA QƏRIBƏ YAHYA QIZI
Gəncə Dövlət Universiteti
–müəllim

RƏSUL RZANIN ŞEİRLƏRİNDƏKİ AHƏNGDARLIQ

Açar sözlər: sənətkarlıq, mübarizlik, şeir, ədəbiyyat, yaradıcılıq, şair.
Ключевые слова: мастерство, воинственность, стихотворение, литература, творчество, поэт.
Key words: craftsmanship, struggle, poem, literature, creativity, poet.

Rəsul Rza yaradıcılığında təbiətin fəsilləri, onların hər birinin özünəməxsus gözəlliyi tərənnüm olunur. Şairin hər ötüb keçən qışdan, bahardan yaddaşında bir xatirə qalır, bu xatirələrin təbii lövhələrini şeirlərində yaşadır. Şairin şeirlərində qış fəsli, onun təbii görkəmi lirik bir dillə tərənnüm olunur. «Bakıda qar» əsərində yaş küçələrə, eyvanlara, damlara yağan qarı, əynində isti paltar, ayağında çəkmə olan insanları, qartopu oynayan uşaqları, şimal ölkəsinə bənzəyən bu qışın yaratdığı abı-havanı tərənnüm edir və bu zaman bir şair qəlbinin incəliklərinin yaratdığı kədəri də, bir qüssəni də şeirə əlavə etməklə həm onun məzmun gözəlliyini, həm də bədii gözəlliyini artırmış olur. Həyətdə hay-küylə oynayan isti geyimli, qarnıtox uşaqların yadına təbiətin ən zəif, aciz varlıqlarını salır, onları unutmamağa çağırır:

Uşaqlar, ay uşaqlar.
Qartopu oynayanda
Paltarsız, ayaqyalın,
Dən gəzən sərçələri
Bir anlıq yada salın.

Uşaqları belə qarlı-şaxtalı gündə heyvanlara qarşı qayğıkeş, mehriban olmağa səsləyir. Çünki qəlbi yaşatmaq eşqiylə yanan şair öz isti otaqda oturub («Qış günü» şeirində) çöldə üşüyüb bir-birinə qısılan çılpaq ağacların dərdini çəkir:

Gətirə biləydim onları otaqcığıma
Qızınsınlar
Yarpaq naxışa əymə, qızım, sınar!
Çağır gəlsin ağacları
qızışsınlar… [1, 124]

Baharın gəlişi zamanı duyduğu könül rahatlığı da şairin misralarına çevrilir, qışın getməkdə, baharın gəlməkdə olduğu anları şair «bahar gəzir qışla nəfəs-nəfəsə» poetik misrasında verir. Şair sevinir ki:

Qəlbində bahar sevdası
bahar nəfəsi
xatirimdə ala-çalpovun
müayim küləyi.
Dilimdə novruz nəğməsi

axın-axındır
Şaxta neyləyəcək mənə
bahar yaxındır.
Bahar yaxındır.

Baharın gəlişini xəbər verən novruzgülünü vəsf eləyin şair, onu çöllərə, çəmənlərə baharın gəldiyini xəbər verən, baharın lap yaxında olduğunu söyləyən bahar müjdəli bir gül kimi tərənnüm edir.

Şair təbiətin fəsillərinə maraq üçün baxmır, bu fəsillərdə bir gözəllik bir məna gəzir. Hər çiçəyin, hər yarpağın öz rəngi, hər ağacın öz görkəmi, təbiətin al-əlvanlığı «hər fəslin, hər iqlimin tükənməynə rənglər kataloqu şairi düşündürür, heyrətə gətirir. Təbiətin özünün də şair demişkən «yeknəsəqlikdən qaç»masından könül rahatlığı tapır, təbiətə rəssam fırçasının məhsulu kimi baxır: «Payız yarpaqlarının hər misrasında rəssam düşüncəsi, rəssam boyası var:

Sarısı, qırmızısı, solğun yaşılı var.
Elə bil
müxtəlif rəssamların
fırçasından düşüb
yarpaqlar. [2, 41]

Şair istəmir ki, bu yarpaqlar tökülsün, meşələr çılpaq qalsın. Bu qızılı, zümrüdü, yaquta bənzər yarpaqlar, «payızın zərgər işi» könül oxşasın, ağaclar barsız qalıbsa, yarpaqsız qalmasın. Rəsul Rzanın qəlbində təbiəti yaşatmaq, yaratmaq eşqinin tərənnümü daha güclüdür. Soyuq asfaltı yarıb çıxan nərgizin gözəlliyi «eşq olsun həyatın gücünə» qənaətinə gələn şairi heyrətləndirir.

Şair şeirlərində şeir, onun formaları, vəzn, qafiyə haqqında fikirlərini lirik bir şəkildə ifadə edir. sərbəst şeir, saf, aydın, qısa, oxucunu yormayan bir şeir vəzni olduğunu bildirir.

«Şeir, vəzn və məhəbbət haqqında dastan» şeirində şair Azərbaycan şeirinin ana vəzni olan heca vəzni və onun bölgüləri haqqında öz fikirlərini oxucuyla bölüşdürür. Şeirin ikinci hissəsində isə sərbəst vəzndə yazdığı lirik bir şeirini verir. Bu vəzndə yazılan şeirdəki sözlərin, fikirlərin axıcılığı, düzümü, sərbəstliyi, lirizmi, ahəngi, intonasiyasını görürük və deməli, şair bu vəzndə yazılan şeirlərin də qüvvətli olduğunu bildirir.

Rüşvət almaqla xalqın var-yoxunu talıyanları Rəsul Rza Sabiryana tənqid atəşinə tutur. Sabirin «ax necə kef çəkməli əyyam idi» misralarına nəzirən yazdığı «Rüşvətxorlar mərsiyəsi» şeirində rüşvətxorluğa qarşı dövlət səviyyəsində aparılan mübarizədən, bunun nəticəsində rüşvət yoluyla pul toplayıb kef çəkən insanların bundan doğan hüzn-kədəri satirik dillə verilir. Onların mərsiyə qoşub ötən günlərinə həsrətiylə yaşamasını, xoş günlərinin dərdli-dərdli xatırlamalarını hüzn-kədər içərisində keçmiş xoş günlərini arzulamalarını Sabir kimi tiplərin, rüşvətxorların öz dilləri ilə ifşa edir:

Hansı lağım qaldı ki, biz oymadıq?
Hansı soğan qaldı ki, biz soymadıq?
Çarçı, bazar, budka, dükan qoymadıq,
Aldıq, alınçı usanıb doymadıq,
Süfrə dolu gündə nahar, şam idi.
Ax necə kef çəkməli əyyam idi.

Ümumiyyətlə, Rəsul Rza yaradıcılığında biz Sabir şeirinə, sənətinə, yaradıcılığına yüksək qiymət verildiyini görürük. Sabir şeirlərinə yazdığı nəzirlərdə Rəsul Rza yaşadığı cəmiyyətin eybəcərliklərini, öz şəxsi mənafeyini hər şeydən üstün tutan eqoist insanları, xalq-dövlət malına tamah salıb onu əyri yollarla mənimməyən rüşvətxorları ifşa edir. Şair asan yolla pul qazanmaq üçün yollar axtaran müftəxorları, yerlipərəstliyin doğurduğu eybəcərlikləri tənqid edir. Çünki daydayıların hesabına ağıllı, qabiliyyətli insanların layiq olduqları vəzifələrdən kənarda qalması, yerlipərəstlik nəticəsində səriştəsiz, qabiliyyətsiz insanların vəzifəyə çəkilməsi, onların bacarıqsızlığından cəmiyyətin, dövlətin ziyan çəkməsi, arxalı köpəklərin mikrob kimi günbəgün artması bir ziyalı kimi şairi narahat edir.

Rəsul Rzanın şeirlərindəki ahəngdarlıq könül oxşayır. Bunun nəticəsidir ki, bir çox şeirlərinə yazılmış musiqi bu gün də dillər əzbəridir. Vasif Adıgözəlovun oratoriya bəslədiyi «Qəm karvanı» adlanan şeirdə azadlıq uğrunda mübarizə aparan igid oğullarımızın fədakarlığından söhbət açılır:

Vuruşdular
Son gülləyə,
Son süngüyə
Son qundağa qədər.
Vuruşdular,
Hər şey qırmızı geydi,
daşdan torpağa qədər,
son nəfəsə qədər. [3, 140]

Şair vətən torpağının azadlığı, müstəqilliyi, gədəcəyi naminə canının fəda edən şəhidlərin qəhrəmanlığını tərənnüm edir. Bu azadlığı əldə saxlamaq, əsarət zəncirini qırıb məzlumluqdan qurtulmaq üçün igid oğulların «başını dik tut»masını, bayrağını, silahını möhkəm saxlamasını məsləhət görür. İndiyə qədər aparılan azadlıq uğrunda mübarizənin hələ gələcəkdə tarixin səhifələrinə şərəflə yazılacaq anlarını bu gündən görür şair:

Dünya sənə baxır,
Tarix sənə baxır,
Hələ çox bağlı qollar
zəncirlərini
həlqə-həlqə qoparasıdır.
Hələ bu harasıdır.

Rəsul Rza yaradıcılığında Qarabağ mövzusu özünə məxsus lirizmi ilə fərqlənir. Qarabağ-onun adıyla bağlı əfsanə və motivlər, rəvayətlər, fikirlər şairin şeirlərində lirik don geyinir. Burada Qarabağ torpağına, adına məhəbbət yaşayır. İgid vətən oğullarının, qızlarının qeyrətindən, igidliyindən danışılır. Burada Qarabağ torpağına şairin məhəbbəti ümumiləşdirilmişdir:

Qəlbimdəsən, gözümdəsən
Hara gedim, hara baxım,
Mənim doğma Qarabağım.
Qarabağım!

Şair bu dağların, daşların üzərində köhlən atların dırnaq yerlərinin olduğunu, onun təbii gözəlliyini, Üzeyirin nəğməsini, Vaqifinin, Natəvanın ellərini yada salır, doğma diyarın torpağına məhəbbətini, Xan qızı Natəvanın Şuşaya çəkdirdiyi bulağı tərənnüm edir. Üzeyiri bəstəkar eyləyən xalq musiqisinin qaynaqlarını, bunlardan yararlanan onlardan mənəvi qida alan Üzeyirin uşaqlıq illəri göz önünə gətirlir. Onun yaratdığı «Koroğlu», «Arşın mal alan», «Sənsiz» musiqi əsərlərini yada salır. «Nəğmələr doğulanda» şeirində şair məhz Qarabağ torpğında çoban bayatısının həzin sədaları, saf bulaq zümzümələri, quşların cəhcəhi altında böyüyən, yetişən böyük bəstəkarımız Üzeyirə, onun musiqi istedadına, sənətinə, sənətkarlıq qabiliyyətinə, səhnələri lərzəyə gətirən böyük operalarına olan hörmət və məhəbbəti ifdə edir.

Şairin «Tonqal yerində çiçək» şeirində Xankəndində vəhşicəsinə diri-diri yandırılmış üç azərbaycanlının başına gətirilən müsibətlər təsvir olunur. Bu qanlı cinayətin ört-basdır edilməsi şairi qəzəbləndirir, onu törədənləri, insan qanına, insan ətinə susayan erməni murdarlarının çirkin əməllərini gizlədənləri ittiham edir.

Şairin Şuşaya, qədim Qarabağ torpaqlarına bağlı sinəsində bir məhəbbət yaşayır. Vətən məhəbbəti, çünki bu vətənə məhəbbətdə Cabbarın, Seyidin ürəkləri riqqətə gətirən mahnıları var. «Azərbaycan torpağının nur parçası» bildiyi Şuşa tarixin qanlı-qadalı səhifələrində öz igidliyi, mərdliyi ilə tanınır. Ən çətin, amansız döyüşlərdən şərəflə, sərt alovlardan salamat çıxdığını bildirən şair «nəğmələrin beşiyi», «muğamların keşiyi» Şuşanın tarixindən, igidliyindən, qürurundan fəqrlə söhbət açır:

Tarixdə baş əyməmisən
Bir fatehə, müxənnətə.
Alqış sənə!
Bu qüdrətə!
Doğma yurdum
Gözəl Şuşa. [4, 214]

Əzəli, əbədi Azərbaycan torpağı olan Şuşanın hər daşında, qayasında onun tarixinin yaşadığını bildirən şair Şuşaya göz dikən bədnəfislərin gözlərini ovmağa hazırdır. Bu torpaqda gözü qalanları, vətənin bir hissəsi olan Qarabağdan, Şuşadan «pay uman»ları şair bağışlamır, çünki bu torpağın hər qarışı Azərbaycan övladının,

Azərbaycan millətinin keçmişini, tarixini özündə yaşadır. Ona kəm baxanlara qarşı şair Şuşanı amansız olmağa çağırır:

Dost gözüylə sənə baxan
Hər kəs əziz qonağındır.
Sənə əyri baxanları
Qəzəbinlə külə döndər,
Yaxıb-yandır.

Rəsul Rza yaradıcılığında Qarabağ mövzusu bu günümüzün hadisələri ilə səsləşir. Şairin yaşadığı son onilliklərdə 80-90-cı illərin tələtümlü günlərini, Qarabağ faciələrini, onun başı üzərində dolaşan qara buludları dinc dövrümüzdən görürmüş. Qorxmadan, çəkinmədən Kommunist ideologiyasının hakim olduğu bir zamanda Azərbaycan torpağının hər qarışının Qarabağ torpağının qədim Azərbaycan torpağı olduğunu öz əsərlərində yaşatmış, onun tarixi, mədəniyyəti ilə fəxr etdiyini əks etdirən neçə-neçə Qarabağ mövzusunda yazılmış qiymətli əsərlərin müəllifidir.

Rəsul Rza özündən əvvəl yazıb-yaratmış sənətkarlara, onların sənətinə, yaratdığı obrazlara öz sənətinin prizmasından yanaşır. Böyük sənətkarımız Mirzə Cəlilin millətin ağrı-acılarını ürəyində yaşadan İsgəndəri, Azərbaycan qızının ümumi faciəsini əks etdirən nazlıları, zeynəbləri şairin şeirlərində yaşayır.

Rəsul Rza yaradıcılığında dünyanın müxtəlif ölkələri, hind, çin, ərəb, kərkük, ingilis, yapon və bu ölkələr haqqında gördüyü, bildiyi hadisələr təsvir olunur, şair öz düşüncələrini bölüşür.

Rəsul Rza yaradıcılığında Yer obrazı mühüm yer tutur. Yaşadığı aləmə, Yer kürəsinə olan məhəbbətini ifadə etdiyi əsərlərdə poetika, emosionallıq güclüdür. Yer oğlu yaşadığı dünyanı, torpağını sevir. Yer Yer oğlunun nəzərində «qoynu həyatla isinmiş məskən»dir. Şair etiraf («Etiraf» şeirində) edir ki, onun qucağında dünyaya gəlib, ana südünü əmib, suyundan içib, dadlı meyvələrindən yeyib, nemətlərindən bəhrələnib, sevincində də, kədərində də onunla birgə olub. «Yer oğlu» silsilə şeirlərində məhz bu dünyanın, bu torpağın övladı olan Yer oğlu yaşadığı bu yeri öz «planetin mənim» deyərək əzizləyir:

Nə gözəlsən anam Yer,
Ayrıldığım bir saat deyil.
Həsrətinlə ürəyim yanır.
Burnumun ucu göynəyir.

Göyün mavi qatlarında, səmalarında, Yerin bütün gözəlliklərini görən şair onsuz yaşaya bilməyəcəyini, ondan ayrıldığı bu qısa müddətdə qoynuna, istisinə, soyuğuna həsrət çəkdiyini bildirir. Körpə anasından ayrı düşdükdə onu necə həsrətlə, intizarla arzulayırsa, anasını dünyanın bütün analarından necə gözəl bilirsə, şair də Yeri, torpağı özünə dünyada o qədər əziz, doğma, gözəl bilir. Bu mövzuda yazılmış şeirlərindəki şeriyyət, poetika, rəngarəng düşündürücü mənzərələr, təsvirlər Rəsul Rza qələminin, yaradıcılığının qüdrətindən, həm də rəngarəngliyindən xəbər verir. Hansı mövzudan, hansı məsələdən bəhs etməsindən asılı olmayaraq Rəsul Rza o

mövzunu bütün incəlikləri ilə verməyi bacarır. O, müraciət etdiyi mövzuda öz poetik imkanlarından məharətlə istifadə edir.

Ədəbiyyat:

1. Azərbaycan sovet ədəbiyyatı. Ali məktəblər üçün dərslik. Bakı, "Maarif', 1988
2. R.Rza. Seçilmiş əsərləri. 5 cilddə, III cild, Bakı, 1981
3. Müasir Azərbaycan ədəbiyyatı. Ali məktəblər üçün dərslik, II cilddə, Bakı, 2007
4.Müasir Azərbaycan ədəbiyyatı.BDU nəşri, Bakı-2007, I cild
5. Müasir Azərbaycan ədəbiyyatı. BDU nəşri, Bakı-2007, II cild

Xülasə

müəl. Xəlilova Qəribə Y. q

RƏSUL RZANIN ŞEİRLƏRİNDƏKİ AHƏNGDARLIQ

Rəsul Rza Azərbaycan şeirinin XX yüzillikdə yetişdirdiyi ən görkəmli sənətkarlardan biridir. Onun dərin və humanist mahiyyətli poeziyası onlarca xarici dillərə tərcümə olunaraq vətənimizin hüdudlarından kənarda da özünə çoxlu pərəstişkar tapmış, böyük ədəbi və ictimai marağa səbəb olmuşdur. R.Rza poeziyada novator kimi, milli şeirin, onun poetika sisteminin ardıcıl və yorulmaz islahatçısı kimi çıxış edirdi. Onun ən yaxşı əsərləri - lirik şeirləri və poemaları dərin insaniliyi, fəlsəfi lirizmi, fikir və emosiyalarının zənginliyi ilə seçilir.

Rəsul Rza yaradıcılığında insan, onun adı, işi, əməli cəmiyyətdə yeri, həyatda yaşamaq prinsipləri də öz əksini tapır. Hansı mövzudan, hansı məsələdən bəhs etməsindən asılı olmayaraq Rəsul Rza o mövzunu bütün incəlikləri ilə verməyi bacarır. O, müraciət etdiyi mövzuda öz poetik imkanlarından məharətlə istifadə edir. Şair yer oğlu olduğu üçün özünün dediyi kimi «qoynundan gələn insan səsi» ona doğmadır, əzizdir, çünki onu sevən, onu alqışlayan xalqı var, onun yaraşıqlı dünyası, çiçəkli, küləkli, qoynu nur çeşməli dünyası var.

Summary

Tch. Khalilova.Q.Y.

HARMONY IN RASUL RZA'S POEMS

Rasul Reza is one of the most prominent artists produced by Azerbaijani poetry in the 20th century. His deep and humanistic poetry has been translated into dozens of foreign languages and has gained many admirers outside the borders of our country and caused great literary and public interest. R. Rza acted as an innovator in poetry, as a consistent and tireless reformer of national poetry and its poetic system. His best works - his lyric poems and poems are distinguished by their deep humanity, philosophical lyricism, richness of thoughts and emotions.

In Rasul Reza's work, a person, his name, his work, his place in practical society, and the principles of living in life are also reflected. Rasul Reza is able to present that topic with all its subtleties, regardless of what topic or issue he is talking about. He skillfully uses his poetic abilities on the subject he addresses. As the poet is a son of the earth, as he says, "the human voice from his bosom" is native to him, dear, because he has a people who love him and applaud him, he has a beautiful world, a world with flowers, wind, and fountains of light.

Резюме

Пр.Халилова Г.Я.

ГАРМОНИЯ В СТИХАХ РАСУЛА РЗА

Расул Рза - один из самых выдающихся художников азербайджанской поэзии XX века. Его глубокая и гуманистическая поэзия переведена на десятки иностранных языков и обрела множество почитателей за пределами нашей страны и вызвала большой литературный и общественный интерес. Р. Рза выступил как новатор в поэзии, как последовательный и неутомимый реформатор национальной поэзии и ее поэтической системы. Лучшие его произведения – его лирические поэмы и поэмы отличаются глубокой человечностью, философским лиризмом, богатством мыслей и переживаний.

В творчестве Расула Рзы отражены и личность, и его имя, и его работа, и его место в практическом обществе, и принципы жизни. Расул Реза умеет преподнести эту тему со всеми ее тонкостями, независимо от того, о какой теме или проблеме он говорит. Он умело использует свои поэтические способности на предмете, к которому обращается. Как поэт сын земли, как он говорит, "человеческий голос из недр его" роден ему, дорогой, потому что у него есть люди, которые любят его и рукоплещут ему, у него есть прекрасный мир, мир с цветы, ветер и фонтаны света.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi dos. Qazıyev Qivami N.o.
tərəfindən çapa tövsiyə olunmuşdur

VERDİYEVA ZÜLFIYYƏ VAHID QIZI
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: zverdiyeva2403@gmail.com

XI SİNİFDƏ ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ CƏLİL MƏMMƏDQULUZADƏNİN YARADICILIĞININ ÖYRƏDİLMƏSİ YOLLARI

Açar sözlər: dramaturq, ədəbiyyat, tragikomediya, povest, məktəb, şagird, dərs, tənqid, realizm, interaktiv, metod

Ключевые слова: драматург, литература, трагикомедия, повествование, школа, ученик, урок, критика, реализм, интерактив, метод

Key words: playwright, literature, tragicomedy, story, school, student, lesson, criticism, realism, interactive, method

Xülasə

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətləri olan görkəmli dramaturq, yazıçı, publisist Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığının ümumtəhsil məktəblərində öyrənilməsi gənc nəslin fəal həyat mövqeyinə yiyələnməsi, mənəvi tərbiyəsi baxımından böyük əhəmiyyət kəsb edir.

Məlumdur ki, C.Məmmədquluzadə ədəbiyyat tariximizə yeniliklər gətirən, vətəninə, xalqına bağlı sənətkardır. O, ədəbiyyatımızda yeni cığır açmış novator ədibdir. Müəllim C.Məmmədquluzadənin rəhbərlik etdiyi"Molla Nəsrəddin" jurnalının Azərbaycan ədəbiyyatının yeni istiqamətdə inkişafında oynadığı böyük rolu konkret nümunələr əsasında aydınlaşdırmalıdır. Eyni zamanda klassik realizm ənənələrini öz yaradıcılığında yüksək vətənpərvərlik, milli qürur və məfkurə ilə təcəssüm etdirən yaradıcılığının öyrənilməsi ədəbiyyatımızda tənqidi realizmin mahiyyəti və spesifik xüsusiyyətləri haqqında şagirdlərə ardıcıl və sistemli bilik verilməsi üçün müəllimlərimizin qarşısında geniş imkanlar açır.

Ədibin həyat və yaradıcılıq yolu, ayrı-ayrı əsərlərinin tədrisi şagirdlərin təlim prosesində müasir dünyagörüşünə yiyələnməsi, müstəqil, yaradıcı fəaliyyət göstərməsi üçün geniş imkanlar yaradır. Sənətkarın bədii yaradıcılıq konsepsiyasında mühüm yer tutan tənqid, satira ayrı-ayrı qüsurları tənqid və ya islah etməyə istiqamətləndirilmir. Burada ayrı-ayrı qüsurların , insan faciələrinin yaranmasına səbəb olan, onların törəyib artmasına şərait yaradan ictimai quruluşun özü ifşa edilir.

Məqalədə müasir təhsil proqramı üzrə ədəbiyyat dərslərində ədibin həyat və yaradıcılığının öyrənilməsinin səmərəli yolları araşdırılmışdır. Tədqiqatın praktik əhəmiyyəti şagirdlərin fəallığını və müstəqilliyini artıran müasir metodların tətbiqi ilə dərslərin təşkili metodikasının işlənilməsidir.

ZULFİYYA VERDİYEVA

WAYS OF TEACHING THE CREATIVITY OF JALIL MAMMADGULUZADE IN LITERATURE LESSONS IN THE XI CLASS

Summary

Studying the life and work of Jalil Mammadguluzadeh, a prominent playwright, writer, and publicist who has made great contributions to the development of Azerbaijani literature, in general education schools is of great importance in terms of acquiring an active life position and moral education of the young generation.

It is known that J. Mammadguluzade is an artist who brings innovations to our literary history and is devoted to his homeland and people. He is an innovative author who opened a new path in our literature. The teacher should clarify the great role played by the "Molla Nasreddin" magazine led by J. Mammadguluzadeh in the development of Azerbaijani literature in a new direction on the basis of concrete examples.The way of life and creativity of the writer, the teaching of his individual works create ample opportunities for students to acquire a modern worldview in the learning process, and to perform independent, creative activities.

Criticism and satire, which occupy an important place in the concept of artistic creativity of the writer, are not aimed at criticizing or correcting individual flaws. Here, the social structure itself, which causes individual defects and human tragedies, and creates conditions for their growth, is exposed.

In the article, the effective ways of studying the life and creativity of the writer in the literature classes of the modern education program were investigated. The practical importance of the research is the development of the method of organizing classes with the application of modern methods that increase the activity and independence of students.

ЗУЛФИЯ ВЕРДИЕВА

ПУТИ ИЗУЧЕНИЯ ТВОРЧЕСТВА ДЖАЛИЛА МАМЕДГУЛУЗАДЕ НА УРОКАХ ЛИТЕРАТУРЫ В XI КЛАССЕ

Резюме

Изучение жизни и творчества видного драматурга, писателя, публициста, внесшего большой вклад в развитие азербайджанской литературы Джалила Мамедгулузаде, в общеобразовательных школах имеет большое значение с точки зрения приобретения активной жизненной позиции и нравственного воспитания учащихся. молодое поколение.

Жизненный и творческий путь писателя, преподавание его отдельных произведений создают широкие возможности для приобретения учащимися современного мировоззрения в процессе обучения, осуществления самостоятельной, творческой деятельности. Известно, что Дж.Мамедгулузаде – художник, который вносит новшества в нашу литературную историю и предан

своей Родине и народу. Он автор-новатор, открывший новый путь в нашей литературе. Учитель должен на конкретных примерах разъяснить большую роль журнала «Молла Насреддин» под руководством Дж. Мамедкулизаде в развитии азербайджанской литературы в новом направлении.

Критика и сатира, занимающие важное место в концепции художественного творчества писателя, не направлены на критику или исправление отдельных недостатков. Здесь обнажается сама социальная структура, которая порождает индивидуальные дефекты и человеческие трагедии и создает условия для их роста.

В статье исследованы эффективные пути изучения жизни и творчества писателя на уроках литературы по современной образовательной программы. Практическая значимость исследования заключается в разработке методики организации занятий с применением современных методов, повышающих активность и самостоятельность учащихся.

Giriş. Cəlil Məmmədquluzadə zəngin və çoxcəhətli yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində mühüm rola malik sənətkarlardandır. O, ədəbiyyatımızda kiçik hekayənin böyük ustadı, publisist, tənqidi realizmin, "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi kimi məşhurdur. Yazdığı əsərləri ilə o, xalqın milli şüurunun inkişafına müsbət təsir göstərmişdir.

"Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında" qeyd edilir ki, Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətdir. Vətəndaş yazıçının bədii nailiyyətlərlə zəngin irsində azərbaycançılıq məfkurəsi dövrün ictimai-siyasi fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapmışdır. Sənətkar həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii-estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar qalereyası yaratmışdır.

Ana dilinin saflığı uğrunda daim mübarizə aparmış Cəlil Məmmədquluzadənin meydana gətirdiyi qiymətli dram və nəsr əsərləri, parlaq publisistika dərin humanist məzmuna malik olub, özündə milli və ümumbəşəri dəyərlərin vəhdətini ehtiva edir. Azərbaycanda və onun hüdudlarından kənarda geniş yayılaraq milli oyanışa, yeniləşmə hərəkatına yol açan və azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərən "Molla Nəsrəddin" jurnalı məhz Mirzə Cəlil dühasının məhsuludur.

Yazıçının yaradıcılığının böyük bir qismini publisistik əsərlər təşkil edir. Uzun müddət baş redaktoru olduğu "Molla Nəsrəddin" jurnalında, müxtəlif qəzetlərdə onun yüzlərlə felyetonu, publisistik məqalələri çap olunmuşdur. Əksəriyyəti satirik məzmunda olan bu yazılarda zəhmət adamının məişət çətinlikləri, cəmiyyətdə mövcud olan ciddi ictimai-siyasi problemlər, mühüm beynəlxalq məsələlər doğru-dürüst şəkildə, obyektiv mövqedən işıqlandırılmışdır. Məhz buna

görə də yazıçının publisistikası ədəbi və ictimai fikrin inkişafında əhəmiyyətli rol oynamışdır. [1, səh. 15]

Cəlil Məmmədquluzadənin əsərləri ümumtəhsil məktəblərinin VIII və XI siniflərində öyrənilir. VIII sinifdə sənətkarın "Qurbanəli bəy" hekayəsi, XI sinifdə həyat və yaradıcılıq yolu, "Anamın kitabı" tragikomediyası tədris olunur.

XI sinifdə ədəbiyyat dərslərində Cəlil Məmmədquluzadənin həyat və yaradıcılıq yolunun öyrədilməsinə 1 saat vaxt ayrılmışdır. Müəllim üçün metodik vəsaitdə sənətkarın həyat və yaradıcılıq yolu üzrə dərsin standart və təlim nəticələri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

Standartlar	Təlim nəticələri
1.2.4. Bədii nümunələrin mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir, ümumiləşdirmə aparır, nəticə çıxarır.	Povestin, komediyanın mövzusuna, ideyasına, başlıca probleminə, konfliktinə dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir, ümumiləşdirmə aparır, nəticə çıxarır.
2.1.1. Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir.	Mənbələrdən topladığı materialları müqayisə etməklə və onlara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir.

Dərs şagirdlərdə mövzuya motivasiya və problemin qoyulmasıyla başlayır. Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığına həsr edilmiş qısametrajlı filmdən bir hissəni nümayiş etdirməklə şagirdlərin görkəmli sənətkar haqqında əvvəl qazanılmış bililkləri aşkara çıxarılır.

Müzakirə nəticəsində tədqiqat sualı müəyyənləşdirilir: Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığını səciyyələndirən başlıca cəhətlər hansılardır?

Şagirdlərin fərziyələri dinlənir, qeydlər aparılır.

Məlumdur ki, C.Məmmədquluzadə ədəbiyyat tariximizə yeniliklər gətirən, vətəninə, xalqına bağlı sənətkardır. O, ədəbiyyatımızda yeni cığır açmış novator ədibdir. Müəllim C.Məmmədquluzadənin rəhbərlik etdiyi"Molla Nəsrəddin" jurnalının Azərbaycan ədəbiyyatının yeni istiqamətdə inkişafında oynadığı böyük rolu konkret nümunələr əsasında aydınlaşdırmalıdır.

Eyni zamanda klassik realizm ənənələrini öz yaradıcılığında yüksək vətənpərvərlik, milli qürur və məfkurə ilə təcəssüm etdirən yaradıcılığının öyrənilməsi ədəbiyyatımızda tənqidi realizmin mahiyyəti və spesifik xüsusiyyətləri

haqqında şagirdlərə ardıcıl və sistemli bilik verilməsi üçün müəllimlərimizin qarşısında geniş imkanlar açır.

Bu baxımdan sənətkarın həyat və yaradıcılığını müasir metodik tələblər səviyyəsində tədrisi, onun şagirdlərə tarixi şəxsiyyət, xalqımızın görkəmli ziyalısı kimi təqdimi müəllimlərimizin qarşısında duran başlıca vəzifələrdəndir. Ədəbiyyat dərslərində müəllim Azərbaycan ədəbiyyatında tənqidi realizmin formalaşmasında C.Məmmədquluzadənin böyük rolu barədə məlumat verməli, konkret nümunələr göstərməlidir.

Məktəblilər VIII sinifdə sənətkarın yaradıcılığı, "Qurbanəli bəy" kimi feodal-patriarxal həyat tərzinin realist bədii lövhələrini verən və kəskin ifşaedici qüvvəyə malik əsəri ilə tanış olmuşlar. Onlar öz yaş və bilik səviyyələrinə uyğun olaraq müəyyən biliklərə yiyələnməklə öyrənmişlər ki, Cəlil Məmmədquluzadə istismarçı cəmiyyətdə həyat tərzinin doğurduğu haqsızlıq, cəhalət, nadanlıq və fanatizmin sadəcə olaraq təsvirini verməklə kifayətlənmir.O, insanın insan tərəfindən istismarı üzərində bərqərar olan ictimai quruluşun məhvə məhkumluğunu dahi sənətkar və vətəndaş cəsarəti ilə kəskin , öldürücü satira atəşinə tutur. Dərsdə şagirdlərin qoyulmuş problemə uyğun olaraq müəyyənləşdirilmiş suallar üzrə tədqiqata cəlb edilməsinə, araşdırmaların nəticələrinin təqdimatına və interaktiv təlim metodu olan müzakirəyə geniş yer verilir. Müzakirə zamanı şagirdlərə aydın olur ki, ədibin feodal-patriarxal və kapitalist həyat tərzininin realist bədii lövhələrini verən əsərləri kəskin ifşaedici qüvvəyə malikdir. Sənətkar ədalətsiz cəmiyyətdə haqsızlıq cəhalət və fanatizmin sadəcə təsvirini verməklə kifayətlənmirdi.O. insanın insan tərəfindən istismarı üzərində bərqərar olan həmin ictimai quruluşun çürüklüyünü, məhvə məhkumluğunu dahi sənətkar və vətəndaş cəsarəti ilə kəskin satira atəşinə tuturdu.

Müəllim şagirdlərin diqqətini C.Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalının birinci nömrəsində öz məramını açıq imza ilə birbaşa oxucuya "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım" başlıqlı müraciətinə cəlb edir. Qeyd edilir ki, bu müraciətdə ədib onun sözlərini xoşlamayan, bir bəhanə ilə qaçıb "fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və gününü qeyri bu növ əməllərə sərf edənləri" satirik dillə tənqid edir.

Dərsdə aydınlaşdırılır ki, C. Məmmədquluzadə özünün "Danabaş kəndinin əhvalatları"povesti, "Ölülər" tragikomediyası , "Poçt qutusu", ""Usta Zeynal" hekayələri, bütün Şərqə səs salan "Molla Nəsrəddin" məcmuəsi ilə həmin dövrdə Azərbaycan üçün xarakterik olan sosial münasibətləri yüksək sənətkarlıqla ifşa etməyə nail olmuşdur. Ədibin bədii yaradıcılıq konsepsiyasında mühüm yer tutan tənqid, satira ayrı-ayrı qüsurları tənqid və ya islah etməyə istiqamətləndirilmir. Burada ayrı-ayrı qüsurların , insan faciələrinin yaranmasına səbəb olan , onların törəyib artmasına şərait yaradan ictimai quruluşun özü ifşa edilir.

Şagirdlərin diqqətinə çatdırılır ki, C.Məmmədquluzadə özünün "Danabaş kəndinin əhvalatları", "Ölülər"əsərləri, bütün Şərqə səs salan "Molla Nəsrəddin" məcmuəsi ilə o dövrdə Azərbaycan üçün səciyyəvi olan sosial problemləri ifşa

etmişdir. C.Məmmədquluzadənin bədii yaradıcılıq konsepsiyasında təzahür edən tənqid ayrı-ayrı qüsurları ifşa etməyə, onları islah etməyə istiqamətləndirilmir. Burada cəmiyyətdə mövcud olan nöqsanların yaranmasına səbəb olan, onların törəyib artmasına şərait yaradan ictimai quruluşun özü ifşa edilir. Məhz elə ifşa edilir ki, burada müalicə üçün, islah üçün heç bir yer qalmır.

Beləliklə, yüksək ideyalı və məfkurəli tənqidi realizm bədii yaradıcılıq metodu əxlaqi naqisliklərin tənqidi və islahını deyil, bu bəlaları doğuran soial-iqtisadi münasibətlərin ifşa və inkar edilməsini, onun məhvə məhkumluğunu bədii lövhələrlə əks etdirməyi tələb edir.

Dərsdə C.Məmmədquluzadə irsinin tədqiqatçısı, akademik İsa Həbibbəylinin fikirlərinə isnad edilərək göstərilir ki, Məhəmmədhəsən əmi obrazı "kiçik adam"ın Azəebaycan ədəbiyyatında ilk ümumiləşmiş surətidir. Məhəmmədhəsən əmi sadə insanların, xalq kütləsinin taleyini özündə cəmləşdirən tipik obrazdır. Əsərdəki Zeynəbin yanıqlı taleyi isə Azərbaycan qadınının acınacaqlı, keşməkeşli həyatının real və ümumiləşdirilmiş əks-sədası idi.XIX əsrin ortalarında meydana çıxmış "Danabaş kəndinin əhvalatları" əsəri həminn tarixi dövrdən etibarən ilk addımlarını atan Azərbaycan tənqidi realizminin möhtəşəm müqəddiməsidir.[2, s. 271-272]

Bu istiqamətdə məlumatdan sonra müəllim yığcam halda tənqidi realizm bədii metodunun tələbləri baxımından C.Məmmədquluzadənin "Poçt qutusu", "Qurbanəli bəy", "Usta Zeynal" və digər hekayələrindən, "Danabaş kəndinin əhvalatları", "Ölülər" əsərlərindən nümunələr gətirərək əsaslandırır.

Dərsdə əlavə mənbədən istifadə olunaraq görkəmli ədəbiyyatşünas alim Yaşar Qarayevin "Azərbaycan reazlizminin mərhələləri" kitabından aşağıdakı fikirlər şagirdlərin nəzərinə çatdırılır:"Bütün xalqlarda tənqidi realizmin mahiyyətini ifadə edən estetik meyar və prinsiplərdə ən böyük tipoloji uyğunluğa bizim də XX əsrin ədəbi hadisələrində rast gəlinir. Yeni dövrdə Azərbaycanda realist ədəbi üslubun ümumxalq və ümumiliyi bir realizm səviyyəsində ən müasir dünya estrtik prosesində iştirakı məhz bu hadisələrlə təmin olunur. Məhz "Usta Zeynal"ın, "Poçt qutusu"nun timsalında bədii yaradıcılığın qnunauyğunluqları vahid dünya estteik prosesi ilə ən yüksək səviyyədə qaynayıb- qarışır. Bizdə milli realizmin müəssisi M.F. Axundov Azərbaycanda feodal əlaqələrinin hələ çox qüvvətli olduğu bir dövrün böyük maarifçi realistui olursa, Mirzə Cəlil və Sabir realizmi iki inqilab ərəfəsi olan yeni tarixi dövrün klassik tənqidi realizmi kimi formalaşır.

Əlbəttə, Mirzə Fətəli Axundov bütünlükdə milli realizmin vahid mənşəyi kimi bu realizmlə həmişə bağlı olub, sonraklı bütün realistlər hamısı hər mərhələdə, hər dəfə məhz Axundova baxaraq, irəliyə doğru hərəkət istiqaməti müəyyən etmişlər! Bəlkə də məhz bu mənada biz deyərdik ki, hətta XX əsrin tufan və külәkləri də Azərbaycan realizminin səmasında məhz Axundovun qaldırdığı bayrağı yellətmişlər. Lakin bu bayraq artıq müqəddəs xatirə və nəzəri vəsiyyət bayrağı idi. Dövrün əməl və hərəkət bayrağında qızaran ünvan və imza "Molla Nəsrəddin" idi. [5, s.152-153.]

Müəllim bu ədəbi-nəzəri fikirləri şagirdlərin yaş və qavrama səviyyəsini nəzərə alaraq, ədəbiyyatşünas alimdən gətirilən sitatın konkret bədii nümunələrlə əsaslandırılmasını təmin edir. Şagirdlərdə belə bir qənaət formalaşdırılır ki, M.F. Axundov öz dövrünün qüdrətli sənətkarı olduğu kimi, Cəlil Məmmədquluzadə də yaşadığı ictimai mühitin ədəbi tələbini ödəməyə qadir olan ən böyük nümayəndəsidir. Bu baxımdan CəMəmmədquluzadənin bir sənətkar kimi böyüklüyü məhz ondadır ki, o öz dövrünün sosial-iqtisadi münasibətlərini başa düşməklə yanaşı, özlərinə müasir oxucu kütlələrinin şüur və idrak səviyyəsini düzgün müəyyən etmişdir.

ƏDƏBİYYAT SİYAHISI

1.Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. https://president.az/az/articles/view/ 31565

2.Həbibbəyli. Azərbaycan ədəbiyyat dövrləşdrimə konsepsiyası və inkişaf mərhələləri. Bakı: Elm, 2019,450 s.

3.Həbibbəyli İ., Əliyev S, Həsənov B, Mustafayeva A. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün ədəbiyyat fənni üzrə dərslik. Bakı 2021, 207 s..

4.Həsənov B, Mustafayeva A, Əliyev S. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı 2018, 207 s..

5.Qarayev Y. Azərbaycan realizminin mərhələləri. Bakı: Elm, 1980. 462 s.

6.Məmmədquluzadə C. Əsərləri. 4 cilddə. I cild. Bakı: Öndər nəşriyyat, 2004. 664 s.

7.Məmmədquluzadə C. Əsərləri. 4 cilddə. II cild. Bakı: Öndər nəşriyyat, 2004. 584 s.

8.Məmmədquluzadə C. Əsərləri. 4 cilddə. III cild. Bakı: "Öndər nəşriyyat, 2004. 480 s.

9.Məmmədquluzadə C. Əsərləri. 4 cilddə. IV cild. Bakı: Öndər nəşriyyat, 2004. 472 s.

10. Mirəhmədov Ə. Azərbaycan Molla Nəsrəddini. Bakı: Yazıçı, 1980. 430 s.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi pedaqogika üzrə fəlsəfə doktoru, dosent Bilal Həsənli tərəfindən çapa tövsiyə olunmuşdur

AYBƏNIZ İSLAM QIZI RÜSTƏMOVA
Bakı şəhəri, Nərimanov rayonu 73 nömrəli tam orta məktəbin
Azərbaycan dili və ədəbiyyatı müəllimi
Ziya Bünyadov prospekti
Arustemova79@gmail.com

"BARİQƏYİ-ZƏFƏR PARLAYIR, İSTİQBAL BİZİMDİR" POEMASI MƏŞRUTƏ İNQİLABINA HƏSR OLUNMUŞ ƏSƏR KİMİ

Xülasə

Təqdim olunmuş məqalədə milli Azərbaycan romantizminin yaradıcılarından biri, mütəfəkkir sənətkar Məhəmməd Hadinin 1905-1911-ci illərdə İranda baş vermiş Məşrutə inqilabına münasibətini əks etdirən "Bariqəyi-zəfər parlayır, istiqbal bizimdir" poeması tədqiqat obyekti kimi seçilmişdir. Tarixdən bəlli olduğu kimi, Məhəmmədli şahın Tehranda məşrutəçilərə divan tutub Milli Məclisi topa tutmasından sonra Məşrutə hərəkatının mərkəzi Təbrizə keşmiş və Səttarxanın başçılığı ilə Azərbaycan xalqı Məşrutəni təzədən elan etməyə müvəffəq olmuşdular. Bir mütəfəkkir şair olaraq M.Hadi xalqın bu uğuruna ürəkdən sevinmiş, sevincini bir çox başqa əsərlərində olduğu kimi, bu poemasında da bəyan etmiş, qəhrəman Azərbaycan oğullarını və onların igid sərkərdəsini tərənnüm etmişdir. Şair əsərində Məhəmmədəli şahı, monarxist şahlıq rejimini kəskin şəkildə tənqid etməklə yanaşı, inamla bildirirdi ki, Təbriz elində hürriyyət – azadlıq günəşi doğacaq və bundan belə onu söndürməyə kimsənin nə gücü, nə də cürəti olmayacaq. Mücahidləri tülkülərə hücum edən və onları pərən-pərən salan şirə bənzədən şair qeyd edir ki, bu gün atəş, vulkan meydanına dönən İran, heç şübhəsiz ki, sabah mücahidlərin səyi nəticəsində azadlıq səhnəsinə, gülüstana çevriləcək.

Açar sözlər: Məşrutə inqilabı, mücahidlər, hürriyyət, Təbriz, vətən, həqiqət

Giriş

Tarixdən məlum olduğu kimi, 1905-ci ilin dekabrında Tehranda başlanan Məşrutə inqilabında Azərbycan əsas hərəkətverici qüvvə kimi çıxış etmişdir. İranın bir sıra şəhərlərində, xüsusilə Təbrizdə Səttarxanın başçılıq etdiyi mücahidlərinin inamlı qələbələri sayəsində Müzəffərəddin şah 1906-cı il avqustun 5-də Qanuni-əsasi (Konstitusiya) haqqında fərman imzalamağa məcbur olmuşdu. Düzdür, Müzəffərəddin şahın ölümündən sonra taxta əyləşən oğlu Məhəmmədəli şah həmin fərmanı ləğv etməyə təşəbbüs göstərmiş, hətta onun əmri ilə 1908-ci il iyun ayının 23-də Tehranda Milli Məclis top atəşinə tutulmuşdu.

Araşdırmalarda qeyd olunduğu kimi, "Azadlıq və demokratik hüquqlar uğrunda mübarizə aparan xalqa qarşı Tehranda amansız siyasi mühitin yarandığı bir zamanda Məşrutə hərəkatının mərkəzi Azərbaycana – Təbrizə keçdi. Sərdari-milli Səttarxanın başçılıq etdiyi məşrutəçilər şah və onun mürtəce qüvvələrinin qarşısına mütəşəkkil,

mübariz və yenilməz ordu kimi çıxıb... öz qəhrəmanlqları, igidlikləri və dönməz əqidələri ilə Məşrutə tarixinin qızıl və həmişə yadda qalan səhifələrini yazdlar”(4, s.7).

İranda, ümumiyyətlə Şərq ölkələrində baş verən hadisələrə laqeyd qalmayan və bunlara isti-isti münasibətini bildirən Məhəmməd Hadi bu mövzulara bir sıra poetik və publisistik əsərlər həsr etmişdir ki, bunlardan biri də “Bariqəyi-zəfər parlayır, istiqbal bizimdir” poemasıdır (2, s.413-419).

Əsas hissə

Qeyd olunduğu kimi, XX əsrin əvvəllərində Şərq ölkələrində, o cümlədən Iranda baş verən hadisələr, azadlıq uğrunda mücadilələr bir mütəfəkkir sənətkar olaraq M.Hadini daima düşündürən və məşğul edən məsələlərdən idi. Şairin bu mövzuda yazdığı ən dəyərli poetik əsərlərindən biri Məşrutə inqilabının əsas qüvvələrinin Səttarxanın başçılığı ilə Təbrizdə çahlıq rejiminə qarşı uğurlu döyüşlər keçirdiyi və şah qoşunlarını darmadığın etdiyi 1909-cu ilin əvvəllərində yazdığı və “İttifaq” qəzetində dərc etdirdiyi “Bariqəyi-zəfər parlayır, istiqbal bizimdir” (1). poemasıdır. Şairin 2020-ci ilə qədər çap olunan kitablarına şeir kimi saılnan, bir çox tədqiqtlrda haqqında şeir kimi danışılan bu əsər M.Hadinin 2020-ci ildə çap olunmuş “Əsərləri”nin birinci cildinə müstəqil poema olaraq daxil edilmişdir (2, s.413-419). M.Hadi irsinin tədqiqatçəsı professor İslam Qəribli digər araşdımaçılardan fərqli olaraq, bu əsəri poema adlandıaraq müstəqil poema kimi tədqiq etmişdir (3).

1909-cu ilin əvvəllərində yazılan, inqilabı yüksəlişin tərənnüm edilib alqışlandığı bu əsərinə şairin “Zəfər, qalibiyyət şimşəkləri parlayır, istiqbal – gələcək bizimdir” anlamında olan adını seçməsi təsadüfi deyildi. Məşrutə mücahidlərinə və onun başçılarına aid misralarda aşkar mübaliğəyə yol verən, mücahidlərlə fitnəkarcasına rəftar edən, yalan vədlərlə inqlabı qan içində boğmağa çalışan Məhəmmədəli şahı ifşa edən, ən kiçik bəndi beş, ən böyük bəndi on misradan ibarət olmaqla iyirmi altı bənd və 201 misradan ibarət poema həmin illərdəki İranın siaysi mənzərəsini əks etdirən gözəl bir poetik nümunədir.

Əsər Məşrutə hərəkarı qəhrəmanlarına xitabla başlayır. İlk iki misrada (bu iki misra – beyt, demək olar ki, poemanın bütün bəndlərinin sonunda nəqarət kimi təkrarlanır – A.R) şair sevinclə bildirir ki, bu gün Təbriz eilində hürriyyət qılıncları parlayır, inqilab şirləri – mücahidlər məşrutənin düşmənləri olan tülkülərə (şeirdə rubahlara) – irticaçılara qarşı hücuma keşmişlər. Sonrakı misralarda mücahidlərə müraciət edib onları Vətəndə hürriyyətin – azadlığın əldə edilməsi üçün əl-ələ verib mübarizəyə səsləyən şair ikinci bənddə məhz onların sayəsində qaranlq istibdadın vətəndən qaçaq düşdüyünü, ədalət və sevincin qəhqəhə çəkməsini, istiqbal üfüqlərində ümidlərin “nümayan” olduğunu və məhz bu səbəbdən “sevdayi-hürriyyətə nəğmələr inşad” etdiyini bildirərək sonrakı bənddə yazır:

Bu gün tiği-rəşadət xeyrəsazi-çeşmi-imkandır,
Bu gün əqvamii-Qərbiyyə nigəhəndazi-İrandır.
Bu gün Məşriq zəmində şəmsi-hürriyyət dirəxşandır,

Bu heyrətbəxş qeyrət calibi-ülviyyətü şandır,
O Fironi-zamanın son məkanı Nili-xüruşandır:
Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Odur Təbriz elində parlayır şəmşiri-hürriyyət (2, 414)

Bu gün bütün Qərb dünyasının gözünün İrana dikilməsini, vətənin göylərində hürriyyət günəşinin parlamasını və çox keçməz ki, İran şahının Allahlıq iddiasında olan qədim Misir hökmdarı, Nil çayında bütün qoşunu ilə qərq olan Firon kimi məhv olacağını inamla ifadə edən şair təzədən üzünü müsahidlərə tutaraq bildirir ki, tarixdə adı zülmkar bir hökmdar kimi nifrətlə yad yedilən Şəddadın özü və qoşunu kimi qan içməkdən zövq alan İran şahı Məhəmmədəlini mat vəziyyətinə salb onun Tehrandan göndərdiyi qoşunu darmadağın etdiyiniz üçün şəhidlərin ruhu daima sizi alqışlyır, vicdan əhlinin dilləri sizə duaçıdır. Məhz sizin sayənizdə İran həqiqətləri bütün dünyaya əyan oldu və Şərq torpaqlarında hürriyyət günəşi parlamağa başladı. Dünya anladı ki, "bu gün səhrayi-İranın atəşi bir meydan, "xunfəşan vulkan" səhnəsinə çevrilməsi səbəbsiz deyil. Qaniçən bir rejimə qarşı çəxıb qanları və canları ilə azadlığını qazanıb özlərini millətə qurban deyənlərin qələbəsi labüddür və mütərəqqi dünyanın bunu alqaışlamaqdan savayı doğru yolu yoxdur.

Şair inamla qeyd edir ki, coşmuş dəniz dalğalarını xatırladan inqilab selinin yolunu kəsmək mümkün olmadığı kimi, günəşə bənzətdiyi və zamanın tələbi ilə meydana çəxan azadlıq hərəkatının simasını da heç nə ilə pərdələmək artıq mümkün deyil. "Mazipərəstlər", yəni köhnəlik tərəfdarları əvvəlki qaranlıq fikirlərindən əl çəkməli, zamanla ayaqlaşmağa özlərində güc tapmalıdırlar, çünki monarxist rejimi devirməyə yönələn inqilabi hərəkat bir qrup insanın istəyi deyil, bütün xalqın tələbidir.

Xalqın inadlı tələbi ilə xalqa amansız rəftarı ilə ad çıxarmım baş nazir Atabəy Əzəmin yerinə yeni baş nazir – sədr əzəm təyin olunmuş və xalqa qarşı zorakılıqda heç də ondan geri qalmayan Eynüddövləni istibbadın əsas səbəbkarlarından biri, mücahidlərin qaniçən cəlladı adlandıran şair ona xitab edərək bildirir ki, Tehrandan Təbrzə gəlib burada baş verənlərə tamaşa eləsin və görsün ki, şahın qurduğu zülm səltənəti necə bərbad edilir və edilməkdə davam edir. Qəzbi ipə-sapa yatmayan müəllif poemanın səkkizinci bəndində birbaşa İran şahına üz tutur, ona bu günkü halını xatırladaraq aqibətinin necə olacağını bəyan edir:

Bir istiqbalə bax, "şahım", gələn var, intiqamındır,
Batır "xurşidi-şiranə"n, çıxan zülmətli şamındır,
Öləndən son yerində lənlər qaimməqamındır,
Gözəl xeyrülxələf qoydun,yaşa, şayani-namındır,
Şaha! Lənətlə yad olmaq sənin ən son məramındır:
Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Olur Təbriz elində parlayır şəmşiri-hürriyyət (2, s. 415).

"Xurşidi-şiranə" ifadəsi ilə İran dövlətinin gerbinə, orada əks olunan Günəş və Şirə işarə edən şair açıq şəkildə şaha bildirir ki, bu inqilab nəticəsində bayrağın da, dövləti də məhv olub gedəcək, sənin qazandəğın isə yalnız lənətlə yad olunmağın olacaqdər.

Sonrakı bəndlərdə Məhəmmədəli şahı "qatil" adlandıran, xalqa qarşı törətdiyi qanunsuz əməlləri, etdiyi qeyri-insani əməlləri bir-bir onun üzünə çırpan şair yazır:

Camali-həqqə, ey qatil, nasıl səlli-hüsam etdin,
Ərusi-ədli nakam eylədin, zülmü bəkam etdin,
Ədalətdən əlavə hər nə iş varsa tamam etdin,
O pak insanlığı sən ləkkədari-ittiham etdin,
"Zülami-zülmü parlatdım",- dedin də fikri-xam etdin?
Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Olur Təbriz elində parlayır şəmşiri-hürriyyət (2, s. 415).

İran şahını ittiham edən, onu məmləkətdə ədlətdən özgə nə varsa tamamən məhv etməkdə günahlandıran şair qənaətinə görə, şah, ümumiyyətlə irticaçı rejim azadlıq, istiqlal odunu söndürməyə nə qədər cəhd etsələr də, onların istəkləri doğrulmayacaq, əməlləri səmərə verməyəcəkdir. Çünki İran səmasında ümid nuru doğmuş, qaranlıqlar işıqlanmağa başlamış, istibdab istiqlalın qarşısında "lərzandır".

"Şaha, bərqi-zəfər parlar, fəzayi-ədl olur bərraq" misrası ilə başlanan on ikinci bənddə şahı bu gün baş verməkdə olan hadisələrdən ibrət götürməyə çağıran şair bir daha bildirir ki, qazanılan azadlıq və azadlıq yolunda "kəsilən nazlı qurbanlar", tökülən qanlar xalqın hürriyyətinə olan inamının nəticəsidir və millət belə bir işə qol qoyub azadlıq mücadiləsinə qoşulduğu üçün yalnız şərəf duyur və əməlindən qətiyyən peşman deyil.

Şairin qənaədunə görə, bu qanlar ki, tökülmüş, onlar bica – hədər deyil. Tökülən qanların hər damcısından azadlıq gülləri cücərir ki, bu güllərin də hamısı alov rəngindədir. Bunun səbəbi isə bu güllərin şəhid qanı ilə suvarılmş vətən toppağında göyərməsidir. Hadisələrin mahiyyətini bir qədər də poetikləşdirən, vətən göylərində pərvaz edən quşların da mücahidlərlə həmrəy olub istibdada nifrət etdiyini bildirən şair üzünü şaha tutaraq yazır:

O quşlar kim, vətəndə eyləyirlər atəşin fəryad,
Nədir ol naləyi-möhriq, nədir bu ahü istimdad?
Təzəllümlər, təəllümlərdir onlar, dinlə, ey bidad!
Birər fəryad şəklində edirlər lənlər inşad,
Qırılsın pəncəyi-zülmün sənin, ey qırmızı cəllad!
Əsir etsin səni Səttar, qılsın bizləri azad:
Hücumavər bu gün rubəhlərə bir şiri-hürriyyət,
Olur Təbriz elində parlayır şəmşiri-hürriyyət (2, s. 416).

Məhəmmədəli çahı "Utan alçaq, utan və etdiyinə hərəkətlərə baxıb xəcalət çək" sözləri ilə kəskin çəkildə ittihm edən şair ona bildirir ki, cəfa qılıncı ilə başları kəsdin, azadlıqsevərləri öldürüb, parlaq, işıqlı fikirləri qaranlıq torpağa gömməklə elə hesab etdin ki, yanan atəşli fikirləri söndürdün. Amma yanılırsan:

Nə mümkündür ki, zülmün söndürə ərvahi-nəvvarı,
Tutar bir gün yaxandan, qafil olma, qəhri-Səttarı! (2, s. 416).

Şair şaha bildirir ki, Səttarxanın əli sənin yaxandan yapışandan sonra, sənə nicat olmayacaq. Çünki sən behişt olan mülkün bağlarını solduran, ölkəni boşaldıb "yer altını canlarla dolduran", yazıqları, kimsəsizləri ac-yalavac saxlayıb millətin qanına susayanları firavan yaşadan, yalandan and içib sonra andını sındıran zalam və yalançısan. Əmməllərinlə tarixin səhifələrinə adı qara hərflərlə yazılan, nifrətlə yad edilən hökmdarları belə üstələdin. Bəndlərin birində oxuyuruq:

Behəqq, şad qıldın ruhuhu Həccacü Çingizin,
Qazıldı lövhəyi-afaqə nami-lənətəngizin,
Yazıldı ənfüsə çirkli adın, əsri-qəmmazın,
Yayıldı aləmə, cani, sənin ünvani-xunrizin (2, s. 416)...

Əsərlərində dəfələrlə Məhəmmədəli şahı kəskin şəkildə tənqid eməkdən çəkinməyən, "Məhəmmədəli şahın qulağına azani-intibah" şeirində onu tarixdə adları zalım hökmdar olub qövmlərinə zülm etdikləri üçün lənətlə yad edilən Dəqyanus və Nəmrudla müqayisə edən:

Dövri-bidadi-Yezidi dərk qılsaydın əgər,
Ən böyük sərdar olardın Kərbəla davasına.
Eylədin ehraq nazəndə vətən gülzarını,
Çıxdın, ey qəddar, zülmün payəyi-balasına (2, s. 186),-

sözləri ilə onun iç üzünü açan şairin bu əsərində də əsas tənqid hədəfi monarxiya ilə yanaşı, monarxiyanın başında duran şahdır. Şair "Məhəmmədəli şahın vətənə qanlı divan tutmasından bəhs edərkən göstərir ki, o, azadlıq tərəfdarlarını qətl etmiş, qılıncla başlarını üzmüş, vətən yolunda fəaliyyət göstərənləri məhv etmiş və bununla da qızğın azadlıq duyğularını söndürə bildiyini zənn etmişdir" (5, s.151). Şair onu da bildirməyi lazım hesab edir ki, şah və onun cəlladları nə qədər zülm etsələr də, xalqın azadlıq ruhunu öldürə bilməyəcəklər. Şaha: "Qırılsın pəncəyi-zülmün sənin, ey qırmızı cəllad, Əsir etsinb səni Səttar, qılsın bizləri azad" misraları ilə xitab edən şair zülmdə Həccac və Çingizdən də baş olduğunu şaha xatırladır və bildirir ki, sənin məhvini labüd edən millətdən çox, öz əməllərindir. Çünki:

Əcəb dünyada ad qoydun! Nə ad, şayani-zatındır,
Qoyaq ədli kənarə, hər nə qaldısa, sifatındır,
Sitəm bir meyvəyi-zəqqum, məhsuli-həyatındır,
Həyati-mülkü millət bəstəyi-ruzi-məmatındır,
Səni iğfal edən ancaq həyati-bisəbatındır...(2, s. 418).

Şair Məhəmmədəli şaha xatırladır ki, məzara gömdürdüyün adamlar bir zaman kəfənə bürünərək yenidən ayağa qalxacaq və o zaman dəhşətli bir intiqama məruz qalacaqsan. Hürriyyət qılıncı qınından çıxdığından onu təzədən qınına qaytarmaq mümkün olmayacaq. Dərk etsin ki, "Çox insanlar nuru söndürdüm derkən özü söndü". Məhəmmədəli şahı zülümdən ləzzət alan, millət, dövlət və vətən sevgisindən xəbərsiz ismətsiz və qeyrətsiz, azadlığın ruhunu anlamayan bir zat kimi xarakterizə edən şair qətiyyətlə bildirir ki, o, daha İranı qan dəryasına döndərə bilməyəcək. Şair şaha məsləhət görür ki, tarixdən və qonşu Türkiyədə baş verənlərdən ibrət götürsün:

"Çox insanlar nuru söndürdüm derkən özü söndü:
O "Yıldız köşkü" sabit durdu, durdu, sonra tərpəndi,
Düşündü, batilül-məsləkiniu fəhm etdi, öyrəndi,
Bax ol Əbdülhəmidə, şahrahi-Ənvərə döndü,
Niyaziddən riza aldı, cəmaəti sevindirdi,
Çoxu zatın kimi tacü sərirə baxdı yelləndi,
Fəqət çox çəkmədi bədbəxt təxtindən diyirlənmdi (2, s.418).

Burada Türkiyədəki "Gənc türklər" hərəkatının liderlərindən olan ordu zabitləri Ənvər paşa və Niyazinin, eyni zamanda taxtdan salınmış Sultan Əbdülhəmidin adları təsadüfən çəkilməmiş, şair aşıq və aydın şəkildə Məhəmmnədəli şaha bildirmişdir ki, Səttarxanın və Bağırxanın rəhbərlik etdiyi mücahidlər ordusu sənin qoşununu darmadağın etdiyi kimi, tezliklə səni taxtdan da salacaq, özün kimi bir despotun – Sultan Əbdülhəmidin gününə düşəcəksən.

Məhəmmədəli şaha "istər anla, istər sə anlama" , millətdə olan hürriyyət ruhunu söndürməyə gücün, qüdrətin çatmaz", mesajını verən şair əsərini ümumiləşdirərək belə tamamlayır:

Nə xunaşamsan, qatil, nə xunaşamsan, cani!
Cihada sövq qıldın axır asayişpərəstanı.
Xəyalın bəhri-xun yapmaqmıdır səhrayi-İranı?
Açıl, ey intiqqamın fəci-xuninü dirəxşanı!
Bunu məyus qıl, güldür dili-ümmidvarını,
Bunu qəhr eylə, şad et yaralanmış zəxmdarını,
Cəsarətləndi tülkü – şirdən boş gördü meydanı:
Olur ki, nərələr yağdırmada mərdani-hürriyyət,
Hücumavər bu gün rubəhlərə şirani-hürriyyət (2, 419).

Göründüyü kimi, poemanın əvvəindən sonuna kimi, müəllif bir bir ideyanı irəli sürmüş və təbliğ etmişdir ki, zülmə qarşı döyüşmək, ədaləti müdafiə edib istiqlalı qazanmaq millətin arzusu olduğu kimi, hər bir fərdin də vəzifəsi olmalıdır. Hürriyyəti, azadlığı əldə etməkdən ötrü döyüşmək, mübarizə aparmaq lazımdır. Mücahidlər ona görə qalibdirlər ki, onlar haqqı müdafiə edirlər. Məhəmmədəli şah və onun kimi despotlar məhvə məhkumdurlar. Bu gün də olmasa, sabah onların zülm səhnəsi olan səltənəti dağılacaq və qan içində üzən taxt-tacları başlarına uçacaqdsır.

Nəticə / Gonclusion

Yuxarıda qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, M.Hadi XX əsrin əvvəllərində İranda və İranın tərkibində olan Cənubi Azərbaycandakı hadisələrə laqeyd qalmamış, bu mövzuda bir sıra şeir və publilstik məqalələrlə yanaşı, ayrıca bir poema da yazmışdır. Poemanın təhlilindən anlaşıldığı kimi, şair məsələlərə obyektiv yanaşmış, zülmün kökünün kəsilməsi, xalqın normal, qanunlarla idarə olunan bir cəmiyyətə, quruluşa ehtiyacı olduğunu vurğulamış və sistemin dəyişilməsinin bir inqilaba ehtiyası olduğu qənaətinə gəlmişdir. Məşrutə inqilabı, inqilabın Səttarxan kimi rəhbəri, mücahidlərin tərənnüm olunduğu bu əsər təkcə İran şahı Məhəmmədəli şahı və onun xalqın başına bəla olan rejimini ifşa edən əsər kimi yox, ümumiyyətlə Şərqdə milli azadlıq mübarizələrinə çağırış kimi də dəyərləndirilə bilər.

Ədəbiyyat / References

1.M.Hadi. Bariqəyi-zəfər parlayır, istiqbal bizimdir. “İttifaq” qəzeti, 4, 6, 8, 13, 16 mart 1908-ci il, N 51,53,54,57,59
2.Məhəmməd Hadi. Əsərləri. İki cilldə. Birinci cild. (Tərtib edənlər Əziz Mirəhmədov, İslam Qəribli; elmi məsləhətçi İsa Həbibbəyli; redaktoru Acif Rüstəmli). Bakı: “Elm” nəşriyyatı, 2020, s.413-419
3.Bax: İslam Qəribli. Məhəmməd Hadi: Həyatı və yaradıcılığı. Bakı: “Elm və təhsil”. 2020, s. 276-279; Azərbaycan ədəbiyyatı tarixi. Altıncı cild. Bakı: “Elm” nəşriyyatı, 2022, s. 669-671; Azərbaycan ədəbiyyatı: dünən və bu gün.Bakı: “Apostrof-A”, 2022, s. 393-394
4.Gövhər Baxşəliyeva. XX əsr İran tarixində əlamətdar hadisə. (“Məşrutə inqilabı – 100” kitabında.) Bakı: “Günəş” nəşriyyatı, 2005, s.7
5.Midhəd Ağamirov. Məhəmməd Hadinin fəlsəfəsi. Azərnəşr, Bakı – 1987, s. 151

Айбениз Ислам кызы Рустамова

Поэма «Сверкают молнии победы, будущее принадлежит нам!» - произведение посвященное революции Мэшрутэ

Резюме:

В данной статье обьектом исследования является роэма одного из основоположников азербайдханского романтизма, поэта-мыслителя М.Хади «Сверкают молнии победы, будущее принадлежит нам!». Как известно по истории, после разгромления Мухаммедали шахом Милли Меджлиса в Тегеране и жестокого наказания революционеров, центр движения Мэшрутэ переехал в Тэвриз и под руководством Саттархана азербайдханский народ восстановил Мэшрутэ. Будучи поетом-мыслителем М.Хади конечно же радовался победе народа и вразил свою радость в этой роэме, как и в других произведениях, воспевая героизм сыновей Азербайдхана и героического лидера Саттархана. В роэме наряду с жестокой критикой шаха, монархии и шахского режима поет выражает уверенность в том, что в Тебризе взойдет солнце свободу и у врагов не хватит ни сил, ни помешать его свету. Поэт сравнивает борцов за свободу со мвом просившимся на стаю лис и разогнавшим их в разные стороны и вражает уверенность в счастливам, свободном будушем родины, котороя сегодня в огнеи живет как на вулкане, и подчеркивает, что благодаря борцам за независимость свободная родина будет цвести и превратится в рай.

Ключевые слова: революция, Мэшрутэ, борцы за независимость, свобода, Тэбриз, родина, правда

Aybaniz Islam Gizi Rustamova

THE POEM "THUNDERS OF VICTORY SHINES, THE FUTURE IS OURS" AS A WORK DEDICATED TO THE MASHRUT REVOLUTION

Abstract:

In the presented article, the poem "Thunders of victory shines, the future is ours" reflecting the attitude of one of the founders of national Azerbaijani romanticism, the thinker, artist Muhammad Hadi, to the Mashrut revolution that took place in Iran in 1905-1911, was chosen as the object of research. As it is known from the history, after Mohammadli Shah dipersed the constitutionalists in Tehran and seized the Milli Majlis, the center of the Mashruta movement moved to Tabriz and under the leadership of Sattarkhan, the people of Azerbaijan managed to announce the constitution. M. Hadi was heartily happy for this success of the people, he expressed his joy in this poem, as in

many other works, and praised the heroic sons of Azerbaijan and their brave commander. In his work, the poet Mohammadali Shahi, while sharply criticizing the monarchist royal regime, confidently stated that the sun of freedom will rise in the province of Tabriz, and even then, no one will have the strength or courage to extinguish it. The poet compares mujahids to a lion that attacks foxes and scatters them, and notes that Iran, which has turned into a place of fire and volcanoes today, will undoubtedly become a stage of freedom and prorporeus land tomorrow as a result of the efforts of the mujahids.

Key words: Mashruta revolution, mujahids, freedom, Tabriz, homeland, truth

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi Filologiya elmləri doktoru, professor İslam Qəribli
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏHMƏDOVA QƏNIRƏ NAMAZALI QIZI
Azərbaycan Dövlət Pedaqoji Universiteti
ganirahmedova@gmail.com

ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ POEMA JANRINDA ƏSƏRLƏRİN TƏDRİSİ METODİKASI

XÜLASƏ

Müasir dünyamızda dərslik artıq yeganə bilik verən mənbə deyil. Fəal/interaktiv təlim müəllim və şagirdin birgə iş aparmasını tələb edir. Kurikulumla hazırlanmış yeni dərslikər, metodik vəsaitlər, lüğətlər və s. bu yolda atılmış uğurlu addımlardır. Hazırlanan yeni dərs komplektləri, istifadə olunan yeni metodlar, İKT vasitələrindən dərs prosesində istifadə olunması və s. ədəbiyyatın tədrisinə də öz müsbət təsirini göstərmişdir.

Azərbaycan ədəbiyyatında öz layiqli yerini tutan poemalar məktəblilərin vətənpərvərlik ruhunda yetişməsində, onların yüksək mənəvi-əxlaqi keyfiyyətlərə yiyələnməsində, bədii estetik zövqlərinin inkişaf etməsində əvəzsiz rol oynayır. Poemalarda qoyulan problemlər, təbliğ olunan məsələlərin böyük bir əksəriyyəti bu gün də öz aktuallığını qoruyub saxlayır. Bu əsərlərdəki dərin ideyalar hər zaman vacib və mühümdür. Məhz buna görə də, bu poemaların tədrisi şagirdlərin mənəvi dünyasını genişləndirmək baxımından çox böyük əhəmiyyət kəsb edir.

Məqalədə poemaların tədrisi zamanı nəzərə alınmalı məsələlərdən bəhs olunur.

Açar sözlər: *poema, ədəbiyyat dərsləri, bədii zövq, tədris.*

МЕТОДИКА ОБУЧЕНИЯ ПРОИЗВЕДЕНИЙ В ЖАНРЕ СТИХОТВОРЕНИЯ НА УРОКАХ ЛИТЕРАТУРЫ

РЕЗЮМЕ

В современном мире учебник перестал быть единственным источником знаний. Активное/интерактивное обучение требует совместной работы учителя и ученика. Новые учебники, методические пособия, словари и т.д., подготовленные вместе с учебным планом, успешные шаги, сделанные на этом пути. Подготовлены новые наборы уроков, использованы новые методики. Использование средств ИКТ в учебном процессе и т.д. также оказало положительное влияние на преподавание литературы.

Стихи, занимающие достойное место в азербайджанской литературе, играют незаменимую роль в воспитании школьников в духе патриотизма, в приобретении ими высоких духовно-нравственных качеств, развитии художественно-эстетических вкусов. Проблемы, поднятые в стихах, подавляющее большинство вопросов, продвигаемых, сохраняют свою актуальность и в наши дни. Глубокие идеи в этих произведениях всегда важны

и важны. Именно поэтому преподавание этих стихотворений очень важно в плане расширения духовного мира учащихся.

В статье рассматриваются вопросы, которые необходимо учитывать при обучении стихотворениям.

Ключевые слова: стихотворение, уроки литературы, художественный вкус, обучение.

METHODOLOGY OF TEACHING WORKS IN THE POEM GENRE IN LITERATURE LESSONS

SUMMARY

In our modern world, the textbook is no longer the only source of knowledge. Active/interactive learning requires the teacher and student to work together. New textbooks, methodical tools, dictionaries, etc. prepared with the curriculum. are successful steps taken on this path. Prepared new lesson sets, new methods used, use of ICT tools in the teaching process, etc. has also shown its positive impact on the teaching of literature.

Poems, which occupy their rightful place in Azerbaijani literature, play an indispensable role in the upbringing of schoolchildren in the spirit of patriotism, in their acquisition of high spiritual and moral qualities, and in the development of their artistic and aesthetic tastes. The problems raised in the poems, the vast majority of the issues promoted, retain their relevance even today. The deep ideas in these works are always important and important. That is why the teaching of these poems is very important in terms of expanding the spiritual world of students.

The article discusses issues to be considered when teaching poems.

Keywords: *poem, literature lessons, artistic taste, teaching.*

Ədəbiyyat incəsənətin bir qolu kimi insanın arzu və istəklərini, xəyallarını, düşüncələrini bədii şəkildə təsvir edir və onları həyat həqiqətləri ilə bu və ya digər dərəcədə əlaqələndirir. Ədəbiyyat da sanki bir ünsiyyət vasitəsi kimi hələ ən qədim dövrlərdən insanlar arasında əlaqə yaratmış, ayrı dildən, ayrı irqdən olan insanları eyni bir düşüncə və duyğu altında birləşdirə bilmişdir.

Bu gün fəal təlimin qarşısında duran ən başlıca vəzifələrdən biri də şagirdləri vətənpərvərlik ruhunda böyütmək, onlarda Vətənə, millətə, xalqa qarşı sevgi hisslərini inkişaf etdirməkdir. Ədəbiyyat bir fənn kimi məktəblilərin məhz bu aspektdə tərbiyə olunmasında müstəsna rola malikdir. İstər qədim dövrlərə aid ədəbi nümunələrimizdə, istərsə də sonrakı dövrl ədəbiyyatımızda xalqımızın tarixi, adət-ənənələri, haqq-ədalət mübarizələri, sevgi, dostluq kimi hisslərin ülviliyi, müqəddəsliyi öz əksini tapmışdır.

Ədəbiyyat eyni zamanda şagirdlərin bir şəxsiyyət kimi formalaşmasında da mühüm rol oynayır. Ədəbiyyat vasitəsilə məktəblinin özünü, öz hislərini tanıması

asanlaşır. Yazıçının dünyagörüşü, həyata baxışı, düşüncələri bədii nümunələrdə öz əksini tapır. Bu nümunələr isə məktəblilərin öz mənəvi dünyasına səyahət etməsinə səbəb olur. Hər bir ədəbi nümunə konkret bir tarixi dövrü əks etdirir. Məhz buna görə də əsər üzərində iş aparılan zaman bu cəhətlərə xüsusi diqqət yetirmək lazımdır.

Azərbaycan ədəbiyyatında xeyli sayda poema vardır. Bu poemaların bəziləri sevgi-məhəbbət mövzusunda, bəziləri ictimai-siyasi mövzuda, bəziləri isə tarixi mövzudadır. Həmin əsərlər şagirdlərin vətənpərvər, ədalətli ruhda tərbiyə olunmasında xüsusi rol oynayır. Bütün bu sadalananlar poemaların tədrisi metodikasını düzgün müəyyənləşdirməyin vacibliyini gündəmə gətirir və bu tədqiqatın aktuallığının əsasını təşkil edir.

Poema tərənnüm və təhkiyə kimi əksetdirmə üsullarının birləşdiyi janrdır. Bəzi əsərlər özündə həm lirik, həm də epik növün xüsusiyyətlərini daşıyır. Bunlara qarışıq janr da deyilir. Poema və dastan janrını buna misal kimi göstərmək olar. Poemada hadisələr təhkiyə üsulu ilə söylənildiyi kimi, həm də obrazların hiss və həyəcanları, arzuları, istəkləri də tərənnüm üsulu ilə təsvir edilir. Məsələn, böyük şairimiz Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasında əsas hadisələr vahid bir sujet xətti əsasında təsvir edilir. Lakin eyni zamanda, əsərdə qəhrəmanların daxili aləmini açmaq üçün lirik şeirlərdən də istifadə olunur. Bələliklə də, bu əsərdə epik təsvir ilə lirik tərənnüm bir vəhdət təşkil edir. Əhvalatların epik təsvirinə daha çox yer verilən poemalar epik-lirik poemalar adlanır. Lirik hisslərin üstünlük təşkil etdiyi poemalara isə lirik-epik poemalar deyilir. Məsələn: Nizami Gəncəvinin "Xosrov və Şirin", Məhəmməd Füzulinin "Leyli və Məcnun", Ş.İ.Xətainin "Dəhnamə" əsərləri epik-lirik, S.Vurğunun "Bəsti", H.Cavidin "Azər", H.Arifin "Yolda" poemaları isə lirik-epik növə aid nümunələrdir.

Azərbaycan ədəbiyyatında süjetsiz poemanın ilk nümunəsi Xaqani Şirvaninin "Töhfətül-İraqeyn" poeması hesab olunur. Ədəbiyyatımızda ilk süjetli poema nümunəsi isə Nizami Gəncəvinin "Xəmsə"yə daxil olan ikinci əsəri "Xosrov və Şirin" poemasıdır. Bu poemalardan bəziləri orta məktəbdə şagirdlərə tədris olunur.

Ümumtəhsil məktəblərinin 8-ci sinif ədəbiyyat dərsliklərində poema janrı barəsində şagirdlərə ətraflı məlumat verilmişdir. Bununla yanaşı, ədəbiyyat dərsliklərində böyük şairimiz Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasından "Sultan Səncər və qarı" hekayəsi, Şah İsmayıl Xətainin "Dəhnamə" poemasından isə "Bahariyyə" hissəsi şagirdlərə tədris olunur.

Ədəbiyyat təliminin əsasını bədii əsərlərin öyrənilməsi təşkil edir. Bədii əsərin öyrənilməsinin əsas vasitələrindən biri isə təhlildir. Təhlildən əvvəl bədii əsərlər üzərində aparılan bütün iş növlərinin özünəməxsus məqsədi, xüsusiyyəti var və bunlar müəyyən dərəcədə müstəqil məşğələlər adlanır. Lakin bütün bu məşğələlər təhlil üçün giriş, başlanğıc mərhələsi rolunu oynayır.

Təhlilin müvəffəqiyyəti əvvəlki mərhələlərdə aparılan məşğələlərin keyfiyyətindən çox asılıdır. Təhlilin elementləri müəyyən dərəcədə giriş məşğələlərində, oxu prosesində, mətn üzrə aparılan başqa işlərdə və məzmunun

mənimsədilməsində özünü göstərir. Lakin ədəbi əsərin ideya-bədii dəyərinin, obrazlar sisteminin, bədii dilinin, kompozisiyasının, üslubunun və başqa bədii xüsusiyyətlərinin tam mənada başa düşülməsi yalnız təhlil vasitəsilə mümkündür.

Təhlilin özünəməxsus prinsipləri vardır. Bu prinsipləri aşağıdakı şəkildə ümumiləşdirmək olar:

1. Tarixilik prinsipi
2. Məzmun və formanın vəhdəti prinsipi
3. Pedaqoji prinsip

Tarixilik prinsipi. Bədii əsərlərin təhlili zamanı tarixilik prinsipinə əməl olunması vacib məsələlərdəndir. Hər hansı bədii əsərdə yazıçının öz dünyagörüşü cəhətindən həyata olan münasibətini, müxtəlif ictimai hadisələri, cəmiyyətdə baş verən ictimai dəyişiklikləri və sairələri görə bilərik. Buna görə də təhlil zamanı müəllim əsərdə qoyulmuş məsələlərin hər iki tərəfini – təsvir olunanı və təsvir olunana yazıçının münasibətini sadə, aydən və proqrama uyğun bir şəkildə açıb göstərməlidir.

Ədəbi əsər həyatın inikası kimi müəyyən tarixi, ictimai dövrün məhsuludur. Buna görə də əsərin tarixi şəraitlə necə bağlandığını, onun tarixi-ədəbi fakt olaraq necə meydana çıxdığını, öz dövrünə və sonrakı dövrlərə təsirini aydınlaşdırmaq təhlil prosesinin mühüm tələblərindəndir.

Əsərin təhlilinə tarixilik nöqteyi-nəzərindən yanaşmaq əsərlə orada əks olunan dövr və şərait, həmçinin yazıçı ilə onun yaşayıb-yaratdığı zəmanə arasındakı üzvi əlaqəni müəyyənləşdirmək zərurəti ortaya çıxır. Şagirdlərin nəzərinə o da çatdırılmalıdır ki, müəyyən ictimai-tarixi dövrün məhsulu olan bəzi əsərlər öz zəmanəsi üçün müsbət hadisə sayılıb, mütərəqqi rol oynadığı halda, həmin əsərlərdə irəli sürülən ideyalar sonrakı dövrlər üçün öz əhəmiyyətini ya tamamilə, ya da qismən itirir.

Məzmun və formanın vəhdəti prinsipi. Hər hansı bədii əsər məzmun və formanın vəhdətindən ibarətdir. Məzmun və forma hər hansı bir əşyanın və ya hadisənin iki tərəfi olub, bir-biri ilə ayrılmaz və üzvi şəkildə əlaqədardır.

Bədii əsərin məzmunu vaitəsi ilə müəyyən bir ideya təbliğ edilir, yəni məzmun əsərdə təsvir olunan həyat hadisələrindən və hadisələrə yazıçının münasibətindən ibarətdir. Başqa sözlə desək, əsərin məzmunu ictimai həyatın müəyyən hadisələri, insanları və əşyalarıdır ki, bunlarla əlaqəli olaraq yazıçı öz fikirlərini söyləyir və ideyalar sistemini yaradır.

Bədii əsərin digər elementlərini (sujetini, kompozisiyasını, obrazların dilini və s.) isə formaya aid etmək lazımdır. Əlbəttə ki, ədəbi əsərdə məzmun və forma arasında qoyulan bu sərhəd təxminidir, şərtidir. Çünki bəzi hallarda əsərin bəzi elementləri həm məzmuna, həm də formaya aid ola bilər.

Pedaqoji prinsip. Müəllim bədii əsərin təhlili ilə bağlı aparılacaq işi planlaşdırarkən yuxarıda göstərilən prinsiplərdən başqa, konkret əsərin təhlilindən doğan bütün pedaqoji tələb və imkanları da nəzərə almalıdır. Bu məqsədlə

şagirdlərin ədəbiyyat üzrə bilik səviyyələri, əsərin yazılma tarixi və müəllimin özünün hazırlığı, pedaqoji proses və sairələr əsas tutulmalıdır. Bütün bunlar konkret bir əsərin təhlilinin məzmun və formasında bu və ya başqa bir şəkildə öz əksini tapmalıdır.

Bədii əsərlərin müxtəlif mövzuda, janr və növlərdə, üsul və üslublarda yazılmasına baxmayaraq, onların təhlili üçün ümumi olan bir sıra məsələləri qeyd etmək olar:

a) mövzu;
b) obrazlar;
c) kompozisiya;
d) bədii dil;
e) ideya emosional məzmun;
f) ədəbi janr;
g) əsərin ictimai siyasi əhəmiyyəti.

Elmi-metodik ədəbiyyatda ədəbi əsərin təhlilinin aşağıdakı növləri göstərilir:

1. Müəllif arxasıyca və ya kompozisiya üzrə
2. Obrazlar üzrə
3. Problem-mövzu üzrə

Əsərin öyrənilməsində hansı təhlil növünün seçilməsi əsasən aşağıdakı şərtlərdən asılıdır:

a) Əsərin məzmunu, janr xüsusiyyəti, kompozisiya quruluşu
b) Əsərin həcmi
c) Şagirdlərin əsəri qavrama xüsusiyyəti, ədəbi inkişaf səviyyəsi
d) Əsərin öyrənilməsində qarşıya qoyulan məqsəd
e) Əsərin tədrisinə ayrılan vaxt

Müəllif arxasıyca təhlil yolu əsərin kompozisiyası, sujeti əsasında gedir. Əsərdəki epizodlar üzərində iş geniş yer tutur. Ayrı-ayrı hadisələrin, müəllif şərhlərinin və sairələrin izahı əsərdəki əsas məsələlərin və ideyanın aydınlaşdırılmasına xidmət edir.bu yol əsəri öz təbii halında emosional qavramağa, forma ilə məzmunu qarşılıqlı vəhdətdə öyrənməyə imkan verir.

Müəllif arxasınca təhlil yolunda əsərdəki hadisələri tək-tək nəzərdən keçirmək, onların bəzisi üzərində dayanıb izahat aparmaq lazım gəlir.

Obrazlar üzrə təhlil məktəbdə ən çox istifadə edilən üsuldur. Əsər bu yolla öyrənilərkən diqqət əsərdəki obrazlar üzərində cəmləşdirilir. Əsərin xüsusiyyətləri obrazların təhlili əsasında aydınlaşdırılır. Lakin obrazlar üzrə təhlil sadəcə obrazların xarakterinin təhlili demək deyil. Bu üsul obrazlar üzərində iş aparmaq əsasında əsərin ümumi problemlərini aydınlaşdırmağı, əsərin ideya-bədii məzmununu bütövlükdə qavramağı nəzərdə tutur.

Bədii əsərlərin tədrisi zamanı diqqət yetirilməli bir digər məqam da əsərin janr xüsusiyyətləridir. Müxtəlif janrlara məxsus əsərlər bir-birindən fərqlənirlər. Bu fərq əsərin məzmununda, həcmində və xüsusilə poetik quruluşunda özünü göstərir. Hər

janra aid əsərin janr xüsusiyyətləri həm praktik yolla, yəni əsərin ayrı-ayrı əlamətlərini mənimsətmək yolu ilə, həm də ümumiləşdirmələr yolu ilə, yəni nəzəri məlumatları mənimsətmək yolu ilə öyrənilir.

Bədii əsərin öyrənilməsində ilkin mərhələ məzmunun mənimsənilməsidir. Hər bir ədəbi əsərin məzmunu son dərəcə zəngin və mürəkkəbdir. Əsərdə həyat dolğun bir şəkildə əks olunur. Yazıçı həyati hadisələrin, insan həyatının ən xarakterik, tipik cəhətlərini sanki böyüdərək qabarıq şəkildə əks etdirir. Həm də bədii ümumiləşdirmələr apardığından əsərdəki əhvalat və hadisələr, epizodlar tutumlu, dolğun, çoxmənalı olurlar. Buna görə də belə hesab olunur ki, ədəbi əsərin məzmunu çoxqatlıdır. Bu qatların bəzisi üzdədir, onu hər kəs görüb dərk edə bilir. Elə qatlar isə vardır ki, onu qavrayıb dərk etmək üçün xüsusi iş aparmaq, fikirləşmək, tədqiqat aparmaq lazımdır. Məzmunun belə qatlarının dərk edilməsi əlavə biliklər və xüsusi şərhlər tələb edir.

Məzmunu mənimsəmə əsərlə sadəcə tanışlıq deyildir. Mürəkkəb və çətin prosesdir. Oxucunun şəxsi qabiliyyəti ilə şərtlənir və müəyyən mənada yaradıcı xarakterdə olur. Məzmunun öyrənilməsi prosesində şagirdlərin obrazlı təfəkkürü, təxəyyülü fəal olur. Bədii mətndəki sözaltı mənaları başa düşüb duyarkən onlara müvafiq assosiasiyalar yaranır, yeri gəldikdə əsərdəki hadisələri, epizodları sanki yaşayırlar.

Müəllim poemanın məzmunu üzərində iş zamanı iş növlərindən hansının seçilməsinə diqqətlə yanaşmalı və onun maraqlı keçməsinə hazırlıq görməlidir.
Mətni əzbər öyrədərkən şagirdlərin fərdi qabiliyyətləri nəzərə alınmalıdır. Onların əzbər öyrənmək bacarığı müxtəlif cür olur. Bəziləri materialı bir-iki dəfə oxuduqda onu əzbərləyə bilir, bəziləri isə üç-dörd dəfə oxuduqda. Bəzilərinin isə əzbərləmə qabiliyyəti daha zəif olur.

Əzbərləmənin müəyyən şərtləri, texniki cəhətləri var ki, onlara əməl etdikdə əzbər öyrənmə və əzbər söyləmə daha səmərəli olur. Ilk olaraq şagird əzbərləyəcəyi mətndə nədən söhbət getdiyini əvvəlcədən bilməli, mətndəki sözlərin, ifadələrin mənası onlara aydın olmalı, onlar mətni asanlıqla oxumağı bacarmalıdırlar. Sonra mətni hissələrə bölüb ayrı-ayrılıqda bir neçə dəfə oxuyub əzbərləmək lazımdır. Nəhayət, əzbərlənmiş mətn söylənərkən intonasiya tərzinə, vurğulara, pauzalara, surətə əməl olunmalıdır. Bu bacarıqlar sinifdə aparılan məşğələ prosesində şagirdlərə öyrədilməlidir. Yəni, əzbər öyrəniləcək mətn əvvəlcə oxunmalı, çətin söz və ifadələr izah edilməli, mətnin məzmununa uyğun oxu tərzi müəyyənləşdirilməlidir.

Şeiri əzbərlərkən onu hissələrə ayırmaq asandır. Çünki şeir bəndlərdən, beytlərdən ibarətdir ki, onların da hər biri həm məzmun, həm də forma cəhətdən əsasən bitkin olur. Buna görə də hər beyti, hər bəndi ayrıca əzbərləmək mümkündür.

Əzbərləmə prosesində mətnin yadda saxlanılmasına diqqət yetirməklə bərabər, onun məzmuna uyğun səsləndirilməsinə də diqqət yetirmək lazımdır. Nəsr əsərlərin, pyesdən parçaların əzbər öyrənilməsində və söylənilməsində də şeirlərə aid yuxarıda göstərilən cəhətlərə əməl olunmalıdır.

Əsərin tədrisində məzmunun öyrənilməsi priyomlarından yuxarıda göstərilən ardıcıllıqla istifadə edilir. Lakin bu hər zaman belə olmur. Konkret tədris prosesində onların yeri dəyişə də bilər.

Yaxud məzmunun öyrənilməsi prosesində bir iş formasının müxtəlif növlərindən eyni vaxtda istifadə etmək mümkündür. Məsələn, məzmunun planı tərtib olunarkən sual-cavabdan, söz və ifadələrin izahından istifadə edilir və ya əsərin müəyyən hissəsinin məzmunu geniş şəkildə, yerdə qalan hissələrinin məzmunu isə qısa şəkildə planlaşdırılır. Beləliklə, bəzən əsərin məzmunu öyrənilərkən müxtəlif priyomlar bir-birinə qarışır, biri-digərinə vasitə olur, onlardan eyni vaxtda istifadə edilir.

Məzmunun öyrənilməsində istifadə olunan hər bir iş formasının ümumi, sabit cəhətləri vardır. Bununla yanaşı, tədrisdə istifadə edilərkən onlar bir çox şəkillərə düşür, müxtəlif çalarlı olurlar. Buna görə də həmin iş formalarına, onların tətbiqinə standart ölçülərlə yanaşmaq olmaz. Onlardan istifadə edərkən müəllim mətnin və tədris şəraitinin xüsusiyyətinə uyğun yaradıcı iş görməlidir.

ƏDƏBİYYAT

1. Ağayev Ə., Həsənov A. Pedaqogika. Bakı: Nasir 2007, 496 s.
2. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: "Adiloğlu", 2006, 138 s.
3. Aslanov Y. Ədəbiyyat tədrisi: ənənə və müasirlik. Bakı: ADPU, 2011, 162 s.
4. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı(kurikulumu) (V-XI siniflər). Bakı, 2013, 93 s.
5. Babayev Y. Axərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər). Bakı: Elm və təhsil, 2018,760 s.
6. Əhmədov C.M. Ədəbiyyat tədrisində bədii təhlil. Bakı: "Maarif", 1983, 131 s.
7. Həsənli B. Bədii əsərlərin obrazlar üzrə təhlili. //"Azərbaycan dili və ədəbiyyatın tədrisi" jurnalı, 2015, s.45-51
8. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: Fəal/İnteraktiv təlim (müəllim üçün vəsait). Bakı, 2009, 200 s.
9. Yusifoğlu R. Ədəbiyyatşünaslığın əsasları. Bakı: ADPU, 2009, 288 s.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nazilə Abdullazadə tərəfindən çapa tövsiyə olunmuşdur

QÜDRƏT VİDADİ OĞLU MƏNSİMOV
Azərbaycan Dövlət Pedoqoji Universiteti
Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyov küçəsi 68
qudretmensimov@gmail.com

AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA TƏBİƏT MÖVZUSUNUN TƏDRİSİNƏ DAİR

Xülasə:

Zəngin ədəbiyyatımızın qüdrətli sənətkarlarından olan Aşıq Ələsgər Azərbaycan gözəllərinin təsviri, vətən torpağının gözəlliyi, xeyirxahlıq və gözəllik, vəzifə sahiblərinin ifşası, dostluq və halallığın təbliği, ilahi yaradanın qüdrətinin təsviri və s. mövzulu şeirlərində poeziyamıza əvəzolunmaz təsir bağışlamışdır. Təbii ki, bu mövzulu şeirlərə istər orta məktəb proqramında, istərsə də ali məktəb proqramında yetərincə rast gələ bilərik. Məqaləmizdə uyğun olaraq Aşıq Ələsgərin təbiət mövzulu əsərlərinə, habelə onların fəal təlimdə necə tədris olunmağına dair tədris yolları öz əksini tapmışdır. Ustad sənətkarın təbiət mövzulu şeirlərindən, əsasən, "I Dağlar" qoşmasının və "Yaylaq" qoşmasının mənimsədilməsinə diqqət yetirilmişdir. Qeyd etdiyimiz şeirlərin qafiyə quruluşundan, vəznindən, misradaxili bölgüsündən, habelə burada istifadə olunmuş bədii təsvir vasitələrindən məqaləmizdə dolğun məlumatlar əks olunmuşdur. Bildiyimiz kimi, müvafiq mövzunun tədrisi zamanı dərsin müxtəlif mərhələlərində fəal təlimin metodlarından istifadə edə bilərik. Uyğun olaraq bu metodların istifadə yolları məqaləmizdə qeyd olunmuşdur. Həmçinin fəal təlimdə vacib məqam olan dərsin mərhələlər üzrə təşkili də xüsusi ardıcıllıqla gözlənilmişdir. Tədris olunacaq şeirlərdən şeir parçaları da qeyd olunmuşdur ki, bu da təbiidir ki, şeirdə istifadə olunmuş bədii təsvir vasitələrinin, misradaxili bölgünün daha dərindən anlaşılmasına, aydınlaşdırılmasına böyük yardım göstərir.

Açar sözlər: Aşıq Ələsgər, təbiət, BİBÖ, tədris, poeziya, təlim

Azərbaycan aşıq sənətinin qüdrətli saz, söz sənətkarı sayılan Aşıq Ələsgər yaşadığı dövr əzində aşıq ədəbiyyatı üçün əvəzolnmuza bədii nümunələr yaratmışdır. Aşığın demək olar ki, toxunmadığı mövzu yoxdur. Belə ki, qüdrətli sənətkarın şeirlərində dağlar, dərələr, insan və insani gözəlliklər, elin-obanın bahar-yayında seyrəngahı olan yaylaq vüsət və məhəbbətlə vəsf olunur(3.s.23). Dahi sənətkar istər təbiət mövzulu şeirlərində, istər, məhəbbət, istər tənqidi mövzuda yazdığı əsərlərində böyük ustalıq nümayiş etdirmişdir. Təbiətə həsr olunmuş şeirlərində aşığın xalqına bağlılığı, vətənpərvərliyi qabarıq ifadə olunub. Sənətkarın "Yaylaq", "Gördüm", "Dağlar" rədifli qoşmaları ədəbiyyatımızda doğma yurdun gözəlliyinə həsr olunmuş ən maraqlı əsərlərdəndir(1.s.119).

Orta məktəb proqramında Aşıq Ələsgər yaradıcılığından birinci və ikinci "Dağlar" şeiri tədrisi olunmaqdadır. "I Dağlar" şeirindən fərqli olaraq "II Dağlar" bədbin ruhdadır. "I Dağlar" şeirinin tədrisi VIII sinif ədəbiyyat dərsliyində öz əksini

tapmışdır. Həmçinin, əsərin tədrisinə ümumilikdə 3 saat vaxt ayrılmışdır. Fəal təlimdə "Dağlar" şeirinin tədrisini aparan zaman biz birinci növbədə dərsin müvafiq mərhələlərinə uyğun tədrisi təşkil etməliyik. Uyğun olaraq ilk növbədə sinfin təşkilini aparmalıyıq. Burada Şagirdlərin psixoloji durumu nəzərə alınmalı, sinfin ümumi durumu qiymətləndirilməlidir. Daha sonra ev tapşırıqlarının yoxlanılmasına başlaya bilərik. Ev tapşırıqlarının yoxlanılması zamanı istər, fərdi sorğudan, istərsə də təqdimatların dinlənilməsindən istifadə edə bilərik. Ev tapşırıqlarının yaradıcıtətbiqetmə şəklində yerinə yetirilməsi daha məqsədə uyğundur . Bu mərhələnin təşkilindən sonra "motivasıya, problemin qoyuluşu" mərhələsinə keçid edə bilərik. Bu mərhələnin təşkili müəllimdən böyük ustalıq tələb edir. Motivasiyanın uğurlu olması demək olar ki, dərsin bütün mərhələlərinin uğurlu olmasıdır. Dərsin uğurlu təşkil edilməsi üçün burada şagirdləri böyük və yaxud kiçik qruplara ayıra bilərik. Müəllim məqsədindən, qrupun səviyyəsindən çıxış etməklə məşğələni fərqli məzmunda və formada təşkil edə bilər(5.s.36). Bundan sonra mövzunun nədən ibarət olacağını aydınlaşdırmaq üçün dağların və təbiətin közəlliyini əks etdirən müxtəlif foto və videoroliklərdən istifadə etmək olar. Bu məqamda şagirdlərin qarşısında: "Videoroliki izləyən zaman sizdə hansı təsüratlar oyandı?" sualını qoya bilərik. Müxtəlif cavablar dinlənildikdən sonra şagirdlərə bələdçilik edərək ümumi məqsədə doğru yaxınlaşmalıyıq. Artıq hansı mövzudan danışacağımız şagirdlərə aydın olandan sonra şeirin ifadəli oxusunu təşkil etmək olar. Daha sonra şagirdlərin qarşısında: "Şeirdə diqqətinizi hansı məqamlar çəkir?" sualını qoya bilərik. Bununla yanaşı müəllimin əlavə fikirləri də gedişatda öz əksini tapa bilər. Burada şeirin vəznindən, misradaxili bölgüsündən, qafiyəsindən, həmçinin şeirdə istifadə olunmuş müxtəlif bədii təsvir və ifadə vasitələrindən söz açа bilərik. Qeyd olunan bu problemlərə "Məlumatın müzakirəsi" mərhələsində toxunmağımız daha məqsədəuyğundur. Çünki ilkin biliklərdən sonra müəllimin əlsvə qeydləri və onların müzakirəsi təlimin daha effektiv formada aparılmasına müsbət şərait yaradır.

Motivasiya mərhələsində müvafiq olaraq müxtəlif təlim metodlarından da istifadə edə bilərik. Bu təlim metodlarından "BİBÖ" metodu seçilə bilər. Bilirəm, istəyirəm biləm, öyrəndim sözlərinin baş hərfləri əsasında yarandığından bu üsula belə deyilir(2.s.144). Dərsin başlanğıcında mövzumuzu, yəni "I Dağlar" qoşması lövhəyə qeyd olunduqdan sonra boş bir iş vərəqi lövhəyə yapışdırılır və orada üç sütun çəkilir. Birinci sütunda uyğun olaraq "Bilirik" sözü yazılır. Onun tələbi yerinə yetirilir. Yəni şagirdlər bu qoşma ilə bağlı ilkin biliklərini "Bilirik" sütununun aşağı hissəsindən qeyd edirlər. Sonra ikinci sütunun sərlövhəsi qeyd olunur, yəni lövhəyə uyğun olaraq "İstəyirik bilmək" ifadəsi yazırıq və şagirdlərin qeyd etdiyimiz mövzu barədə cavabını bilmək istədiyi suallar bu sütunun altından qeyd olunur:

Bilirik	Bilmək istəyirik	Öyrəndik

Dərsin axırında isə tamamlama işi aparmaq üçün yenidən cədvələ qayıdırıq və sonuncu, yəni üçüncü sütunun sərlövhəsini uyğun olaraq lövhəyə qeyd edirik. İkinci sütunda qeyd edilmiş sualların hansına cavab tapılmışdırsa, onların yanında bir işarə qoyub, orada qeyd edilməyən , amma yeni olan məlumatları isə üçüncü sütunun altında qeyd edirik. Mahiyət etibarilə iş üsulu haqqında geniş və ətraflı məlumat çatdırmaq üçün iş üsulu ilə mövzunu asossasiyalaşdırsaq da, mövzunu tam açа bilmədik. Buna görə də biz uyğun olaraq üçüncü sütun üzrə mövzunu şagirdlərin qarşısında geniş tərkibdə açа bilərik. İkinci sütunun tələbinə uyğun olaraq şagirdlərin bilmək istədiyi suallar alındıqdan sonra cavablandırma zamanı şagirdlərə ətraflı məlumat da mənimsədə bilərik. Qeyd oluna bilər ki, "I Dağlar" qoşması lirik növdə, heca vəznində, dördlük şəklində qələmə alınmışdır. Şeir vahidi bənddir, 7 bənddən ibarətdir. Həmçinin, bu qoşma doğma yurdun gözəlliyinə həsr olunmuşdur. Şeirin qafiyə qurluşu və misradaxili bölgüsü haqqında məlumatları şeirdən bir və ya bir neçə bənd lövhəyə qeyd edərək daha dolğun formada izah verə bilərik:

Yayın əvvəlində dönərsən xana,
Son ayda bənzərsən yetkin bostana.
Payızın zəhməri qoyur virana,
Dağıdır üstündən calalı, dağlar!(6.s.35)

Şagirdlərin diqqətinə çatdırırıq ki, şeirdə zəngin qafiyə işlənmişdir, çünki bilirik ki, zəngin qafiyə son iki hecası bir-biri ilə səsləşən qafiyələrdir, şeirin misradaxili bölgüsü isə 6+5 şəklindədir. Bölgü bildiyimiz kimi, şeirin oxunuşu zamanı yaranmış pauzadır. Biz də buradan aydın görürük ki, hər misrada 6 hecadan sonra çox az formada hiss edilən bir pauza yaranır daha sonra yerdə qalan 5 heca səslənir. Qeyd edilən bu və ya digər dolğun məlumatlar şagirdlərin diqqətinə çatdırıldıqdan sonra "Yaradıcıtətbiqetmə" mərhələsinə keçə bilərik. Öyrənilmiş məlumatın tətbiqi ev tapşırığı olaraq icra olunsa, daha məqsədə uyğun olar, çünki tətbiqetmə təlim zamanı vaxt itkisinə də səbəb ola bilər.

"Qiymətləndirmə və refleksiya" mərhələsinə şagirdlərin biliyini qiymətləndirmək üçün müəyyən edilmiş meyarlar əsasında qiymətləndirməni apara bilərik. Bu mərhələdə uyğun olaraq biz formativ qiymətləndirilmənin aparılmasını təmin edə bilərik.

Məlumdur ki, Aşıq Ələsgərin təbiət mövzulu əsərlərindən biri də "Yaylaq" şeiridir. Şeir lirik növdə, heca vəznində, bəndlər şəklində yazılmışdır. Şeirdə zəngin qafiyədən istifadə olunmuşdur və misradaxili bölgüsü 6+5 şəklindədir. Aşıq Ələsgərin şeirləri mövzu və ideya-bədii xüsusiyətlərinə görə son dərəcə zəngin və rəngarəngdir(3.s.23). Aşığın "Yaylaq" şeirində bunu aydın müşahidə edirik:

Kəkotu, qırxbuğum, qaymaqçiçəyi,
Bənövşə, qantəpər, qızlar örpəyi,
Qoyun mələşməsi, çoban tütəyi.
Çəkir uzaqlara xəyalı, yaylaq.(4.s.101)

Bildiyimiz kimi, şeir təbiət mövzusunda yazılmışdır. Şeirin tədrisi üzrə işə birinci növbədə sinifin təşkilini təmin etməklə başlamalıyıq. Burada bildiyimiz kimi şagirdlərin psixoloji hazırlıqları qiymətləndirilməli və daha sonra müəllim ümumi nəticəyə gəlməlidir. Proses tamamlandıqdan sonra ev tapşırıqlarının yoxlanılmasını təşkil edə bilərik. Burada müxtəlif müzakirələr, sorğular keçirilə bilər. Son olaraq isə müvafiq olaraq qiymətləndirilmənin tələbləri əsas götürülməklə qiymətləndirmə prosesini icra edə bilərik. Bu mərhələnin yekununda "Motivasiya və problemin qoyuluşu" mərhələsinə diqqət yetirmək olar. Məlum olduğu kimi, bu mərhələnin təşkili təlimçidən çox böyük məharət və ustalıq tələb edir. Çünki bu mərhələnin uğurlu təşkili bütün mərhələlərin uğurlu təşkil olunmasına dəlalət edir. Dərsin bu gedişində şagirdləri kiçik qruplara ayıraraq təlimin təşkilini daha effektiv hala gətirə bilərik. Daha sonra şagirdlərə saz havasının müşayiəti altında yaylaqların, obaların videotəsvirini özündə əks etdirən videoroliklər nümayiş etdirmək olar. Bu məqamda şagirdlərə: "İzlədiyiniz vidoe sizdə hansı təsüratlar yaratdı?" sualını ünvanlamaq olar. Suallara cavab topladıqdan sonra müəllim məqsədə çatmaq üçün müəyyən istiqamətlər verərək danışılacaq mövzunun Aşıq Ələsgərin "Yaylaq" qoşması haqqında olacağını elan edə bilər. Bu məqamda şagirdlərin qarşısında müxtəlif problemlər qoyula bilər. Nümunə üçün: "Şeirin oxunuşundan sonra sizin fikrinizcə, şeirdə hansı bədii təsvir vasitələri işlənmişdir?" sualını şagirdlərə ünvanlaya bilərik. Ümumi olaraq qrupların fikirləri dinlənildikdən sonra həmin fikirlərə heç bir müdaxilə etmədən lövhəyə qeyd edirik. Qeyd olunmuş fikirləri saf-çürük etmək üçün şagirdlərlə şifahi sorğu aparmaq olar. Natamam fikirlər tamamlandıqdan sonra "Tədqiqatın aparılması" mərhələsinə keçə bilərik. Burada şagirdlərin iş vərəqlərində onların məntiqi təfəkkürünü, tənqidi təfəkkürünü, eləcə də yaradıcı təfəkkürünü inkişaf etdirəcək tapşırıqlar əks olunur. Bu tapşırıqlar "Yaylaq" şeirinin vəzni, qafiyə quruluşu, misradaxili bölgüsü, yazıldığı növü haqqında, şeirin ümumi məzmnu haqqında ola bilər. Bütün bu problemlər iş vərəqində qeyd olunduqdan sonra problemin həlli üçün lazımi addımlar atılmalıdır.

Hippokrat andı Pifaqorun ədalət, məxfilik, müəllimlərə hörmət və həmyaşıdları ilə həmrəylik vəzifələrini ehtiva edir. Tibb təcrübəsinin klinik və etik əsasları, eləcə də bu gün istifadə edilən əksər klinik terminlər öz mənşəyini Hippokratdan alır. Onun klinik təbabətdə töhfəsi böyükdür. O, istirahətin, yaxşı qidalanmanın, təmiz havanın və təmizliyin təbii sağalma prosesinə inanırdı. O qeyd edib ki, xəstəlik əlamətlərinin şiddətində fərdi fərqlər var və bəzi fərdlər başqalarına nisbətən öz xəstəlikləri və xəstəlikləri ilə daha yaxşı mübarizə apara bilirlər. O, xəstəliyin əlamətlərini dəqiq təsvir etmiş və uşaqlarda pnevmoniya, eləcə də epilepsiya əlamətlərini dəqiq təsvir edən ilk həkim olmuşdur. O, həm də düşüncələrin, ideyaların və hisslərin öz dövrünün başqalarının inandığı kimi ürəkdən deyil, beyindən gəldiyinə inanan ilk həkim idi.

Tibblə bağlı məlum olan ən qədim kitablar hesab edilən Hippokrata aid edilən 70-ə yaxın kitab var. Hippokrat korpusu kimi tanınan onun əsərləri həkimlər və əczaçılar üçün, digərləri isə adi layman üçün yazılmışdır.

Yunanıstanın Kos adasında tibb fakültəsini qurdu və öz ideyalarını öyrətməyə başladı. Bu intellektual məktəb Qədim Yunanıstan təbabətində inqilab etdi, onu

ənənəvi olaraq əlaqəli olduğu digər sahələrdən (teurgiya və fəlsəfə) fərqləndirən bir elm sahəsi kimi təsis etdi və beləliklə, tibb bir peşə kimi formalaşdı.

Eramızdan əvvəl 377-ci ildə vəfat etmişdir. Bu gün Hippokrat "tibbin atası" kimi tanınır.

Açar sözlər: Tibb atası, şirələr, həkim, Hippokrat korpusu, tibb məktəbi.

Ədəbiyyat

1. https://greekreporter.com/2022/04/18/hippocrates-the-greek-father-of-modern-medicine/
2. https://www.livescience.com/62515-hippocrates.html
3. https://www.kosisland.gr/en/kosisland-history/hippocrates-from-kos.html
4. https://www.discoveringkos.com/destination-item/hippocrates-contribution-to-medecine/
5. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC4263393/#:~:text=Therefore%2C%20Hippocrates%20established%20the%20basics,number%20of%20diseases%20without%20superstition.
6. https://www.britannica.com/biography/Hippocrates
7. https://iv.iiarjournals.org/content/23/4/507
8. https://library.uab.edu/locations/reynolds/collections/medical-greats/hippocrates
9. https://en.wikipedia.org/wiki/Hippocrates
10. https://www.medicalnewstoday.com/articles/323596

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi prof. Məmmədova Z.Ş.
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜNEL ƏSKƏROVA
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu.
Ünvan: Bakı şəhəri, Yasamal. Hüseyn Cavid 115
Mail. ***lisey.thtft@mail.ru***

ƏLABBASIN "QİYAMÇI" ROMANINDA SOSİAL-PSİXOLOJİ KONFLİKT

Xülasə

Məqalədə Əlabbasın "Qiyamçı" romanının ideya-qayəsindən söz açılmış, təhlili verilmişdir. İctimai mühitə etiraz motivləri Azərbaycan romanlarında geniş işlənən motivlərdəndir. Daha çox qəhrəmanların daxili dünyasında, mənəvi üsyan kimi baş verən bu motiv son sovet dönəmindən başlayaraq rejimə qarşı açıq etiraza çevrilmişdir. Ədəbi ictimayyətin geniş marağına səbəb olmuş "Qiyamçı" romanının daha əvvəl tamamlanmış variantı yazıçının özü də qeyd etdiyi kimi Müstəqillik illərində yenidən cilalanmışdır. Əsər real hadisələr zəminində yazılmış, lakin milli insan xarakterinin dərinliklərinə baş vuran böyük bədii ümumiləşdirmə gücünə malik romandır. Burada hadisələr sosial-psixoloji janra uyğun olaraq birbaşa deyil, qəhrəmanın daxili aləminin süzgəcindən keçirilərək nəql olunur. 1990-cı ildə "Bəbir qiyamı" adlandırdığı yazını müəllif sonralar daha da cilalayaraq "Qiyamçı" adı altında publikaya təqdim etmişdir. Məqalədə müəllifin "Qiyamçı" romanında təzahür edən üsyan, etiraz, qarşı çıxmaq ruhu onun digər əsərləri ilə müqayisədə təhlilə cəlb edilmişdir.

Qəhrəmanın vətən sevgisi bu hissi oğullarına aşılamaq səylərində, nəsihət və tərifləndə təcəssüm olunması romanı günümüzün tələblərinə daha da yaxınlaşdırmışdır."Qiyamçı" romanında keçmiş sovet rejiminin Azərbaycan xalqına qarşı yeritdiyi düşmən diskriminasiya siyasəti ifşa olunur. Roman qəhrəmanının rejimlə açıq mübarizəsi, cəmiyyətlə, ictimai mühitlə sosial-psixoloji konflikti məqalənin başlıca təhlil predmetidir.

Açar sözlər: sosial-psixoloji roman, etiraz motivləri, Bəbir qiyamı, qiyamçı qəhrəman, köçürülmə mövzusu, Əyriqar

1970-1980-ci illərin əksər Azərbaycan romanlarında ictimai mühitə qarşı etiraz motivləri yer almışdır. Bu, milli insanın yabançılaşmış cəmiyyətə, milli maraqlardan uzaq ictimai-siyai rejimə qarşı mənəvi üsyanı idi və daha çox roman qəhrəmanlarının daxili dünyasında baş verən etirazlar şəklində təsvir olunmuşdur. Rejimin sonuna doğru bu motivlər daha da güclənir və yazıçıların qələmində açıq etirazlara, qiyamçı qəhrəmanlara çevrilməyə başlayır. Belə qiyamçı qəhrəmanların müəlliflərindən biri yazıçıların "səksənincilər" nəslinin görkəmli nümayəndələrindən olan Əlabbasdır. Ədəbi ictimaiyyətin geniş marağına səbəb olmuş "Qiyamçı" romanını (2004) yazıçı,

nəşrə yazdığı ön sözdə göstərdiyi kimi, daha əvvəl tamamlamış, müstəqillik illərində daha da cilalamışdır: "İlk variantı "Bəbir qiyamı" adlanan bu yazının nöqtəsi 90-cı ildə qoyulub. Hərçənd dünya indiki kimi tərs-avand olmamışdı, amma mən onu o vaxt çapa verməyə ürək eləmədim" (1, s. 4)

Ön sözündə müəllif romanı çap elətdirməkdə tələsməməyinin səbəblərini də göstərir və bu səbəblərdən başlıcası – zamanın dəyişməsi, əsərdə təsvir olunan ictimai problemlərin daha da dərinləşməsidir: "Xatalı kimi, ağlımıza gəlməyən başımıza gəldi. Qarabağı torpaq kimi yox, oğul itirən kimi itirdik..." (1, s. 4). Ən nəhayət, yazıçı "Qiyamçı" romanının daha gec işıq üzü görməsini öz yaradıcılıq laboratoriyası ilə, təkmil roman yaratmaq arzusu ilə izah edir: "...ortaya elə bir şey qoymaq istəyirdim ki, heç olmasa, "Köhnə kişi"dən zəif olmasın..." (1, s. 4). Məsələ burasındadır ki, ədəbiyyata 1981-ci ildə qələmə aldığı, lakin çapı səkkiz il ləngimiş "Köhnə kişi" povesti ilə gələn Əlabbasın bütün əsərlərindən, hələ "Qiyamçı" romanına qədər də ictimai mühitə qarşı açıq etiraz və qiyamçılıq motivləri keçir.

Rejimlə barışmazlıq və əsərlərində üsyankarlıq ruhu, demək olar ki, bütünlükdə yazıçıların səksəninci illər nəslinin – Səfər Alışarlı, Nəriman Əbdülrəhmanlı, Əlabbas, Azad Qaradərəli, Eyvaz Əlləzoğlu, Aslan Quliyev, Zahid Sarıtorpaq və b. nasirlərin taleyində ağır izlərini qoymuşdur. Bəlkə də buna görədir ki, müstəqillik dövrünün dərin sosial məzmunlu romanlarını yaratmaq da ilk olaraq məhz bu yazıçıların payına düşür: "Az, çətinliklə, öz vəsaitləri hesabına çap olunsalar da, 80-ci illər ədəbi nəsli özünü təsdiq etməyi bacardı, istedadlı nasirlər gözəl, təkrarsız əsərlər yazmaqdan əlavə, həm də əla romançı olduqlarını sübut etdilər" (2, s. 10)

Əsərlərini daha çox "Əlabbas" imzası ilə yazıb çap etdirməyə üstünlük verən yazıçı Əlabbas Bağırov, qeyd olunduğu kimi, ədəbiyyata "Köhnə kişi" povesti ilə gəlmiş, onlarla hekayə və povestləri ilə sosial-psixoloji nəsrin parlaq nümunələrini qələmə almışdır. İlk əsərlərini ədəbi mətbuatda və "Gümüşü gecələr" (1989), "Doğma ocaq" (1989), "Güdaz" (1993) kitablarında təqdim edən Əlabbasın müstəqillik illərində çap olunmuş "Uçurum" (2001) kitabına habelə 1980-1998-ci illərdə qələmə aldığı yeddi hekayə: "Küçə", "Mərənd ölüsü", "Gözəl", "Başdaşı", "Halal qan", "Gecəyarı hadisə", "Şəhər" və bir povesti "Köhnə kişi" toplanmış, "Sonun başlanğıcı" (2007) kitabında isə yaradıcılığının otuz ilini əhatə edən hekayə və povestləri daxil edilmişdir. Hekayə və povestləri həm ideya-məzmunu, həm də yaradıcılıq üslubu etibarilə yazıçının sosial-psixoloji romana keçidini şərtləndirən, təmin edən əsərlərdir. Ən müxtəlif sosial mövzu və problemlər ətrafında uğraşan qəhrəmanları yazıçının "Qiyamçı" romanında bütövlükdə cəmiyyət və ictimai-siyasi rejimlə kəllə-kəlləyə gələn qiyamçı obrazını yetirmişdir.

Bu cəhəti ədəbi tənqid də qeyd etmişdir: "Əlabbasın nəsrində maraqlı bir obraz var – qiyamçı; şəcərəsi bəlkə də daha əvvəldən, məsələn, "Kür qırağının meşələri"ndəki Qədirdən gəlir, münbit material taparaq, Əlabbasın vaxtilə ədəbi ictimaiyyətin diqqətini çəkmiş "Köhnə kişi" povestindən (1980) "Qiyamçı"

romanınacan (2004) bir çox povest (“Gözmuncuğu”, “Gümüşü gecələr”, “Güdaz”) və hekayələrindən də keçib, bugünə çıxır. Şəxsiyyətin yadlaşmış, özgələşmiş, mənən deqradasiyaya uğramış ictimai mühitə qarşı üsyanı; amma Əlabbasda 60-cılardan fərqli, həmin “üsyan” fərd-cəmiyyət münasibətlərinin nədəninə-təhlilinə deyil, doğurduğu nəticələrə, sosial partlayış və qayğılara diqqət çəkir, yönəlir...” (3, s. 376)

“Qiyamçı” romanı real hadisələr zəminində yazılmış, lakin milli insan xarakterinin dərinliklərinə baş vuran böyük bədii ümumiləşdirmə gücünə malik romandır. Müəllif yazır: “O kəndin timsalında ki, Əyriqar təsvir olunub, ordan köçürülən adamları 60-cı illərin sonunda öz gözlərimlə görmüşəm...” (1, s. 5) Romanın fabulası belədir ki, sovet hökuməti Ermənistan sərhədində yerləşən Əyriqar kəndini tikiləcək su anbarı bəhanəsi ilə ləğv etməyə, yurdu köçürməyə qərar verir. Guya su anbarı ətraf kəndlərdə yerin süxurlarını zəiflədəcək, sakinlər təhlükə altında qalacaq. Bu hadisə romanda birbaşa verilmir, dolayısı nəticələrdə, vətən, yurd, ocaq anlayışları ilə bağlı olaraq cəmiyyətin və milli insanın hadisəyə münasibətində izlənilir, nəzərdən keçirilir. Əyriqar – şərti addır, ümumiləşmiş vətən obrazının təcəssümüdür. Kəndin ləğvində, sakinlərin köçürülməsində məkrli niyyətlər gizlənir. Bu cür köçürülmələr adətən sovet rejiminin milli məsələlərə ehtiyatla yanaşması, milli şüurun güclənməsinin qarşısını almaq niyyətilə həyata keçirilir, xalqın qayğısına qalmaq adı ilə pərdələnirdi.

Eyni köçürülmələr Naxçıvanda olduğu kimi, Azərbaycanın cənub bölgəsində, İran sərhədində də, Azərbaycan xalqının şimalda və cənubda yaxınlaşmasının qarşısını almaq məqsədilə həyata keçirilmişdir. Bu hadisələr Sabir Rüstəmxanlının “Xətai yurdu” bədii-sənədli romanında (2003) əksini tapmışdır. Yaxud Məmməd Orucun “Köçürülmə” romanında (1990) 1948-1950-ci illərdə Azərbaycan türklərinin Ermənistan Respublikasından, əslində doğma yurdları olan Qərbi Azərbaycan torpaqlarından deportasiya olunmasından söhbət gedir. Bunu bütünlükdə sovet rejiminin Azərbaycan türklərinə qarşı qəddar siyasəti hesab etmək olar ki, “Qiyamçı” romanında da qabardılır. Məsələ burasındadır ki, 1950-1960-cı illərdən başlayaraq, 1980-ci illərin sonuna qədər müntəzəm davam edən bu siyasət, köçürülmələr, deportasiyalar rejimin hökm sürdüyü dövrdə deyil, yalnız müstəqillik illərinin romanlarında qələmə alına bildi.

“Qiyamçı” romanında hadisələr sosial-psixoloji janra uyğun olaraq, birbaşa deyil, qəhrəmanın daxili aləminin süzgəcindən keçirilərək nəql olunur. Milli insanın “köçürülmə” hadisəsinə münasibətini ən bütöv və prinsipial şəkildə ehtiva və ifadə edən də roman qəhrəmanı Təbrizdir. Rəsmi dövlət dairələrinin yeritdiyi siyasət nəticəsində hamının tədricən köç etdiyi kənddə yeganə olaraq qalan, rejimlə də, həmkəndliləri ilə də üzləşmədən çəkinməyən, müəyyən müddət sonra ailəsi əzablara dözməyib təslim olduqda, böyük mənəvi sarsıntılarla da olsa ailəsindən də, uşaqlarından da ayrılıb kəndi tərk etməyən Təbrizdir. Yazıçı romanda diqqəti məhz qəhrəmanın bu inadkar mövqeyinə, etirazçı ruhuna cəlb edir, bu yolla oxucunu cəmiyyət həyatındakı mənəvi yadlaşmaya, özgələşməyə qarşı fəallığa sövq edir,

roman qəhrəmanı ilə mühitin qarşılaşmasında səbəblər və nəticələr üzərində dərindən düşündürə bilir. Müəllif özü romanın qayəsini yığcam şəkildə belə şərh edir: "Dədə-baba yurdunu hökumətin yeriylə köçürtdüyü bu üsyankarın etirazı dövlət adamlarından tutmuş öz həmkəndlilərinə, doğma və yaxınlarına, qadınına və iki azyaşlı ciyərparasınacan elə hamıyadır. Əsas da cəmiyyətə. Sübut üçün ki, həmin kənddə madam o, tək yaşaya bilir, demək, elə hamı yaşaya bilərmiş, ömrünün ən yaşanmalı düz on ilini puç eləməli olur" (1, s. 5)

Romanda hadisələr yalnız real zamanda, birbaşa oxucunun gözü qarşısında cərəyan edən zamanda baş vermir, paralel olaraq qəhrəmanın düşüncələri, emosional ovqatına uyğun olaraq daldığı dünənli xatirələrdə, keçmiş hadisə və epizodlarda davam edir. Yəni roman zamanı başlıca olaraq qəhrəmanın daxili dünyası, psixoloji yaşantıları ilə bağlı retrospektiv zamanla idarə olunur. Fabuladan fərqli olaraq, süjet bugündən dünənə doğru irəliləyir; Təbriz Əyriqarda məskunlaşdırmaq istədiyi bir neçə könüllü Qərbi Azərbaycan qaçqını ilə kəndinə doğru yol getdikcə, düşüncələrindən Əyriqar hadisələri də, öz ömür yolu da, sevdiyi Şəhrizlə, ailəsi ilə keçirdiyi xoşbəxt günlər də, özünün və kəndinin üzləşdiyi amansız sosial həqiqətləri də gəlib keçir. Nəticədə oxucu dünənin və bugünün acı həqiqətləri ilə tanış olur, qəhrəmana, obrazlara və hadisələrə konkret münasibəti yaranır.

Romanın mərkəzində qəhrəmanla yanaşı Əyriqar obrazı durur; Əyriqarın timsalında yazıçı doğma yurd, müqəddəs ocaq, ayrılmaz vətən anlayışını formalaşdırmağa çalışır. Əsərin əvvəlində dumanlı-çiskinli bir gündə, çətin yollardan, dərə-təpələrdən keçib bir dağ kəndinə yüksələn yolçuluğun özü dərhal maraq doğurur, rəmzi məna daşıyır. Adını Bəbir kimi, sonradan Təbriz olaraq tanıdığımız qəhrəmanın özü də "yolçu" olaraq təqdim olunur; o, bu yolu fəth etmişdir və özü ilə apardığı yolçulara da sevdirməyə çalışır: "...qəsəbədən çıxalı auluna tərif idi ki, yağdırırdı. Bəs yolu elə, təbiəti belə... Suları bal şəfi, can dərmanı, nə bilim, nə..." (4, s. 12) Romanın sonrakı səhifələrində qəhrəmanın tək yaşamağa məhkum olduğu Əyriqarın əsrarəngiz təbiəti də, bol-bərəkətli torpaqları da, can dərmanı suları da peyzaj təsvirlərində təsdiqini tapır, amma yolçuluğun ilk pillələri vətənə münasibətdə fərqli baxışları, münaqişə düyününü də xəbər verir. Qaçqınlardan "sən nə göylərə qaldırmısan bir qotur kəndi? Kənd görməmişik?" (4, s.12) deyə etiraz edənlər də olur, "-Deyirsiniz, indi də gedib o xarabada can çürüdüm?" (4, s.9) deyib yoldan qayıdanlar da olur; yolla birgə zəmanənin özünün üzünün çönməsi də təsvir olunur: "Sulu qar onu Quruçaydan aşağıda tutdu. Bir azdan dağ küləyi də öz mübarək üzünü göstərdi. İndi hər şeyin elə bil qəsdən onun əleyhinə işlədiyini düşünə-düşünə atı saxlayıb quyruğunu düydü ki, palçığa batmasın..." (4, s. 13)

Bununla belə, qəhrəman yolçuluğun çətinliklərini əvvəlcədən bilir. İlk səhnələr romanın ekspozisiyasıdır; Təbrizə "qaçqınlıq" da, "köçürülmələr" də çox tanış gəlir: "Bu oxşarlıq, bənzəyiş, bəlkə ona görə idi ki, belə bir hərc-mərcliyin, qarma-qarışıqlığın on-on iki il əvvəl kənddə də şahidi olmuşdu: -Siz onları, o yuxarıda

oturanları elə-belə də başa salın, necə lazımdı, elə. Deyin ki, Əyriqar camaatı su altda qalmağa razı oldu, köçməyə yox. Bu kəndin yolunda ona görə tər töküb, qan axıtmayıblar ki, bu gün kimlərinsə qorxaqlığı ucbatından isti yurd-yuvamızı tərk edib gedək...” (4, s. 14) Əyriqarlıların yurd, vətən anlayışı sovet rejiminin ideologiyası ilə də düz gəlmir, “yuxarılar”a müraciətləri təpki ilə qarşılanır: “Yazırdılar ki, necə yəni müqəddəs torpaq? Bu nə çərənləmədi? Vətənin hər yeri müqəddəs deyilmi? Biz hansı zəmanədə yaşayırıq ki, adamlar torpaq və vətən haqqında belə səthi və dayaz düşüncəyə malikdirlər?” (4, s. 40)

Əyriqar romanda qədim kənd kimi təsvir olunur, Əyriqarlıların vətənə bağlılığını da, sovet yanaşmasından fərqli olaraq, ilk növbədə məhz bu qədimlik duyğuları formalaşdırıb: “Cəddə-babalarının Ag Gədik vadisinin qurtaracağında yurd saldıqları, Qəyyum müəllimin dediyinə görə, beş-üç əsrin yox, bəlkə də min illərin söhbəti idi. Üç tərəfdən sıra dağlarla əhatə olunmuş sıldırım qayaların arasında köç salmaq yalnız yadellilərin basqınından qorunmaq ehtiyacından yarana bilərdi. Burda binə quran, zaman keçdikcə bu çöllərin bar-bərəkətli torpağını özünə vətən eləyən ilk qəbilə, tayfa hansı olmuş, bu yerlərə Əyriqar adını kim vermişdi, dünyanın ən qədim kitablarını axtarsaydın da, bunu tapa bilməzdin. Bildikləri bircə o idi ki, həmişəlik bağlandıqları bu yerlər öz səxavətini onlardan heç vaxt əsirgəməmiş, onlar burda törəyib-artmış, ev-eşik, ailə-uşaq yiyəsi olmuşdular...” (4, s. 46)

Qədimlik ovqatını romanda bir də əkin-biçin, bərəkətli torpaq, çörək halallığı motivləri yaradır. Müəllif əsərdə bu təsvirlərə ayrıca yer ayırır. “Çörək! Əyriqarda taxıl biçini, camaatın daşıq heyvanlarına yüklənmiş buğda çuvallarını dəyirmana necə aparıb üyütdükləri, ordakı növbə, tozlu dəyirmanın çax-çaxı, qayıdanbaş deyib-gülən taxılçıların səs-küyü və yorğun halda kəndə dönən öküz arabaları hələ də var ki, yadındaydı...” (4, s.208). Təbrizin tək qaldığı kənddə “kolxoz anbarındakı köhnədənqalma boyunduruq, xış, vəl, tapanın köməkliyi” ilə köhnə zamanları diriltmək cəhdi sadəcə uşaqlıq xatirələrinə dönüş deyil, həm də adət-ənənələrə, rituala, çörək halallığına qayıdışı ifadə edir. O da təsadüfi deyil ki, övladlarını da, Xansuvarı və Mətini də gələcəkdə vətənində görmək istəyir, kəndə aparıb yurdla tanış edir, bir müddət yanında saxlayıb torpağa öyrəşdirir.

Qəhrəmanın vətən sevgisi bu hissi oğullarına da aşıtmaq səylərində, nəsihət və tərifləndə təcəssüm olunub: “Amma onu biləsiniz ki, sizin qibləniz Əyriqardadı, gec tez ora qayıtmalısınız...” (4, s. 195) Qəhrəmanın Əyriqarın “qızıl dövrləri” ilə bağlı xatirələri təkcə nostalji hisslərlə müşaiyət olunmur, bu xatirələrin qara səhifələri də var və birbaşa rejimlə bağlıdır. Belə ki, Əyriqarda xalqın dini etiqadının qədimliyinin nişanəsi olan məscid də zavala gəlir, sökülmək təhlükəsi ilə üzləşir. “Altı hücrə, iki günbəzdən ibarət”, “Şeyxlə Qəyyum müəllimin yekdil rəyinə görə, ən azı on yeddinci əsrin yadigarı” olan “məscidin söküləcəyi söz-söhbəti” hələ 50-ci illərin sonlarından gerçəkləşir. Bəhanə - yerində idman zalı, yaxud kənd klubunun tikiləcəyi olur. Çünki qadağalara baxmayaraq, “kənd camaatı aşura-taşurada ucqar kənd evlərində xəlvət bir ev tapıb” dini ibadətinə əməl edir, “sinəzən deyər, mərsiyə

söyləyərdilər” (4, s.84) Odur ki, məscidin söküləcəyi bir bəhanədir: “Bu, Moskvanın planlı şəkildə, düşünülmüş surətdə həyata keçirdiyi ideyadı. Xalqı öz keçmişindən, mədəniyyətindən, əz ol cümlə, dini etiqadından ayırmaq məqsədi güdür. ...bu təkcə bizdə yox, müsəlman respublikalarının elə hamısında həyata keçirilir, amma müxtəlif adlarla...” (4, s. 85)

Romanda qəhrəmanın rejimə qarşı ilk üsyankarlığı da məscid əhvalatında üzə çıxır. Məscidin sökülməsi ilə bağlı “yuxarı”dan gələn, əsərdə deyildiyi kimi, “iribuynuzlu” məmurları kənddə ilk qarşılayan Bəbirin başçılığı ilə uşaqlar olur. Səkkiz nəfərdən: “Bəbir, Çalbaş – onun əsl adı Xamis idi, - Camal, Məhbub, Müxlis, Şahmərdan, Xürrəm, İldırım”dan ibarət dəstə camaat yığışanacan “kommunizm idealları”ndan dərs keçməyə çalışan məmurların təzyiqi qarşısında duruş gətirir; tarixi abidələri dağıtmağın cinayət olması, məscidin “Xətai dövründən bir az sonra”ya aidliyi, “qədimlərdə bu yerdə vəng olması”, Qəyyum müəllimin deməsi ilə “belə abidələri, ümumiyyətlə bütün qədim məqbərə, sərdabə və türbələri dövlət qoruğu elan etməyin vaxtı çatması” (4, s.90-91) qənaətləri ilə çağrılmamış qonaqları susdura bilirlər: “Qəyyum müəllim deyir ki, dünyada öz tarixini pis bilən iki xalq varsa, biri və birincisi bizik, - Bəbir uzaqdan Qəyyum müəllimi Mirmustafa ağa, Şeyx Səid və Kərbəlayi Hüseynlə gələn görüb bir az da ürəkləndi” (4, s. 91). Qəyyum müəllimin “Məğlubedilməz armada” adlandırdığı bu uşaqlar həm də elə onun yetirmələridir.

Qəhrəmanın sosial etirazçi və milli xarakter kimi formalaşmasında kənddə “köhnə adam” kimi tanınan atası Məşədi İmamqulunun, xüsusən də ona Bəbir adını vermiş Qəyyum müəllimin rolu böyükdür. Əslində, kəndin ilk qiyamçısı məhz Qəyyum müəllimdir. Romanda müəllif onu belə təqdim edir: “Qəyyum müəllim... Başı həmişə qalda olan kişi... Altmışıncı ildə onu dama qoyanda məscidi sökdürməyə gələn dövlət nümayəndələrini təhqir edib hökumətin ünvanına nalayiq sözlər işlətdiyini bəhanə elədilər...” (4, s. 42) İl yarım həbsxana həyatı yaşasa da, heç zaman “dilini dinc qoymur”, həqiqəti deməkdən çəkinmir. Məhz həqiqəti dediyinə görə, “Yetmiş altının bir çiskinli payız gecəsində”, “köçürülmə” məsələsindəki etirazı, “siyasi söhbətlərdə xüsusi fəallıq göstərməyin, kənd cavanlarının tərbiyəsini pozmağın, millətçiliyin və ideoloji sapıntının üstündə” onu ikinci dəfə həbs edir, üstəlik böhtanla: “tərbiyəsi ilə məşğul olduğu şagirdlərinə əyri gözlə baxmaq” adı ilə (4, s. 42-43) damğalayırlar. Romanın sonrakı səhifələrində Qəyyum müəllimin sorağı uzaq sürgündən, Sıktıvkar şəhərindən gəlsə də, qəhrəmanın yaddaşından silinmir, bir örnək obraz olaraq, Təbrizlə birgə roman boyu oxucunun da yaddaşına yazıla bilir. Ümumən, Əlabbasın romanlarında sosial ədalətsizliyə, cəmiyyətdə mənəvi tarazlığın pozulmasına qarşı etirazın mənbəyi rolunda həmişə müəllim surətləri çıxış edir. “Qaraqovaq çölləri” romanında da (2008) belədir; əsərin qəhrəmanı “Əfsunla birgə Zülfü müəllim də, Qüdsi müəllim də, Sidqi müəllim də eyni mündəricənin paylaşmasıdır, Səriyyə müəllim də... eyni məqamın, sosial motivlənmiş mənəvi etirazın ritorik təsdiqindən başqa bir şey deyildir” (3, s. 380) Milli-mənəvi dəyər

daşıyıcısı kimi müəllim obrazı Azərbaycan ədəbiyyatında maarifçilik ənənələrindən gəlir, sovet dövründə də bu missiyaya sadiq qalır. Qəyyum müəllimin varisliyini romanda Təbriz davam etdirir. Nəinki Əyriqarı tərk etməyib yurdun keşiyində durur, həmçinin Qəyyum müəllimin min bir əziyyətlə məsciddə yaratdığı diyarşünaslıq muzeyini göz bəbəyi kimi qoruyur, daha da zənginləşdirir.

Əlabbas "Qiyamçı" romanını iki fəsildə qələmə almış, amma sonda "Üçüncü fəsil" adı ilə yığcam bir final səhnəsi də artırmışdır. Birinci fəsildə konflikt sırf sosial-psixoloji səciyyə daşıyırsa, ikinci fəsildə daha çox qəhrəmanın içinə yönəlir, iç konflikti şəklini alır. Rejimlə, cəmiyyətlə üz-üzə gəlməkdən çəkinməyən, duruş gətirən Təbriz ailəsindən ayrılmağın, qadınının, uşaqlarının, təkliyin xofunu çəkir; roman qəhrəmanın psixoloji sarsıntıları fonunda müasir insanın istəkləri ilə mənəvi dəyərlərin toqquşmasını qarşılaşdırır, aktuallaşdırır. Birinci fəsildə yazıçı Təbrizi "Bəbir" kimi, çevik, qoçaq, dəlisov bir gənc kimi təqdim edir; "Gücü, fəndgirliyi və inadı əllinci illərin sonlarında ona "Əyriqarın ramolunmaz bəbiri" adını qazandırmışdı" (4, s. 30). Yeniyetmə ikən Bakıdan Nuhəli müəllimin onu apardığı güləş yarışlarından qalib qayıtmağa da imkan tapır, şeyx Səidin yanında quran dərsi keçib əski əlifbanı öyrənməyə də; hətta məscidin sökülməsi əhvalatında on beş gün həbsxanada yatmalı olur. Ən zəif yeri isə sevdiyi Şəhrizdir. Onu qəbul etməsələr də qızın atası Seyidəli ilə, qardaşı Məbudla qarşılaşmaqdan qorxmur. Yazıçı romanda etirazçı qəhrəmanı mühitin özünün yetişdirdiyini detallarla izləyir; otuz beş yaşında ikən ictimai yükü boynuna götürməyinin bədəlini məhz qəhrəman ömrü hesabına ödəməli olur.

İkinci fəsil Qəyyum müəllimin Təbrizə Sıktıvkardan yazdığı məktubla başlayır; Qəyyum müəllim çıxış yolu kimi Təbrizə "mütləq gedib arvad-uşağını başına yığmağı", eyni zamanda "sənli-mənli sonuncu borc" olaraq "Əyriqar muzeyinin təsadüfi əllərə düşməməsi"ndən ötrü rayon rəhbərliyindən xahiş etməsini tövsiyyə edir (4, s. 167). Bununla belə, Təbrizi sanki yola gətirən Qəyyum müəllimin məktubundan da çox, yaşadığı psixoloji təlatümlər, "səhərlər bir cür düşünüb, günortalar tamam ayrı xəyala düşməsi" (4, s. 71), "getmək məqamı çatanda bir, qayıtmaq anı yetişəndə isə sanki dönüb başqa bir adam olması"dır (4, s. 73) Romanda qəhrəmanın zəhmətlə yoğrulmuş həyat dolu gündüzləri, tək, kimsəsiz, şirin xatirələrin belə ovutmadığı soyuq qış gecələri retrospektiv planda, inandırıcı təsvir olunur, psixoloji dönüşünü əsaslandıra bilir.

Qəhrəmanı narahat edən səbəblərdən biri qayıdış qorxusu, ailəsinin, Şəhrizin onu qəbul etməyəcəyi düşüncəsidirsə, ikinci daha güclü məqam idealını itirmək qorxusudur. Romanda Şəhriz Təbrizin ilk məhəbbəti və böyük sevgisi kimi təsvir olunub. Qəhrəmanı bir şəxsiyyət kimi yaşadan iki qüvvə var: eşq və Vətən sevgisi. Hər ikisi yolunda böyük əzablardan, çarpışmalardan keçmiş, hətta həbsxanaya düşmüşdür. İdeal baxımından bir-birini tamamlamalı olan bu iki sevgi arasında dramatizm yaratmaqla müəllif qəhrəmanı seçim qarşısında qoyur. Bəlkə də adi insani həyata, qayğıya, ülfətə, rifaha can atan Şəhrizi qınamaq olmaz və romanda Təbrizin

inadkar mövqeyi və xarakteri üzündən onun yaşadığı məhrumiyyətlər göz qabağındadır. Amma eyni zamanda Təbrizin mənəvi idealının sarsılmazlığı müqabilində Şəhrizin zəifliyi qınağa gəlir. Vətən sevgisi ümumən bu ədalətsiz qarşılaşmanı yaratmış ictimai mühitə qarşı çevrilir və qalib olur.

Əsərdə qəhrəmanın psixoloji dönüşünü hazırlayan daha bir motiv Əyriqar yaxınlığında geoloji ekspedisiyaya gəlmiş şəhərli qızla rastlaşması, tanış olmasıdır. Yalnız gənclik şövqü, gözəlliyi ilə deyil, ağlı, intellekti və başlıcası sadəliyi ilə də şəhərli qız Təbrizi sehrləyir. Bircə dəfə rastlaşıb söhbətləşsələr də, cəmiyyətə, mühitə, ümumən həyata münasibətlərinin "üsyankarlıq" məqamında üst-üstə düşməsi məlum olur. Maraqlıdır ki, Təbriz qonağına "şəhərli qız", "Bakılı qız", yaxud da sadəcə: "qız" deyə müraciət edir və oxucunun da yaddaşında o, bu adla, sanki naməlum, xəyali obraz kimi qalır. Halbuki romanda geoloq-qız real obrazdır, Təbrizin xəyallarını qarışdırır, qarışıq düşüncələrini duruldur. Qızla Təbrizin dialoq və polemikasında kənd-şəhər qarşılaşması yoxdur, sanki belə görünsə də şəhərli qızın zamana və həyata sivil baxışları Təbrizin ibtidai kənd mövqeyini yalnız tamamlayır.

Qəhrəmanın Vətən anlayışındakı psixoloji dönüş və korrektələri həm də bu nöqtədən başlayır. Şəhərli qız deyir: "Bir mütəfəkkirin maraqlı fikri var, mənim vətənim zamandı, deyir. Nə qədər qəribə görünsə də, dilini də özünə vətən sananlar var. Adam da var ki, onunçün uşaqlıq illəri vətənə əvəzdi. Bir başqası da o fikirdədi ki, dünyanın harasında onun dilində danışılırsa, vətən elə oradı..." (4, s. 125) və sanki bir-birini tamamlayan bu fikirlərə öz mövqeyini də əlavə edir: "Yoox, mənim dediyim başqa şeydi. Məncə, vətən elə dünyanın özüdü. Vaxt gələcək sərhədlər yoxa çıxacaq, xəritədə dövlətlərin quruca adı qalacaq. İndi hamını yaxşı yaşayış düşündürür. Niyə də azad bir cəmiyyətdə yaşamayasan?.." (4, s. 125-126) Bütün bu mücərrəd, çoxmərtəbəli düşüncələrə qəhrəmanın konkret cavabı hazırdır: "Elə mən də özümü burda rahat hiss etdiyimçün yerimdən dəbərmədim..." (4, s. 126) Yazıçıya görə, məsələ heç də sadəcə Əyriqarda qalıb-qalmamaqda deyil, problemin kökü öz vətən torpağında ictimai-siyasi rejimin qəhrəmanın, konkret halda milli insanın azad ruhunu boğmaq, məhv etmək, yox etmək istəyindədir ki, böyük etiraz və qiyam doğurur.

Xəyalından və yuxularından keçirdiyi ekiz tayını, mənəvi bütövünü qəhrəman roman boyu axtarır və şəhərli qızda tapır. Əsərin sonunda ikinci dəfə "təsadüfi" görüşündə bunun heç də təsadüf olmadığına inanır, idealının böyüklüyünə qızı da inandıra bilir; "and içir ki, ya onu ömürlük burda, kənddə saxlayacaq, ya da baş götürüb Bakıya, onun şəhərinə gələcək. Həmişəlik. Qoy bütün dünya bilsin ki, əsl sevgi gələndə ağıl-kamal da adama kömək eləmir..." (4, s. 342) Şəxsiyyətin mühitə qalib gəlməsi mənəvi bütövləşmədən keçir; sovet rejimi daxilində qəhrəmanın ictimai mühit üzərində qələbəsini yalnız belə bir simvolik sonluq xarakterizə edə bilərdi.

Əlabbas "Qiyamçı" romanını artıq sovet rejiminin olmadığı, Azərbaycanın müstəqilliyə qovuşduğu illərdə tamamlamış, romana yeni motivlər əlavə etmişdir.

Sovet rejimi yox idisə də, onun acı nəticələri, qalıqları cəmiyyətdə yenə də qalırdı. "Qiyamçı" romanı məhz bu motivlərdən başlamışdı; rejimin hiyləsi, ermənilərin təxribatı nəticəsində yurd-yuvasını tərk etmiş köçgünləri Əyriqara yerləşdirmək təklifinə tərəddüdlə də olsa, qəhrəman ürəkdən yapışır. Romanda real zaman kontekstini təmsil edən bu xətti müəllif genişləndirməsə də, daim diqqətdə saxlayır; Əyriqara getmək istəyənlərin əksəriyyəti çətinlikdən qorxub yoldan qayıtsalar da, Zülfüqar müəllimin simasında Təbriz əsl vətənpərvər insanla tanış olur və sanki Qəyyum müəllimin davamçısı olaraq yeni silahdaşını tapır. Yığcam şəkildə, iki abzaslıq "Üçüncü fəsil" real zaman xəttini tamamlamaqla, həm də romanda müstəqilliyin gətirdiyi nikbinlik, ümid motivasiyasını təsdiq etməyə yönəlmişdir. Roman belə bitir: "-Arabayla daş daşıyan bir nəfərdən soruşurlar ki, nə eləyirsən? Acıqlı-acıqlı deyir, nə eləyəcəm, görmürsən, daş daşıyıram. Həmin sualı onunla eyni işi görən yoldaşına da verirlər. Cavabı bu olur ki, məscid tikirik, - deyib Zülfüqar müəllim ayaq saxladı, - sən elə bilirsən, hamı gördüyü işin əsl mahiyyətini dərk eləyir?...

Hava aynımışdı. Uzaqdan-uzağa Əyriqar xarabalıqlarının silueti sezilirdi..." (4, s. 343)

Beləliklə, Əlabbasın "Qiyamçı" romanında milli insanın sovet rejiminə, yaşadığı yabançılaşmış ictimai mühitə qarşı mübarizəsini və mənən qələbə çaldığını görürük.

Ədəbiyyat:

1. Əlabbas, Qırx yeddi ilin yazısı ilə xəttatı mən olan yazı barədə bir neçə kəlmə // Əlabbas, Qiyamçı. Bakı, "Nurlan", 2004, s. 3-6
2. Bəşirov Sabir, Əlabbas: Sözün köhnə kişisi. Bakı, "Adiloğlu", 2005, 200 s.
3. Əlişanoğlu Tehran, Milli nəsrdə Azərbaycan obrazı. Bakı, Elm və təhsil, 2017, 616 s.
4. Əlabbas, Qiyamçı. Bakı, "Nurlan", 2004, 344 s.

Gunel Askarova Elkhan

SOCIO- PSYCHOLOGICAL CONFLICT IN ALABBAS'S NOVEL "THE REBEL.

Summary

The article mentions the idea of the novel "The Rebel"written by Alabbas . Motives of protest against the public environmentare the most widely used motives in Azerbaijami novels. This motif , which occurs mostly in the inner world of the heroes , as a moral rebellion, has turned into a protest against the regime, starting from the last Soviet period . The previously completed version of the novel "The Rebel" which attracted wide interest of the literary community , was repolished during the years of independence,as the writer himself noted. The work is based on

real events , but it is a novel with a great artistic generalization power that reaches the depth of the national human character. The events are narrated not directly according to the socio-psychological genre, but through the filter of the hero's inner world.The article " The rebellion of the leopard " called by author in 1990, later was polished and the author presented it to the public under the title " The Rebel" . In the article the spirit of rebellion , protest, opposition manifested in the author's novel "The Rebel" compared to his other were included in the analysis.

The hero's love for the country, his efforts to instill his feeling in his sons, advice and praises brought the novel closer to today's requirements. The novel "The Rebel" exposes the hostile discrimination policy of the former Soviet regime against the people of Azerbaijan. The struggle of the hero of the novel with the regime, the socio- psychological conflict with the society and the public environment is the main subject of analysis of the article.

Key words: socio-psychological novel, protest motives, the rebellion of the leopard, insurgent hero, subject of the resettlement , Ayrigar.

ГЮНЕЛЬ АСКЕРОВА

СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ КОНФЛИКТ В РОМАНЕ АЛАББАСА «БУНТАРЬ»

РЕЗЮМЕ

В статье говорится об идеях романа Алаббаса «Бунтарь» и дается их анализ. Мотивы протеста против общественной среды широко используются в Азербайджанских романах. Этот мотив, возникающий преимущественно во внутреннем мире героев, как нравственный бунт, с последнего советского периода превратился в открытый протест против власти. Ранее законченная версия романа «Бунтарь», вызвавшая широкий интерес литературной общественности, была заново отшлифована в годы Независимости, как отмечал сам писатель. Произведение представляет собой роман, написанный на основе реальных событий, но обладает большой художественной обобщающей силой, затрагивающей глубины национального человеческого характера. Здесь события повествуются не непосредственно по социально-психологическому жанру, а через фильтр внутреннего мира героя. В 1990 году автор назвал статью «Восстание леопарда», а затем усовершенствовал ее и представил публике под названием «Повстанец». В статье анализируется дух бунта, протеста, противостояния, проявленный в романе автора «Бунтарь» в сравнении с другими его произведениями.

Воплощение героем любви к родине в его стремлении привить это чувство своим сыновьям, в его советах и похвалах приблизило роман к сегодняшним требованиям. Роман «Киямчи» разоблачает политику

враждебной дискриминации Азербайджанского народа бывшим советским режимом.

Открытая борьба героя романа с режимом, его социально-психологический конфликт с обществом и общественной средой является основным предметом анализа статьи.

Ключевые слова: социально-психологический роман, мотивы протеста, восстание Леопарда, герой-мятежник, тема переселения, Эйригар.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu tərəfindən çapa tövsiyə olunmuşdur

XANIM SƏRDAR QIZI MƏMMƏDZADƏ
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyov küçəsi 68
xanimsamedzade@gmail.com

NƏSR ƏSƏRLƏRİNİN ÖYRƏDİLMƏSİNDƏ MÜXTƏLİF İŞ FORMALARINDAN İSTİFADƏ

XÜLASƏ:

Nəsr əsərlərinin öyrənilməsi orta məktəb ədəbiyyat kursunun əsas hissəsini təşkil edir. Bu əsərlərin öyrənilməsində müxtəlif iş formalarından istifadə etməklə orta məktəblərdə şagirdləri fəal təlimə cəlb etmək və onları düşünməyə sövq etmək müasir təlimdə uğur qazanmağa imkan verir. Məqaləmizdə nəsr əsərlərinin əhəmiyyəti, onların janr xüsusiyyətləri baxımdan üstünlükləri, orta məktəbdə keçirilən nəsr əsərlərindən nümunələr fonunda onların müxtəlif iş üsulları ilə əlaqəsi verilmiş, onların müsbət və mənfi tərəfləri göstərilmişdir. Nümunələr 7, 8 və 11-ci sinif ədəbiyyat dərsliklərindən verilmişdir. Məqaləmizdə 7-ci sinif ədəbiyyat dərsliyindən Mir Cəlalın "Bir gəncin manifesti" romanının "Bahar" hissəsinə aid dərs nümunəsi verilib. Nümunədə kiçik qruplarla işdən istifadə olunub. 8-ci sinif ədəbiyyat dərsliyindən Əbdürrəhim bəy Haqverdiyevin "Bomba" hekayəsinə aid dərs nümunəsi verilib. Bu dərs nümunəsində fərdi və kiçik qruplarla işdən istifadə olunub. 11-ci sinfə aid İsmayıl Şıxlının "Dəli kür" romanından təhlil üzrə işə aid dərs nümunəsi öz əksini tapıb. Bu nümunədə kiçik və böyük qruplarla iş üsullarından istifadə olunub. Məqaləmizdə fəal təlimin iş üsullarının məqamına görə seçilməsi məsələsinə də toxunulub. Fəal dərsin mərhələləri fonunda fəal təlimin iş üsullarından istifadə olunaraq öyrətmə və öyrənmə bacarıqları izah olunmuşdur. İş formaları olaraq kiçik qruplar, böyük qruplar və cütlər üzrə işlərə aid nümunələr verilmiş, hər biri əsaslandırılmışdır. Məqalənin sonunda iş formalarının əhəmiyyətindən bəhs olunub.

Açar sözlər: nəsr, cütlük, qrup, hekayə, təlim, roman.

Bildiyimiz kimi, ədəbi əsərlərin əsas hissəsini nəsr əsərləri təşkil edir. Nəsr əsərləri yazıçıların yaradıcılıq imkanlarının genişlənməsinə, təfəkkür və təxəyyül materialının yazıda öz əksini tapmasına imkan yaradır. Nəsr əsərləri orta məktəb ədəbiyyat proqramında öz əsaslı yerini tutaraq məktəblərdə tədris olunur. Bu əsərləri tədris edərkən müəllim şagirdlərə həm bilik və bacarıqları ən müasir fonda mənimsətməli, həm də gələcəyin şəxsiyyətinin formalaşmasında əsas mövqe olduğunu unutmamalıdır. Təlim bacarıqları ilə həyati bacarıqlar paralel şəkildə mənimsədilməlidir. Əsas məqsəd dövrümüzün qarşıya qoyduğu tələblərə cavab verən, problemləri görməyi bacaran və onların həll yolunu axtarmaq üçün çalışan, insani bacarıqlara yiyələnən şəxsiyyət yetişdirməkdir.

Nəsr əsərləri orta məktəblərdə tədris olunarkən şagirdlərin yaş xüsusiyyətləri və əsərlərin həcmi nəzərə alınır. İş formaları dərsin əvvəlində də, tədqiqatın işlərinin təşkilində də, digər dərs mərhələsində istifadə oluna bilər. (7, s.203) Təbii ki, iş formaları dərsin həcmi, məzmununa və mövzusuna uyğun meyarda seçilir. Bir dərs müddəti ərzində bir neçə iş formasından istifadə etmək mümkündür. Fəal təklimin iş formaları aşağıdakılardır:

- Fərdi iş;
- Kiçik qruplarla iş;
- Cütlük şəklində iş;
- Bütün siniflə birgə iş. (5, s.154)

Bu iş üsullarının tətbiq olunduğu dərslərdə şagirdlərin fərdi və psixoloji xüsusiyyətlərinin, qavrama səviyyəsinin, maraq və meyillərinin nəzərə alınması olduqca vacibdir. Bunun üçün yeri gəldikcə frontal, qruplar üzrə, cütlük şəklində iş ayrı-ayrı şagirdlərə verilən fərdi tapşırıqlarla uzlaşdırılmalıdır. Biz bunu bir neçə dərs nümunəsi üzərində göstərə bilərik. Məsələn, 7-ci sinif ədəbiyyat dərsliyində Mir Cəlalın "Bir gənci manifesti" romanından "Bahar" hissəsi tədris olunur. Nümunə olaraq aşağıdakı dərs nümunəsinə nəzər yetirək:

Dərs motivasiyanın yaradılması ilə başlanır. Şagirdlərin şəxsi təəssüratına əsaslanmaqla motivasiyanın qurulması daha maraqlı olar. Yardıma ehtiyacı olan insanlar, valideyn qayğısından məhrum uşaqlar barədə suallar yığcam müsahibəyə imkan yaradır. (1, s.159) Belə insanlara mərhəmət və qayğı göstərilməsi barədə fikirlər deyilir. Motivasiya mərhələsində mövzu ilə əlaqəli şagirdlərə bir video da izlətmək mümkündür. Bu dediklərimizdən hər hansı birini etdikdən sonra tədqiqat sualı formalaşdırılır.

Tədqiqat sualı: Siz ehtiyacı olan, sizdən kömək istəyən insanlarla qarşılaşdıqda nə edirsiniz? Sizcə, nə etmək lazımdır? Fərziyyələr dinlənilir və qeyd edilir. Dərslikdəki tövsiyələr şagirdlərin görəcəkləri işlərə istiqamət verir.

Tədqiqatın aparılması mərhələsində hər bir şagirdin fəaliyyətini diqqətlə müşahidə edən müəllim sinifdə qrupların səmərəli işləməsi üçün əlverişli şəraitin yaranmasını təmin edir. Qruplar bir-birinə maneçilik törətmədən işləyir, qrupdaxili geniş fikir mübadiləsi həyata keçirilir. Burada sinifdəki şagirdləri kiçik qruplara bölərək hər qrupa müəyyən tapşırıqlar verilir. Məsələn:

1) birinci qrupa mətndə bədii təsvir və ifadə vasitələrinin tapılması;

2) ikinci qrupa əsərdəki Bahar və Məşədi Abbas surətlərinin təhlili;

3) üçüncü qrupa mətnin əsas ideyasını söyləmək, əsaslandırmaq;

4) dördüncü qrupa isə əsərin kompozisiyanın elementləri əsasında hadisələrin ardıcıl şərh edilməsi tapşırılır.

Dərsin məlumat mübadiləsi, məlumatın müzakirəsi mərhələləri paralel şəkildə reallaşır. Hər bir sualın cavabı dinlənilir, onlar üzərində müzakirələr aparılır, fərqli mövqelər dinlənilir, əsaslandırılır, ümumi müzakirə aparılır.

Nəticə və ümumiləşdirmə hissəsində tədqiqatı sualından yola çıxaraq, müəyyən nəticələr əldə edilir və mövzu ilə bağlı ümumiləşdirmələr aparılır.

Kiçik qruplarla iş vaxtın səmərəliliyi baxımdan olduqca əhəmiyyətlidir. Qrup nə qədər az olsa, vaxtdan da səmərəli istifadə olunar. Burada müəllimin üzərinə düşən əsas vəzifə kiçik qrupların işinə diqqətlə nəzarət etməsi, qrupdaxili fəallığa nəzər yetirməsidir. Kiçik qruplarla işin bir müsbət cəhəti də odur ki, şagirdlər aktivləşir, dərs prosesində fəal olmağa can atırlar. Bu da şagirdlərin zehni fəaliyyətinin, müstəqil danışmaq, fikrini ifadə etmək bacarıqlarının inkişafına təkan verir.

Kiçik qruplarla iş asan görünsə də, çətin tərəfləri də özünü göstərir. Belə ki, müəllim qrupdaxili fəaliyyəti də gözdən qaçırmamalı, hər bir qrup üzvünün iştirakına fikir verməlidir. Bəzən qrup daxilində bəzi şagirdlərin daimi fəallığı, bəzilərinin isə passivliyi, çəkingənliyi müşahidə olunur. Bu müşahidə ilə müəllim həmin şagirdlərin xüsusiyyətlərini müəllim qeyd kitabçasında qeyd etməli, həmin şagirdləri fəallığa cəlb etməlidir.

Digər bir dərs nümunəsinə nəzər yetirək. 8-ci sinif dərsliyində Əbdürrəhim bəy Haqverdiyevin "Bomba" hekayəsi verilib. Bu dərsə orta məktəb proqramında 3 saat vaxt ayrılıb:

1) Ə.Haqverdiyevin "Bomba" hekayəsi (məzmun üzrə iş);
2) Ə.Haqverdiyevin "Bomba" hekayəsi (məzmun üzrə iş);
3) Ə.Haqverdiyevin "Bomba" hekayəsi (təhlil üzrə iş).

Verdiyimiz bölgülərdən ilkinə nəzər yetirək:

Əvvəla, ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi, müzakirənin aparılması ilə müəyyən oluna bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Motivasiya mərhələsində müəllim lövhədə mövzunun adı ilə əlaqədar olaraq bomba şəklini göstərib, şagirdlərin fikrini alaraq mövzunu elan edə bilər.

Ardınca, tədqiqat sualı qoyulur: İnsan özünü başqalarının gözündə ucaltmaq istəyərkən rəzil ola bilərmi?

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

Tədqiqatı apararkən müəllim əsərin həcminin yığcamlığına görə proqnozlaşdırılmış oxu növündən istifadə edə bilər. Əsər həcmə kiçik olduğu üçün birinci dərs saatında bütövlükdə sinifdə oxunması məqsədəuyğundur. Oxuya başlamazdan öncə şagirdlərin diqqəti əsərin adına və illüstrasiyalara cəlb edilir. Əsərdə nələrdən danışılacağı haqqında proqnozlar dinlənilir. Bu, şagirdlərin daha da fəallaşmasına, mütaliə maraqlarının artmasına səbəb olur. Müəllimin təklifi ilə əsər dörd yerə bölünür. Şagirdlər səssiz, başqalarına mane olmadan oxuyurlar. Hər parçanın oxusu tamamlandıqdan sonra dəftərlərində çəkdikləri cədvəlin suallarına müvafiq cavablar yazırlar. Tanış olmayan sözlərin, bədii təsvir və ifadə vasitələrinin necə dərk edildiyinə oxu zamanı diqqət yetirilir.

Məlumat mübadiləsi və müzakirə. Bu mərhələdə şagirdlər kiçik qruplara ayrılaraq qənaətlərini, fikirlərini ümumiləşdirir və qeyd edirlər. Təqdimatlar təqdim

olunarkən qruplar bir-birinin işinin məzmunu ilə yaxından tanış olurlar. Müzakirə zamanı bütün şagirdlərin fəal iştirakı, öz fikirlərini açıq şəkildə ifadə edə bilmələri, dialoji nitq, ünsiyyət bacarıqlarının nümayiş etdirilməsi təmin edilməlidir.

Daha sonra nəticə çıxarılır və ümumiləşdirmə aparılır. Deyilən fikirlərin tədqiqat sualı ilə əlaqəsinə fikir verilir. Tədqiqat sualı ilə əlaqədar irəli sürülən fərziyyələrdə daha çox xarakter, davranış və əməllərindəki nöqsanların insanı gülünc və rəzil vəziyyətə salması ön plana çəkilirdisə, dərsin sonuncu mərhələlərində vəziyyət əhəmiyyətli dərəcədə dəyişilir. (3, s.158) Bu zaman şagirdlər mühitin də insana təsirini ön planda tutmağın əhəmiyyətini dilə gətirirlər.

Dərslikdəki beşinci tapşırığın (Əsərdəki hadisələrə səsləşən bir epizod fikirləşin. Onu hansı hadisədən sonra mətnə əlavə etməyin mümkün olduğunu əsaslandırın) cavabının tapılmasına bütün şagirdləri cəlb etmək olduqca əhəmiyyətlidir. Bu tapşırığı şagirdlərə fərdi iş kimi vermək olar. Belə ki, bu, onlarda həm yazılı nitqin, həm də yaradıcı təfəkkürün, təxəyyülün inkişafına təkan verəcək.

Görülən işlər yekunlaşdıqdan sonra qiymətləndirmə aparılır.

11-ci sinifdə tədris olunan İ.Şıxlının "Dəli kür" romanından dərs nümunəsinə nəzər yetirmək olar. Orta məktəb proqramında İ.Şıxlının yaradıcılığına dörd saat vaxt verilib:

1) İ.Şıxlının həyatı və yaradıcılıq yolu;
2) İ.Şıxlının "Dəli kür" romanı (məzmun üzrə iş);
3) İ.Şıxlının "Dəli kür" romanı (məzmun üzrə iş);
4) İ.Şıxlının "Dəli kür" romanı (təhlil üzrə iş).

Yuxarıda verdiyimiz bölgülərdən sonuncusuna nəzər yetirək:

Əvvəla, ev tapşırıqlarının yoxlanılması mərhələsinə 5 dəqiqəlik vaxt ayrılır. Ev tapşırıqları müsahibə, şifahi sorğu vasitəsilə aparıla bilər.

Motivasiya mərhələsində maraqlı sual qoyulur: "İnsanlığın getdikcə uçuruma qərq olmasının səbəbi nədir? İnsanın daxili aləmi, yoxsa, başqa insanlar?" Müəllim bu sualla qısa müzakirə apararaq tədqiqat sualını formalaşdırır.

Tədqiqat sualı şagirdlərə ünvanlanır: Çox çətin bir tarixi dövrdə Azərbaycanın kənd həyatını təsvir etməkdə yazıçının məqsədi nə idi?

Fərziyyələr dinlənilir, lazım olduqda müəllim onlara münasibət bildirir.

Tədqiqata dərslikdəki mətnlə tanışlıq, mətndənkənar sualların müzakirə edilməsi və onlara cavabların hazırlanması ilə başlanır. Məsələn: Əsər hansı mövzuda yazılmışdır? Əsərdə hansı obrazların timsalında konfliktlər öz əksini tapır? Cahandar ağanın əsas obraz kimi səciyyəvi cəhətləri hansılardır? Cahandar ağanı hansısa xüsusiyyətlərinə görə müsbət obraz hesab etmək olarmı? və s.

Mətnin oxusunu təşkil etmək tədqiqat işinin daha səmərəli keçməsinə və mənimsənilməsinə səbəb olar. Bunun üçün fərdi, yaxud, cütlük şəklində oxunu təşkil etmək məqsədəuyğun olar. Bununla da, obrazların daxili aləminə nüfuz etmək əlçatan olar. Şagirdlərə öncəki dərslərdə qazanılmış biliklər əsasında təhlil üzrə işin rahatlıqla aparılmasını izah etmək lazımdır.

Şagirdləri kiçik qruplara bölərək tədqiqatı davam etdirmək olar. Hər qrupa mövzu ilə bağlı müvafiq suallar ünvanlanır:

1) birinci qrupa əsərdə verilmiş qadın obrazlarının səciyyəvi xüsusiyyətlərinin sadalanması;

2) ikinci qrupa əsərdə bədii təsvir və ifadə vasitələrinin işlənmə məqamı və rolunun müəyyən edilməsi;

3) üçüncü qrupa Cahandar ağanın həm insanlara, həm də özünə etdiyi əməllərin səbəbini aydınlaşdırmaq;

4) dördüncü qrupa isə Cahandar ağanın oğlanlarının bir-biri ilə müqayisəsi, fərqlərini araşdırmaq tapşırılır.

Şagirdlər qrupdaxili müzakirə və fikir mübadiləsi aparır, onlara ünvanlanan sualların ətraflı cavablarını hazırlayırlar. Daha sonra şagirdlər təqdimatları əsasında məlumat mübadiləsi və müzakirə aparırlar. Diskussiya səciyyəli müzakirə qarşılıqlı əməkdaşlığın möhkəmlənməsinə səbəb olur.

Əsərin təhlili üzrə iş dördüncü dərs saatında davam etdiyi üçün nəticə və ümumiləşdirmənin həmin dərsdə aparılması məqsədəuyğundur. Görülən işlər yekunlaşdırıldıqdan sonra qiymətləndirmə aparılır. (4, s.157)

Dərs prosesində hansı iş formasının seçilməsi bir sıra amillərdən asılıdır. Onlar aşağıdakılardır: (7, s.205)

1) Proqram materialının xarakterindən. Tədris olunan mövzunun hansı xüsusiyyətləri daşıması, hansı özəlliklərinə görə fərqlənməsini izləmək olduqca vacibdir. Məsələn, 11-ci sinif şagirdlərinə "Dəli kür" romanı tədris edərkən müəllim əsərin həcminə və janr xüsusiyyətlərinə diqqət yetirməlidir. Əsər irihəcmli olduğu üçün orada bir yox, bir neçə iş üsulundan paralel şəkildə istifadə edilməlidir.

2) Hansı axtarış formasının seçilməsindən. Şagirdlərin birgə fəallığında onlara uyğun axtarış şəraiti yaratmaq müəllimin əsas görəcəyi işlərdən biridir. Bunun üçün, ilk növbədə, şagirdlərin qruplara ayrılması yolları aydınlaşdırılır. Şagirdləri kiçik qruplara müxtəlif yollarla bölmək mümkündür. Görkəmli metodist F.Yusifov "Ədəbiyyatın tədrisi metodikası" kitabında qruplara bölünməyə aid nümunələr vermişdir: "Şagirdlərə təklif oluna bilər ki, 1-dən 5-ə qədər saysınlar, sonra 1-lər, 2-lər, 3-lər, 4-lər, 5-lər hərəsi bir stolun ətrafında dairəvi formada otururlar. Bunu şəkillərlə də etmək olar. Yəni 5 müxtəlif gülün (meyvə, rənglər və s. də ola bilər) hərəsindən 5 dənə çoxaldıb bir yerə sərmək olar və şagirdlərə təklif etmək olar ki, bəyəndikləri gülləri seçib götürsünlər. Sonra isə müəllim qızılgülləri, yasəmənləri, qərənfilləri, nərgizi, bənövşəni hərəsini bir stol ətrafına toplayır." (7, s.204)

3) Hansı iş üsulunun tətbiqindən. İş üsulunun düzgün və yerində seçimi dərsin optimallığını artırar. Şagirdlərin mövzu ilə bağlı fərdi fikirlərini almaq lazım gəlirsə, fərdi işdən, əməkdaşlıq xüsusiyyətlərinin müəyyən edilməsi üçün isə digər iş üsullarından (cütlərlə iş, kiçik və böyük qruplarla iş) istifadə etmək məqsədəuyğun hesab olunur.

4) Şagirdlərin yaş və bilik səviyyələrindən. Psixoloji, fərdi, yaş xüsusiyyətlərinin nəzərə alınması olduqca zəruridir. Bu məsələ dildə olduqca tez-tez səslənsə də, sadəcə deyim kimi qalmamalı, bu vəziyyətə riayət edilməlidir. Müəllim şagirdləri öncədən izləməyi bacarmalı, şagirdlərin aktivlik və passivlik dərəcələrinə görə onları dərsə cəlb etməlidir.

Yuxarıda verdiyimiz dərs nümunələrində müxtəlif iş formalarından istifadəyə aid nümunələr öz əksini tapıb. Bu iş formaları şagirdlərin təfəkkürünü oyatmaqda, təxəyyülün fəallığına təkan verməkdə, əməkdaşlıq və dialoq qurmaq bacarıqlarını formalaşdırmaqda və ən əsası, fikirlərini rahatlıqda ifadə edib inikişaf etməkdə böyük rol oynayır.

ƏDƏBİYYAT

1. Ədəbiyyat. 7-ci sinif metodik vəsait. Bakı: "Bakı", 2018. 208 s.
2. Ədəbiyyat. 8-ci sinif dərslik. Bakı: "Şərq-Qərb", 2019. 208 s.
3. Ədəbiyyat. 8-ci sinif metodik vəsait. Bakı: "Bakı", 2019. 207 s.
4. Ədəbiyyat. 11-ci sinif metodik vəsait. Bakı: "Bakı", 2018. 208 s.
5. Həsənli Bilal. Ədəbiyyatın tədrisi metodikası. Pedaqoji ali məktəblər üçün dərs vəsaiti. Bakı: "Müəllim", 2016. 452 s.
6. Hüseynoğlu Soltan. İfadəli oxunun əsasları. Dərs vəsaiti. Bakı, 2019. 220 s.
7. Yusifov Fəxrəddin. Ədəbiyyatın tədrisi metodikası. Dərslik. Bakı, 2019. 349 s.

KHANİM MAMMADZADA SARDAR

USE OF DİFFERENT FORMS OF WORK IN TEACHING PROSE WORKS

SUMMARY:

The study of prose works is a major part of the high school literature course. Using various forms of work in studying these works, involving students in active learning in secondary schools and encouraging them to thing allows to achieve success in modern education. In our article, the importance of prose works, their advantages from the point of view of genre charahteristics, their connection with various work methods against the background on shown. Examples are given from 7th, 8th and 11th great literatures textbooks. In our article, the part of Mir Jalal's "Manifesto of a young man" novel "Spring" from the 7th grade literature textbook is given. The sample used small group work. From the 8th grade literature textbook, an example of the story "Bomba" by Abdurrahim bey Hagverdiev was given. The sample lesson uses individual and small group work. An example of a lesson on analysis from Ismail Shikhli's "The Madman" of the 11th grade was given. In this example, small and large group work methods were used. In our article, the issue of choosing active training methods according to the moment was also touched upon. Teaching and learning skills were explained using the working methods of active learning aganist the background of the stages of the active lesson. Examples of work

for small groups, large groups and pairs are given as forms of work, and each is justified. At the end of the article, the importance of business forms was mentioned.

Key words: prose, pair, group, stroy, training, novel.

ХАНЫМ МАММЕДЗАДЕ САРДАР

ИСПОЛЬЗОВАНИЕ РАЗНЫХ ФОРМ РАБОТЫ В ОБУЧЕНИИ ПРОЗАИЧЕСКИМ ПРОИЗВЕДЕНИАМ

КРАТКОЕ СОДЕРЖАНИЕ:

Иэучение прозаических произведений является основной частю курса литературы в средней школе. Использование разничных форм работу при изучении етих произведений, вовлечение учащихся в активное обучение в общеобразовательных школах и побуждение их к мышлению позволяет добится успехов современменном образовании. В нашей статье показано значение прозаических произведений, их преимушества с точки зрения жанровой, характеристики, их связь с различными методами работы на фоне примеров из прозаических произведений, проводимых в средней школе, а также их положительные и отрицательные стороны. Приведены примеры из учебников литературы для 7, 8 и 11 классов. В нашей статье приводится “Весенняя” часть романа Мир Джалала “Манифест юноши” из учебника литературы для 7 класса. В примере использовалась работа с малыми группами. Из учебника литературы 8 класса был приведен образец урока, связанный с рассказом “Бомба” Абдуррахим бека Хагвердиева. В етом примерном уроке используется индивидуальная работа и работа в малых группах. Пример урока, связанного с работой над анализом, был приведен из романа Исмаила Шихли “Дали кюр” 11 класса. В данном примере исползован метод работы с малыми ибольшими группами. Навыки преподавания и обуения объяснялись с использованием рабочив методов активного обучения на фоне етапов активного урока. В качестве форм работы приведениы примеры работы для малых групп, болших и пар, и каждый обоснован. В конце статьи было упомянуто о важности форм бизнеса.

Ключевые слова: проза, пара, группа, история, тренинг, роман.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi: dosent Nazilə Abdullazadə
tərəfindən çapa tövsiyə olunmuşdur

TAMARA ŞƏRBƏT QIZI ƏLİZADƏ
ATU-nun müəllimi
tamara.alizade.60@mail.ru

QƏDİM ABİDƏMİZ – "KİTABİ-DƏDƏ QORQUD"

Açar sözlər: Dədə Qorqud, dastan, türk dünyası, oğuzlar, dünyagörüş, qəhrəmanlıq
Key words: Dede Gorgud, epic, Turkic world, Oghuz, outlook, heroism
Ключевые слова: Деде Горгуд, эпос, тюркский мир, огузы, мировоззрение, героизм.

"Dədə Qorqud" dastanı yarandığı zamandan etibarən türk xalqlarının həyatında möhtəşəm bir abidə olaraq yaşamaqdadır. Bu dastanda maddi və mənəvi zənginliklərimiz, xalqımızın əski inam və etiqadlar, sevinci və kədəri, arzusu, həsrəti ifadə olunmuşdur. Heydər Əliyev "Kitabi-Dədə Qorqud ensiklopediyası"nın I cildinə ön sözdə yazır: "Kitabi-Dədə Qorqud" dastanı indiyə qədər Azərbaycanda az bir təbəqəyə məlum olan abidədir, əsərdir. Bunu bilənlər bizim tarixçilərimizdir – onların da hamısı yox, - o adamlardır ki, "Dədə Qorqud"un tədqiqi ilə məşğul olublar. Bunu bilənlər bizim ədəbiyyatçılarımız, yazıçılarımızdır. Cəsarətlə demək olar ki, onların da, bəlkə də hamısı yox. Xalqımıza, millətimizə gəldikdə isə onu demək olar ki, geniş kütlə "Dədə Qorqud" haqqında çox az təsəvvürə malikdir, az şey bilir. Bunun da səbəbi məlumdur. Biz ötən dövrdə tariximizi özümüz istədiyimiz kimi yaza bilməmişik. Tariximizin, o cümlədən ədəbiyyat, mədəniyyət tariximizin həmişə ideologiya təsiri altında qalması, bu barədə bizim sərbəst olmamağımız vaxtı ilə böyük itkilərə gətirib çıxarmışdır (1, 9). "Kitabi-Dədə Qorqud"un izləri digər dastanlarımızda, nağıllarımızda, əfsanə və rəvayətlərimizdə rast gəlinməkdədir. Yazılı ədəbiyyatda Nizami, Nəvai kimi klassiklər "Dastan"dan faydalanmışlar. "Kitabi-Dədə Qorqud" eposu Azərbaycan türklərinin tarixindən bəhs edən əsərlər arasında milli ideologiya, onun sistem və elementlərini bütövlükdə təcəssüm etdirən bütün aydınlığı ilə əks etdirən yeganə əsərdir (3, 212).

"Dədə Qorqud" dastanı, artıq qeyd edildiyi kimi, ilk orta əsrlərin oğuz eposudur – bu isə o deməkdir ki,

birincisi, "Dədə Qorqud" dastanında qədim türk epos təfəkküründün müəyyən əlamətləri mühafizə edilir;

ikincisi, həmin dastanda son orta əsrlər Azərbaycan türk eposunun ideya-estsetik əsasları müəyyənləşir.

Və ona görə də "Dədə Qorqud" dastanında (faktiki olaraq "Kitabi-Dədə Qorqud"da) həm qədim türk eposunun (e.ə. I minilliyin ortalarından b.e. I minilliyin ortalarına qədər), həm də Azərbaycan türk eposunun (XV əsrdən sonra) ünsürlərini, motivlərini, formalarını tapmaq mümkündür. Lakin bütün bunlar həmin dastanın

məhz ilk orta əsrlər oğuz epik təfəkküründün məhsulu, hadisəsi olduğunu inkar etmir (2, 18).

Azərbaycan xalqının, bütün türk dünyasının ululariının yaratdığı bu qədim abidə, onun araşdırılmasına həsr edilmiş dəyərli tədqiqatlar araşdırmaçıları təkrar-təkrar "Dastan"ı incələməyə sövq edir. Dünya qorqudşünaslığının əsasını qoymuş alman alimi Ditsi, rusca tərcümələrilə birlikdə nəşr etmiş akademik Bartoldu, "Dastan"ın tam mətnini Türkiyədə nəşr edən Orxan Şaiq Gökyayı, Məhərrəm Ergini, "Dastan"ın italyan naşiri Rossini hörmətlə anırıq. O cümlədən "Dastan"ın ilk dəfə tam nəşrinə nail olan (1962) akademik Həmid Araslının, M.Təhmasibin, Fərhad Zeynalovun, Samət Əlizadənin, Əzəl Dəmirçizadənin, Tofiq Hacıyevin böyük xidmətləri vardır. Qoqudşünaslığı mühüm elmi qənaətləri ilə zənginləşdirən alimlər sırasında Bəhlul Abdulla, Şamil Cəmşidov, Kamil Vəli Nərimanoğlu, Kamal Abdulla, Əzizxan Tanrıverdi, Asif Hacıyev və digər alimlərin zəhməti böyükdür.

Bu dastan Azərbaycan xalqının dünyagörüşünü, vətənpərvərlik, qəhrəmanlıq, sevgi, sədaqət kimi müsbət xüsusiyyətlərini ifadə edə bilən ensiklopediyadır. Oğuz igidləri dosta, ona pənah gətirənlərə xoşrəftar olmaqla yanaşı, düşmənə, torpağına göz dikənlərə amansızdırlar. Basatın dilindən söylənən bu ifadələrdə bir daha şahid oluruq:

Ağ saqqallı babamı ağlatmışsan,
Qarıcıq ağ birçəkli anamı bozlatmışsan.
Qarındaşım Qıyanı öldürmüşsən.
Ağca yüzlü yengəmi dul eyləmişsən.
Alagözlü bəbəklərin öksüz qoymuşsan.
Qoyurmuyam səni?
Qara polad üz qılıncımı dartmayınca,
Qafalı-börklü başın kəsməyincə, Alca qanın yer üzünə tökməyincə,
Qardaşım Qıyanın qanın almayınca
Qoymazam ! – dedi .

Qəhrəmanlıq oğuz igidlərinə xas keyfiyyətdir. "Dastan"da igidlik adı almayan gənc bəy oğlu olsa da, oğuz elinin güvənəcəyi biri deyildi. Taxt qazanmış, bəylik almış igidlər isə yadelli təkurları atdan salıb yerlə-yeksan etmələri ilə fərqlənirdilər. "Dastan"da qəhrəmanlığın ululardan atalara, atalardan oğullara ötürülməsi aydın şəkildə təsvir edilmişdir. Zərdüştilik dini, Tnrıya inam da bu qəhrəmanların təbiətində aydın müşahidə edilir. Oğuz elinin qəhrəmanlarında əyilməzlik, dönməzlik hissi də çox güclüdür. Oğuz igidləri hər zaman düşünürlər ki, qələbə çalmaq böyük hünər sayəsində əldə edilir. Oğuz igidlərində qohum-əqrəba sevgisi güclüdür. Ailə namusu, qadınlıq şərəfi "Dastan"da ifadə olunmuş ən yüksək məqamdır. Əsir alınmış Burla xatun və qırx bəy qızı Şöklü Məlikin zindanında olarkən Uruzun birmənalı münasibəti diqqəti çəkir:

Qoy bəni, qadın ana, çəngəla ursunlar,
Qoy ətimdən çəksinlər, qara qovırma etsinlər,

Qırx bəy qızının önünə ilətsinlər.
Onlar bir yedigində, sən iki yegil!
Səni kafirlər bilməsinlər, duymasınlar,
Ta kim, sası dinli kafirin döşəginı varmayasan,
Sağrağın sürməyəsən.
Atam Qazan namısını sımayasan. Sakın!

Qarşılıqlı olaraq oğulun ata-ana, qardaş yolunda fədakarlığı, ən ağır cəzaya tab gətirmək gücü zadəgan əxlaqının bütövlüyüdür. Belə məqamlar "Dastan"ı "Ural batır", "Maday Qara", "Manas", "Alpamış" dastanları ilə bağlılığını bildirir. Sevgidə vəfa, etibar "Dədə Qorqud" qəhrəmanlarının əsas məziyyətlərindəndir. Böyük məhəbbət, səmimiyyətin təzahür etdiyi müraciətə diqqət edək:

Bəri gəlgil, başım baxtı, evim taxtı,
Evdən çıxıb yürüyəndə sərvi boylum,
Topuğunda sarmaşanda qara saçlım,
Qurulu yaya bənzər çatma qaşlım,
Qoşa badam sığmayan dar ağızlım,
Güz almasına bənzər al yanaqlım,
Qadınım, dirəyim, döləyim!

Göründüyü kimi, burada təşbehin ən gözəl nümunələri müşahidə edilir.

"Dədə Qorqud"da qadınları döyüş meydanında qılınc oynadan vəziyyətdə görürük. Boyu Uzun Burla xatunun Qazana köməyə gəlib onu ağır vaxtında yetməsi qarşıdakı ağır vuruşmada onun da qılınc çəkəcəyinə şübhə qoymur.

Xan babamın yanına mən varayım,
Ağır ləşkər, bol xəzinə alayım,
Paralanıb Qazlıq atımdan enməyincə,
Yenümlə alca qanım silməyincə,
Qol-pul olub yer üzünə düşməyincə
Yalnız onu xəbərin almayınca,
Kafər yollarından dönməyin.

Bu inam, cəsarət bildirən ifadələr ana xatun igidliyini təsəvvür etmək imkanımızı yaradır.

Qeyd edək ki, "Dastan"da çoxuşaqlılıq gözə dəymir. Ailələrdə, əsasən, bacı-qardaş və ya iki qardaş doğulur. Bəylərin əksəriyyəti nəzir-niyazdan sonra oğul övladına sahib olmuşlar. Oğuz bəyləri və xatunları oğul övladı ilə qürurlanmışlar. Belə bir şöhrətlə yanaşı, onlar övladı ərköyün böyütməmiş, tərbiyəsində ciddi olmuşlar. Həmçinin oğul övladına mal-mülk, qız övladına cehiz verərək dəstək olublar.

Tez-tez yadellilərin hücumları ilə üzləşən oğuz insanı qaraya, göyə bürünməklə, yas saxlamaqla yanaşı, nikbinliyini də saxlayır, toy-düyün, çal-çağır da edir, ruh yüksəkliyini itirməməyə çalışır. "Dastan"da "böyük-kiçik" münasibətləri – özündən böyüyə, ağsaqqala hörmət, kiçiyə qayğı ilə yanaşılmaq diqqəti çəkir. Dədə

Qorqud tayfa ağsaqqallarının başçısıdır. “Dastan”da oğuz insanının müdrik kəlamları oxucuya böyük tövsiyədir:
Ulaşıban sular daşsa, dəniz dolmaz,
Təkəbbürlük eyləyəni Tanrı sevməz.
Qara eşşək başına üyən ursan qatır olmaz.
Qaravaşa don geydirsən qadın olmaz.
Qarı düşmən dost olmaz.
Ər, malına qıymayınca, adı çıxmaz.
Qız, anadan görməyincə öyüd almaz.

Bu kəlamları oxuduqca “Dastan”ın şirin poetik dili olduğunun şahidi oluruq. “Dastan” bu gün də orijinallığı ilə seçilən bədii ifadə vasitələri və bədii təsvir vasitələri ilə zəngindir. Bütün bunlar söyləməyə əsas verir ki, “Dastan”ın yaradıcısının istedadlı şəxs olduğunu deyək.

“Müşahidələr göstərir ki, “Kitab”da Azərbaycan tarixi üçün əhəmiyyətli olan ən azı aşağıdakı hadisələr, ictimai-siyasi, mədəni-mənəvi proseslər əks olunur:

- “gəlmə” oğuzlarla “yerli” qıpçaqların, qeyri-türk mənşəli etnosların, xalqların münasibətləri;
- -“iç” oğuzlarla “dış” oğuzların münasibətləri;
- Azərbaycan xalqının təşəkkülü;
- İslam dininin qəbulu, dini-etnik münaqişələr;
- Azərbaycan cəmiyyətinin etnoqrafik, ictimai-siyasi təşkili;
- Azərbaycanın etnik-mədəni, müəyyən dərəcədə isə siyasi hüdudlarının müəyyənləşməsi;
- Anadoluya türk-oğuz yürüşlərinin güclənməsi;
- Türkiyə türklərinin formalaşmağa başlaması və s. “ (2, 20).

Oğuz türklərinin möhtəşəm abidəsi olan “Kitabi-Dədə Qorqud”un araşdırılması daim aktualdır. Bu böyük əsər istənilən istiqamətdə araşdırıldıqca daim yeniliklər üzə çıxır. Dilimizin, ədəbiyyatımızın, tariximizin, mədəniyyətimizin öyrənilməsinə fayda verir.

Ədəbiyyat

1. “Kitabi-Dədə Qorqud”. Bakı, 1988.
2. “Kitabi-Dədə Qorqud” ensiklopediyası. I cild, Bakı, 2000
3. Cəfərov N.Q. “Kitabi-Dədə Qorqud” və türk epik təfəkkürü: qaynaqlar və köklər. “Kitabi-Dədə Qorqud” (Məqalələr toplusu). Bakı, Elm, 1999, 316 səh., s. 16-21
4. Xəlilli X. Türk mənəviyyatı tarixində “Oğuz xaqan” və “Kitabi-Dədə Qorqud” dastanları. Bakı, “Elm və təhsil”, 2015, 232 s.

Xülasə

Azərbaycan xalqının, bütün türk dünyasının ulularının yaratdığı bu qədim abidə - “Dədə Qorqud” dastanı, onun araşdırılmasına həsr edilmiş tədqiqatlar araşdırmaçıları təkrar-təkrar “Dastan”ı incələməyə sövq edir. Məqalədə dünya qorqudşünaslığının əsasını qoymuş alman alimi Ditsin, rusca tərcümələrilə birlikdə nəşr etmiş akademik Bartoldun, “Dastan”ın tam mətnini Türkiyədə nəşr edən Orxan Şaiq Gökyayın, Məhərrəm Erginin, “Dastan”ın italyan naşiri Rossinin xidmətləri diqqətə çatdırılır. O cümlədən qeyd olunur ki, “Dastan”ın ilk dəfə tam nəşrinə nail olan (1962) akademik Həmid Araslının, M.Təhmasibin, Fərhad Zeynalovun, Samət Əlizadənin, Əzəl Dəmirçizadənin, Tofiq Hacıyevin böyük xidmətləri vardır. Qoqudşünaslığı mühüm elmi qənaətləri ilə zənginləşdirən alimlər sırasında Bəhlul Abdulla, Şamil Cəmşidov, Kamil Vəli Nərimanoğlu, Kamal Abdulla, Əzizxan Tanrıverdi, Asif Hacıyev və digər alimlərin zəhməti böyükdür.

Bu dastan Azərbaycan xalqının dünyagörüşünü, vətənpərvərlik, qəhrəmanlıq, sevgi, sədaqət kimi müsbət xüsusiyyətlərini ifadə edir. Oğuz igidləri dosta, ona pənah gətirənlərə xoşrəftar olmaqla yanaşı, düşmənə, torpağına göz dikənlərə amansızdırlar.

Tez-tez yadellilərin hücumları ilə üzləşən oğuz insanı yas saxlamaqla yanaşı, ruh yüksəkliyini itirməməyə çalışır. “Dastan”da özündən böyüyə, ağsaqqala hörmət, kiçiyə qayğı ilə yanaşılmaq diqqəti çəkir. “Dastan”dakı müdrik kəlamlar oxucuya böyük tövsiyədir. Bütün bunların diqqətə çatdırılmasına, təhlilinə məqalədə yer verilir.

Alizadeh T.

Our ancient monument - "Kitabi-Dada Gorgud"

Summary

This ancient monument created by the great people of Azerbaijan and the Turkic world - the "Dede Gorgud" epic, the research dedicated to its investigation prompts researchers to refine the "Epic" again and again. The article draws attention to the services of the German scientist Diets, who laid the foundation of world horror studies, Academician Barthold, who published the complete text of "Dastan" in Turkey, Muharram Ergin, and Rossi, the Italian publisher of "Dastan". Among other things, it is noted that academician Hamid Arasli, M. Tahmasib, Farhad Zeynalov, Samet Alizade, Azal Demirchizade, Tofig Hajiyev, who achieved the first complete publication of "Dastan" (1962), have great merits. Bahlul Abdulla, Shamil Jamshidov, Kamil Veli Narimanoglu, Kamal Abdulla, Azizkhan Tanrıverdi, Asif Hajiyev and other scientists who enriched Gogud studies with their important scientific conclusions have done great work.

This epic expresses the outlook of the Azerbaijani people, positive features such as patriotism, heroism, love and loyalty. Oguz braves are kind to friends and those who take refuge in them, but they are merciless to the enemy and those who set eyes on their land.

Oghuz people, who are often attacked by foreigners, try not to lose their spirits while mourning. In "Dastan", it is noteworthy that the elders are treated with respect and concern for the younger ones. The wise words in "Dastan" are a great recommendation for the reader. All this is highlighted and analyzed in the article.

Наш древний памятник - "Китаби-Деде Горгуд"
Резюме

Этот древний памятник, созданный великими народами Азербайджана и тюркского мира – эпос «Деде Горгуд», исследования, посвященные его исследованию, побуждают исследователей вновь и вновь уточнять «Эпос». В статье обращается внимание на заслуги немецкого ученого Диетса, положившего начало мировой хоррористике, академика Бартольда, опубликовавшего полный текст «Дастана» в Турции, Мухаррама Эргина и Росси, итальянского издателя «Дастана». . Среди прочего отмечается, что большие заслуги имеют академик Гамид Араслы, М. Тахмасиб, Фархад Зейналов, Самет Ализаде, Азал Демирчизаде, Тофиг Гаджиев, добившиеся первого полного издания «Дастана» (1962). Бахлул Абдулла, Шамиль Джамшидов, Камиль Вели Нариманоглу, Камаль Абдулла, Азизхан Танрыверди, Асиф Гаджиев и другие ученые, обогатившие Гогудоведение своими важными научными выводами, проделали огромную работу.

Этот эпос выражает мировоззрение азербайджанского народа, его положительные черты, такие как патриотизм, героизм, любовь и верность. Огузские храбрецы добры к друзьям и тем, кто укрывается в них, но они беспощадны к врагу и тем, кто взглянет на их землю.

Огузы, на которых часто нападают иностранцы, стараются не падать духом во время траура. В «Дастане» примечательно, что старшие относятся с уважением и заботой к младшим. Мудрые слова в «Дастане» — отличная рекомендация для читателя. Все это освещено и проанализировано в статье.

Redaksiyaya daxil olma tarixi: 03.03.2022
Çapa qəbul olunma tarixi: 28.03.2022
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Məfkurə Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur

R.N.RZAYEVA
AMEA akad.Z.M.Bünyadov adına
Şərqşünaslıq İnstitutunun İran
filologiyası şöbəsinin aparıcı elmi
işçisi, dos.
rzayeva1958@icloud.com

ƏBUBƏKR İBN XOSROV ƏL-USTADIN MUNİSNAMƏ ƏSƏRİNDƏ MƏŞHUR BƏRMƏKİLƏR NƏSLİ HAQQINDA HEKAYƏTLƏR

XÜLASƏ

Bərməkilər nəslinin ən məşhur fərdi Yəhya ibn Xalid olmuşdur. Məhz Yəhya Bərməki böyük nüfuz sahibi olmuş, Abbasilər dövründə atasının yardımçısı, daha sonra isə, 775-ci ildə Azərbaycan valilisi olmuşdur. Xəlifə Mehdi-Billah onu oğlu Harun ər-Rəşidə müəllim və katib təyin etmişdir. Yəhya Bərməki illər uzunu Harun ər-Rəşidin xidmətində olmuş, fərasət və qabiliyyəti ilə seçilmişdir. Uzun illər Harun ər-Rəşidin vəziri olmuş Yəhya ibn Xalid həqiqətən sonsuz səlahiyyətə malik olmuşdur və hətta Harunun hakimiyyət nişanəsi olan üzüyü də onda olmuşdur. Harun ər- Rəşid heç bir yerə onsuz getməz, heç bir qərarı onun iştirakı olmadan qəbul etməzdi. Yəhya Bərməki həm də Harun ər-Rəşidin süd qardaşı olduğu üçün onların arasındakı bağlar da daha möhkəm olmuşdur. Yəhya Bərməki və onun onun oğulları Fəzl və Cəfər sonsuz səlahiyyətə malik idilər. Onların sərvətlərinin hüdudu yox idi, onların hətta Xorasanda beş yüz minlik qoşununun olduğu və qoşundan iyirmi minlik hissəsinin Bağdadda yerləşdirilməsi də məlumdur. Dediyimiz kimi, aşırı nüfuz, var-dövlət sonralar bu nəslin sonuna səbəb olmuşdur.

Açar sözlər: Bərməkilər, Harun ər-Rəşid,Yəhya Bərməki, Fəzl Bərməki, səxavət, nüfuz, səlahiyyət.

Bərməkilər Abbasilər xilafətində vəzifə başında olmuş və vəzirlik vəzifəsini uzun illər icra etmiş sülalədir. Bu nəslin banisi Xalid Bərməki sayılır. Bərməkilərin ulu əcdadları bəzi mənbələrə görə Bəlx şəhərinin yaxınlığındakı «Novbahar» (Nava Vihara) buddist məbədində xidmət edirdilər, başqa mənbələrə görə isə onlar Zərdüşt məbədinin qulluğunda olmuşlar. Eyni zamanda, 629-645-ci illərdə Orta Asiyanı dolaşmış çin səyyahı Xiuan Çanq da Bəlx haqqında qeydlərində Bəlxdə yüzə qədər buddist məbədinin mövcud olduğundan söz açmışdır. O bu məbədlərdən ikisinin şəhərin cənubunda yerləşdiyini söyləmiş və onlardan birinin, böyük ehtimal ki, «Novbahar» məbədi olduğunu bildirmişdi. (3) Daha sonralar isə bütün araşdırmalar nəticəsində Bərməkilərin buddist məbədində xidmətdə olduqları öz təsdiqini tapmışdır. Deyilənlərə görə, onlardan biri Osmanın xilafəti dövründə əsir kimi Mədinəyə gətirilmiş və İslamı qəbul etmişdir. Xalid onun nəvəsi olmuşdur.

Ümumiyyətlə isə Bərməkilər haqqında danışılan, bəhs edilən hekayətlərin əksəriyyətinin həqiqət olmadığı da məlumdur. Belə ki bu tayfa dövründə elə bir gücə-qüdrətə malik idi ki, onun ətrafında həqiqətə uyğun olmayan çox rəvayətlər yaranmışdır.

Bərməkilər ailəsinin ata-babaları haqqında məlumat çox azdır və əksər hallarda İranlı tarixçilərin qeyd etdikləri məlumata bağlıdır və bunların da nə dərəcədə həqiqəti əks etdirdiklərini söyləmək çətindir. İranlı tarixçilərin məlumatına əsaslanaraq Bərməkilərin ata-babalarının Sasani Dövlətinin ilk zamanlarından etibarən vəzirləri olduklarını və bu vəzifənin atalardan oğullara keçərək davamlı şəkildə uzun zaman sürdüyünü söyləmək mümkündür. Qeyd etdiyimiz kimi, daha sonra bu tayfanın bir nümayəndəsi və hətta bəzi qaynaqlarda bu nəfərin Xalid Bərməki olduğu da qeyd edilir, Hz. Osmanın dövründə İslamı qəbul etmiş və qardaşları Həsən və Süleyman tərəfindən təqib edilmişdir.

Bir başqa rəvayətə görə isə Bərməkilər Xəlifə Əbdülməlik ibn Mərvan və Hişam ilə çox isti münasibətdə olmuşlar.

Əminliklə söylənilə bilən fakt isə odur ki, Xalid Bərməki müsəlman idi.(4, 517-519)

Xalid Bərməki əvvəl Əməvilərə xidmət etmiş, daha sonra həm birinci Abbasi xəlifəsi Əbül-Abbas Səffahın, həm də ikinci xəlifə Mənsurun vəziri olmuşdur. Harun ər-Rəşidin zamanında Xalidin oğlu Yəhya və iki nəvəsi Fəzl ilə Cəfər sarayda mühüm mövqe tutmuşdular. Getdikcə Bərməkilərin sərvəti, varı aşırı dərəcədə artmış və onlar xəlifənin rəqibinə çevrilmişlər. Bu səbəbdən Harun ər-Rəşid Bərməkilərin nüfuzundan ehtiyat edərək onların axırına çıxmaq qərarına gəlir. Digər tərəfdən ərəblər Abbasilərin iqtidara gəlməsi ilə dövlət idarəsinə hakim olan qeyri ərəblərə qarşı hərəkətə keçməyə başlamışdır. Bununla da ərəblər və qeyri-ərəblər arasında hakimiyyət mücadiləsi başlamış olmuşdur. Bərməkilərə qarşı düşmən mövqedə duran dəstənin başında Xəlifə Mənsurun dövründən etibarən onlara qarşı cəbhə açmış Fazil ibn Rəbi dururdu. O, atası Rəbi ibn Yunusun etibarı sayəsində Harun ər-Rəşidin etimadını qazanmışdır. Fəzl ibn Rəbi artıq Harun ər-Rəşidə çox yaxın mövqedə dururdu. Bu mövqe xüsusilə onun hacib təyin edildiyindən sonra daha da möhkəmlənmişdir. Nəticə etibarilə, Bərməkilərin bərtərəf edilmələri dövlət və xəlifə üzərində nüfuzlarının getdikcə artması, zənginliklərinin hər kəsi qıcıqlandıracaq bi həddə gəlməsi və ərəb milliyyətçilərinin xəlifə üzərində təsiri olması kimi səbəblərdən irəli gəlirdi. Bu tayfanın məhvi öfkəylə verilmiş bir qərarın nəticəsi deyildir. Xəlifə Harun ər-Rəşid, özünün ifadəsi ilə, «göydə iki günəş» istəmirdi. (4, 517-519) Onun əmri ilə hicri 187-ci ildə Cəfər edam edilir, Yəhya və Fəzl isə həbsxanada ağır işgəncələrə məruz qalaraq ölürlər. Bərməkilər Abbasilər xilafətində 17 ildən artıq vəzirlik etmişlər. (2)

Ümumiyyətlə isə, Bərməkilər nəslinin ən məşhur fərdi Yəhya ibn Xalid olmuşdur. Məhz Yəhya Bərməki böyük nüfuz sahibi olmuş, Abbasilər dövründə atasının yardımçısı, daha sonra isə, 775-ci ildən Azərbaycanın valisi olmuşdur.

Xəlifə Mehdi-Billah onu oğlu Harun ər-Rəşidə müəllim və katib təyin etmişdir. Yəhya Bərməki illər uzunu Harun ər-Rəşidin xidmətində olmuş, fərasət və qabiliyyəti ilə seçilmişdir. Uzun illər Harun ər-Rəşidin vəziri olmuş Yəhya ibn Xalid həqiqətən sonsuz səlahiyyətə malik olmuşdur və hətta Harunun hakimiyyət nişanəsi olan üzüyü də onda olmuşdur. Harun ər- Rəşid heç bir yerə onsuz getməz, heç bir qərarı onun iştirakı olmadan qəbul etməzdi. Yəhya Bərməki həm də Harun ər-Rəşidin süd qardaşı olduğu üçün onların arasındakı bağlar da daha möhkəm olmuşdur. Yəhya Bərməki və onun oğulları Fəzl və Cəfər sonsuz səlahiyyətə malik idilər. Onların sərvətlərinin hüdudu yox idi. Hətta belə bir fakt da məlumdur ki, onların Xorasanda beş yüz minlik qoşunu olmuş və qoşunun iyirmi minlik hissəsi Bağdadda yerləşdirilmişdi.

Dediyimiz kimi, aşırı nüfuz, var-dövlət sonralar bu nəslin sonuna səbəb olmuşdur. (1.s.14)

Bu tayfa, nəsil haqqında çox rəvayətlər, hekayətlər mövcud olmuşdur. Hansının doğru, hansının şişirdilmiş rəvayət olduğunu müəyyənləşdirmək bu gün çox çətindir. Günümüzə gəlib çatmış hekayətlərlə tanış olduqca bu nəslin nümayəndələrinin hansı əxlaqa, xislətə malik olduqlarını açıq görmək olur. Anlamaq olur ki, onlar məhz, mərdlikləri, səxavətləri, müdriklikləri sayəsində uzun illər yüksək mövqedə ola bilmişlər, lakin aşırı nəfs, zənginlik düşgünlüyü onların da səltənətini tar-mar etmişdir.

Bu tayfanın üstün keyfiyyətlərə malik olması, müdriklikləri ilə seçilməsi, insanlar tərəfindən sevilib, qiymətləndirilməsi XII əsr böyük Azərbaycan ədibi Əbubəkr ibn Xosrov əl-Ustadın məşhur «Munisnamə»sində də öz əksini tapmışdır. Əsərin VII fəsli «Səxavət və Bərməkilər nəsli barədə hekayətlər haqqında» adlanır. Bu fəsil öz-özlüyündə altı kiçik hekayətdən ibarıtdir ki, bunların hər birinin öz hikməti, öz dərinliyi vardır.

Prof. R.Əliyev bu fəsli Munisnamənin bədii baxımdan ən dəyərli (V və XVII fəsillərlə birlikdə) hissələrindən biri kimi qiymətləndirərək yazır: Əsərin VII fəsli böyük maraq doğurur. Burada əfsanəvi xəlifə Harun ər-Rəşidin məşhur vəziri Yəhya Bərməkinin nəsli, o cümlədən, onun qüdrətli və səxavətli oğlu Cəfər bərməki haqqında xilafət xalqları arasında dolaşan hekayətlər toplanmışdır. Həmin hekayətlərin əksəriyyəti tarixi baxımdan real səciyyə daşıyır. Onların süjetləri tarixi-ədəbi salnamələrdən əxz olunmuş və
«Munisnamə» müəllifi tərəfindən əsaslı şəkildə yenidən işlənmişdir. (8. стр.8)

Dediyimiz kimi, Bərməkilər Abbasilər xilafətində mühüm dövlət vəzifələrini icra etmiş İran mənşəli bir nəsil olmuşdur. Bu nəslin ilk məşhur nümayəndəsi Xalid Bərməki (vəf.781) xəlifə əl-Mənsurun (754-775) dövründə əvvəlcə Fars, sonra isə Təbəristan hakimi olmuşdur. Onun oğlu Yəhya bir müddət xilafətin bütün Şərq əyalətlərinin hakimi olmuş, Harun ər-Rəşidin (786-809) dövründə isə onun vəziri təyin edilərək, qeyri-adi təsir və nüfuz qazanmış və öz oğlanları Cəfər və Fəzl ilə birlikdə olaraq bütün dövlət işlərini öz əlinə almışdı. 803-cü ildə Harun ər-Rəşid öz

möhtəşəm vəziri və məsləhətçilərindən ehtiyat edərək, gözlənilmədən Cəfər Bərməkini edam etdirmiş, Yəhya və Cəfəri zindana saldırmışdı. Yəhya Bərməki 805-ci, Fəzl isə 808-ci ildə zindanda vəfat etmişdi.(9. s.293)

Hələ sağlıqlarında adları dillərdə əzbər olan Bərməkilər haqqında bu faciəli sonluqdan sonra çoxlu hekayətlər yazılmış və onlar, ilk növbədə, hədsiz dərəcədə səxavətli hakimlər kimi idealllaşdırılaraq, müxtəlif əsərlərin personajlarına çevrilmişdilər. Həmin hekayətlər Əl-Tənuxinin «Maraqlı əhvalatlar»ında, həmçinin «Min bir gecə» nağıllarında geniş yer tutmuşdur.

Əbubəkr ibn Xosrov əl-Ustad səxavət, ləyaqət mövzusundan söz açarkən, şübhəsiz ki, Bərməkiləri xatırlamaya bilməzdi. Bərməkilərin tarix baxımından yaxınlığı, onlar haqqında hekayətlərin bolluğu və seçmək imkanı, ən mühümi isə, həmin hekayətlərin müfəssəl isnadlarlra «sənədləşdirilmiş» olması «Munisnamə» müəllifinin yaradıcılıq məqsədlərinə tam uyğun idi. (6. s.70)

Sonuncu cəhət ona görə əhəmiyyətli idi ki, Bərməkilərlə bağlı hekayətləri həqiqi, olmuş hadisələr, «tarixi» faktlar kimi təqdim etməklə oxucuya, ilk növbədə, səlahiyyət və sərvət sahiblərinə təsir etmək ehtimalı xeyli artırdı. Odur ki, əl-Ustad öz əsərində həmin isnadları saxlamışdır. Məsələn, Yəhya Bərməkinin Harun ər-Rəşidlə ova çıxmasından bəhs edən əhvalat belə başlanır:

«چنین گوید محمد بن یحیی الصوفی از محمد بن زید المبرّد که روزی هرون الرشید بر اسب نشسته بود و به صید میرفت....»

«Məhmməd ibn Zeyd əl-Mübərrədə istinadən Məhəmməd ibn Yəhya əs-Sufi belə deyir ki, bir gün Harun ər-Rəşid atına minib ova gedirdi…»(10.37^{b})

Ümumən müəllif həmin fəslə Bərməkilərlə bağlı yeddi əhvalat daxil etmişdir. Bunlar həcmcə çox kiçik olub Bərməkilərin səxavətini və digər üstün xüsusiyyətlərini nümayiş etdirən konkret faktları yığcam şəkildə işıqlandırır. Yalnız sərraf Əbülqasimin hekayəti bu cəhətdən istisna təşkil edir-burada ünsürlər kifayət qədər güclüdür və elə bu amilin təsiri ilə həmin hekayətin həcmi digərilərin ümumi həcmindən artıqdır.(10.37^{b})

Fəslin əvvəlində Yəhya Bərməkinin dilindən verilmiş bu şeir parçası bütövlükdə onun başlıca ideyasını dolğun şəkildə ifadə edir

چو دولت بیاید توبگشای دست
که هر چند بخشی تو کم نایدت
چو دولت بگردد تو هم بیش بخش
که گر تو مبخشی بپالایدت

Dövlət gələndə sən də əlini aç (əliaçıq ol)
Çünki nə qədər bağışlasan da, azalmayacaq.
Dövlət səndən üz döndərəndə daha çox bağışla,
Çünki sən bağışlamasan da, əlindən çıxacaq.(10.37^{b})

Bu sətirlərlə əl-Ustad sanki Bərməkilərin öz taleyini də qələmə almışdır.

Şübhəsiz, əl-Ustad Bərməkilər haqqında əsərinə daxil etdiyi hekayətləri müxtəlif ərəb mənbələrindən əxz etmişdir. Hekayətlərin əvvəlindəki isnadlar bunu açıq-aşkar göstərir. Belə bir cəhət də diqqəti çəkir ki, həmin hekayətlərdən üçü Yəhya Bərməki, dördü isə onun oğlu Fəzl haqqındadır. Halbuki bir çox digər abidələrdə, o cümlədən, «Min bir gecə»də də daha çox Çəfər Bərməki ilə bağlı əhvalatlara yer verilmişdir.(7. стр. 404-407)

Munisnamədəki Fəzl haqqındakı hekayətlər bunlardır: «Fəzl və onun katibi haqqında» , «İbrahim ibn Cəbrayıl və Fəzl haqqında hekayət» , «Fəzl və Yəhya ibn Məaz haqqında hekayət», «Fəzl və cavan bəy haqqında hekayət».

Digər üç hekayətin birincisi Məhəmməd ibn Yəzid əl-Mübarrədinin sufi Məhəmməd ibn Yəhyaya, ikincisi Əli ibn Əhməd Hişam ibn İshaqın Əli ibn Yəqtinə isnadən söylədiyi və üçüncüsü «Əbülqasim sərrafın hekayəti» olmaqla Yəhya Bərməkinin adıyla bağlı olan parçalardır. (5.s.107-119)

Bu hekayətlərin hər biri özündə bir fikir, bir müdriklik əks etdirir. Hekayətlərdən birincisi Məhəmməd ibn Yəzid əl-Mübarrədinin sufi Məhəmməd ibn Yəhyaya isnadən söylədiyi hadisəni əks etdirir. Bu parçanın əsas məğzi Yəhya Bərməkinin Harun ər-Rəşidə səxavətlilik, əliaçıqlılıq dərsi verməsidir. İkinci hekayət Əli ibn Əhməd Hişam ibn İshaqın Əli ibn Yəqtinə isnadən söylədiyi əhvalatdır ki, burada söhbət sərraf Əbülqasimın Bərməkilər nəslinin adına mütəmadi verdiyi ehsandan, Cəfər Bərməkinin sarayının abadlığından, onun sarayını ziyarət edənlərə göstərilən ehtiramdan söz açılaraq heç bir yaxşılığın, mərhəmətin unudulmadığı öz əksini tapmışdır. Növbəti hekayət Əbülqasimin Bərməkilər nəslinin onun boynunda olan haqqlarından bəhs edilir. Digər dörd hekayət, dediyimiz kimi, Fəzl Bərməkinin adı ilə bağlıdır ki, bunlardan birincisi Fəzl və onun katibi haqqındadır. Burada qoyulmuş əsas məsələ tabeçiliyində olan katibə ehtiramla yanaşmaqdan gedir. Hekayətdə Yəhya Bərməki oğlu Fəzlə deyir: «Oğlum, katiblərlə hörmətlə rəftar etmək lazımdır, çünki hətta padşahlar da işlərini ancaq çox hörmət etdikləri, inandıqları katiblərə tapşırırlar. Əgər sən katibini incidib, qəlbini qırmısansa, onda artıq ona heç bir iş tapşırma».

Növbəti hekayət Əbd əl-Vəhid ibn Məhəmmədə isnadən Fəzl Bərməkinin Xorasan valisi təyin edilməsi ilə əlaqəlidir. Burada söhbət Fəzlin Xorasan valiliyindən kənarlaşdırıldığından sonra onun tərəfindən vəzifə başına keçmiş İbrahim ibn Cəbrayıl ibn Bəxtişunun həmin an Sistanı tərk edib Bağdada getməsindən və Fəzlin qarşısında hər zaman xidmət etməyə hazır olmasından bəhs edilir. Yəni, sədaqət, vəfa nümayiş etdirilir. Bununla da, yenə yaxşılığın yerdə qalmadığı, itmədiyi vurğulanır. Daha sonrakı hekayət yenə də Əvb əl-Vəhidə isnadən söylənilmiş və burada yenə də Fəzlin səxavətindən söz açılmışdır. Burada Fəzlin özünə yaxın bildiyi, müavin təyin etdiyi Yəhya ibn Məazın göstərdiyi mərhəmətdən söhbət gedir. Nəhayət, sonuncu hekayətdə Həsən ibn əl-Hüseynə istinadən Fəzlin

təsadüfən bir toy əhlinə rast gəlməyindən və toy əhlinə göstərdiyi səxavətdən danışılır.(5. s. 107-119)

Bədii-didaktik bir əsər olan «Munisnamə» hikmətlər, nəsihətlər kitabı olaraq böyük maraq doğurur və onun hələ də pyrənilməmiş, tədqiq edilməmiş çox məqamları mövcuddur.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycanın dövlətçilik tarixində vəzirlik. Azadlıq-2013-3
2. Bərməkilər kim olub news.milli.az
3. Bermekiler.islamansiklopedisi.org.tr
4. Bermekiler. İslam Ansiklopedisi. Türkiye Diyanet Vakfı. İstanbul 1992 559səh. S.517-519
5. Əbubəkr ibn Xosrov əl-Ustad. «Munisnamə». Bakı-2021
6. R.Rzayeva Əbubəkr ibn Xosrov əl-Ustadın Munisnamə əsəri Bakı-2016.
7. Герхардт М. И. Искуство повествования. Литературное исследование. 1001 ночи М. «Наука»,1984.
8. «Мунис-наме» Пер. с фарси предис. и комм. Рустама Алиева Баку. Язычы. 1991
9. ат-Танухи. Занимательные истории. Пер. с араб. И. М. Фильщтинского М., «Наука»,1985

10. مونیس نامه نسخه خطی موزهٔ بریتانیا. شمارهٔ ۹۳۱۷

В Мунисname Абубакра ибн Хосрова аль-Устада рассказы об известеном роде Бармакидов

Рзаева Р. Н.

Резюме

Самым известным представителем семьи Бармакидов был Яхья ибн Халид. Именно Яхья Бармакид имел большое влияние. Он был помощником своего отца в аббасидский период, а позже, в 775 году, стал наместником Азербайджана. Халиф Мехди-Биллах назначил его учителем и секретарем своего сына Харуна ар-Рашида. Яхья Бармаки много лет служил Харуну аль-Рашиду. Он был выбран за его мудрость и способности. Яхья ибн Халид, который много лет был визирем Харуна ар-Рашида, обладал поистине неограниченной властью и даже обладал кольцом Харуна, который являлся знаком власти. Без него Харун ар-Рашид никуда не ездил и без его участия он не примал ни одного решения. Поскольку Яхья Бармакид также являлся молочным братом Харуна аль-Рашида, связь между ними была еще сильнее. Яхья Бармаки и его сыновья Фазл и Джафар обладали неограниченной властью. Их богатству не было предела. Также известно, что они даже имели в Хорасане пятисоттысячное войско и разместили двадцать тысяч из них в

Багдаде. Как мы уже говорили, чрезмерное влияние и богатство позже привели к трагичному концу этот род.

Ключевые слова: Бармакиды, Харун ар-Рашид, Яхья Бармаки, Фазл Бармаки, щедрость, репутация, авторитет.

Abubakr ibn Khosrow famous in al-Ustad's Munisnama Stories about the Barmaki generation

Assoc. R. N. Rzayeva.

Summary

The most famous individual of the Barmaki generation was Yahya ibn Khalid. It was Yahya Barmaki who had great influence, first he was his father's assistant, and from 775 he became the governor of Azerbaijan. Caliph Mehdi-Billah appointed him as a teacher and secretary to his son Harun-al Rashid. Yahya Barmaki was in Harun al-Rashid's service for many years and was chosen for his loyalty and wisdom. Yahya ibn Khalid, who was Harun al-Rashid's vizier for many years, had unlimited powers. He even had Harun al-Rashid would not go anywhere without it and would not make any decision without his participation. Since Yahya Barmaki and Harun al-Rashid were foster brothers, the bonds between them were stronger. There was no limit to the wealth of the Barmakis. It is known that they even had five hundred thousand troops in Khorasan and twenty thousand of them were stationed in Baghdad. As we said, the excessive influence, the existing state later led to the end of this generation.

Key words: Barmakis, Harun ar-Rashid, Khalid Barmaki,Yahya Barmaki, Fazl Barmaki, generosity, influence, authority

Rəyçi: «İran filologiyası» şöbəsinin müdiri, fil.ü.f.d.,dos. G.V.Verdiyeva.

İÇİNDƏKİLƏR:

DİLÇİLİK

NATƏVAN HACIYEVA HAVAR QIZI
КОНЦЕПТУАЛЬНЫЕ ОСОБЕННОСТИ АЗЕРБАЙДЖАНСКИХ ИДИОМАТИЧЕСКИХ СЛОЖНЫХ СЛОВ 3

ZEMFİRA MƏMMƏDOVA
О ЯЗЫКОВЫХ ВЗАИМОДЕЙСТВИЯХ В СРАВНИТЕЛЬНО- ИСТОРИЧЕСКОМ И СОПОСТАВИТЕЛЬНОМ АСПЕКТАХ 10

XURAMAN İBNİYƏMİN QIZI
TÜRK XALQLARI EPOSUNUN JANR NÖVLƏRİNİN TİPOLOGİYASI..... 17

FİZULİ NƏCMƏDDİN OĞLU MUSTAFAYEV
KİNO DİLİ VƏ MƏTNİN SİNTAKTİK QURULUŞU 22

MAMMADOVA SVETLANA NASIB
CHARACTERISTIC FEATURES OF ENGLISH PHRASEOLOGICAL UNITS .. 29

GÜNAY HÜMBƏT QIZI BABAYEVA
DİLÇİLİKDƏ KOQNİTİV PARADİQMA VƏ DİSKURS YANAŞMALARI 37

MƏMMƏDOVA ELNARƏ ADIL QIZI
ÜMUMMİLLİ LİDERİN İRSİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR VƏ DİLİMİZ 47

СЕИДОВА НАРГИЗ РАМИЗ ГЫЗЫ
ЗАИМСТВОВАНИЯ ИЗ АРАБСКОГО В СОВРЕМЕННОМ ФРАНЦУЗСКОМ ЯЗЫКЕ, ИХ АНАЛИЗ И ИНТЕГРАЦИЯ..... 53

HUMAY VÜQAR QIZI QASIMZADƏ
MÜASİR İNGİLİS DİLİNDƏ SOMATİK FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN XÜSUSİYYƏTLƏRİ 61

KƏNAN TAHİROV
DİL VAHİDLƏRİNİN KULTUROLOJİ ASPEKTLƏRİ.....67

SOLMAZ İSMAYILOVA
XVII-XVIII ƏSRLƏRİN İNGİLİS FƏLSƏFƏSİNİN NÜMAYƏNDƏLƏRİNİN ƏSAS BAXIŞLARI HAQQINDA 77

GARIBA MAMMAD MAMMADOVA,
MODERN WAYS AND METHODS OF TEACHING FOREIGN LANGUAGES 86

HACIYEVA YAQUT MÜBARIZ QIZI
BALAŞ AZƏROĞLU POEZIYASINDA ANTONIMLƏRIN ÜSLUBI FORMALARINA DAIR NÜMUNƏLƏR 93

GÜLNARA NƏSIBOVA
AZƏRBAYCAN DİLİNDƏ OMONİM VARIANTLAR 100

SHABNAM AGASI AHMADOVA
"ENGLISH AS A FOREIGN LANGUAGE: THE ROLE OF MOTIVATION IN EDUCATION" 107

MAHMUDAĞA OĞLU QASIMOV
CƏLİLABAD RAYON ŞİVƏLƏRİNDƏ BƏZİ SÖZLƏRDƏ SAMİTLƏRİN ARTIMI VƏ DÜŞÜMÜ 113

SÜLEYMANOVA GÖYÇƏK EYNUR QIZ
FEİLİ BAĞLAMANIN MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ 120

İBRAHİMOVA NİGAR FƏRMAN QIZI
SPRACHTHEORIE UND GRAMMATIK BEI DEN STOIKERN 125

AYŞƏN FAZIL QIZI QASIMOVA – MUSTAFAYEVA
POETİZMDƏ UNİVERSALLIQ MƏSƏLƏLƏRİ 131

RAHIMA MAMMADOVA
DADASHOVA AYBENİZ
METHODS OF TEACHING VOCABULARY 142

XURAMAN RƏFIYEVA
TÜRK DÜNYASININ MƏŞHUR DİLÇİ ALİMİ 150

УСНИЯ НОВРУЗ гызы АЛИЕВА
ИЗУЧЕНИЕ БЕЗЛИЧНЫХ ПРЕДЛОЖЕНИЙ НА ЗАНЯТИЯХ ПО РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ 157

СЕВДА АЛИЕВА ДЖАЛАЛ КЫЗЫ
РОЛЬ РОДНОГО ЯЗЫКА В ИЗУЧЕНИИ РУССКОГО КАК ИНОСТРАННОГО 165

HƏSƏNOVA KÖNÜL İSRAFIL
FRAZEOLOGİZMLƏRİN ANTONİM TƏRKİB KOMPONENTLƏRİNƏ GÖRƏ TƏHLİLİ 172

GÜLNAR ƏLİ qızı ALLAHVERDİYEVA
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ DİSKURSİV MARKERLƏRİN PRAQMATİK FUNKSİYASI 178

ABIYEVA VALIDƏ
SƏFİXANOVA AFƏT
SİFƏT DÜZƏLDƏN ŞƏKİLÇİLƏRİN İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İŞLƏNMƏ YENİ 187

TƏHMƏZOVA GÜNAY YAQUB QIZI
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ KOLLOKASİYA SƏRİŞTƏSİNİN İNKİŞAF ETDİRİLMƏSİ 194

LEYLA VƏLI qızı QOCAYEVA
DÜRDANƏ ƏSƏD qızı NAĞIYEVA
RUS BÖLMƏLƏRİNDƏ AZƏRBAYCAN DİLİ: PROBLEMLƏR, VƏZİFƏLƏR 203

СЕВИНДЖ АББАСОВА ЗАХИД ГЫЗЫ
ВЗАИМОСВЯЗАННОЕ ИЗУЧЕНИЕ МОРФОЛОГИИ И СИНТАКСИСА – КАК ОСНОВА ФОРМИРОВАНИЯ РУССКОЙ РЕЧИ УЧАЩИХСЯ-АЗЕРБАЙДЖАНЦЕВ 209

PÜSTƏXANIM TAHİR QIZI YUSIFOVA
MÜASİR İNGİLİS DİLİNDƏ IF-BAĞLAYICILI KLOZLARIN \STRUKTUR-SEMANTİK VARİATİVLİYİ 219

NİGAR MƏHƏRRƏMOVA
İNGİLİS DİLİNİN FORMALAŞMASINDA SKANDINAV MƏDƏNİYYƏTİNİN ROLU 226

AFAQ CUMA QIZI HACIYEVA
REKLAM MƏTNLƏRİNİN FORMALAŞMASI ÜZRƏ BEYNƏLXALQ TƏCRÜBƏNİN AZƏRBAYCANA TƏTBİQİ İMKANLARI 233

HƏSƏNOVA KÖNÜL İSRAFIL
FRAZEOLOGİZMLƏRİN ANTONİM TƏRKİB KOMPONENTLƏRİNƏ GÖRƏ TƏHLİLİ 242

NƏZRİN MƏHƏMMƏD QIZI YUSİFOVA
XARİCİ DİLİN TƏDRİSİNDƏ İNTERAKTİV METODLARIN ƏHƏMİYYƏTİ 250

AĞAYEVA NƏRGİZ
MÜRƏKKƏB SÖZLƏRİN YARANMA YOLLARININ MÜXTƏLİFLİYİ 256

SADIQOVA AKİFƏ
ALMAN DİLİNDƏ OMONİMLİK, MÜRƏKKƏB SÖZLƏR VƏ TƏTBİQİ 267

ŞÖVKƏT ŞAHIN QIZI TƏHMƏZOVA
XARİCİ DİL TƏDRİSİNDƏ DANIŞIQ BACARIQLARININ İNKİŞAFI ÜÇÜN İSTİFADƏ OLUNAN FƏALİYYƏTLƏR 274

САБИНА РАГИМОВА
РОЛЬ КОМПЬЮТЕРНЫХ ТЕХНОЛОГИЙ ПРИ ОБУЧЕНИИ РУССКОМУ ЯЗЫКУ В АЗЕРБАЙДЖАНСКИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ 281

ABIYEVA VALİDƏ
SƏFİXANOVA AFƏT
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ MÜASİR METODLARDAN İSTİFADƏ EDİLMƏSİ 289

GÜNEL YUSİFLİ-MƏMMƏDBƏYLİ
XARİCİ DİL TƏDRİSİNİN AKTUAL PROBLEMLƏRI 295

ƏDƏBİYYATŞÜNASLIQ

BİLAL HÜSEYNAĞA oğlu HÜSEYNOV,
BORÇALI FOLKLORUNUN JANR ÖZƏLLİKLƏRİ 302

ŞAKİR CƏFƏROV,
MİR CƏLAL VƏ DÖVRÜ MƏTBUAT 316

ŞƏFAHƏT MÜZƏFFƏR OĞLU ƏLİYEV
QƏRBİ AZƏRBAYCAN: FOLKLOR MÜHİTİ, REGİONUN ŞİFAHİ ƏDƏBİYYAT ÖRNƏKLƏRİ, TÜRKÜN QƏDİM MƏDƏNİYYƏT BEŞİYİ TİMSALINDA 323

ARZU TALIB QIZI HÜSEYNOVA
HEYDƏR ƏLİYEV MİLLİ MƏDƏNİYYƏT ABİDƏLƏRİMİZİN QAYĞIKEŞİDİR 332

XƏLİLOVA QƏRİBƏ YAHYA QIZI
RƏSUL RZANIN ŞEİRLƏRİNDƏKİ AHƏNGDARLIQ 341

VERDİYEVA ZÜLFIYYƏ VAHID QIZI
XI SİNİFDƏ ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ CƏLİL MƏMMƏDQULUZADƏNİN YARADICILIĞININ ÖYRƏDİLMƏSİ YOLLARI 348

AYBƏNIZ İSLAM QIZI RÜSTƏMOVA
"BARİQƏYİ-ZƏFƏR PARLAYIR, İSTİQBAL BİZİMDİR" POEMASI MƏŞRUTƏ İNQİLABINA HƏSR OLUNMUŞ ƏSƏR KİMİ 355

ƏHMƏDOVA QƏNIRƏ NAMAZALI QIZI
ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ POEMA JANRINDA ƏSƏRLƏRİN TƏDRİSİ METODİKASI 364

QÜDRƏT VİDADİ OĞLU MƏNSİMOV
AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDA TƏBİƏT MÖVZUSUNUN TƏDRİSİNƏ DAİR 371

MƏHƏRRƏMOVA AYSEL HABIL QIZI
KURIKULUMUN TƏHSIL SISTEMINDƏ MÖVCUDLUĞU
VƏ ONU VACIB EDƏN ŞƏRTLƏR 377

İMANOVA KƏMALƏ XALİD QIZI
HIPPOCRATES CONTRIBUTION TO MEDICINE 385

GÜNEL ƏSKƏROVA
ƏLABBASIN "QİYAMÇI" ROMANINDA
SOSİAL-PSİXOLOJİ KONFLİKT 394

XANIM SƏRDAR QIZI MƏMMƏDZADƏ
NƏSR ƏSƏRLƏRİNİN ÖYRƏDİLMƏSİNDƏ MÜXTƏLİF İŞ
FORMALARINDAN İSTİFADƏ 405

TAMARA ŞƏRBƏT QIZI ƏLİZADƏ
QƏDİM ABİDƏMİZ – "KİTABİ-DƏDƏ QORQUD" 412

R.N.RZAYEVA
ƏBUBƏKR İBN XOSROV ƏL-USTADIN MUNİSNAMƏ ƏSƏRİNDƏ
MƏŞHUR BƏRMƏKİLƏR NƏSLİ HAQQINDA HEKAYƏTLƏR..... 418

"Elm və təhsil" nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Dizayner: Kamran İbrahimov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 06.03.2023
Şərti çap vərəqi 27. Sifariş № 87
Kağız formatı 60x84 1/8. Tiraj 500

Jurnal "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4